REGİONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ

Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın 100 illiyinə həsr olunur



# MIR JALAL

AN ANTOLOGY




ÜÇÜNCÜ KİTAB

BAKI 2008

The novel by outstanding Azerbaijani writer Mir Jalal, Where Are We Going?, published in 1958, and several of his short stories are included in this book. The novel was dedicated to Azerbaijan's great satirical poet, M.A. Sabir. The work illuminates the poet's amazingly eventful life and rich body of work. The book encompasses the events of 1908-11. This was such a successful period in the great Sabir's life that the poet was known not only in Azerbaijan but in all the countries where Molla Nasraddin magazine was read. The poet had many fans in Turkey, Iran, Tatarstan and Central Asia. The novel brings to life the magnificence and invincibility of Sabir, who 'like a venerable mountain' bore all the trials of the complex and difficult life of Azerbaijani society in the first quarter of the 20th century.

The stories in this book cover very rich and colourful subjects. The Apricot Tree, The Girl Who Looks After Flowers, Love Over the Stamp, Who's Guilty?, About Joy and other stories have convincing narrative, pithy humour and accurate psychological analysis.

Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın bu kitabına yazıçının 1958-ci ildə çap etdirdiyi "Yolumuz hayanadır" romanı və bir neçə hekayəsi daxil edilmişdir. Roman Azərbaycanın böyük satirik şairi M.Ə.Sabirə həsr olunmuşdur. Əsərdə şairin son dərəcə keşməkeşli həyatı və zəngin yaradıcılığı işıqlandırılmışdır. Əsərdəki hadisələr 1908-1911-ci illəri əhatə edir. Bu böyük Sabirin həyatında elə bir dövrdür ki, artıq şair təkcə Azərbaycanda deyil, "Molla Nəsrəddin" jurnalının oxunduğu bütün məmləkətlərdə tanınırdı. Şairin Türkiyədə, İranda, Tatarıstanda, Orta Asiyada çoxlu pərəstişkarları vardı. XX əsrin birinci rübündə Azərbaycanın ictimai həyatının mürəkkəb və çətin dövründə bütün təqiblərə "qocaman dağ kimi" tab gətirən Sabir əzəməti, yenilməzliyi romanda canlandırılmışdır. Kitabdakı hekayələr mövzu etibarilə çox zəngin və rəngarəngdir. "Ərik ağacı", "Gülbəsləyən qız", "Möhür və məhəbbət", "Günah kimdədir", "Sevinc haqqında" və s. hekayələrdə səmimi təhkiyə, mənalı yumor, dəqiq psixoloyi təhlil öz ifadəsini tapmışdır.

## İç səhifədəkilər

**roman**

Yolumuz hayanadır
15-366

**hekayələr**

Ərik ağacı
369-379
Gülbəsləyən qız
380-383
Ehtiram
384-391
Günah kimdədir
392-409
Sevinc haqqında
410-412
Düzəlmədi
413-419
Möhür
420-422
Kənd "uşaqları"
423-425
Şaftalı söhbəti
426-430
Məsul işçinin dəftərindən
431-436

Atan gəlsin
437-440
Dərsimi yaz
441-443
Möhür və məhəbbət
444-450



# YOLUMUZ HAYANADIR

ROMAN

# PROLOQ

Qarışıq zamanda, hər gedənin bir sifariş apardığı, hər gələnin bir xəbər gətirdiyi ağır illərdə hamının gözü yolda idi. Qadının da, kişinin də, avamın da, oxumuşun da, varlının da, yoxsulun da.

Hamı gözləyirdi. Böyük şəhərlərdə adamı olanın da, olmayanın da gözü yolda idi. Adamlar elə bir iştaha və intizar ilə gözləyirdilər ki, deyərsən, bütün ömür və talelərindən söhbət gedəcək.

Hamı xəbər gözləyirdi.

Gün olmazdı ki, Bakıdan təzə xəbər gəlməsin. Nə ticarət, nə ziyarət, nə ibadət xəbəri. İndi tamam ayrı xəbərlər gəlir. Ölkədə elə bir çaxnaşma və həyəcan var ki, heç kəs sabah nə olacağını bilmir, təsəvvür etmir.

Sanki dünya bir-birinə dəyib. Sanki hər şey bir neçə gündə dəyişib başqa bir aləm olacaq. Atan kim, vuran kim, ölən kim, öldürən kim! Uca yerlərdə dayanıb bərkdən danışan, hay-haray salan, yazan, pozan, çağıran kim. Uzaq və geniş küçələrdə bayraqları dalğalandıraraq nizamlı-nizamsız addımlayan, qorxunc qanunları papiros kötüyü, kağız parçası kimi ayaqlayıb ötən, silahlı, poqonlu məmurları təpikləyib kənara atan, polis gülləsinə sinə qabardan, yaylım atəşlərinə «Azadlıq!» şüarları ilə cavab verən kim...

Belə bir zamanda hamının gözü yolda, qulağı səsdə, ürəyi döyüntüdə, çoxlarının da əli silahdadır. Səhər-axşam yol ağzında, tin başında, yamaclarda dayanan, gəlib-gedənlərdən hal-əhval soruşanları çox görmək olardı...

Bir zaman bu yollardan çavuşlar, zəvvarlar, zınqırovlu faytonlar, qotazlı kəhər atlar, ağır dəvə karvanları, kömür yüklü qatırlar, çatmalı furqonlar gəlib-gedərdi. O yan-bu yana mazut, taxıl, parça, xalça, xuşkəbər daşınardı. Kimsə tamaşaya durmazdı. Amma indi yolda görünən hər qaraltı bir ümid kimi nəzərləri cəlb edir. Şəhərdən bir atlı, ya piyada gəldimi, sual-cavaba tutulur:

- Təzə nə var?
- Nə xəbər var?
- Sağlıq-səlamətlik!
- Genə, az-çox?
- Mətləb uzundur, nəyini danışım!
- Necə bəyəm?
- Eşidərsiz, Allah qoysa özünüz eşidərsiz.
- Bir balaca ucundan-qulağından...
- Qəzetdən səhih xəbər bilərsiniz: "Kaspi"...

Yolçu sağına-soluna baxınıb ötər, xahişləri eşitmək istəməzdi.

Ortaboylu, qara məxmər arxalıqlı, qaytan düyməli, buxara papaqlı, xoşsifət, nurani bir kişinin axşamüstü, şəhərin lap



girəcəyində, çaykənarı bir daş üstündə oturduğunu, ya bir neçə müsahiblə gəzinərək söhbətə məşğul olduğunu, bəzən də heykəl kimi dayanıb üfüqlərə baxdığını görmək olardı.

«Şairdir, təbiəti seyr edir, sular, quşlar, buludlar ilə danışır».

Nurani kişini bu yerdə görənlər belə düşünər, salam verib ötərdilər.

Nurani kişi isə yol üstünə təbiət üçün, quşlar, buludlar üçün çıxmırdı. Onu göylər məşğul etmirdi. O, torpağın səsini eşitmək, dərdini dinləmək üçün yollara çıxırdı. Vətəndə gördüyü, ürəyində duyduğu həyəcan və təlatümlər onu rahat buraxmırdı. Nurani kişi sol əlini ürəyinə, sağ əlini alnına qoyaraq Şərqə, günəş şüalarının çiçək kimi açıldığı Bakı üfüqlərinə həsrət və intizarla baxırdı. Bu payız günlərində onu hər şeydən artıq məşğul edən Bakıdan gələn xəbərlər, orada alovlanan mübarizələr idi.

Dəniz kənarında dəniz kimi təlatümlənən bu mazutlu, odlu şəhərdən indi yeni bir nəsim, yeni bir sabah nəsimi aləmə yayılırdı. İnqilab şüarlı Peterburq, Moskva fəhləsinin döyüş çağırışları ilk dəfə bu şəhərdə əks-səda tapırdı.

Nurani kişinin həyəcanına səbəb qaynar bir filiz kimi hər yerə döyüş hərarəti yayan izdihamlı, sürətli hərəkat idi. Mədənləri, zavodları, meydanları, küçələri ağzına almış, hüdudbilməz həyəcan və hərəkat idi.

Zəhmət adamları azadlıq döyüşlərinin baş məşqini keçirirdilər:

- Ayılıb yatan camaat, göz açıb qapalı fəhlə!

Nurani kişiyə yaxşı məlum idi ki, bu tarixi hərəkat yolunda can nisar edən minlər, milyonlar var. Şimşək çaxmasa, göylər gurlamaz. Hər kəs, gələcəyin carçısı olan hər kəs özünü bu hürriyyət mücahidləri sırasında, qurtuluş bayrağının altında görmək istərdi. Nurani kişi gah sevinc xəbəri gətirən bir qasid, bir müjdəçi kimi adamları dayandırıb demək istəyir, gah bir əsgər, bir fədai kimi

silahlanıb küçə vuruşmalarına, səngərlərə girmək, gah da işıqlı mətbuat səhifələrini ucadan oxumaq istəyirdi.

Göylərdə qürurla cövlan edən Şahbaz şahinləri gördükcə, tamaşasından doymurdu:

Ruhum, ey şahbazi hürriyyət.
Uç, uç, evci-fəzada pərvaz et!

- Nə olaydı, nə olaydı, mənim də uçmağa qanadlarım olaydı! Vətən mülkünü el-el, oba-oba, kənd-kənd, ev-ev gəzər, böyük sabahın açıldığını xəbər verər, hamını qəflət yuxusundan oyadardım.

Xalq, əsrlərcə zülm görmüş, iztirab çəkmiş zəhmət aləmi məğrur dağlar kimi baş qaldırar, zülmət dünyasını bünövrəsindən sökərdi:

Şah və soltan! Bura say döydürüb aldıqlarını,
Söyüb aldıqlarını, söydürüb aldıqlarını!
Birbəbir yadına sal cümlə unutduqlarını,
Millətin qanın alıb şişəyə tutduqlarını,
Gözlərin kəllənə də çıxsa, qus udduqlarını!
Boş danışma, bura say öldürüb aldıqlarını,
Yolub aldıqlarını, yoldurub aldıqlarını!

Şair qanadlanmaq, torpaqdan qüvvət, günəşdən qüdrət, çöllərdən vüsət alaraq qəhqəhəli çağırışlarını iti qələmi ilə vətən göylərinə yazmaq, vətəndaşlarına oxutmaq istəyirdi!



## Birinci fəsil

## MÜƏLLİM OLACAĞAM!

Братья писатели! В нашей судьбе что-то лежит роковое...
Н.НЕКРАСОВ.

Soyuq payız səhərinin gözü təzəcə açılanda, daş döşəməli, dar küçələrdə get-gəl başlananda Hacı Axund ibadətdən evinə qayıdırdı. Başında iri, tirmə əmmamə, belində qalın şal qurşaq, bir əlində naxışlı ağır əsa, bir əlində qara yüsür təsbeh, əynində sarı qollu Xorasan kürkü olan Axund, poçtdan indicə qol çəkib götürdüyü «Molla Nəsrəddin» məcmuəsini varaqlaya-varaqlaya gələn Tahirzadə ilə qabaqlaşdı. Heç gözləməzdin:

Baş axundun - baş şairin!

Tahirzadə jurnalda nəşr olunan yeni şeirinin sözünə, hərfinə qədər diqqət edərək yavaş-yavaş yeriyirdi. Küçənin kənarı, divar dibilə yeriyirdi. Baxdığı sətirlərdə dostunun, Mirzə Cəlilin əlini, barmaqlarını, qələmini, ən xırda təsbehini görürdü.

Hacı Axund şairi görən kimi qaşqabağını tökdü. Onun əlindəki «şəkilli qəzeti», iri yazılmış «Molla Nəsrəddin» sözünün lap ilk hərflərini görəndə, əmmaməli, eybəcər şəkildə sanki öz əksinin çəkildiyini düşünəndə özünü saxlaya bilmədi.

Tahirzadəyə və onun «laməzhəb» qəzetinə olan nifrəti, bu günə uğursuzluq gətirən təsadüfə görə birqat daha artdı. Axund nagəhani bir zərbə yemiş, bir an içində özünü itirmiş kimi dala-qabağa çevrilib baxındı, daş axtarırmış kimi belini əyərək ürəkdən dedi:

- Tfu, lənətullah!

Hacı Axundun nəfəsini yaxından hiss edən, onun sözlərindən diksinən şair başını qaldırdı. Düşməninin uzun, zəhmli və tüklü

sifətinə nəzər salanda həmin sözü bir də eşitdi: «tfu, lənətullah!»
Tahirzadə vəziyyətini dəyişmədən, mülayim səslə cavab verdi:
- Tüpürmə, dadı qaçar!
Axundun yeyinlədiyini görüb sağ əlini qaldıraraq kimlərə isə xitab edirmiş kimi, şeirlə, bir az da ucadan dedi:

Zahid bizi görcək tüpürür, ar etməz!
Bilməz ki, daş atmaq polada kar etməz!
Ümman dənizik aləmi-mənada bu gün,
Bir zərrə tüpürcək bizi murdar etməz!

Hacı Axund bu rübaini eşitməzliyə vurur, «Babi» ilə üzləşməmək üçün dala baxmadan yeyin gedirdi.
Hacı Axund bütün kin və intiqamını axşama, dindən yazıb «Allahın qəzəbinə giriftar olanlar» haqqındakı moizəsinə saxlamışdı. Həmişə olduğu kimi, minbərdə ona «qeybdən» ayrı bir cürət gəlirdi, səsi azan kimi ucadan, sözü ayə kimi fasiləsiz, uzun olurdu:
- Haraaamdıır! Cəmaəət! Eşidin, agah oluuun! İt qanından haramdır o mənfəət ki, Hacı Tahir nəvəsi kimi xalis babilərin alış-verişindən gəlir! Onlar ilə haqq-səlam eləyənin müsəlmanlıqda zərrəcə haqqı yoxdur!
- Allah babilərə lənət eləsin!
- «Molla Nəsrəddin»i əlinə alan, nəuzən-billah, Quranı ayaq altına salır! Onun sözlərinə qulaq asan fisqi-ficur əhlidir!
- O cür azğınları müsəlmanlar gərək çoxdan baykot eləyə idilər!
- Babi, bilin, mürtəd, laməzhəb! Bu qəzet yazanlara nə desən yaraşar! Lənətullah!?
- Lənət!
- Min lənət!..
- Bir səlavat çevirin görüm!



Bu gün Hacı Axundun moizəsi lap möhkəm tutmuşdu. «Babilərdən» gözə dəymirdi, sakitlik idi. Axundun sözü isə qılıncdan bərk kəsirdi. Camaat ona «amin» deyə-deyə, «babilərə», xüsusən də ki, şamaxılıları «rüsvayi-cahan» eləyən Hacı Tahir nəvəsinə - Məşədi Ələkbərə lənət oxuya-oxuya dağıldı.
Bu, ancaq zahirdə belə idi. Adamlar məscid qapısından çıxanacan bu sayaq, quzu kimi üzüyola görünürdülər. Elə ki, camaat dağılıb şəhərin eniş-yoxuş, qaranlıq, dar küçələrində uçuq-sökük divarlı həyətlər arasında ikibir, üçbir qaldılar, elə ki, hər kəs ən yaxın adamı ilə qaldı, söz deməyə cürət gəldi, qorxu-ürkü yox oldu.
İndi daha ayrı cür sözlər eşidilirdi. Bəzi qapılardan elə qaqqıltı gəlirdi ki, deyərdin, yarım saat əvvəl minbər ayağında "ağam vay" deyib qırxıq başına şapalaq deyən bunlar deyilmiş. Elə bil, bunlar təziyədən yox, teatrdan, ya toydan dağılırdılar. Bəziləri gülüb şadlıq eləyirdi, bəziləri "Molla Nəsrəddin"in nömrələrini axtarır, üləmayə "böhtan" olan sözləri həvəslə oxumaq istəyirdi. Bəziləri də moizədən narazılıq eləyirdi.
Lap dul Məsmənin özünü götürün. Nə qəzetdən, nə hadisədən başı çıxmasa da, üzünü qonşu qadınlara tutub soruşurdu:
- Bacılar, dilim-ağzım qurusun, ayrı yerə də yozmayın ha, amma mən Hacı Axundun moizəsində, çox sözü qana bilmədim! 0 ki, ayağa durub hirs ilə deyirdi ha, əl-qolunu ölçürdü ha, nə deyirdi elə? Bəlkə mən keyəm, qanmıram!..
- Qanmalı nə var, lənət deyirdi də! Molla Nəsrəddinə nə qədər ağzın tutur, dilin gəlir lənət oxu! Allaha xoş gedər. Savabdı!
- Burada qaranlıq nə var ki, qanmayasan. Əli şiəsinin borcudur. Axund əmr bə-məruf eləyir də! Onun borcudu. Axirətdə hesab istəyəcəklər! Pisini də, yaxşısını da gərək desin!
Başqa bir qadın da Məsmənin şübhəsinə şərik idi!
- Yox ey, Məsmə demək istəyir ki, yani Molla Nəsrəddin də axı

necə olsa gülməli söz danışır da! Hamı danışır, o da bir az zarafata salır, danışır da! Pis danışsa, bu qədər camaat dəlidir, ona pul verib alır? Tiflisdən, Gəncədən, Bakıdan belə? Gülməli sözlərdi yazır! Məsmə onu deyir, yoxsa...

- Gülməli, nə gülməli, peyğəmbərin şəriətini, əstəğfurullah, məsxərəyə qoymağa gülməli deyərlər?

- Şəriət deyəndə, ay rəhmətliyin qızı, Molla Babanın işləkləri də şəriətdir? Adın rozəxan ola-ola, qapını cəftələyib xəlvəti çaxır içmək, yetim malını qamarlayıb yemək də şəriətdədir? Niyə elə danışırsan, ay rəhmətliyin qızı. Molla Nəsrəddin də bunu deyir də. Nə deyir ki!

- Yox, o, hamısını qatır, bir çuvala tökür, hamısına, nəuzən-billah tüpürmək istəyir. Eşitmədin, molla Baba qəzetdən necə oxudu? Deyir müsəlmanı, tök çuvala, dilim qurusun, dön lənət elə!

- Elə şey olmaz! Hamısına eləməz!

- Hacı Rəsul danışırmış ki, çox adam oxuyur! Gördün, kişilər nə cinlənmişdi. Tiflisə, Şeyxülislama tel vurmaq istəyirlər. Sabunçu Məşədi Ələkbərin dalınca nə söylənirdilər, nə alıb-verirdilər, eşitmədin, özün görmədin?

- Görməyinə gördüm, amma mən deyirəm işi yumşaqlıqla aparsınlar. Qanı qan ilə yumazlar. Qızışmaq yaxşı deyil! Acıqlı başda ağıl olmaz! Atalar deyib!

Məsmə onun səsinə səs verənlər olduğunu görüb cürətləndi, sözünü bir az da açıq dedi:

- O ki Axund ağa lənət oxuyurdu ha! Əlbət ki, Allah şeytana da, babiyə də min lənət eləsin. Buna kimin nə sözü, cəhənnəm elə onlar üçün yaranıb. Amma ki, Hacı Tahirin nəvəsini, o kişini də qatmağı, doğrusu, sizi bilmirəm, mənə lap birtəhər gəlir! Məşədi Ələkbəri deyirəm ey! Ona ad qoymaq lap nabikə işdi.

- Axund deyir, onunla alış-veriş haramdır!



- Axı, ay rəhmətliyin qızı, kişilər səhərdən axşamacan erməni, urus ilə alver eləyir, yəni Hacı Tahir nəvəsi, yəni Məşədi Ələkbər xaçpərəstcən də olmadı!

- Axund haram buyurur!

- Axundun elə buyurmağı adama zad gəlir də! Yoxsa ayrı adam o sözü desə, nə var, baş qoşmazsan. Axund deyəndə, camaat da əməl eləyəcək, iş böyüyəcək. Sabah Məşədi Ələkbəri bayquş eləyəcəklər. Axı yazıqdı, necə olsa, şəhərlimizdi, öz adamımızdı, necə olsa, müsürmandı, oxumuşdu.

- Necə yəni bayquş?

- Şəhər bayquşu, yəni nə dindir, nə eşit!

- Nə salam, nə kəlam!

- Nə hə, nə yox!

- Nə al, nə ver!

- Nə get, nə gəl!

- Nə dur, nə otur!

- Elədə birdəfəlik deynən adam hesab eləmə də!

- Bəs bayquş nədi. Bayquş olanı daha kim dindirər.

- Bayquşu daşlayarlar xarabalara sarı!

- Bayquşu gün-dirlikdə qoyan kimdi!

- Amma mən eşitmişəm, bayquşa daş atmaq günahdı.

- Deyir, düşər-düşməzi olar!

Məsmə səsinə həzinlik verib dedi:

- Yazıqdır, qeyrəti bizə düşər. Öz müsürmanımızdır, nə bilim, vallah, zəmanə elə dönüb ki, heç adamlarda insaf-mürvət qalmayıb!

- Canı çıxsın, dinc otursun?

- Dinc oturmayıb, ay arvad, nə bir iş görüb? Yol kəsib, adam öldürüb, qaçaqlara qoşulub? Kimin toyuğuna daş atıb? Öz kasıb-karlığına gedən adamdı da! Öz tükünün üstündə!

- Dili dinc durmur!

- Dinc durmur, yanı nə deyir? Bəyin-xanın sözünü deyir, sonra da olur pis!

Qəzet yazmağı az işdi?

Məsmənin lap acığı tutdu:

- Sən də söz tapdın ha! Qəzeti bəyəm Məşədi Ələkbər yazır? Dünənəcən oturmuşdu dükanında. Axşamacan gözü ilə od üfürür, soda bişirir, piy qaynadır, tiyan dalında əlləşir, sabununu satırdı. Beş şahı çörəkpulu qazanırdı uşaqlarına, indi, budu, üstünə ad qoyanda çörəkdən salacaqlar. Poçt qəzeti, kitabı Tiflisdən, Bakıdan yeşik-yeşik gətirir, bu yazığın nə xəbəri var. Qəzet yazan olsa, külfəti elə korluq çəkər?

- Bəs axundlara şunquluqlu qoşan hop-hop, Məşədi Ələkbər deyil, kimdi?

- Yoxsa bilmirsən, ay Tüləngi!

- Bəs müsəlman padşahını, qibleyi-aləmi başında tabaq şabalıdsatan eləyən o deyil? Şəklini də ki, vurdurub! Kəblə Heydərin nəvəsi gətirib aləmə görsədirmiş ki! Şəriətə vedrə bağlayan o mürtəd deyil, bəs kimdi?..

Məsmə daha yaşlı, təcrübəli bir nəsihətçi ədası alıb qadınları, guya başa salırdı:

- Bunlar sözdür, vallah, kişinin düşməni var. Necə deyərlər, çox yeyənin olsun, çox deyənin olmasın. Məşədi Ələkbər yazığın həm çox yeyəni var, həm də çox deyəni. O kişi xəta eləyib, keçənlərdə beş kəlmə zarafatla gülməli söz yazıb, indi salıblar dilə-dişə, saqqız çeynəyirlər... Bir də ki, Məşədi Ələkbər yazıq neynəsin. Bakıda, Tiflisdə, Fitilbörkdə oturan böyüklər nə sifariş verir, o da yazır. Yoxsa özbaşınadı. O da sənin-mənim kimi rəiyyətdi də! Buyruq quludur. Yazmasa, onu o yan-bu yana çəkərlər. Axı savadın var, elmin var, niyə dinmirsən? Bir belə polisdəkilər nahaq yerə bir ətək donluq almır ha! Bu işləri bir qarışdıran var çömçə kimi, özbaşına deyil.



Axundun gücü çatır, getsin şəhərlərdəki pundu qoymasın. Baydax çıxardanlara nəsihət eləsin. Getsin Səttar xan qoşununa cavab versin. Yoxsa burda bir sürü külfətin çörəyini kəsmək, dağdan ağır kişiyə ad qoymaq heç müsürmançılıqdan deyil! Deyil, yox! Əşhədibillah, nahaqdı! Vallah, düz deyil! Allaha xoş getməz!

- A qız ey, Məsmə, dilini qoy qarnına! Başından yekə danışma! Yəni vaizin işi sənə qaldı? Müctəhid yerdə kişilər, dəryaca elm oxuyanlar səncə bilmir?

- Bilir-bilsin, mən nə deyirəm, mən deyirəm, müsürman qardaşdı, peyğəmbər özü də deyib, insaf dinin yarısıdı. Niyə haram buyurursan, yəni xaçpərəstcən də olmadı? Adamı belə çörəkdən salmazlar axı, özü də oxumuş məşədini? Özü də oğul-uşaq sahibini!

- Yalansa Məşəd onun belindən vursun!

Məsmə durduğu yerdə dik dayandı, çadrasının ətəyini buraxdı. Müdhiş bir söz eşitmiş kimi başına ağrı gəldi. Üzünü Mələknisə arvada tutub şax-şax baxdı, bilmədi nə desin, necə desin ki, ürəyi soyusun:

- Ay sənin dilin quruması̇n, ay arvad! Necə də ürəyin gəlir, bir sürü uşaq atasına elə qarğış eləyirsən? Heç sənin kimi ağbirçəyə o sözlər yaraşar bəyəm? Büllurnisa xanımı da mənim günümə salıb yetim əlində qoymaq! Heç düşmən bunu istəməz ki, sən istəyirsən. Ay qansız, ay kəmfürsət! Neyləyim. Həmişə əlin yağda, balda olub. Bilsən yetim böyütmək nədi, belə deməzsən. İstəmirəm Allah sənə belə şey qismət eləsin, yazıqsan. Mən sənin kimi qansız olmamışam, olmaram da! Məşədi Ələkbər kimi üzündən nur yağan kişiyə bu qarğış getməz! Başımız üstündə Allah var! Biz Əli şiəsiyik axı. Əmirəlmöm...

Mələknisa Məsmənin sözünü ağzında qoydu:

- Günah iş görməsin, deməyim!

- Əvvəli budu ki, onun heç bir günahı yoxdu. İkimincisinə qalanda, günah sahibidir əgəm, Allah səndən, məndən tez görür. Sa-

bah onun qəbir əzabı, axirəti, qıl körpüsü, mizan-tərəzisi var. Qiyamətin günündə özü öz tanrısına cavab verər. Amma indi, məscid dolusu müsürman camaatına belə fitva verməyin, o boyda ağır kişini hörmətdən salmağın bihesablıqdır! Nə bilim, sahib şəriətdən mən belə şey görməmişəm! Heç vaxt görməmişəm!

- Sən nə görmüsən ey, şəriətdən danışırsan! Qapılarda paltar yumaq hara, şəriət məclisi hara? Yenə bir məclis görən olsa, dərd yarıdı.

Şərəbanı qəsdən yoxsulluğu Məsmənin başına qaxır, "gün çörəyinə möhtac" olsa da, şəriət işlərinə qarışan bu "qapılar arvadını" birdəfəlik susdurmaq istəyirdi.

Məsmə hiddətini boğdu, Mələknisa tənəsinə sakitliklə cavab verdi:

- Paltar yumaq, binamusluq deyil. Əlim var olsun, əməyim var olsun! Mənim əlim paltar təknəsindədi, məclis adamı sizsiniz. Neyləyək, siz görmüsüz, genə görün! Fələyin çarxı çönsün!

- Biz görməsək də, Hacı Axund başının tükü sanı kitab oxuyub, yüz iyirmi dörd min peyğəmbərin risaləsini kişi varaq-varaq eləyib, həmdi-surə kimi əzbər bilir. Bizim kimi avamların belə söhbətlərə qarışmağı, əslinə baxsan, asiküfür düşməkdi. Bəsdi, bacılar, bəsdi, boşluyun getsin. Gecəyarı oldu!

- Lənət şeytana. Mələknisa Məsməni hirsli görüb döngədən ayrıldı:

- Gecəniz xeyrə qalsın...

Məsmə düşməninə baxdı və onun sözünü təkrar etdi:

- Lənət sənə kor şeytan!

Axşamkı moizədə Tahirzadə məsciddə yox idi. Məscid dağılan kimi Mirzə Abbasqulu yanına gəlib əhvalatı ona dedi. Təsəlli verdi, ehtiyatlı olmağa çağırdı:

- Heç olmasa, bir müddət gözləmək məsləhətdi. Mövlud ərəfəsidi, fasilə olsun, görək nə olur.

Tahirzadə dostunun üzünə baxdı. Onun yanan gözlərində qığılcım oynadı:

- Qabili-imkanmı görüb dinməmək?





- Yox, susmaq demirəm. Ancaq fürsət gözləmək yaxşıdı!

Dostunun sükutla düşündüyünü, bəlkə də, Axundun təkfir xəbərindən kədərləndiyini görüb əlavə etdi:

- Alış-veriş deyəndə, almalı nəyin varsa, uşaqlara deyərsən, alar. Satmalını da göndərərsən Əbdürrəhimgilin - Səmədovların dükanına. Sabundu, yeşik ilə qoyub satarlar. Vaizin sözünə kimdi məna verən!

Tahirzadə bir söz demədən qabağındakı kitabların kənarlarını sığallayaraq, sanki onlarla məşğul olduğunu, başqa heç bir şeylə maraqlanmadığını göstərmək istəyirdi. Ancaq Mirzə Abbasqulu dostunu yaxşı tanıyırdı. Onun dərindən düşündüyünü, zehnində nə isə yazıya keçirməli bir mətləbi dönə-dönə ölçüb-biçdiyini bilirdi.

Tahirzadənin mühüm mətləblər müqabilindəki bu ağırlığını bəziləri ehtiyat, bəziləri tərəddüd, Mirzə Abbasqulu isə təmkin, səbir adlandırırdı: "Sabir ki, Sabir!"

Elə dəqiqələrdə Tahirzadə xarici aləmdən, az qala, üzülüb, öz aləmində, zehnində çarpışan fikirlərlə məşğul olurdu.

"Büllurnisa xanımın xoşuna gəlməyən bir də ərinin bu xasiyyəti - "içində danışmağı", "Bəhtə getməyi" idi. Tahirzadə əlinə qələm alanda, dəftər-kitab ilə uğraşıb başqa hər şeyə etinasız olanda, Büllurnisa xanım məyus olar, başını bulayar, geri dönərdi: «Yenə bədbəxt kişiyə, deyəsən, vəhy gəlib, genə hop tutacaq!»

Mirzə Abbasqulu isə Büllurnisa xanımın xilafına olaraq şair dostunun düşüncələrinə çox həssas idi. Onun «öz aləminə» getdiyini duyan kimi səsini kəsir, heç nə demir, hətta bir hərəkət də etmirdi. Münasib bir vaxt düşən kimi çəkilib gedir, dostuna mane olmamağa çalışırdı.

Tahirzadə bəlkə məhz buna görə, dostunun həssas münasibətini duyub qiymətləndirdiyinə görə, bəzən xasiyyətinin xilafına olaraq sanki birdən-birə dəyişər, hər sözə tez cavab verərdi. Onun səsini eşidən Mirzə Abbasqulu bir yüngüllük duymuş kimi qımışar, sözünə

davam edərdi. İndi Tahirzadə fikrini sual şəklində deyib, diqqətlə Mirzə Abbasqulunun üzünə baxdı:

- Yəni cənab Sultan Məcid deyən kimi, sabun tiyanının daşını tamam atsaq nə olar? Onsuz da belə dolanmağa güzaran deməzlər. Dilənçiliyin qabağını almaq deyərlər. Onsuz da "biz cahan məmurəsin mənada viran bilmişik".

- Mirzə Abbasqulu təsəllisində davam edirdi:

- Heç eybi yoxdur! Sabirə səbir lazımdır, görək nə olur. Dünya belə getməz. Görək ayineyi-zəman nə göstərəcək!

- Hacı Məcid Əfəndinin əyyamında yaxşı bir şey gözləmə, Mirzə Abbasqulu! Zaman ilə pəncə-pəncəyə gəlmək lazımdır!

Firdovsi rəhmətlik əcəb deyib:

Əgər çərx bamən könəd qilu-qal.
Bəgörzi-kiranəş dəhəm guşmal[1]...

Tahirzadəni gülmək tutdu:

- Ay Mirzə Abbasqulu, gürz vaxtı deyil. Biz də gürz əhli deyilik. İndiki düşmən qabağına gürz ilə yox, süngü ilə, satira süngüsü ilə çıxmaq gərək! Minbərdən yağan tənə gülləsinə qarşı kinayə, satira qoşunu yerisin gərək! Gördün, Axund cəhənnəm qapısını nə yaman açmışmış? Füzuli gərəkdir desin:

Könül tavar əlində çamimey təsbihə əl vurma!..
Cəhənnəm qapısın açdırma, vaizdən xəbər sorma!

- Təsbih neyləsin, Məşədi Ələkbər. Hacı Axund məgər müsəlman alimidir?

- Müsəlman alimi olmasa, hamı qabağında oturub ağzını göyə

1. Əgər dünya mənimlə dava-dalaş eləsə, gürzlə onu tənbeh edərəm.



açmaz, avaz ilə amin deməz!

- Müsəlmanın evini yıxan, onun öz "alimidir", Firəngdən soruşarsan, ədibinə peyğəmbər deyər. İngilis Nyutonu millət üçün günəş bilir. Rus Puşkini, Tolstoyu ilə fəxr edir. Bizimkinin qəflət gözünü elə bağlayıb ki, kimin adını çəksən, təkfir edəcək!

Mirzə Abbasqulu dostunun sözlərinə şərik oldu:

- Ona görə yazıq Namiq Kamal əl çəkdi, kənara çəkildi də:

Görübehkami-əsri münhərif sidqu, əlamətdən,
Çəkildim izzəti-iqbal ilə babi-hökumətdən!..

Tahirzadə başı ilə rədd işarəsi verdi:

- O düz deyil! Çəkilmək düşmənin xeyrinədir. Çəkilmək nə üçün? Eşitmisən, usta Mehdinin arvadı evi süpürəndə ərinə çəkil deyib, o da çəkilib. Bir az sonra süpürə-süpürə gələn arvad yenə çəkil deyib. Axırda usta hazırlaşıb, qaçıb Peterburqdan kağız yazıb ki, arvad de görüm yenə çəkilim, ya yox? İndi onun sözü olmasın, çəkildikcə, səni itələyəcəklər. Meydan cəngü-cidal meydanıdır. Çəkiləni qovacaqlar. Düzdür, mən buradan getmək qəsdindəyəm. Amma çəkilmək üçün yox, kəllə-kəlləyə gəlmək üçün gedirəm. Bu ağbaş, qarazehin "üləmanın" öhdəsindən gəlmək üçün Bakıda olmaq lazımdır. Bakı kimi bir yerdə!

Düzdür, ustadımız seyid, rəhmətlik Bakı haqqında ayrı cür deyib. Ancaq indi deməzdi. İndi Bakı, o Bakı deyil. Bakı Şərqin qapısında dayanan şirdir ki, gözündən od tökülür. Bakının hürriyyət hümməti Qafqaza səs salıb.

Müsahibi Tahirzadəni dinlədikcə ürəyinin sözünü deyirdi:

- Müsəlmana indi hümmət oruc-namazdan vacibdir.

Həmiyyət vaxtıdır, hümmət zamanı, mövsimi qeyrət,
Çevirməz düşmənə dal mərdi-meydan, ey vətəndaşlar!

- Yaxşı deyilmiş sözdür! Ancaq...

- Ancaq niyə?

- Nekrasov şairə daha aydın yol göstərib: şair olmaya bilərsən, amma vətəndaş olmaq borcundur.

- Əvam camaatin cilovu bu axundların əlindədir. Mən inanıram ki, sabah belə olmuyacaq! Fəhlələrin sözü havayı getməyib... «Molla Nəsrəddin» niyə belə şəhərbəşəhər yayılır. Bunlar havayı deyil. Böyük bir gələcəyin, necə deyərlər, müjdəsidir! Bizim buna tam etiqadımız var!

- İnan ki, Hacı Axundun sözlərinə zaman deyənlərin çoxu boğazdan yuxarı deyirdilər. Çünki səni də tanıyırlar. Mirzə Cəlilin də abdar sözlərini eşidiblər. Hələ mən onu demirəm ki, çox adamın qoltuq cibində «Molla Nəsrəddin» var idi.

Axundlar barəsində yazı olan «Molla Nəsrəddin»in bu nömrəsində Hacı Axund qabaqcadan xəbər tutmuşdu, poçtda adam qoyub hamısını satın almağı, mümkün olsa, qiraətxanaya da buraxmamağı tapşırmışdı. Ancaq Bakıdan gələn faytonçuların, arabaçıların, kömürçülərin cibində, kəndlilərin xurcununda dörd qatlanmış jurnal qaçaq mal kimi xəlvət saxlanır, fürsət olanda oxunurdu.

Jurnalın bu nömrəsində axundun öz dili ilə həsbi-halı yazılmışdır. Hop-hopun bu şeirini güclə hamballar da bir-birinə əzbər deyirdilər:

Ax!.. Necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi!..
Eybimizi çulğalamışdı əba,
Hər nə gəlirdi; boşalırdı qaba.
Kim bizə pul verməsə bədnam idi,
Hər səhər-axşam bizə bayram idi,
Ax!.. Necə kef çəkməli əyyam idi!
İndi adamlar deyəsən cindilər,





Cin nədi, şeytan kimi bidindilər,
Lap bizi ovsarladılar, mindilər,
Ay keçən əyyam, olasan indilər!..
Onda ki, övladi-vətən xam idi,
Ax!.. Necə kef çəkməli əyyam idi!

Hətta əllaf Məşədi Kazıma altı pudluq ağır un tayları daşıyan bir hambal bu sözləri oxuya-oxuya elə cəld iş görürdü ki, deyərsən, ən sevdiyi nəğməni oxuyurdu. Əllafın acığı tutmuşdu. İşin şirin yerində hambalı yanma çağırmışdı:

- Ə, həmşəri, neçə tay daşımısan?

- Ağa, on-on ikisini aparmışam!

- Al bu iki manatı, artığını da istəmirəm, çıx get!

- Niyə, Məşədi, necə bəyəm, pis daşıyıram?

- Yox, yaxşı daşıyırsan, amma mənə lazım deyilsən, çıx, qoy get!

- Məşədi, deyirsən daşıma, daşımaram. Amma daha hara gedim. Bu vilayət ki, sənin deyil!

- Hər nədi səsini kəs!

- Niyə, iki manat haqq vermisən, səsimi də almayacaqsan ki, oxuyuram, ürəyim açılır:

Ax!.. Necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi!..

İstəmirsiz, eşitməyin, mən özüm üçün oxuyuram da!

Əllaf elə cinlənmişdi, səsi bazarı tutmuşdu:

- Canım, biz də o yanda-bu yanda bədəfkar axtarırıq? İslamın əsl qəddar düşməni həmin bu fidai köpək uşağı deyilmi? Orada yazıq Məmmədəli şahın başına gətirdiklərini burada da üləmanın, tacir-tuccarın başına gətirmək istəyirlər. Baş-qulağı bir abbasıya dəyməz, amma dünyada nə ki haramzadə söz var, danışır. Bunların

kökünü kəsmək gərəkdir, vallah!..

Gecədən xeyli keçmiş, bütün şəhər yatmışdı. Ancaq Tahirzadənin pəncərəsindən zəif işıq gəlirdi. Büllurnisa xanım neçə dəfə çırağın işığını azaldıb, kişisini "andıra qalmış" dəftər-kitabdan ayırmaq istəmişdisə də, mümkün olmamışdı, "eh" deyib əl çəkmiş, yatağına girmişdi.

Tahirzadə başını kitabdan qaldıranda, hamını şirin yatmış, evdə xoş bir sükut görəndə, sanki bir yüngüllük, daxili rahatlıq duydu.

Belə böyük bir ailənin başçısı olmaq, bu məsum balaların səadəti, gələcəyi üçün yuxusuz gecələr keçirmək ata qəlbinə nə qədər iftixar gətirirdi. Tahirzadə hərəsi bir yanda, hərəsi bir tövr ilə soyuqdan yumaq kimi büzüşən, yunu tökülən mitil yasdığa baş atıb şirin yuxuya gedən balaların sağlam böyüməsi üçün düşünür, onların güzəranı qayğısını çəkdiyi üçün yatmırdı, yata bilmirdi. O, yaxşı bilirdi ki, vətəninə oxumuş, müasir adamlar nə qədər lazım, nə qədər zəruridir!..

Ona çox xoş idi ki, indi balaları onun çəkdiyi mənəvi iztirabdan, hələ ki, uzaqdırlar, bunu duymurlar. Onlar hələ uşaqdırlar. Hacı axundlarla, cəhalətlə üz-üzə gəlmir, acı sözlər eşitmirlər. Şair gecənin sakitliyi içərisində uşaqları bir-bir gözdən keçirtdi, öz-özünə dedi: «Şirin yatın, mənim balalarım. Bu cəfalar yükünün bütün ağırlığını çəkməyə, bütün məhrumiyyətlərə dözməyə atanız hazırdır. Təki sabahın, gələcəyin günəşləri olan sizlər, heç olmasa, sizlər zülm və zülmətdən silkinib xilas olaydınız! Təki qoca dünya sizin, iyirminci əsrin ilk müjdəçiləri olan yeniyetmələrin üzünə gülə idi!..

Tahirzadə çustlarını çıxarıb kimsəni oyatmamaq üçün ehtiyatla evdə gəzdi. Yeganə oğlunun, iki yaşı yenicə tamam olan Məmməd Səlimin üzündən öpdü. Şirin yuxuya getmiş körpənin pul kimi isti yanağı atanın soyuq dodağına toxunanda Tahirzadə peşman oldu: «Oyanmasın! Yox, hiss etmədi!»



Uşaq aləminin qayğısızlığı ataya mənalı bir kitab kimi göründü. Onun simasında vətəninin gələcəyini, sinə dolusu bəslədiyi arzuların gələcəyini görmüş kimi dərhal bayaqkı yerinə qayıdıb qələmi əlinə aldı. Gecənin sükutunda kağız üzərində əsəbi hərəkətlə gəzən qələmin xəfif və pıçıltılı səsi eşidilirdi.

Tahirzadənin təsəvvüründə "cəhənnəm ağzını açan" Hacı Axundun axşamkı moizəsi canlandı. Qul kimi itaətkar möminlərdən ilham alaraq "mürtədlər, babilər" ünvanına, ağzı köpüklənə-köpüklənə danışan, əsasını çiynindən salan, qırmızı saqqalını kəfkir kimi sağa-sola oynadan əmmaməliləri Tahirzadə çox yerdə çox görmüş, çox da eşitmişdi.

Bir zaman moizələrə eyni həqiqət kimi diqqətlə qulaq asıb, təkrar-təkrar ürəkdən «amin» demiş, salavat da çəkmişdi. İraq, İran və Türküstan səfərlərində addımbaşı rast gəldiyi və indi də unuda bilmədiyi bu cansıxan lövhələr bir-bir gəlib gözləri önündə dayandı.

Vaizlərin, dərvişlərin "Ya Əmirəlmöminin!" səsi uçuq məscid günbəzlərindən qopan kədərli bir əks-səda kimi qulaqlarında cingildədi. Babəklərin, nadirlərin, yusif sərracların, abbas ağaların, daha sonralar isə əncümən mücahidlərinin məhz məscid və minbərlərdə təkfir olunduğunu xatırlayanda, Tahirzadənin qəlbində təəssüf və məyusluq ilə yanaşı, bir qürur və heysiyyət üstünlüyü, bir iftixar hissi, tənə sellərini aşıran əzəmətli bir dağ kimi qabarmağa, sanki dünyanın çox yerindən görünməyə başladı. Vaxtilə özünün bu şarlatanlar mühitini necə dərk edə bilmədiyini, kor-koranə "bəli" deyib inandığını və sonralar, ancaq sonralar intibah nəticəsində, al bayraq götürüb küçələrə tökülən tətilçi fəhlələrin hərəkatı nəticəsində, zülmət dünyasından ayrıla bildiyini xatırlayıb sevindi, qələmi əlinə alıb bütün tənələrə məğrur bir cavab verdi:

Seyli tən öylə təməvvüclə alıb dövrü-bərim,
Bənzərəm bir qocaman dağa ki, dəryada durar!

Bisütun sinəsinə dəysə də min balta yenə,
- Çövrə möhkəmlik ilə qurduğu mənadə durar!

Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,
Mən gedərsəmsə, məramım yenə dünyada durar!

Ayağa qalxdı, böyük bir izdiham qarşısında dayanmış kimi yazdığını zehnində təkrar oxudu və şeirindən bir məmnunluq duydu. Lakin bu cavab onun axşamdan bəri qəlbinə dolan atəşi söndürmədi, söndürə bilmədi.

Tahirzadəyə yaxşı məlum idi ki, qələmindən çıxanlar nə qədər kəsərli olsa, minlərlə oxucuların qəhqəhələrini çağırsa da, bu mühiti dəyişdirə bilməyəcək, dəyişdirməyəcək. Bu etiraf acı olsa da, bir həqiqət, ağır bir həqiqət idi.

Şirvan həmin Şirvan, Cümə məscid, həmin Cümə məscid, təkfir çuvalının ağzı da həmindir!

Ona elə gəldi ki, həyatda, yaşadığı əsrin mübarizələrində o ya öz yerini tapa bilməmişdir, ya da tapdığı yeri, qüvvələr tənasübünü yaxşı öyrənə bilməmişdir. O, nəyi isə axtarmışdır. Ədalət deyilən böyük bir aləmə qovuşmaq, bu aləmin feyzilə bəxtiyar olmaq üçün çırpınmışdır. Hanı o aləm? Hanı insanları "şirin məzaq edən" sevdayi-ədalət?

Hanı, hanı bəs? O, gəncliyinin ilk günlərindən ədalət, həqiqət axtarmadığı yer qalmışdımı?

Ömrünün keçən əziz günlərini, azan, nalə və fəryad dolu Bağdad, Nişabur, Kərbəla, Xorasan, Buxara, Mərv, Aşqabad, Xeyvə şəhərlərinin, piyada ziyarətin işgəncə və iztirablarını, atalarının çürük sümüyünü tirmə dəsmala yığıb ağ qatarlara yükləyən, Kərbəlaya aparan qafil möminləri, "qoxumuş" mətahdan beşqat gömrük alan





ingilis məmurlarını, yaşıl ələmi arıq atın köhnə yəhərinə taxıb havada yelləndirən, yamaqlı heybəsində müqəddəslər adına zəvvardan pul, ərzaq yığan üzlü çavuşları, "ya mədəd", deyə təbərzinini cəllad qılıncı kimi göydə oynadan uzunsaç, qurşaqlı dərvişləri, yolları dolduran dilənçiləri, çadralar altından zəvvarlara işarə verib çağıran xallı fahişələri, yanmış bədəni gün altında qaralan, körpülərdə qantər töküb işləyən əsirləri, vuruşan sünni-şiə mütəəssiblərini, müsafirləri xam görüb corabı çuxa, dəsmalı yorğan, misqalı batman qiymətinə satan həris alverçiləri... bütün bunlarda qoca, əlil Şərqin müdhiş mənzərəsini seyr edən, sevilən və qələmə alan müstəmləkə məmurlarını görür, sinə dolusu təəssüf və ahlarla xatırlayırdı.

Tahirzadə lap gənc yaşlarından qürbətə üz tutub səadət axtardığını, məbədlərdə üzünü daşa-torpağa sürtdüyünü, minbərdən gələn avazı həqiqət səsi kimi dinlədiyini, təkbir[1] səsinə salavat çəkib matməbhut dayandığını, ürəyini dolduran sirr və sualların cavabını Quranda, müctəhid risaləsində axtarıb yorulduğunu apaşkar xatırlayırdı. Xatırlayır, o günlərin xəcalətini çəkirdi.

Ona elə gəlirdi ki, bunlar, mübhəmliklər içində keçən əsrlər indi çətin bir yoxuşa gəlib çatmışdır. "Əsri-hazır", iyirmi rəqəmi ilə girdələnən yeni bir əsrdir. Mübhəmlik sevmir, qaranlıq sevmir. Bu əsrin bünövrəsini daş-torpaqdan yox, dəmirdən, poladdan qoyurlar. Bu əsrin bənnaları təzədir. Bu əsrin bənnaları bir deyil, milyonların cuşə gələn hərəkatıdır. Bu milyonlar içində nadir simalar - Marks, Lenin və eləcə də darvinlər, axundovlar, qoqollar kəhkəşanda parlaq ulduzlar kimi görünürlər. Dalğalanan xalq hərəkatı bəşəriyyət göylərini örtən toz-dumanı silib atmaq, üfüqləri təmizləmək, hər şeyi çılpaq, "pisi pis, əyrini əyri, düzü hamvar" göstərmək istəyir...

Tahirzadə tarixin bu dönüş məqamında üz-üzə duran iki dünyanı

1. Məscidlərdə azan verənlər «Allahu-əkbər», yəni Allah böyükdür, sözlərilə azana başlayırlar. Buna təkbir deyilir.

aşkar görürdü. Görürdü ki, yerin dərinlədrindən kükrəyib qalxan bir qüvvə ağırlıqları aşırmaq, alt-üst etmək istəyir. Görürdü ki, dəzgahlardan fabriklərə, fabriklərdən küçələrə, küçələrdən şəhərlərə, şəhərlərdən ölkələrə keçən, getdikcə aləmi çulğayan hərəkat zülmət aləmini ağır bir məzar daşı kimi itələyib keçmişin girdabına salmaq, dünyanı yaz göyləri kimi aydın və şəffaf göstərmək istəyir.

İndi gəncliyin bütün qüdrət və qüvvəti bu müqəddəs mübarizəyə, müqavimətləri rədd etməyə gedir. Bu cahanşümul mübarizənin qələm əsgərlərinə - sözü silaha çevirən, zehinləri işıqlandıran adamlara nə qədər ehtiyacı vardır:

Sanmə əzdikcə fələk bizləri viranlıq olur,
Ün təmənnası ilə buğda dəyirmanlıq olur!
Qarışıqdır hələlik millətin istedadı, -
Ələnirsə, safı bir yan, tozu bir yanlıq olur!
Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur.

Tahirzadə Şirvanda, möminlər mühitində özünə və arzularına yer və imkan görmürdü. Zehnən qürbətə düşmüş kimi ürəyi qəfəsdə çırpınır, yeni həyatın qaynadığı, mətbuat səhifələrinin cəngi-cidal meydanına döndüyü şəhərlərə meyil edir və bu arzusuna kömək axtarırdı. Axtarır, lakin tapmırdı. Ümid gözlədiyi adamlara müraciət edərək, ürəyinin dərdini söyləyirdi.

Möhtərəm maarifpərvər Soltan Məcid Qənizadə həzrətlərinə!

Salam və ehtiram!

Müsaidə etsəniz, başağrısı da olsa, Sizə - maarifin, tərəqqinin dostuna öz halımdan bir qədər yazmaq istəyirəm.

Əvvəla, Şamaxının halı Sizə məlumdur. Siz bilirsiniz ki, mənim kimi adamlar üçün bura, həqiqətən, bir fəlakətli zindandır!



Yaşadıqca xərabə Şirvanda
Bir səfa körmədim o viranda.
Yaşadıqca əzabə düşdü tənim,
Mənə zindan kəsildi öz vətənim!..

Getdikcə məişətim tənəzzül edir.

İştiyaq və məhəbbətim maarifədir. Beş ay olar ki, üsulitədrisin əməli qanun-qaydalarını öyrənib müəllimlik təcrübəmi artırmaq istəyirəm.

İki ay bundan əqdəm «Tazə həyat» qəzetində «Səadət» məktəbinə iki nəfər müəllimin lüzumu haqqında elan var idi. Mən də bu elanı görüb sevindim və dərhal ərizə verdim. Amma təəssüflər olsun ki, bir cavab və nəticə çıxmadı.

Keçən illər öz həmvətənlərimə xidmət etməyə hümmət bağladım. Lakin bu xidmətlərə qarşı mükafat əvəzinə nə cəzalar, nə təhqirlər gördüm...

Daha tabi-taqətim və səbrim başa gəlibdir. Yusifi-Misr kimi qardaşlar əlində əsir qalmışam. Birisi sillə ilə üzümə vurur, mən ümidlə o birisinə tərəf yönələndə, o da yumruğunu başımdan endirir. Ondan üz çevirib başqasına pənah aparanda, döşümdən itələyir, ağzıma vurur. Ona dal çevirəndə, digəri qəflətən kürəyimdən vurur, ağzı üstə torpaqlara yıxılıram. Xülasə, halım çox pərişan, güzəranım eynən bir qəmli faciədir! Bir daha Şamaxıda yaşamağa tabü-təvanım qalmayıbdır.

Ümidim Sizin kimi maarifpərvər dostlarımızın hümmətinədir!

Baqi: İxlas və məhəbbət!

Ələkbər Sabir Tahirzadə Şirvani.

Güney yamaclarda yerləşən qoca və yaralı şəhər bu gün lap tez yuxudan qalxmışdı. Qurban bayramı idi. Hava soyuq, küçələr boş, idarələr, dükanlar bağlı olsa da, həyətlərdə bir təlaş və şənlik qayna-



yırdı. Hamı evinə, ailəsinə çəkilmiş. Evlərdə isə böyükdən kiçiyə hamı məşğul idi. Kimi su daşıyır, kimi odun yarır, kimi kömür qızardır, ocaq düzəldir, kimi qurbanlıq quzunun son saatlarını sayırdı.

Tükü xınalı, gözü sürməli, boynu həmayilli qoyuna, qoça qənd verilir, duz yaladılır, su içirdilirdi. Aylarla qapıda-bacada dağ yoncası, qarpız-yemiş qabığı, meşə meyvəsilə, tənək, tut xəzəli ilə bəslənən, kökəldilən, qonaq kimi əzizlənən gümrah heyvanlar bu gün birdən-birə «İsmayıl qurbanı» deyə rəhmsiz qəssabın ayaqları altına atılırdı. Bir az əvvəl mələyərək həyətdə oynayan, cövlan edən qoyunların yumurta kimi soyulmuş bədəni tut ağacının haçasından və ya çardaqdan asılır, iti, ağır dəhrə ilə şaqqalanır, doğranır, mis məcməyiyə atılır, pay-pay bölünürdü. Həmin bu qurbanlıq qoyunlara uzun zaman alışıb-öyrənən uşaqlar maraqlı müsahibləri və istəkli əyləncələrinin əldən çıxmağına nəinki heyfsilənir, əksinə, qoluçirməkli qəssabın ətrafında oynaşaraq intizarla xahiş edirlər:

- Aşığı mənimdir!
- Böyrəyini mən götürəcəyəm!
- Saqqalı özümündür.
- Dayı, üfürdəyini tez çıxart!

Günortadan bir saat keçməmiş əli tabaqlı, məcməyili uşaqların qapı-qapı gəzdiyini, mübarəkbadlıq edib ət payladığını görmək olardı. Örtülü tabaqlarda pay-pay bölünmüş təzə, canlı qurbanlıq əti qonşulara paylanırdı.

Bəzən ət paylayan uşaq, məcməyisində apardığından da çox qaytarırdı. Pay verdiyi evlərin əksəriyyəti, öz növbəsində, ona qonşu payı qaytarırdı. Bəlkə də artıq-artıq qaytarırdı.

Heç bir zaman şəhərdə ət indiki qədər bol olmazdı. Bir qurbanlığın əti, nədənsə, neçə-neçə evlərdə şişə çəkilir, qazana, ya tavaya tökülürdü. Qovurma, kabab, işkənə, cızdaq iyi küçəni, meydanı, meşəni bürüyürdü.



Adamlar bu ümumi mərasimin səbəbi və mənasını bilirdilər. Birdən-birə, gözlənmədən belə bolluğa düşən və şişincəyə qədər yeyən it-pişik isə ağzını yalaya-yalaya dikdirdə oturub baxışır, sanki sahiblərinin bu səxavətinə heyran qaldıqlarını bildirirdiər: “Bu nə işdir?”

Qurban sahiblərinin çoxu mərasimə dürüstlüklə əməl edib, İbrahim peyğəmbərin sayəsində “övlad qurbanının quzu qurbanı ilə əvəz edilməsinə” min-min təşəkkür desə də, aclar və möhtacları yada salmağa macal tapmırdı.

Tahirzadə Mirzə Cəlilin qurban haqqında dediklərini xatırladı:

Həzrət İbrahim Xəlil zilhəccənin onuncu günü səhər tezdən durub balaca oğlu İsmayıla dedi: “Bala, dur gedək!” Oğlu gördü, atası bıçaq, kəndir götürdü:

- Ata, məni hara aparırsan?
- Oduna!

Səhraya çıxanda Həzrət İbrahim qəfildən oğlunun xirtdəyindən tutdu, ayağının altına qoyub bıçağı çəkdi boğazına!

- Ata, mənim təqsirim nədir?

Bıçağın kütlüyünə hirslənən ərəb istəyirdi uşağın başını kəsə. Göydən səs gəldi: “Dayan, a kişi! Qudurmusan, nədi! Ağlı başında olan da oğlunun qanını tökər, ay vəhşi, rədd ol!..”

Ərəb kənara göz gəzdirib kök bir qoç gördü. Bıçağı onun qarnına soxub hirsini soyutdu...

O gündən bəri hər il zilhəccənin onunda qurban kəsmək ərəb dəvəçilərinə, başqa müsəlmanlara adət olub. Bu səbəbdən Qurban bayramı çatanda hər bir müsəlman, kasıb olsa da, gərək pul töküb qurbanlıq ala! Tək ala bilməsə, qonşusu ilə gərək şərik ola. Pulu olmasa, gərək borc eliyə. Borc verməsələr, gərək qurbanı nisyə ala. Nisyə verməsələr də, gərək oğurlaya, ya qoyun sahibilə söyüşə, yabalaşa, vuruşa. Hər necə olsa, gərək müsəlmanın əlilə qan töküla...

Şairi düşündürən bu sözlər, sanki kimsənin qulağına girmirdi.

Qurban mərasimi hər yerdə, hətta Tahirzadələrin evində də icra olunurdu.

Tahirzadənin bu səhər ilk işi o oldu ki, şərikli kəsdikləri şişəyin bütöv bir budunu ayırıb südçü məhəlləsinə, Məsmənin evinə göndərdi. Büllurnisa isə ərinin bu səxavətinə qarşı deyindi:

- Sən xeyir-şərini bilən deyilsən! Xalq axunda, qazıya pay göndərib möhüb görəndə, sən yetim-yesir axtarırsan!

- Axund mənim ət payıma möhtac deyil!

- Möhtac olmasın, saya salmaq var, axı!

- Qoy axund da məni saya salmasın. Qurban əti acyalavac üçündür, boynuyoğunlar üçün deyil?

- Şişəyin dərisi necə oldu?

- Məktəb uşaqlarının nəfinə yığırlar, ora göndərildi!

- Hay-haraya düşən elə sənin kimi birkeçilidir.

- Mən bir keçidən pay verməsəm, bəzzaz Piri öküzdən də bir tük verməz!

- Verməz, verməz, sənə nə borc!

- Mənə borc odur ki, ay rəhmətliyin qızı, bir evdə bayram işrəti olanda, o birisində matəm qurulmasın! Birinin bütün nemətlərdən köpüncə yeməyi, o birisinin acından qarnını ovuşdurmağı nə bayrama, nə müsəlmanlığa, nə də insanlığa yaraşır. Qurbanın bir təmiz məqsədi varsa, acları doyurmaq, tamarzıların nəfsini görməkdir. Buna inanmaq istəmirsənmi?

Büllurnisa ərinin nəsihətindən üz döndərib, ocaq üstdə qoyduğu qazanı yoxlamağa getdi. Tahirzadə əllərini suya çəkib evə girdi, dəftərqələmini ələ alıb, sanki çoxdan əzbər bildiyi bir şeiri kağıza köçürtdü:

İki qonşu bir-birinin milləti,
Hər ikisi bir peyğəmbər hümməti.
Biri kəsir qurban, bişirir əti,





Bayram edir Xəlilüllah eşqinə,
O biri də baxır Allah eşqinə.
Görürsənmi, bizim Hacı Pirini,
Paylamayır ətin ondan birini,
Qonşu sorur barmağının kirini,
Hacı yeyir Xəlilüllah eşqinə,
Yatır, şişir, köpür Allah eşqinə,
Dedim, Hacı, gözlə işin birisin,
Diqqət elə irəlisin, gerisin,
Ver məktəbə qoyunların dərisin.
Dedi, bizdə dəri vermək sınağı
Yoxdur, versəm, ollam arvad qınağı,
Basdırırıq onda xəmir çanağı,
Bərəkətdir, Xəlilüllah eşqinə.
Saxlayırıq evdə Allah eşqinə.

Nahar süfrəsindən sonra Tahirzadə «qurban hədiyyəsi» olaraq şeirini Mirzə Abbasquluya oxudu. Mirzə Abbasqulu sonra şeiri alıb özü oxudu. Oxudu, ancaq dodağı qaçmadı. Tahirzadə bilirdi ki, bu, yaxşı əlamət deyil, müsahibi bəyənmədiyi yazıya bir söz demək istəmir. Tahirzadə soruşdu:

- Demədin necə çıxıb?

- Mübarək bayramlara həcv yazmağı mən məsləhət bilməzdim.

- Bayramı hər kəs bir cür düşünür. Hacı Pirinin bayramına, yəqinimdi ki, siz şərik olmazsınız!

- Orası var ki, nadanlar deyəcəklər, hop-hop indi də qurbana gülür!

- Şeir nadanlar üçün yazılmır!

- Məktəb uşaqlarını yada salmaq, belə bir çağırış indi çox münasibdir. Amma peyğəmbərin adını təkrarlayan yerlər mənə bir cür gəlir: "Xəlillüllah! eşqinə..."



- Bihörmət söz yoxdur!

Mirzə Abbasqulu şeirin doğurduğu gülüşü gizlədə bilmədi:

- Necə olsa, Hacı Pirinin qarnı «Xəlillüllah!» eşqinə şişir!

Tahirzadə cəld şərik oldu:

- Əslində də elə olur!

Şeiri əlinə alıb göyə qaldırdı, yəqinlik hasil etmiş kimi silkələdi, xoş bir təbəssümlə müsahibinin üzünə baxdı:

- Elə olur! İnandırıram səni, burada həqiqətdənkənar bir şey yoxdur!

Görək oxucular nə deyər!

## İkinci fəsil

## BAKIYA DOĞRU

Ahın şərəri etməz əsər bir kasə hop-hop,
Bu od sənin ancaq alışan canın üçündür!
Ə. SABİR

Bu gün Tahirzadə Bakıdan müfəssəl məktub almışdı. Qənizadə şairi son şeirlərinə görə təbrik edəndən, müəllimlərin, xüsusən Firidun bəyin salamını deyəndən sonra qarşıdakı 1910-11-ci dərs ilində ya dövlət məktəblərində, ya da "Nəşri-maarif" cəmiyyətinin məhəllə məktəblərində şəriətdən, ana dilindən dərs düzəldəcəyini yazır, pedaqoji və metodiki vəsaitin minimum siyahısını göndərərək Tahirzadəyə bir daha hazırlaşmağı tövsiyə edirdi. Onu da xatırladırdı ki, xüsusi pedaqoji təhsil görməyən adamlar müəllimliyə gələndə "məmaniətlər, təftişlər" çox olur.

Tahirzadənin son aylarda aldığı sevincli məktublardan biri bu idi.

Nəhayət, Bakıda, üsuli-cədid məktəblərində müəllimlik vəzifəsi tutmaq arzusu həqiqətə çevriləcək idi. Tahirzadəni ən çox sevindirən bir də bu idi ki, vətəninin maarif xadimləri, gözüaçıq ziyalıları onu Şamaxı mühitindən, "molla babaların təkfir dairəsindən" uzaq tutub, qorumaq istəyirdilər. Doğrudur, Qənizadə xüsusi hazırlaşmağı, mütaliə ilə pedaqoji mətbuatı nəzərdən keçirməyi, müəllimdən tələb olunanı, heç olmasa, ötəri də olsa öyrənməyi tələb edirdi. Ancaq başqa tərəfdən, hazırlığın başqa cəhətindən səhih xəbəri yox idi. Bəlkə də var idi. Nəzakət olaraq həmin barədə söhbət açmırdı. O, Tahirzadənin ağır həyat keçirdiyini, güzəran çətinliyini bilməmiş deyildi.

Tahirzadə Şamaxıdan çıxıb Bakıya, müəllim sifətilə çalışmağa getmək üçün hər kəsdən əvvəl borclularını razı salmalı, onlardan





yaxa qurtarmalı idi. Hələ ki, heç bir yerdən alacağı yox idi. Jurnal-qəzet idarələrindən almalı olduğu qəpik-quruş idi, sabun tiyanının, qazan və mis dolçaların satılmasından da elə bir məbləğ hasil olmurdu, olmayacaq idi. Köhnə kitabfüruş dəvərəşgöz, ködərək kişi şairin kitablarını ələk-vələk edib, nadir nüsxə saydıqlarını, dini ehkama aid olanları ayırmışdı.

Uzun müddət alışdığı, bəzilərinin, hətta haşiyəsində qeydlər etdiyi bu müxtəlif məzmunlu, müxtəlif cildli və müxtəlif biçimli kitablardan ayrılmaq şair üçün çətin olsa da, çarə yox idi. «Keçmə namərd körpüsündən, qoy aparsın sel səni!» Namərdə əl açmaqdansa, evdə güman gələn nə varsa, satmaq, borcdan qurtarmaq lazım idi. "Mal, ev əşyası həmişə əldə edilə bilər. Abır, ehtiram isə pul ilə alına bilməz!"

Tahirzadə kitabfüruşa müraciət etdi:

- Məşədi götürün bunları qiymət edin. Pula ehtiyacımız var.

Məşədi çeşməyini taxaraq bir-bir kitabları nəzərdən keçirir, cırıq vərəqləri, cild kəsirlərini Tahirzadəyə göstərir. «Qiymət filan qədər azalır» demək istəyirdi. Kənara qoyduqca, qiymətlərini bir kağıza qeyd edir, deyinirdi: «Belə şeylərin bahasına bir pul verən tapmaq çox çətindi.

Qəhvəyi meşin cildli, sarı kağızlı, haşiyələri sıx yazılı ağır bir kitabı şair alıcının əlində görəndə "dayanın" dedi və kitabı aldı:

- Dayan bir bu haradan bura düşüb? "Xəmsə"dir!
- Xəmsə! Olanda nə olar!
- Xəmsəni verə bilmərəm.
- Cənab şair, bu, pula gedən kitabdır!
- Bunu satmayacağam, Məşədi!
- Bir yandan deyirsiniz, ehtiyacımız var, bir yandan da...
- Xəmsə ehtiyaca baxmaz. Canımı verərəm, Nizaminin bir beytini verməröm. Bunu yazma!

Şair "Xəmsə"ni əziz bir şey tapmış kimi cəld götürüb gətirdi, taxtın üstünə, başının altına qoydu:

- Bura bax!

- Buyurun!

Məşədi təşvişə düşmüş kimi qollarını yana açdı:

- Nahaq götürdünüz, "Xəmsə"ni istəyən var, dedim, sizə də kömək olar.

- Acından ölərəm, bundan ayrılmaram.

- Siz sonra da tapa bilərsiniz. Bakıda-zadda. Bir nəfər istəyən var, 10-15 manata yeridə bilərdim. Müştəri düşüb.

- Heç milyona da vermərəm, Məşədi, üz vurma, öt!

Kitabfüruş əsəbi kimi təkrar-təkrar çeşməyini çıxarıb taxır, dəvərə gözlərini oynadaraq meşin cildli kitaba diqqətlə baxır, sanki ondan əl çəkmək istəmirdi. Sanki ən qazanclı bir sevdadan əli üzülmüşdü. Bütün kitabları bir kənarə buraxıb "Xəmsə"dən göz götürmürdü.

Tahirzadə bunu hiss etmiş kimi adyal ilə "Xəmsə"nin üstünü örtdü, qumrunu, daxili və başqa kitabları qucaqlayıb irəli qoydu:

- Yazın bunları, budur, nə çoxdu müqəddəs kitablar! Sizə bunlar hamıdan vacibdi, şəhərin möminləri bunları hamıdan tez alar!

Kitabfüruş məyus bir halda dayandı. Dinəcəyi olmadı. Kitablara bir-bir qiymət qoyub hesabladı. Əvvəl çuxasının, sonra arxalığının düymələrini açdı. Can köynəyindən işıldayan köhnə qara bir kisə çıxardı. Qaytanını açdı, oradan çıxardığı pulları ehtiyatla, dönə-dönə sayıb Tahirzadəyə verdi.

Tahirzadə aldığı məbləği ikiyə ayırıb Büllurnisa xanıma verdi.

- Bunu saxla, bunu da qəssablara verək, heç olmasa, bir şeydir, qalanını da görək necə eləyərik. Gümanım var ki, işə başlayan kimi mənə maaş verəcəklər. Maaşdan da bir hissəni göndərəcəyəm, üstünə qoyub baqqalın pulunu verərsən, ümidvaram ki, bir-iki aya borc-



dan-xərcdən qurtararıq. Daha qapımızı döyən, tənə eləyən olmaz. Yaman günün ömrü az olar, deyiblər, fikir eləmə, anam gəlini!

- Yaxşı gün görmüşük ki!

Biz görməsək də, arzu edək uşaqlar görsün. Dünya belə getməz, fikir eləmə. Atalar deyib:

Əzizim, naçar ağlama,
Gündür, keçər ağlama!
Bir yandan bağlayan fələk,
Bir yandan açar ağlama!

Tahirzadə həyat yoldaşına, uşaqlarının möhnətkeş anasına bu təsəllini verirdi. Ancaq özü fələyin "mərhəmətinə" inanmırdı. İnanmasa da, əlacı yox idi, əzablar, iztirablar içində balalar böyüdən ana-qadına, heç olmasa, şirin söz ilə təsəlli verməli idi. Büllurnisa, bu faciəli, zəlzələli şəhərdə, xüsusən ər evində yoxsulluq, məhrumiyyət, tənədən başqa bir şey görməyən, buna görə də həmişə bulud kimi tutulmuş, kuzə kimi boğulmuş olan qadın da, sanki bu gün dəyişmişdi. Daha onun simasında ümidsizlik, dilində sərt ifadələr, qarğış, nifrinlər yox idi. Deyəsən, o, ərinin uzunmüddətli səfərə gedəcəyini yəqin etdiyindən ürəyi yumşalmışdı. Deyəsən, o, evdə, birgə həyat müddətində ərinə lazımınca xidmət və ehtiram göstərə bilmədiyindən xəcalət çəkirdi. Deyəsən, ərinin borcları ödəmək cidd-cəhdini görüb lap köyrəlmişdi. Sandığında, üst-başında qiymətli bir şey, heç olmasa, bir yadigar da olsa, satılmasına razı olar, ərinin borclu qabağında sıxılmasına imkan verməzdi, nə edəsən ki, kasıblığın üzü qara olsun. Gəlinlik günlərindən belə dalbadal doğulan körpə, zəif, xəstə uşaqların tükənməz qayğısı, sanki bu evin hər şeyini külək kimi süpürüb aparmışdı. Hətta ata-ananın vücudunu da qurudub kiçiltmiş, taqətdən salmışdı. Qəribədir ki, bu gün

Tahirzadə Büllurnissa qarşısında, Büllurnisa da ərinin qarşısında özünü xəcalətli bilir, üzrxahlıq eləməyə söz, fürsət axtarırdı.

- Biz görməsək də, arzu edək uşaqlar yaxşı gün görsün. Dünya belə getməz, Büllurnisa, fikir eləmə!

Büllurnisa başını aşağı salmışdı:

- Nə deyirəm, əlac nədi! Borclunun səsi kəsilsin. Biz ötüşərik.

- Sizə də xərclik göndərəcəyəm!

- Biz birtəhər dolanarıq, təki işin səhmanda olsun. Düşmənin zəlil olsun, canın salamət olsun.

—Bunlar hamısı bir-birindən asılıdır. Evdən arxayın olmayanda, mən işləyə bilmirəm.

- Bizdən nigaran olma! Necə olsa, dolanacağıq, vətən qürbət yeri deyil!

- Evdə beş manat xərclik görməsəm, necə gələ bilərəm, ay anam gəlini? Elə demə! Onsuz ayağımı kənarə qoymaram. Mən səni xərcliksiz qoyub Bakıya getmərəm. Yox, necə olsa getmərəm, Büllurnisa!

- Tək deyiləm, şükür, qız yanımdadı, kürəkənin baş çəkir.

- Özüm baş çəkməsəm, rahət olmaram. Jurnaldan pul gözləyirəm, gümanım var sizə xərclik düzəldəcəyəm. Çox olmasa da, bir az düzəldəcəyəm.

Kitabların yeri taxçada boş görünməsin, ərinə ağır gəlməsin deyə, Büllurnisa oradan bir pərdə asdı. Şairin satmadığı meşin cildli kitabı, sirli bir yazı kimi varaqladı. Müqəddəs bir şey kimi aşkar bir yerə qoydu:

- Deyəsən, bu, vacib kitabdı axı?

- Vacibdən də vacibdi!

- İmamdandı, ya peyğəmbərdəndi?

- Peyğəmbərdəndi, hə!

- Hansı peyğəmbərdən?





- Bizim peyğəmbərdəndi. Şairlərin peyğəmbərindən!

- Bəs bunun sözlərindən bizə niyə oxumursan?

- Oxuyacağam, hələ özüm bir örgənim, sonra sizə oxuyum.

- Dərin sözləri var?

- Dəryalardan dərin! Qələm dünyasının soltanıdır kişi!

- Elə vücudlara atam-anam qurban!

Şair gülümsədi. Büllurnisanın sözünə şərik oldu:

- Nə qurban desən yaraşar, ay Büllurnisa!

Meydanı-səxən fərax bayəd,
Ta Təb dər u hunər nümayəd!..

Söz meydanı geniş olmalıdır ki, ilham orada hünər göstərsin (atını çapırtsın). Elə bil bu gün üçün deyib rəhmətlik!

Tahirzadə Nizaminin bu məşhur sözünü sanki kimə isə eşitdirmək istəyirdi. Mirzə Abbasqulu onu qapıda qarşıladı:

- Yenə "Xəmsə"dən deyirsən, şair!

- Mən "Xəmsə"dən demirəm, "Xəmsə" müəllifi neçə əsr əvvəl sənin, mənim dərdimi deyib, mən də...

- Sən də təkrar edirsən.

- Təəssüf ki, təkrar ilə dərdlərə bir çarə olmur.

- Çarə yolu budur ey! Körpə nəsil!

Mirzə Abbasqulu əlindəki şagird dəftərlərini pəncərəyə qoydu, dostunun halını soruşdu:

- Deyəsən, oxuyurdun, ya yazmaqla...

- Bir yazmağım yoxdur. Sən düz deyirsən, fikirləri kağıza yazmaqdan çox, uşaqlarımızın başına yazmalıyıq. Sən xoşbəxtsən ki, məktəblilər ilə vaxt keçirirsən. Yoxsa "yaza-yaza dərdimi aləmdə kağız qalmadı", oxuyan da ki, mindən bir.

- Xoşbəxt sənsən ki, hər şeirin bir aləm açır. Oxumaqda sənin bərabərin, hələ ki, yoxdur. Sənin kəlamını savadlı da istəyir, savad-

sız da. O təbiən sahibi-millətin rəhnması ola gərək.

Yenə ürəyimizi parçalama. Millətin rəhnması molla babadı, Hacı Məcid Əfəndidi hələ ki!

- Millət, millət! Ötən axşam "Məğrib günəşlərindən" birini tərcümə edirdim, ürək ağrısı, el dərdi necə gözəl əks olunub, bir məhbusun nəğməsini Maksim Qorki ümumi bir dərd kimi duyub yazıb. Çox mənalıdır!

- Yanındadır? Gətirmişəm.

- Hekayədi?

- Xeyr, kiçik nəğmədi.

- Göhər də kiçikdir.

- Doğrudan, cavahir kimi bir şey. Şeir də yox, nəğmə.

- Qorkini ədib deyirlər.

- Şeiri də var.

- Maraqlıdır.

- Müxtəsər bir parçadı, istəyirəm sizə oxuyam, çapdan qabaq.

- Tahirzadə kürsünü çəkib dostunu əyləşdirdi, şagird dəftərini onun əlindən alıb, bayaqkı kimi ucadan oxudu.

Mirzə Abbasqulu aralı sətirlərdə səliqə ilə gözəl xətt salmışdı. Baxan bilərdi ki, bu, birinci və ya ikinci surət deyil, dönə-dönə ağardılmışdır. Yazı adamın üzünə gülürdü. Tahirzadənin məyus gözlərində qığılcım oynadı, çöhrəsi açıldı. Əlindəkini öz şeiri kimi həvəslə oxudu:

Gün ki səhərlər çıxar, axşam batar,
Əksilməz zülməti zindanımın.
Sanma ki, bir ləhzə keşikçim yatar,
Fikri qalıb məndə nigəhbanimin.
Hər necə istərsən elə çək keşik.
Arxayın ol mən buradan qaçmaram...



Tahirzadə dayanıb astadan danışdı:

- Ay yazıq! Ay yazıq məhbus. Qarovula da necə hörmət edir. Onun da vəziyyətinə acıyır:

İstəyirəm gərçi mən azadəlik,
Zənciri amma qoparıb açmaram.
Ah, siz, a zəncir, a zancirlərim!

Tahirzadə əlini əlinə vurub bərkdən dedi:

- Ah, siz, a zəncir, a zəncirlərim!

Mirzə Abbasqulu, burada lap tüğyan eləmisən. Zindan zəncirləri qulağımda səsləndi. Əsarətin dəhşəti məni titrətdi. Buna heç kəs tərcümə deməz, dostum! Bu sənin sinəndən gələn alovlu naladir ki, həmin şeirə salmısan! Çox da yaxşı gətirmisən, əllərin var olsun.

Ah, siz, a zəncir, a zəncirlərim!

Bu zəncirlərin dəhşəti... dostum, əsarətə nifrəti belə ədiblərdən öyrənmək lazımdır.

Mirzə Abbasqulu şeirinin bu qədər təhsinə layiq olduğunu körüb qızarmışdı. Dinməz-söyləməz müsahibinin üzünə baxır, daha nələr deyəcəyini gözləyirdi. Tahirzadə şeiri kəsdiyinə üzr istədi:

- Bağışla, qardaşım! Daha həyəcanlı səslə davam etdi:

Ah, siz, a zəncir, a zəncirlərim,
Siz də dəmir bəkçisiniz hər zaman,
Sizləri müşküldür açıb sındırım.
Çatladı bağrım, aman Allah, aman!

- Bunu Qorki bizim millət üçün deyib:

Çatladı bağrım, aman Allah, aman!

Tahirzadə müsahibinin qolundan tutdu:

- Bunu Qorki lap bizim millət üçün deyib, bizim faciəmizi, ikitərəfli zülmü deyib, inanın!

- Faciə bəyəm bir bizdədir.

- Bizimki ayrı dəhşətdi, zülm, zor, zəlalət bir-birini bərkidib!

- Bunu adi bir məhbus deyir.

- Xeyr, Mirzə Abbasqulu, mən Qorkini ayrı cür duşünürəm. O, bir məhbusu dindirir, amma bütün bir xalqın dərdini deyir. Nə də gözəl deyir.

- Bizdə də bu məhbuslar, əlbət ki, var!

- Bizim məhbusun zənciri ondan ağır, zindanı ondan qaranlıq, bəkçisi də ki. Allah göstərməsin, qaniçən.

Tahirzadə Mirzə Abbasqulunun çiynindən tutub, sanki ayıltmaq üçün silkələdi.

- Dostum sən, tərcümə eləməmisən, gözəl bir əsər yazmışsan, əllərin var olsun!

- "Məğrib günəşlərinin", heç olmasa, axırda şüalarını müsəlman qardaşlara çatdırmaq cəhdindəyəm.

Tahirzadə şeirin misralarını bir də təkrar edib soruşdu:

- Ah, siz, a zəncir, a zəncirlərim!

- Zindanların divarlarını dəlmək üçün bu cür söz güllələri çox lazımdır. Dostum, belə güllələr bizim bədbəxt məhbuslar üçün nə qədər vacibdir, bilsən!

- Bu tərcümədi, ya ürək yanğısından belə köks ötürmüsən?

- Müəllifi məndən bərk, köks ötürüb!

- Tərcümə əslində gərək belə olsun, nə ki Haşım bəyin Şekspir adına verdiyi cızma-qara kimi!

- Tərcümə sənətdir.

- Sənətdir, özü də bizim üçün ən mühüm, lazımlı sənətdir.

- Mətbuat da çox tələb edir.





- Hansı qəzetə verəcəksən?

- Qəzet yox, məktəb üçün yazmışam. Uşaqlara oxuyacağam. Sizin uşaq şeirlərinin necə sevildiyini məktəblərdə görürəm.

- Bir surət də ver, mən göndərim Tiflisə, Mirzə Rzaya yaxşı hədiyyə olar. Məktəb uşaqlarına belə şeirlər axtarır. O belə əsərin xəridarıdır.

- Bəyənsələr.

- Necə ola bilər ki, bəyənməsinlər. Kiçik şeirdə böyük bir qəlb çırpınır. Yoxsa, dostum, mənim zövqümə inanmırsan?

- Sizin zövqünüzə inanıram. Ancaq o zövq hamıda olmur.

- Yox, Mirzə Rza nəcib, zərrəbin adamdır. Xatircəm ol!

- Təki siz deyən olsun!

- Məhbusu belə danışan xalq xoşbəxtdir. Qorkinin şeiri çoxdurmu?

- Xeyr, azdır, amma tutarlıdır. Onun səhnə əsərlərində belə nəğmələri olur. Rusların füqəra şairi hesab olunur.

- Deyəsən, özü də ehtiyacın müdhiş pəncəsindən xəbərdardır.

- Tiflisə də gəlib. Sədi kimi çox gəzib.

- Dünyanı gördüyü üçün binəsiblərin halını dürüst bəyan eləyir.

Tahirzadə müsahibinə sanki qibtə edərək deyirdi:

- Mirzə Abbasqulu, sən çox xoşbəxtsən ki, dil bilirsən. Belə nadir vücudların asarını çox mütaliə eləyirsən. Bizlərə də yazığın gəlsin. Bacardıqca bunlardan çox tərcümə elə, qoy bizim millət də bilsin dünyada nə var, nə yox. Görsün ki, dünyada necə qələm sahibləri var. Görsün ki, zülm və zülmət təkcə müsəlmanlara gəlməyib. Ruslar kimi mədəni bir millətin də qəddar düşmənləri var. Bu düşmənlər ilə hesab çəkmək vacib olacaq. Bunsuz dunya işığı görmək çətindir. Bu tərcümələri toplayıb bir kitab təb etdirmək çox faydalı olar.

Mirzə Abbasqulu ürəyindəki mətləbi açmağa məcbur oldu:

- Məqsədim odur. İstəyirəm bu tərcümələrdən, müxtəsər də olsa,

kitab bağlayam. Məşədi Orucdan xahiş edəm...

- Orucov qardaşlarından!

- Bəli, böyük qardaş mənim tərcümələrimdən bixəbərdir.

- Təvəqqe eləyirəm, kitabını ver qabaqcan oxuyum. Bilirsən ki, mən sənin xeyirxahlarındanam.

- Neçə il möhtərəm hop-hopun pərəstişkar oxucularından biri bəndədir!..

Sanki Tahirzadənin xatirinə ayrı bir fikir gəlmişdi. Müsahibindən soruşurdu:

- Ruslarda da həmin füqəra şairini təkfir edirlər.

- Onlarda, əksinə, təhsin, tərif görmüşəm.

- Böyük millətin qəlbi də böyük olur. Amma inanmıram ki, Qorki kimi bir füqəra şairinin düşməni olmasın.

- Şairin, ədibin dostu da, düşməni də olmağı təbiidir.

- Yəqin oxumusunuz, Qoqol haqqında Mirzə Cəlil jurnalda çox şirin yazıb, çox da ürəklə yazıb. Mən bu əqidədəyəm ki, yazı gərək məhəbbətsiz, ya nifrətsiz olmasın.

- Əlbəttə.

- Yazı ürəkdən gələn bir səsdir. Ürək isə müqəddəs hisslərin beşiyidir.

- Qərbin ədibləri öz xalqlarının əzizləri sayılırlar.

- Bədbəxt müsəlman ədibləri necə?

- Onu siz məndən yaxşı bilirsiniz.

Tahirzadə güldü. Cavabını şeirlə dedi:

Harda müsəlman görürəm,
qorxuram!
Kafir olub vurun, vurun,
Rişəyi-ülfətin qırın!
Elmə yanaşdı, qoymayın,
Dərsə bulaşdı, qoymayın!...



Sənin də şairinə olan hörmət belə!
Fanatiklərdən heç bir zaman hümmət gözləmə.
Mirzə Abbasqulu.

Çox çəkmədən Səriyyə gəldi. Evdə qonaq görüb qayıtdı. Atası qızının nəsə demək istədiyini duyub çıxdı, kənara çağırdı:

- Qızım, sözün var, deyəsən?

- Dadaş, - dedi, - eşitmişəm Qənizadədən kağız gəlib.

- Gəlib, qızım!

- Qulluq düzəlirmi, inşallah?

- Düzəlir, qızım, ümidim var düzələ!

Atasının müsbət cavabından qız sevinirdisə də, o biri tərəfdən Səriyyəni fikir götürmüşdü. Düşünürdü ki, atam gedəcək. Uzaq şəhər, qürbət yer, qoca kişi, tənhalıq, kasıblıq...

- Ata, Bakı necədi, harada qalacaqsan?

Tahirzadə qızının riqqətli və intizarlı sualında nələr gizləndiyini bilirdi:

- Qızım, - deyirdi, - qalmaq yerimdən nigaran olma. Müəllimlər üçün mənzil verirlər. Məndən suvay neçə-neçələri var.

- Bəs sənə kim baxacaq.

- Özüm! Mən qürbətdə az olmamışam. Sən bilmirsən?

- O zaman...

Səriyyə atasının cavan vaxtında qürbətdə olduğuna işarə etmək istəyirdi. Amma bunu deməyə utanırdı. Atası izah etdi:

- Dağ deyil, daş deyil. Böyük şəhərdə, məişətdən nə korluq ola bilər. Təki salamatlik olsun, təki məktəb işlərimiz nizamda olsun. Nə söhbət, inşallah, beşdə, üçdə evdəyəm. Kağızım, sifarişim, gəlib-gedənim. Nə olsa, elə uzaq bir səfər deyil. Nigaran niyə olursan. Qızım, sən gərək sevinəsən, atan illər uzunu məktəbdə müəllimlik həsrətində idi. Ərizə, imtahan, vasitə... İndi, şükür, maarif dostlarının köməyi ilə məktəbə işə çağırılıram. Niyə gərək sevinməyəsən, qızım.

- Ata...

Səriyyə atasının düşmənlərindən ehtiyat edirdi. Bilirdi ki, onun bədxahları, izləyənləri çoxdur. Bir sədəmə toxundura bilərlər. Bunu dilinə gətirməyə çəkinirdi. Atası isə qızının ürəyindən keçənləri duyurdu:

- Heç fikir eləmə, həftəbaşı məktubum, köməyim burdadı, özüm orada olsam da, ürəyim burdadı. Maarifçilər çoxdur, hamısı məni istəyənlərdi. Nigaran olma!

Tahirzadə qızını qucaqlayıb alnından öpdü, evə, qonağın yanına qayıtdı. Qonaq da, deyəsən, Səriyyənin intizarından xəbər tutmuşdu. Dostunun səfərindən söhbət saldı:

- Mirzə Ələkbər, inşallah, bu il məktəbdə, Bakı məktəblərində işləyəcəksiniz?

- Bəli, səfərim var. - Müsahibinin sualını gözləmədən əlavə etdi: - Əlbəttə, bu ayrı səfərdir, Xorasan səfəri deyil!

- Bu nə səfəri olacaq?

- Məkkə səfəri!

Tahirzadənin sözü Mirzə Abbasquluya qəribə gəldi. O, heç vaxt güman etməzdi ki, müqəddəs bir ziyarətgahın adını Bakıya verələr. Tahirzadə nə qədər möminlər ilə vuruşsa da, Məkkənin ünvanına bunu deməməli idi.

- Məkkə, yəni siz Bakıyamı Məkkə deyirsiniz, Mirzə Ələkbər?

- Bəli, Bakıya indi belə ad vermək olar.

- Əstəğfürullah de, Mirzə Ələkbər!

- Niyə?

- Günah eləyirik axı.

- Əli bəy cənabları Bizans şəhərinə Məkkə deyəndə savab olur, amma Mirzə Ələkbər Bakı kimi bir fəhlə şəhərinə o adı verəndə niyə günah olur?

- Xeyr, Bakı deynən qurtarsın getsin, qardaş!





- Məsələ sözdə deyil. Min ildir qibləyə üz tutub namaz qılmaqdan alnımız qabar olub, gözümüzə də sarılıq çöküb. Oradan xiyalatdan başqa bir xeyir xəbər eşitməmişik. Amma Bakı şəhəri, fəhlənin tər töküb yeraltı sərvətləri üzə çıxardığı, gün kimi aləmə işıq verdiyi yer niyə bizə sevimli, müqəddəs ola bilməz. Əmək dünyası, məncə, ən böyük ziyarətgah ola gərək.

Mirzə Abbasqulu dediyində dururdu:

- Əstəğfürullah de, dostum! Məkkə hara, Bakı hara?

- Yox, Mirzə Abbasqulu. Mənim əqidəm belədir. Biz Ərəbistandakı qara daşı qucaqlayıb ziyarət etdiyimiz qədər burada qara fəhləni qucaqlayıb ziyarət eləsək, onun nəfəsilə yaşasaydıq, çoxdan nicat tapmışdıq. Əmin ol ki, tapmışdıq, orada Quran ayələrini, təkbirləri dinlədiyimiz qədər burada fəhlə tətillərindən gələn əsrin səsini, şüarlarını eşitsəydik, heç olmasa, zehinlərimiz xurafat pasından çox-çox təmizlənmişdi.

Mirzə Abbasqulu müsahibinin daha uzaqlara gedəcəyini yəqin etdiyi üçün söhbətin istiqamətini dəyişdi:

- Mübarək olsun səfərin, haçandı, inşallah?

- Məndən asılı bir şey yoxdur. Müfəttişlikdən əmr gözləyirik, görək haçan alınacaq.

- Yer müəyyəndimi?

- Bakıda və ya həvalisində olacağı müəyyəndi. Amma hansı məktəb olmağını özüm də bilmirəm.

- İnşallah, xəbər verərlər.

- Görək!

- Sən xilas olacaqsan. Şirvan Cühəlasının təkfirindən uzaq olacaqsan. Vay bizim halımıza.

- Şirvanlılar ilə mənim haqq-hesabım axıracan kəsilməz.

- Bakıda oturub bunlar ilə hesablaşmaq daha asandır.

- Demə. Bakıda molla babalar az deyil, cəhalət toxumu şəlğəm

kimi aləmi tutub. Sənin, mənim kimi alaqvuranlar da ki, tək-tək! Alaq otlarını qələm ilə yox, kərənti ilə vurmaq gərək!

- Molla Nəsrəddin kimi havadarı olana nə var. Mirzə Cəlil bilirmi səfərinizi?

- Arzumu bilir. Amma təfsilatı yazmamışam. O da təzə bir əsər yazıb. Müctəhidlər barəsində dadlı-duzlu bir məzhəkə yazıb, amma hələ üzə çıxarmır.

- Ehtiyat eləyir!

- Xeyr, ehtiyat eləmir. Deyir, «bişməyib», özünün xoşuna gəlməyincə aşkara çıxarmır. Xasiyyəti elədir.

- «İranda hürriyyət» hekayəsini oxumuşam, xeyli də gülmüşəm. Zahirən deyirsən, bu, bir lətifədir. Amma görürsən camaatın avamlığını aşkara çıxarmaqda münasib şəkil tapıb.

- Bizim istanbullu rəfiqlərimiz belə hekayələri bəyənməzlər.

- Onlar hamidanə yazılara çox qiymət verirlər. Məzhəki əsərləri sevmirlər.

- Hətta «İrşad» qəzetini də qədəğən etmək istəyirlər.

- Bəli, xəlifənin əmrinə görə Rusiyadan gələn qəzetlər dürüst müayinə olunur. Hər sətrindən bir hürriyyət, ya ixtilal iyi gəlir.

- Xəlifənin gücü cavan türklərə çatmasa da, qoca Qafqaz müsəlmanlarına, yəni azərbaycanlılara çatır. Əgər Mirzə Cəlil olmasa, burada saqqalı hənalı hacılar sultan Əbdülhəmidə səcdə eləyərlər. Gündə bir ehsan verilir, gündə bir hədiyyə gedir.

- Molla Nəsrəddin ayrı cür yazır.

- Ayrı cür yox, Molla Nəsrəddin xəlifəni əxlaqsız bir lotu kimi təsvir edib tanıdır. Yaxşı da eləyir ki, tanıdır.

- Necə olsa xəlifədir, Mirzə Ələkbər.

- Xəlifə deyil, xəlifə məsnədində oturan cəlladdır!

- Tahirzadə isə ən kəskin sözlərlə sultana lənətlər yağdırırdı.

- Molla Nəsrəddin daxildən az yazır.



- Daxil nəyə deyirsiniz? Məncə, sultanın 400 arvad saxlamağından, ya Məmmədəlinin vətən satmağından yazmaq yalnız xaric deyil, həm də daxildən yazmaqdır.

- Yenə necə olsa, İstanbul, Tehran, Tiflis deyil, Gəncə deyil, Bakı da deyil!

- Doğrudur ki, oralar Tiflis deyil, amma, Mirzə Abbasqulu, əgər Tiflis, ya Gəncə müsəlmanının ən böyük düşməni İstanbulda, Tehranda oturub şəriət adına boynunu yoğunladan, camaat arasına rəxnə salandırsa, bundan niyə gərək yazmayasan.

- Ondan da yazmaq lazımdır.

- Lazım deyil, vacibdir! Səni inandırıram ki, rus kazakları Təbriz mücahidlərinə divan tutduğu kimi, "yer üzünün xəlifəsi" deyilən sultan Əbdülhəmid də Qafqaz ziyalılarına divan tutur. "Füyuzat"ın bağlanmağı ki, göz qabağındadır. Əl əli yuyur, əl də dönüb ayağı yuyur. Şah da, sultan da, çar da teleqraf ilə elə mehriban danışır, doğma qardaş kimi, o, buradakının oradakı düşmənini tapdalayır ki, bu da oradakının buradakı düşməninin dərsinə baxsın. Gördün ki, buradan qaçan matrosların başına nələr gəldi. Yainki Odes tələbələrinin başına nə iş açdılar. Dünya yaman qarışıb.

- Qarışıb-eləməyib, hər kəs öz işini yaxşı bilir, müftəxorlar öz dost-düşmənini yaxşı tanıyır, münasib də rəftar eləyir. İndi zəhmətkeşlərin də yavaş-yavaş gözü açılır. Odur ki, tutaşma bərkiyir.

- Nərimanın darülfünundan qovulduğunu eşitmişəm.

- Bir onu yox, hürriyyətpərəstlərə afərin deyən, çəpik çalanları da qovublar.

- Nəsə, tələbələrdən hökumət yaman ehtiyat eləyir.

- Xain xəfgir olar. Harda bir-iki kəlmə münəvvər söz danışıldı, dərhal hökumət məmurları təpədən-dırnağa silahlanırlar. "İmperatorun düşmənləri" deyə hücuma keçirlər.

Büllurnisa çay gətirdi. Kiminsə yazdığı kağızı Tahirzadəyə verdi.

Tahirzadə gözucu baxıb qoltuq cibinə qoydu, söhbətinə davam etdi:

- Hələ harasıdır. Mənim yəqinimdir ki, hökumətin başı ayılandan, əl-qolu açılandan, arxayınlıq hiss edəndən sonra fürsət tapıb müsəlman ziyalılarının, bizim kimilərin «dərsinə» baxacaq.

- Bizim nə dərsimiz var, baxıla.

- Tapılar. Kimə istəsən dərs tapılar, necə dərs istəsən tapılar. Sən elə bilirsən, bizim "Molla Nəsrəddin"də çıxardığımız, "İrşad"da məqalə yazmağımız hökumətin xoşuna gəlir?

- Senzuranın nəzərindən kənar bir yazımız olmur ki.

- Oldu, olmadı! Hərif öz yerini möhkəm görəndən sonra neyləyir səni. Burada özünə gözdağı saxlamayacaq ki.

- Deyirsən, bizə də, bizim kimi sakit adamlara da dərs verə bilərlər.

Mirzə Ələkbər yəqinlik əlaməti olaraq əlini və başını tovladı:

- Paho! Nə danışırsan! Həmin o Sibirdə sənin-mənim üçün öyrənməli o qədər mətləb var ki! Qafqazın, ya Orta Asiyanın o qədər gözüaçıq adamları var ki, əlahəzrətin fərmanilə içərilərə aparılıblar ki, orada işgəncə dərsi keçsinlər. Sibirdə yüz ilə yaxındır ki, "itaət" dərsi keçilir.

- Bəsdir, ay Mirzə Ələkbər!

- Səni inandırıram, keçilir. Eləsi olur "itaət" dərsini qurtarır, eləsi də olur dərs onu qurtarır... Nikolayı qorxudanların hamısı itaət dərsindən qaçanlardır. Onlar ələ keçdikcə, birbaş dar ağacına gedir.

Mirzə Abbasqulu gülüb ayağa durmaq istəyəndə, Tahirzadə daha da ciddi bir əda ilə onu inandırırdı:

- Düzdür, sənin dərsin çoxdur, çox da dil bilirsən. Amma bağışla məni, Mirzə Abbasqulu, əlahəzrətin tədbirlərini, xasiyyətlərini biz əvamlar, yəni Molla Nəsrəddinin şagirdləri sizdən yaxşı bilirik. Çünki biz daha diqqətlə müşahidə edirik. Əgər bu yaxınlaracan qonşudan, yaddan bunun canına bir vəlvələ salan olmasa, ya





fəhlələrin üsyanından-zaddan baş verməsə, milli ziyalılara divan tutacağına mənim heç şübhəm yoxdur. Mən bunu aşkar görürəm. Ona görə də Bakıda olmağı, fəhlələrlə əlbir çalışmağı, onlardan öyrənməyi, onların tədbirlərilə çalışmağı daha vacib sayıram. Yoxsa kənarda adam tez çaşar, tez də məğlub olar. El gücü-sel gücü! Şair də, alim də, müəllim də eldən güc almalıdır! Mənim etiqadım bunadır! Bakı fəhləsi gündən-günə güclənir. Bakıdan gələn səslər hələlik əsrin ən güclü mahnısıdır ki, bunu eşitməyi, buna səs verməyi mən hər bir dostuma lazım və vacib sayıram. Bilmirəm sən necə?!.

- Mən də müşahidə eləyirəm, hələ ki, siyasətdən o qədər başım çıxmır, həkim adamam.

- Həkimlik, əlbəttə, yaxşı sənətdir. Adamların canını müalicə lazımdır. Amma indi bu saat bizim Qafqaz adamlarının zehnini daha çox müalicə lazımdır. Başlara o qədər mövhumat mikrobu daraşıb ki, onları təmizləmək üçün əli qələm tutanın hamısı gərəkdir yola çıxsın. Sən ki, yaxşı şairlərimizdən, çox qabil tərcüməkarlarımızdan birisən, sən də bu müalicədə, zehinlərin müalicəsində böyük xidmət göstərə bilərsən və zənnimcə, göstərəcəksən. Bayaq oxuduğun nəğmə buna sübutdur.

- Sizin satiraların müqabilində bizim sözlər bir şey deyil!

- Elə demə! Müharibə meydanında topun da, güllənin də, fişəngin də öz vəzifəsi var. Qələbə hamısının ahəngdar təsirilə əldə edilir.

Tahirzadə sanki müsahibini təslim etmək üçün sözünün təsirini ucadan, qəti verdiyi sualla yoxladı:

- Elədir, yoxsa yox?

- Düz deyirsiniz!

- Atan oldu rəhmətlik!

- Sizin təzə-təzə tərcümələrinizi gözləyirəm. Bakıda olsam da, elə hədiyyələrlə məni şad etmənizi arzulayıram.

- Bacardığımı əsirgəmiyəcəyəm.
- Mən də «Mollanın» hər nömrəsini sizə özüm göndərəcəyəm.

Dostlar uzunmüddətli ayrılıq qarşısında olduqlarını duymuş kimi mehriban-mehriban bir-birinə baxmaqdan doymurdular.



Üçüncü fəsil

## ƏNTİQƏ

Novbahar olacaq tikandan bərgi-gül izhar olur!..
M. FÜZULİ.

Doğrudur ki, yaz hər yerdə yaxşı olur, amma bizim yerlərin yazı daha səfalı olur. Səhər yerindən qalxıb həyətə çıxanda ətir iyindən valeh olursan. Ərik, gilənar, şaftalı ağaclarının çiçəyi, qızılgül qönçələri rəngdən-rəngə çalıb bir-birini çağırır. Torpaqdan yenicə baş qaldıran, zərif yarpaqları ilə dil açıb «həyat, həyat!» deyən bitkilər yerin sirlərindən xəbər verir. Qarlı-buzlu yamaclardan sızıb birləşən soyuq bahar suları axdıqca qızıb, qüvvətlənib, gənclərin gülüşü kimi şaqqıldayır, ətrafa səs salır. Quşlar budaqdan-budağa qonub cəh-cəh vurur, başlarını göyə tutub bulaq suyu kimi saf səsləri ilə günəşi salamlayırlar. Arıların çiçəklər arasındakı yeknəsəq vızıltıları arxadan axan duru kəhriz suyunun şırıltısına, yoldan gələn ayaq və təkər səslərinə qarışır. Elə bir aləm görürsən ki, dünyadan qafil olduğunu duyub təəssüf edirsən. Tez-tələsik kəndin kənarına çıxırsan.

Yollar boş və sakitlikdir. Əkinə, tikinə, ya şəhərə gedən sübhdən gedib. Yollarda ancaq təkər və ayaqizi görmək olar. Kənddən bir qədər kənara çıxanda, dayanıb təbiətin bahar həyatını dinləyəndə, mülayim səhər havasında nəfəs alanda özünü dünyanın ən bəxtiyar adamı sayırsan. Buna, doğrudan da, sənin haqqın var!

Bizim kəndin yolları bir xeyli uzaqlara qədər iki tərəfdən uca ağaclarla əhatə olunmuşdur. Yaşıl yarpaqları gün işığında gümüş kimi bərq vuran düz və canlı qələmə ağacları baş-başa verib elə ucalır ki, deyərsən, bunlar havadan, günəşdən doymur. Alçaq boylu, boz budaqlı iydə və tikənli zərişin ətri hər yana yayılır. Kökü sudan



ayrılmayan söyüd ağacları sıx və salxımlı budaqlarını yolun sağına-soluna sallayır, sanki gəlib-gedəni "əyləşib sərinləməyə" çağırır. Tək-tək görünən çinarlar isə uzun əsrlərdən xəbər verən əzəmətli dağlar kimi yerin dərinlərinə rişələnib elə möhkəm dayanıblar ki, deyərsən, bunların kökü yerin lap məhvərinə bağlıdır. Zəlzələ dünyanı tuta, bu çinarların halına təfavüt eləməz.

Kənddən bir qədər uzaqlaşanda, çəpərliklər və sonra yol boyu axan kəhriz sularının gizləndiyi böyürtkən, yemişan, yovşan kolluqları gəlir. Bu yerlərdə nə istəsən taparsan. Yumşaq torpaqlara qanad sərən almalı yemliyi, haçayarpaq qazayağı, enliyarpaq əvəlik, əməköməci, sulara sallanan yarpız, yonca, quşəppəyi, ayıdöşəyi, kölgə və sərinlik sevən çiyələk, küsəyən bənövşə, təklik sevən gülxətmi, zoğlu zanbaq, boynubükük nərgiz, gün aşiqi nilufər, dəcəl sarmaşıq, dəvəçiçəyi, məxmərgülü, dağ laləsi... axı hansı birini deyim!

Bir xeyli gedəndən sonra ağaclıqlardan uzaqlaşır, açıq düzənliyə çıxırsan. Buradan baxanda ağaclıqlar içinə qərq olan kənd artıq görünmürdü. Qarşıya baxanda isə göz işlədikcə uzanan yamyaşıl zəmilər, şəhərdən-şəhərə xəbər və işıq aparan teleqraf dirəkləri, telləri görünürdü. Quşlar bu tellər üstündə oturub dilləşirlər. Böyük yola, "köç yoluna" çıxandan sonra sükut və səssizliklər qurtarmış olur. Fayton, araba, atlı, piyada, ilxı, sürü bu yollarda az olmur. Bu saat özünüzü Şamaxı yamaclarında, dəmyə zəmilərdə, adamboyu qalxan, sütüllənən, dəniz kimi ləpələnən sıx buğda sünbüllərinin arasında düşünün!

Kəndlilər iri addımlarla şumu ölçərək toxumluq buğdanı xışmalayıb dəmyə yerlərə səpəndə şirin bir arzu ilə "ya bəxt!" deyərlər. Bu əkinin taleyi, doğrudan da, havadan asılı olur.

Dağların da öz təbiəti, öz aləmi, öz inadı var. Nəhəng bulud gəmiləri bu dağların zirvəsinə toxunaraq dənizlərdən götürdüyü ağır yükü yerə qoyur: elə şıdırğı yağış tökür ki, sel torpaqları da yuyub



dərələrə, çaylara axıdır. Bəzən də elə quraqlıq keçir ki, çəyirtkə, cücü əlindən yollardan ötmək olmur. Bitkilər, taxıllar "su, su!" deyə-deyə köyrəlir, quruyur, xəzəl kimi ovxalanıb tökülür.

Taxıl gətirəndə də üzünü görmə! Qaralan taxılda atlı gizlənir. Sünbülün hər biri adam boyu qalxır, dənin ağırlığından başını əyir, biçinçilərə gəl-gəl deyir.

Bu il taxıl yaxşı gətirib. Bəlkə ona görə, bəlkə biçilən zəmilərdə başaq eləyən yetim qız - Əntiqə ruzisini bol görüb havalanır, mahnı çağırır:

Mən gələndə gilənarlar gül idi,
Güllər açdı, bağçaları bürüdü.
Cavan ömrüm dağda-daşda çürüdü:
Kim qarğadı, mənim üzüm gülmədi,
Pəncərəmdən bir işıq süzülmədi!

Sinəm nişan oldu dağ üstdən dağa!
Ahım düşdü arana, gah yaylağa,
Qədəm basdım nə bağçaya, nə bağa,
Xəzan oldu gül, yarpaqlar töküldü,
Əlif qəddim nuna döndü, büküldü.
Hay büküldü, hay büküldü!

- Saxla, saxla!
- Vay sənin anan ölməsin səs yiyəsi!
- Bülbüldü, kəklikdi nədi, qaqqıltısını eşidirsənmi, ay İsa bəy! Bir qulaq as!
- Bu nə aləmdi, əyə?

Əntiqənin səsi qüssəli dağlara düşəndə biçinçilər dinləyib heyran-heyran qulaq asardılar. Görərdin, ya bostançılar, faytonçular hər

şeydən əl üzər, barmaq yavaş-yavaş bayatıdan, gəraylıdan, segahdan qalxan, qalxdıqca göylərə saf, şirin və davamlı zəngulələr səpən yaralı səsi ilahi bir vəhy kimi hamı axtarır:

- "Oxuyan kimdir?" "Səs hayandan gəlir?" "Afərin bunu doğan anaya!" "Halal olsun, halal!"

Görərdin sifəti mis rənginə çalan biçinçi günəşdə bərq vuran orağı çiyninə aşırıb qulaq asır. Həm də boylanaraq zəmiləri, dərələri seyr edir, həsrətli səsin sahibini axtarır:

- Ay zalımın balası, bir də dillənsənə! Ağzını bir də açsana, nə olar! Ay namərd, nə olar!

- Deyəsən, bu sözləri lap mənə qoşublar. Vallahi mənə qoşublar:

Hara qədəm basdım xəzan oldu.
Əlif qəddim büküldü, yaman büküldü!..

Oxu səsin var olsun, qocalmıyasan. Mənim halıma ağlayırsan. Səni görüm ağlar gün görmüyəsən!..

Zınqırovlu və məftiltəkər faytonların müsafir minikləri də bu səsi əlüstü seçərdilər. Bağlar arasından bu səs bir şimşək, bir fişəng kimi qalxanda cəld faytonçuyfa işarə verərdilər:

- Saxla, saxla!
- Əhməd atın başını çək!
- Bu nə aləmdi?!
- Kiri!
- Dayan!
- Sus...
- Ləvənd oğlunun balası, elə bil Qaryağdıdan dərs alıb.
- Dərs işi deyil, hacı bu vergidi, xalis Allah vergisi!
- Vergi!
- Bəli, vergidi, bədbəxtin qızı heç özü qanmır; amma vergi olmağına vergidi!..



Əntiqənin səsi zülməti yaran ani bir işıq, zülmət gecədə axan ulduz kimi paslı qəlblərə nur səpib tez ötər, təkrar olunmazdı.

- Bu kim ola, Əhməd?

- Elə adam deyil. Bu, bir yetim qızdır, hacı, adına da Əntiqə deyirlər. Qəribə adı var.

- Əntiqə ki, Əntiqə! Əcəb xanəndədi!

- Xeyr, hacı, xanəndə deyil. Yetim bir qız uşağıdı. Amma könlü atlananda əlini ki, qulağının dibinə qoydu, zalım qızı lap möcüz görsədir.

- Məclislərdə oxuyur?

- Xeyr a! Məclis nədi, zad nədi. Anası qoyarmı? Dünyasında razı olmaz. Kefi gələndə, özü havalananda oxuyur, ancaq! Yoxsa xanəndə deyil. Sənəti ona-buna su daşımaq, odun yığmaq, quzu otarmaqdır. Balaca qız uşağıdır. Di gəl ki, qüdrətdən buna elə bir məlahətli səs verilib ki, deyirsən, yeməyim, içməyim, oturum qulaq asım.

- Özü də, Hacı, inadı var, xahiş eləyərsən oxumaz, nə illah eləyərsən, oxumuyanda oxumaz. Lap yüzbaşı gələ, quburnat gələ, ağzını açmaz!

- Onun böyüyü kimdi, atası-zadı nəkaradı?

Faytonçu Əhməd atların başını çəkər, yanakı oturar, köks ötürüb Əntiqənin taleyini bir yanıqlı, nisgilli macəra kimi öz miniklərinə danışardı:

- Böyüyü-zadı yoxdu. İki il olar ki, atası yatalaqdan ölüb, bəşirovların rəncbəri idi. Fağır kişi idi. Kərim kişi. Özü də o taydan gəlmə, lüt rəncbər. Qızın tək bir qardaşı var, o da baş götürüb gedib. Deyirlər, şəhərdə çörəkxanada başını girləyir. Anası da ki, sağıcıdı.

- Qız da ki, sahibsiz!

- Bəli, qızın sahibi ola, oxudub eləyən ola...

Hacı Rəsul Əhmədin söhbətini yekunlaşdırdı:

- A rəhmətlik oğlu, mən belə adamı göydə axtarıram. Mən şəhər-

lərdə xanəndə, özü də xaçpərəstin qabağına çıxmağa müsəlman xanəndəsi gəzirəm, tapa bilmirəm. Köhnələri dindirmək olmur, ağzından qan iyi gəlir. Beləsi mənə çox lazımdır. Yemək-içməyini, paltarını verərəm, ötürərəm restorana, dolanar. Özü də şəhər yerində görüb-götürər, bir adam olar. Müsəlman balasıdır. Həmi də, savab işdi, Allaha da xoş gələr, bəndəyə də!

Xanımına yaylaq evi kirayə etməyə gələn restorançı Hacı Rəsul söhbətin davamını gözləmədən faytonçuya bərk tapşırdı:

- Əhməd, onu mənim yanıma çağır, sən Allah!

Yayın cızlamasında, iyul günortasında hava qaynar tin kimi dalğa-dalğa göyə qalxırdı. Bir-birinə sığınan bürkülü bağlarda ağac altında adam tər tökürdü. Günəş günorta yerində dayanır, bir az da aşağı enib, sanki od tökür, meyvələri tez yetişdirmək istəyirdi. Hamı kölgələrə çəkilmişdi. Kollar arasında istini alqışlayan cırcıramaların yeknəsəq və ətalət gətirən nəğməsi kəsilmirdi. İsti bərkidikcə, gözə görünməyən bu həşəratın sevinc sədası da artırdı.

Uca, enliyarpaq bir gilas ağacının altında, göy ot üstündə sərilmiş palaz üstündə ayaqyalın, başıaçıq, köynəkcək əyləşən adamlar kababa, erkək ətinin kababına müntəzir idilər.

Bağ sahibi Məşədi İsa bəy ağ lavaş, qara çaxır, sumaq və istiot üçün şəhərə atlı göndərmişdi. Məşədi İsanın nökəri Əliqulu bağdan bir qədər kənarda, böyürtkən kollarının yanında tüstülənən, cızıldayan, iyi aləmə yayılan kababın başına dolanırdı. Yaş odunları tüstü verməsin deyə, kənara atır, ətəyi ilə odu yelləyib közərdir, bişmiş tikələri süfrə kimi yaydığı ağ lavaşların arasına çəkir, soyumasın deyə, fövrən üstünü örtürdü.

Hacı Rəsul da qalxan kimi enli və yay kimi bükülmüş kürəyini gilas ağacının kələ-kötür gevdəsinə söykəyib, ağ köynəyinin enli qollarını çirməyirdi. Ağac qabığının arasından çıxıb, ağ, tərli, yağlı bədəninə daraşan xırda, sarı qarışqaları, sanki hiss etmirdi, təsa-



düfən əlinə dəyənləri tutub gözü önünə gətirir, diqqətlə baxır, sonra da yerə atıb ayaqlayırdı. Ancaq qarışqalar qurtarmırdı. Gilas gövdəsinin həm yuxarısından, həm aşağısından gəlib Hacının bədənində birləşir, istiqamətlərini itirirdilər. Hacı, sanki bunlara çoxdan alışmış kimi arxayın və bəlkə də, istirahətindən məmnun idi. O, tüklü və ətli əllərini dizlərində çataqlayıb vacib, həm də şirin söhbətə məşğul oldu. Müsahibi və uzun illərin xeyirli müştərisi saydığı bağ sahibinə ərklə deyirdi:

- Məşədi İsa bəy, ədə, o nə idi yolda bizə rast gəldi, a kişi? O nə aləm idi, mən heç onu yaddan çıxarda bilmirəm axı, a qardaş. O qızın şikəstəsinə mən lap mat-məəttəl qalmışam. Belə də səs, bu cür də avaz, belə də məsləhət olar? Düşünürsən ki, bəşər cinsi deyil, nədi, özü də belə kəndistan yerində. Lap sirrivəlxəfiyyat buna deyiblər də. Zəngulələrin gərdişi indi də qulaqlarımda cingildəyir. Vallah, elə bilirəm, Mirzə Məmmədhəsən, ya Qaryağdı oğlu dönüb qız olub, qədim xanəndələr dirilib gəlib, şikəstə deyir.

Hacı Rəsul söhbətinin bu qədər diqqətlə dinlənildiyini və ehtimal ki, hamıya xoş gəldiyini düşünüb səsinin ahəngini dəyişdi, qonağını danlamağa başladı:

- Məşədi İsa bəy, acığın gəlməsin, sizə əsl müsəlman demək qələtdi!

Hacı bu ağır hökmünün təsirini yoxlayırmış kimi bir qədər susdu, ətrafına baxındı, davam etdi:

- Doğrudan deyirəm, zarafat-zad eləmirəm. A kişi, ay zalım uşağı, sizdə heç insaf, mürvət deyilən şey yoxdurmu? İslamiyyət qanı yoxdurmu? Vallahı, özgə millətdə olsa, beləsinin saatına bir ətək qızıl verərdilər. O səsin, o verginin sahibi Şamaxı meşəsində çırpı yığır. Ayaqlarını daş parçalayır, əllərini tikan aparır, doyum qarın çörək görmür. Vallah doğru deyirəm, sizdə millət qanı yoxdur. Olsaydı, indiyəcən o yetim qız əmlik quzu kimi yamaclarda sərgərdan

mələməzdi! Dünya, aləm ayıldı, amma bizim müsəlman hələ qəflətdədi ki, qəflətdədi. Bu milləti yapon davası ayıltmadı, pund ili ayıltmadı, Rəhimxan atlısı ayılda bilmədi, həlbət ki, xanəndə səsi ayıltmayacaq ki!

Məşədi İsabəy nə isə qonağına deməк istəyirdi, amma Hacı macal vermirdi:

- Sən o ikimizin də gündə səcdə elədiyimiz Məkkəyi-mükərrəmə, sən qiblə, o uşağı çağırtdır mənim yanıma. Çağırtdır, sənin işin yoxdur. Özüm billəm neynərəm. Mənim ona sözüm var, adam göndər! Elə lap bu gün çağırtdır, qoy gəlsin, bu saat, utanmasın gəlsin!

Məşədi İsa bəyin Hacıya verəsi cavabı olmadı. Üzünü kabab çəkən, tüstüdən yaşarmış gözlərini yumub yana çevrilən Əliquluya tutdu:

-Ədə, Əliqulu, işini qurtar, get Məsmənin qızını - Əntiqəni qoy faytona bura gətir. Hacının yanına gətir, eşitdin! Evləri, bilirsən də, Cümə məscidinin dalında, Südçü məhəlləsinin qurtaracağındadır. Kimdən soruşsan, deyərlər. Di get!

Əliqulu tüstüdən qorunaraq, ağasına baxmadan, qolu ilə gözlərini örtüb dedi:

- Baş üstə, Məşədi ağa, bu saat! Qonağın xörəyini yerbəyer eləyim, baş üstə, gedərəm.

Hacı, Məşədi İsabəyin əmrini bir az da qüvvətləndirdi:

- Qoçağım oğlan, tez get, çağır, o qıza vacib sözümüz var! Deynən səni gözləyirlər. Yubanmasın!



## Dördüncü fəsil

## HƏSRƏT

İnsan xeyirxah, təmiz, ədalətli, namuslu olmaq üçün doğulur.
V. HÜQO

Çiyində çırpı şələsi olan ayaqyalın bir qız uşağı, uzun müddət daraq görməmiş dağınıq, qara saçlarını gözündən kənar edərək, qorxa-qorxa pəncərə çərçivəsinə boylanaraq dərs otağına baxırdı. Hərdən kənara çəkilir, təkrar boylanırdı.

O nə istəyirdi?

Bəlkə şələsini məktəb sahibinə satmaq istəyirdi? Yox, onun mətləbi özgə idi.

Müəllim dərsini dayandıraraq onu içəri çağırır. Uşaq isə addımlarını yeyinlədir, həftəbazarına doğru gedir. Müəllim arxadan onu səsləyir:

- Qızım, qaçma, səni məktəbə çağırırlar, niyə qorxursan? Niyə qaçırsan? İçəri gəl, uşaqlara qarış!

Qız utandığındanmı, qorxduğundanmı, deyilən səsləri eşitmədi, dalısına da baxmadan götürüldü. Sanki başağrısı duyduğu üçün sağ əlini alnına qoyaraq bir xeyli hərəkətsiz dayanan müəllim qızın dalınca baxır, dodaqaltı təkrar edirdi:

İnsan kimi bilinsə idi qədrü-qiymətin!
Açmış olduğu məktəbi-milli cəmaətin...
Qalsın nəhanə vədiəyi-fitri məharətin...
Ey dərbədər gəzib ürəyi qan olan çocuq!

Müəllim uşaqlardan birini çağırıb, stolun gözündən çıxardığı kitabı ona verdi:

- Qaç, apar o qıza ver! Deynən, müəllim bağışladı. Şəkilli kitabdı, oxumasa da, baxsın!

Qızın dalınca gedən uşağa baxa-baxa müəllim əvvəlki sözlərini qəmli-qəmli təkrar edirdi:

İnsan kimi bilinsə idi qədrü-qiymətin!
Açmış olduğu məktəbi-milli cəmaətin...
Qalsın nəhanə vədiəyi- fitri məharətin...
Ey dərbədər gəzib ürəyi qan olan çoçuq!

Şeirin son sözlərini şagirdlər eşidir, təkrar edir, yazmağa çalışırdılar.

Müəllim o qızı tanıyırdı. Bu, dul Məsmənin qızı Əntiqə idi. Əntiqənin pəncərədən boylanması ilk dəfə deyildi. Hər gün yol ötəndə dayanar, bir neçə nəfər uşağın skamyada səliqə ilə oturduğunu, müəllimə qulaq asdığını, oxuyub-yazdığını görəndə, şərqi səsini eşidəndə nə qədər həsrətlə, sinə dolusu ah çəkərdi. Nə olaydı, onu da bu dərs otağına buraxaydılar, oturmağa qoyaydılar. O, bunların heç birindən mərifətsiz oturmaz, pis oxumazdı. O, müəllimin sözlərini mahnı kimi oxuyardı. Hər gün yuyunub tərtəmiz gələr, müəllimin da sözünə baxar, bir dəfə deyən olsa, kitabı əlüstü əzbər bilərdi. Şərqini, şərqini də bunlar kimi yox, bülbül kimi oxuyardı!.. "Dünyada yetimlik nə pis şeydir! Ata, ata nə yaxşı şeydir. Atam olsa, bəlkə, məni də oxudardı".

Əntiqənin nə atası, nə pulu var idi. Ancaq sönməyən, getdikcə alovlanan həvəsi var idi.

Bir dəfə oxumaq həsrətini dilinə gətirib, anasına deyəndə Məsmə arvadın gülməyi tutmuşdu.

- Qızım, başına hava gəlib-nədi, anan nə hayda, sən nə haydasan! Mən səni böyüdüb bir tikə çörək gətirən, əldən tutan, özümə kömək



eləmək istəyirəm. Sən gör nə boş xəyalata düşürsən. Oxumaq nədi, yetim qızsan, Allahyar bəyin, Hacı Məcid əfəndinin balası deyilsən ki! Bizə nə yaraşır məktəb, oxumaq-filan! Oxumaq axundun, bəyin, tacirin qismətidi. Bizlərə, kasıb-kusublara yaraşmaz. Sənin nəyinə yaraşar gedib boş-bikar oturub çərəkə höcələyəsən. Evə də qayıdanda acından qursağını ovuşdurasan. Ondansa, meşədən beş dənə çırpı gətirərsən, ya ot yığar, başaq eləyərsən, beş-üç qəpik çörəkpulu çıxar! Oxumaq sənin harana yaraşır. Qapazlı başına, ac qarnına, çılpaq əyin-başınamı? Bu sifətdə heç səni uşqol uşaqlarının yanına qoymazlar! Uşqolun geyinib-kecinməyini görmürsənmi? Bəy balası kimi! Səfih olma, o xəyallara-zada düşmə, ac qalarsan! Başını sal aşağı, kasıblığını elə. Anana da yazığın gəlsin!

Əntiqə anasının nəsihətlərini sükut və üzüyolalıqla eşidər, belə işlərə uymaqda özünü, doğrudan da, günahkar sayardı. Amma, nədənsə, "uşqol" uşaqları, onların qabağındakı dəftər, əllərindəki qələm bir dəqiqə də Əntiqənin həsrət gözündən getməzdi.

O bilirdi ki, oxumaq ona qismət olmaz. Yəqin edirdi ki, bunlar boş xəyalatdır. Anasının dediyinə əməl eləməyə, «uşqol» sevdasını başından atmağa səy edirdi. Amma bu xəyalat onun aydın uşaq zehninə dolub daha çıxmırdı. Yatanda da, həyəti süpürəndə, ocağı qalayanda, meşədə quru budaqları çətin qanırıb qıranda da, yalın ayağını tikan, çınqıl parçalayanda da qulağına məktəb uşaqlarının şərqi səsi gəlirdi. Onu qoysaydılar, günlərlə yeməz, içməz, sinif pənçərəsinin qabağında dayanıb müəllimin, o mehriban, nurani kişinin səsinə, uşaqları dindirməsinə qulaq asardı. Dərsə gedən, buzun üstündə sürüşüb yıxılan uşağın nağılını dinlərdi.

«Ax, dərsə gedən uşaq nə xoşbəxt idi. Mən razı olardım, hər gün sürüşüb yıxılam. Qolum sına, üzüm-gözüm yaralana... Təki dərsə gedəydim. Qoltuğumda çanta, əlimdə qələm tutaydım, dərs yolunda quldur da, canavar da, ayı da, ilan da dayansa, qorxmazdım..."

Əntiqə yuxusunda gördü ki, qardaşı Bəndalı şəhərdən qayıdıb. O soyunmadı, çarığını çıxarmadı, çomağını da küncə qoymadı. Harasa tələsirdi:

- Qız, - dedi, - bəri gəl!

Əntiqə onun qabağına qaçdı, sevincindən qucağına hoppanıb öpmək istədi. Qardaşı onun əlindən tutub apardı.

- Dadaş, hara gedirik?

Bəndalı, deyəsən, hirsli idi. Cavab vermədi. Əntiqə qardaşının iri addımları ilə ayaqlaşa bilmirdi. Qaça-qaça gedir, soruşurdu: "Dadaş, məni hara aparırsan? Anam qaldı axı!"

Bəndalı yenə susurdu, qabağa, lap uzaq üfüqlərə baxırdı. Yol isə uzun, sakit idi.

- Dadaş?

- Kiri!

Onlar getdikcə gedirdilər. Əntiqə bir də özünü məktəb qabağında gördü. Qardaşının ətəyindən tutmaq istədi. Bəndalı qoymadı, qabaq tərəfə işarə elədi: «Gör kimin hüzurundasan!»

Tahirzadə sanki çoxdan dayanıb onları gözləyirdi. Xoşgəldin elədi. Əlini Əntiqənin başına çəkdi. Qız başını qaldıranda başında piləkli araqçın gördü. Əlinə aldı. Zər haşiyəli qırmızı məxmər üstündə nəsə parıldayan yazılar var idi. Əntiqə araqçını tez başına qoydu. Müəllim bəyəndi:

- Əcəbdi! İndi, qızım məktəb şərqisini oxusun, biz də eşidək!

Əntiqə utandı, Bəndalının üzünə baxdı.

- Oxu, qız, müəllim sənin atandır, nə utanırsan!

- Əntiqə altdan yuxarı müəllimin üzünə bir də baxdı. O gülümsəyir, Əntiqəyə baxır, sanki dodaqlarının tərpənməyini, şərqini gözləyirdi. Əntiqə əllərini kəmər kimi çataqladı, gözünü yumub ucadan hava ilə oxudu:





Məktəb, məktəb, nə dilguşasən!...
Cənnət, cənnət desəm sənə səzasən...
Dəftər-dəftər xəbərlərin var,
Rəhbər-rəhbər əsərlərin var,
Mişkin-mişkin qələmlərində,
Ahu-ahu nəzərlərin var!

Əntiqə öz səsinə yuxudan ayıldı. «Bismillah» dedi, dərindən köksünü ötürdü. Bədəni tər içində idi. Yorğanı aşırdı, əlini başına atdı, palaz üstünü axtardı, piləkli araqçından bir əlamət yox idi. Anasını oyadıb kəsmə-kəsmə yuxusunu danışdı. Məsmə təsəlli verdi:

- Oxumaq xəbərdi, qızım, qardaşın gələcək. Araxçın da muştuluqdu, qorxma, yuxun çin olacaq, muradına çatacaqsan, başın uca olacaq!

Doğrudur, Əntiqə anasının son sözünü anlamadı, ancaq soruşmadı da, güman etdi ki, «murad» qardaş deməkdi: «Anam Bəndalını deyir».

Əntiqənin dərs həsrətini anasından çox müəllim Tahirzadə bilmişdi. Başında suya çəkilmiş paltar qalanmış ləyən aparan Məsmə çaydan qayıdanda Tahirzadə onun əhvalını soruşdu və uşaqdan söhbət saldı:

- Məsmə bacı, qızın oxumağa çox can atır, çox-çox!..

- Mirzə Ələkbər qardaş, deyirlər, kasıbın bəxti hər yandan bağlanar. O da mənim bir dərdim. Mən çörək-paltar hayında, qız oxumaq hayında. Uşaqlar anlamır ki, oxumaq bizlər üçün deyil.

Tahirzadə Məsmənin sözünü kəsdi:

- Məsmə bacı, - dedi, - qıza nahaq anlamaz deyirsən. O, çox həyalı, mərifətli uşaqdır. O gün pəncərə qabağında görüb çağıranda utandığından birbaş götürüldü. Zehni, anlağı var. Ancaq pulu yoxdur! Var-dövləti yoxdur. Necə deyərlər: "Adın nədir, dərviş, pul ilə aşır hər iş! Adamı adam eyləyən paradır. Parasız bir kəsin üzü qaradır!"

Zəmanə belədir! Keçmişdə deyərdilər, nə hal ilədir, nə mal ilədir. Fəqət ululuq, kəmal ilədir! Məsmə bacı, indi bu sözlərin bazarı gedib. İndi pul olan yerdə qotur keçi Hacı Fəzlüllahdır!

Bunu sən yaxşı bilirsən, uşağı da danlama! Sən onu düz deyirsən ki, oxumaq kasıblara müyəssər olmur. Amma mənim sözümə baxsan, heç olmasa, boş vaxtında onu buralara, məktəbə göndərərsən, heç olmasa, əlif-beyi bilsin. Nə eybi! Yaxşı səsi də var, qoy savad öyrənsin. Səndən pul-zad istəyən də yoxdur. Əntiqənin xərci bizim boynumuza, burax, qoy gəlsin, kitab-dəftər də tapılar!

Məsmə razılıq elədi:

- Çox sağ olun, Mirzə Ələkbər qardaş, Allah sizə ömür versin. Ancaq mən də təkəm. Oğlan şəhərdədi. Şəhərdən də bir xəbər-ətər yoxdur. Bircə ümidim Əntiqəydi, yanımda tək bircə köməyimdi. Yenə əlimdən tutur. Necə olsa, çırpı gətirir. Çox sağ olun, Allah sizdən razı olsun!..

Məsməni bağa, Hacı Rəsulun yanına çağıranda qadın təşvişə düşmüşdü. Güman etmişdi ki, «Tahirzadə uşqola deyib, qızı əlimdən alacaqlar. Allah xeyir eləsin!..»

Hacı Rəsul Məsməni pis qarşılamadı.

- Ay arvad, sən çox xoşbəxt adamsan ki, belə maral kimi, tuti kimi qızın var. Heyifdir, onu buralarda, dağda-daşda çürütmə. Onu oxutmaq istəyirik. Bütün xərci də bax mən Hacı Rəsulun boynuna.

Hacı ağ, iri əli ilə açıq, qırmızı boynuna elə bərk şapalaq vurdu ki, səsi qonşu bağda da eşidildi:

- Eşidirsənmi, özüm çəkəcəyəm xərcini!

Məsmə yaşaran yaşmağı ağzından qaldırıb sol əli ilə tutdu. Sağ əli ilə də çarşabının yamaqlı yaxasını örtüb razılıq elədi:

- Mirzə Ələkbər qardaş da bunu mənə çoxdandır deyir.

- Mirzə Ələkbər kimdir?

- Mirzə Ələkbər də. Məktəbdə uşaq oxudur ha!





Məşədi İsabəy əlavə etdi:

- Sabun bişirəni deyir!

Hacı Rəsul arzuolunmaz bir adamın adını eşitmiş kimi əlini tovladı:

- Hə, şairmi? Şair deyər! Onlar söz pəhləvanıdır. Deyirlər, ancaq biz şair-zad deyilik. Biz tacir adamıq. Sözümüzün qiyməti var. Bizim sözümüzü qürbətə salmaq olmaz. Məni sən tanımırsan, Məşədidən soruşarsan, ay arvad! Mənə Hacı Rəsul deyərlər. Mən söz yox, işdən danışıram. Günü sabah uşağı gətir mənim yanıma, faytona qoyum aparım şəhərə, qalsın orda oxusun. Çörəyi-paltarı da məndən. Oxusun adam olsun!

Bir şey yadına düşmüş kimi Hacı Rəsul cəld əlini şalvar cibinə saldı. Bir göy üçlük çıxarıb Məsməyə tərəf uzatdı:

- Bu da ona paltar pulu, şəhər yeridir. Mənim yanımda olacaq, abırlı geyinsin. Çitdən-bezdən al, əyin-başını düzəlt, səhmana sal! Göndər gəlsin, eşidirsənmi?

Hacı Məsmənin sükutunu görüb şübhələndi:

- Bəlkə azdır?

- Allah razı olsun!

- Az olsa yenə verrəm! Mənə Hacı Rəsul deyərlər, tanıginən! Qızın mənim yanımda qalıb oxuyacaq, islam millətidir, qeyrəti mənə düşür. Bütün xərci də məndən. Buna ki, sözün yoxdur?

Məsmə başını aşağı salıb, çətin bir mətləb qarşısında özünü itirmiş kimi dururdu. Bir ayağını qoyub, bir ayağını götürür. Hacıya deməyə münasib söz axtarırdı ki, Hacının ağayana səsi daha ucadan eşidildi:

- Hazırla, ay xalaqızı, cümə günü gələcəyəm! Əntiqəyə ayaqqabı-filan nə lazımdır, düzəlt, yatacağı da var, ver, yoxdur, orda tapılar. Mehmanxanada mənzil var, qalar. Gözüm də üstündə olacaq. Nigaran qalma. Mənim ona səndən az ürəyim yanmır. İslam qızıdır, öz

müsülmanımızdır. İstəyirəm dağdan-dərədan yığışsın, adam olub cəmiyyət içinə çıxsın. Belə qalmasın. Bildin, ya yox?

Məsmə arvad Hacının son sözünü başa düşmədi. Hacı səsini daha da ucaldıb ona bir qədər də kəsərli ahəng verdi:

- Adam içinə çıxsın, deyirəm, adam içinə! Meşədə porsuq kimi eşələnib çırpı yığmaq ilə heç nə olmaz. Xalaqızı, xariciləri görmürsüz, eşitmirsiz necə dıxniqaya, ticarətə əl qatıblar. Amma müsürmanı harda görərsən, hamballıqda, harda görərsən, mücavirlikdə, kankanlıqda, ilan oynatmaqda, ələk toxumaqda. İndi ayrı zəmanədi, ay müsürmanlar. İndi iyirminci vekdir ey!

Bəsdir daha! Bizim borçumuzdur, heç olmasa, fərzəndani-milləti, cavanlarımızı oxudub kamil eləyək. Hərəsini bir dərsə, sənətə qoyaq! Mənim, düzdür, öz övladım yoxdur. Allah bu işdə məni qarğayıb. Amma qapımda neçə-neçə adam, nökər-nayib dolanır, çörək yeyir. Bəlkə məni saxlayan elə onların duasıdır. Dünya-aləm şahiddi ki, onların bir quruş mənə xeyri yoxdur, savay Allah rizası. Deyirəm, bir tikə çörəkdi, qoy yeyib dolansın, acından ölməsinlər. Çünki qeyrəti mənə düşər. Başımdan əlli dava keçib, amma heç tük qədər sədəməsi toxunmuyub. Çünki niyə, Allahımı unutmamışam. Toyuq toyuqdu, bir su içər, bir də göyə baxar, fağır-füqəraya əl tutmuşam, elə biri də, lap olsun sənin qızın!

Düzdü, hacıyam, dindirsən, beş kişinin biri deyərlər, hələ bəlkəm də artıq! Varıdatım az deyil, amma beş şahı sabahkı günə yığmaq niyyətim yoxdur, olmuyub! Niyə? Çünki bugünkü gün daha vacibdir! Hacı Zeynalabdin cənabları çox savab iş görür müsülman uşaqlarını oxutmaqda. Biz də bəqədri qüvvə! Bizim də borcumuzdur. Şamaxılı Şamaxıdan, gəncəli Gəncədən, şəkili Şəkidən nə ki imkan var hümmət eliyək. Buxaralı Buxaradan, Bağdaddan, Tehrandan-müsülman gərək əlbir, dilbir səy eləsin. Peyğəmbər özü buyurub: "Əlmüsliminə əxvətün!", yəni cəmi müsülmanlar qardaşdır!



Hacı Rəsul söhbətinə bir az ricət verdi:

- Xalaqızı, mən səni nə tanıyıram, nə qohum-qonşuluğum çatır. Ancaq sənin o qızındakı həvəsi mənə danışdılar. Onun yetimliyinə, ağır güzəranına mültəfit olsun, doğrusu, qəlbim parçalandı. Necə olsa, qız uşağı, ac, lüt, özünün də ki oxumasını, səsini eşitdim, elə o saat faytonda uşaqlara tapşırdım ki, bu qızı çöldə, vəhşilər içində qoymaq olmaz. Elə o saat tapşırdım, bilmirəm, sənə dedilərmi? Elə o saat!

Hacı köynəyinin qolunu qatlayıb ətrafına baxındı, oturanların diqqətini cəlb etmək istədi:

- Xalaqızı, fikrinə də gətirmə ki, Əntiqə qız uşağıdır, ya filan! Yalançı mollalar indiyəcən şəriəti düz anlatmayıblar. Tərsinə şərh ediblər. Onlar molla deyil, mollanümalardır. Şəriət unas tayfasına dərsi haram buyurmur. Xeyr, əsla! Şəriət sahibi deyir, oxu, elm kəsb elə, bəşərtəha isməti, irzi, namusu mühafizət elə! Bəli, əsl Allah kəlamı budur! Yoxsa ki, avamlıq? Xeyr, xeyr! Xaçpərəst qızları oxuyub, baxıb-görürsən olub sənət sahibi, bizimkiləri çadra altından buraxmayıblar. Xaçpərəst gedib qabağa, biz qalmışıq dalda. İndi bizim borcumuzdur. Mən deyənə mültəfit olursan, başa düşürsən, ya xeyr?

- Bəli, Allah razı olsun, Allah sizin kimi möminlərin sayəsini bizlərin başından əskik eləməsin, Hacı ağa!

Hacı, Əliqulunu səslədi:

- Əliqulu o kababdan, pamidordan bir az lavaş arasına qoy, ver xalağızına. Yol gəlib, iy dəyər. Bir-iki tikə! Qoy yesin!

- Xeyr, zəhmət çəkməyin, toxam.

- Əliqulu, sən mən deyənə bax!

- Xeyr, Hacı heç iştahım yoxdur!

- De yeri, xoş gəldin! Cümə günü uşağı gətir, hələ-həlbət!

Məsmə arvad çox söz demək istəyirdi. Özünün təkliyini, Ənti-

qənin körpə olduğunu, şəhər görmədiyini, utancaqlığını bəhanə gətirmək istəyirdi. Bir də qardaşından, Bəndalıdan icazə almalı olduğunu xatırlatmaq istəyirdi.

Ancaq Hacı ona danışmağa macal vermədi. Məsmə əlindəki göy üçlüyü, murdar bir əski kimi kənar tutmuş, hara qoymaq lazım olduğunu kəsdirməmişdi. Əliqulu lavaş arasında iki yanmış sümük gətirdi. Məsmə ona yaxın durmadı, dirsəyi ilə rədd işarəsi verdi.

- Payın artıq olsun, mən orucam, nəzir eləmişdim, çox sağ olun! Əliqulu sümükləri gətirdiyi kimi də geri apardı, kababın içinə atıb, lavaşı dişinə çəkdi.

Doğrudur, Məsmə arvad bağlar arasından yenicə gülünü töküb noxud boyda qoralar bəsləyən tənəklər arasından gedirdi, özü də yeyin gedirdi. Kənardan baxan onu mətləbinə çatmış, ya da bir vacib iş üçün tələsən adama bənzədə bilərdi!

Məsmə arvadın başında intizarlı fikirlər bir-birini təqib edirdi. Qəlbində təlatüm gəzirdi. Nə olacaq? Görəsən, necə olacaq?.. Qızı kim saldı bunların dilinə. Tifil uşaq, yeni şəhər, qürbət, ata yox, simsar yox!.. Bu, müəllimlərin işidirmi? Hacının öz işidirmi? Əntiqənin işidirmi? Neyləyək, necə eləyək? Gələrsən, verməzsən, hamısı şəhərin mötəbərləri, sözü pristava çatdırarlar. Anası ölmüşün işini daha da bərkidərlər, gələrsən, rüsxət verərsən, buraxarsan, necə getsin!.. Əntiqəni kimin ümidinə şəhərə qoyum, necə göndərim!.. Bəndalı eşitsə nə deyər. Acıqlanarmı, xoş olarmı? Bu yandan da uşaq ac-susuz, buralarda qalıb nə yeyəcək. Çırpısı onun heç qarın çörəyini görmür...

Məsmə bir fikrə gəlmiş kimi başını qaldırdı, öz-özünü danladı: yox, yox! Saxlamaq axmaqlıq olar. Kim demiş, dərgah qapısı, köpək yuxusu söhbəti olar. Hər adamın uşağını istəmirlər, istəməzlər də! Əntiqənin həvəsi ayrı həvəsdi. Ona görə çağırırlar. Yoxsa şəhərdə nə çoxdur yurdsuz-yuvasız uşaq, üzünə baxan kimdi? Adını



tutan, yaxına qoyan kimdi?! Əntiqənin səsi ayrıdır, Allah bədnəzərdən özü saxlasın!

Zehnini məşğul edən fikirlər, sanki Məsməni ağırlaşdırmışdı. O, bağlar arasındakı yaşıl, yumşaq mərzlərdən başıaşağı, ağzı yaşmaqlı, ayaqyalın yeriyirdi. Fikrinə gəlmirdi ki, bağbanlar onu yarpaq, meyvə oğurlayan zənn edib danlayarlar. O öz aləmilə elə məşğul idi ki, nə çənəsindən axan tər damlalarını görür, nə cırcıramaların səsini eşidir, nə ağaclar arasındakı bürkünü duyur, nə də addımbaşı, otlar içində sağa-sola ötən kərtənkələlərə baxırdı, O, fikir-xəyala cummuşdu. Bilmirdi nə eləsin. Uşağını Hacı Rəsulun ixtiyarına necə versin, necə verməsin!

Bağlardan çıxıb aşağılara enəndə, dumduru çay suyunun tələsirmiş kimi sağa-sola çarparaq axdığını görəndə Məsmənin ürəyindəki yanğı artdı. Özünü çay kənarına yetirib tumanının balağını qıçları arasına yığdı, ovcunu doldurub sərin sudan içmək istədi. Ovucla doymayacağını düşündü. Ona elə gəldi ki, həmin bu çayı boğazına axıtsalar, ürəyinin yanğısı yenə sönməz.

Ətrafa baxdı, haradasa təkər səsi gəlir, ağaclarda quşlar ötürdü. Məsmə əllərini çay daşlarına söykədi, üzü üstdə çaya əyilib qurumuş dodaqlarını axar suya dayadı, içdi, içdi! Qurtaqurt ilə sərin suyu boğazına axıdan Məsmənin sanki bütün ürək yanğısı söndü. Yavaş-yavaş ayağa qalxaraq ovcu ilə dodaqlarını sildi, ürəkdən dedi:

- Lənət yezidə!

Əlbət ki, Məsmə, bütün yoxsul analar kimi, uşağının xoş güzəranına, çörəkli qapılarda qalmasına razı idi. Bəndalı da yeddi yaşından nökərçiliklə böyümüşdü. Əntiqənin meşələrdə sərkərdan, yarımqarın gəzməyindənsə, Hacı Rəsul kimi mötəbər, çörəkli adamın ixtiyarında, özü də oxumaqda qalmağı xoş idi. Ancaq burası var ki, Hacı Rəsul Şamaxıda deyil, odur ey, lap uzaq şəhərdə, Bakıdadır... Bakı da, Allah bilir, necə şəhərdir. Neçə il bundan



qabaq düşmən qalmaqalının kökü Bakıdan gəlirdi. Orda adamlar tüfəng-qatara girib bir-birini didirmişlər. Varlı-kasıb davası orda lap bərk imiş. Elə zamanda nə böyük, nə uşaq! O da ki, Əntiqə kimi əlsiz-ayaqsız uşaq, elə güllə səsini eşidəndə canı çıxar.

Uşağı əldən necə verəsən. Bəlkə, nə bilim, dilim-ağzım qurusun, şər deməsən, xeyir gəlməz. Bəlkə, sabah yenə Nikolayın qəzəbi tutdu. Bəlkə, atdı-qazax şəhərə töküldü. Bəlkə, fəhlənin üstünə qoşun çağırdılar. Onda bəs necə olsun. Bədbəxt Məsmə hansı qapıya düşüb balasını axtarsın, kimdən soruşsun, nə desin soruşsun.

Deməzlərmi, ay filan-filan olmuşun qızı, bir tikə uşağın şəhərlərdə, hacıların qapısında nə iti azmışdı. Çörək verə bilmirdinmi, özün yeyənin bir parçasını ona verə bilməzdinmi? Qız uşağını soldat içinə nə əqil ilə buraxdın... Dinin, imanın harda qalmışdı?..

Məsmə fikirlər içində dolaşıb qalmışdı. Tez-tez ah çəkir, sinəsini ovuşdurur, əllərini Allah dərgahına qaldırıb yalvarırdı:

- Ya rəbbi, özün kömək elə!

Sanki bu yalvarışdan sonra birdən-birə onun başına ağıl qoydular. Sanki ona məsləhət verdilər: "Ay bədbəxtin qızı, bir məsləhət elə, bir soruş-soraqlaş, bir gör nədi, nə deyil! Əqilli adam azdımı? Niyə soruşmursan? Gündə o şəhərə gedib-gələn, hacıların işlərindən xəbər tutanlar var. Soruş, bir gör nə deyirlər, nə danışırlar. Hacı Rəsulu tanımamış olmazlar. Soruş, soraq elə!.."

"Soruşmağa qalanda, sağ odsun, adamım var!"

Məsmə bir vaxt özünü Tahirzadənin həyət qapısında gördü. "Bismillah" deyib, ayaq basmaq istəyirdi, yadına düşdü ki, indi özü evdə olmaz. Ya məktəbdə, ya dükandadır. Külfətə də niyə zəhmət versin. Bəlkə heç deməli deyil!

Addımlarını yeyinlədərək məktəb qapısına gəldi. Bu gün məktəb günü deyilmiş. Birbaş bazara yol aldı. O zaman yetişdi ki, Tahirzadə

kürsüdə oturub, şəkilli qəzetə baxırdı. Yanında da heç kəs yox idi.

- Xoş gününüz olsun, Mirzə Ələkbər qardaş, sizə bir yüngül zəhmət verəcəyəm!

Tahirzadə «şəkilli qəzeti» büküb kənara qoydu:

- Buyurun görüm. Məsmə bacı? Keçin əyləşin.

- Məsləhətə gəlmişəm!

- Mənim məsləhətim sizə gərəksə, mənə də xoşdur.

- Kömək eləyər, inşallah, o nədi əlində oxuyursan, Mirzə Ələkbər qardaş?

Tahirzadə «şəkilli qəzeti» təkrar götürüb ikiqat açdı, qadına təqdim etdi:

- Oxumasan da, şəkillərinə bax, bu bizim Molla əminin məcmuəsidir. «Molla Nəsrəddin!» Məsmə bacı, sənin etiqadın minbər mollasınadı, amma mənimki buna, bu kişiyədi. Bax, nə məsləhət istəsən, bundadır!

- Hara mollasıdı, Bakı ya...

- Yox, bu molla bütün fağır-füqəra mollasıdır.

- Harda moizə oxuyur bəs?

- Bu oxumur, yazır. Bunun moizəsi yox, gülməli, ibrətli söhbəti var. Bir qulaq as, tələsmirsən?

—Xeyr, xoş söhbətə nə var?

Tahirzadə jurnalı varaqlayıb dedi:

- Gör molla nə yazır: "Boş-boş Allahı çağırmaqla Allah göydən yerə pilləkən qoyub, enib gəlib sənə kömək eləməz..."

Məsmə dedi:

- Bu nə deyir, lap küfr danışır, Mirzə Ələkbər qardaş!

- Harası xoşuna gəlmir?

- Allah nədi, pilləkən nədi, o nə sözdür?

- Rəhmətliyin qızı, qulaq as, gör nə deyir, mətləbə qulaq as! "Lazımdır çalışmaq, çalışmaq, çalışmaq!" Uşağını qoy dərsə, dilləri



oxusun, elmlərdən, sənətlərdən xəbərdar olsun! Qoy sənət, ticarət öyrənsin. Hər nəyə şövqü var, qoy öyrənsin!

- Bu, hesabı sözdü.

- Dalısına qulaq as!

«Allahın da öz yeri var... Yoxsa arxayın ol ki, Allahı çağıran kimi gəlib sənin ciblərinə pul qoyub gedəcək... Yoxsa «bismillah» deməklə insanlar tox olsalar, dünyada müsəlmandan toxu olmaz!..»

- Mirzə Ələkbər qardaş, bu nə yaxşı hesabı danışır? Özü bizim dildə yazıb, ya sən ərəbcədən gətirirsən?

- Bu, Molla Nəsrəddinin lap öz sözüdü!

- Molla Nəsrəddin. Belə həmin o Məmmədəli şaha sataşan budu?

- Sataşmaq niyə, düzünü yazır, həmin özüdü...

- Allah onun imanını kamil eləsin, eşitmişəm, çox yaxşı molladı. O ki uşaqları oxutmaq, adam eləmək istəyir, onu görüm yüz yaşasın!

Tahirzadə güldü:

- Sənin bu xeyir-duanı mollaya çatdırmaq mənim borcum. De görüm, mənə aid nə qulluq?

- Mirzə Ələkbər qardaş, qul sahibi olasan. Elə, deyəsən, mənim mətləbimi sən ordan dedin. Mollanın ağzı fal imiş. Uşağın oxumaq məsələsinə gənəşməyə gəlmişəm. Səndən savayı kimimiz var, zəhmət də verirəm, dedim, görüm nə məsləhətdi?

- Bunun nə zəhməti var, danış!

Məsmə ətəklərini yığıb qalxan kimi oldu, qapıda görünənlərə işarə etdi:

- Deyəsən, müştərin var!.. Mişait eləyirəm!

- Bir maneçilik yoxdu. Satmalı məhsul-zad da yoxdur. Bu gün işim mollanın jurnalı ilədir. Vaxtında gəlmisən, sözünü danış!

Məsmə arvad jurnalı əlinə alıb varaqlara, şəkillərə baxdı. Soruşduğu məsələ haqqında pis bir şey eşitmədiyindən məsləhətini cürətlə dedi:

- Mirzə Ələkbər qardaş. Bakıdan adam gəlib, qızı oxumağa istəyirlər.

- Qızı oxutmaq istəyirsən? Burada niyə qoymursan, yoxsa mənim dərsimi Əntiqə bəyənmir?

- Yox, sənin Allah canına sağlıq versin, dərsinə də rəvac versin, yaxşı dərsdir. Eşitmişəm. Allah əskik eləməsin. Amma mənim təvanam hanı uşaq oxudum.

- Bəs şəhərdə necə oxuyacaq?

- Orda oxudacaqlar, Hacı aparır.

- Hansı Hacı?

- Hacı, nədir...

- Hacı Məcid?

- Yox, xeyr, Hacı Məcidə mən uşaq vermərəm, Hacı Rəsul şəhərdə tacirdir. Məşədi İsa bəyin qonağı.

- Mən onu tanımıram. Məsmə bacı, görməmişəm. Yaxşı adam olsun, sözüm yoxdur. Amma bir hacıdan danışırdılar ki, kənddə kiminsə evinə qonaq gedib, əlinə su tökən balaca qıza gözü düşüb, nə söz atıbsa, kəndli arvadlar kösöv götürüb burnuna vurublar, qovublar, o olmaya?

Məsmənin bu söhbətdən xoşu gəlmədi:

- Yox, o ayrı adam olar. Hacı Rəsul mötəbərdi!

- Təki olsun!

- Bu hacının kənddə-zadda işi yoxdur. Variyyəti-dəsgahı! Nökərnayibindən aralanmır.

- Təki ayrısı olsun. Mən tanımıram.

- Yox, insaflı, Allah adamı danışırlar. Deyirlər, yaxşı adamdır. Çox yaxşı adamdır. Yanına getmişdim. Hamını danladı, şamaxılıları. Məni də danladı ki, niyə oxutmursan, bu zəmanədə uşaq gərək oxusun. Peyğəmbər də deyib, oxusun, niyə oxutmursunuz? Tavannası olmuyanın xərcini də götürür boynuna!



- Nə yaxşı belə?

- Bəli, götürür öz boynuna. Əntiqəni adı ilə deyib tapşırıb.

Məsmə arvad əlini can köynəyinin yaxasına salıb üçlüyü yoxladı. Dilinin ucunda idi ki, Hacının bu səxavətini desin, dayandı. Əlini yaxasından çəkdi. Fikirləşdi ki: "Nə lazım, bəlkə heç baş tutmayacaq, nə lazım..."

Məsmə əlini ağzına tutub öskürdü, sözünə davam etdi:

- Sizə məsləhətə gəldim, görüm Əntiqənin şəhərdə, Hacı yanında oxumağından bir mətləb çıxacaqmı? Nə məsləhətdi?

Tahirzadə bir qədər susandan sonra qadına tərəf baxıb soruşdu:

- Niyə Hacıdan xəbər almırsan?

- Hacı deyir, yaxşı olacaq, adam olacaq, dedim, bilim görüm siz, nə deyirsiz, siz dünyagörmüş adamsız.

- Mən bilmədiyim adamdan nə deyə bilərəm, Məsmə bacı? Oxutmaq, əlbət ki, lazımdı. Əntiqənin oxumağını kim istəməz. Uşaqdır, gələcəyi var, atası yoxdur. Bizim vətən qızlarına oxumaq, göz açmaq çox faydalıdır. Amma Hacı Rəsulu mən tanımıram. İlandan şəfa məsələsi var. O bura ticarətə gəlib, müəllimliyə yox! Nə əcəb belə səxavət? Mənim belə şeylərdən gözüm su içmir.

- Məşədi İsabəyin qonağıdır. O, yaxşı tanıyır. Yaylaq qonağıdır. Hər il gəlirmiş. Deyir, Bakıda oxuyan müsürman qızı çoxdur, bu da biri! Özü də xərc tökəndi!

- Mən tanımıram. Bilmirəm, nə məqsədlə o. Əntiqəni oxumağa aparır, özü də küçələr dolusu başqa yetimləri yox, elə Əntiqəni aparır?

"Bəlkə segahına görə..." demək istəyirdi, ananın ürəyinə ayrı şey gəlməsin deyə, susdu.

Tahirzadə son sualını xüsusi bir ahənglə dedi. "Elə Əntiqəni aparır?"

Əlbət ki, bu mənalı sual nə Məsmənin, nə də qızın ünvanına idi. Ancaq bir ana kimi Məsməyə də toxuna bilərdi. Belə bir şey qadının

ürəyinə gəldi də. Tahirzadənin səsi və ifadəsindəki ciddiyyəti görəndə, Məsmə bu ehtimalı xəyalından rədd elədi. O, yəqin etdi ki, Tahirzadə "Hacının bostanına daş atır". Başa düşdü ki, onun hacılardan xoşu gəlmir. Bu da biri. Amma bunu açıq demək istəmir.

- Hara aparır, yaxşısı budur özündən əməlli-başlı soruş. Uzaq səfərdi. Bəlkə ayrı bir məqsədi var.

- Məqsədi oxutmaqdı, elə-belə, Allah rizasına!

- Allah rizasına nə əcəb götürüb bir körpü saldırmır ki, Ağsu çayı hər il aləmi basmasın. Allah rızası. Məsmə bacı, indi bu, çox dəb düşən sözdür. Özü də hacılar arasında. Hər qəsdi belə pərdələmək olur. Allah rizasına ev də yıxmaq, qan da tökmək olur. Bilmirəm indi o tacirin nə qəsdi var!

- Qəsdi oxutmaqdı, bilirəm.

- Nə deyim!.. Bəlkə ayrı məqsədi də var.

- Yox, oxutmaqdı! Çünki ayrı adamdan da soruşmuşam.

Tahirzadə Məsmənin bu işə qol qoyduğunu, Hacıya möhkəm inandığını görüb susdu. Ancaq bu sükut razılıq demək deyildi. Məsmə arvad da bunu dərhal başa düşdü. Güman etdi ki, Tahirzadə Hacının və son zamanlarda dəb düşən bir çox hacıların tez-tez evlənməsinə, gözə dəyən qızları bəlləməsinə işarə edir. Belə bir ehtimala əsas verməmək üçün cavabını təkrar etdi:

- Məqsədi elə-belə oxutmaqdı! Xaçpərəst tacirlərinin yanında ad çıxarmaq istəyir. Görür ki, onlar uşaqları ucdantutma oxudur.

Məsmə dildə bunu desə də, Tahirzadənin təkidli sualı onu düşündürməmiş deyildi. Tahirzadə demək istəyirdi ki, Hacı Rəsul boş yerə Əntiqəyə və ya başqasına xərc tökməz. Xərc tökürsə, yəqin bir təmənnası var. Bu təmənna da Məsmə arvadın nə var-dövləti, nə oğlu, nə özü ola bilərdi.

Əntiqə Hacı Rəsulun nəyinə lazımdır?

Burada iman-güman çox yerə gedə bilər. Çox söz demək olar.





Ən ağırı, ən axırı, Məsmənin fikrincə, bu idi ki, Hacı qızı böyüdüb özünə arvad eləyə bilər. Yəqin Mirzə Ələkbər dönə-dönə "Hacının məqsədi" deyə, elə buna işarə verir.

Ancaq Məsmə öz aləmində bu ehtimala pis baxmırdı: "Burada qorxulu nə var ki?" Hacı kimi bir tacirin Əntiqəni alması, "kəbin eləməsi" necə bir iş olardı.

Düzdür, Tahirzadə belə bir ehtimaldan rişxənd ilə danışır. «Amma mənim kimi bir dul arvadın qızı yüz il əlləşə, huri-qılman ola, Hacı Rəsuldan mötəbər kimə ərə gedə bilər? Allah eləsin ki, Hacının belə niyyəti olsun. Nə eybi var. Allahın əmri, peyğəmbərin şəriəti, ata-babalarımızın da adəti. Nə eybi var. Qız uşağı gündə bir arpa boy atar. Hacıdan çörəkli adama getməyəcək ki!"

Tahirzadə Məsmənin niyyətindəki meyli, Hacı Rəsulun adını təkrar-təkrar, bir az da şirinliklə çəkdiyini görüb dedi:

- Fikirləş də, gör bir Hacının qəsdi nədir. Havayı yerə bu iş olmaz. Yumurtadan yun qırxan Hacı sənin uşağını Allah rizasına aparmır, aparmaz. Oxutmaz da. Bunu yəqin bil, qız yazıqdır. Bir yaxşı fikirləş. Şirin dillər səni aldatmasın! Sabah qızın da, özün də elin qabağında peşman, xəcalət olmayın, yaxşı fikirləş!

- Fikir, fikir eləyirəm, deyirəm, ay Mirzə Ələkbər qardaş, uşaqdır, qoy oxusun da. Qaravaşlıqdansa, qoy getsin. Deyirəm, məsləhətdi. Böyüyəndə də, Allah qoysa, sağlıq olsa, mən deyən yox, Allah deyən olsa, oxumuş qız həlbət ki!.. Nə olacaq, Allah qoysa, bir günə çıxar da, inşallah nə olacaq oxumuş qıza!

- Bəndalı bilirmi?

- Xeyr, bilmir. Bir xəbər yoxdur. Ürəyim ondan sarı bir tikədir.

- Bir parça kağıza nə gəlib, yazıb soruşsanız olmazmı? İstəyirsən mən yazım?

- Yazmaq, yazdırmaq, Allah sizi salamət eləsin, yazan olar. Amma uşağın yerini bilmirəm. Deyirlər, neçə ay olar çörəkçinin

yanından gedib. Hara getdim - deməyib, yazmayıb. Arığın dəyirmançısından sifariş göndərib ki, anama deyinən salamatam, nigaran qalmasın. O da ki aydan çoxdur, təzəlikdə heç xəbər-ətər yoxdu! Anası ölmüş düşdü qürbətə, yaman düşdü.

- Məsmə bacı, qəm eləmə, oğlan uşağıdır, zirəkdir. Qürbət deyəndə, nə qürbət, Bakı budur, bir addımdı, nə olacaq, çəkişməyən bərkişməz. Qəm eləmə. Qoy bir dünyanı görsün! Yanına gedən olsa, mənə de, kağız yazım. Nə mətləbin var, yazaram.

- Allah oğlunu saxlasın, ürəyinin mətləbini versin!

Məsmə arvadın gəldiyi bağa, Hacı Rəsulun əmrinə görə gəldiyi bağa bir il əvvəl Əntiqə gəlmişdi. Əntiqə yazbaşı yox, yayın axırlarında - quyruq donandan sonra gəlmişdi. Çağırışa görə yox, fəhləliyə, meyvə yığmağa gəlmişdi.

Payızbaşı, üzüm yetişəndə "lemsə" furqonları deyilən böyük arabalar dalbadala düzülüb yük istəyəndə, bağda fəhlə qüvvəsi çatışmırdı. Bağ sahibləri uşaqları çağırırdılar. Uşaqlar qaydalı günəmüzdü istəmir, qarnına, gün çörəyinə işləyirdilər. Nə versən sevinirdilər. İkinci tərəfdən də onların çörəyi bir o qədər xərc götürmürdü. Bir badya doğramacla on-on iki fəhləni yola salmaq olurdu. Əyilib-qalxmaqdan yorulan ac uşaqlar nahara çıxanda taxta qaşıqları ələ alıb doğramaca elə cumurdular, deyirdin, bu saat gözlərinə təpəcəklər.

Əntiqənin hərdən ağzına atdığı üzüm giləlləri ürəyini lap siyirirdi. O həm qız uşağı, həm də utancaq idi. Onun qaşığı badyaya bir dəfə batıb-çıxınca başqaları yarımqarın olurdu. Məsmə qızın bağda ac qaldığını biləndən sonra düyünçəsinə çörək, pendir bağlayır, bəzən də bir parça soğan qoyurdu. Hamı nahara çıxanda Əntiqə kənara çəkilib ağac altında oturur, bəzən heç düyünçəni də açmırdı.

Əntiqə burada cümə günü, şəhərdən gələn qonaqlarda qəribə bir maşın görmüşdü. Abbasqulunun faytonunda, faytonun qozluğunda



qoyulan bir dəmir "durba" belə segah, belə çargah oxuyurdu, aşıq İslamın, Mirzə Hüseynin, Qaryağdının sözlərini belə deyirdi, əməllibaşlı bir xanəndə kimi.

Əntiqə bu işə mat-məəttəl qalmışdı. "İlahi, dəmir də danışarmı? Bunun da canı varmı?"

Qız faytonun dal-qabağına keçdi, sarmaşıq gülünə bənzər göy "druba"nın ətrafını yoxladı:

- Əmi, bu oxuyan hayandadı bəs?

- Abbasqulu adamların marağını görüb "druba"nın yanında oturdu. Onun əlcəyindən tutub burdu, burdu, iynə kimi ucu biz bir kündəni götürüb "yastı yerə" qoydu, "yastı yer" hərləndi, "durba" əlini qulağına qoyan xanəndə kimi, başladı daha bərkdən, daha yeyin oxumağa! Elə oxuyurdu, elə oxuyurdu, deyərdin, xanəndənin özüdür.

"Bu necə şeydi?"

Bütün uşaqlar heyran qalmışdılar. Əntiqə yaxın gedib faytona çıxmaq, bu işin sirrini bilmək istəyirdi. Bu nə işdir, oxuyan kimdir, dəmir də, "druba" da, qutu da durduğu yerdə oxuyarmı? Ay aman!

Faytonçu Əntiqə qızın marağını görüb yaxma çağırdı:

- Görürsən, - dedi, - necə qəşəng oxuyurlar, qızım?

Qoca faytonçunun sözü qıza cürət verdi. O, ayağını faytona qoyub yuxarıya boylandı, oxuyan "dəmirə" baxdı. Əl vurmağa qorxurdu.

Faytonçu bir də soruşdu:

- Necə oxuyur?

- Kimdir oxuyan?

- Necə kimdir, adam deyil!

- Bəs nədir?

- Əcinnədir!

Əntiqə əcinnə sözünü eşitcək geri çəkildi. Abbasqulu gülümsəyib maşının səsini kəsdi:

- Əcinnələr səni yeyər ha, gözlə, qız!

Əntiqə bir az vahimələnmiş halda kişinin üzünə baxdı, bir istədi getsin, faytonçu mane oldu:

- Dayan!

Abbasqulu duvağa, tavaya oxşayan qara, dəyirmi, yazılı bir şeyi "yastı yerə" qoydu. Əlcəyindən yapışıb yenə burdu, işklini necə elədisə, dəmir daha bərkdən oxumağa başladı:

Mən Abbasam, yollar üstdə duraram,
Gah yalvarar, gah boynumu buraram...

Əntiqə diksinib geriyə çəkiləndə faytonçu qəh-qəh çəkdi, sözünü dəyişdi:

- Qorxma, - dedi, - qızım, əcinnə-zad yoxdur.Bu maşındır, qramafondur. Xanəndələr oxuyanda səsini bax, bu vallara salırlar, sonra iynə ilə cızanda səsi təzədən qalxır. Burda qorxmalı bir şey yoxdur. Şəhərlərdə bu maşından çoxdur. Bayaq oxuyan Mirzə Hüseyin segahı idi. İndiki də Qaryağdı oğlunun səsi. Allah qoysa, sən də böyüyüb oxuyanda səsin bura düşər. Qorxma, yaxın gəl, qulaq as, hələ valımız çoxdur. Aşıqlardan da varımızdır, gəl, qorxma!

Əntiqə o günü heç bir zaman unutmaz. "Oxuyan" maşının səsi indi də qulağında cingildəyir. Onun sözləri də dilinin əzbəridir; O maşında neçə mahnı, ya neçə qoşma eşitmişdi, hamısı yadındadır!...

Bakıya getmək xəbərini eşidəndə sevinmiş, gecə səhərəcən yatmamışdı. Güman edirdi ki, o da məktəb qapısından salam verib içəri keçəcək, o da skamyada oturub əlinə qələm alacaq, kitab oxuyacaq, şərqi deyəcək, cərgəyə düzüləcəkdi. Onu da mirzələr dindirəcək, öyrədəcəklər. Onun da məktəb yoldaşları, onun da deyib-gülən günləri olacaqdır. Görəsən, olacaqdımı?

Uşaqlıq! Nə şirin, nə təmiz, nə gözəl aləmsən!



İnsanlar sənin səmimi aləmindən uzaqlaşmasa, sənə ancaq kamillik gətirib artırsa, dünyada nə xoşbəxtlik olardı... Uşaqlıq dövrü! Hər kəsin ömründə ən təmiz, ən qayğısız aləm sən deyilsənmi?

Nə gözəldir uşaqlıq əyyamı!
Uşaqlıq həyatı!

Ətbala quş qanadlar altında pərvəriş tapan kimi, sən də isti ana qucağına sığınır, bütün dünyanın səadətlərini bu doğma yurdda tapırsan. Sən burada hər cür naz-nəvaziş, şıltaq və əyləncələrlə zənginsən. Burada sən məğrur, tox, güclü və yüksəksən! Burada kimsəyə boyun əyən deyilsən. Ananın qucağında isindikcə, mehriban əllərilə tumarlandıqca, doğma südü ilə bəsləndikcə, nəfəsini duyduqca heç bir şey sənin üçün qorxulu deyil. Göylərin də, yerlərin də sultanı sənsən!

Sən istəyəndə soyuq olur, sən istəyəndə isti olur. Sən istəyəndə işıq yanır, istəməyəndə sönür. Sən istəyəndə susur, istəməyəndə dillənirlər. Hər şey sənin hüdudsuz körpəlik hakimiyyətinə tabedir!..

Bəli, Əntiqə belə bir aləmdən qopub ehtiyacın çətin səhnəsinə təzəcə düşmüşdü. Körpə qayğısızlığı, naz-nəvazişlərinin hərarəti damağından getsə də, ana qüdrətinin böyüklüyünə, ana gücünün hüdudsuzluğuna inamı davam edirdi. İnanırdı ki, ana istəyən şeylərin hamısı yaxşıdır. "Anam Hacının sözünə razı olub məni şəhərə buraxır, deməli, bundan yaxşı şey ola bilməz. Mən oxumağa gedirəm. Hacı məni məktəbə qoyacaq... Mən də oxuyacağam!"

Üstü çatmalı malakan furqonu məscid qabağında dayandı. Ağafan üzünü yuxarıya, dar küçə boyu yan-yana söykənən balaca həyətlərə tutub səsləmək istəyirdi ki, əlində çamadan olan qarapapaq, qara arxalıqlı, misri çuxalı, ortaboy bir adamın tələsik aşağı endiyini gördü.

- Sabahın xeyir. Ağafan!

- Allah saxlasın!

- Çoxdanmı qoşmusan?

- Elə bir hovur var çıxmışıq!

Ortaboy adam "ya Allah" deyib arabaya çıxanda oradakılar salam verib sıxlaşdılar, yer eləmək istədilər. Ağafan onlara işarə verdi:

- Siz rahət olun. Mirzə dadaş mənim yanımda əyləşəcək!

Ağafan bunu deyib quru ot üstünü sahmanladı, qonağa təklif etdi:

- Mirzə dadaş, buyurun, rahət əyləşin!

Tahirzadə "narahat olmayın" deyib cəld əyləşdi, başı ilə camaata salam verdi.

Furqon şəhərdən çıxıb dolayı yol ilə yoxuşa dırmaşanda gün yenicə üfüqdən qalxıb yaşıl dağların başına şölə salmışdı.

Daşlıq yolun kənarlarında ot-ələf elə ucalmışdı ki, deyərdin, buralar xüsusi biçənək yeridir. Bir az yuxarıda, Ağsu yoxuşunda isə mənzərə tamam dəyişirdi. Təpələr, yamaclar boyu uzanıb gedən buğda, arpa zəmilərindən, meşədən çiçək ətri gəlirdi. Adamboyu qalxan, yenicə saralmaqda olan dolu sünbüllər baş-başa verib sanki biçinçilərin orağını gözləyirdi.

Təpənin başında, gödə' yerlərdə isə təkəm-seyrək qaraçı köçü və ya çoban düşərgələri görünürdü. Boz çoban itləri quduz kimi yüyürüb furqonun dal-qabağında hoppanır, hürüşürdülər.

Tahirzadə qabaqda əyləşsə də, içəridə iki cərgə oturan miniklərə diqqət yetirirdi. Bunların çoxu Bakıya gedənlərdi. Dizlərini köhnə bir şala büküb oturan bir qarının yanındakı ağbəniz cavanın naxoş olduğu ilk baxışdan məlum idi. Yəqin ki; qarının oğlu idi. Qarı dəqiqədə bir onun halını soruşur, bardaqdan su verir, yerini rahat-

1. Sürülməmiş, xam torpaq.



layırdı. "Daqqa" papağını əlinə almış, başında ağ araqçın olan gümüş toqqalı, qırmızı xətli şişman bir kişi isə təkər səslərinə, gurultuya baxmadan adamlara hədis' danışırdı.

Tahirzadə Ağafanın işarəsindən bildi ki, qırmızı xətli adam Hacı Rəsuldur. Məsmənin qızı Əntiqəni bu çağırıb. Oxumağa bu aparır.

Hacı Rəsul Tahirzadənin suallı baxışını görüb əllaməlik büruzə vermək istədi. İbarə ilə sözə başladı:

- Məşədi, sizə agah olmamış olmaz ki, biz müsəlmanlar hələ ayılmamışıq. Yer üzündə cəmi millətlər ayılıb öz təklifini qanıblar, islam dininin mübarək ehkamından faydalanıblar. Amma biz bədbəxt müsəlmanlar, dini-möbinin, şəriətin haqq, müstəqim yolundan ki, azmışıq, həmişə zəlalətdəyik. Baxüsus da ki, bizlər olaq, yəni məhz Qafqaziya müsəlmanları!

- Düz buyurursunuz, haçı!

- Bunları o babətdən deyirəm ki, oxumağın, elmin fəzilətini Allah-təala Quranda bizə buyuranda, vacibəl-vacib buyuranda hələ xaricilər aləmi-vəhşətdə idilər. Biz o fəzaləti fəramuş elədik, onlar dördəlli yapışdılar. Biz qaldıq qəflətdə, onlar tərəqqiyə çatdılar. İndi budur, bir para, haşa burdan, əvamünnas deyir, yox, ünas tayfasına, yəni zənən xaylağına oxumaq, elm kəsb eləmək guya cayiz deyil. Vəhalonki, peyğəmbər özü buyurub, elm həm ünasə, həm zükürə eyni dərəcədə əlzəmdir. Ütlübül-elm və dov-kanə bis-sin. Yəni elm Xitayda da olsa, ona talib olun!

- Hacı ağa, oxumağın faydasını kim qanmaz axı, ağlı olan...

Hacı Rəsul adamların diqqətini cəlb edə bildiyinə sevindi, sinəsini arıtdı, səsini ucaltdı:

- Xeyr, xeyr, əql öz yerində. Ərzimə mültəfit olun, oxuyun! Bəşərat ha, bəşürüt ha! Oxu, elm qazan, amma dinində, şəriətində, sövmü-səlatında, orucunda, namazında daha da qaim ol!

Dini nağıllar, rəvayətlər.

- Bu tutmadı ki!

- Bəli, qaim ol! Kamil ol! Qəzetdə də var bu mətləb. Axund Əbu Turab kamilən yazıb. Məgər sabah bir qız Quran oxuyub mərifət kəsb eləsə, pis olar? Xeyr, daha da qabil olar. Bizim də başımız uca olar. Biz də deyərik, müsəlman xanımlarından münəvvərlərimiz var. Cənab Tağıyevin xeyirxah tədbirləri ümumislam aləminə məlumdur, dəstə ilə qızlar onun məktəbində oxuyur, yaxşı da eləyir ki, oxuyur.

Tahirzadə dedi:

- Uşaqları oxutmaq üçün uzaq şəhərlərə aparmaqdansa, Şamaxı kimi yerlərdə məktəbi çoxaltmaq lazımdır. Hacı, Bakı azdır, Şamaxı, Ağdaş, Ağsu kimi yerlərdə məktəb açmaq lazımdır. Kəndli uşağına məktəb lazımdır. O, uzağa gedə bilmir!

- Əlbəttə, əlbəttə!

Furqon Ağsudan ötüb Girdman çayına yaxınlaşanda ayrı bir mənzərə qarşıya çıxdı. Sel daşıb körpünü uçurmuş, yolu basmış, bağları, taxılları ağzına almışdı. Kökündən qopmuş ağaclar, daş altında əzilmiş kollar, altı oyulmuş, yarğana dönmüş bağ yerləri görünürdü.

Tahirzadə baxır, baxır, başını bulayıb deyirdi:

- Bu camaatın bir başbiləni, bu ölkənin bir sahibi yoxdurmu, ilahi! Mübarək Nil çayı ildə bir qurbak apardı. Bu namübarək çay ildə yüzlər ilə qurban aparır. Nə kəndlilərin fəryadını eşidən, nə ağsaqqalların məsləhətinə qulaq asan var!

Hacı etiraz etdi:

- Allahın selinə, afətına qarasaqqal neyləyə bilər, ağsaqqal neyləyə bilər. Canım, xudavəndi-aləmin məsləhətidir. İstəyəndə sel göndərir, istəyəndə zəlzələ ya quraqlıq göndərir. İstəməyəndə göndərmir. Belə işə irad eləmək bəistilahi-vaiz küfr söyləməkdir, Məşədi!

- Hacının bir yük bəzzaz malı axsaydı, əlbət ki, ayrı cür danışardı.

Hacı Rəsul zahirən fağır, sakit gördüyü bu kişidən belə cavab



gözləməzdi:

- Xeyr, mənim bəzzaz malım Ağsu yoxuşuna gəlməz ki, sel də apara! Mən təklifimi bilən adamam, əmin olun.

- Təəssüf ki, kəndlinin malı hər il bu eniş-yoxuşa gəlir, gəlməyə də bilməz. Sel də onu basıb aparır Kəndlinin sözünü danışmaq isə küfr yox, əsl Allah rizası sözüdür, Hacı.

Hacı Rəsul Tahirzadənin daha əsəbi və bərkdən danışdığını görüb, oturduğu yerdən qurcuxa-qurcuxa irəliyə doğru süründü. Gülümsəyərək təsbehini əlinə aldı:

- Məşədi, təvəqqə eləyirəm başqalarına ədəb öyrətməyəsiniz. Sizin buna nə qüvvəniz, nə də səlahiyyətiniz çatar.

- Kəndli qardaşıma məsləhət görmək hüququmu kim əlimdən alıb, ay Hacı?

Tahirzadə sözünün axırını, "Hacı" kəlməsini xüsusi bir məna ilə, bərkdən dedi:

- Ayyy hacı!

Hacı Rəsul da ayrı əda ilə danışdı:

- Kəndlinin daha yaxşı başbiləni var. Dəvəni sarvan çəkər!

- Sarvan ayıq olmasa, bilməz hara gedir. Hər sarvan karvanı səlamətliyə aparmır, bəzən harami yanına aparır. Mən elə həmin başbilənə müraciət edirəm. Kəndlinin qüvvəsi yoxdur, amma başbilənin qüvvəsi var. Heç olmasa, divan yanında şikayət qaldırmağa nə gəlib, ərizə yazmağa nə gəlib! Özgələr təyyarə saldırıb göyə qalxır, biz divan əli ilə bir körpü də sala bilmərikmi?

Hacı istehza ilə əlini tovladı:

- Bəli, indi də divan ilə camaatın arasına girin. Hökumət ilə rəiyyətin arasına genə rəxnə salın! Görün pund iğtişaşını dirildə bilərsinizmi? Xalqın başı qalmaqaldan təzə qurtarır axı, fitnə-fəsad azalıb axı!..

- Körpü salmağa fitnə-fəsad demək özü fitnəkarlıqdır!

Hacı Rəsul heç bunu gözləməzdi. Qulaqlarına inanmadı. Rəngi

qızardı, təsbeh əlindən düşdü, bir şey axtaran kimi neçə dəfə sağa-sola döyükdü, hamının ona tamaşa elədiyini görüb top kimi yerindən qalxdı.

Ağafan onu sakit eləmək istədi:

- Əyləşin!

Hacı cəld özünü yerə atdı.

- Belə məlunlar ilə müsafirət günahi-kəbirədir![1]

Tahirzadə sanki onu yola salırdı:

—Xoş getdin. Allah salamət aparsın!

Ağafan onu səslədi:

- Ay hacı!

- Sür get!

Hacı balaca heybəsini çiyninə atdı, furqona baxa-baxa "tfu" deyib təsbih çevirən kimi əlavə etdi:

- Lənətullah!

Furqondakılar çəkilib Hacının yerini tuta-tuta gülüşdülər.

Ağafan özünü saxlaya bilmədi, tez atlara dəydi. Tahirzadəyə razılıq elədi:

- Bizi moizədən yaxşı qurtardın, Məşədi dadaş. Furqonu məscidə döndərmək istəyirdi.

Tahirzadə Bakıya, qazı yanına, imtahan verməyə gedirdi. Ürəyində min şübhə və tərəddüd ilə gedirdi. O, məktəbdə dərs vermək ixtiyarı almaq üçün mollalığa imtahan verməli, "şəriət adabını" bildiyini sübut etməli idi.

Bu tələbi ödəmək çətin deyildi, ancaq ağır idi. Mənəvi cəhətdən çox ağır idi.

Qəribədir, bütün qələm qüdrətini mollalar, şəriətmədarlar əleyhinə işlədən bir adam məhz "şəriət adabından" imtahan verməlidir! Bilənlər, görənlər buna nə deyər. Oxucular bilsə, təəccüb etməzmi:

1 Böyük günahdır.



—"Ay şair, sənin ruhanilərə vurduğun taziyanələr hara, üsulidin dərsin hara?"

Qızıl kilsədən qalxan zəng səsləri bütün şəhəri ağzına almışdı. Küçələrdən keçənlər sanki bu qədim və vahiməli səsin ahənginə toxunmamaq üçün sükutla, cəld ötürdülər. Ancaq bir nəfər, tək bircə nəfər yoxuş yuxarı yavaş-yavaş yeriyirdi. Bəlkə bu səsdən xoşu gəlirdi, bəlkə, daha nə kimi mərasim olacağını görmək istəyirdi?

Yox! O, tərəddüd və intizar içində istər-istəməz addım atırdı. O, kilsə yanından ötüb məscidə yaxınlaşırdı. O, burada, cüt minarələri ilə göylərə yüksələn ibadətgahda imtahan verməli idi.

Bütün qələm qüdrəti ilə həmişə döyəclədiyi ibadətgahlar indi onu hörümçək toru kimi aralığa almışdı. Sanki onun mənəvi qüvvətini sormaq, əqidəsini süstlətmək, onu tərk-silah etmək istəyirdilər!

Tahirzadə belə bir hisslə, düşmənlər əhatəsinə düşən qəhrəmanın ehtiyatkarlığı ilə addımlarını yeyinlətdi, Quyusuları küçəsindən, dar döngələrdən, tozlu, üfunətli yerlərdən keçərək daş döşəməli yoxuş küçə ilə dikləndi, məscid həyətinə yaxınlaşdı. Məscidin məzar daşı kimi soyuq, ağır pillələrini çıxanda Tahirzadənin bir ayağı gedir, bir ayağı getmirdi.

O, burada sorğu-sualdan qorxmurdu. Burada çətin bir sual gözlənilmir. Bir Məhəmməd Kərim ağanın "elmi ehtiyatı" Tahirzadəyə məlum idi. Ancaq başqa bir sual onu içəridən gəmirirdi. Daxildən, şair qəlbindən gedən mənalı bir sual hər an onun zehnini gəmirirdi:

- Sən hara, mollalıq hara! Sabir hara, əmələyi-mövta, nikah, təlaq, əqd hara?

> Yatdıqca xabi-qəflət ilə millətin sənin,
> Vəqf oldu layla söyləməyə xidmətin sənin,
> Hər gün genəldi dairəyi-hörmətin sənin,

El uğradıqca fəqrə, şişib sərvətin sənin,
Millət arıqladıqca, kökəldi ətin sənin,
Rüşvət haramdır, dedin, aldın, utanmadın!
Mali-yetimə - od - deyə uddun da, yanmadın!

Şəriətmədarların içinə vəlvələ salan şair indi özü onların içinə gəlir, onların cərgəsində yer axtarır...

Tahirzadə bir bıçaq kimi zehninə batan bu suallardan elə bir ağrı duydu ki, daha ayaqları irəli getmədi. Soyuq pilləkən üstündə oturub bir əlini başına, bir əlini ürəyinə qoyub fikrə getdi. İçəridən isə təkbir səsi, ayə gətirənlərin mübahisəsi eşidilirdi...

Nə etməli, tərbiyə meydanını, balaların gələcəyini bu ağbaşlara tərk edib getməlimi, yoxsa bu meydana yol tapmalımı?

Tahirzadənin qarşısında bu sual dururdu. Ona elə gəlirdi ki, bu saat bütün uşaqlar, bütün vətən balaları cərgələnib ondan xahişə gəliblər:

- Bizə dərs, bizə doğru yol!

Qanunlar isə bu haqqı Tahirzadəyə vermir. Onun biliyi, savadı, qabiliyyəti, arzusu, həvəsi, vətən eşqi olsa da, buna haqqı yoxdur. Çünki əlində mollalıq kağızı yoxdur. Belə bir hüquq almaq üçün məhz burada, ağbaşlar qarşısında dayanıb cavab verməк lazımdır. Başqa çarə yoxdur!

- Balalarımızın tərbiyəsi, vətənimizin gələcəyi üçün, həqiqət, ədalət naminə hər vasitəyə əl atmaq gərəkdir.

Tahirzadə bunu deyib məscid həyətinə girəndə eyvanda bir neçə nəfər oturub çubuq çəkir, söhbət edirdi. İki nəfər hovuz başında dəstəmaz alır, uzun arxalıqlı bir kişi isə əlində çalqı həyəti süpürürdü.

Tahirzadə axundun hücrəsini soruşub o səmtə yönəldi. Sement döşəməsinə bahalı xalça salınmış bir hücrədə, göy döşəkcə üstündə çöməltmə oturmuş araqçınlı molla cəld ayağa qalxıb əmmaməsini başına qoydu, Tahirzadəyə təklif etdi:



- Əyləşin!

Tahirzadə qoltuq cibindən çıxartdığı ərizəni axunda verdi. Axund çeşməyini gözünə taxıb baxdı.

- Xub, xeyli xub, - deyə mızıldandı. Pəncərədən əyilib səsləndi:

- Məşədi İsmayıl, Məşədi İsmayıl!

Əlağacı kimi uzun, arıq, başmaqlı bir kişi gəldi:

- Ağanı çağır, gələn var!

Bir an sonra abı əmmaməli bir seyid, sonra da bir tirmə əmmaməli molla gəlib salam verdilər, axundun yanında əyləşdilər. Tirməli molla üzünü Tahirzadəyə tutdu:

- İmtahana gələn məşədi cənabları sizsiniz?

Axund, Tahirzadənin ərizəsini seyidə uzatdı. O, qələmdanı açıb kürsü üstünə qoyduğu kağıza nəsə yazdı. Üzünü axunda tutub müntəzir dayandı.

Axund Tahirzadənin yaşını, işini, peşəsini, təhsilini soruşdu. Sonra "Kəlamü-Allah"dan bəzi ayələr deyib izahını soruşdu.

Tahirzadə neçə imtahanlardan çıxmış, çox təcrübəli bir adam kimi sakit və təmkin ilə danışaraq, hədis kitablarından oxuduqlarını dedikcə axund başı ilə razılıq işarəsi verirdi:

- Bəli, bəli, kifayətdi!

Sonra kağız-qələmi Tahirzadəyə verib yazdırdılar. Seyid onun xəttinə baxdı:

- Bu keşidəli xətti siz harada öyrənmisiniz?

- Bəndə Xorasanda iki dəfə olmuşam. Xətlərə bələdəm.

- Ziyarət, ya ticarətəmi?..

- Həm ziyarət, həm ticarət. Qohumlarımız var idi. Yolum düşürdü.

- Şəriət ehkamını hifz yolunda ittifaq düşübmü ki, səy edəsiz, xidmətiniz şayəd olub, ya xeyir?

- Getdiyim yerlərin hamısında əmr-bə-məruf ilə məşğul

olmuşam, insanları xeyrə dəvət etmişəm. Dərs də demişəm. Neçə adama Quranı səhih oxumağı öyrətmişəm. Şahidlərim vardır. Adları lazım olsa, verə bilərəm.

- Ehtiyac yoxdur.

Seyid Tahirzadəni axunda təqdim etdi:

- Axund ağa, Qənizadə cənablarının buyurduğudur. Məşədi Ələkbər Tahirzadə cənablarının məsaili-şəriyyəyə vaqif olduğu vazehdir. Kərrat ilə Cahardəh məsumu ziyarət eləyib, üləmayi-kəramın risalələrindən baxəbərdirlər. Məsələsinə arif adama nə imtahan. Mənim müşarileyhə qeyri bir sualım yoxdur. Tahirzadə dedi:

- Suallarınıza bəqədri-qüvvə cavab verməyə hazıram.

Axund Mir Məhəmməd Kərim ağa Məşədi İsmayılın gətirdiyi qəlyana bir qullab vurub üfürdü. Mülayim bir tövr ilə üzünü Tahirzadəyə tutub dedi:

- Ağa Məşədi Ələkbər, sizin kimi kamil bir vücuda şəhadətnamə yazmaq, bizlərə qayət fərəh-əfzadır. Fərzəndi-milləti dini-möbinə, nəşri-maarifə bərafraz qılmaq üçün sizdən əfzəl kimi dəvət etmək olar. Qənizadə cənablarının zəmanəti təmamən kifayətdir. Bu gün də cənabınızın təhsili-kəmalınızdan vazeh oldu.

Axund qəlyanı kənara itələyib dizi üstə qalxdı, üzünü qapıya tutdu:

- Məşədi İsmayıl, ay Məşədi İsmayıl!

Məşədi İsmayıl qapını açanda, axund qələmdanı ona tərəf uzatdı:

- Bunun nə kilkəsi var, nə də rəngi yerindədir. Təzələ, gətir, mühüm sənəd rəqəm olunacaq, əcələ elə!

Məşədi İsmayıl çıxanda axund təkrar Tahirzadəyə tərəf dönüb onu yaxına çağırdı.

- Yaxın əyləşin. Yaxın əyləşin, Allahın evində nə utanırsınız. Siz indi bizim həmkarımızsınız, mədrəsələrdə şəriət mübəlliği olursunuz. Cənabınıza məxtəs cüzi mətləbim var, yaxın əyləşin!



Bu sözləri demək, Tahirzadəni öz həmkarı görmək axunda çox xoş idi. Ona görə də bu istiqamətdə danışmaqdan doymurdu.

Tahirzadə bir qədər irəli çəkilib dizi üstdə oturdu. Axund davam etdi:

- Məşədi Əli Əkbər, cənabınızın nə şərhi məsaidə vüqufinə, nə də mübarək minbərə ləyaqətinə zərrə qədər şək-şübhəmiz yoxdur və haşa da ki ola!

Cənabınızın qələm məharətini də eşitməmiş deyilik, həzl və məzah cəhətdən. Bu babətdən, rəncidə xatir olmasanız, istərdim, bərayi-məsləhət, neçə kəlmə ərz eləyəm. Əlbət ki, bərayi-məsləhət!

- Xeyr, axund ağa, buyurun, məsləhətinizə diqqətlə qulaq asıram, borcumdur!

- Bəli, bu babətdən ki, zəmanənin məxşuş olmağını - özünüz, şükür, durbin adamsınız - görürsünüz. Beşinci ildən, iğtişaşlardan sonra camaat arasında namərbut, namünasib, hərəkətlər artıb. Məscidə, minbərə, üləmaya, hətta məsaili-şəriyyəyə etiqad qismən zəifləyib, kəmetinalıq artıb. Elə bir ovzai-həvadisdə həm din, həmçinin dövlət müqabilində bizim təklifimiz çox-çox ağırlaşıb. Əvamünnası haqq yola dəvət bizim ümdə təklifimizdir. Əmr bəməruf işi bizim hər an vəzifəmizdir. Sizin kimi abdar söz və mahir qələm sahiblərinin dinə-şəriətə xeyli ziyada müavinəti dəyə bilər, gərək də dəysin. Bəndə, "Füyuzat" məcmuəsində cənabınızın hadisədən məalən tərcüməniz nəzərimə dəyib və xeyli əhsən demişəm, məmnun, xoşxatir olmuşam. Bərayionki, müsəlmanlar arasında belə abdar əşar müsənnifləri nadirivücuddur. Bidin, laməzhəb, mürtəd mübəlliqlər müqabilində islamın möhkəm və müstəhkəm, dəlil-əslisini ucadan zikr ilə təbliğ epmək sizin və bizim din və milli vicdan vəzifəmizdir. Biz bunu hər kəsdən artıq siz cənablarından, kamil, münəvvər bir zatdan tələb-təmənnada haqlıyıq. Çünki haqq

yolunda canisar olmaq mömina kəsbi-kəramət, qurbi ilahidir!

Tahirzadə onun sözünü kəsdi:

- Axund ağa, bu nə sözdür, haqq yolunda heç bir müzayiqə yoxdur.

- Afərin, afərin, haqq yolunda!

- Xeyr, haqq yolunda bəndə canımdan keçməyə hazıram! Dilim, qələmim, qüvvətim, lazım olsa, canım, qanım ilə haqqa xidmət etməyə and içmişəm. Yenə də içə bilərəm:

Haqqı xalqa bildirib dəfi zəlalət etməli,
Gün kimi taban edib pamali-zülmət etməli,
Nabəca bu işlərin dəfinə qeyrət etməli...
Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir,
Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!

- Afərin, afərin, mən elə sizdən məhz bu cavabı da gözləyirdim.

Seyid qamış qələmi cızıqlı kağız üzərində cırıldadaraq kəşidə xətlə Tahirzadənin adını, yaşını, peşəsini soruşub dürüst yazdı. Üfürərək kağızı qurutdu, axunda verdi. Axund gözünə çeşmək taxdısa da, kağızı oxumadı, ancaq axırına baxıb möhür basdı, yanındakı əmmaməliyə verdi. O da qol çəkdi. Seyid kağızı alıb uzun və qalın dəftəri açdı. Kağızı qeydə götürdü. Dəftəri Tahirzadəyə tərəf gətirdi:

- Buyurun, imza edin!

Tahirzadə qol çəkib kağızı aldı, razılıq ilə baş əyib çıxdı. Qapı ağzında sanki müntəzir dayanmış olan Məşədi İsmayıl ilə qabaqlaşdı. Məşədi İsmayıl cəld onu təbrik etdi:

- Allah xeyirlər əta eləsin, nəzriniz qəbul olsun!

- Tahirzadə cibindəki son manatı Məşədi İsmayıla verib istintaqdan qurtarmış kimi sevincək və cəld məscid həyətindən çıxdı.



Qapıda, sərin xəzri alnına toxunanda hiss etdi ki, tərləmişdir. Dəsmalını çıxarıb üz-gözünü bərk-bərk sildi, sərbəst, sinə dolusu nəfəs alaraq yoluna davam etdi.

Əntiqə Hacının evinə gələndə yayın lap isti vaxtı idi. Münəvvər xanım qapı-pəncərəni örtüb sement döşəmənin sərin yerində qıçını-qıçının üstünə aşırıb kart falı açırdı. Niyyəti də ondan ibarət idi ki, görsün Hacı onu çox istəyir, ya çərkəz qızı Nazilati. Evin sükutu, sərinliyi, hərdənbir işıq axtaran milçəklərin zəif səslə uçub pəncərədən getməsi Münəvvər xanıma ləzzət verirdi. O, günlərlə cənnət kimi yaylaqlara, bağlara getməkdənsə, şəhərdə qalıb tənha otağında səhər-axşam ərini qəbul etməyi üstün tuturdu. Bəzən də gün qalxanda süpürgə götürüb ərini və milçəkləri otaqdan çıxardandan sonra əllərini yana açar, başını yumşaq balınca qoyar, türkmən xalçasının üzərində rahat-fərağət elə uzanardı, görən deyər çarmıxa çəkilib. İstinin bu vaxtında qapıları örtüb gecənin sərinliyini evdə saxlaya bilməsinə bir hünər kimi baxıb xoşlanar, ərinin, ümumən kişilərin belə yaxşılıqları dərk edib qiymətləndirməməsinə təəssüf edərdi.

“Ax, Hacı bilsə ki, bütün günü mən onun üçün, evə qayıdanda rahət olub ağız ləzzəti görməsi üçün nə qədər səy edirəm... Nə üçün, bilməmiş deyil. Qiymət də qoyandır. Adamın üstündə Allah var. Kişi insaf yiyəsidir. Amma di gəl ki, dərənin ləçəri, Dağıstan azdırması qoymur, macal vermir, ilan kimi kişinin boynuna dolaşır, saqqızını oğurlayır, yoxsa kişi insaf əhlidir...”

Çərkəz qızı zahiri hesaba görə, Hacının lap axırıncı arvadı idi. Teymurxan Şurada olduğu zaman bir tacir evində görüb bəyənmiş, götürüb gətirmişdi. Münəvvər xanım, doğrudur, evin xanımı idi. Hacının var-dövlətinin ixtiyaratı, sandıqların açarları onda idi. Amma Münəvvər Hacının evlənmək məsələsinə qarışmaqdan aciz idi. Güman olunmasın ki, Münəvvər xanımda qadınlara xas olan qısqanclıq hissi zəif idi. Yox! O da qadın idi. Əsl mənasında qadın

idi. O da ərinin, gözucu da olsa, kənara baxmasını istəmirdi. Ancaq onun bir təsəllisi bu idi ki, qayət gözəl idi. Münəvvər xanımın şəkli-şəmayili Hacını lap əvvəl gündən cəlb eləmişdi. İndi, toylarının on beşinci ilində həmin təsirini saxlayırdı. Hacı onunla elə rəftar edirdi ki, deyərsən, bu gün evlənib, gəlin gətirib. Münəvvər xanım bunu yaxşı bilirdi, ona görə də Hacının evində külli-ixtiyar kimi gəzir və mina gərdənində, mərmər sinəsində, fındıqcalı barmaqlarında daş-qaş bərq vururdu. Əlini qızıl kəmərli belinə qoyub eyvanda tovuz quşu kimi asta-asta hərlənəndə, deyərdən, görəsən, bu hansı padşahın baş hərəmidir. Ağ gərdənə dalğa-dalğa tökülən qara zülfünə, alma yanağına, qələm qaş altında badam gözlərinə bir baxan həsrət çəkərdi ki, bir də baxsın!

İkinci tərəfdən də bu səadət müqabilində Hacının yanında dili gödək idi. Həmin diligödəklik olmasa, çərkəz qızı Nazilləti astanadan ayaq basmağa qoymazdı. Diligödəkliyi də o babətdən idi ki, Münəvvər xanımın binadan-başdan uşağı olmurdu. Bu on beş ilin ərzində yer qalmadı - pir, imamzadə, ocaq, ziyarət qalmadı ki, Münəvvər xanım atlı, piyadə gəzməsin, həkim qalmadı getməsin. Özü də hər yerə gedəndə fayton, araba dolusu nəzir-niyaz ilə gedirdi. Hər səfərində Münəvvər xanım Hacının var-yoxunu verməyə hazır idi, təki bir, tək bir uşaq, lap kor, şil, topal olsa da, bir uşaq sahibi olsun. Həmişə dəstəmazlı, ağzıdualı, pak niyyətlə getsə də, bir nəticə vermirdi. Sanki dərgah qapıları möhkəm bağlanmışdı. Heç bir yerdən əlac-aman olmadı. Gəzib-dolaşdığı məbədlər, payladığı nəzirlər, arası kəsilməyən ibadətlər, yalvarışlar Münəvvər xanıma kömək etmədi. O, hərdən, evdə tək olanda, nökər-qulluqçudan xəlvət olanda uzun, güclü qollarıyla dizlərini qucaqlayıb elə yanıqlı ağlardı ki, daş eşitsə əriyərdi.

"İlahi, mən nə böyük günahın sahibiyəm ki, məni el içində, ev içində belə xar, zəlil elədin?"



Təbiidir ki, göydən, gurultudan başqa indiyəcən bir kəsə bir səs gəlməyib ki, Münəvvərə də gələ idi. Münəvvər hıçqırıq və fəryadlarının məzar sükutu içində batıb getdiyini görəndə bilməzdi nə etsin. Uşaq səsi eşidəndə Münəvvərin halı çox pis olardı. Pis olardı deyəndə, yəni lap dəyişərdi. Lüt, tap-tumançaq olsa da, dəli kimi özünü həyətə atardı. Bilmək olmazdı ki, bu niyə belə eləyir. Uşaq səsi onu sevindirir, ya qəzəbləndirir. Əslinə baxsan, hər ikisi var idi. Nə qədər uşağı görməyib, ancaq səsi, ya gülüşünü eşidib, Münəvvər ana pələng kimi özünü yetirmək istərdi. Elə ki səs yerinə çatdı, Zeynəbin, ya Zümrüdün uşağını gördü, yerindəcə ilan kimi qıvrılardı, ürək çırpıntısından, az qalardı, sinə taxtası qopsun. Uşaqların üzünə də baxmaz, ağzını havaya tutub ağzına gələni deyərdi:

- Qoymaz ki, itin küçükləri qoymaz ki, xarabamızda bir hovur rahat nəfəs alaq! Görəsən, bunların sahibi yoxdurmu, itirib-axtaranı yoxdurmu, ay müsürmanlar!

Münəvvər bunları deyib küçə qapısını uşaqların üzünə elə bərk çırpardı ki, çərçivənin suvağı tökülərdi. Özü isə qapının dalında, əlləri qoltuğunda dayanıb dinləmək istərdi. Səslər uzaqlaşanda qanadı sınmış kimi, başıaşağı, yuvasına qayıdardı. Ah-uf içində durub-oturar, oturub-durardı. Yaxasını açar, sinəsinə sərin su çilərdi. Məxmər yastıq üstdə oturub, sanki xanımının kədərinə şərik olan, hərdənbir "myo" edib ağzını açan ala pişiyini qucağına alıb xəyala gedərdi:

«İlahi, bu məxluqca da yoxammı, mənim qucağımın boş qalmağını niyə rəva görürsən, İlahi!»

Münəvvər xanımın heç xəyalına da gəlməzdi ki, uşağının olmaması Hacıdandır, bəlkə də cavanlığını hərcayı keçirən kişisindəndir. Əksinə, güman edərdi ki, nəsə özündən, özünün Allah yanında əskik tutulmasındandır. Bəlkə də buna görə Münəvvər xanım Hacının evlənmək barəsindəki söhbətinə müqavimət etmir, sükut və razılıqla

cavab verirdi. Evə günü gətirmək barəsindəki niyyətini Hacı Münəvvər xanımın qulağına elə doldurdu ki, arvadın heç ruhi inçimədi:

- Mən nə deyirəm! Necə məsləhətdi, elə də! Nə bilim, Allah bilən məsləhətdi! Ancaq ayrı saxla, gözüm görməsin! Dərd üstünə dərd gətirmə! Dözəmmərəm!

- Əlbəttə, hərənin öz otağı olacaq, heç onu sənin yanında saxlarammı, ürəyinin sıxılmağına razı olarammı, nə danışırsan qız!..

Hacı Rəsul Münəvvər xanımı başa saldı ki:

- Mənim kimi bir mötəbər adam özündən sonra bir çıraq yandıran qoyub getməlidir. Mən elə-belə adam deyiləm ki, yurdum kor qalsın! Sabah başımı yerə qoyandan sonra var-dövlətimin başına qarğa-quzğun yığışsın, hərə yalandan bir qohumluq, vərəsəlik qəbaləsi gətirib hərrac eləsin. Mənim gərək yurdumda balam, belimdən gələn övladım otura, əzizim! Kor olsun, topal olsun, mayıf olsun, övlad olsun! Münəvvər, bunu mənə axund da deyir. Bunu mənə qazı da, tacirbaşı da deyir. Bunu mənə qonşu da deyir, dost da deyir. Buna bəs sən nə deyirsən? Sən mənim bu dünyada canım, ciyərim, tək bir istəklim, bəs buna sən bir söz demirsən?

Münəvvər xanım, sanki bu söhbətə çoxdan hazırlanmış, bu aqibətə çoxdan qol qoymuşdu.

- Nə deyirəm, necə məsləhətdi, eləyək də, nə bilim, Allah bilən məsləhətdi!

Münəvvərin cavabı "elə", "eləyək" Hacının ürəyinə yatmış, kefini lap açmışdı. İki həftə çəkmədi, çərkəs qızını halla-halla ilə[1] üç atlı məxmərli faytonda, zərxara içində Hacının evinə gəlin gətirdilər.

O gündən bəri Münəvvər xanımın səbri-qərarı əlindən gedib, hər addımda elə bilir ki, Nazilət bu saat qapını açıb onun üstünə qışqıracaq ki: "Ver sandıqların, mücrülərin açarlarını, özüm saxlayacağam!"

1 Təntənə ilə



Amma Nazilət bunu demir. Bununla belə Münəvvər xanım fal açmasında davam edir...

Əntiqə bu evə gələn gün arvadların hər ikisi həyətdə quyu başında oturub ayaqlarını yuyur, məhərrəmlik təziyəsinə, məscidə getməyə hazırlaşırdılar.

Arvadlar Hacının Əntiqəni onlara kömək üçün bir kəniz gətirdiyini yəqin etdilər. "Yazıqdır, yoxsuldur, qoy bir tikə çörək yesin, dolansın, sizin də əlinizdən tutsun!"

Hacı, doğrudur, bu sözləri deməđi. Amma qızı işarə ilə onlara təqdim edəndə, hənalı əlini gah qıza, gah süpürülməli həyət-bacaya tərəf uzadıb göstərəndə bu mənə onun üz-gözündən yağırdı.

Əntiqə də buraya gəldiyinə şad idi. Salam verib, əl əl üstə qoyub dayandı, şəklə baxan kimi xanımlara, onların geyinib-kecinməsinə baxmaqda davam etdi. O, Şamaxıda da varlı qadınlar görmüşdü. Amma bu bər-bəzəkdə görməmişdi. Əntiqə Nazilətin dikdaban çəkməsinə diqqətlə baxırdı ki, Münəvvər xanım ona işarə elədi:

- Vedrəni götür, ayağıma su tök!

Nazilət bunu görüb günüsündən geri qalmadı:

- O corabları götür, ləgəndə sıxcala, yuginən!

Münəvvər xanım əlavə etdi:

- Mənim də odur, o xınalı baş dəsmalımı götür sabınla, isti suda yu! At şəridə qurusun!

Nazilət macal vermədi:

- Qaç burdan, bu tinin başından bax gör, günbəzli yerdən tüstü çıxır. Ağarəfi hamamı yanır, ya yox?

Münəvvər xanım mane oldu:

- O qız tanımaz, nabələd uşaqdı, azar, qoy bir az isinişsin hələ!

- Azmaz, qoy alışsın.

- Ondansa, qoy həyəti yusun, sərinlətsin!

- Görürsən, necə mat-mat baxır, nə onu eləyir, nə bunu!

- Di cəld ol, qız, quyudan su çək!

Xanımlar bir-birinin bəhsinə hey buyururdular. Təzə kənizin boş durmaması üçün iş axtarıb tapırdılar. Məlumdur ki, buyuran adam da yorulmaz. Doğrudur, ilk günlər Əntiqə çaşbaş qalır, kimin sözünə baxmalı olduğunu düşünüb dururdu. Ancaq bu, çox sürmədi, deyilənləri bir-bir icra etməyə alışdı, yaman alışdı. Əntiqə bir dəqiqə dinclik görmürdü. Səhərdən axşamacan evdə məşğul idi. Xanımlar xörək yeyəndən sonra məcməyidə bir şey qalırsa, onun qabağına atırdılar: Qız, ye, qab-qaşığı yığışdır!

Hacı Rəsul arvadlarının əməlini görür və yaxşı başa düşürdü. Əntiqə hərdən özünə cürət verib ağasından soruşurdu:

- Hacı dayı, məktəb haçan olacaq!

- Olacaq, darıxma!

Hacı Rəsul, doğrudur, bu qızı restoranda oxutmaq üçün gətirmişdi. Ancaq arvadlarından ehtiyat edir, mətləbini açıq danışmırdı.

Əntiqəyə belə cavab verirdi:

- Sən gərək bir qədər oxuyasan, qonum-qonşuya səs salasan ki, səni görüb tanısınlar, layiq görüb, sənə məktəbdə yer versinlər. Yoxsa hər adamı oxumağa qoysalar, şəhərin, kəndin bütün uşaqları Hacı Zeynalabdinin qapısına tökülər. Sən gərək bir fərasət sahibi olduğunu büruza verəsən, qızım, yoxsa səni məktəbə qoymazlar.

Bu bəhanə ilə Hacı Əntiqəni restoranda mahnı oxumağa razı salmışdı.

Əntiqə restoranın bir küncündən dillənəndə, eşidənlərin hamısını heyrət götürürdü:

- Hacı ağa, bu qız kim ola, nə məlahətli səsi var?

- Bizim qohumdur, istəyir oxusun, maşallah, zehni var, çox şərqi bilir!

- Hacı ağa, bu səs sahibi heyifdir, musiqi müəlliminə verin!

- Bəli, mətləbimiz odur. İstəyirik bir az açılışsın.



- Heyfdir, qoymayın restoran küncündə çürüsün...

- Sağlıq olsun, mətləbimiz odur.

- Hacı ağa, deyəsən, nisbətdi sizə, hə?

- Bəli, elə kasıb qızdır, Allah rizasına gətirmişəm.

Beşinci fəsil

## NƏ XƏBƏRDİ

- Bax, ey qazı ağa, and olsun o bizi yaradan Allaha, sən əgər mənim bu işimi aşırsan, məlun adamam əgər başımı da sənin yolunda əsirgəyim!

- Bəradərim, mənə sənin başın lazım deyil... Mənə bu lazımdır, bax, bu! - Qazı bu sözləri deyəndə sağ əlini də yerdən böyük kəllə qəndin boyunca qaldırmışdı yuxarı. Sözünü deyib qurtardı, amma əlini çəkmədi. Bu halətdə saxlayıb diqqət ilə baxırdı Xudayar bəyin üzünə. Əlini o vaxt endirdi ki, Xudayar bəy razılıq çavabı verdi...

C. MƏMMƏDQULUZADƏ

Yay günəşi günorta yerindən aşağı enib od tökəndə, daş binaların divarlarından təndir bürküsü yayılanda «İslamiyyə» restoranının qabağında böyük bir izdiham qaralır, camaat qarışqa kimi qaynaşırdı. Yol kəsilmiş, faytonlar dayanmış, polis nəfərləri işə qarışmışdı. Zərgərlər gözündə çeşmək, qəssablar qolu çirməkli, aşpazlar əli çömçəli, döşü önlüklü çölə tökülmüşdülər. Yoldan ötənlər də dayanırdılar.

Kənar küçələrdən izdihamı görən uşaq-böyük axışıb gəlirdi. Bazar camaatı belə pulsuz tamaşalara çox həris idi. Yenə kimin isə öldürüldüyünü, qız qaçırıldığını, ya adam soyulduğunu, bəlkə dükan yarıldığını güman edirdilər. Tez-tez baş verən bu cür səhnələr həmişə bir-birindən fərqlənsə də, əsasən, eyni şəkildə və məzmunda olurdu. Camaatın çoxluğundan məlum idi ki, tamaşa pis deyil, vaxt itirməyə, dayanıb baxmağa, bir neçə saat sonra isə divara söykənib başqalarına, komalaşanlara ləzzətlə, mübaliğə ilə danışmağa dəyər.



- Nə əhvalatdır?
- Nə var burda?

Tamaşaya gələnlər, əlbət ki, çatan kimi məsələni öyrənə bilmirdilər. Qabaq tərəfdə, camaatın dalğa kimi bükülüb-açıldığı, boyunların uzandığı, nəzərlərin dikildiyi tərəfdə nələr olduğunu da görə bilmirdilər. Ha boylanır, daş üstə, kənara düzülmüş köhnə yeşiklər üstünə, hətta divarlara, teleqraf ağacına, fənər dirəklərinə dırmaşır, hər ötəndən soruşurdular:

- Nə xəbərdi, bacıoğlu?

Bu sualı çoxları çoxuna verirdi. Bir kitabsatana verilən bu sual kişini lap təbindən çıxartdı:

- Əmioğlu nə xəbərdi?

- Canım nə bilim nə xəbərdi, nə zəhrimardı, nə çordu. Mağaza qabağından çəkilsəniz, qoysanız alverimizi eləyək. Bizim nə təqsirimiz var, hər haramzadalıq gərək elə bizim qapıda peyda ola? Lənət sənə kor şeytan ha!..

Kitabçı bunları elə ucadan deyir və dedikcə ətrafına baxıb küçədə elə gəzinirdi ki, dalaşmağa adam axtardığını güman etmək olardı. Doğrudur, dalaşmağa adam axtarmırdı, amma özündən çıxmış, vahiməli kimi deyinirdi.

"Qoysanız alverimizi eləyək!" - deməsi də bir bəhanə idi. Çünki günün bu cızlamasında kitab alan kim idi. Kitabı arxayın vaxtda satmaq olmurdu, handa qalmış bu vur-haşırdə.

Kitabçını qorxudan ayrı şey idi. Onu təbdən çıxaran bu idi ki, qalmaqalın şəposi[1] ona da dəyə bilər. Polis gəlib dəvərə gözünü hərləyəndə, burada müsəlman kitabı satan görəndə, elə-belə etməyəcəkdir, bəlkə lap axtarış da aparacaqdır.

---

1 Xətası

Kitabçı bir də qışqırıb dedi:

- Camaat, burada komalaşmayın, bu qiylü-qalı qırağa çəkin. Görən deyəcək, görəsən, yenə nə hürriyyətbazlıqdır! Allah xatirinə! Qoyun başımızı dolandıraq, xataya salmayın!

Hələ beşinci il divanının ağrısı candan getməmiş, hansı mərdimazar oğlu bu izdihamı bura yığıb, əksəriyyət də müsəlman! Əlbət ki, "Nikolay adamı" bunu özbaşına buraxmayacaq: "Gətirin görək ətrafda kim var idi. Nə dedilər, nə demədilər". Necə filan-feşməkan! De gəl araba gətir, mərəkə yüklə! Canım, qoysanız alverimizi eləyək! Bu istidə nə basa-basdı!

Kitabçının sözünə baxan kim idi. Küçədə adam artırdı. Kitabçı vəziyyəti belə gördü, tez qıfılı əlinə aldı, qapılarını şaqqaşaq çəkib bağladı, qolunu çirməyə-çirməyə məscidə tərəf, guya camaat namazına getdi.

Heç onun dalınca baxan da olmadı, mağaza qabağına toplaşanların əhvalatı öyrənmək hərisliyi daha da artırdı:

- Qardaş, nə məsələdi?
- Nə qalmaqaldı yenə, görəsən?

Bir-birinə qarışan və təkrar olan bu suallar cavabsız qalmırdı. Cavablar da namüəyyən, qısa, kiçik olur, heç kəsi təmin etmirdi.

- Savaşırlar?
- Bu cavanlar arasında nəsə...
- Qız uşağı...
- Qız olan yer davasız keçinməz! Qızın işi uzundur, bəri gəl görək!
- Restorançı, deyəsən, şuluxluq salıb.
- Yox, pul məsələsi var!
- Pul! Qara pul!
- Evlər yıxan qara pul, qanlar tökən qara pul!
- Top-tüfəng çıxardan qara pul!
- Adın nədir dərviş, pul ilə aşır hər iş!



- Qardaş, bu zəmanədə yıxan da puldur, tikən də puldur. Hər düyünü açan da odur!
- Kiminin dəyirmanı sel ilə, kimininki yel ilə işləyir.
- Fələyin dəyirmanı da pul ilə işləyir.
- Dəyirman niyə, qardaş, dünyavü-aləm qızıl üstündə qurulub da! İngilisi ingilis eləyən, yaponu dirildən, almanları ilana döndərən, Vilhelmə kəllə verən kimdir, nədir, zəhrimar pul deyilmi? Əşrəfi, məcidiyyə, imperiyal, bacaxlı deyilmi? Altun yaman şeydir. Kökü kəsilsin yer üzündən sarı qızılın! Ağ üzü qara, qaranı ağ rəngləyən o deyilmi?

Cavab verənlərin özü də cavab axtarırdı. Çünki onlar da bir az əvvəl gəlmişdilər. Vəziyyəti yaxşı bilmirdilər. Hadisənin lap başlanğıcından burada olanlar isə ilk cərgələrdə idilər. Onlara səs, sorğu-sual çatmırdı. Onlar özləri də işə qarışmış, tərəfləri sakit etmək istəyirdilər. Camaatı birtəhər yarıb qabağa keçənlər, restoranın ağzında bir nimdaş geyimli, başıaçıq, çarıqlı oğlanın balaca bir qız uşağını qucaqladığını görə bilirdilər.

- Vay sənin, günün günorta çağı bu nə binamusluqdur, ayə?

Qız uşağının paltarı səhmanda idi, başında abı kəlağayı, əynində gödək qofta var idi. Dağınıq qara hörükləri görünürdü. Üzünü görmək olmurdu. Çünki oğlanın sinəsinə söykənmişdi, əlləri oğlanın iri çiyinlərinə elə ilişmişdi ki, deyərdin, bundan nə isə kömək, imdad gözləyir. Üzünü göstərməmək üçün başını qaldırmır, camaatdan utanırdı. Doğrudan da qızın hönkürtülər içində, ağlaya-ağlaya boğuq səslə dediyi yalvarış sözləri bəzən eşidilirdi.

- Gedək, buradan gedək! Amanın bir günüdür, dadaş!

Çalsaqqal, qara arxalıqlı, gümüş sapoçqalı, çalpapaq, gödək, kök bir kişi də irəliyə yeriyib oğlana və qıza nə isə deyirdi, acıqlı-acıqlı danışırdı.

Döşü ağ önlüklü iki cavan adam isə hərdən çalpapaq kişinin

qabağına keçib iltimas edir, onu qaytarmaq istəyirdi. Çalpapaq kişi də qızıl üzük barmağında ətli, gödək əlləri ilə önlüklü adamları yan eləyib cəld sağa-sola çöyrükür, sanki vahimə çakirdi. Polis nəfərinə izah edir, təlaşla danışdıqca, oğlanı, qızı göstərirdi.

O, nə deyirdisə, oğlan hərdən ucadan ona cavab verir, sağ əli ilə qızın başını tumarlayırdı.

Bu mərəkəyə tamaşa edənlərin sayı isə anbaan çoxalırdı. Çoxalmaya da bilməzdi, çünki, doğrudan da, meydan tamaşalı idi.

Əvvəla ona görə ki, küçənin ortasında müsəlman qızı ilə bir müsəlman oğlunun qucaqlaşıb dayanmağı müsəlman dünyasında görünməmiş iş idi. Özü də Bakı kimi bir yerdə, özü də onun Bazar küçəsində. «İslamiyyə» restoranının lap qabağında. Özü də günün günorta çağı! Yox! Görünməmiş işdi!

İkincisi də ona görə tamaşalı idi ki, «İslamiyyə» kimi böyük bir restoranın sahibi, mötəbər Hacı Rəsul özü işə qarışıb, gör necə əl-ayağa düşüb, özünü itirib ki, polis dalınca özü qaçıb. Kəlməbaşı barmağını silkələyir, yumruğunu döyür, müqəssirlərin tənbeh olunmasını tələb edir.

Üçüncüsü də bu idi ki, camaat bu cavanların belə çirkin hərəkətinin pis nəticə verəcəyini bilirdi və bu nəticəni tezliklə gözləyirdi və hər kəs gözü ilə görmək istəyirdi. Hamı bilirdi ki, oğlana da, qıza da tənbeh olunacaq, görəcəksən, qaradavoylar onların başına elə qara qamçı döşədi ki, ağılları başına gəldi. Bu cəzanı hökumət də, şəriət sahibi də, millət xadimləri, qəzetlər də tələb edəcəklər. Amma bu tənbehin məhz nədən ibarət olacağı hamını maraqlandırırdı, hamı müntəzir idi:

- Görək nə olacaq!

- Polis, deyəsən, dəftərini çıxartdı!

- Qazaq çağıracaqlar!

- Yox, əşi, onları yerindəcə birtəhər eləyəcəklər!



- Dustaq aparacaqlar!

- Yox, dustaqxana, deyəsən, heç biru laməzhəblərə qismət olmayacaq!

- Cəhənnəmə vasil eliyəcəklər!

Hacı Rəsul qızı restorana içəriyə aparanda Bəndalı mane olmaq istədi. 0, çomağını cəld əlinə alıb Hacı Rəsula qışqırdı:

- Ay dayı!

Hacı Rəsul məna verməyib qapıları çəkmək, restoranı bağlamaq, camaatı qovlamaq istədi. Bəndalı irəli yeriyib bir də səsləndi:

- Mənə bax, ay Hacı dayı.

Hacı Rəsul qıfılı əlinə alıb çıxmaq istəyəndə Bəndalı onun qabağını kəsdi:

- Sənnənəm, çəkil, qızı aparacağam. Qız qalmayacaq!

Hacı Rəsul çomaqlı kəndliyə əyri-əyri baxdı:

- Bunun işdahına bax bir! Yavaş ye, boğazında qalar!

Bunu dedi, qapıları çəkmək istədi. Bəndalı iri və bərk əli ilə onun ətli, yumşaq çiynindən tutub müqəvva kimi cəld geri çevirdi:

- A kişi!

Hacı Rəsul ancaq indi, ancaq bu səsdəki vahiməni düyanda, çobanın iri sifətini, yanan gözlərindəki alovu aşkar görəndə, hərifin ən ağır bir fəlakət törətmək əzmində olduğuna əmin olanda başa düşdü ki, "iş özgə cürədir!"

Qapını buraxıb cəld alnının tərini sildi, qollarını yana açdı:

- Nə istəyirsən, ay başına dönüm, mən bədbəxt oğlunun günahı nədir, təqsiri nədir? Şəhərin qəravul-yasavulu bəs eləmir, sən də qoyunu başına buraxıb mənim restoranıma cummusan? Ay müsürmanlar, axı bu nə işdi, niyə qoymursunuz kəsbkarımızı eləyək. Allahdan, peyğəmbərdən niyə qorxmursunuz. Xarabamızda rahət oturduğumuz yerdə bu nə macəradı, bu nə Şam müsibətidi. Ticarət əhlinə bu nə zülmdür olunur.

Arxadan kim isə Hacının dili ilə şeir deyirdi:

Nə soxulmusan araya, a başı bəlalı kəndli,
Yenə salmısan buraya belə qalmaqalı kəndli!

Bəndalı, sanki bunları eşitmirdi:

—Hacı, hay-küy salma! Qızı aparacağam.

Hacı mat qalmışdı:

- Allahü-əkbər ha!.. Əkbər ha!

Bəndalı ona qulaq asmadı:

- Əkbər də varsan, əntər də!

Üzünü bacısına tutdu:

- Əntiqə, gəl, kəndə gedirəm, qız, bəri gəl!..

Hacı yalvarış ədası ilə Bəndalıya deyirdi:

- Özü mənim yanıma pənah gətirib, Allah rizasına onu saxlamışam. Nə qədər xərc tökmüşəm, əyin-baş düzəltmişəm. Demişəm, islamdır, islam balasıdır.

Camaatdan səs gəldi:

- İslam sənin belindən vursun. Müsəlman qızını mütrüf eləməyin nə, islam deməyin nə?

Hacı üzünü izdihama tutub səsini ucaltdı:

- Camaat, bir dilənçi uşağı gətirib, yedirib-geyindirmişəm, pis iş görmüşəm? Atam ilə qələt eləmişəm?! Bu nədir axı?

- Nə danışırsan, kişi, mən ölmüşəm bəyəm bacım dilənə! İmanın yoxdur? Saqqalın qanına bulaşsın! - Bəndalı bunu dedi, iri addımını restoranın astanasına qoyub Hacını sinəsindən geri itələdi. Əntiqənin qolundan tutmağı ilə qızın onu qucaqlamağı bir oldu. Hacı Rəsul Bəndalının zərbəsindən yıxılmamaq üçün qapıdan bərk tutdu.

Dirsəyilə söykəndiyi şüşələr sınıb töküldü. Əntiqə qardaşının uca



çiyinlərindən asılıb hönkür-hönkür ağlayanda çoxları başa düşdü ki, bu, yad adam deyil. Ayrı adam belə eləməz. Bu, qızın ya qardaşı, ya əmisidir. Ancaq qızın ağlaması hamıda bir riqqət doğurur, hamını onun fəlakətinə inandırırdı:

- Görəsən, yazığa nə zülm olub!

- Bu zəmanədə saçı uzunu adam hesab eləyən var bəyəm?

- Dağılın, ay camaat!

- Nə yığılmısınız, qardaş, bir şey yoxdur, qoyun gedin işinizə!

- Bir istəkan su verin!

- Utanır!

- Kəsin qalmaqalı, canım!

- Apar içəri!

- Bir zənan xeylağı çağırın, doktor!

—Qızım, sakit ol, Allah Kərimdi, özünə toxtaqlıq ver!

- Şeytana lənət!

- İblisə yüz lənət! Min lənət!

Bütün bu məsləhətləri edənlər, qızı tanımasa da, əhvalatdan xəbərdar olmasa da, vəziyyəti yumşaltmaq lüzumunu hiss edir, təsəlli verirdilər.

Bəndalı Əntiqəni qabağına salıb Sulu karvansaraya tərəf gedəndə bir xeyli adam onların dalınca üz qoydu. Bəndalı qayıdıb adamlara baxır, susurdu. O, demək istəyirdi ki, "əl çəkin".

Adamlar gah komalaşır, gah kənara çəkilir. Bacı-qardaş yeriyəndə isə izdiham da hərəkətə gəlirdi. Bəndalı qayıdıb çomağını göydə hərləyəndə çoxları dayandı:

- Eh, dəlidi, nədi!

- Sən öləsən, baxmayacaq, görəsən, kimin başına çaxacaq!

- Qorxur, baxma!

- Qızı öldürəcək! Yazığı başa salan yoxdu.

Bəndalı camaatın əl çəkməyəcəyini görüb tez kənara buruldu,

xalçaçı dükanına girdi.

- Toxuyan lazım olmaz sizə?

Xalçaçı Əntiqəni tanıyırdı:

- Toxuyan gərək deyil, var, amma Əntiqə kimi bir oxuyanın gözümüz üstə yeri var, qardaş?

Hacı Rəsul qaradavoy çağırıb qızın ardınca qaçırdı:

- Cənab polis, mənim restoranımdan işçimi, əmələmi çəkib aparırlar. O qıza mən bir ətək pul tökmüşəm. Ona güc-bəla ilə xanəndəlik öyrətmişəm. Mənim ziyanımı verməmiş Əntiqəni hara buraxıram. İstəyir qardaşı gəlməsin, lap qəbirdən durub atası gəlsin, hara buraxıram?

Ata söhbətini eşidəndə, həm də Hacının bu sözü ağzına aldığını görəndə Bəndalının qəzəbdən bədəni əsdi. Hacının başına bir çomaq endirmək istəyirdi ki, Tahirzadənin onu tutduğunu gördü:

- Bir dayan!

Bəndalı onu görəndə üstünə su ələnmiş kimi dayandı.

Tahirzadə ona toxtaqlıq verdi:

- Nə olub Bəndalı, nə xəbərdi belə?

- Görmürsünüz bu imansızları, bu... bir parça uşağı oğurlayıb satmaq istəyirlər. Adını da Hacı qoyub, Məkkə belindən vursun bunun!

- Təəccüb eləmə, Bəndalı, pul olan yerdə Məkkə, Mədinə əbəsdi. Əvvəldən belədir, bu ki təzə iş deyil? Gedək, mənzilə gedək!

Bir həftə sonra əllərdə "Molla Nəsrəddin", dillərdə isə qəribə bir şeir gəzirdi:

Nuri-çeşmanımmısan, ay pul və ya canımmısan?
Məshəfim, Məkkəm, Mədinəm, qibləm, ərkanımmısan...

Hacı Rəsul hörmət və minnətlə içəri çağırıb əyləşdirdiyi, qabağına



xörək qoyduğu müştərisinin cibindən "Molla Nəsrəddin" çıxdığını görəndə bilmirdi neyləsin, hankı söyüşləri yağdırsın. Jurnalı açanlar da şəklinə baxmaqla kifayətlənmir, oxuyub qəh-qəh ilə gülürdülər:

- Bu gün Mollanın tacirlərə xüsusi salamı var.

Hacı Rəsul davam gətirə bilməyib irəli yeriyir, xörəyi müştərinin qabağından götürür, şəhadət barmağı ilə qapını göstərirdi:

Bura bax, əmioğlu, təvəqqə olunur burada elə ləhvi-ləəb[1] şeyləri oxumuyasınız. Bura restorandır, bahailər məclisi-zadı deyil. Buyurun çölə! Xoş gəldiniz! Nə sizin xeyrinizi istəyirik, nə də "Molla Nəsrəddin" kimi babilərin hərzə-hədyanını! Fars demişkən:

Nə şiri şütür, nə didarı ərəb!

- Təvəqqe olunur stolu boşaldasınız, lazım deyil, yediyiniz xörəyə bir quruş da istəmirik, halalınız olsun. Aparın harda kefinizdi, hədyanınızı oxuyun, burda yox! Biz hökumətimizin, şəriətimizin yolunda da can-baş ilə varıq. Bizim restoranda babi söhbəti olmaz! Bizə inanıblar, bəli, inanıblar, etibar eləyiblər!

Müştərilər çıxıb gedəndən sonra da Hacının hirsi soyumurdu. Basılmış pəhləvan kimi ətəklərini çırparaq deyinir, oyan-buyana gəzinirdi:

- Bişərəf oğlu, "Molla Nəsrəddin"ə Türküstandan tutmuş Naxçıvanacan hər yerdə üləma lənət oxuyur, ona müsürman deməyi həram buyururlar. Bu da gətirib mənim gözümün qabağında murdar əksini açır! Bəyəm mən beş şahı pul üçün dinimdən, imanımdan əl çəkmişəm? Rədd olsun məcmuəsi də, qəzeti də, onu, haşa burdan, oxuyan laməzhəb də! Rədd olsun! Gözüm görməsin!

Hacının hirsi soyumurdu. Münəvvər xanım süfrə açanda, əri sanki kim iləsə savaşmasının axır-uxurunu danışırdı:

- Camaat lap qudurub ey! Mənim kimi mötəbər bir şiənin yanında oturub, qabağına açıb o bidinin risaləsini.

1 Hərzə-hədyan

- Nə risalə, a kişi?

- Sən də... "Molla Nəsrəddin"i deyirəm də. Biri gətirib lap gözümün qabağında açıb oxumaq istəyirdi, qovdum getdi.

Münəvvər xanım Hacını danladı:

- Elə eləyirsən ki, şəklini çəkirlər də! Heç olmasa, dilini qarnına qoy!

- Nə şəkil?

- "Molla Nəsrəddin" sənin şəklini çəkməyib?

- O nə sözdü, ay qız?

- Bəs o deyişən qırmızısaqqal möminlər kimdi?

- A qız, sən hardan danışırsan?

Dünən Nazilətin əlində imiş. Un gətirən hambal baxırmış.

- Sənə kim dedi?

- Nazilət özü görüb. Hambal daş üstə oturub dincələndə, deyirmiş ki, guya "Molla əmi Hacı ağaya sataşıb. Oxumaq bilmirəm. Bilmirəm necə sataşıb. Amma şəklini əcəb oxşadıb. Əlləri var olsun!.."

Hacı oturduğu yerdə donub qaldı. Bir tikə də götürə bilmədi. Boğazı tikilmişdi. Qalxıb Nazilətin yanına getdi. Qəzetxanaya adam qaçırdıb öz şəklini axtartdı.

Ancaq indi, ancaq "Molla Nəsrəddin" kimi babilərin gözəgörünməz bir əyyar kimi hər yerə, hətta ürəklərə də yol tapdığını görəndə, dünən Dağıstandan gələn ləzgi qızının, un tayı daşıyan hambalın da "Molla Nəsrəddin" aldığını öz gözü ilə görüb, qulağı ilə eşidəndə bildi və yəqin etdi ki, yox, zəmanə dəyişib, yaman dəyişib. Mən orda ağzıma it başı alıb babilər ilə söyüşürəm. Sən demə, qəzetçilər mənim evimdə qulub açıblar. Şəklimi çəkib şüşəkiyə qoyurlar...

Bəli! İndi mənə agah olur ki, çoban gədəsini üstümə küşkürdən, məni el içində bihörmət eləyən kim imiş. Yoxsa Əntiqə başını aşağı salıb oxuyurdu. İş də, qazanc da qaydasınca idi. Gör nə hiylə qurdular ki, qız qardaşını görən kimi qaçdı. Bir də bu tərəfə üz çevir-



mədi. Nə qədər ziyana saldı. İt də getdi, ip də getdi...

Hacı o gün həyət qapısından kənara getmədi. Aləm gözünə dar göründü. Oturdu, durdu. Papirosu papirosa caladı. Bütün qonşular eşitsin deyə, bərkdən-bərkdən hey deyindi:

- Heç eybi yoxdu! Mən o laməzhəbi cənab Hacı Zeynalabdinin hüzuruna çəkməsəm, mən o bidini imperator dəftərxanalarına üzü üstə sürüdüb gətirtməsəm, mən o bişərəfi sudlar qabağında dayandırmasam, bu papaq mənə haram olsun!

Hacı xurmayı rəngli buxara papağını yerə çırpanda Münəvvər xanım yüyürüb götürdü:

- Ay beynəvə, heyifdir, bir ətək pul vermisən axı, heyifdir!

## Altıncı fəsil

### BÜLBÜL NİYƏ SUSDU?

Kasıbı dəvə üstündə büvə sancar.

ATALAR SÖZÜ

Tahirzadə Bəndalını öz mənzilinə apardı. Bəndalı iş üçün, Ağafanın qonağının həyətinə quyu qazmaq üçün gələndən sonra mədənlərə getdiyini, beş-üç şahı qazanmaq üçün hər işə qatlaşdığını danışdı.

- Di gəl ki, qoymurlar. Kasıblıq eləməyə qoymurlar. Fəhlələrdən bir neçəsinin cənuba, əncüməncilərə qoşulub fədayi getdiyini biləndə bizi də incitdilər. Kimini tutdular, kimini qovdular. Əsədullayev upravlyayuşisinə tapşırmışdı ki, bir-bir fəhlələri çağırsın, iltizam alsın. Çək-çövrü görüb, mən də raşot aldım. Gedirdim ki, qəfildən qıza rast gəldim. Yaxşı ki, rast gəldim.

Tahirzadə onun Bakıda qalıb iş axtarmasını təklif etdisə də, Bəndalı razı olmadı.

- İltifatınız artıq olsun, Mirzə dadaş. Çoxdandı evdən ayrılmışam, anam təkdi. Qız da çıxıb gələndən sonra yazığın səbri tükənib yəqin. Özüm də bezmişəm, gedəcəyəm.

- Qal, buralarda iş taparsan. Mən də Əntiqəni Şəfiqə xanımın yanına apararam. Onun qız məktəbi var. Hacı Zeynalabdindən iltimas edər, bunu da qəbul edərlər.

Bəndalı çarığının bağını bərkidərək, sanki bu saat yola çıxan müsafirlər kimi danışdı:

- Siz salamat qalın, biz də gedək, o kasıb komamızı üç-dörd aylıq ayrılıqdan sonra bir ziyarət eləyək. Dost var, düşmən var. Qoy bilsinlər ki, Bəndalı əsir-yesir olan deyil, məqam gələndə özünü qorumağı başarandır. Anam da tək qalıb. Görər, bir təsəlli tapar!





- Axı gedib nə edəcəksən?

- Mirzə dadaş, mənə nə var. Mən iş adamıyam. Yapışacağam o xışın əlcəyindən, ağ zəmini qaraldacağam, üstündən də addım döyəcəyəm. Başımın üstündə ulduzlu göyü, ayağımın altında şum torpağı görəndə, quşdarın səs-səsə verdiyini eşidəndə, haşa burdan. Hacı Rəsul kimi namərdlərdən uzaq olanda, elə bilirəm, anadan təzə olmuşam. Doğrusu, Mirzə dadaş, qəribsəmişəm. Ev-eşiyi ürəyim istəyir. Lap bu saat bir quş olub uçmaq istəyirəm. Qala bilməyəcəyəm. Qızın oxumağı da, hələ ki, qalsın. Hacı kimi sələmkarların minnətindənsə, anasının yanında oturar, necə ki, mən varam, bir tikə çörək tapar. Bizə nə yaraşır oxumaq...

Həmin gün Bəndalı Şamaxı meydanına gəldi. Arabaçıların birilə danışıb səhər tezdən yola çıxdı.

Qızı Bakıya gedəndən sonra Məsmə həm sevinmiş, həm qüssələnmişdi. Sevinmişdi ona görə ki, indi o da bəziləri kimi danışa biləcəkdi:

- Bizim uşaq da uşqolda oxuyur.

- Bizim uşaq neçə aydı dərs dalınca gedib.

- Uşqoldan kağız gəlib...

O da istəyirdi övladı üçün, heç olmasa, axırıncı övladı üçün fəxr eləsin. Doğrudur, şəhərdə uşaq oxutmaq, xərcinin öhdəsindən gəlmək onun hünəri deyildi, belə bir iddia heç onun yuxusuna da girməzdi. Amma bunları soruşan kimdi. Elə deyəcəklər, Məsmənin qızı oxumaqdadı. Bu da ona bəsdi. "Allah Hacı Rəsulun imanını kamil eləsin. Müsürmanın qeyrətini çəkəndi. O aparmasa, Əntiqə hara, dərs hara!"

Bir gün faytonçu Əhməd Məsməni çaylaqda, palazyuyan yerdə görüb muştuluqladı:

- Məsmə xala, gözün aydın olsun, qızın qiyamətdi.

Məsmə qızının adını eşidib sudan çıxdı, əllərindən su dama-

dama yaşmağını ağzına çəkib yaxına gəldi:

- Xeyir xəbər olasan, ay oğul, Əntiqədən nə var, nə yox?

- Bildiyim odur ki, maşallah, kəklik kimi qaqqıldayır.

- Başa düşmədim.

Əhməd səsini ucaltdı:

- Əntiqə çox yaxşı oxuyur, özüm gördüm, yaxşı oxuyur.

- Çox sağ ol, ay oğul, gözün işıqlı, dilin kəsərli odsun, harda gördün?

- Hacının yanında gördüm, Bakıda!

- Hacı oxudur?

- Bəli, Hacı oxudur, qız da maşallah, yaxşı oxuyur.

- Mirzə Ələkbər də orada uşaq oxudur. Görən bizim uşağa necə, dərs verir, ya yox!

- Mirzə Ələkbər Balaxanıda olur, onun yeri şəhərdən uzaqdı. Əntiqə lap şəhərdə Hacının öz yanındadır.

- Allah ondan razı olsun, Allah... Sənə bir sifarişdən-zaddan... qızın sözü-sovu?

- Xeyr, bir söz demədi.

- Yəqin utanıb, anası ölmüş.

- Yox, sözü olsa deyərdi.

- Qadan alım, oraya gedəcəksənmi?

- Hələ ki, burdayam. Çay daşıb, faytonumu da remonta vermişəm.

- Getsən, bir halını soruş, deynən anavun ürəyi bir tikədi. Bir parça kağıza nə gəlib. Özü də, deynən, Bəndalını, əli çatsa, bir soraxlaşsın. Bəlkə görə bildi. Anası ölmüşün Əntiqədən xəbəri yoxdur. Qız sonra getdi, hə, qadan alım, Bəndalının sözünü yaddan çıxartma! Həl-həlbət!

Doğrudur, Əhməd sifariş aparmağa söz vermədi. Ancaq Məsmə arvad öz aləmində sifarişindən dərin bir yüngüllük və rahatlıq



duydu. Əntiqənin «maşallah oxumağı» xəbəri anaya bir sevinc oldusa, qızına etdiyi sifariş iki sevinc, Bəndalının bacısı ilə, bu gün olmasa da, sabah danışmaq ehtimalı daha ayrı bir sevinc oldu.

Məsmə arvad indi hər gün oğlunu, əziz balasını gözləyirdi. Bəndalı həmişə evə gələndə bir şənlik, xoşluq gətirərdi. O, hərdən «pəhləvanlığına» salar, salam əvəzinə, anasını cəld qucağına alıb həyətdə cövlan vurardı:

- Sənin ki, canın budu, daha nə artıq-əskik danışırsan!

Məsmə qonum-qonşudan, yaşının bu vaxtında yüngüllük elədiyindən utanır, oğluna qışqırırdı:

- Ədə, bəsdir, ürək-göbəyim qırıldı. Burax məni, başım gicəlləndi, burax! Kuşti tutmamısan ki mənnən, bəsindir!

Bəzən də Bəndalı gələn kimi içəri girər, çul kimi halsız düşərdi.

Məsmə bilərdi ki, oğlu yorulmuş, ya nə "deyintisi" olmuşsa hirslənmişdir. Su gətirib Bəndalının ayaqlarını yumaq istəyəndə, oğlan acıqlanar, kuzəni alıb həyətə çıxardı. Bəndalı gələndə, nəsə ev-eşik də bir cür olur, adamın üzünə gülür, daş-divar da dilə gəlir, deyəsən, ərgən oğlanla zarafatlaşırdı...

Nə isə Məsmənin yeganə, əziz oğlu haqqında şirin xatirələri tükənməz idi. Bəlkə də onu yaşadan, iki uşağın ayrılıq fikrini unutduran da elə bunlar idi... «Az qalıb, sağlıq olsa, bu gün-sabah uşaq gələcək!» Deyəsən, qadının ürəyinə dammışdı ki, «kağız, xəbər» göndərməməyindən, görünür, tez gələcək! "Nə bilim. Bəlkə anası ölmüşün cibi boşdur. Fikir eliyəcək gedim-getməyim! Qeyrətinə anan qurban, ay bala!..

...Bəndalı mərifətli, Bəndalı qanacaqlı oğlandı. Muzdur olsa da, ağa xasiyyəti var idi. Səfərdən qayıdanda heç əliboş olmaz. Bir alma, bir kökə də olsa, gərək əlində gətirsin... Yəqin indi dəramədi, gəliri olmuyub, beçarə xəcalət çəkir. Gəlmək istəmir. Bir iş tapıb xərclik qazanmaq, sonra bu tərəflərə dönmək istəyir. Ay fələk, çar-

xın çevrilsin, yağı yağ üstə tökən, yarmanı yavan qoyan fələk! Oğlun ölməsin, yazıqsan..."

Məsmə bu cür xəyalata bəzən elə cumurdu, özünün də xəbəri olmadan öz-özünə danışırdı:

- Daha demir ki, ana yazıq heç nə istəmir. Bir qapımdan girməyini, qurbanı kəsdirdiyim o qaməti bir qucaqlamağı istəyir. Hardasan, ay bala. Onun-bunun yanında dolanmaqdansa, bir yurduna-yuvana, ana-bacı yanına qayıtsana! Dönsənə bir vətənə:

Əzizim vətən yaxşıdı
Köynək kətən yaxşıdı...

- Ay Məsmə, yenə qızışıb bayatı deyirsən. Salam-əleyküm!

Məsmə yuxudan ayılmış kimi dik atıldı:

- Bismillah!

- Bismillah da, üstəlik bir Allahü-əkbər də! Yeri bir özünü səhmana sal, çarşavunu bürün gəl, sözüm var!

Yasovulun qəfildən gəlişi və sözü Məsməni sanki yeddinci göyün bir qatından alıb yerə çırpdı, sərnigün elədi. Qadın elə tutuldu ki, bir xeyli dinməz dayandı. Handan-hana çarqatının ucunu ağzına alıb əli ilə astanaya söykəndi:

- Nə sözün var de, çarşov nə dərdinə qalıb sənin! Nə belə yarax-yasağınan arvad xeylağının üstünə gəlmisən, Qənbər! Nə sözün var!

Yasovul özünü sındırmadı:

- Bəndalının dalınca gəlmişəm. Bizdən istəyirlər onu, hardadı?

- Bəndalı sizin kimi haramilərin əlindən getmədimi? Mən sizdən soruşmaq əvəzinə, siz məndən soruşursunuz.

- Arvad, özünü avamlığa qoyma. Bəndalı neçə aydı gedib, hardadı, yerini de!

- Gedib, getdiyidi, mən üzünü görməmişəm. Yolunu gözləyirəm. Nə var, yoxsa yenə uşağın üstünə iftira düzəldirsiz?





- Necə yəni, evə gəlməyib? Aləmi qarışdırıb, bəs harda qaçıb gizlənib.

- Niyə qaçır, mənim oğlum kasıbkarlıqdan səvay harda olacaq, fəhlə babadı!

- Sənin gözündə elədi, camaatdan soruşanda bilərsən! Elə uşaq doğmusan ki dinc otura! Ev-eşiyini qoyub, görəsən, hansı qapılarda küllənib ki, xalqa da bir ətək ziyan vurub!

- Küllənən də özünsən, ziyankar da. Mənim oğlum gül kimi uşaqdır, bir qarışqanın da ayağını basmaz. Nə sarsaxlayırsan!

- Ay arvad, bizi ələ salma. Guya sənin xəbərin yoxdu? Guya divan adamlarının onu axtardığını sən bilmirsən?

- Bilənin atasına lənət! Divana o nə eləyib ki, axtarırlar, ay divanın taxtı tabuta dönsün!

Qənbər ciddi danışmaq istədi:

- Nə elədiyini ona deyərlər. Sən də məni xam görmə, oğlun hardadı, yerini de, yoxsa bu saat ev-eşiyin axtarılacaq!

- Bəndalı ölüb ki, onun ev-eşiyi axtarılsın?.. Ə, yekəpər, utanmırsan kişisiz evə ayaq basırsan, ay arvaddan əskik. Biz müsürmanıq axı, niyə qanmırsan? Qanına bulaşdırım səni bu saat?!

Bəndalının səsi həyətdə böyük nəcat xəbəri, bir muştuluq kimi səsləndi.

Bəndalı keçib ikiəlli anasının çalmasından tutub alnından öpəndə, qadın dəhşətli və nagahani bir səslə: «Oğlum! Səsinə qurban!» deyib özündən getdi.

Qardaşını yasovul qabağında, vuruşmaq qəsdində görəndə Əntiqənin gözləri böyüdü, vahimədən qışqırıb nanə yarpağı kimi əsdi. Bir əli ilə anasının başını dizi üstə alan Bəndalı o biri əli ilə Əntiqəni bağrına basıb mehriban dindirir, təsəlli verirdi.

- Qorxma, bacım, rədd olub gedəcək, qorxma, öz evimizdəyik. Anamın da ürəyi sevincdən xarab olub, heç fikir eləmə. Bu saat aya-



ğa duracaq, nə ağlayırsan, sakit ol! Su gətir, otur ananın ayaqlarını ov, özünə gəlsin! Otur! Otur!

Əntiqə «oğru gəlib evimizə, oğru gəlib!» deyə ikiəlli gözlərini tutub hönkür-hönkür ağlayırdı. O, başını yuxarı qaldırmaq istəmirdi. Oğru haqqındakı qorxunc uşaq təsəvvürləri gözləri önündə canlanırdı.

Həyətdə arı pətəyi saxlayan Məsmə bir səhər durub pətəklərin yerni boş görmüşdü. Gecə oğru onları çiyninə alıb uzaqlara, Daşlı dərəyə aparmış, balını götürmək üçün yerə çırpmışdı. O səhər necə olmuşdusa, Əntiqə də tezdən oyanmışdı. Anasının uçuq pətək yerlərinə necə baxdığını, lənət oxuduğunu heç bir zaman unutmazdı. Yuvadan aralanıb tək qalan arılar boğuq səslə həyətdə cövlan vurub pətəyi axtarırdılar. Daş-kəsəklərin üstünə qonur, peşman olub tez qalxırdılar. Onların səsindəki qüssəni Əntiqə duyur, sinəsindən soyuq həsrət və təəssüf keçirdi...

İndi Əntiqə həmin oğrunu gözü ilə görürdü. Həmin bu Qənbər yasovul odur! Evləri, pətəkləri, tövlələri dağıda-dağıda gəlib bizim evə çıxan oğru budur. Kim kömək olacaq, kim onu qovub aparacaq!..

İki gün sonra «Kaspi» qəzetində balaca bir xəbər çap olunmuşdu:

«Bədəfkar həbs olundu: Şamaxı sakini Bəndalı Kərim oğlu keçənlərdə «İslamiyyə» restoranında şuluqluq salıb asayişi-ümumuyyəni bərhəm etmiş[1], restoran sahibinə 100 manata qədər ziyan vurandan sonra fərar edib nəzərdən napədid[2] olmuşdu. Qəza pristavı məzkur bədəfkarı dərdəst edib həbsə almışdır».

Tahirzadə bu xəbəri oxuyan kimi fikrə getdi:

Sağ sələmxor, sol pristav, qansoran dörd bir tərəf.
Ey yazıq millət, olursan tirə barانə hədəf!

Tahirzadə qəza polis rəisinə bir ərizə yazıb əhvalatı şərh etdi.

1. Pozmuş
2. Gizlənmişdi.

Bəndalının tamamilə taqsırsız, zərər haqqında iddianın isə əsassızlığına şahid olub, ifadə verməyə hazır olduğunu bildirdi.

«Cinayət» sübut olunana qədər Bəndalını Tahirzadəyə zaminə verdilər.

Əntiqə, dağların kiçik nəğməkarı Əntiqə yenidən dağlara qayıtdı. Sanki böyük, izdihamlı şəhər bu qızı qəbul etmədi. Yəqin ki, onun havadarı, etibarı olmadığı üçün qəbul etmədi. Yox! Əntiqə özü də bu izdihamlı şəhərin qaydalarını - qazanc qazanı kimi pıq-pıq qaynayan və minlərlə insanı mum kimi yumşaldıb əridən, pula çevirib sandıqlara dolduran qaydalarını qəbul etmədi. Əntiqə Hacının restoranından çıxanda ilan ağzından qurtulmuş quş kimi uçur, sevinirdi.

Bəndalı həbs olunsa da, bacısını canavar ağzından qurtarıb evə qaytardı. Əntiqə həvəs və fərəh götürdüyü, dil açdığı dağlara qayıtmışdı. Amma indi Əntiqə daha əvvəlki Əntiqə deyildi. Böyümüşdü, paltarı gödəlmiş, daralmışdı. Qara şəvə kimi saçları daha da uzanmışdı. Hörükləri yoğunlaşmışdı. Odun şələsinə dolaşıb pozulan, pırtlaşan bu hörükləri vaxtında nə darayan, nə də hörən var idi.

Əntiqəni yenə meşədə, ağaclar altında kölgə kimi tərpəşən, ətəyinə çöl meyvəsi yığan, yemlik kökü çıxaran, bağayarpağı toplayan görərdin. İndi o, uşaqlara yovuşmurdu. Bəziləri güman edirdi ki, «qız uşağıdır, çəkinir». Elə deyildi. O, nəinki uşaqlara, hətta qadınlara, öz anasına da yovuşmurdu. «Qız birtəhər olub!»

Bu sözü hamı, Əntiqəni tanıyan hər kəs təsdiq edirdi: «Birtəhərdi, lap birtəhər!» Əntiqənin uşaq aləmində baş verən tufan və bu tufandan qalan xərabələr bu sözlərlə ifadə olunurdu. Əntiqə indi nə oxuyur, nə də oxuyanlara yanaşırdı. Bu haqda ondan xahiş edənlərə





cavab vermirdi. Uzaq və şirin xatirələr eşidirmiş kimi köks ötürür, yavaşca gözdən itirdi. Çay kənarında, ya təpə başında təmiz bir daş üstündə dizlərini cütləşdirib dinməz-söyləməz oturur, başını dizlərinin qara qapaqları üstünə qoyur, sanki dərin fikrə gedirdi. Heç bir şey, nə çağırış, nə haray, nə çoban, nə qoruqçu onu bu vəziyyətindən ayıra bilirdi. Top atsan da tərpənməzdi. Onu dindirib dilləndirmək müşkül olmuşdu. Amma bəzən Əntiqə durduğu yerdə elə qəh-qəh çəkib gülürdü ki.

- Qızım nəyə gülürsən. Gecənin bu vaxtında burda nə bir iş oldu ki, gülürsən?

- Dünyanın işlərinə gülürəm!

- Dünyanın hansı işlərinə?

- ...

- Gülməli nə eşitmisən, deginən biz də gülək, nə olar. Gülməli sözə gülərlər də, nə olar. Bir danış görək, gülməli nə işdi?

Əbəs idi. Əntiqədən cavab gəlmədi. Elə bil, qız, hop tutub!

Məsmə qızının bu pərişan halına baxdıqca, düşündükcə düşmənlərinə qarğış yağdırardı:

- Səsin batsın, ay səs batıran!

Qızının küskün, məyus, məhzun üzünə baxdıqca, böyüyən gözlərinə, solmuş dodaqlarına nəzər saldıqca Əntiqənin dağa-daşa səs salan mahnıları, nəğmələri qulağında təkrar olunardı:

Bakıdan fanar gəlir,
Oduna yanar gəlir.
Yaralı bir quşam mən,
Dünya mənə dar gəlir!..

Məsmənin başından tüstü-duman qalxırdı.

- Qiyamətəcən, görüm, dilin tutulsun, kəlmə kəsə bilməyəsən, ay mənim bülbül balamı susduran. Görüm, ömür-günün xəzana dönsün!

Məsmə dərdlərini Tahirzadəyə danışmaq üçün vaxt, fürsət axtarırdı. Tahirzadənin isə belə bir izaha ehtiyacı yox idi.





## Yeddinci fəsil

## CƏMİYYƏTİ-XEYRİYYƏDƏ

Azan, kilsə zəngi, saat səsi bir-birini təqib edir.
Hərəsi bir yana çağırırdı.
MİRZƏ CƏLİL

Farsunkanın gurultusu çörəkxananı başına almışdı. Kürəyə od püskürən kranta yaxınlaşmaq çətin idi. Kürənin daşları pul kimi qızarmış, divarları qovrulurdu. Alnında tər damlaları seçilən Məşədi Hüseynqulu çirməkli, döşü önlüklü xəmirxanadan kürəkxanaya keçir, dayanmadan geri qayıdırdı. Güman etmək olardı ki, kürə qabağında dayanmaqdan, gurultuya qulaq asmaqdan xoşu gəlir, atəşpərəst kimi oda tamaşa eləmək istəyir.

- Qoççağımsan, xod ver daş qızsın, bu gün vacib yer var, gedəcəyəm. Bir az tez qurtaraq! Cümə axşamıdır.

Yarım saat əvvəl Məşədi Hüseyn şagirdinə belə tapşırıq vermişdi.

Bəndalı ustasının xahişinə tez və dürüst əməl eləmək üçün əldən-ayaqdan gedir, kürə qabağında fır-fır fırlanırdı. O, heç vaxt ustasının bir sözünü iki eləməzdi, xüsusən də indi. «Usta tələsir axır, yenə görəsən nə danışıq var!»

Bəndalı Məşədi Hüseyni çox istəyir, çox da hörmət qoyurdu. Ona elə gəlirdi ki, ömründə, indiyəcən bu qədər xoşuna gələn adam görməmişdir: nə kənddə, nə şəhərdə, nə qocalar, nə cavanlar, nə ağalar, nə fəhlələr içində.

«Yaxşı adamdı!»

Bəndalı bu sözü hey təkrar edirdi. Dostun da yanında, düşmənin də yanında deyirdi. Məşədi Hüseyn nə üçün Bəndalıya belə xoş gəlmişdi? Bu suala Bəndalının özü də birdən-birə cavab verə bilməzdi.

Deyə bilməzdi, ustası niyə ona belə xoş gəlib. Bəlkə ona görə ki, ağır gündə Bəndalıya iş və daldalanacaq verib. Bəlkə ona görə ki, Bəndalıya - qara fəhləyə güldən ağır söz demir. Bəlkə ürəyi yuxadır, bəlkə mehribandır, qeyrət çəkəndir. Bəlkə də ona görə ki, Məşədi Hüseyn «əslən» yaxşı adamdır. Bunların hansıdır? Bəlkə də hamısıdır...

«Əslən» yaxşı adam deyəndə, Bəndalı ustasının əsil-nəcabətini, nəslini ya zatını-südünü demirdi. Çünki bu cəhətlərdən onun bir xəbəri yox idi, ola da bilməzdi. O, ustanı burada, xəmirxanada bir şatır olaraq tanımışdı.

Daha Məşədi Hüseynin haradan gəldiyini, kimlərdən olduğunu bilmirdi. Belə bir şey onu maraqlandırmırdı da.

«Şər zahirə hökm eliyər!» Anasının haçan, nə münasibətlə isə dediyi bu söz Bəndalının yadında idi. Aşkar görür, inanırdı ki, usta «Allah adamı»dır. Yəni yaxşı adamdır. Fəhləyə xor baxmır. Onunla qabaq-qabağa oturub on-on beş ilin ürək dostu kimi şirincə söhbət eləyir. Onun sözünə diqqətlə qulaq asır, cavab verir, gülür, təsdiq və izah edir. Onunla «uşaq kimi» zarafatlaşır, süfrəyə oturur, bir tabağa əl uzadır, onsuz bir tikə kəsmir. Səhər-axşam əhvalını soruşur.

Xülasə, şəhərdə rast gəldiyi birinçi kişidir ki, Bəndalını «adam» yerinə qoyur, onunla, hətta bəzi işlərdə hərdən məsləhətləşir də!

Məşədi Hüseyn sahil çörəkxanalarında, məşhur usta, camaat arasında beş kişinin biri, savad sahibi, qəzet-jurnal oxuyan, «dünyanın işlərini bilən», həmkar fəhlələr arasında sözü keçən bir adam olsa da, dünənin şagirdi, kənd uşağı, çoban Bəndalı ilə lap ata-oğul kimi deyib-danışır, arına da gəlmir.

Bəndalıya hər şeydən çox qəribə və həm də xoş gələn bu idi. Buna görə Bəndalı onun barəsində həmişə, hər yerdə, ağızdolusu danışar, əsl «Allah adamı» kimi ona dua oxuyardı. Bəndalı ustasının yolunda ölümə getməyə hazır idi. Çox arzulayırdı, bir səbəb, bir vəsilə düşsün ki, ustasına qulluq, yaxşılıq eləməyə məqam gəlsin.





Amma nəsə, nədənsə, elə məqam gəlmirdi. Əksinə, həmişə ustası ona yaxşılıq eləyirdi. Bəndalı da çox xəcalət çəkirdi. «Köynək-köynək ət tökürdü». Keçib yuyunmaq istəyəndə, Bəndalı su gətirirdi, ustası razı olmurdu. Papiros almaq üçün özü gedirdi, taxtın üstünü özü süpürürdü. Bəzən nefti də özü alıb gətirir, tökür, kürəni də özü yandırırdı. Bəndalı dura-dura hər xırda işə usta özü gedirdi. Əvvəlcə Bəndalı güman etmişdi ki, ustası ona etibar eləmir. «Dağıdar, bacarmaz» deyir. Sonra gördü ki, yox, Məşədi Hüseyn lap qəribə adamdır. Şagirdinə elə hörmət qoyur, deyərsən, çoban yox, bəy balasıdır. Bəndalı ustanın mənzilinə gedərkən neft qabını götürmək istəyəndə Məşədi Hüseyn mane olurdu:

- Oğul, hələ o qədər qocalmamışam, işində ol, özüm apararam!

Məşədi Hüseyn «vacib yer var, gedəcəyəm» deyəndə, Bəndalı bildi ki, usta məclislərə, görəsən, hansı qəzetçilər, tacirbaşılarla deyişməyə gedəcək.

Ustasının «qəribəliyi» bu idi ki, Bəndalı belə adam görməmişdi, ona görə də təəccüb edirdi. Axı Məşədi Hüseyn kasıb kəndli gədəsi ilə niyə diz-dizə otursun? Niyə ona salam versin, səhər-axşam niyə onun kefini soruşsun! Bəndalıdan ona bir qəpik xeyir yox, ziyandan savay! Qohumu deyil, əqrəbası deyil, bir şeyi deyil. Gələn günün sabahı evindən sahmanlıca bir yorğan gətirtdi, pulsuz-parasız bir cüt nimdaş «batinka» verdi. Heç nimdaş da demək olmaz. Beş-on gün ya geyilib, ya yox! Heç «xozeyn»dən soruşmamış onu çörəkçixanaya buraxdı. Taxt üstündə yer verdi. Hər səhər-axşam da kefini soruşur, qeydinə qalır ki: «Necədi, xəmirgirlik sənə ağır deyil? Yorğunluğun olanda de, utanma!»

Bir sirr idi. Bəndalı bu barədə çox düşünmüş və belə yozmuşdu ki, «usta Allah adamıdı. Bilir ki, kasıba kömək eləmək savabdı».

Bir tərəfdən də o görürdü ki, savab söhbəti də deyil. Məşədi Hüseyn handa bir şəriətmədar axundlar ilə dik-dik deyişir, onlara

«müftəxor» deyir. Heç günahdan qorxub-çəkinmir, çox mollaların sözünü lağa qoyur. «Yox, usta savab axtaran adama oxşamır. Nəsə ayrı bir məqsəd var. Yoxsa belə mehribanlıq olmaz ki, bu kişidə görürəm!»

Bütün bunların səbəbi Bəndalıya bir «sirr» kimi gizli, qapalı idi. Çünki o, xəyalına gətirə bilməzdi ki, ustasından gördüyü rəftar, məhz adi, təbii, insani rəftardır. Elə-belə də olmalıdır.

Bəndalı cavan olsa da, çox «yaşamışdı», çox görmüşdü. Nə kənddə, rəncbərlikdə, nə də hər il qış vaxtı fəhləliyə getdiyi yerlərdə Məşədi Hüseyn kimisinə rast gəlməmişdi. Hansı qara iş qalmışdı ki, Bəndalı yapışmasın. Neçə mərtəbəli damlar üstünə vedrə-vedrə qır daşımamışdı, həyətdə də, kəhrizlərdə də quyu qazmış, palçıq daşımışdı, kərpic kəsmiş, biçin biçmiş, araba sürmüş, balıq tutan qayıqlarda avar çəkmişdi. Son vaxtlarda, Tahirzadənin vasitəsilə girdiyi işdə isə Məşədi Hüseynin şagirdi olmuş, çörəkxanada bənd olub qalmışdı. Məşədi Hüseyn onun kəndə çox meyil etdiyini hiss edəndə zarafat ilə üzünə vururdu:

- Adın Bəndalıdır, özün bir peşədə bənd olmalısan!

Bəndalı xəyalına gətirə bilməzdi ki, adam adama əvəzsiz, pulsuz bir xeyir iş görə. Bəndalının zamanında alım-satım hər şeyin hakimi idi. İnsan özü də, salam-kəlam da bazar malı kimi alınıb-satılırdı. Bəndalı ustasından gördüyü bu xoş rəftara qarşı özünün borclu olduğunu, həmişəlik, mütləq borclu olduğunu yəqin etmişdi. Ancaq bu borcun nə miqdarını, nə də ödəniş vaxtını və yolunu bilirdi. Bir onu bilirdi ki, hər dəqiqə Məşədi Hüseyni görəndə xəcalət çəkirdi. Məşədi Hüseyn də bunu duymamış deyildi, bəlkə ona görə Bəndalının çiyinlərindən tutub, sanki yoxlayır, onun uzun, güclü qollarına, möhkəm biləklərinə baxıb gülə-gülə deyirdi:

- Maşallah olsun bu zəhmətkeş əllərinə! Camaata çörək verən bu əllərdir. Bunların qədrini bilmək lazımdır. Təəssüf ki, bunlara xor





baxanlar var, yox olsun zəhmətə xor baxanlar! Var olsun bu əllər!

Bəndalı əvvəllər başa düşmür, Məşədi Hüseynin sözlərini zarafat, ya bir xoş söz-söhbət sayırdı. Sonradan, elə ki, Məşədi Hüseynin həmkarlar qabağında ucadan və həyəcanlı danışdığını gördü, əllaflar, çörəkçilər ilə müqavilə bağlamamış onlara fəhlə vermədiyini gördü, inandı ki, usta ona, doğrudan da, ayrı cür baxır. Tək ona yox, fəhlələrə ayrı cür baxır:

- Zəhmət, zəhmət...

Hər yerdə bunu deyib durur.

Bəndalı qətiyyən xəyal edə bilməzdi ki, Məşədi Hüseyn onu öz həmkarı, öz zəhmət yoldaşı, öz bərabəri sayar. Güman etməzdi ki, Məşədi Hüseyn və onun kimi bir çoxları ömürlərini əmələ yoldaşlarının yolunda əlləşməyə, vuruşmağa sərf edələr. Məşədi Hüseynin böyük yerlərdə həmkarlar işindən, qəzetdən söhbət gedəndə deyib-danışdığını, hətta çörəkçilərin adından şəhər böyüklərinə ağır sözlər dediyini eşitmişdi. Güman etmişdi ki, Məşədi Hüseyn ya «peyğəmbərin şəriəti yolunda», ya da çörəkçixanaların səliqə-sahmanına görə danışır. Yəqin belədi. Ayrı nə ola bilər!

Farsunka «xoda» düşəndən, kürə qızıb-qızarandan sonra usta qollarını çirmədi, təndir qabağına keçib kəhrəba rəngli kürəyin işıldayan sapını əlinə aldı. Şagrdinin vərdənə ilə yaydığı kündələri kürəyə sərir, tez-tez oda atır, neçə dəqiqə keçməmiş, buğdanın səngəklərini qızmar kürədən çıxarırdı. Od kimi isti səngəyi qulağından tutub taxtapuşun üstünə atanda, çörək göydə dəsmal kimi yellənir, taxta üstünə düşəndə buğ verirdi. Kürə qabağında işləyəndə Məşədi Hüseynin sifəti qıpqırmızı yanar, üzünün nuru daha da artardı. O, gözünü kürədən çəkməsə, dinib-danışmasa da, adama xoş görünərdi. Bəndalı güman edərdi ki, bu zaman usta çörəyə baxa-baxa özü ilə danışır, bəlkə də, dua oxuyur, «bərəkətə» söz qoşur. Yüzlər, minlərlə adamın ruzisini bişirdiyinə, hazırladığına həm



ləzzət alır, şükür edir, həm də ağırlıq çəkir. Namaz üstündə olan adamı dindirmək haramdır. Ustanı da kürə qabağında dindirmək olmaz. Bəndalı onun nurani sifətindən puçur-puçur tər damcılarının axdığını görəndə, yavaşca dəsmalı qabağına itələyər, bir kasa sərin su gətirib qoyardı. Usta isə bunlara gözünün qulağı ilə də baxmazdı. «Kündə ver!» deyə təkrar-təkrar un səpdiyi kürəyin üstünü həmişə dolu görmək istər, yaşına yaraşmayan bir cəldliklə çörəyi bişirərdi.

«Vacib yer var, gedəcəyəm, bir az tez qurtaraq!»

Bəndalı son, bir az da balaca kündələri verəndə, bu söz təkrar qulağında səsləndi. Güman etdi ki, ustası niyyətini unutmuşdur, bəlkə də heç getmədi. Bu ehtimal xəyalından keçəndə, elə bil, Məşədi Hüseynin yadına saldılar. Cəld araqçını götürdü, önlüyünü açdı, əyilə-əyilə əlüzyuyana tərəf qaçdı.

- Çörək buğdan düşəndə üstünü ört, xozeyin soruşsa, deyərsən, xeyriyyədəyəm. Daha burada mənlik bir iş yoxdur.

Məşədi Hüseyn tələsirdi. «Cəmiyyəti-xeyriyyənin bugünkü yığıncağına tələsirdi. Bilirdi ki, oraya bu gün çox adam gələcək, çox da eşitməli söhbətlər olacaq».

Söhbət deyəndə, ustanın zehninə bu sözlər gəldi: «Səttarxan əhvalatı!»

Hələ keçən cümə günü Məşədi Hüseyn nahar edəndə Hacı Rəsulun əlində qəzet, kontordan hirslə çıxıb danışdığını görmüşdü:

- Bu qəzetlər yenə aranı qarışdıracaq. Adını «Günəş» qoyur, amma oxuyursan, adamın ürəyinə qubar gətirir, özü də payız qubarı. Başlayıb at dəllalının şənindən deməyə! Ay qəhrəman, ay Sərdari-milli, ay Salari-milli. Belə Rüstəmi-Zal, belə rəşadət, belə şücaət. Əncümən belə gəldi, azadlıq elə getdi, filan, bəhmədan!..

Canım, bir adam ki öz doğma yurduna şuluqluq sala, qardaşı qardaşa qırdıra, qanı su yerinə axıda, buna sən Şümür, İbn Ziyad deməkdən, İbn Milcəm deməkdən, başlayırsan ağızdolusu tərif-qə-

sidə deməyə. Başlayırsan ona hələ ianə yığmağa. Bir başa düşmürsən ki, ay bədbəxt oğlu, sən islamın belini sındırırsan. Rişəsinə balta çalırsan! Sən dünyada şir-xurşid hökumətinin, qibleyi-aləm hökumətinin köləsini qılınclayırsan axı!

Dava qızışıb, yollar bağlanıb, gələn-gedənin ayağı kəsilib, şuluxluq düşüb, nə tacirin dəramədi, nə mülkədarın tənqahı qalıb. Camaat başının hayında. Üləma məscidlərdə qara camaata nəsihət deyib, hidayət eləməkdə. Əvamünnas beşaçılan götürüb şahpərəstlərin üzünə ağ olmaqda, filan, bəhmədən!..

Qəzet bunu yazmaq, çarə demək əvəzinə, fitnə yayır, ortalığa salır, hökuməti rəiyyətdən, rəiyyəti padşahdan çəkindirir. Görərsiz, əlahəzrət imperatoru biz müsürmanlardan rəncidə salacaqlar. Beşinci ilin pundunu təzələməsələr, bazar-dükanı bağlamasalar əl çəkməyəcəklər. Bu əliqələmlilər qoymuyacaq xalq kasıblığını eləsin. Allah-təala quranda yaxşı buyurub. Qovməzzalimin lap elə bunlar, qazet-mazet yazanlardır! Özgə yerə niyə gedirsən. Lap bunlardır, qovməzzalimin - Hacı ağa, Səttarxana iyid deyən bir bizim qəzetlər deyil, bunu bütün dünya deyir.

- Dünyadan bizim nə xəbərimiz var?

- Gəlir, teleqraf gəlir, qəzet gəlir.. Səttarxan tək, öz xalqı üçün bir iş görmür, qədrini bilən olsa...

Hacı Rəsul Məşədi Hüseynin üzünə əyri-əyri baxdı və rişxənd ilə dedi:

- Doğru deyirsən, dünyanın hər yerində həmşəri var. Amma həmşəri dünya demək deyil. Həmşərinin öz peşəsi var: qoy getsin yükünü daşısın, kərpicini kəssin, kəhrizini qazsın. Daha başından yekə mətləblərə, dünya işlərinə qarışmasın!..

- Həmşərinin biri Səttarxandır, Hacı ağa, dünya işlərinə qarışır, allah ömür versin, hələ ki, pis də qarışmır.

- Görəsən, kimin felinə uyub, beş-on şahı qara pul alıb. Təbrizi bir-birinə vurub.





- Pul hərisi tacir-tüccar olar. Səttarxan mücahiddir, atan-vuran adamdır. Pul gözünə görükməz.

- Bəs bu hay-küy nə üçündür?

- Siz bunu bilməmiş deyilsiniz, Hacı ağa! Məclislərin başında əyləşirsiniz!

Hacı Rəsul müştərisindən daha ağır söz eşitməmək üçün əlindəki qəzeti xışmalayıb ovcunda sıxdı, piştaxtanın altına, kömürlüyə atdı, üzünü küçəyə tərəf çevirib əlini cibinə qoydu, dinməz-söyləməz dayanmaqdan başqa bir əlacı qalmadı.

Məşədi Hüseyn danışıqlardan, qəzetlərdən bilirdi ki, «Cəmiyyəti-xeyriyyə» yığıncağında məşrutəçilərə, Səttarxana kömək məsələsinə baxılacaq. Oraya mollalardan, şəhərin başbilənlərindən də çox adam, mümkündür ki, rəsmi hökumət nümayəndələri də gələcək. Ona görə tələsir, məclisin əvvəlindən orada olmaq istəyirdi.

Məşədi Hüseyn İslamiyyə binasına çatanda Hacının Ağa Mir Kərim axund ilə bahəm içəri girdiyini, onları gətirən faytonun isə çəkilib kənar küçədə gözlədiyini gördü. Cəmiyyət birinci mərtəbədə, pəncərələri həyətə baxan kiçik zalda toplanmışdı. Adam çox idi. Çoxu da, yəqin ki, soyuq olduğuna görə papaqlı oturmuşdu. Gözlər qabaq tərəfə, üstü göy mahud ilə örtülü stolun dalında oturanlara dikilmişdi. Məşədi Hüseyn içəri keçib kürsüyə təzəcə yanaşmışdı ki, qapını örtdülər. Ayaq üstündə dayananlar tez keçib oturdular.

Cəmiyyət əzasından biri, orta yaşlı, uçaboy, tənümənd, ətli sifət, çeşməkli, qara arxalıqlı, zəncirli saatını çıxarıb ovcunda tutan bir kişi ayağa durub gələnlərə quşbaxışı nəzər salandan sonra bu-günkü məclisin məramını dedi:

- Ağalar, cəmiyyət sizə ona görə zəhmət verib ki, vacib bir məsələni məsləhət məşvərətə qoysun. Mətbuatdan, teleqraflardan və xüsusi irsal-mərsuldan belə məlum olur ki, bu saat Arazın o tayında, sərhəddən kənarda, yəni Təbrizdə dava başlanıb, qardaş



qardaşı qırır. Şeytan vəsvəsəsi bir dərəcəyə çatıb ki, küçələr səngər olub, şah qoşunları ilə məşrutəpərəst camaat arasında nəinki atışma, hətta bomba, yanğın, talan-flan həddini aşıb. Biz Qafqaz müsəlmanları bu müsibətin fəci mənzərəsinə bir şahid kimi baxa bilmərik. Bizi bu dilsiz faciə xeyli mükəddər edib və edir. Təbriz əhalisinə, din qardaşlarımıza, hərbzədə, fələkzədələrə qardaş köməyi lazımdır. Şəhərimizin başbilənlərinin məsləhəti belədir. İanə lazımdır. Bu bizim din və vicdan borcumuzdur. İnsaniyyət borcumuzdur. Bəqədri-qüvvə! Yurdsuz, qışın günündə ac-yalavac çöllərə düşən, Məhəmməd Əli şah zalımın, Hacı Səməd xanın əlinə əsir düşən, Rəhim xan atlısının ayağı altında qalan binəvaların ah-naləsi, fəryadı asimanə bülənd olub. Camaat! Biz insani və islami vəzifəmiz mövcibincə, bəqədri-qüvvə onlara bilatəxir ianə verə bilərik. Onlar bizim din və millət qardaşlarımızdır. Bizdən savay imdad-ümidləri yoxdur!

Onu da cənabların nəzərinə yetirmək xahişindəyəm ki, bu işi bizim həmvətənlərimiz Tiflis camaatı, İravan, gürcü və erməni dostlarımız, Teymurxan Şura, Petrovski, Vladiqafqaz və qeyri yerlərin əhalisi də başlayıblar, hətta Təbriz fədailərinə Misirdən, Hinddən, bu yandan Rusiyadan, Rumdan, Bolqardan kömək sədası gəlir.

Kimi dil ilə, kimi pul ilə, kimi fel, əməl ilə. Kömək deməkdir: ya maddi olsun, ya mənəvi olsun.

Məqsudumuz budur ki, cəm olan məbləği hilali-əhmər cəmiyyəti vasitəsilə fələkzədələrə çatdıraq. Bu iş də həvalə olunub Xeyriyyə üzvlərindən flan-flan cənablara ki, məclisə təşrif gətiriblər. Bu məsələ barəsində cənablardan, isbati-vücud buyuranlardan təvəqqə olunur, buyursunlar. Gümanımız var ki, həzrət müzayiqə etməzlər, bəqədri-qüvvə! Bəli, bəqədri-qüvvə şair deyib:

Bərki-səbzəst töhfeyi-dərviş!
Çe kənəd binəva, həmin darəd![1]

Hər kəs iqtidarına, mümkünatına görə!

Sədrin sözündən sonra məclisə mənalı, ani bir sükut çökdü. Əyləşənlərdən bir neçəsi qabağa keçmək üçün yavaşca ayağa duranda qazının, Mir Məhəmməd axundun səsi eşidildi. Qazı bir əlini əbasının altında gizlətdiyi halda, o biri əlində tutduğu bir qəzeti kürsü üstünə qoydu və sözə başladı:

- Camaat, həzərat! Əlan vaxt xeyli kiran və aa-münasibdir. Şəhrai məhərrəmil-həram! Seydüşşühəlanın şəhadətə etdiyi müsibətamiz günlər. Cəmi aləmi-islam sərasər matəm içində. Dağlar, daşlar da qan ağlayır. Kərbəla müsibəti bizim hamımızın qəlbini cərihədar edibdir. Belə bir əyyamda, əlbəttə, Təbriz həvadisatı çox cüzi bir mənzildə qalır. Bəndə bunlar mənzurum deyil. Bəqeyri ki, məsələnin daha məsul bir cəhəti. Biz Qafqaz müsəlmanları ki, imperator əzəmlərə müti, sadiq rəiyyətlərik və xudavəndi-aləm adil padşahımızı yerin-göyün bəliyatından[2] məhruz buyursun inşallah!..

Zaldan «amin» səsi gəldi. Axund bir-az da səsini ucaltdı, sözünə davam etdi:

- İmperatori-əzəm necə ki, İran şahənşahi valatəbarin xahişməndliyi mövcibincə Təbrizdəki şuluxluğu bərhəm eləməyə dərəhd edib. İmperator həzrətlərinin fərmani-humayununun məğsədi-alisi budur ki, İran hökumətinə və o məmləkətin bədbəxtliyə düşən biçarə camaatına müavinət buyursunlar ki, bəlkə tezlik ilə o məmləkətdə asayiş bərpa ola...

Belə olan surətdə bizim dövləti-Rusiyyə rəiyyəti olan zəvati-

1. Dərvişin töhfəsi bir yaşıl yarpaqdır.
Yazıq neyləsin, olanı odur!
2. Bəlalarından



giramın ki, bəziləri bu mətləbi xatirdən çıxardırlar və təəssüf ki, bələləri fərdi vahid deyil, bəlkə cəmi kəsirdir, bizim təbrizdəkilərə müavinətimiz xüsusunda nə növ söhbət mümkündür və nə tövr mümkündür? Bəndə zayiqə tapşırmaqda xeyli tərəddüddəyəm, etiraf etməliyəm.

Axundun nitqinin qurtarmaq üzrə olduğunu hiss edən adamlar hərəkətə gəldilər. Sanki bu saat hamı, ya ayağa qalxıb məclisi tərk etmək niyyətində idi.

- Camaat, axund ağanın fərmayişinə dürüst mültəfit olun! Sizə yazılın, pul yığın deyən yoxdur. Nə tələsirsiz. Burda ayrı, vacib mətləb var, bir huş-kuşla eşidin, görün axund cənabları nə buyururlar!

Sədr məclisi sakit etmək istəyəndə Tahirzadə ayağa qalxıb xahiş elədi:

- Ərzim var! - Buyurun!

Tahirzadə sürətli addımlarla qabağa keçəndə hamı susdu, o, üzünü əyləşənlərə tutub əvvəlcə mülayim, sakit və sonra get-gedə ucadan bir səslə dedi:

- Camaat, cənablar! Cənab qazı, sağ olsun, çox şirin danışdı, biz də necə ki, lazımdır, eşitdik. Səttarxan barəsində buyurdular, seyyidi-şühəla müsibətindən də dedilər. Bunlar hamısı vacibdir, biz gərək dürüst dərk eləyək. Dərk eləyək, görək Kərbəla müsibəti nədir, Təbriz matəmgahı nədir. Biz müsəlmanların da bugünkü məsul gündə təklifi nədir!

Mən istəyirəm əvvəl hörmətli «Molla Nəsrəddin»in Tiflisdən salamını sizə yetirəm, onun məsləhətini oxuyam, sonra rüsxət olsa, - Tahirzadə sədrin üzünə baxdı, - rüsxət olsa, bəndəyi-həqirin də bir-iki kəlmə sözünü deyəm. Əlbət ki, rüsxət olsa!

Məclisdə ümumi marağı andıran bir hərəkət hiss olundu, sıralardan pıçıltı keçdi. Səs gəldi:

- Buyursunlar!

Tahirzadə qoltuğundan çıxartdığı «Molla Nəsrəddin»i açdı, məclisin sükutunu və cərgələrdən özünə doğru yönələn gərgin nəzərləri diqqətlə süzəndən sonra ucadan oxumağa başladı:

«Necə qan ağlamasın!»

Bu gün də «Molla Nəsrəddin» cəmi oxucularına və əzcümlə Bakı müsəlmanlarına salam göndərir. Məhərrəmlik mövcibincə onların matəmlərinə şərik olur və ibadətdə onlara əcr kəramət olunmağını Allah dərgahından xahiş edir. Amin yarəbbəl-aləmin!..»

Oturanlardan amin səsi gəldi.

Zaldakılar arasında maraq və təəccüb daha da artmaqda idi. Bilən yox idi, bu zəif vücudlu adam, doğrudan da, «Molla Nəsrəddin»in sözünü deyir, ya özünün jurnaldakı yazısını oxuyur.

Doğrudur, çoxları bu jurnalı oxuyur, məzmununa bələd olurdu. Amma indi, bu məclisdə belə bir zərurət olacağını güman etməzdilər. Bir də ki, Tahirzadənin əlindəki nüsxə təzəcə çıxmış, hələ yayılmamışdı. Odur ki, hər kəs ətrafına baxıb jurnal axtarır, deyilən sözləri oradan oxumaq istəyirdi. Bunu kim deyir? Tahirzadə zala baxdı, cavab verdi:

- Bunu hörmətli ədibimiz Mirzə Cəlil, yəni «Molla Nəsrəddin» deyir. Əlbət ki, biz də ürəkdən şərik oluruq!

Zalda bəziləri gülüb pıqqıldadılarsa da, axundun qorxusundan xırp kəsdilər. Tahirzadə ciddiyyətini pozmadı. Səsini daha da ucaltdı. Üzünü gah zala, gah stol dalında oturanlara tutub jurnalı ucadan və bir qədər də ahənglə oxudu:

«Bu günlərdə İranda istibdad ilə ədalət bərk çarpışır. Böyük bir millətin dini, namusu, hüququ, vətəni təhlükəlidir. Köməksizlik uçundan ola bilər ədalət tərəf basılsın. O vaxt milyonlarca məzlumun dad-fəryadı bu günkündən, Kərbəla busatından daha artıq göylərə qalxacaqdır. Bugünkü gündə bir udum suya həsrət qalıb can verən balaların, küçələrə tökülən ana-bacıların halı min





üç yüz əvvəl baş vermiş Kərbəla vaqeəsindən ağır olacaqdır.

Tahirzadə zalı süzdü, əlini havada oynadıb son sözü təkrar etdi:

- Bəli, ağır olacaqdır!

- Bu gün Kərbəla meydanı - Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi olsa din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan verməli pullarımız, ərzağımız varsa, gəlin oraya - ürəklər parçalayan Azərbaycan matəmgahına verək! Zaman bizdən bunu istəyir. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik, ən birinci islam yolunda cahad oraya kömək eləməkdir!

Yoxsa Tiflisin, Bakının küçələrində qışqıra-qışqıra sinə vurub, baş yarıb xariciləri özümüzə güldürmək biz azərbaycanlılara yaraşan iş deyil. Nəzərimizi qəhrəman Təbriz mücahidlərinə çevirək, məşrutə fədailərinə səs verək! Var olsun hürriyyət!

Zaldan alqış, gurultu qopdu. Səslər ucaldı:

- Hürriyyətə səs verək!

- Yaşasın Səttarxan inqilabı!

Sədr də, qazı da ayağa qalxdı. Hacı Rəsulun səsi eşidildi:

- Bidin laməzhəblər!

- Vətən xaininin danışmağına bir bax!

- İmperatorluğun çörəyi gözünü tutsun sənin!

Tahirzadə, o balaca, səbirli kişi bilinmədi, birdən-birə haradan çıxartdığı dəstə-dəstə jurnalları əlüstü məclisə səpələdi:

- Molla Nəsrəddin sizə salam göndərir!

Camaat jurnalları göydə tutur, Hacı Rəsul isə sədrdən icazəsiz kürsüyə çıxıb danışırdı:

- Ay camaat, Molla Nəsrəddinin, o məlunun fitvasına inanmayın! O çoxdan gürcülərə satılıb, o mürtəddir. Müsəlmanlıqda haqqı yoxdur. Onu naxçıvanlılar özləri sürgün eləyiblər. Cənab Sultan Əbdülhəmid, Xəlifəyi-Ruyi-Zəmin o məlunun qanını halal

buyurub. Onun sözləri küfrdir, qəzeti murdardır, əl vurmayın! Onun şairi də özünün tayı, bidin, laməzhəbdir, aldanmayın, yaxşı tanıyın. Bizi sərdarın yanında bihörmət, rüsvay eləməyin. Hacı Zeynalabdin cənablarının qulağına çatar, bu bəd hərəkətlər biz müsəlmanlara, dövləti-Rusiyyə rəiyyətinə yaraşmaz axı, bəsdir! Biz imperatur həzrətlərinin sadiq təbəələriyik, axı?

Məşədi Hüseyn irəli yeriyib sədrdən icazə istədi:

- Aralar, mən nə xeyriyyə üzvüyəm, nə də ixtiyar sahibiyəm. Mən çörəkçi bir fəhləyəm, nə olar, mənim də iki kəlmə sözümə qulaq asmaq günah olmaz ki. Cənab sədr, rüxsət varmı?

- Qoy desin!

- Keçin qabağa! Söz fəhlənindir!

Sədr qəzəbləndi.

- Ay canım, burada fəhlə, xozeyin söhbəti yoxdur, məsləhət məclisidir. Hər kəsin sözü var, desin, daha artıq-əskik şeylər nəyə lazım!

Sədr üzünü Məşədi Hüseynə tərəf tutdu:

- Danışın, sözünüzü deyin!

- Qoy görək bu şatır nə deyir!

- Mən də cənab Tahirzadənin sözlərini eşitdim. O, burda çox təzə söz dedi. Düz dedi, əyri dedi, onu fəhm eləmək mənim kimisinə, belə qanıram, ağır olar. Onun oxuduğu, dediyi nə idi, siz özünüz yaxşı eşitdiniz, mən də eşitdim. Ona qarışmıram. Amma Tahirzadə cənablarının tək bir sözü oldu. Lap axırda oldu. O sözü ki axırda dedi, özü də lap bərkdən dedi: o, ayrı sözdü. Onu eşidəndə, elə bil, mənim ürəyim dilə gəldi. Çünki o söz bugünkü gündə biz müsəlmanların, biz fəhlələrin lap öz sözüdü. Biz Bakı fəhlələri sözümüzü cənab şairin sözünə qatıb ürəkdən deyirik:

- Var olsun hürriyyət!

- Var olsun millət mücahidləri azadgah qəhrəmanlar!





Məşədi Hüseyn alqışlar altında keçib yerində oturdu. Hacı Rəsul gah sağa, gah sola keçib, sanki gözlənilən həyəcana mane olmaq istəyirdi. Papağını sol əlinə alıb sağ əlini, təzəcə hənə yaxdığı, şəhadət barmağında iki üzük parıldayan sağ əlini ələm kimi göyə qaldırdı. Bərkdən qışqırdı:

- Qazı ağa, vətəndaşlar! Belə olmaz! Bir sözümə mültəfit olun! Camaat, bizim məclisimiz xeyriyyə məclisi adlanır. Burada gərək nabəca sözlər olmasın. Bu nədi, qəzetçinin, bu çörəkçinin danışıqları lap xətalı danışıqlardı. Gərək biz bu hədyanın cavabını verək: necə yəni Səttarxan! Nə mücahidbazlıqdır. Bunlar həmşərilərin ara qarışdırmasıdır. Canım, biz qafqazlıyıq. Biz əlahəzrət imperatorun müti rəiyyətiyik. Bizim artıq pulumuz olar, öz işlərimizə sərf edərik. Necə ola bilər ki, əlahəzrət qoşun çəkib Təbriz iğtişaşını yatırtsın, biz də bu yandan tərki-ədəblik edək, o cür nalayiq sözlər danışaq! Camaat, bu hərəkətlər pund zamanından, erməni-müsəlman davasından qalma bica hərəkətlərdir. Bizi dövlət yanında nəzərdən salmaq istəyirlər, bizi xəyanətə çəkmək istəyirlər. Camaat, bunlara, niyə bu fitnələrə meydan verirsiniz, niyə lənət oxumursunuz? Xeyriyyə məclisi hara, bu hara, canım!

Zaldan səs gəldi:

- Lənət sənə kor şeytan, ha!

Gülüş eşidildi:

- Hacı, aralığa fitnə salma, çıx get işinə!

- İmperatora nökərçilik eləmək istəyənlər getsin vağzala!

Gözlənilmədən vəziyyət dəyişdi.

Hacı Rəsul sevincək durdu, artist kimi sanki oynayırdı. İki əlini göyə qalxızıb nəyi isə elan edirdi:

- Həzərat, sakit olun! Həzərat əyləşin, əyləşin ki, bu saat millətin atası bura buyurur, millətin pişvası şəxsən özü təşrif gətirir. Sükut! Ssss!..

Hamının nəzəri qapıya tərəf döndü. Dərhal məlum oldu ki, Hacı Zeynalabdinin faytonu küçədə dayanmışdır. Hacı Zeynalabdinin qırmızı xətti, geniş, yaraşıqlı üzü camaat arasında seçildi. Məclis sağa-sola parçalandı. Adamlar ayağa qalxıb ona yol verdilər. Çoxları işarə ilə salam vermək istədisə də, o baxmadı. Başıaşağı, sanki ayaqlarının altına baxa-baxa, yaşına və adi yerişinin xilafına olaraq yeyin addımları ilə məclisin yuxarı tərəfinə keçdi. Sədr cəld geri çəkilib heyətdə ona yer verdi.

Hacı Rəsul qonağın əsasını alıb divara söykəmək istədi. Hacı Zeynalabdin əsasından bərk tutub vermədi. Sanki onun itməyindən qorxur, yaxud bu saat onu silah kimi işlədəcəkdi. Oturmadı da. Üzünü camaata tutub hirsli bir səslə dedi:

- Həzərat! Biz qafqazlılar padşahımızın yolunda candan-başdan keçməyə hazırıq. Bunu cəmi millətlər bilir. Biz qeyrətimizi Təbriz, ya Tehran küçələrində atışan gədə-güdələrə satmarıq! Bilin, agah olun, Molla Nəsrəddin kimi laməzhəblər sizi başdan eyləyib. Eşitmişəm, o tiflisli tələbədi, nədi, Nərimandı, Nərimanovdu, sizi başdan çıxardıb əlahəzrət imperator hökumətinin üzünə ağ olmağa çağırır, siz də ona uymusuz. Təbriz qudurğanlarına şərik olmusuz. Bilirsiz bunlar nə bəd hərəkətdi? Tiflis müsəlmanlarının içində fitnələr çoxdan var. Gah əlifbamızı dəyişirlər, gah dinimizi məsxərəyə qoyur, gah vərəqə-mərəqə çıxardıb yayırlar. Ayıq adam gərək bu fitnələri bilə idi. Bu Nəriman da elə! Nəriman lütün biri, cibində bir abbası pulu yoxdur, gəlib xalqa əqil öyrədir. Mənim pulum ilə oxuyurdu, kəsmişəm. Elə adamlara bir quruş da xərc qoymaq haramdır. Qoy getsin zəhmət çəksin, görsün ki, pul qazanmaq nə çətin fəqərədi. Gedib uzaq şəhərlərdə beş-on sosyal-demokratdan dərs alıb, gəlib aramıza iğtişaş salmaq istəyir. Əqlinizi başınıza yığın! İndi ayrı zəmanədi! Adını Xeyriyyə cəmiyyəti qoymusunuz, kurul-kurul da pul istəmisiniz, müzayiqə də eləmə-





mişik. İndi burda yığışıb xəbis-xəbis əməllərə qədəm qoyursuz, başınızdan da yekə sözlər danışırsınız. Aranızda abır-həya olsun, barı millətin adını bədnam eləməyin, imperator həzrətlərinin yanında az-çox adam yerinə qoyulanımız vardısa, sizin bu dələduzların ucundan o da getdi. Yəqinimdi ki, Peterburqda bu hərəkətləri bizə bağışlamayacaqlar. Bir dəfə olar, iki dəfə olar! Axırda adamı elə qulağlayarlar ki, adını da yadından çıxardar. Hər şeyin əndazası var! Aləm ayıldı, başını aşağı salıb öz kəsbkarlığına getdi, amma biz müsəlmanın içindəki xəbislər sakitləşmir! Yaxşı deyiblər, qanmazın ağası olmaqdansa, qananın qulu ol! Biz daha təngə gəlmişik! Sizin kimi nadanlar ilə heç əflatun özü də iş görə bilməz. Nə eləyim, əlacım kəsilib! Soğanın adı birdi! Hara getsəm, sizdən kənar deyiləm!

Məclis natiqi elə diqqətlə eşidirdi ki, milçək uçsa belə duyulardı. Adamlar «bu saat nəsə bir şey olacaq» gümanilə intizar çəkirdilər.

Hacı Rəsul «millət babası»nın sözünə qüvvət verdi:

- Bura Xeyriyyə cəmiyyətidir. Burada biz xeyir işdən, şəriətdən, sovmi-səlatdan[1], Allah kəlamından danışmaq əvəzinə, görün nə xəta işlər ilə məşğul olmuşuq!

O, taxçadakı məxmər cildli, zər haşiyəli kitabı alıb ikiəlli göyə qaldırdı:

- Budur, Hacının iltifatı ilə gəlamüllah Qurani-şərif ana dilimizə tərcümə olunur. Min üç yüz ildir bu müqəddəs kitab var, amma biz, Qafqaz müsəlmanları bunu ərəb dilində görmüşük. Bu gün Hacının sayəyi-mərhəmətindən həmin müqəddəs kitab türkcəyə təbdil olunub. Nə olar, beş kəlmə də həmin bu kitabın səhifələrindən, müqəddəs və nəcib sözlərindən danışaq, ruhumuza ziya verək. Qəflətdə qaralmış zehnimizi işıqlandıraq.

- Bəli, düz buyurursuz.

1. Oruc-naməzdən

Hacı Rəsul cürətləndi.

- Molla Tağı, aç oxu!

- Harasından buyurursunuz?

- Hardan olsa, oxu, Qurani-şərifin hər yeri mübarək, müqəddəsdir!

Məşədi Hüseyn ayağa qalxdı:

- İcazə verin mən oxuyum!

Sədr fəhlənin belə bir xeyr əmələ getdiyini, yəqin ki, bayaqkı sözlərindən peşman olduğunu, ona nəsihətin kar elədiyini, Məşədi Hüseynin Hacının nəzərində günahını yumaq istədiyini zənn etdi, icazə verdi:

- Məşədi, nə olar, buyurun tilavət eləyin![1]

Məşədi Hüseyn Quranı əlinə aldı. Əlini səhifələrə apardı, salavat çevirdi və açdı:

- Hücərat surəsi, təfsirini oxuyummu?

- Oxumaqdan qabaq, fəhlə qardaş, Quranı öpmək gərək!

Məşədi Hüseyn qazıya cavab verdi.

- Axund ağa, mən Quranı çox öpmüşəm.

- Artıq öpməyin nə eybi var!

- Öpərdim, amma bunun üzü məxmərdir, gümüşdür, özü də çox çirklənib!

Hacı Rəsul darıxdı:

- Məsələ öpüşdə deyil, əməldədir!

- Buyur oxu, camaat qulaq assın, müntəzirik!

- Bu ayəyi-şərifə peyğəmbərin arvadı Mariyanın nökərinin haqqında nazil olub!

- Çox əcəb, çox pakizə. Buyurun dalısını!

- Dalısı belədir. Elə ki, həzrət peyğəmbərin oğlu İbrahim vəfat

1. Oxuyun!





etdi, həzrət çox ağlayırdı...

Zaldan səslər eşidildi:

- Fəda olum sənə, ya peyğəmbər!

- Ya Rəsulallah!

- Mübarək göz yaşlarına qurban!

Məşədi Hüseyn sükut istəyib dalısını oxudu:

Həzrətin arvadlarından biri dedi ki, sən çox ağlayırsan uşağın ölməyinə. Heç ağlama. O uşaq səndən deyil, Mariyanın nökəri Cərih Qutbidəndir. Peyğəmbər Həzrət Əlini çağırıb buyurdu ki, get Cərih Qutbini öldür! O, mənim arvadım ilə zina eləyibdir.

Zalda təkrar hərəkət başlandı:

- Bu nə kitabdır?

- Romana bənzəyir.

- Canım Qurani-şərifdir!

- Bəlkə Parisdə çap olunur?

- Ya İstanbulda?

- Lap Bakı çapıdır. «Kaspi» mətbəəsində!

Məşədi Hüseyn davam etdi:

- Cərih Qutbini öldür! O, mənim arvadım ilə zina eləyibdir. Həzrət Əli qılıncını götürüb getdi. Cərihi bağda gördü, qapını döydü. Cərih gəldi qapını açmağa. Lakin gördü ki, Həzrət qəzəbli haldadır. Dərhal günahını bildi. Qorxub qaçdı, qapını açmadı. Həzrət Əli əleyhüssəlam daha da qəzəbnak oldu. Divardan aşıb bağa girdi. Cərih qaçıb ağaca çıxdı, lakin yenə qurtula bilmədi. Gördü, Həzrət ona yetişəcək, özünü ağacdan atdı aşağı. Arxası üstdə yerə düşdü, tumanı cırıldı, övrəteyini açıldı. Həzrət gördü ki, onun heç... kişiliyi yoxdur. Çoxdan axtalanıb. Sakitcə qayıdıb öz evinə getdi...

- Axund ağa, bu romanı siz hardan almısınız?

- Canım, Qurandı, bunu qazı cənabları yazıb, hacı cənabları xeyli

məsariflə çap etdirib.

- Küfr danışmayın, Quranı heç bir qazı və ya hacı yaza bilməz. Bu, bulvar romanıdır, ya da ki, kiminsə kəbin, evlənmək macərasıdır!

Tahirzadə təkrar yerindən qalxdı, sanki məsləhət verən mülayim bir dildə danışdı:

- Mübahisə etməyin, bu barədə bizdən qabaq, çox da mötəbər yerdə yazılıb. Gəlin oxuyaq!

Tahirzadə cavab gözləmədən bayaqkı jurnalı açıb oxudu:

- Camaat, həmin bu üzdəniraq, müqəddəs sətirlər Bakı padşahının pulu ilə, Allah daha da çox eləsin, çap olunur, bizim ailələrə yayılır.

Ancaq bizə məlum deyil ki, cənab Hacı və ya qazı ağa bu sətirləri öz qızlarına oxumağa razı olarlar, ya yox? Əgər razı olurlarsa, heç! Əgər razı olmazlarsa, nə səbəbə Quran adına belə hərzə-hədyanı çap edib müsəlman cavanlarının üzünün suyunu tökməyə cəhd edirlər. Bax, bu mətləb mənə məlum deyil! Elə bilirəm çox adama məlum deyil!

Məclisdə səs düşəcəyini hiss edən, oxumalı mətləbin hamısını camaata çatdırmış olduğunu zənn edən Tahirzadə qazıdan soruşdu:

- Cənab qazı, əfv eləyin, Sərdar harada əyləşir?

Sədr qazıya macal vermədi:

- Bu nə sualdır? Aşkardı ki, Tiflisdə, Sərdarnişin-Qafqaz Tiflisdir, Bakı deyil!

- Tiflisdə, əncümən fəlakzədələrinə ianə yığıldığını buyurdular. Siz buyurdunuz, bəqədri-qüvvə! Mənim də müxtəsər bir hədiyyəm var!

- Çox əcəb.

- Allah atanıza rəhmət eləsin!

Tahirzadə qoltuğundan iki qatlanmış kağız çıxartdı. Səttarxan haqqındakı şeirini ucadan oxudu:



Afərinim hümməti-valayi-Səttarxanədir.
İnqilab oğlu, hünər kani, igid, mərdanədir.
Çün bu xidmətlər, əzizim, bil, Azərbaycanədir,
Afərinim hümməti-valayi-Səttarxanədir!..

Camaat ayağa qalxdı. Adamlar bir-birinə dəydi. Hacı Rəsul sədrə acıqlandı:

- Mirzə, niyə imkan verirsiz? Bu nə məclis oldu?

Cavab gözləmədən dönüb Tahirzadəyə baxdı:

- Millət xainlərinə ar olsun!

Tahirzadə həmin sözü təkrar etdi.

- Ar olsun millət xainlərinə!

Camaatdan səs gəldi:

- Səttarxan var olsun!

- Hacı Rəsulu Məkkəyə aparan dəvəyə lənət!

- Bənd olmayın, hacıya soyuq dəyib, istirahət lazımdır!

- Əyibdir, həya lazımdır!

- Həya Məkkə ziyarətindən gələnlərdə də ola gərək!

Məşədi Hüseynin səsi eşidildi:

- Şair nə gözəl deyir:

Biz qoca qafqazlı iyid ərlərik,
İş görəcək yerdə söz əzbərlərik!..
Kim nə deyər bizdə olan qeyrətə?!
Qeyrətimiz bəllidir hər millətə!..

Tahirzadə kənara çəkilib səsləndi:

- Camaat, ianə vermək istəyənlər bu yana, kitabət otağına buyursunlar, siyahı tutulur!

Camaat o tərəfə axışdı. Cantaraq, cəld bir adam əlində kağız

yazır, yazdığını da təkrar edirdi:

- Hüseyn Çələbizadə iki dəst paltar, ləzgi şalından.

- Zəhmət çəkin bunu da yazın. Bir dul arvad göndərib, hümayun ağı!

- Dərzi Carulla beş manat.

- Arabaçı Kərim üç manat.

- Daşçı Ağabala bir manat, fədailər yolunda!

- Rus-tatar məktəbinin müəllimləri 17 manat qırx beş qəpik.

- Mirzə, yaz məni, on manat, Səttarxan yolunda!

- Məşədi Süleyman dərzi, beş manat. Salman oğlu!

- Cənab Tahirzadə, ianə mətah ilə mümkünsə, yaz, iki kisə Ədəs unu! Yaz, Möhsünzadə Əli Əkbər!

- Hacı Salmanzadə Rüstəm üç kisə düyü.

- İrana düyü nə lazım?

- Lənkəran düyüsüdür, heç eybi yoxdur!.. Hədiyyəni sonalamazlar!

- Yaz!

- Yaz!

- Yaz!





## Səkkizinci fəsil

## ƏDALƏT MƏHKƏMƏSİ

Quzu: Sən bilirsən mənim yaşım azdır,
Anadan olduğum həmin yazdır.
Qurt cavab tapmadı, qəzəbləndi.
Qışqırıb çox acıqlı səsləndi:
- Tutalım sən o vaxt olmamısan,
Anadan ya ki, heç doğulmamısan.
Var imiş ki, atan, anan o zaman,
Nə deyirsən, bu doğrudur, ya yalan?
Bu yerə çün yetirdi qurt sözünü,
Tutdu yırtdı, dağıtdı ol quzunu.

N.A.KRILOV

Dünyada hər kəs üçün bu addan təmiz, mehriban, müqəddəs, doğma nə var: Ana!

Ana! Sənin tükənməz əməyin, oxşayıcı şəfqətin, bəsləyici məhəbbətin, qəlb ülviyyətin kimə məlum deyil! Dünyada elə bir insan varmı ki, sənin həyat verən qayğı və şəfqətlərində isinməsin, doğma qucağına sığınmasın! Bizim ilk fəryadlarımızı eşitməkdən yorulmayan qulaqların, ilk arzularımızı ödəməkdən zövq alan sənin ürəyin, ilk yatağımız, ocağımız, yurd-yuvamız olan sənin munis, isti qucağın deyilmi?

Dünyada bizə heç bir şey əsirgəməyən, hər şeyi təmənnasız verən və iltifatı tükənməyən sən deyilsənmi? Sənin lütfün, məhəbbətin tükənməz dənizdir ki, bir damlası, tək bircə damlası da ən qəddar insanların fəsadını söndürə bilər.

Ana! Sənin cəld və zirək əllərin indi də hər birimizin başında

mehriban-mehriban gəzir, saçımızı tumarlayır, sifətimizi oxşayır. Belə bir qəlbin sahibi kürəyini ayaza, ömrünü məşəqqətə, həyatını iztirablara verib böyütdüyü balasını həmişə gümrah, bəxtiyar istər. Onun ən böyük səadəti, dünyadan umduğu da təkcə budur!

Heyhat! Qoca dünya, bəzən öz gərdişini sərt bir sükut, daş bir ürək, kor bir məntiq, daimi bir amansızlıqla keçirən qoca dünya kimsə ilə hesablaşmır. Zaman vəhşi bir təlatüm kimi bütün sahilləri aşıb hər şeyi ağzına alır, kükrəyən dalğaların səsindən göylər də fəryadları eşitməz olur.

Ən müdhiş fəlakətə düşəndə də ana qəlbi böyükdür!..

Məsmə güman etmişdi ki, oğlundan əl çəkərlər, kəsbkarına gedər. Belə olmadı. Zəmanət vaxtı bitən kimi onu məhkəməyə çəkdilər, Hacı Rəsulun nəinki özü, hətta məhkəmə dairələrində «çömçə tutanları» da Bəndalının işini bərk-bərk burmağa cəhd etdilər. Yasovul Ağabala Bəndalını qabağına qatıb məhkəməyə aparanda Məsmənin nələr çəkdiyini deməyə ehtiyac yoxdur. Bunu hər kəsdən tez oğlu duyurdu. Kürəyinə dəyən tüfəng küpünə dözərək, geri dönüb qışqırırdı:

- Anacan, qayıt! Qayıt! Qurtarram, gəlləm, inşallah, sən qızdan muğayat ol! Məndən nigaran olma! Qorxma, qurtarram, gəlləm işimin üstünə. Sən get!

Dustaqlara tamaşa eləyənlərin hamısı, söz yox, Bəndalının dediyini eşidirdi. Bu sözləri təkcə bir adam eşitmirdi ki, o da Məsmə idi. Çünki Məsmə arvad indi heç özündə deyildi. Bilmirdi bu həngamə həqiqətdi, ya vahimədi, olan şeydir, ya xəyalatdır, aşkardır, ya yuxudur... Məhkəmə yuxarı məhəllənin tinində, Murtuzayevlərin həyətindəki iki mərtəbə, uzun aynəbəndli evdə idi. Küçədən, darvazası, nədənsə, həmişə açıq həyətə girəndə daş pilləkənlər üstündə oturub gözləyənləri görmək olurdu. Sola dönən kimi ikinci qata çıxan geniş bir pilləkən başlanırdı. Aynəbəndin





döşəməsi get-gəldən o qədər sürtülmüşdü ki, taxtaların talaşası çıxmışdı. İri mıxların başı gümüş kimi ağarırdı. Dalan boyunca get-gəl, ayaq səsləri kəsilmirdi.

Eyni zamanda iki otaqda mühakimə gedirdi. Biri qanlılıq, ədavət üstündə, adam öldürmək üstündə həbsə alınan iki qardaşın mühakiməsi, biri də ümumi asayişi pozmaq, camaat içinə şuluqluq salmaq üstündə ittiham olunan Kərim oğlu Bəndalının mühakiməsi idi. Hər iki işlə maraqlanan adamlar həyət və küçə tərəfdə çox toplanmışdılar. Küçə tərəfə olan pəncərə qabağında dayanan adamlar hərdən içəridən olan hədə-qorxuya görə kənara çəkilir, səkinin o biri tərəfinə adlayırdılar. Bir qədər sonra isə yavaş-yavaş yenə pəncərənin qabağında adamlar komalaşır, fürsət tapdıqca içəriyə boylanır, ya dik dayanıb intizarla qulaq asırdılar.

Nəsə hamı gözləyirdi.

Təkcə məhkəməyə düşənlər yox, onların qohum-əqrəbası, dostları, vəkilləri də qayğılı idi.

Hamı boynu zəncirli, keşişsifət, uzun, çalsaqqal, qarapaltar kişinin ağzından çıxacaq hökmün nə olacağına müntəzir idi. Hakimin zahirinə, quru, arıqca sifətinə, ehmalca hərəkətlərinə baxırsan, qocalara məxsus nazik, tutqun səsini eşidirsən, deyirsən, bunun başı gora titrəyir, heç toyuq başı kəsməyə ürəyi gəlməz.

Amma bu, səhv təsəvvürdür, bəlkə də o, məhz belə bir təsəvvür yarada bilməyinə görə burada oturmuşdur. Elə ki bu çalsaqqal kişi göy örtülü stolun dalına keçdi, daha üzünü görmə! Elə ki qara qaytanlı çeşməyi saralmış və bıçaq tiyəsi kimi iti burnuna mindirdi, «sud maşınını xoda saldı», hökmə müntəzir olanları ayaq üstə gördü, başlayırdı birbaş «əlahəzrət imperator» adından, onun «müqəddəs qanunları, yüksək ədaləti adından danışmağa, adamları bir-bir, beş-bir həbsə, sürgünə, bəlkə də ölümə göndərməyə, anaları ağlar qoymağa.

Hakim bu işləri elə sakit, arxayın, soyuqqanlı görürdü ki, deyərdin, canlı adamlara iş kəsmir. Səliqəli stolunun üstündə gördüyü vecsiz kağızları bir-bir cırıb səbətə atır ki, «əl-ayağa dolaşmasın».

Bu «vecsiz kağızlar» isə qurtarmır. Haralardansa əsən küləklərin gətirdiyi, ya göydən tökülən kimi hər səhər bir az da çoxalır, hakimlərdən daha zirək, daha yeyin tərpənməyi tələb edir...

Bəndalı da, görünür, həmin bu «vecsiz kağızlar»dan biri idi. Amma hakim nəsə onu asanlıqla xışmalayıb səbətə ata bilmirdi. Sümüklü tikə boğazda ilişib qalan kimi, onun iş qovluğu da aradan çıxmırdı. Gedir qayıdırdı. Hər dəfə bir az da şişib qayıdırdı. Güman gəlməyən yerlərdən ona havadar çıxanlar olurdu. Kim deyərdi ki, lüt bir rəncbərə iş kəsməkdə qəza məhkəməsi bu qədər götür-qoy eləyəcəkdir.

Yasovullar onun yaxasından yapışanda, hamı dedi ki, «Məsmənin evi yıxıldı», «Yazıq arvadın çırağı söndu!»

Əlbət ki, bu ehtimal bir adamın sözü deyildi. Məsmənin özü də fəlakətə, daha doğrusu, yeni bir fəlakətə düşdüyünü anlamışdı. Amma bu işi yeritmək o qədər də asan olmadı. Doğrudur, Məsmənin nə həsəb-nəsəbi, nə də «sudyalara verməyə» pulu var idi. Onun işi əl açıb göylərə yalvarmaq, nəzir demək idi.

İşi ləngidən, dolaşığa salan «müqəssir» Bəndalı özü idi. O, məhkəmə qabağında kimə, nəyə arxalanırdısa, bərk dayanırdı. Prokuror da, vəkil də dönə-dönə izah edirdilər ki, «doğrusunu aç söylə, sud sənin təqsirini yüngüllədər, inad eləmək isə cəzanı daha da ağırlaşdırar!..»

Bəndalı dediyini deyirdi:

- Mənim tük boyda da günahım yoxdur!

Bəndalı «təqsirini» etiraf etmədiyi üçün təzə şahidlər çağrılmışdı. Buna müqabil müqəssirin özü də bir neçə şahid göstərmişdi. Məhkəməmin bugünkü işinda Hacı Rəsulun şahidlərindən iki nəfər





dindiriləndə, bir nəfərin açıq-açığına yalan danışdığını görəndə, Bəndalı özünü saxlaya bilmədi. Ütülmüş kəllə kimi qupquru və bozsifətli bu şahid Telli oğlu Rza idi. Onun pul ilə yalan şahid durması mahalda hamıya məlum idi. Hətta keçən il həmin bu şəhərin hakimi onu tanımışdı!

Qoyun oğurluğuna aid işə baxırdılar. Telli oğlu Rzanın adı şahidlər cərgəsində oxunanda yüyürüb qabağa çıxmışdı. Hakim şahidliyə belə həvəs göstərən boz adamın üzünə baxan kimi bir də soruşdu

- İmya?

- Rza, Məşərza!

- Familiya?

- Atası adı?

- ...

- Telli oğlu!

- Kak?

- Telli oğlu!

Hakim bu adı eşidəndə birdən-birə köhnə dostuna rast gəlmiş kimi çeşməyini çıxarıb şahidin üzünə dik-dik baxdı.

Telli oğlunun sevincdən az qaldı çiçəyi çırtlasın:

- Qospadin sudya!..

Hakim başını aşağı əyib xırmandan toyuq qovalayan kimi şahidin üstünə çımxırdı:

- Maşennik, Qumuzum yalan!

- Ağa sudya, mən hələ danışmamışam.

- İdi, uxodi! Get, get!

Hakim əli ilə işarə edib qapını göstərdi. Dilmanc da ona kömək elədi:

- Məşədi Rza, eşiyə çıx! Çıx, sudyanı hirsləndirmə ki, dustağa düşərsən!





O zaman Telli oğlunun məhkəmədən qovulmasına adamlar sevinib-gülmüşdülər. Güman etmişdilər ki, bu həyasız adam bir də məhkəmə qabağına çıxmaz. Nə edəsən ki, indi, hakimin dəyişdiyini görüb, Hacı Rəsulun çağırışı ilə, filan qədər pul gücünə o, yenə Bəndalının işində şahidlik edirdi.

Bəndalının etirazına isə qulaq asmadılar. «Qohumun deyil, düşmənin deyil. Niyə şahid olmasın, qanun yol verir!»

Telli oğlu, adəti üzrə, qabaqcadan əzbərlədiyini danışanda Bəndalı özünü saxlaya bilmədi.

- Ağa sudya, yalan danışır axır!

- Sus!

- Göy haqqı yalandır! Yer haqqı yalandır! O boyda şəhərə necə şuluxluq sala bilərəm. Niyə şuluxluq salım. Nə oldu bunu şəhərin tacirləri, dükançıları bilmədi, kənardan gələn bildi? Mən bacımı götürüb aparmışam, vəssalam!

- Bəs yekə restoran qapılarını qıran kim olub?

- Hacı özü olub. Qızı tutub buraxmayanda, qapı şüşələri sındı.

Hakim «müqəssirin» yerindən danışmağına qəzəbləndi, dönüb dilmanca yavaşcadan nəsə dedi. Sərt bir nəzərlə Bəndalının üzünə baxdı. Dilmanc yaxına yeriyib «müqəssiri» başa saldı.

- «Müqəssir» Bəndalı Kərim oğlu, cənab sudya deyir, bura sənin üçün qoyun yatağı deyil. Dağ-dərə deyil. Bura ayrı yerdir. Bura hökumətin dəftərxanası, sududur. Zakonxanadır. Burada qışqırmaq, əl-ayaq atmaq olmaz. Burada icazəsiz dinmək, danışmaq olmaz. Bunlar olar küçədə, meşədə, yamacda! Burda sakitcə oturub qulaq asmaq olar. Sözün olanda əlini qaldırarsan, şayəd sudya cənabları rüsxət versə, soruşarsan. Yoxsa belə aparsan özünü, sudda sənə artıq cəza veriləcək, başa düşdün? Sudya səni qabaqcadan başa salır. Başa düşdün?

Bəndalı qollarını yana açmaq istədi, bunun da, güman ki,





qadağan olduğunu düşünüb dayandı, bilmədi nə etsin, həm səsini, həm də hərəkətini boğub içindən alovlanmış kimi qovruldu, özünün yeganə təsəllisi olan və indi dalanda gözləməkdə olan şahidini xatırlayaraq qapıya tərəf baxdı, başını aşağı salıb yerindəcə oturdu. Oturdu, fikir onu götürdü.

Telli oğlu Rza «müqəssirin» tənbeh olunduğunu görüb, dil-dil ötdü.

Bəndalının ən böyük təsəllisi Tahirzadənin bu işə qarışması, şahid durması idi. Çoxları güman edirdi ki, Tahirzadə Bakıda müəllimliklə məşğuldur, gələ bilməyəcək, gəlməyəcək.

Onun məhkəmə zalında görünməsi müqəssiri nə qədər sevindirdisə, Hacı Rəsul tərəfi o qədər məyus etdi. Bəlli idi ki, məhkəmə Tahirzadə kimi mötəbər bir şahidin ifadəsini asanlıqla ayaqlaya bilməyəcək.

Tahirzadə yayda, Hacı Rəsulun restoranı qarşısında olan hadisəni gördüyü kimi danışanda, hakim onun sözünü kəsdi:

- Bəndalı şuluqluq salanda bəs siz nə dediniz?

- Bəndalı yox, Hacı Rəsul şuluqluq salmışdı. Sözü Hacı Rəsula demək lazım idi. Çünki o, qardaşını görmək istəyən yetim qızı restoranda həbs edib buraxmaq istəmirdi.

- Şüşələri sındıran kim oldu?

- Hacı Rəsul özü oldu!

Hakim güldü:

- Şüşə sahibi Hacı Rəsul özü, öz şüşəsini niyə sındırsın? Bəs məntiq harda qaldı?

- O sındırmaq istəməzdi, qapını çəkib Əntiqəni içəri salmaq istəyəndə şüşə sındı.

- Bəs Bəndalı təpik ilə sındırmadı?

- Xeyr, Hacı bütün gücü ilə qapını basanda şüşələr töküldü.

- Qızı qaçırdan kim oldu?

- Qızı qaçırdan olmadı, Əntiqə qardaşına qoşulub evinə getdi, vəssalam.

- Şəhərdə qardaşının evi var idimi?

- Deyə bilmərəm. Hər halda, daldalanmağa bir yer tapmamış olmaz.

Hakim nəsə yenə soruşmaq istəyəndə, Tahirzadə təəccüblə qollarını yana açdı və bir qədər də istehza ilə dedi:

- Cənab hakim, bu işi nahaq şişirdib gətiriblər, sizin də başınızı ağrıdıblar. Burada bir uşağın öz qardaşına məhəbbətindən, öz evinə qayıtmaq meylindən başqa heç nə yoxdur! Təəccüblü, qeyri-qanuni nə var ki? Hacı zor ilə xanəndə saxlamayacaq ki! İmperatorluğun qanunu deyir, hər kəs ixtiyar sahibidir. Əntiqə də belə. Təhkimçilik çoxdan ləğv olub. Zor ilə nökər, ya xanəndə saxlamağa qanun yol vermir. Bunu iddiaçıya başa salmaq olar.

- Bəs Hacının tökdüyü xərci-məsarifi hara getsin?

- Hacı hər yerdə xeyriyyə işlərindən danışır. Əgər uşağın oxumağına qəpik-quruş xərc çəkibsə, nə eybi var.

- Qanun qarşısında tələb qoymağa haqqı var!

Hacı Rəsul yerindən qalxdı:

- Hacı Rəsul küçədən pul tapıb ki, gətirə Şamaxının yetim-yesirinə dağıda? Biz demişdik həm oxuyar, həm də beş şahı xeyir verər. Nə bilək ki, yumurtlamamış falını da içəcək. Nə bilək!

- Hacı öz xeyrini pis bilmir. Yetim-yesir üçün yox, qazanc üçün çalışırdı, görünür, baş tutmayıb.

- Yaxşı qazandım!

- Həmişə qazanmaq olmaz ki, bir dəfə də ziyan ola bilər. Alverin qaydasını Hacı çox yaxşı bilir.

- Allah kəssin belə alveri!

Hakim Hacını susdurdu, Tahirzadəyə bir neçə başqa sual verdi:

- Siz deyirsiniz, Bəndalının təqsiri yoxdur. Restoran qapısına



təpik vurub sındıranda onu görən şahidlər var!

- Olmayan bir hadisəyə necə şəhadət vermək olar?

- Verənlər var!

—O, yalan olar, cənab hakim!

Məhkəmə sədri zalın bir küncündə oturan Telli oğlunu qabağa çağırdı:

- Telli oğlu, sən gördüklərini bir də danış!

- Belə oldu, mən onu gördüm ki, həmin bu çoban Bəndalı, adını onda bilmirdim, hücum çəkib əvvəl çomaq ilə, sonra da çarıxlı təpiyi ilə qapını sındırırdı. Hacı da «kömək!» deyib polis çağırırdı. Sonra ki, ara qarışdı.

Məhkəmə sədri Tahirzadənin üzünə baxdı.

- Eşitdiniz ki!

- Eşitdim, təəccüblə eşitdim, cənab hakim!

- Nəyə təəccüb edirsiniz, rəncbər quduranda qapı da sındırar, ev də uçurar!

- Xeyr, mən belə ağ yalan quraşdıran adama təəccüb edirəm. İcazə verin şahiddən soruşum!

Məhkəmə sədri razılıq verdi. Tahirzadə soruşdu:

- Siz mayın neçəsində görmüsünüz bu hadisəni?

Telli oğlu döyükdü, cavab verdi:

- Mayın əvvəli, dördü, ya beşi!

Tahirzadə cibindən çıxartdığı bir kağızı məhkəməyə təqdim etdi:

- Cənab hakim, həmin günlərdə Telli oğlu Gəncə məhkəməsində şahid olub, iş də beş gün çəkib. Verdiyim sənədə baxa bilərsiniz! Ordan da əlli manat pul alıb!

- Hələ yarısını almamışam!

Telli oğlunun qeyri-iradi dediyi sözlər hamının gülüşünə səbəb oldu. Tahirzadə özünün ciddiyyətini pozmadı:

- Alarsan, inşallah, pul bir şey deyil. İş ondadır ki, mayda siz heç

Bakıda olmamısınız! Gəncədə, Kürdəmirdə məşğul olmusunuz...

Mənim təqsirim yoxdur!

Bəndalı düz deyirdi ki, «mənim təqsirim yoxdur! Qanun var, vəkil var, sübut, əşya-dəlil var!»

Bunlar hamısı var, doğrudur. Amma bu da var ki, mötəbər bir adam barmağı ilə işarə etdi, qurtardı getdi, yalan, ya doğru, fərqi yoxdur! Hacı Rəsulun sözü yüzbaşı Məhərə, ondan da pristava çatdı, Bəndalı üçün iş açıldı, məhkəməyə çağırıldı.

Bəndalının bu işə «qarışmasına» Hacının işarəsindən başqa bir sübut yoxdur. «İşarə» isə böyük sübutdur.

Xəbər Məhərdən pristava, pristavdan da prokurora, məhkəməyə gedəndə bu «sübut» böyüyüb lap bərkidi. Az qala, qanuna minib dilə gəldi. Camaat bir zaman gözünü açıb gördü ki, şəhərlərə şuluqluq salanın biri də rəncbər Bəndalı imiş. «Sən demə, dul arvadın oğlu, gündüz göyşəndə xışın əlcəyindən tutub «övha» deyən gədə, gecələr ilana dönüb özünü ora-bura vurmuş. Görürsənmi kafiri?»

Yuxarılarda, mötəbər yerlərdə bərkiyən bu sübutu rədd eləmək üçün hünər lazımdır, güc lazımdır, adam lazımdır, pul lazımdır. O da hanı Bəndalıda! Onun gücü ancaq buna çatır ki, hər yerdə, hər kəsin yanında and-aman eləyir:

- Mənim xəbərim yoxdur, Hacıya bir qəpiklik ziyanım dəyməyib. Bu işi mənim üstümə atan düşmənlərimdi, heyif almaq istəyirlər. Mən Əntiqənin oduna düşmüşəm. Özüm yaxşı bilirəm. Xahiş eləyirəm, ədalətnən baxasız. Külfət sahibiyəm, kəsbkarımdayam. Ömrümdə məndən bir xəta baş verməyib. Əntiqə doğma bacımdır. Hər kəs olsa dözməzdi, mənim təklifim nə idi. Bacımı götürüb evə gəlməyimə nə söz! Nə şəriət sahibi, nə qanun buna bir söz deməz!..

Məhkəmə müşavirəyə gedəndən sonra hamı bu fikirdə idi ki, Bəndalının işi sübuta yetmədi. Telli oğlundan savay onun ziyankar





olduğunu deyən olmadı. Yəqin işi ləğv edəcək, Bəndalını da dustaqdan buraxacaqlar.

Məhkəmənin hökmü isə əksini sübut edirdi. Bəndalını üç il həbsdə saxlamağa qərar verdilər.

Katib özü də təəccüb edib bu sirri soruşanda hakim dedi:

- Düzdür, sübut yoxdur, ancaq əlimizə keçən dikiy azartdı, indi dağıtmasa da, sabah şəhəri dağıdanın biri olacaq. Hazır əlimizə keçmişkən, daha bir də niyə buraxaq. Buraxırsan, silah götürüb dağa-daşa çıxırlar. Bunların ələ keçənini məhkum etməsək, bacarmaq olmaz! Təcrübə göstərir ki, bu kəndli tayfasının cilovunu boşaltdın, daha saxlamaq çətin olur. Üç-dörd il əvvəl dünyanı qarışdıranın biri də bunlar idi. Məhkəmə işində bunu unutmaq olarmı? Qanun bunu qabaqcadan buyurubdur.

Katib özü hakimin sözlərinə təəccüb etsə də, susub yerində oturdu.

Cəza hökmünü eşidənlər də, Bəndalı da təəccüblə qarşıladı. Ancaq onun sual etməyə bir kəsi yox idi. Bu hökm ona, gözlərindən qara örtüyü qaldıran əl kimi oldu. Ancaq indi dərk etdi ki, şahid, sübut, mühakimə... Hamısı zahiri bir şeydir. Bütün bu yazı-pozu quru bir təşrifatdır. Hakimin istədiyinə mane ola bilən heç bir qüvvə, qanun yoxdur. Telli oğlunun sözünü sübut sayan, adamların taleyi ilə aşıq oynayan kimi oynayan çalsaqqal boz kişi bir iblis tək Bəndalının gözündə canlandı,

Bəndalını yasovul qabağına qatıb həbsxanaya aparanda vurulmuş kimi dinməz-söyləməz, başıaşağı yeriyirdi. Yeriyirdi, ancaq fikirləşirdi. Haçandansa Tahirzadədən eşitdiyi sözlər, ancaq indi ona sübut olmuş kimi həqiqət və həm də güclü bir həqiqət görünürdü: «Bizim zəmanədə insan insanın cəlladıdır. Kimin ki, əlində ixtiyar var, nə desə doğrudur. Kim ki, məzlumdur, nə desə yalandır».

İşrət məclisində sərxoş olub həqiqəti deyən vəkilin etirafı qulağında səsləndi:

Haqqa nahaq söyləyib qohum-əqrəba ağlatmışam!
Mən həram ilə həlalı bir-birinə qatmışam!..

Bəndalının sinəsindən bir ah qopdu, buxovlanmış aslan kimi dizlərini qucaqlayıb daş üstündə oturdu. Öz-özünə dedi: «Belə deyil ki, belə olsun! Yox! Belə deyil ki, belə olsun!»

O, başına gələnləri belə görəndən, təzyiqin günü-gündən artdığını duyandan sonra bu zülmə dözməyəcəyini, dözə bilməyəcəyini yəqin etmişdi.

Ona görə də heç kəsdən, nə anadan, nə qohumdan nə şairdən heç bir kömək gözləmirdi. Hərdən əllərini gözü önündə gətirib bərkimiş barmaqlarına, qabardan bozarmış pəncəsinə baxırdı. «Nə qədər ki, bu əllər sağdır, zəncir altında qalmayacağam. Qoy güllələsinlər, qoy sürsünlər! Sibirə gedənin hansı məndən əskikdir. Belə deyil ki, belə olsun!»

İndi Bəndalı hər şeydən - qanundan, Qurandan, şəriətdən, qazıdan tamam əl üzmüşdü. Ona elə gəlirdi ki, dünyada bütün bu gurultulu adlar, rütbələrin hamısı qanun deyilən ağır bir mənganəni saxlamaq üçündür. Baş tərpədənlərin boynunu vurmaq, hər kəsi gücün qabağında əsir-yesir eləmək üçündür.

«Yox! İgid də bir qaşıq qanından qorxarmı? Mən namus yolunda canımı əsirgəmərəm. Sibir meşələrinə gedərəm, amma burada göz görə-görə boynuma şər yıxmasınlar. Mənə ziyankar deyib, sudlarda rüsvay eləməsinlər. Yox! Belə deyil ki, belə olsun?»





## Doqquzuncu fəsil

## AXŞAM DƏRSLƏRİ

İstənilir ittifaq,
Göstərilir infiraq!.
Ə.SABİR.

Tahirzadə Balaxanı məktəbinin binasında, qapısı həyətə, pəncərəsi mədən yollarına açılan kiçik bir otaqda olurdu. Əvvəllər Mirzə Məsum ilə olurdu. Sonra Mirzə Məsum qohumlarından birinin yanına köçdü, Tahirzadə indi otaqda tək qaldı. Gündüz bahar quşları kimi səs-səsə verib ətrafı şənləndirən uşaqlardan axşam bir səbir qalmırdı. Qalın və köhnə bir kürkə bürünərək sinifləri gəzən, qapı-pəncərələri yoxlayan, sonra zirzəmidəki taxtın üstündə uzanıb rahatlanan qarovuldan başqa binada kimsə olmurdu. Payız axşamının sükutu ətrafı elə doldururdu ki, insanı az qala vahimə basırdı. Tahirzadə belə bir sükuta, səssizliyə öyrəşməmişdi. Bir tərəfdən ailədən, evdən uzaqlıq, bir tərəfdən məktəb müdirinin yad ibarəbaz adam olması, nəhayət senzor, müfəttişlərin addımbaşı dərs deyənləri izləməsi onun ürəyini sıxırdı. İndi o, təsəllisini günün mətbuatından, ələ keçirdiyi tək-tək nüsxələri təkrar-təkrar mütaliədən alırdı, Dərslərdən başı açılanda, məktəbdə sakitlik olanda otağına çəkilir, qəzet, jurnalları varaqlayırdı. Bunlar, dünyanın müxtəlif yerlərindən müxtəlif xəbərlər gətirən köhnə və təzə yazılar da onun əsl mühasibləri idilər.

Dünyanın ən şimal şəhərlərindən, Şərqin, cənubun ən uzaq ölkələrindən gələn teleqraf xəbərlərində Təbriz qəhrəmanlarının rəşadətinə afərinlər oxumaq nə qədər xoş və fərəhli idi. Şair bəzən mütaliəyə elə cumurdu ki, vaxtın necə keçdiyindən xəbərsiz olurdu.

Zəif çıraq işığında oturub yazı-pozudan yorulanda, darıxanda qapıya çıxır, yolayrıcında nəyə isə müntəzir adamlar kimi dayanırdı. Ara-sıra gölməçə kimi birikən, qatılaşan mazutun tünd iyi tulanbardan qalxan kəsif havanı andırırdı. Hətta dənizdən gələn sərin güclü xəzri də bu kəsafəti yuyub apara bilmirdi.

Yolayrıcı isə çox get-gəlli yer idi. Xüsusən gecə vaxtı mədənlərdən qayıdan fəhlələr ikibir-üçbir iri addımlarla yeriyərək qayımdan danışır, sanki yolları örtən qatı qaranlığı səs ilə parçalamaq istəyirdilər. Məktəb yanına çatanda, qarovul kimi tək, dimdik dayanan adama yaxınlaşanda səslərini dəyişir, təmkinlə salam verib ötürdülər. Onlar Tahirzadəni tanımasalar da, məktəb binasını tanıyırdılar. Buraya Bakıdan yenicə gəlmiş olan adamın ehtiramını gözləməyi vacib bilirdilər. Tahirzadə bunların övladını oxudurdu, gələcək üçün oxudurdu.

Onu da düşünürdü ki, bunların özünü oxutmaq, özü də məhz bu gün üçün oxutmaq lazım idi. Bunlarda, bütün günü quyularda, neft, mazut içində çalışan adamlarda div gücü, arslan nəfəsi var. Bunlar, bəlkə, hər şeyə qadir olan tunc sifətli insanlar öz güclərini bilsə və buna güvənsəydilər, yəqin ki, əzab və iztirablara dözməzdilər. Bunların zehni də qolları qədər qüvvətli olardı. Bunların zehninə işıq, əsrin işığını vermək lazımdır. Bizim kitab və səhnəmiz, qəzetimiz, məktəbimiz hələ belə qüdrət sahibi deyil. Bunların əlində olduğu qədər zehnində də silah olaydı. Biləydilər ki, indi nə zamanədir, nə aləmdir. Mətləb nə yerdədir. Onda heç kəs cürət edib bunlara deyə bilməzdi:

Fəhlə, özünü sən də bir insanmı sanırsan,
Axmaq kişi, insanlığı asanmı sanırsan!

Savad bu adamlara çörək, hava qədər vacibdir.



Tahirzadə yerli fəhlələrin savada, oxumağa olan arzusunu, kurs açmaq zərurətini məktəb müdirinə deyəndə. Əhməd Kamal dəvərə gözlərilə dik-dik baxmış, başını bulamışdı:

- Mirzə Ələkbər, siz məktəb təsisini qolay bir əməlmi zənn ediyorsunuz? Əfəndim, böylə təsisat üçün para lazımdır, para!.. Mu...

Əhməd Kamal «müdirlər» demək istəyirdi. Sözün özünə qayıtdığını düşünüb dərhal sözünün sanki haçasını dəyişdi:

- Para lazımdır!... Müəllimlər, xadimlər, nəzarətçilər... Həpsi para istər! Axşam yanan hər bir fənər üçün para lazımdır. Səndən qələm, dəftər, kitab tələb edəcəklər, hər addımda para, yenə də para! Nərədən bulacaqsan!

- Cəmiyyəti-xeyriyyədən!

- Cəmiyyəti-xeyriyyə iflas ərəfəsində ikən böylə təklifi məhal iləri sürmək olurmu ya?

- Fəhlələrin oxumağa böyük ehtiyacı var, onların zehnini işıqlandırmaq lazımdır. Heç olmasa, qəzet oxuya bilsinlər.

- Fəhlələrin mədəsi dolsun, zöhninə heç bir şey lazım olmaz!

Müdir sözünü şeir ilə bitirdi:

Mədə, həp mədə, həzrəti mədə!

Tahirzadə müəllimlərin «para» təmənnasında olmadığını, xadimə, çıraq xərcini isə axşam dərsinə gələnlərin özü verəcəyini deyəndə də Əhməd Kamal razılıq vermədi:

- Müfəttişlik müsaidə etməlidir. Sərdarın hüzuruna peşnəhal etmək gərək, əfəndim! Bunu kim yapacaq! Bən çocuqlar üçün olan məktəbdə çalışıyorum! Faqat bu qadar!

- Böyük şəhərlərin çoxunda camaat darülfünunu var. Elmdən bixəbər olan camaatı təlim üçün düzələn məktəblərə belə deyirlər. Mən bunu Tiflisdə gözümlə görmüşəm. Mirzə Cəlil müsəlmanlar



üçün bunu həsrətlə arzulardı. Biz burada, Balaxana fəhlələrinə, kənddən yenicə ayrılmış savadsız adamlara adicə əlifba savadı da verə bilmərikmi? Verə bilərik. Verməliyik. Bunu bacararıq, müdir əfəndi! Bu bizim borcumuzdur.

Üç gün sonra məktəbin daş divarında iri hərflərlə yazılmış bir elan göründü:

"Balaxana məktəbinin yanında müsəlmanlar üçün axşam kursu açılır. Məktəb müəllimləri və şəhərdən dəvət olunan münəvvər şəxslər burada dərs verəcəklər...

Oxumaq istəyənlər adlarını Mirzə Ələkbər Tahirzadəyə yazdıra bilərlər. Bu ayın 25-dən etibarən dərsə şiru ediləcəkdir..."

Axşam kursuna 40 nəfərdən çox adam yazılmışdı, bunların çoxu da dərsə müntəzəm gedirdi. Qaranlıq düşən kimi məktəb eyvanının geniş taxta döşəməsində yavaş və ağır addım səsləri çoxalırdı. Tahirzadə bunu eşidən kimi saatına baxır, geyinib dərsə gəlirdi.

Tahirzadə kursa gedənləri əziz qonaq kimi qarşılayır, fərəhlə dindirirdi... «Dərslərimiz, işlərimiz, kitablarımız...» deyə, oxuyanlar ilə, sadəcə, yoldaş, dost kimi danışırdı, özünü onlardan ayırmırdı.

- Qardaşlar, bizim kursumuz hələlik ibtidaidir, yəni savad öyrənmək üçündür. Sağlıq olsa, yaza qədər oxuyub-yazmağı öyrənəcəyik. Bununla bahəm biz burada mətbuat, yəni qəzet, məcmuələrdən, olub-keçən işlərdən, zəmanənin övzaindən də baxəbər olacağıq. Arzumuz budur ki, müdavimlərimiz bizimlə, hümmət və səyimizlə maarifpərvərlik babətindən çox mənfəətli işlər görəcəklər.

Buraya gələnlərə hər şeydən əvvəl savad öyrətmək lazım idi. Ancaq müdirin məsləhəti bu idi ki, savad öyrətmək azdır. Burada tarixdən, şəriətdən də dərs vermək lazımdır.

Kursu iki sinfə böldülər. Birincidə tamam savadsızlar, ikincidə isə hərfləri tanıyan, çətinliklə olsa da yazmaq bilənlər idi. Savad dərsində bunlar ayrılıqda oxusalar da, tarix, şəriət dərsində birləşirdilər. Müəllimin «nəsihətini» dinləyirdilər.





Kursun açıldığına əvvəlcə razılıq vermək istəməyən məktəb müdiri, indi Tahirzadədən az sevinmirdi. Hətta müəllimlər ictimaində sinəsinə döyərək «müsəlmanları ziyalandırmaq şərəfi» üçün öyünmüşdü də. O sevinirdi. Əvvəla ona görə ki, məvacibinə filan qədər əlavə olunurdu, ikincisi özünün apardığı tarixi-islam dərslərinə olan xüsusi marağı var idi. Üçüncüsü də ixtiyaratındakı məktəbin daha böyük görünməsi idi. Əhməd Kamal çoxdan belə bir fürsət - sakitcə əyləşərək onun dediklərinə qulaq asan müsəlmanlar axtarırdı, axtarırdı, tapa bilmirdi. Bir müddət İstanbulda bu fikrə düşmüşdü. Ancaq orada bu iddianı lağa qoymuşdular. Keçinin qoturu bulağın gözündən su içər demişdilər.

Dostu Əli bəyə qoşulub Qafqaza - «Avamstana» gələndə, güman etmişdi ki, burada onun başına and içəcəklər. Onu «ədəbiyyat alimi», «xadimi-millət» deyib əzizləyəcəklər.

Sən demə, burada da, «avamlar» içində də «mərdiməzarlar» az deyilmiş. Onun yazdıqlarını, ara-sıra, məclislərdə fürsət tapıb danışdıqlarını «osmanlıçılıq» deyə damğaladılar, istehzaya qoydular.

Onu İstambulun küçələrindən qaçıb gələn bazaroğlu adlandırırdılar. Nə isə, mətbuatda, məçlislərdə Əhməd Kamal özünü çox pis hiss edirdi. Əlac bircə məktəbə, kənd kimi xəlvəti yerlərdəki dərs otaqlarına qalmışdı.

İndi kursa gələn fəhlələr arasında isə islam tarixindən mühazirələr oxumaq ona, «İstanbul ədibinə» sevinc, ləzzət verəcək idi. Əhməd Rəfiqin «Tarixi ümumi»sindən başlayaraq xilafət Türkiyəsinin fütuhatına qədər müsəlmanlar və türklərin «fövqüladə məziyyətlərindən» ağızdolusu danışacaq, sənələrdən bəri Qafqaz şivəsində mövcud olmayan kitab və risalələri, mətləbləri açaraq avamları dəryayi-heyrətdə buraxacaq idi. Balaxanada savad kursu yox, Əhməd Kamal, üçün bəxt açılırdı. Amma atalar yaxşı deyib ki, sən

saydığını say, gör fələk nə sayır. Əllaməlik eşqinə düşən Əhməd Kamal heç vaxt güman etməzdi ki, «gözləmədiyi koldan dovşan çıxacaq». Belə avamstan bir yerdə, savad öyrənmək üçün toplanan mazutlu, yalınayaq fəhlələr içində görünməmiş işlər baş verəcək, eşidilməmiş sözlər deyiləcəkdir. Sən demə, «məlun Molla Nəsrəddin» bu qaranlıq guşələrə də gəlib çıxır.

Əvvəllər Əhməd Kamalın intizarı yalnız Tahirzadədən idi. Onun müdavimlər ilə keçdiyi dərsə arxayın deyildi.

- Üsuli-sevtini bilmiyoruz, yaşlılar ilə nasil davranıldığını da anlamyor...

De gəl ki, əsl nigarançılığı öz dərsində, elə mühazirəsinin ilk günü gördü. Görməyi də belə oldu ki, bığlarına sığal verib köynəyinin qıraxmalını, bantını dəyişəndən, sinif jurnalını bir oyuncaq kimi əlində tovlayaraq sinfə girəndən sonra dərsini təkbir ilə, islam tarixindən, yer üzünün xəlifəsi olan Həzrət Ömərin Misirdə, Mərakeşdə hərbi yürüşlərindən, apardığı «müqəddəs dini» islahatdan danışdığı yerdə Məşədi Hüseyn gülüb başını tovlamışdı.

Əhməd Kamal bu arıq, ağbəniz kişiyə dik-dik baxmışdı:

- Əfəndim, şəriət tarixinə siz şübhəmi ediyorsunuz?

- Xeyr, şübhəm yoxdur, gülməyim gəlir!

- Pəki, nəyə gülüyorsunuz yahu?

- Sizin dediyiniz sözlərə!

- Xacə Nəsrəddin lətifəsi danışmıyorum. Mən islamın müqəddəs qanunlarından danışıyorum bə!..

- Elə mən də ona gülürəm.

Məşədi Hüseynin sözünə fəhlələr də güldülər. Əhməd Kamalı təəccüb götürdü:

- Müdavim əfəndim, mən sizi qatiyyan anlamıyorum.

- Müdir əfəndi, burada başa düşülməyən bir şey yoxdur.

- Bəs niçin gülüyorsunuz?





- Gülməli şeyə gülərlər də!

- Müqəddəs tarix gülməlimi?

Məşədi Hüseyn bir qədər susdu, sonra icazə istədi:

- Başa salımmı, deyimmi?

- Bəli, söyləyiniz!

Məşədi Hüseyn ağır-ağır qalxıb bir oturanlara, bir də qamış kimi dimdik dayanan müdirə baxdı. Müdir iki əsgəri addım irəli atıb, sanki uzun müddət, uzun intizarla gözlədiyi, çox maraqlandığı bir sözü eşitmək üçün diqqətini bir daha topladı:

- Pəki, söyləyiniz! Dinləyorum!

Məşədi Hüseyn nəzərlərindəki qəzəb və istehzanı örtməyə, qabartmamağa çalışaraq sözə başladı.

- Söylədiyim budur ki, əlbəttə, siz buyuran zamanlar, min iki yüz il və min üç yüz il bundan qabaqlarda müsəlman qayda-qanunları, şəriət yaxşı idi. Bəlkə də bir qədər müqəddəs idi. O zaman vəhşi ərəbləri dəvə otarmaqdan məscidə yığıb, mövizə deyən Məhəmməd peyğəmbərin dediyi də, vicab ayəsi də babət, əqləbatan idi.

- O zaman!

- Bəli, o zaman! Amma indi daha onlar köhnəlib, vaxtı keçib. Onlara yapışıb qalmaq... Elə bizim evimizi yıxan da onlara yapışıb qalmaq olub. O zaman nə üçünsə peyğəmbər deyib kişi üç-dörd arvad ala bilər. Müsəlman kişiləri müharibədə ölmüşdü. Arvadlar kəbinsiz qalmasın, həm də gələcək üçün əsgərlər doğulsun, deyə çox arvad almağa izin verirdilər. Yazırlar ki, Həzrət Rəsul 400 arvad almışdı. Kəbinli, siğəli 400 arvad. İndi bunu «Molla Nəsrəddin» necə lazımdı, lağa qoyur. Çünki xaricilər yanında deyəndə adama gülürlər, məsxərəyə qoyurlar. Vallahi, adam xəcalətliyindən istəyir yerə girsin.

Amma o zaman ayrı idi. Siz buyuran kimi siğə eləmək savab idi. Müqəddəs idi. Dədəmizin 15-20 il bundan qabaqkı məişəti indi

köhnə, qəribə gəlirsə, üç yüz il bundan əvvəlki qaydaları, özü də Azərbaycan yox, ərəb qaydalarını indi dördəlli tutmaq əqilli adam işi deyil. İndi bizə əsri-hazirin tələbləri lazımdır. Yoxsa qədim əyyamın gülməli-gülməli nağılları yox! Mən belə qanıram, belə də ola gərək.

Əhməd Kamalın qəzəbindən gözü kəlləsinə çıxdı:

- Əfəndim, siz kafirlərin iğvasına qapılmışsınız, siz xalis küfr deyorsunuz. Bu hərzəvü-hədyanı deyənlərin islam adlanmağa haqqı yoxdur!

- Niyə, bəyəm islam adı daşıyan heyvandır ki, ağzı bağlı olsun! Məsələn, siz həzrət Ömərin Afrikanı tutmağından elə danışırsınız ki, bilmək olmur, hədisdi, ya tarixdir. Mən ayrı cür eşitmişəm. Həzrət Ömər orada minlərlə kitab yandırıb!

- Kafirlərin kitabı faqat yanmalı idi!

- Kafirlərin kitablarında da faydalı şeylər çox olur. Bu saat təyyarə düzəldib göyə uçanlar, buxar maşını yaradanlar da müsəlmanlar deyil, əfəndim! Amma bu ixtiraları yandırmaq yox, ürəkdən alqışlamaq hər bir əqilli adamın, o cümlədən hər bir müsəlmanın borcudur. Əqilli adamlar o zaman da Ömərin səhvlərinə qarşı çıxıblar, kitabları yandırmamaq üçün dəstə ilə onun yanına məsləhətə gəliblər: «Bu kitablardakı mətləblər, məhz Qurandakı vacib mətləblərdir», - deyiblər, Ömər isə: «Madam ki, o mətləblər Quranda var, ayrı kitab nəyə lazım» demiş, yandırmasında davam etmiş. Bu cavabdan sonra başqa bir tədbir töküb Ömərə yalvarıblar ki, «ey böyük xəlifə, bu kitablarda yazılanlar Quranda yoxdur, heyifdir, yandırmayın!»

Ömər gülüb və belə cavab verib. «Quran kimi müqəddəs kitabda olmayan mətləblər müsəlmanlara lazım deyil, kafir işidir, yandırın!»

Beləliklə, zəngin Misir mədəniyyətinin çox qiymətli qədim kitablarını yanğından qorumaq mümkün olmayıb, cənab müdir.





Biz, hərçəndi kəmsəvadıq, belə oxumuş, eşitmişik...

Əhməd Kamal qıpqırmızı qızarmışdı. Müdavimlərin belə «mürtəd»ləri eşitdiyinə hirslənir, bilmirdi nə çarə qılsın:

- Bu tikanlı dil iləmi müsəlmanlığa xidmət etmək istiyorsunuz?

- Bu dil mübahisə dilidir, müdir əfəndi!

- Bu dil islama yaramaz!

- Bu dil əsli sağlam mühakimə dilidir. Məhəmməd özü deyib ki, əqlə batmayan şeyə inanmayın! Əqli-səlim!

Müdavimlərdən sözə qarışan oldu:

- Məşədi Hüseyn düz deyir.

- Mirzə, dərsimiz qaldı.

- Söz güləşdirmək yeridir bura?

- Kifayətdir.

- Siz hicaba qarşımı çıxıyorsınız?

- Hicab nədi?

- Örtü, çadra!

- Çadra arvadların zənciridir.

- Çadra şəriətdir!

- Xeyr, cənab müdir, çadra bidətdir. Dörd yüz arvad alan bir peyğəmbər çadraya tərəf durmaz.

- Çadra örtü ilə müsəlman qadının ismətini mühafizə edər!

- Zahiri örtü ilə çirkin ürəyi təmizləmək olmaz. Gərək təmizlik içəridən ola! Çadra altında min cür fisqi-ficur olur.

- Çadranı inkar etmək, dini inkardır, əfəndim. Bacılar da bunu istər!

- Bir din ki, beş arşın bezə bağlıdır. Onu külək çoxdan apara bilər.

- Etiqadınız süst-nabud olduğu üçün sizinlə mükalimə əbəsdir! Siz qılınc müsəlmanısınız!

- Əlbəttə, belə mükalimələr əbəsdir. Çadra nə səndən, nə də



məndən asılıdır. Zəmanə özü həll edəcək.

Zəng çalındı. Müdavimlər sinifdən çölə töküldülər. Eyvanda səs-sədа daha da ucaldı. Fəhlələrin bəziləri Məşədi Hüseyni danlayır, «Sən müdir ilə niyə kəllə-kəlləyə verirsən» deyirdi. Bəzisi isə razılaşmırdı:

- Qoy desin, canım, axund ilə müəllimin arasında bir təfavüt ola gərək ya yox? Mirzə Ələkbər axundlara gülür, bu Mirzə elə axundların dediyini deyir.

Əhməd Kamal isə otağın bir küncündə papirosunu tüstülədərək, sanki bir şey axtarırmış kimi səqfə baxır, öz-özünə fikirləşirdi:

- Yox, bu qəbildən olan müdavimlər kursa gəlsə, başqalarının tərbiyəsini də xələldar edəcək. Bunların sərəncamını qılmaq gərək!

Bu fikir ilə müdir Sabirin otağına qədəm qoyanda, iki nəfərin də orada əyləşdiyini, şairin nə isə qəzetdən həvəslə bir şeir oxuduğunu gördü:

- Nə mütaliə ediyorsunuz?

- Əyləşin, Kamal bəy!

Sabirin ona «bəy» deyə müraciəti xoşuna gəldi. Oturdu. Ancaq Sabir vəziyyətini dəyişmədən, qonaqlarının diqqətini dağıtmadan oxumağına davam etdi:

... Bizim müsəlman nücəba və əhl-kəmalı öz kökləri və rişələri mənziləsində olan rəiyyət tayfasını, əkinçi və cütçü qardaşlarını unudub bilmərrə onların qeydinə qalmırlar. Hətta onlara, bir növ, həşərat gözüylə baxıb onları aşağı tuturlar. Mayeyin-həyatımız və səbəbi-həyatımız olan ziraət əhlinə qara rəiyyət adı qoyur, onlardan özümüzü kənar tuturuq və onlar ilə ülfət, mülaqat etməyi kəsri-şan və şərafət hesab edirik. Ancaq öz təhsili və rütbəmizlə, təzə modada tikilmiş libasımızla və zinətli otaqlarımızla iftixar və sərkəşlik edib qaranlıqda qalan, cəhd və nadanlıq içində qalan qardaşlarımızın dad və fəryadını eşitmirik. Bu sayaq onları özbaşına, öz halına tərk

etdiyimizə görə onlar da gün-gündən cəhalət dəryasına qərq olmaqdadırlar. Acizlik və zəlalətləri şiddətlə artıb çoxalır. Yüz sənə bundan əqdəm nə vəziyyətdə var idilərsə, indi də o halda müstəhkəm durublar. Müddəti-mütəmadi bir halda qalmaqlıq-tənəzzülə dəlalət edər.

Elm və maarif kəsb edənlərimizin ümdə arzusu özlərini şəhərə salıb isticə, mənfəətli qulluq tapmaqdır. Kəndlərimizdə əcəlsiz, dərmansız, müalicəsiz ölənlərin hədd-hesabı yoxdur. Nə əczaxanə, nə mərizxana, nə elmli həkim və cərrah gözə dəyir. Çox böyük kəndlərimiz var ki, içində məktəbi yoxdur... Müslümün balaları tərbiyəsiz və elmsiz qalıb əvam ataları və babaları kimi dünyadan bixəbər zülmət, zəlalət içində zindəganlıq edirlər. Axund və vaizlərimiz şəhər zindəkanlığını kəndlərdə əvam ilə mülakata tərcih verib öz xeyirlərinə və asayişlərinə xələl gətirmirlər. Cavan müəllimlərin əksəri ki, darülmüəllimində kəsb-maarif ediblər, bir sənədən artıq kənddə qalıb müəllimlik etməzlər və qaranlıqda qalan qardaşlarını ziyalandırıb gözlərini açmağı özlərinə vətən borcu saymazlar. Yüz cürə vəsiqələr ilə onların içindən çıxıb qaçmağı və özlərini şəhərə salmağı böyük hünər bilərlər. Ali mədrəsələrdə ikmal-təhsil edənlərimizin heç birisi özünə bu əskikliyi və «hərarəti» qəbul etməz ki, gedib kəndlərdə cəhl və nadanlıq qaranlığında qalan din qardaşlarını qəflət yuxusundan oyatsın və öz elm-mərifətilə onları da nurlandırsın. Bu günlərdə universitetin axırıncı kursunda təhsil alan dövlətli bir ağazadə ilə millətimizin geridə qalmağı barəsində söhbət edirdim. Söhbət zamanı ondan soruşdum ki, qurtarandan sonra niyyətin harada qulluq etməkdir? Cavab verdi ki, harada pulu çox versələr, orada. Həmin cavan sözünün əvvəlində vətənə xidmət etməkdən və millət yolunda can qoymaqdan xeyli dəm vururdu. Amma burada, mətləbin bu yerində öz ürəyinin əsl niyyətini bilaixtiyar dedi. Həmin cavan bu saat millət, vətən əvəzinə, Bakı



milyonçularının birisinə kəmali-məmnuniyyətlə xidmət edir. Qızıl-gümüşün qüvvəyi-cazibəsi müqabilində heç bir əfkari-əliyyə heç bir böyük arzu tab gətirə bilmir. Təəccüblüdür ki, hansı bir ziyalı və oxumuş müsəlman qardaşı dindirirsən, ah çəkib həsrətlə deyir:

«Xalq əldən getdi... Sair millətlər bizi geridə qoyub irəlilədi». Gərəkdir çalışaq, gərəkdir rahatlığı özümüzə haram edək, milləti oyadaq. Onun yolunda can və maldan keçək, ona tərbiyə verək, elm nurilə onu işıqlandıraq, çoxları bu qısm laf və kəzafdan xeyli dəm vurub boşboğazlıq edirlər. Amma həqiqətdə heç biri öz şəxsi mənfəətlərini xalq və camaat xeyrinə fəda etmirlər, axırda baxırsan ki, yenə «qara rəiyyəti» öz fəna və yazıq halları ilə kənddə buraxıb özlərini şəhərə salırlar. Qaranlıqda qalanlarımız dəxi kor-korana bir-birini tapdalaya-tapdalaya zülmət içində heyran və sərgərdan qalırlar.

Mürdəra mürdə gey kənəd bidar? (Ölünü ölü necə oyada bilər?)

Əhməd Kamal soruşmaq istəyirdi ki, Tahirzadə qəzeti büküb üzünü oturanlara tutdu və dedi:

- Bu mətləbləri, arzu edərdim ki, hər bir oxumuş dərk eləsin. Qocaman bir müəllimin mülahizələri nə qədər qiymətli və vaxtındadır.

- Bu kəlamlar kimin ola?

- Kim ola!

- Möhtərəm müəllim Firudin bəyin məqaləsidir.

Əhməd Kamal istehza ilə cavab verdi:

- Elə məqalələr ilə məşğul olmaqdansa, kəndisini müsəlmanədd edən bəzi müdavimlərin qəti tədbirini qılmaq lazımdır.

- Onu da müdir əfəndilər qılsın.

Əhməd Kamal sözünü daha da ciddiləşdirdi:

- Mirzə Ələkbər, sənin yapdığın bu savad kursu başımıza böyükcə bir bəla kəsildi ya!

- Kursun günahı nədir?

- Şurada Məşədi Hüseyn kimi naqabil həriflər nə yapmayor! Dinə sataşmayor? Müqəddəs tarixi istehzaya qoymayor, Həzrət Öməri inkar etmiyor, daha nələr qaldı, əfəndim?

- Müəllimin borcudur deyilənlərə sübut, məntiq ilə cavab versin.

- Heyləsinə məntiq gərəkməz! Kafir elan edib damğalamaq, müdavimlər sırasından kənar etmək gərək! Şeyxülislama xəbər vermək, mürtəd kimi rüsvay-cahan etsin. Anlaşıldımı?

- Anlaşıldı, əfəndim, anlaşıldı! Küffar ləşkərinə qarşı silahlanmaq, qərqi-ahəngi fulad olmaq hər kəsdən əvvəl müdir cənablarının öhdəsinə düşür!...

Bir bəhanə əldə ünvan etməli bundan sonra,
Büsbütün islama əlan etməli bundan sonra!
Mümkün olsa, lap kökündən qaldırıb bir əmr elə
Cümə mətbuatı viran etməli bundan sonra,

Müxtəsər hər kim ki, gördün fəhmi var, bir şey qanır,
Kifr ilə məşhuri-dövran etməli bundan sonra.
Din gedir, ismət gedir, qədri itir şəriyyətin
Çareyi-əmri-müsəlman etməli bundan sonra!



## Onuncu fəsil

## İKİ MÜSAFİR

Hürriyyətin qanadları lazımdır uçmağa!..

M.HADİ

Bakının iqlimindəki müxtəlifliyi hamı deyir. Bir gün isti, bir gün soyuq, bir gün küləkli, bir gün durğun, bir gün açıq, bir gün tutqun hava! Bəzən ən soyuq günü, ən isti gün təqib edir. Bəzən eyni gündə həm yayı, həm qışı, həm yazı, həm payızı andıran əlvan havalar olur.

İlin qurtarmağına doğru gedən bu günlərdə ictimai iqlimdə də eyni zidd qütblər görüşürdü. Şəhərdə, ziyalılar arasında iki müsafir haqqında söhbət gedirdi. Birindən aşkara, birindən isə xəlvət danışırdılar.

Bunlardan bir şəxsiyyət kimi yox, müəyyən fikir istiqaməti, gələcəyə aid meyil və niyyətlərin tərcümanı kimi danışırdılar.

Bunlar adi danışıq deyil, mübahisə, bəzən də kəskin münaqişə halında gedirdi. Mümkündür ki, müsafirlərin özləri həmin münaqişələrdən xəbər tutmur, ya tuta bilmirdilər. Ancaq bu, işə təsir etmirdi. Müqabil tərəflərin hər biri ürəyinin eyni atəşini söndürmək üçün eyni kasadan içir, həmin adlar üzərində dönüb-dolaşırdı. Birindən sevinclə, birindən kədərlə, birindən varlılar, birindən isə ən çox fəhlələr, işdən xəbərdar fəhlələr danışırdılar. Hər iki müsafir, vağzal qapılarından hər gün girib-çıxan adi müsafirlərdən, tacir-tüccardan, səyyahdan, qonaqdan, hərbiyyəlidən, kəndlidən, əsnafdan fərqlənirdi.

Bu müsafirlərdən birini Bakıda, oxumuşlar arasında tək-tək adam olar ki, tanımasın. Qəzet və jurnalların çoxunda bu adamın adı tez-tez təkrar olunur, çox yerdə də müxtəlif gurultulu epitetlərlə

təkrar olunurdu.

Bu müsafir «Kaspi» qəzetinin, «Füyuzat» jurnalının baş mühərriri. «Siyasət və Fürusət» əsərinin müəllifi və Zaqafqaziya müftisinin oğlu, xaricdə kamil təhsil almış Əli bəy Hüseynzadə idi.

Əli bəy haqqında şifahi və ya yazılı danışıqların neçə illik tarixi vardır. O. təhsildən qayıdan, öz vətənində mətbuat, ədəbiyyat işlərinə əl qatandan sonra çox danışıqlara səbəb oldu. O, indi öz xalqının. öz torpağının təəssübünü çəkməkdən yadırğamışdı. O, üzünü sultan Türkiyəsinə, arxasını isə fəhlə Bakısına çevirmişdi. Müəllimlər, mühərrirlərin səyi fayda vermədi. Axırda külli məsarifin və zəhmətlərin nəticəsində istedadlı bir adamın korlandığını yəqin edən mötəbər bir jurnal ürək ağrısı ilə yazdı ki: «Kaş Əli bəy cənablarının qıçı sınaydı, o İstanbula getməyə idi, sonra da bizim dilimiz. mədəniyyətimizin qəyyumluğuna qurşanmaya idi!..»

Bu ağır hökmdən sonra danışıqlar bir qədər seyrəlmişdi. «Bəlkə bir düşündü, bəlkə peşman olub doğru yola qayıtdı». Elə ki, onun vətəninə arxa çevirib getmək xəbəri yəqinləşib yayıldı, söhbətlər təzələndi.

Onun Bakıdan getməyi münasibətilə təcili böyük təntənəli ziyafət düzəlmişdi. Bu ziyafəti «Səadət mədrəsəsi»nin rəhbərliyi, «Yeni Füyuzat»ın müdiriyyəti, müsafirin məslək dostları hazırlayırdı. Bakı ruhaniləri, müsafirin tanış-dostları, mühərrirlər, şairlər, qismən müəllimlər xüsusi dəvətnamələrlə buraya çağırılmışdılar.

Dəvətnamə alan hər bir kəs, bu mötəbər, möhtərəm məclisdə iştirak üçün hazırlıq görməkdən, ailədə məsləhətləşməkdən, münasib libas hazırlamaqdan, müsafirə, uzaq yola çıxan əziz müsafirə bəlkə layiqli bir hədiyyə, kübarlar məclisində adı çəkilməli bir hədiyyə düşünməkdən qabaq, özünə borc bilirdi ki, bu səfər haqqında danışsın.

Hamı danışan yerdə sən niyə susasan? Çünki bu səfər müəyyən



dərəcədə yalnız Əli bəy üçün yox, Bakı üçün. Bakı ziyalıları üçün əlamətdar bir səfər idi.

Əlamətdar idi, əvvəla ona görə ki. İstanbuldan qaçaq düşmüş bir mühərrir indi İstanbula qayıdırdı. İkincisi ona görə ki, vaxtilə milyonları etibar edib nəşriyyat, mətbuat aləmində onu özünə baş vəkil təyin edən Bakı padşahı - Tağıyev cənabları indi ona ehtiyac hiss etmir, onun getməsinə mane olmur, əksinə bir az da sevinirdi. Bəlkə də başından eləmək istəyirdi. Üçüncüsü bu idi ki, Əli bəyin Bakıdan getməyi çoxlarını maraqlandırırdı və bu marağın özü də çox müxtəlif idi.

Osmanlı mühacirləri bu səfərə çox sevinirdilər: «Əlibəy kimi bir zati-ali İstanbula, türklük mərkəzinə pənah aparırsa, Anadolunu, Çini tanıdıqları qədər də tanımayan Azərbaycan münəvvərləri üçün bu, bir dərsi-ibrətamizdir!»

Əksəriyyəti təşkil edən yerli ziyalılar da sevinirdilər. Ona görə sevinirdilər ki, «osmanlıpərəstlərin biri azalırdı. Kaş bu adam heç vaxtilə İstanbula getməyə idi, getsə də qayıtmaya idi!..»

Dördüncüsü də budur ki, o dövrdə hər kəs ictimai üfüqlərdə görünmək istəyirdi. Biri bina tikdirir, qəzet nəşr edir, pulu ilə görünür. Biri uzun qəzet səhifələrini doldurur, yazısı ilə görünür. Üçüncüsü «şollar suyu» ətrafındakı mürafiələrə qarışıb səs-küy qoparması ilə, bir başqası məhərrəmlik büsatında baş yaranların önündə dirijorluğu, biri padşaha ərizə yazması ilə görünür. Biri dumaya seçilir, vəkil gedir. Çoxunun isə belə geniş imkanı və fürsəti olmur, cari mühakimə, mükalimələrdə mümkün fürsətdən istifadə edir. Heç olmasa, belə münasibətlərdə görünmək istəyir.

Xülasə, Əli bəyin getməyinə biri təəssüf edir, biri heyran olur. biri sevinir, biri ümid bağlayır, biri şübhə edirdi.

Eləsi də var idi ki, bir neçə saatda göl sularında üzüşən ördəklər kimi, bir-birinə zidd olan bu əhvali-ruhiyyələrin hamısına düşüb-çıxırdı.

Dəvətnamə alanlar öz mühakimələrini dedikcə, kənar adamları da söhbətə cəlb edir, bundan guya həzz alırdılar...

Şəhərin Çəmbərəkənd tərəfində, küləktutan bir dikdirdə yerləşən mədrəsənin qabağında dəstə-dəstə qonaqların gəldiyini, görüşüb danışdığını, şənliyi andıran bir izdihamı görmək olardı. Bu gün cümə günü idi. Dərs yox idisə, mədrəsənin qabağında camaatın görünməyi, əlbət ki, bir mərasimi, ya bir fövqəladə hadisəni andırırdı. Məktəbin sinif otaqları açılıb birləşdirilmiş, bəzənmişdi.

Ziyafətin yemək-içmək hazırlığı Hacı Rəsulun məşhur restoranında aparılmışdı. Dünəndən bəri orada görülən təcili hazırlığın həcmini, vəsfini deməklə başa gəlməz.

Səhərdən restoranın ağzına stol qoyulmuş, pəncərə şüşəsinə yapışdırılan uzunsov ağ kağıza yaşıl hərflərlə «Bu gün restoran xüsusi ziyafət şərəfinə alınmışdır» sözləri yazılmışdı.

Hacının özü də, aşpaz və xidmətçilər də, faytonçusu, hətta ailə üzvləri də bu şərəfli ziyafət üçün əldən gələni etmək, Hacının təbirincə, «quş südündən tutmuş, cənnət xurmasına qədər» hər şeyi mühəyya etmək cəhdində idilər.

Soyutma kimi hazırlanmış ceyran və quzu əti, bütövcə qızardılmış böyüklü-kiçikli balıqlar, qazan-qazan plovlar, növbənöv xuruşlar, məzələr, pendirlər, kasa qatıqlar, göyərtilər, kürülər, ətirli şərbətlər, mədən suları, ev çörəkləri, lavaşlar, səngəklər, zəyrəngli kökələr, fayton-fayton gələn turac, kəklik, qırqovulun hesabı yox idi. Kənarda, xörəkdən sonra təqdim olunmaq üçün büllur qablarda üzüm, alma, heyva, nar, naringi, yapon xurması, kəsilib dilimlənmiş Carco qovunları, çillə üçün saxlanmış Şəmkir qarpızı, əlvan mürəbbələr şüşə və şəffaf qablar içində hər görənə «gəl-gəl» deyir, iştah açırdı.

Döşündə ağ önlük olan cavan bir oğlan qapıda dayanıb qonaqlara yer göstərirdi:



- Buyurun, buyurun!

Restoran işçiləri qəssabxanalardan ət, qənnadı dükanlarından cürbəcür paxlava, şəkərbura, noğul, qəzalardan meyvə, anbarlardan azuqə, mağazalardan şüşə-kaşı, meydandan odun, kömür daşımaqdan yorulmuşdular.

Bugünkü böyük ziyafətin şərəfini hər kəs öz öhdəsinə götürmək üçün qabıqdan çıxmağa hazır idi.

Tağıyev cənablarının razılığından sonra «Səadət» cəmiyyəti məsarifi öz öhdəsinə almaq istəyirdi. Qəzet idarəsi də bir tərəfdən «ev sahibi» kimi danışırdı. Hacı Rəsul isə heç birini qəbul etmir: «Müsafir özümün, qonaqlar özümün, hər məsarif də özümündür!.. Belə bir vücud yolunda var-yoxundan keçməyən qurumsaqdı!..»

Amma buna baxan kim idi! Qazalaxlar, faytonlar hey ərzaq daşıyıb, mədrəsə həyətinin dal-qabağını qazanlar, yeşiklər, torbalar ilə doldururdular. Hacı Rəsulun işçiləri bunları alıb yerbəyer eləməyə macal tapmırdılar.

Hacı Rəsulun bu ziyafətə ikinci bir hazırlığı da var idi. İlk günlərdə xəbər bilən kimi dərzi Çahağgiri yanına çağırıb sifariş vermişdi: Yaşıl məndulədən bir dəst əla markə paltar istəyirəm səndən!

- Hacı, nə fason buyurursunuz?

- O fason ki, tayı-bərabəri olmasın. Necə alırsan al, amma əlindən çıxan işə «bəh-bəh!» desinlər!

- Baş üstə, bəqədri-qüvvə!

- Bəqədri yox, hökmən! Hökmən! Usta elə fərz qıl ki, əyan içinə mən yox, sən özün çıxırsan! Qoy camaat mənə baxsın, sənə afərin desin!...

Bugünkü ziyafətin başqa bir məziyyəti də var idi. Daha doğrusu, məziyyəti tamam başqa idi.

Doğrudur, başqa ziyafətlərə oxşayan cəhəti çox idi. Burada da ye-

mək. içmək. demək. gülmək, oxumaq, burada da nitqlər, nəzakətlər. görüşlər. təriflər vardı. Ancaq bugünkü ziyafətin əsl məziyyəti başqa şey idi. Hüseynzadə cənablarının İstanbula səfərinə Bakı əyanı və şəriətmədarları çox böyük məna verirdilər. Heç bir hacını heç bir zaman Bakıdan Məkkəyə, ya heç bir vəkili dumaya belə yola salmamışdılar.

Bəli, Əli bəyi İstanbula yola salırdılar.

Əlbəttə ki, bu səfərdə hamıdan çox sevinən Əli bəy özü idi. Çünki o, İstanbulu çox sevir, bəlkə də özünə əsas vətən sayırdı. İkinci tərəfdən də orada çoxlu köhnə, təzə dostları var idi. Neçə illərdi onlar ilə görüşməmişdi, görüşə bilməmişdi. Ən çox sevincinə səbəb olan cəhət bu idi ki, müsafir orada «aləmi-islam» üçün fəaliyyət meydanının geniş olduğuna, orada siyasi hərəkat üçün, qələm qüdrəti üçün hərtərəfli şərait olduğuna möhkəm inanırdı.

O, inanırdı ki, «İttihad və tərəqqi» firqəsinin, hökuməti ələ alan «cavan türklərin» məşrutə istəyən ordusunun «parlaq istiqbalı» var. Əli bəy inanıb etiqad edirdi ki, təkcə Osmanlı dövlətinin yox, bəlkə bütün «aləmi-islamın» taleyi bu siyasi mərkəzdən asılı olacaqdır. Bəlkə Həzrəti Ömərin, Tariq ibn Ziyadın istila, işğal yürüşlərini bərpa etmək mümkün olacaqdır. Özü də donqarlı dəvələrdə yox, ildırımsürətli qatarlarda, qumlu səhralarda yox, abad dəmir yollarında, nəhəng gəmilərdə yürümək mümkün və asan olacaqdır!

Bəlkə də yaşıl bayraqlı islam süvariləri təkbir çəkərək buradan Şərqə, Qərbə çapacaq, Quran ayələrini əsrin ən müqəddəs qanunları kimi qılınc ilə yazıb yayacaqlar...

Əli bəyin əqidəsi belə idi.

Müsafirin sevinci buraya toplanan qonaqların çoxunda var idi. Əlbət ki, onların sevinci də, müsafirinki kimi xəyala, arzuya əsaslanırdı. Onlar, müsafirin məktəb və qələm dostları Əli bəyin İstanbula getməyinə bir adamın səfəri, şəxsi işi kimi yox, «mənafeyi-milliyyətinin», «tərəqqi-qəməddünün» «vacib tədbiri» kimi baxırdılar.



Onlar Əli bəyi İstanbulda Qafqaz müsəlmanlarının bir konsulu kimi təsəvvür edir, ona çox arzular, ümidlər bəsləyirdilər. Əlbət ki. «millət məsələsi» çoxlarını düşündürmürdü. «Millət» deyə hər kəs öz işini - təsərrüfatını, şöhrətini, ticarətini nəzərdə tuturdu.

İstanbul Şərq ilə Qərb arasında, Dardanel ağzında böyük ticarət şəhəridir. Avropa ilə Asiyanın körpüsüdür. Orada firəng tacirini gördüyün kimi, yapon, amerikan fermerini də görə bilərsən. Orada Bakı kürüsü, Quba xalçası, ləzgi şalı, Buxara dərisi pula gedən kimi, sitrus malları, Çin ipəyi, samson tütünü, hind çayı, Marağa kişmişi, İraq xurması da ucuz alınır. Nə isə İstanbulda bir «əl yeri», bir «ünvan» saxlamaq hər kəsə, xüsusən Bakı kimi uzaq yerdən olan hər tacirə müyəssər iş deyildi.

İndi isə fürsət vaxtıdır. Əli bəy həmişəlik orada qalacaqdır. Bəzilari onun vasitəsilə İstanbulda ticarətini sahmana salmağa, bəziləri övladını «üsuli-cədid» ilə oxutmağa, türk ordusunda zabit eləməyə, bir çoxları isə müsəlmanların qayğısını çəkdiyi üçün həmişə ona arxalanmağa, vaxtilə oradan qaçıb Qafqazda baş girləyənlər isə bəlkə münasib vəzifə ya peşə əldə edib oraya getməyə səy edirdilər.

Bakı ziyalılarının mühüm əksəriyyəti Əli bəyin getməyini ürəkdən istəyənlər idi. Bunlar Əli bəyin səfərinə yox, məhz getməyinə sevinirdilər. Bu ziyalılar öz mədəniyyət və dillərini sevən, Osmanlı imperatorluğuna və ümumən imperatorluqlara nifrət edən ziyalılar idilər. Əli bəyin getməyi, Bakıda müsəlman təəssübünü, türkpərəstlik cəbhəsini xeyli zəiflətmiş olurdu. Buna görə xalq ziyalıları da o birilərə qarışıb bu səfəri alqışlayırdı. Hər iki tərəf sevinirdi.

Bu sevicin obyekti bir, səbəbi, niyyəti isə başqa-başqa idi.

Məşədi Hüseyn də belə adamlardan idi. Səhər tezdən Hacı Rəsulun restoranında başlanan hazırlıq dəsgahı ətrafa yaman səs salmışdı. Məşədi Hüseyndən bugünkü çörəyin keyfiyyətini soruşanlar çox olmuşdu.

Çörəyi restorandan mədrəsəyə ya qazalaq ilə, bəzən də işçilər qucaq-qucaq daşıyırdılar.

Daş binanın dənizə baxan böyük və işıqlı pəncərələri boyunca düzülmüş süfrələr ətrafında təmiz, rəsmi libaslı qonaqlar cərgə ilə, sakit, müntəzir əyləşmişdilər. Nəzərlər yuxarı başda əyləşənlərə dikilmişdi.

Mir Məhəmməd Kərim ağa şabalıdı rəngli, qolsuz əbasını çiynindən endirib ayağa durdu. Durdu, lakin yerini münasib, rahat görmədi. Minbərə alışmış adamın camaat ilə bir sırada durub danışması çətin olardı. Seyid bunu duyduğu üçün «ya Allah!» deyib corablı ayağını kürsüyə qoyub qalxdı.

Bugünkü ziyafətin şərəfindən, müsafirin uğurlu səfərindən, «aləmi-islamın» tərəqqisindən, maarifin feyzindən uzun-uzadı, təntənə ilə danışdı. Hüseynzadə cənablarını tarixdə gəlib-gedən sərkərdələrlə müqayisə etdi:

- Bəli, bəndə sərkərdə dedikdə ali, hərbi məna zənn edilməsin. Mənəvi sərkərdəlikdən, könüllər, zehinlər, düşüncələr fəth edən sərkərdələrdən, əqil-kamal mülkünə rəxnə vurmaq istəyən, zülmət ləşgərini tar-mar edən mənəvi sərkərdəlikdən bəhs edilir. Hüseynzadə cənablarının ali-miqdar fəziləti, iştə burasındadır...

Qazı əyləşən kimi İran hökumətinin Bakıdakı «şəhbəndəri»[1] kitab kimi yastı başına cəld hərəkət verərək qızlar kimi nazik bir səslə nitqə başladı. O, şəxsən azərbaycanlı olsa da, məmuru olduğu hökuməti təmsil edərək farsca danışdı. Hüseynzadə cənablarının simasında müsəlman ruhunu təcəssüm etdirən üç xüsusiyyətin: türk rəşadəti, fars zərifliyi və ərəb elminin müstəsna vəhdətini bəyənib tərif etdi:

«Hüseynzadə cənabları müsəlmanların tarixinə, məişətinə, dini-islamın ehkamına kamilən vaqif bir alim və ədibdir. Onun darülülum olan İstanbuldakı gələcək məsaisi[1] və fəaliyyəti də səadət və tərəqqi istiqamətində olacaqdır».

1. Konsulu.





Konsul ümid etdi ki, möhtərəm müsafir İstanbulda aləmi-mətbuatda, mədarisdə, ülumda və sənətdə izhar edəcəyi qeyrətlərlə» islam aləminin» tərəqqi və təalisinə ali xidmətlər göstərəcəkdir.

Konsul oturandan sonra məclisin baş tərəfində əyləşən ağbəniz, dəvərəgöz, tikan kimi iti və uzun bığlı bir ətliboyun, qırmızısifət kişi ayağa qalxıb sərçə tək o yan-bu yana cəld dönən başı ilə «həzərata» müraciət etdi:

- Ağalar, həzərati-kiramin! Bu gün biz Qafqaz münəvvərləri üçün pək məsud, həm də müəyyən dərəcədə məyus bir gündür. Məmnuniz, çünki Hüseynzadə cənabları bizim dəvətimizə həssas bir münasibətlə məclisimizdə isbati-vücud ediyorlar!

Oturanlar əl çalıb şüşqulağın yanında əyləşən ortayaşlı, qısaboy və xırda gözlü, sakit baxışlı, şax yaxalıqlı adama tərəf döndülər.

Hüseynzadə yerindən qalxıb baş əydi, şüşqulaq qışqırdı:

- Əziz sərmühərririmizi, ədibimizi səmimi-qəlbdən təbrik ediyoruz, əfəndilər! Əvət! Qafqaz kəndilərindən kəndiləri isə Qafqazdan razı qalaraq İstanbula gediyorlar!

Hamı əl çaldı. Şüşqulaq sükut istəyib davam etdi:

- Məyusluğumuza yeganə bir səbəb isə bizim əziz və pək möhtərəm rəfiqəmiz, məsləkdaşımız, türk millətinin parlaq istiqbalı uğrunda mütəmadiyən qeyrətlər göstərən həmin zatın - Hüseynzadə əfəndimizin bu gün bizləri tərk etməsidir, İstanbula...

Şüşqulaq cümləsini yarımçıq qoydu:

- Əfəndilər, rica ediyorum, kəndimi doğru anlayasınız. Mən hiç bir dərəcədə bəy əfəndilərinin İstanbula səfərinə kədərlə baqmıyorum. Əsla! Və zənn ediyorum ki, heç bir kəs kedərlənməz.

1. Səyləri.

Çünki bir türk, bir islam münəvvəri üçün şimdi, qibləgahi-təkamülümüz olan Babi-aliyə varmaq nə böyük sevinc və nə böyük səadətdir! Məyus olmağımıza bir səbəb varsa, o da bizim, biz Qafqaz münəvvərlərinin pək əziz dostumuzdan qaliba firqətə düşməsidir. Təbiidir ki, bu firqət cismani olsa da, ruhani olmaz. Xayır, olmaz! Zira bizlər həpimiz mənən, ruhən həmişə onunlayız! Hüseynzadə cənabları pək ziqiymət asari ilə türklük və islamlıq namini fəzalara yucaltmışdır. Kəndisinin məşhur filosofanə əsərini, «Siyasət və Fürusəti» şimdi fars və ərəb lisanına tərcümə ediyorlar. «Məcnun və Leylayi islam» əsərində Hüseynzadə cənabları tarixi fütuhatını qayb etməkdə olan zavallı vətənimizin mübtəla bulunduğu mənəvi mərəzləri kamalınca göstəriyor və onları loqmani bir təbib kimi müalicəyə qalxışıyor. Türk gəncliyi möhtərəm filosofumuzun pək ziqiymət asari üzərində yetişmək, tərbiyə tapmaq istiyor. Təəssüf ki, bu gün sürət qatarı müşarileyhi Qafqaz dostlarından ayırmaq məcburiyyətində qalacaqdır! Biz dost və arqadaşımızla cismən ayrılsaq da, təkrar ediyorum, fikrən, ruhən, qəlbən ayrılmıyoruz və əbədiyyətə qadar ayrılmayız!

Biz onunla, o bizimlədir!

Şair gözəl demişdir:

Nerə varsan, səninlə bən də varım!
Sənin eşqinlə bunca dərbədərim!

Məəmafih kəndim Hüseynzadə əfəndimizin qarşıkı müsafirətlərinə pək böyük ümidlər, qayələr bəsləyor, cənab haqdan müşarileyh üçün, həm də aləmi-islam üçün, türklük üçün pək böyük nailiyyətlər təmənna ediyorum, əfəndim!

Rica ediyorum. Bu mümtaz və möhtərəm zatın şərəflərinə eşq olsun!

Kürsülər tərpəndi, hamı ayağa qalxıb çəpik çaldı. Şüşqulaq isə



Hüseynzadəyə yanaşıb, onu qucaqladı, öpdü.

Hüseynzadə təzim etdi, dəsmalını çıxarıb üz-gözünü sildi.

Yenə başqa birisi, nazik xətt qoymuş, başını dibdən qırxdırmış ləbbadəli bir şair müsafirin elmindən, müsəlmanlıq yolunda fəaliyyətindən nitq dedi. Sonra minbərdən deyilən qəsidələr, rəcəzlər ahəngi ilə əzbərdən şeirini oxudu:

Amali istiqbal

Həmvarə bahar ol bizə ey gülşəni-amal!
Aləm sənin ilə oliyor naili-iqbal!
Sənsən qılan insanları azadeyi-zillət,
Minlər yaşa, ey mənbəyi-ənvari hidayət!

Təlim ediyorsan bizə mənayi-həyati,
Zülmətgədəyə nurla saçırsan Ləməati
Ümmidinə ümmid ilə ümmid edəriz biz,
İsminlə dili-qəmzədədə eyd edəriz biz!...

- Mərhəba, mərhəba!

- Pək bərgüzidə kəlam!

Şairi alqışladılar. Kimsə xahiş etdi:

- Tərcümə olunsun!

Ancaq bilinmədi hansı dilə, ya hansı dildən tərcümə olunsun. Çoxları bir-birinin üzünə baxdı. Mühərrirlərdən biri də xahiş etdi ki:

- Mümkünsə, veriniz cəridəmizin yarınkı sayısında basdırayım!

Şairdən qabaq şüşqulaq cavab verdi:

- Cənab mühərrir, əfv edərsiniz, həmin əşar «Füyuzat»da basılmışdır, lütfən oxumanızı rica edərim.

Mühərrir üzr istəyib, şairdən daha belə-belə yeni şeirlər verməsini xahiş etdi.



Məclis qoruqluqdan təzə çıxmış, xamalı otlağa buraxılmış sürü kimi süfrəyə daraşdı. Kimsə kimsəyə baxmır, hamı dolu boşqabları qabağına çəkib zəfəranlı plovdan ovuc dolusu yeyir, məclisin baş tərəfində oturan natiqləri dinləyirdi.

Şüşqulaq yerindən qalxıb aşağı tərəfə gəldi. Tahirzadənin qulağına nəsə dedi. Tahirzadə də ona nəsə dedi. Şüşqulaq təəccüb edirmiş kimi qollarını yana ayırdı, qaşlarını çatdı. Tahirzadənin üzünə baxmaqda davam etdi. Tahirzadə ondan üz çevirib qrafindən stəkana su tökdü. Şüşqulaq öz yerinə gəlməli oldu.

Çox çəkmədi, sözü Hüseynzadə cənablarına verdilər. Hamı süfrədən çəkildi, kürsünün arxasına söykəndi. Məclisi dərin bir sükut bürüdü. Hamının diqqəti baş stula, onun qabağında sakit dayanan xırdagözlü, durğun və məchul sifətli ortaboy, qaraxətli adama dikildi. O, əlindəki çəngəli bir az kənardakı boşqabın yanına qoydu, məclisi diqqətlə süzdü və başladı:

- Qazı həzrətlərinin kəndim haqqında söylədiklərinə pək minnətdar və mütəşəkkirəm.

Əhməd Kamal cənabları, şairi-möhtərəm Mirzə Həsib cənabları burada mühüm bir nöqtəyə, qəlbimin cərihədar bir guşəsinə zərbeyi-ənən toqundurdular.

Ümmid!...

Natiq bu sözü deyəndən sonra, sanki əks-sədasını eşitmək üçün xeyli müddət susdu, bir nöqtədən gözünü çəkmədi. Səsini bir qədər ucaltdı.

- Əvət, ümmid!

Bəni növi bəşərin nicatı iştə şudur!

Hüseynzadə başını yuxarı qaldırıb səqfə baxdı. Sanki diqqətləri cəlb etmək, deyəcəyi mətləbi göylərdə göstərmək istəyirdi. Səsini daha bir qədər ucaldıb dedi:

- Ümmid insan üçün pək böyük və pək müqəddəs olan bir is-

tinadgahi mətindir! Ənbiyalər, övliyalər, üləma bu nöqtəyə nəzər yetirmiş! İnsaniyyət bir şeiri ülvi-pərvaz ədd olunsa, ümmid onun fəzayi ülviyyətidir.

Cəmiyyəti-bəşəriyyə bir seyli-xüruşan zənn edilsə, əməl, ümmid onun məcrasıdır.

Əhli-aləm bir kürrəyi zatil-əcza fərz olunsa, ümid onun hərəkəti mütəmadiyi-dövriyyəsidir!

Fəzayi-layətənahiyi-aləmdə əcrami səmaviyyədən hər hankı bulunur bulunsun...

Adamlar bir-birinə işarə edib natiqin elmdə nə qədər dərin və zəngin olduğuna heyrətlənir, qismən Tahirzadəyə baxır, yenə stola dirsəklənib diqqətlə qulaq asırdılar. Çoxları Tahirzadəyə hiss etdirmək istəyirdi: «Şair belə olar, yoxsa ki!..»

Hüseynzadə məclisi xamuş görüb vəcdə gəlirdi:

- Kəndim bu haqda «Məcnun və Leylayi-islam» əsərimdə kifayət qədər bəhs etmişəm. Mərəzə mübtəla bulunmuş əsri-haziri-islam həkimi-haziq arayor. O diyor: Bənislami-dini deyiləm, islami-siyasi, daha doğrusu, islami-coğrafiyəm! Bəni xilas ediniz! Bunun üçün bizlərə ittihad əlzəmdir! Ümmidi-isitaqbal vacib və əhəmmdir! «Tənin» cəridəsində bərabərim Abdullah Cövdət bəy yazıyorlar ki, İstanbulda «Nəşri-lisani-türki» cəmiyyəti artıq təşkil olunaraq qeyri- millətlər arasında türk lisanını nəşr məqsədini daşıyor. Biz Qafqaz Üdəbası da dərsi ibrət almalıyız.

Şərifə xanımın gəlişi məclisdə hərəkətə səbəb oldu Hüseynzadə nitqini kəsərək ona yer göstərdi və təzim etdi.

Belə bir məclisdə «türk xanımlarının» «isbati-vücud etməsi» çoxları üçün xoş idisə, bir çoxları üçün də təəccüblü idi: «Zikur məclisində qadın?..»

Oxumuşların bir qismi qadınların açıq-saçıq, kişilərə qarışmasını, ictimai aləmə gəlməsini şəriətə, Qurana zidd və dinə bidət sayırdı.



Bunlar o adamlar idilər ki, qadının ancaq pərdə dalında saxlanmasını, «ismətinin, zərifliyinin qorunmasını» tələb edir, bununla guya «fransız pozğunluğunun önünü almaq» istəyirdilər. Bir qismi isə hər nə qədər olsa, qadınların iştirak etdiyi ictimai yerlərdə xüsusi bir şəraitin hazırlanmasını, heç olmasa, belə yerə xaricilərin buraxılmasını iddia edirdilər.

Ancaq hamı öz müddəasını Qurana isnad edir, ayrı nəticələr çıxarırdı. Kimi deyirdi, müsəlman qadını örtünməlidir. Kimi deyirdi, açıq gəzməlidir. Bəzisi deyirdi, ancaq namaz üstə örtünməlidir, müsəlman içində isə açıq gəzə bilər.

«Molla Nəsrəddin» bu suallara belə cavab verirdi: «Orda elə, burda belə!... İştə öylə, iştə böylə, iştə şöylə vəssalam...»

Ancaq bugünkü həyəcan və hərəkətin səbəbi başqa idi. Şərifə xanım özü ilə bərabər bir məktəbli, on-on iki yaşlı bir qız uşağı gətirmişdi.

Məclisdəkilərin çoxu, o cümlədən müsafir cənabları bu qızı tanımasa da, bəziləri tanıyırdı. Tanıyırdı və həmin qızın buraya gəlməsinə təəccüb edirdi.

Bu qızı oxucular da tanıyır.

Əntiqə Hacı Rəsulun əlindən çıxandan, anasının yanına gedəndən sonra Tahirzadə onun məktəbə düzəlməsinə çox səy etmişdi. Bir müddət öz məktəbinə çağırmış, onun səs istedadını nəzərə alıb Üzeyir bəyə, onun vasitəsilə Şərifə xanıma xahişə getmişdi. Çox isrardan sonra Əntiqəni qız məktəbinə, pansiona qoydurmuşdu. O zaman Əntiqənin üstü-başı çox tökülmüşdü. Məktəbdə onun vəziyyətini görüb bəzi qızlar ikrah etdilər. Hətta ilk gecələr ona otaqlarda yox, xadimənin yanında yer verdilər.

Ancaq Şərifə xanım Əntiqənin macərasını biləndən, səsindəki məlahəti görəndən sonra ona analıq qayğısı göstərdi. Münasib bir məqam axtarıb onun haqqında Tağıyev cənablarına da danışmaq istədi.





Bəs Əntiqə Hacı Rəsulun təşkil etdiyi məclisə nə əcəb gəlib? Onun nə Hacıdan, nə məclisdən xəbəri var. Onu buraya gətirən Şərifə xanımdır.

Müəllimə bir tərəfdən tərbiyəsilə məşğul olduğu yetim uşağın əla mərifətini, ümid verdiyini göstərmək, ikinci tərəfdən isə, hörmətli müsafirin məclisini belə bir gənc istedadın saf, bakir təranələrilə şənləndirmək istəyirdi.

Hacı Rəsul hazır idi ki, Şərifə xanımı kənara çağırıb şagirdini «buradan rədd eləsin». Ancaq buna fürsət olmadı. Müəllimə xanımı məclisdə hörmətlə qarşıladılar, qızı da müəlliməsinin yanında, lap Hüseynzadə cənablarının gözü qarşısında əyləşdirdilər.

Atalar yaxşı deyib ki, sən saydığını say, gör fələk nə sayır!

Hacı Rəsulun heç yuxusuna da girməzdi ki, şövq və zövq ilə hazırlaşdığı bu şərəfli məclisə övqattəlxlik gələcəkdir.

Ziyafət başlanan gün sübh tezdən Cahangir ona söz vermişdi ki, «donunuzu geyməyə buyurun!»

Hacı vədələşdiyi kimi «buyurdu» da. Amma nə fayda, buyurmasa ondan yaxşı idi! Hacı gördü ki, dərzi onun paltarını, şəhərdə çoxlarının çoxdan geymiş olduğu göy məndulədən tikib. Bir bu olsaydı, dərd yarı idi.Fason da elə götürüb ki, «nə arxalıq kimi arxalıqdır, nə də sertux kimi sertux!»

- Usta, bəs danışdığımız fason harda qaldı?
- Hacı ağa, bu fason şəhərdə lap birincidir.
- Necə birinci, əllisinin əynində görmüşəm!
- Sizinkinin yaxası kənar, düyməsi qaytan, cib ağızları tikməli, qolları büzməli... Bir diqqət yetirin!..
- Usta, bunları mənə demə, kəndli-kündlü tapmamısan ki?
- Hacı mən siz deyənə qulaq asmışam!
- Mən nə demişdim?
- Tayı-bərabəri olmasın!

- Təzə biçim olsun!

Hacı arxalığı ovcunda xışmalayıb əski kimi göyə qalxızmışdı:

- Mən belə demişdim?

- Bəs necə?

- Yalançının atası itlə yatsın!

Dərzi qayçını stol üstündən götürmüş, yenə qoymuşdu, hirsini birtəhər boğmaq istəmişdi:

- Mərifətlə danışın, atanın burada nə günahı? Sözün var, söz danış!

- Mən buna qəpik də verməərəm!

- Xoş getdin!

Hacı paltarı dərzinin üstünə atıb qayıdandan, xüsusən ziyafətə gələnlərin əynində həmin parçadan gözəl geyimləri görəndən sonra cin başına vurmuşdu. Salam verəni də söyüb biabır eləmək istəyirdi.

Əntiqənin bu məclisə gəlişi isə Hacı Rəsulu lap təbdən çıxartmışdı. «Bu hara, əyan məclisi hara! Bura uşqoldu, yetimxanadı?»

Əntiqənin buraya gəlişini Tahirzadə də gözləməzdi.

Uzun qəhvəyi don geymiş, ağ haşiyəli abı kəlağayı örtmüş, nurani sifətli müəllimənin yanında qızcığazı görəndə Tahirzadə çox sevinmişdi.

Şərifə xanım şagirdinə qəraət ilə Quran oxudandan sonra Tahirzadənin təklifi ilə Əntiqə Seyid Əzimin musiqi haqqındakı məşhur qəzəlini çargah üstündə oxumuşdu:

Guş qıl ey ki, bilirsən özünü vaqifi-kar!
Agah ol, gör ki, nədir naleyi-ney, nəğməyi tar
Ki, sədasından onun qarət olur səbri-qərar.
Açmasan pərdəni hər pərdədə var yüz əsrar...



Əhməd Kamal isə Tahirzadənin qonaqlar içində olduğunu görüb əvvəl təəccüb etmişdi. Hacı Rəsuldan soruşanda, o da çiyinlərini çəkmişdi: «Onu kim çağırıb?»

Tahirzadə məclisin gözə dəyməz bir yerində dayanıb müəllimlər ilə söhbət edirdi. Ziyafət başlananda isə diqqətlə qulaq asırdı. Onun birdən-birə ayağa qalxıb: «Ağalar, xanımlar!» deyə xitab etdiyin görəndə çoxları təəccüb etmişdi.

Doğrudur, Hacı Rəsul bu təsadüfdən çox məyus idi. Ancaq qazının bu işə razı olduğunu düşünüb sakitləşmişdi: «Əlbət, belə məsləhətdi, qazı ağanın ayağı biləni bizim başımız bilməz. Əlbət bir hikmət var ki, babilər də müsəlman məclisində otura gərək!»

Tahirzadə dillənən kimi sükut bərpa olundu, stol arxasında dik dayanan, bir əlini döşünə qoyan, o biri əlilə müsafiri göstərən, təmkinli və mülayim bir səslə danışan qartal baxışlı nurani kişini istəyən də, istəməyən də dinləyirdi:

- Ağalar, xanımlar! Bu gün burada Hüseynzadə cənablarının nitqini, hörmətli mühəririmizin nitqini mən də huşiguşla eşitdim. Eşitdim, doğrusunu deyim, məyus oldum. Çox məyus oldum. Çünki mən bilmədim ki, indi haradayam. Bakıda, azərbaycanlılar arasındayam, yoxsa osmanlılar içində. Anadoluda, İstanbuldayam. Əli bəy cənabları Qafqazda xeyli çalışmışdır. Onun xidmətləri «Füyuzat»da, «Kaspi»də və nəhayət, «Səadət» mədrəsəsində olmuşdur. Təəssüf ki, bu xidmətlər də bizləri, maarifdən kasıb olan qafqazlıları hərəkətə gətirə, irəli apara bilmədi. Çünki Əli bəy cənablarını çoxlarımız başa düşmədik, indi də başa düşmürük. Osmanlı dili və ədəbiyyatının beş yüz illik təcrübəyə malik olduğunu dəfələrlə eşitmişik. Bəs biz tarix yollarını addımlayaraq iyirminci əsrə ayaqyalın, əliboş gəlmişik, yoxsa bizim də mədəniyyət dünyasında az-çox haqqımız var? Bizim iztirablar çəkmiş xalqımızın mübarizə qüdrəti, dil və ədəbiyyatımızın təcrübəsi məgər azdırmı? Mən

deyirəm, çoxdur? Güman edirəm ki, bunu heç kəs inkar etməz. Bəs nə üçün öz ana dilimizdə, azərbaycanlıların şirin, sadə, aydın dilində danışmırıq? Mirzə Cəlil buna doğru cavab verir:

«Qorxuruq sadə danışsaq, sadə yazsaq, bizə avam deyərlər».

Əli bəy cənablarının anlaşılmaz olmasına bir səbəb budur. Mən diqqətlə eşidirdim.

Əli bəy cənabları «Nəşri-lisani-türki» cəmiyyəti haqqında dedilər. Özgə millətlər arasında türk dili yaymaq fikrində olan bu cəmiyyət, hələ öz adını türkcə yazsın, sonra başqalarına dil öyrətsin. Yoxsa adama gülərlər, necə ki, mədəni ölkələrdə gülürlər.

Əhməd Kamal bəy, mənim həmkarım, fəxrlə söylədi ki, «Siyasət və Fürusət» əsəri ərəb və fars dilinə tərcümə olunur. Əlbət ki, buna gərək sevinək. Çünki ərəb və fars qardaşlarımız da Azərbaycan ədibinin kitabını oxuyub xəbərdar olarlar. Amma məni düşündürən ayrı şeydir. Mən həsrət çəkirəm və deyirəm nə olaydı, farslar, ərəblərdə olan kimi, bizim aramızda da bir nəfər olaydı, Hüseynzadə cənablarının həmin əsərini Azərbaycan dilinə tərcümə edə idi. Azərbaycan oxucuları, müsənnifin həmvətənləri, dindaş və dildaşları da oxuyub görə idilər ki, onun əsərində nə var! Biləydilər ki, Əli bəy nə deyir və nə demək istəyir! Bəli, bizə bu lazımdır!

Hacı Rəsulun səsi eşidildi:

—Ağalar, bu lap küstaxlıqdır!

Əhməd Kamal ona səs verdi:

- Tahirzadə siz nələr söyləyirsiniz? Qazı ağa, bu iddialar şərəfli məclisimizə müğayirdir!

Başqa səslər də bunu təsdiq etdi:

- Onu buraya göndərən var!

- Elmdən bixəbər adamlar elmdən danışırlar!

- Sabun satanın ürəfa məclisində nə alış-verişi?

Qazı sükut istədi və bir növ, yoxlama verdi:



- Xeyr, onu himayə edən cənab Qənizadədir. Müəllimliyinə zəmanət vermiş, özünü də mümkün məqamların hamısına tövsiyə edir. Təəssüf ki, şəxsən burada iştirak etmir.

Tahirzadəni gülmək tutdu

- Qazı ağa, məni şəriət xadimi kimi təsdiq edib şəhadət verən sizsiniz! Nə tez unutdunuz, yoxsa sözlərim xoşa gəlmir? Məgər mən dini ehkama muğayir bir söz deyirəm?

Tahirzadə üzünü bütün məclisə tutub soruşdu, dərhal özü cavab verib, izah etdi:

- Mən həm şəriət, həm millət, həm həqiqət naminə demək istəyirəm ki, gözünü İstanbula dikənlər bizim gələcəyimizi və mədəniyyətimizi istəməyənlərdir! Azərbaycan fəhləsinin, kəndlisinin İstanbulda nə işi var, onun cənnət kimi vətəni, qədim mədəniyyəti, tükənməz də sərvəti var. Bizim yolumuz keçmişə yox, gələcəyə, əsarətə yox, hürriyyətə doğrudur. Bu həmin yoldur ki, sosial-demokrat məsləkinin binasını qoyan Marks altmış il bundan qabaq göstərib, Avropa fəhlələri də qəbul ediblər. Bu yol Lenin deyən yoldan, rus fəhləsinin azadlıq yolundan ayrı deyil! İndi nə zamandır, canım? Rus fəhləsinin hürriyyət yolunu, Mirzə Cəlil İran, Əfqan, Misir fəhləsinə, cəmi Şərq aləminə tövsiyə edib deyir: «Cümlə cahan füqərayi-kasibəsi birləşin!»

Bu zamanda bizim Osmanlı paşalarına göz dikməyimiz nə qədər əqilli hərəkətdir? Kimə lazımdır?!

Təvəqqe edirəm, münəvvərlərimiz məni diqqət ilə eşitsinlər. Xəta zənn etsələr də, eşitsinlər. Sədi rəhmətlik ədəbi biədəblərdən öyrəndiyini dəfəatla demişdir. Qoy, Tahirzadə avam olsa da, həmvətənlərinə, qələm sahiblərinə ürək sözünü desin.

Mən görürəm ki, bu məsul bir vaxtda Əli bəy cənabları gedir. Gedənin qabağını saxlamaq olmaz! Gedənə yaxşı yol! Amma mənim aləmimdə xalqına, torpağına xidmət etmək istəyənin yeri

kənarda yox, məhz xalqın öz içindədir! Əli bəy cənablarının tənələrini çox eşitmişik. Elmdən bixəbər adamlar elmdən danışırlar!

Bəli. biz alim deyilik, az bilirik. Amma hər həqiqəti dürüst bilirik. Çox bilib xalqa az xidmət etməkdənsə, az bilib çox xidmət etmək min dəfə məsləhətdir. Əli bəy qoy İstanbula getsin. Mən də oxumuşlarımıza məsləhət görürəm ki, şəhərdə, kənddə hərəsi beş nəfər savadsızı öyrədib gözünü açsınlar, xalq maariflənsə, tərəqqi, hürriyyət yolunu mənsiz-sənsiz də tapar və bu yolda daha cürətlə gedər. Yoxsa İstanbul, ya Məkkə sevdası çoxdan köhnəlib getmiş və ziyanlı bir sövdadır! Alim adamın bu orta əsr xəyalatına uyması çox təəssüflüdür! Mən bunları uca səslə deyirəm! Çünki düşüncəm belədir, etiqadım da bunadır!

Həmin gün Bakı vağzalından ikinci bir müsafir yola salınırdı. Ancaq bu şənlik, təntənə ilə yox, polis mühafizələrinin qorxu və təlaşı ilə, onu qarşılamağa gələnlərin təqib və hədəsilə yola salınırdı. Bu yeni müsafir Tiflis qatarı ilə gələn, Həştərxan vilayətinə sürgün edilən həkim, müəllim və mühərrir Nəriman Nərimanov idi.

Qafqaz polis idarəsi gizli məktubla bütün böyük stansiyalara, dəmiryol polis məmurluqlarına gizli bir xəbərdarlıq göndərmiş, «bu təhlükəli məhbusun» ətrafında danışıq və hərəkat imkanını əvvəlcədən düşünüb qət etməyi tapşırmışdı. Bakı polis məmuru Hüseynzadənin müşayiətini müşahidə altına almaqla bəzi mötəbər adamları təcrid etmək, Nəriman üçün, ehtimal ki, tərtib olunacaq qarşılama mərasimini pozmaq əmrini almışdı. Bunun üçün isə həmin gün güman edilən adamlara nəzarət yetirmək istəyirdi.

Məhbusun sürgün yerinə göndərilməsi üçün ən münasib yol, əlbət ki, dəniz yolu idi. Onu Bakı stansiyasında düşürmək, yük gəmilərindən birinə mindirmək lazım idi. Polis idarəsi rəisliyi bu marşrutu rədd etmiş, məhbusun Bakıda vaqondan düşürülməsini «ən axmaq bir tədbir» kimi qadağan etmişdi.



Bakı, fəhlələrin hökumətə qarşı qəzəbləndiyi, inqilab xadimlərinin ən çox gizləndiyi bir yerdir. Bakı indi öz təbəəlik vəzifəsinə etina etmək istəməyən, uzaq bir şəhərdə - Təbrizdə gedən vuruşmalara kömək əli uzadan qiyamçı bir yerdir. Ən nəhayət, Bakı məhbusun vətəni, Azərbaycanın mərkəzidir. Orada Nərimanı polisin əlində saxlamaq üçün böyük qoşun da iş görməz. Elə etməli ki, gecə vaxtı, el yatmışkən məhbusun oradan keçdiyini heç bilən olmasın. Şayəd bilən olsa da, onu qarşılamağa çıxanları uzaqlaşdırmaq, görüş imkanını çox məhdud etmək lazımdır. İçəri şəhərlərdə, Şimali Qafqazda isə onu Həştərxan tərəfə göndərmək daha münasib və ağıllı hərəkət olar. Polisin Tahirzadəni ziyafətdən çağırdığını Məşədi Hüseynə xəbər verəndə, usta sanki bu xəbəri çoxdan bilirmiş kimi, təsəlli verib dedi:

- Tək o deyil. Bu gün çoxlarını izləyirlər ki, artıq-əskik danışmasınlar.
- Nə olub ki?
- Bir şey olmayıb, ağaların canına üşütmə düşüb.
- Yoxsa yenə tətil-zad var?
- Tətildən də qorxulu işlər var!
- İndi kimdən qorxurlar?

Ustası Bəndalının maraqlandığını görüb qapını örtdü, taxçadan, boşqab altından bir şəkil çıxardı.

Yaxşı geyimli, geniş sifətli, sakit baxışlı bir müəllim şəkildən Bəndalının üzünə baxırdı.

- Bu kimdir, tanıyırsanmı?

Bəndalı diqqətlə baxdı:

- Yox, görməmişəm, Hüseynzadəni yola salanlardandır?
- Yox, bunun özünü yola salırlar.
- Bu da İstanbula gedir?
- Bunun yolu ayrıdır. Bu, Hüseynzadə yolu ilə yox, öz yolu ilə

gedir. Bir nağıl var, erməni qızı ilə müsəlman oğlunun nağılı, eşitmisən?

- Bahadır ilə Sonanın nağılı!

- Bahadır və Sona!

- Eşitmişəm, şirin nağıldı. Anam onu Tahirzadədən eşitmişdi. Oğlan özünü öldürür. Eləmi? Kitabı da var deyirlər.

- Kitabı var. Həmin kitabı bilirsən kim yazıb?

- Bilmirəm, erməni yazıb, deyəsən.

- Həmin bu müsafir, bu gün sürgünə gedən məhbus yazıb.

- O kim ola?

- Nəriman Nərimanov!

Bəndalının maraqdan gözləri böyüdü.

- Nəriman doktor deyilmi?

- Doktordur, həm də müəllimdir, yazıçıdır. Doktor bir adamı, bu isə öz xalqını müalicə etmək istəyir.

- Onun yanına Şamaxıdan naxoş aparmışdılar. Danışırdılar ki, loğman kimi dava-dərman verdi, özü də qəpik pul almadı. Naxoşlara pulsuz baxır, həmin Nərimandır?

- Özüdür, o, adamları həm cismən, həm də ruhən müalicə etmək istəyir. İnqilabın rəhbəri Şərqdə fəhlə işlərini ona tapşırıb. Fəhlələr içində onu tanımayan yoxdur.

- Nə üstündə sürgünə gedir?

- Elə bunun üstündə. Nikolay ondan qorxur. Deyir, camaat ki, sənə qulaq asır, xəta çıxararsan. Sibirə get! Beş-altı il orada qal, sonra baxarıq!

- Bəs camaat nə deyir?

- Fəhlələrin də, həlbət, deməyə sözü var. İnşallah, eşidərik. Bu axşam harda olacaqsan? Un taylarının içindəmi?

- Harda lazımsa olum da!

Məşədi Hüseyn bir qədər sükutdan sonra dedi:



- Başarsan, sərnişin zalına, bilet kassasına tərəf gələrsən!

- Gəlləm!

- Bilirsən haçan?

- Haçan gəlim?

- Ap-axşam!

- Baş üstə.

- Axşam, azandan bir saat keçmiş! Lap qaranlıq düşəndə!

Bəndalı istədi ustasından təfsilatı ilə soruşsun, Məşədi Hüseyn macal vermədi:

- Di get, qapını açıram, gəlib-gedən olar!

Bəndalı həmin saatı min bir intizarla gözləyirdi.

Bilmirdi nə məsələ var. Ancaq bilirdi nəsə qeyri-adi bir şey var. Hər işdə ağır, təmkinli, hər sözdə ehtiyatkarlıq sevən ustasının onu belə qorxulu yerlərə çağırmaqda mütləq bir fikri olmamış deyil! Görəsən, nə var?

Toz kimi narın yağış çisələyirdi. Hər tərəf yaş, boz duman içində idi.

Vağzal qapılarından girib-çıxan isə azalmırdı. Tiflis qatarının gəlməyinə bir saatdan çox qalırdı.

Məşədi Hüseyn Bəndalı ilə işarələşib vağzal səkilərinə çıxanda polis nəfərlərinin qapılarda var-gəl elədiyini gördü. Doğrudur, polis nəfərlərinin ona gümanı az gedərdi. Amma Məşədi Hüseynin polislərdən şübhəsi çox idi və əsaslı idi.

Məşədi Hüseyn tiflisli bir dostundan kağız almışdı, həmin bu qatar ilə Nərimanın göndərildiyini öyrənmişdi.

Məktubda qatarın vaxtı və məhbus vaqonunun yeri də qeyd olunmuşdu.

Polis idarəsi fəhlələrdən daha çox ziyalılardan şübhələnirdi. Məlumdur ki, Nəriman mötəbər bir həkim, bir ədibdir. Bakıda da işləmişdir, müsəlmanlar arasında böyük hörmət sahibidir. O da məlum idi ki, Nərimanın istəyir həbsi və ya sürgünündə Hacı

Zeynalabdinin - «Bakı padşahı»nın işarəsi az iş görməmişdi. İndi «Bakı padşahı»nın üstü açılan işləri camaat arasında, pıçıltı ilə də olsa, danışılırdı. Hətta qəzet, məcmuələrə də düşürdü.

«Bakı padşahı» mühəndis Behbudovun acığına bütün qarabağlılara divan tutdurur. Peterburq padşahından dərs alaraq maarifə verdiyi məsarifi kəsir, xeyriyyə cəmiyyətini dağıdır, qəzeti bağlayır, polisin zəmanəti olmadan oxumuşlara inanmır, işə götürmür. Danışılırdı ki, «Bakı padşahı» Osmanlı soltanı Əbdülhəmidə hədiyyə göndərib və əvəzində xəlvəti tapşırıqlar alıb. Tapşırıq alıb ki, sultana, şaha sataşan adamların, fəhlələrə qoşulanların, «dərsinə baxsın», ya «baxdırsın». «Bakı padşahı»nın evində, pərdə dalında baş verən bəzi-bəzi işlər haqqındakı xəbərlər, Behbudovun məhkəmələrə verdiyi ərizələr el arasında saqqız kimi çeynənirdi.

Bakıda fəhlə, ziyalı yoxdu ki, Nərimanı tanımasın, sevməsin. Xəbər tutsalar, ayrı şeyə baxmayacaqlar. Nərimanı qarşılayacaqları yəqindir.

Ona görə də axşamdan bəri polis nəfərləri vağzal qapılarında göl ördəyi kimi çıxıb-batır, hər ötüb gedənə «durbin qoyub», xüsusi göz yetirirdilər. Ancaq məsələ heç də gözlənən kimi olmadı. Oxumuşlardan görünən az idi.

Uzun və qaranlıq yolların yorğunluğundan gözü qızarmış gecə qatarı stansiyaya yaxınlaşanda yerdən çıxmış, ya göydən tökülmüş kimi adamlar da dəstə ilə dəmiryol xəttinə yönəldilər.

Güman etmək olardı ki, hər kəs öz adamını qarşılamaq üçün qatar ayağına gəlib. Amma qatar dayanıb nəfəs alanda, öskürüb-asqıranda məlum oldu ki, başqa vaqonların qabağında tək-tük adam var. Lap axırda, qatarın qurtaracağında qaranlıq və kiçik bir vaqonun qabağında isə xeyli camaat komalaşdı.

Polisin gizli saydığı məsələ, sən demə, çoxlarına məlum imiş. Adamlar bir-birinə macal vermədən son vaqonun dəmir barmaqlıqlı



pəncərəsinə baxa-baxa irəli yeridilər.

- Əziz müsafir xoş gəlib!
- İnqilab mücahidinə uğurlar olsun!
- Qoca Şərqin Nərimanı var olsun!

Polis nəfərləri irəli keçib adamları kənar etmək istədilər:

- Ay camaat, komalaşmayın!
- Dağılın, platformanı boşaldın!

Fəhlələrdən bir neçəsi vaqonun qapısında möhkəm dayanıb tələb etdilər:

- Məhbusla görüş istəyirik!
- Dayanın!
- Dayanmağa vaxt yoxdur, vaqon yola düşəcək. Məhbusu çağırın!

Vaqonun pəncərəsindən yorğun, həm də həyəcanlı bir səs eşidildi:

- Bakılı yoldaşlara salam!

Nəriman boylanıb gələnləri bir-bir seyr edirdi. Məşədi Hüseyn Nərimana əl vermək istəyəndə polis mane oldu:

- Geri çəkil! İcazə yoxdur!

Məşədi Hüseyn «Molla Nəsrəddin» jurnalını açıb göstərdi, varaq-varaq silkələdi:

- Gülməli məcmuə gətirmişəm, oxusun, darıxmasın! Burada siyasi nə var ki! Hökumətin icazəsilə çap olunmuş məzəli sözlərdi!

Nərimanın səsi eşidildi:

- Məşədi Hüseyn, siz mənim yanımdasınız. Həmişə yanımdasınız!

Məşədi Hüseyn ərzaq dolu bir bağlamanı polisə verdi. Onun dalınca fəhlələr isti paltar, dəri papaq, əlcək, papiros, meyvə dolu zənbil, şirniyyat gətirdilər.

Polis nəfəri aldığı şeyləri yoxlamağa macal tapmadan vaqonun qapısına atır, gətirənləri qeyd edirdi:

- Adın, familin, şeylər...

- Cənab məmur, yazmaqla qurtara bilməzsiniz, hamımızı birdən yazın!

- Yazın Bakı fəhlələri, Nərimanın, ürək dostları!

- Yoldaş Nəriman, azadlıq məhəbbəti sizi zindan möhnətlərinə düçar elədi!

- Bu yolun hamar olmadığını mən bilirəm. Azadlıq heç vaxt, heç yerdə verilməz. O, ancaq alınar! Düşmənimiz də, dostumuz da bilir ki, yüz dəfə basılsaq da, müvəqqətidir. Bir dəfə qalib gəlsək, əbədi olacaqdır.

Gələnlər hamısı hürriyyət mahnısı kimi səs-səsə verdilər:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!

Sanki bu mahnılar, qorxulu hadisələrdən xəbər verirdi.

Məhbus soruşdu:

- Hop-hop Bakıda deyilmi?

- Bakıdadır, ancaq bu gün dayısıgilə çağırılıb.

- Dayının da ömründən az qalıb, fikir eləməsin!

Dərhal fit çalındı, qatar tərpəndi. Məhbusun səsi eşidildi:

- Salamat qalın! Hop-hopu qoruyun! Zamanın və gələcəyin mahnılarını ondan eşidin!

Məşədi Hüseyn ucadan cavab verdi:

- Arxayın olun! Cismən ayrılsaq da, qəlbən hamımız sizinləyik!

Bəndalı Nərimanı görməmişdi. Çox can atdı, qabağa keçdi, boylandı. Güman edirdi ki, bu saat barmaqlıq arasından saqqal basmış bir kişi görünəcəkdir. Elə olmadı. Bəndalı pəncərədən yaraşıqlı, təmiz libaslı bir adamın başı ilə gələnləri salamladığını gördü. «Nəriman bu imiş!?» O, dustağa oxşamırdı. Kraxmallı köynəkdə, qalstukda, səliqə ilə düyməlınmiş jilet üstündən, sanki bu saat ütüdən çıxmış boz kostyumu var idi. Saçını yana daramışdı. Alnı tərəfdən başının tükü seyrəkləmişdi. Toplu bığları, çənəsinin ucunda saqqalı var idi. Sifətində gərginlik, gözlərində isə həyəcan, intizar duyulurdu. Bəndalı öz-özünə dedi: «Doktor ki, doktor!»



Nəriman pəncərə qabağında sanki bir an göründü və çəkildi. Bəndalıya elə gəldi ki, məhbus dostlarının bu həyəcanlı vidalaşmasından təsirlənərək ayaq üstə dura bilmədi, özünü taxtın üstünə atdı. Ancaq əslində belə deyildi. Nəriman dostlarının görüş və qayğısından, doğrudan da, təsirlənmişdi. Metex qalasından başlayan əsəb naxoşluğu, qıçlarının ağrısı ona əzab verirdi. Bəzən ayağa dura bilmirdi. İndi elə yerdə nə ağrı, nə xəstəlik, nə yorğunluq onun zehninə yol tapa bilmədi. O nə isə demək, dostlarına söyləmək istəyirdi. Nə edəsən ki, həyəcan onu boğur, fikirlərini toplaya bilmirdi. Mühafizlər isə mane olurdular. Yumruğunu göyə qaldırıb nəsə deyəndə, polis pəncərəni bağladı.

- Cəllad!

- Namərd!

- Qatil!

- Qansız.

Vaqondan, pəncərə arxasından isə, zəif də olsa, gələcək carçısının səsi eşidildi:

- Bakılı yoldaşlar, sağlıq olsun, ayrı şəraitdə, açıq havada, sərbəstlikdə görüşərik!

- Yaşasın fərda!

- Yaşasın hürriyyət fədailəri!

Qatar gedirdi, amansız, boğuq, yeknəsəq təkər səsləri keçmişin zülm və iztirablarından, fəhlələrin xeyir-dua səsi isə gələcəyin, inqilabın qurtuluş günlərindən xəbər verirdi!

İndi Nərimanın həyəcanla döyünən qəlbi sinəsinə sığmırdı.

Onlarla tanımadığı, lakin ürəkdən sevdiyi zəhmət adamlarını, müxtəlif millətdən, müxtəlif peşədən, müxtəlif yerlərdən olan fəhlə və ziyalıları pəncərə qabağına, onu qarşılamağa gələn, onun ağır günü və kədərinə şərik olan görəndə Qorkinin, Sabirin, Akopyanın, Çavçavadzenin hürriyyətə çağıran şeirləri, Qafqaz dağlarının coşqun yaz çayları kimi çağlayaraq Nərimanın qulağında minbir məna ilə, tükənməz bir qüdrətlə səsləndi:

- Yoldaşlar! Kürələri yenidən alışdırın, dəmirləri qızdırın, çəkicləri uca qaldırın. Zindanlara, zəncirlərə bərk vurun! Yoldaşlar!..

Həmin günlərdə, bu çağırış mahnılarının alovu eşqilə yaşayan məhbuslara heç bir zindan və sürgün, heç bir zəncir və cəza qorxulu deyildi.

Bu mahnılar adamları şimala, inqilab üfüqlərindən doğmaqda olan parlaq səhərə, günəşə çağırırdı.



## On birinci fəsil

## ÜZ-ÜZƏ

Гений прост и понятен как истина!..

Н.Г.ЧЕРНЫШЕВСКИЙ

Məşədi Hüseyn səfərə hazırlaşırdı. Çörəkçilərin Həmkarlar İttifaqı onu Qafqaz təşkilatının nümayəndəsi kimi Tiflisə göndərirdi. Tahirzadə fürsətdən istifadə edərək uşaqlara hazırladığı azuqəni verdi. Kürdəmirdə yeznəsinə məktub yazıb bildirdi ki, filan gün qatar qabağına çıxsın, əmanəti alıb uşaqlara yetirsin. Həmişə olduğu kimi, bu sifarişdən sonra da Tahirzadə özündən razı qaldı. Ailənin, körpə oğlunun atadan gələn sovqatı sevinclə qəbul etdiyini nəzərində canlandırırdı. Quş balasını pərvazlandırmaq üçün nə qədər qanad çalarsa, ata da övladının sevincinə o qədər fərəhlənirdi. Qənd, çay, şirniyyatdan başqa, uşağa çəkmə, Büllurnisaya və qızlara paltarlıq almışdı. Təsəvvür edirdi ki, hamı yığılacaq, müəllimin ilk Bakı sovqatı açılanda necə bir sevinc əmələ gələcəkdi. Dilcavabı da Məşədi Hüseyndən göndərdiyi qısa kağızda yazmışdı, yazmışdı ki, «naxoşluğum gedib, yerim rahatdır, mənzilim məktəbdədir. Nigaran qalmayın. Başım çox qarışıqdır. Uşaq çoxdur. Axşamlar da böyüklərə, fəhlələrə savad öyrədirik. Heç şəhərə. Carullanın yanına da gedə bilmirəm. Yəqin şikayətlidir. İnşallah, qış tətilində, uşaqları buraxanda beş-on günlüyə gələcəyəm. Məni soruşanlara salamımı yetirin!..» Belə fərəhli, məmnun bir əhvali-ruhiyyədə ikən Tahirzadə əziz dostu ilə görüşüb dilləşmək, deyib-gülmək arzusu duydu.

Əyləşib Mirzə Cəlilə son hadisələrdən xəbər verən xüsusi bir məktub yazdı:

Əziz bəradərim Cəlil!

Əvvəla cənabınızın sağ və sələmət olmağınızı haqq təaladan acizanə istida edirəm və saniyən güman edirəm ki, indi siz basəfa bir şəhərdə, şeir və musiqinin məskəni olan Şuşa qalasında istirahətdəsiniz. Lütf edib bizim əhvalımızı xəbər alsanız, şükür, sağ-sələmət və vücudunuza düaçü varıq. Bu günlərdə xeyli nadir və mollanın məzaqinə müvafiq məclisdə olduq.

"Kaspi" sərmühərriri Hüseynzadə həzrətlərinin İstanbulda, «Kəndisinin özü qibləgahi-təkamülünə» mühacirəti mövcibincə Səadət mədrəsəsi rəisləri bir ziyafət tərtib vermişdi. Müşayiət mərasimi kəmahüvə mövcud idi. Müarizlərimiz ləzzətli təamlarla bərabər «mollanın» acı kinayələrini və iti taziyanələrini də dadmalı oldular. Siz buyuran kimi: bəd deyildi. Hər kəs öz sifarişi ilə müsəlmanların nəcatını arzulayırdı. Müsafirə ərzühal verir, çox böyük ümidlər bəsləyib, nitq söyləyirdi. Bəndə də sizin icazənizlə müsafir həzrətlərinin fəzilətindən bir qədər ərz eləməyə müşərrəf oldum. Xörəyə xeyli istiot tökdüm. Arı yuvasına daş atıldı. Hacıların, axundların, «ürəfanın» təkfir sədası asimanə bülənd oldu. Heyif ki, təşrifiniz yox idi.

Şənidən gey bəvəd manəndi didən!...

İnşallah, bu ovqat didarınız mənə nəsib olacaq. Təfsilatı kamilən nəql edərəm. Münasibi-hal bir şey yazdım mülahizə buyurasınız.

Təbriz fələkzədələrinə toplanan ianəni Məşədi Hüseyn gətirəcəkdir. Əncam çəkəcəyinizə əminəm. Zəhmət qəbul edib mənim ərz sələmımı möhtərəm Həmidə xanıma və uşaqlara yetirmənizi xahiş edirəm.

Baqi müxlisiniz Ələkbər Tahirzadə Sabir.

Tahirzadə məktubu zərfə qoyub üstünü yazdı, uşaqlardan birini səsləyib poçt qutusuna salmaq üçün göndərmək istədi. Nə fikirləşdisə, dayandı, kimsəni çağırmadı. Zərfi qoltuq cibinə qoyub həyətə çıxdı, yaxasını açıb sərbəst nəfəs aldı.



Tahirzadənin heç fikrinə gəlməzdi ki, həmin bu dəqiqələrdə Tiflisdə Pavidovski küçəsində, 24 nömrəli binada, yəni «Molla Nəsrəddin» idarəsində zamanın iki məşhur qələm sahibi kəmali-ədəblə rubəru oturmuşdur.

Ona görə fikrinə gəlməzdi ki, Əli bəyin Bakıdan yığışmasının necə təcili olduğunu Tahirzadə görmüşdü. Tiflisdə və ya Batumda əylənəcəyini zənn etməzdi. Əylənsə də, Mirzə Cəlil ilə görüşəcəyini, ömrü boyu məslək mübarizəsi apardığı bir adamı görmək istəyəcəyini, hətta uzun illər boyu satıb saya salmadığı «Molla Nəsrəddin» idarəsinə gələcəyini kim düşünə bilərdi? İkinci tərəfdən də Tahirzadə Həmidə xanımın təkidilə Şuşaya gedəcəyini, bir müddət təsərrüfat ilə məşğul olmaq əzmində olduğunu eşitmiş, hətta jurnalda (neçə nömrədə) redaktor yerində Mirzə Məhəmmədəli Sidqinin imzasını da görmüşdü.

Əli bəyin Tiflisdə Qafqaz Şeyxülislamı idarəsinə gedəcəyini, İran general-konsulu ilə görüşəcəyini, Cümə məsciddə müsəlmanlara müəyyən bir xitabə oxuyacağını da güman etmək olardı. Hətta bəzi kübar və nücəba tərəfindən pişvaz və müşayiət olunacağını da gözləmək olardı. Əmma "Molla Nəsrəddin" idarəsinə gələcəyinə qəti güman yox idi. Ona görə yox idi ki, Qafqazda olduğu gündən "Molla Nəsrəddin"in xətt-hərəkətini pisləyir, onu əvam, mədəniyyətsiz vərəqə adlandırırdı. "Molla Nəsrəddin" isə həm əlifba, həm dil, həm çicab, həm məktəb, həm istiqlaliyyət məsələsində Əli bəyin qəzetlərinə - «Kaspi»yə, «Həyat»a və «Füyuzat»a kinayə, istehza edirdi.

Əli bəy Tiflisdə oturan müsəlman mühərrirlərini əcaib sayırdı. «Molla Nəsrəddin» də Bakıda oturan, hacıya bəli-bəli deyən mühərrirləri satqın sayırdı. Əli bəy Tiflis mühərrirlərini xaricilərə yaxın sayırdı, Molla Nəsrəddin Bakıda oturan bir para mühərrirləri

qəssablara, tacirlərə, bankirlərə yaxın sayırdı. Əli bəy öz işini «münəvvərlər», oxumuşlar ilə, Molla Nəsrəddin isə öz işini cırımcındırlı, kəndli-kündlü qardaşlar ilə aparırdı... Əli bəy türklük, islamlıq deyib bağırırdı. Molla Nəsrəddin xalq, vətən, zəhmət deyib camaatı oyadırdı.

Belə məslək müarizlərinin görüşməyinə ehtimal yox idi. Ancaq üçüncü, miyançı bir vasitə ola bilərdi. Bu vasitə də kimdən, haradan ola bilərdi?

Bəs indi, qışın günündə, uzaq səfər üstündə olan Əli bəy «Molla Nəsrəddin» idarəsində nə gəzirdi?

Bəlkə axırıncı dəfə gethaget vaxtında buraya gəlib son sözünü demək, ürəyini boşaltmaq istəyirdi? Bəlkə mollanın sər mühərririnə «ömürbəməruf»luq etmək, müsəlmanlıq borcundan çıxmaq istəyirdi?

Bəlkə halallaşırdı, bəlkə yox, fikirləşib görürsən ki, bunların heç biri deyildi.

Əli bəyin «Molla Nəsrəddin» idarəsinə getməyinin bir yox, bir neçə səbəbi var idi. Çünki bir səbəb belə bir təşəbbüs üçün kifayət olmazdı. Bu səbəblərdən birincisi bu idi ki, Əli bəy şəxsən Mirzə Cəlil ilə görüşmək istəyirdi. «Rubəru» danışmaq istəyirdi.

Görüşməyi də, əlbət ki, söyüşmək üçün yox, bəlkə bəzi şeyləri öyrənmək üçün idi. Bir jurnal ki, şöhrəti bütün Şərqə, müsəlman dünyasına yayılmışdır. Bir jurnal ki, onun səhifələrini qəzetjurnallar köçürürdü, axı orada öyrənməli şeylər çox idi. Kəlküttənin, Misirin, İranın bir çox qəzetləri mollanın çox mətləblərini köçürürlər. Bir jurnal ki, onun açdığı mübahisələr aləmə səs salır, belə bir jurnal haqqında gedəcəyi yerdə Əli bəydən soruşmamış olmazlar və yəqin soruşacaqlar. O məqamda Əli bəyin nifrəti nə qədər olsa da, izhar edə bilməyəcək... «Görmədim, oxumadım» deyə bilməyəcək. Nəsə həqiqətə yaxın bir məlumat verməlidir.

Bunun üçün Cəlil Məmmədquluzadənin idarəsini görmək, özü



ilə söhbət eləmək vacibdir. İkinci səbəb də bu idi ki, Əli bəy, fürsət olsa, Mirzə Cəlilə məsləhət təriqilə bir neçə söz demək istəyirdi. Demək istəyirdi ki, Bakı qəzetlərinin çoxu yığışandan sonra belə bir jurnalın tirajı, hörməti qalxa gərək. Bunun üçün isə «Molla Nəsrəddin» jurnalı yalnız gülməli yazıları yox, möizə, nəsihət, fəlsəfə səciyyəli yazıları da çoxaltmalıdır. Hərçənd jurnal mühərrirləri dinə, şəriətə, ehkama zidd adamlardırlar. Amma ümumən müsəlman dünyasının rifahı üçün xeyirli yazıların təbinə nə mane ola bilər? Gülüş məsləkli bir jurnala buheç də xələl gətirməz. İslam fəlsəfəsini, hətta xaricilər, Tolstoy kimi rus ədibləri də təbliğ edirlər, başqa dinlərə tərcih verirlər.

Üçüncü tərəfdən də Əli bəy bu fikirdə idi ki, «Molla Nəsrəddin»in təşəbbüskarları hamısı eyni dərəcədə bidin, bietiqad deyillər. Onun fikrincə, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar kimi əhli-qələmləri ittihad məsləkinə çağırmaq, müəyyən dərəcə olsa da, Mirzə Cəlildən ayırmaq təşəbbüsü faydasız olmaz. Ömər Faiqin uzaqlarda qohumları var, onlar ilə görüşəcəyin xatırladar, Qəmküsar isə Əhməd Kamal ilə yaxın dostdur, Əhməd Kamalı ona, onu da Əhməd Kamala tapşırmaq olar.

Birdən-birə ayrılmasalar da, qoy bilsinlər ki, onlar ilə Mirzə Cəlil arasındakı məsafəni bilən və bu məsafənin böyüməsinə səy edən, sevinən adamlar var Belə bir xəbərdarlıq indi də olmasa, gələcəkdə bəhrə verə bilər...

Sabah İstanbulda ittihad-islam şüarı Şərqə yayılanda, bu adamlar əmin ola bilməlidirlər ki, orada bir istinadgahları, havadarları, tərəfdarları var. «Molla Nəsrəddin» səhifələrində vaxtilə elədikləri «cızma-qara» onların gələcək din və şəriət yolunda fədakar səy etmək niyyətlərinə mane ola bilməz. Hər halda, bu adamlarla danışmaq faydasız olmaz.

Dördüncüsü də bu idi ki, Əli bəyin «Molla Nəsrəddin» idarəsinə

getməyi camaat gözündə onun hörmətini" artırar ki, əksiltməz. Doğrudur, «türkpərəstlərin» ürəyinə gələ bilər ki, dünənəcən qələm ilə vuruşduğu bir adamın ayağına getmək Əli bəy kimi mümtaz bir zatın şəninə şikəstlik olsa... Amma əksər camaat, kənardan baxan on minlərcə oxucular yanında Əli bəy hüsn-rəğbət qazana bilər...

Nə isə, sözün qısası, saat on-on bir radələrində biz Əli bəyi Pavidovski küçədə, «Molla Nəsrəddin» idarəsində görürük.

Doğrudur, nə Mirzə Cəlilin, nə də əməkdaşlarının əvvəlcədən bu gəliş haqqında məlumatı yox idi və bir hazırlıq da görülməmişdi. Bununla belə Əli bəy redaksiyaya gələndə əməkdaşların çoxu orada hazır idilər.

Əli bəy Mirzə Cəlil ilə görüşüb xoş-beş edəndən sonra kürsüyə oturub iki əli ilə çəliyinə söykəndi. Sakit, mülayim, qayğısız nəzərləri ilə əyləşənləri süzdü və başı ilə əhvallaşdı.

İstər «Molla Nəsrəddin» əməkdaşları və istərsə buraya toplaşan başqa oxumuşlar bu gəlişdən şübhələnmişdilər. Heç kəs bilmirdi ki, «Füyuzat» mühərriri buraya nəyə gəlmişdi. Hətta çoxu onun heç uzaq səfərindən də hali deyildi. Amma camaat içində işin əsl mənasını bilənlər yox deyildi.

- Mühərrir cənabları nə əcəb təşrif gətiriblər?

- «Füyuzat» bağlanandan sonra arası dəyib.

- Kim ilə dəyib?

- Hacı ilə!

- Bağlayan bəyəm Hacıdır?

- Bəs kimdi?

- Dərindəndi!

- Necə dərindən olsa, pulunu Hacı verirdi. Onsuz iş olmaz!

- Hacı neyləsin, canım! «Füyuzat»ın əmri sultandan, xəlifədən gəlib. Hacı xəlifəyə Quranın tərcüməsini hədiyyə göndərmişdi, o da Hacıya əmr göndərib ki, Qafqazda qəzetçilərin ağzını yumsun!





- Xəlifənin əmri Qafqaza işləməz.
- Qafqaz müsəlman deyil?
- Çox da müsəlmandır. İxtiyarat indi padşahdadır.
- Sultan bunun jurnalını bağlasaydı, bu daha sultanın yanına niyə gedirdi?
- Bəlkə iltimasa gedir?
- Yox, köçüb gedir.
- Elədə buna qulluq verəcəklər.
- Qələm sahibinə nə qulluq. Bununku yazmaqdı.
- Yazmağı burada yazırdı da!
- Burda yazdıqlarını oxuyan kimdir!
- Osmanlılar oxuyacaq?
- Ümidi, görünür, onadı!
- İnanmıram ki, orda, «Məcnun və Leylayi islam» oxuyan tapıla.
- Tapılmasa da, orada heç olmasa, «Molla Nəsrəddin» yoxdu, lağa qoyan yoxdur!
- Nə isə, gedənin qabağını saxlamaq olmaz. Ona yaxşı yol!

Mirzə Cəlil stolundan kənara çəkilib, oturmuş qonağın əhvalını soruşdu, Bakı qəzetlərinin bəzi nömrələrini göstərib güldü. «Bu səhifələr, deyirdi, mətbuata yox, minbərlərdən olan moizəyə bənzəyir. Bunları çap eləyənlərin qəsdi yenə müsəlman qardaşları cəhalətdə saxlamaqdan savay bir şey deyil. Biz belə qanırıq!»

Əli bəy Mirzə Cəlilin sözünə şərik olanda, üzünü Mirzə Cəlilə tutub söhbət başlayanda oturanların diqqəti daha çox cəlb olundu:

- Mirzə Cəlil, Qafqazda sizin jurnalın oxucusu heç bir mətbuatda yoxdur. «Molla Nəsrəddin»in şöhrət kəsb etməyində ümdə səbəb nəyi zənn edirsiniz?

Mirzə Cəlil Əli bəyin getməyinə sevinməsə də, buraya, jurnal idarəsinə gəlməyinə sevinirdi. O, indi müarizinə silahını töküb, təslim olan bir əsgər kimi baxa bilərdi. Hərçənd sabah sultan Türkiyəsində daha





bərk silahlanacağını yəqin bilirdi, amma indi «Molla Nəsrəddin» idarəsinə gəlməyi müvəqqəti də olsa təslim demək idi. Ona görə də Mirzə Cəlil onu bir qonaq kimi qəbul edib dindirirdi. Bir qədər sükutdan sonra müarizinin səsinə uyğun, mülayim şəkildə cavab verdi:

- Əslində, cənab Əli bəy, elə bir şöhrət də yoxdur. Müsəlman qardaşlar məcmuəmizi oxuyurlar. Ona görə də oxuyurlar ki, sadə ana dilində yazılır.
- Əlbəttə, çətin yazılsa, anlaşılmasa oxunmayacaq!

«Çətin yazılsa, anlaşılmasa oxunmayacaq!»

Qonağın bu etirafı Mirzə Cəlilə çox qəribə gəldi. Bu sözü təkrar edib onun üzünə baxdı və bir az da təəccüblə baxdı. Ona görə təəccüb edirdi ki Əli bəyin bu əqidədə olduğuna inanmırdı. Bir mühərrir ki, bu aşkar həqiqəti doğru dərk edir, o halda yazılarını nə üçün ana dilində yox, xalis osmanlıca yazır. Qəliz söz və ibarələr ilə doldurur. Bunu da bir hünər bilir, müsəlman oxumuşlarını buna çağırır. Mirzə Cəlil belə zənn edirdi ki, Əli bəy kimi mühərrirlərin yeganə məqsədi əllaməlik etmək, məlumat büruzə verməkdir. İndi qonağın uzun illər mübahisə apardığı mühüm bir məsələni etiraf etməsi «Molla Nəsrəddin» mühərririni həm sevindirdi, həm də ona qəribə gəldi. Mirzə Cəlil fürsət tapmış kimi mətləbi ələ aldı:

- Mühərrir cənabları, yəqin ki, bizim məcmuəmizin dili və üslubundan xeyli narazıdırlar?

Əli bəy başını aşağı saldı. Bir qədər sükutdan sonra cavab verdi. Əlbət ki, bu sükut onun söz tapmaqda çətinlik çəkməsindən deyildi. Sadəcə, etirafa məcbur olmasından, bəlkə də xəcalət çəkməsindən idi. Çünki belə bir sual qarşısında qalacağını zənn etməzdi və arzulamazdı. Burada isə düzünü demək lazım idi:

- Mirzə Cəlil, sadə yazmağın özü də bir məharətdir!

Mirzə Cəlil gözlərində bir təbəssüm, üzünə nur çilvələnmiş kimi, sualını davam etdirdi.

- Cənab Əli bəy, mən sizin kimi bir qüdrətli qələm sahibinin bu sözlərini tamamilə ciddi hesab etməyə bilmərəm!

- Mən səmimi və aydın deyirəm: «Molla Nəsrəddin» məcmuəsinin dili bir məharətdir və hər kəsə hər vaxt müyəssər olmayan bir məharətdir. Mən bunu sizin hüzurunuzda yox, hər bir şəraitdə deyə bilərəm.

Mirzə Cəlil təşəkkür deyib əlavə etdi:

- Belə bir meylin mü-səlmanlara və xüsusən biz azərbaycanlılara faydalı olduğunu möhtərəm mühərririmiz, ümid edirəm ki, gələcəkdə də qələm sahiblərinin nəzərinə çatdırmaqda səylərini əsirgəməyəcəklər.

- Əlbəttə, əlbəttə!

Əli bəy başını aşağı salıb susurdu. Bir xeyli düşünəndən sonra, sanki çətinlik ilə müəyyən etdiyi bu cavabı verdi:

- Müsəlmanın qələm sahiblərinə çox şərtlər əlzəmdir! Məqalələrin şəklindən mamda, məzmunu, mətalibin əhəmiyyəti daha çox şərtdir.

Mirzə Cəlil bir nəzakət əlaməti olaraq müsahibinin sözünü təsdiq üçün onun bir an əvvəlki cavabını təkrar etdi:

- Əlbəttə, əlbəttə!

Əli bəy söhbəti arzuladığı istiqamətə saldığını duymuş və buna görə də fərəhlənmiş kimi sözünə davam etdi:

- Bizim Qafqaz mətbuatında əsrin fəlsəfanə müqalibi kifayətincə şərh və təhlil olunmayır. Halbuki zəmanın fəlsəfəsini idrak etmədən tarixdə heç bir millət tərəqqiyə doğru bir addım yürüməz.

- Siz fəlsəfə deyəndə, hankı müəllifləri buyurursunuz?

- Müsəlmanlarda kamil filosoflar, hikmətşünaslar çoxdur. Bəndə həkim Sənaini, Canini, Faqili Dərbəndini, Sədinin xamuşluq fəlsəfəsini dərxatir etmək istərdim. Və yaxud da hal-hazırda islam mətbuatında xidmət edən Rza Tofiqlərin, Rəcaizadələrin, Ziyagöy



Alaların asarı Qafqaz müsəlmanları üçün pək müfid əsərlərdir. Biz «Füyuzat» səhifələrində bunların intişarına iqdam etdik. Fəqət vaxt müsaidə etmədi. Zənnimcə, sizlər, xeyli oxucu kütlələrinə malik olan «Molla Nəsrəddin» mühərrirləri həzl və məzah ilə bahəm müşarileyhlərin əşarindən bərgüzidə nümunələr təb etməklə çox xeyirli iş görərsiniz. Zənnindəyim:

Filosof Rzayeəm, dinsiz ağlama!
Dini bən öyrətdim kəndi babama!

Nə fəsih kəlam, nə dərin məna!

Əyləşənlərin bəzisi güldü, bəzisi də təkrar-təkrar öskürdü. Kim idisə natiqə müraciətlə sual verdi:

—Cənab natiq, islam dinini də filosoflardan öyrənmək lazımdır, ya Qurani-şərifdən?

Natiq dərhal cavab verdi:

—Hər ikisindən! Qurani-şərif ilk mənbədir. Filosoflar onun şərhi və tərəqqisidir. O bunsuz, bu onsuz nə kamil olar!

Mirzə Cəlil bu söhbətlərə gülür, ürəyində deyirdi: «Biz dini yadımızdan çıxarmaq istəyirik, hörmətli qonağımız da min il bundan qabağın töhfəsini xonçaya qoyub gətirib...»

Qonaq Mirzə Cəlilin üzünə baxıb, sanki fikrini bilmək istəyirdi. Mirzə Cəlil adəti üzrə qalxıb təzədən oturdu. Həmişə o qəzəblənəndə və ya əsəbiləşəndə qalxıb, ətəklərini yığar, yenidən əyləşərdi və səsinə də bir qədər xitab ahəngi verərdi:

- Bizim də öz filosoflarımız var. Biz də gülə-gülə düşünən adamlarımız ilə dilləşmək istəmişik və yenə də istəyirik. Biz Mirzə Fətəlinin kəlamından həmişə faydalanmaq arzusunda olmuşuq.

- Keçmişin deyil, müasir filosofların asarından istifadə etmək müsəlman oxucularına xeyli əlzəmdir. Çünki istiqbal-bəşər əsrin

filosoflarından, əhl-hikmətdən asılıdır. Onların münəvvər fikirləri bəni növbəşəri nərələrə sürükləsə, sürükləyə bilər. Ya filosoflar, ya sərkərdələr arxasınca! İnsanlar həmişə böylə yürümüşlər!

Mirzə Cəlil bir qədər də səsini ucaltdı:

- Bizim elə filosoflarımız var ki, müsəlman qarpaşlar üçün gün ağlamaq istəyiblər. Cənnət-cəhənnəm sevdasında yox, dünyada güzəran etmək barəsində düşünüb saç-saqqal ağardıblar. Biz onlara qulaq asmağı məsləhət bilirik. Mirzə Fətəli külli ədyanı puça sayırdı. Bunu cürətlə yazırdı, onun zamanından əlli-altmış il keçəndən sonra biz yenə vaxtımızı və qüvvəmizi din öyrənməyə, Came-əbbas kitabları əzbərləməyə sərf etsək, qeyri-millətlər bizə nə deyərlər, Qafqazda minlər ilə ağbaş əmmaməli var ki, camaatı şəriətə, qəflətə çağırır. İldə 17 milyon pul həmin bu şəriət mübailiqlərinin həris mədəsinə axır. Bu pulla ildə neçə darülfünun, neçə məktəb, neçə mərşixanə binə etmək olardı. Biz isə yaman gündə güzəran edən fəqir-füqarəyə qüsl, təharət adabı öyrədirik. Möhtərəm qonağımız məni bağışlasın, o gün erməni kilsəsində oturmuşdum, gördüm, keşiş üzünü tutub camaata «hayranıq, hayranıq!» deyir. Oradan ötdüm məscid həyətinə, baxanda gördüm, axund minbərdə oturub sigədən, təharətdən dəm vurur. Belə bir vəziyyətdə, siz də «Molla Nəsrəddin»i dindar filosofların zülmət yolundan çağırırsınız. «Molla Nəsrəddin» bunun üçün yaranmayıb: «Molla Nəsrəddin»i zəmanə, təbiət, xalq özü yaradıb, yaradıb ki, əsrlərcə dövr eləmiş ictimai yaraların üstünü açsın. Camaatın qulağında Suri-İsrafil kimi səslənsin, yatmışları oyatsın. Necə ki, siz buyurdunuz, məcmuənin az-çox şöhrət tapması həmin bunların nəticəsidir, möhtərəm şairimiz Sabirin türmənə, aydın əşarıdır.

Məcmuə oxuculara təzə mətləblər deyir, o deyir ki, nicat filosofların əlində deyil. Camaatın öz əlindədir. Çomağı əlinə alan kəndli öz düşmənini tanısa, biləcək ki, zərbəni hayana və necə



vurmaq lazımdır. Yoxsa, köhnə filosof ilə, şəriət ilə iş aşmayacaq, yaralar sağalmayacaq!

Mirzə Cəlil sözünə davam edərək əlini atıb stolun gözündən bir jurnal götürdü, qabağına açdı.

- Hal-hazırda da bizim düşünən adamlara müraciətimiz olur. Hərçənd özümüz avam, kəmsavad olsaq da, özümüzə görə fikirləşənlərimiz də yox deyil. Sədinin də, Sənainin də, ya Xəyyamın da kəlamı kimi türmənə və faydalıdır. Amma biz kasıbların, füqəra camaatın da sözünü eşitməyi və özgələrə çatdırmağı faydadan xalı görməmişik və görmürük. Sədi demişdi, mən ədəbi ədəbsizlərdən öyrəndim. Bizim möhtərəm şairimiz Sabir də müsəlmanlara məsləhət görür ki, bu zəmanədə necə rəftar etsinlər, necə məişət eləsinlər. İstəyirəm onun bir kəlamını nəzərinizə çatdıram.

Mirzə Cəlil bunu deyib jurnalı əlində göyə qaldırdı, üzünü kənara tutdu, çağırdı:

- Mirzə Əliqulu, zəhmət çək bunu oxu, biz bir də eşidək.

Əliqulu cəld ayağa qalxıb irəli çıxdı, jurnalı əlinə alıb çeşməyi gözünə taxdı, ucadan oxumağa başladı:

Səbr eylə!

Sərlövhəni deyəndə oturanlarda hərəkət duyuldu. Hamı Sabirin sözünü eşitdi və ədasını duydu:

Səbr eylə!

Mirzə Əliqulu camaat qabağında inşa oxuyan kimi uca səslə Sabirin müsəlmanlara xitabla yazdığı məşhur satirasını başdan-ayağa oxudu:

Bəlayi fəqrə düşdün razı ol, biçarə, səbr eylə!
Üzün oldisa gər külfət yanında qarə, səbr eylə!
Əsiri-qeydi fəqr oldun, yazıq, təslimi-hirman ol!
Çalışma, bir işə getmə, fəqət məyüsü nalan ol!

Qəzayə çarə yox, giryan ol, üryan ol, pərişan ol!
Səbur ol, şakir ol, yəni müsəlman ol, müsəlman ol!
Çatar öz rizqi-məqsumun, dolan avarə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə səbr eylə!

Məaşın ta ki, təng oldu, ənis ol dərdü möhnətlə!
Boş ol, süst ol, ümidin qət qıl, yar ol ətalətlə!..
Bunu təqdirə nisbət ver, yaşa daim rəzalətlə!
Həvadə seyr edən insana baxma çeşmi-qeyrətlə!
Burax kəsbi, unut səyi, yapışma karə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Yetərkən zalimin zülmü sənə, dövrü qəzadan bil!
Çatarkən amirin zəcri, onu seyri-səmadan bil!
Özün öz əczinə bais olurkən, masəvadən bil!
Bu məşumiyyəti biganədən gör, aşinadan bil!
Əzil, pamal ol, axtarma buna bir çarə, səbr eylə,
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Əgər çox təngdil olsan, bu işdən qıl fəğan, ağla!
Girişmə başqa bir tədbirə, ancaq hər zəman ağla!
Bütün dünyadan əl çək, aşikar ağla, nəhan ağla!
Qapansın gözlərin, fikrin, düşünmə, görmə, yan, ağla?
Tüpür namusla, baxma nəngə, gəlmə arə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Fəqət bir iş də görmək istər isən, gör müsəlman tək!
Təhəmmül eylə cövri-mülkədarə, işlə heyvan tək!
Çalış, ək, biç, aparsın bəy, evin qalsın dəyirman tək!
Ayılma, həqqini qanma, xəbərdar olma insan tək!





Darılma, incimə, tab eylə hər azarə, səbr eylə,
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Vəgər az-çox var isə qeyrətin, kafirlərə baxma!
Bir asan kəsbə məşğul olmaq ilə dindən çıxma!
Uşaqlarçın çörək çıxsın deyə, ha din evin yıxma!
Vəbalın boynuma, fəhləlik et, qəlbini sıxma!
Sənə iş sahibi pul verməsə, yan, narə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Və yaxud gər əsər varsa canında zürü qüvvətdən,
Qolun güclü, özün qansız, dilin xalisə rəhmətdən.
Qurtar birdəfəlik dərdü-ələmdən, bari-möhnətdən.
Quduzluq, iştə bir peşə gözəl hər dürlü sənətdən:
Bas al, kəs al, vur al, yıx al, qoşul fəccarə səbr eylə!
Məqami-hörmətə çatdın, dəxi həmvarə fəxr eylə!

Yanaş əşrarə, fəxr eylə!
Bulaş hər karə, fəxr eylə!
Tutulma nəngə, namusa,
Utanma arə, fəxr eylə!..

Məclisdəkilərin bəzisi gülür, bəzisi şeirin sözlərini təkrar edir, bəzisi qonağın münasibətini bilmək istəyirdi.

Əli bəy oxunan şeiri soyuq qarşıladı. Üzündə heç bir əlamət büruzə vermədi. Şeiri oxuyub bitirəndən sonra heç kəsə yox, məhz Əli bəyin üzünə baxan Mirzə Əliqulu sanki sükutu ilə soruşurdu: «Necədir? Nə deyirsiniz?»

Mirzə Cəlil də qonağın üzünə baxanda Əli bəy fikrini deməyə məcbur oldu:

- Belə yazılar da lazımdır, fəqət bən fəlsəfi məqalələri daha çox tərcüh edirdim.

Mirzə Cəlil dərhal cavab verdi:

- Dolam-dolaşıq fəlsəfi yazılar ilə bizim camaatı oyatmaq çətin olacaq!

- Bu gün deyilsə, yarın mütənəbbeh olacaqlarına şübhə yox!

- Yarın nədi, heç birisi gün də oyanan deyilik!

- Mirzə nə səbəbə müsəlmanların gələcəyinə inanmaq istəmiyor?

- Mən müsəlmanların yox, siz buyuran fəlsəfələrin və filosofların gələcəyini bir az qaranlıq görürəm.

- Təəssüf!

- Təəssüflər olsa da, mən belə düşünürəm. Mən bu barədə bizim dadlı-duzlu şairimiz Sabirin kəlamına tamam şərikəm. Cənab Əli bəy, uzun əsrlərdir ki, bizim əvam müsəlman qardaşlarımıza çox şirin sözlər, vədələr verib onun zehnini və mədəsini xarab ediblər. İndi bunlara acı dərman olaraq çılpaq həqiqəti demək, müalicə etmək lazımdır. Mən bu günün əsl fəlsəfəsini bir az əvvəl oxunan həmin şeirdə gördüm və düşündüm.

Əli bəy əsasının ucu ilə döşəməyə nəsə yazaraq təkrar etdi:

—Təəssüf ki, mən həmin şeirdə bir fəlsəfə görə bilmirəm!

- Bəli, siz buyuran dərin və təmtəraqlı fəlsəfə yoxdur və yaxşı ki, yoxdur. Sabirin kəlamında sadə həqiqət, həyat fəlsəfəsi var:

Təhəmmül eylə çevri mülkədara, işlə heyvan tək!
Çalış, ək, biç, aparsın bəy, evin qalsın dəyirman tək!..

Mən elə bilirəm ki, bu sözlər müsəlman üçün lap açıq-aşkar fəlsəfədir. Bizim füqəra camaat onu başa düşsələr, həqiqətin, haqqın yolunu taparlar və bu yolun üstündəki daş-kəsəyi, tikan-mikanı tezliklə rəf edərlər. Fəlsəfə də bunun üçün lazımdır. Bir fəlsəfə ki,





kəndlinin, fəhlənin məişətinin, güzəranının yaxşılaşmasına kömək etməyəcək, elə fəlsəfəni qəbiristanlıqda dəfn edib üstünə də ağır dəyirman daşı qoymaq lazımdır.

- Siz tarixdə məşhur filosof və sərkərdələrin mücəddidlik xidmətını inkara qalqışyorsınız.

- Mən elə bilirəm ki, heç bir tarixdə camaatın, əli qabarlıların hümməti olmadan gözə dəyən bir iş görülməyib, görülə də bilməz! Fəlsəfə budur, dəhşət.

Bizə, biz bədbəxt müsəlmanlara indi nə İskəndər Zülqədrinin, nə həkim Sənai, nə Fazil Dərbəndi... Xeyr, bizə Sabir deyən filosoflar lazımdır. Yəni bizə Peterburq fəhlələri, Təbriz mücahidləri və Qara dənizdəki Potyomkin gəmisinin matrosları lazımdır. Bizə əliqabarlı filosoflar, özü də biri, beşi yox, milyonlarca beləsi lazımdır. Cənab Əli bəy, xatırınıza dəyməsin, mən oxumuşam sizin «Nəcat məhəbbətdədir» deyən məşhur, müzəyyən məqalənizi, təkrarən oxumuşam. Düzdür, siz nəcatı dostun, düşmənin barışmağında görürsünüz. Amma belə bir barışıq nə olub, nə də olacaq. Kim barışacaq, kim ilə barışacaq? Maku xanının on min desyatin yeri var. Maku kəndlisinin namaz qaldığı bir arşın yer də həram buyurulur, qəsəb sayılırdı. Bunlarmı barışacaq? Yox! Nəcat məhəbbətdə yox, mübarizədədir! Bizim hörmətli Sabirimiz də bunu deyir, əvamın da dərk etməli ümdə mətləbi budur. Qəzetin də, məktəbin də, natiqin də, ədibin də məqsədi camaata xidmətdirsə, bu mətləblərdən deməlidir.Yoxsa boş fəlsəfəçilik, risaləçilik ilə fatıya tuman olmayacaq. Müsəlman qardaş, bacılarımız həmişəki kimi yenə çılpaq qalacaq! Sizi bilmirəm, mənim başa düşdüyüm budur. İndi ya yaxşı, ya pis, «Molla Nəsrəddin» yolu belədir. Biz xeyli vaxtdır tutmuşuq, getmişik, indi də gedirik, gedəcəyik!

Biz bu yolu gedirik, siz də İstanbul yolu gedirsiniz. Nə eybi var, hər kəs öz iradəsində sərbəstdir. Sahibi-ixtiyardır. Amma təvəqqə

eləyirəm, gələcəkdə, məqamı düşəndə qoca Molla Nəsrəddinin sözlərini də yada salasınız!

- Pəki, pək-eyi!

Mirzə Cəlil ayağa qalxdı:

- Bəli! Belə!



## On ikinci fəsil

## ZƏRBƏ

Когда ему ясно представилась возможность освобождения... несправедливость этого положения показалось ему еще жесточе и ужаснее, чем прежде, и ему страстно захотелось не только освобождения, но и наказания тех, которые устраивали и поддерживали эту жестокую несправедливость.

Л.ТОЛСТОЙ

Bəndalı həbsdən qaçandan sonra Məsmənin günü lap qara oldu. İndi o, oğlunun nigaranlığını çəkir, gecə-gündüz qəlbi qəfəs quşu kimi çırpınırdı. Bir dəqiqə Bəndalıdan ayrıla bilmirdi. Evdə, çöldə, aşkarda, yuxuda həmişə oğlu ilə «əlləşirdi». Bəzən onu ayaqyalın körpə görüb qucağına alır, sütül zəmilər içindən, daşlı yollar, tikanlı çəpərlərdən keçirirdi. Bəzən təndir başında gözüyaşlı balasına bir parça təzə çörək verib ovudurdu. Bəzən də, anaların gözündən iraq olsun, görürdü ki, əlitüfəngli yasovullar, strajniklər oğlanın dalından döşənib dağlar yuxarı qovurlar. Qovurlar, hərdən də güllə səsi eşidilir. Məsmə bu halda durduğu yerdə heykəl kimi donub qalır:

«Vay, vay, anan ölsün, bala! Yetim bala, arxasız bala... Mən nə çarə qılım, ilahi!..»

Əlləri qoynunda üfüqlərə baxır, sanki açılan güllələrin Bəndalınınmı, yasovullarınmı olduğunu seçmək istəyirdi. O biri tərəfdən də «polisə» divan-dərə adamlarının get-gəli, sorğu-sualı kəsilmirdi.

Kəblə İsrafil bəy onun üstünə qışqırıb tələb edirdi:

- Gədənin yerini deməsən, özünü Sibirdə bil, ay arvad!

Məsmə düşmən qabağında heç vaxt özünü itirməzdi:

- Nə olar. Sibirə gedənin hansından artığam mən! Gedərəm. Sibirə də gedərəm, ayağıma qandal da taxaram. Təki sənin kimi beqeyrət müsürman kişilərimizin Nikolay padşahının yanında qulluğu böyüsün! Vallah! Beqeyrətlərimizə qulluq olsun, xalqın Sibirə getməyi təzə iş deyil ha!

- Başından yekə danışma arvad!

- Mən olanı deyirəm. Nikolay padşah, mən qanan, arvadları qazamata salmırdı. Amma sən ki, mənim öz müsürmanım, tüfəng-qatar qurşanıb gəlmisən üstümə, adın da İsrafil bəy, Kərbəlaya da getmisən, nə üzünən bilmirəm. Atan da haca gedib, qara daşdan öpüb. Sən ki, bu kənddə dul arvadı Sibirnən qorxuzursan, daha mən cavabında nə deyim. Göndərirsən, göndər! Mənim tüfəng-qatarım yoxdur, göndər Sibirə!

Kəblə İsrafil bəy Məsmənin sözlərindən yumşalan kimi oldu:

- Bu saat səni göndərmədilər. Kiri! Səndən qaçağı istəyirəm ey, qaçağı! Oğlunu!

- Mən də oğlumu səndən istəyirəm. Gül kimi uşağın üstünə ad qoyub didərgin salan hankı dili qurumuşlar oldu? Neyləmişdi Məsmənin oğlu. Əlini, ayağını qabar aparan bir uşağnan mahal hökuməti əlbəyaxa olub.

Məsmə İsrafil bəyin üzünə tünd və qəzəblə baxdı, əlini ələm kimi göyə qaldırıb daha bərkdən dedi:

- A bəy, göydə, adamın başı üstündə Allah var. Toyuq-toyuqdu, bir su içər, bir də başını qalxızıb Allaha baxar! Siz yəni belə tuğyan eləmisiz? Tək-tənha bir yazığın dalından nə döşənibsiz yezid kimi!

Qadın danışdıqca əsəbiləşirdi:

- A yeziddən beşbətərlər! Nə xəbərinizdi belə!

İsrafil bəy irəli yeriyib yanını kürsüyə qoydu. Sanki vəziyyəti yumşaltmaq üçün arxayın oturdu, səsinin ahəngini dəyişdi:





- Ürəginə ayrı şey gəlməsin. Məsmə arvad, bizim müsürman arvaddır, ona yaxşılıq da eləyəndə pislik qanır. Mən qulluq adamıyam, borcumdur, qanundur. Məndən istəyirlər, hər necə olsa, gərək qaçağın...

İsrafil bəy «ya ölüsünü, ya dirisini tapam» demək istəyirdi. Qarşısındakının - Məsmənin qorxu-ürkü bilməz adam olduğunu düşünüb sözünü dəyişdi:

- Hər necə olsa, gərək qaçağın yerini tapam. Qulluq adamıyam, yoxsa dərimə saman təpərlər. Qaldı işin əncamında, həlbət ki, mən də islamam, yəhudi-zad deyiləm. Hərçənd ki, yezid ad qoyursan. Eybi yoxdur. Qoy, sən nə ad qoyursan-qoy, amma mən də adamam. İstəmərəm sənin cavan oğluna, özün də ərsiz, sahibsiz arvad xaylağı, istəmirəm Bəndalıya bir xətər toxuna.

Gələr, təslim olar, polisə həyətində-zadda bir az girlənər, söz-söhbət də kəsilər, müddəilər sakitləşərlər, silis də, sud da soyuyar, dalısın görək neylərik. İşi soyudandan sonra, inşallah, hasanddır. Öz əlimizdə deyilmi? Baxma! Urusun ürəyi rəhmli olur. Padşahımız, Allah dinə gətirsin, rəiyyəti biləndi, baxma. Deynən gəlsin, o Danilskinin yanına adam salsın. Lap ölüm işləri olub ki, üstündən keçib. Sənin oğlunda nə var. Dəlilik eləyib, cavandır, əvamdır, bir işdi düşüb. İki-üç ay oturar, adam taparsan. Zaminə verdirərik.

- Onun adamına nə gəlib, hamıdan qabaq Məşədi Ələkbər Tahirzadə zamin...

- Ay arvad, mən ha düzəldirəm, sən ipi tərsinə burur, kəcinə çəkirsən. Axı Tahirzadəni niyə araya qatırsan, mahalda adam tapmırsan?

- Ondan hörmətli kimi tapım.

- Hörmət, hörmət sən nəyə deyirsən. Arada-bərədə danışılanın bahasına qəpik verməzlər. Polisə də, sud da elə adamın zəminliyi, ya şahidliyini, az qala, yaxına qoymurlar. Nə danışırsan! Özün

görmədin?

- Çünki düzünü deyir?

- Qəzetlərdə artıq-əskik yazır. Dinə sataşır.

- Bəd-bihesab işdən niyə yazmasın?

- Mənə bax. Məsmə, Tahirzadənin adını çəkməyi məsləhət görmürəm. Anasan, oğlun var, işinin dalınca özün get! Silisə də, polisə də özün get! Man deyil, bunlar olan şeydir. Amma bəzi adamları qatma, özün oğluna yaxşıca nəsihət elə, başına ağıl qoy! Axmağın özünə çatdır ki, kəlsin yavis olsun.. Yavis olsun ey, yavis! İmperatur hökumətinin gücü də, qoşunu da çoxdur, səbri, rəhmi də çoxdur. Tövbə eliyənə aman var, zaval yoxdur. Amma gəlməsə, gəlməsə iş elə bərkiyəcək, heç onu sud özü də yumşalda bilməyəcək. Birbaş Fitilbörkəcən gedəcək. Bildin nə deyirəm, ya yox?

İsrafil bəy Məsməni dilə tutmaqda olsun, biz də bu saat şəhərdə, çörəkçi Məşədi Hüseynin yanında, piştaxtanın altında uzanıb başına gələnləri bir-bir danışan Bəndalının dalınca gedək.

Bəndalı heç özü də bilmirdi necə oldu ki, yolda ona elə cürət gəldi, yasovulun tüfəngini əlindən aldı, ondan yaxasını qurtardı:

- Məlik, ə adam tutduğu yerdən kəsməz!

- Uzun danışma, düş qabağıma, yoxsa vuraram ha!

- Kimi vurarsan ə? Mən neyləmişəm vurasan?

- Yasovulun üzünə qabaranı vurarlar.

- Nə qabarıram ə... sözümü də deməyim?

- Yox, demə!

- Necə deməyim, yanıram axı.

- Mənə nə yanırsan, yeri! Qəzəmətdə deyərsən!

Qara Məlik bərk itələyəndə Bəndalı üzü üstdə yıxıldı. Məlik vəziyyəti belə görüb qorxdu. Bəndalının çiynindən tutub qalxızmaq istədi:

- Nə olub, ayaq üstdə dura bilmirsən?





- Görürsən ki! Sizin kimi nainsaflara əsir olmuşam!

- Dur ayağa!

Məlik dustağını qoltuqlayıb qalxızmaq istəyəndə Bəndalı təkrar arxası üstdə sərildi. Məlik bir şey hiss etmiş kimi məhəttəl qaldı:

- Sən, deyəsən, qəsdən yıxılırsan, elə bilirsən bu çöldə qoyacaqlar səni, sən də istədiyini yana...

Qara Məlik sözünü bitirməmişdi ki, Bəndalı bütün gücünü toplayaraq dartındı. Dikələn kimi kəndir kəsmiş əlini Məlikin tüfənginə atdı:

- Yəni sən qoymuyacaqsan! Qoyma görüm!

Meşədə pələng ilə qabaqlaşmış kimi vahimələnən Qara Məlik vəziyyəti belə görəndə qışqırmaq istədi. «Qoymayın, dustaq qaçdı! Ay haray!...»

Bəndalı iri və bərk yumruğu ilə onun gicgahından elə ilişdirdi ki, Qara Məlik fırfıra kimi cövlan vurdu:

- Kəs səsini, qurumsaq!..

Bəndalı kəndir ilə onun ayaqlarını sarıdı, sonra da əllərini daha bağladı. Bir çuxura dığırlayıb götürüldü, kolluqlar arasında yox oldu.

Payız gecəsinin soyuğunda İsmayıllı meşəsində yavaş və ehtiyatla, tənha və tərəddüdlə yeriyən Bəndalının ürəyində indi nə təlatümlər var idi... Düşmən əlindən qurtulduğuna, zülmünü görüb əlindən iztirablar çəkdiyi «polis adamını», bir an əvvəl özünün düşdüyü məhbus vəziyyətinə salmağına sevinir, dərin bir məmnunluq duyurdu. Elə bil üstündən dağ aşırmış, illərdən bəri deyilən, yazılan iftiralar yükünü atmışdı.

Sanki indi hər şey, bu gen dünya, dağlar, dərələr, sinəsində boy atdığı, gün keçirdiyi bu çöllər, zəmilər ona verilmişdi. Sanki indi o, sərbəstlik deyilən əvəzsiz nemətin qədrini bilir, qanad çalıb uçmaq istəyirdi...

O biri tərəfdən Bəndalının qəlbində oyanan intizar yeni və get-

gedə artan ağrı kimi özünü göstərirdi.

«Anamın halı yaman olacaq. Evə od qoyacaq, kim bilsin, nə zülmlər edəcəklər. Axı mən nə etmişəm, nə günahın sahibiyəm ki, sudlara çəkiləm, prokurorlar qabağında duram!... Nə edim, mənim də ümidim qolumun gücüdür. Necə ki, bu var, qorunaram, girə keçəndə də kişi kimi mərd ölərəm. Yasovul qabağında əsir olmaqdansa, bu meşələrdə, heyvanat ilə sərbəst ot otlamaq yaxşıdır. Heç olmasa, burda adama qara yaxan, iftira deyən olmaz! Buralar hələ Telli oğlu kimi şahidlər görməyib. Hava necə təmizdi! Qara meşə bir aslanı qorumayacaqmı?..»

Bəndalı ürəyində bunları deyirdi, ancaq fikrində ayrı şeylər gəzirdi. Bilirdi ki, meşələrdə uzun müddət qala bilməyəcək. Nikolay padşah kimi əjdahanın əlindən heç hara qaça bilməyəcək. Girə keçəndə də cəzasını daha da artıracaq, ilim-ilim itirəcəklər! İndi, ancaq indi Bəndalı özünün gücsüz, köməksiz olduğunu aydın hiss edirdi. İndi köməyə olan ehtiyacı ömründə bu qədər aydınca hiss etməmişdi.

Mənə kimin köməyi dəyəcək? Kəndlilər, hərə bir-iki gün evində saxlayıb yedirdər, bələdçilik edib bu meşədən o birisinə ötürə bilər. Mollalar, şəriətmədarlar bilsələr, qabaqlarına qatıb dua oxuya-oxuya naçalnikə təslim verəcəklər.

Bəs Tahirzadə? Pristavlıqda onun sözünə baxan kimdir? Onun özünü qaçaq saymırlar, baykot eləmirlərmi? O da baş götürüb fəhlələrə pənah aparıb.

Fəhlələr? Fəhlələr arasında dolanmaq olar, ancaq indi yox! Bakıda yəqin bu saat məni axtarırlar. Kölgəmi qılınclayırlar. Bəlkə mədən yerlərini, çörəkçixanaları bir-birinə vururlar. Tahirzadəni çağırır, Hacı Rəsula tapşırıq verirlər. Bunlar belədir. Qəza naçalnikinin hörümçək kimi qol-qanadı var!..»

Bəndalı silah ilə heç yerdə görünə bilməyəcəyini yəqin etmişdi.





Meşədən bir nazik budaq kəsdi, yonqaladı. Tüfəngin lüləsinə ağac tıxadı, qundağını dəsmala sarıdı, qoca bir palıd ağacının altında xəzəl basmış xəlvət yerdə basdırdı.

Səhərə yaxın özünü dəmir yoluna, Ləki vağzalına yetirdi. Bakı tərəfə gedən yük qatarında pilləkənə oturdu.

Əlbət ki, Bəndalı pristavların bu işi başına qoymayacağını, günü sabahdan onu mahal-mahal axtaracağını yaxşı bilirdi. Ələ keçməmək üçün şəhərə, dəmir yoluna yox, dağlara, meşələrə, dərələrə səmt getməli idi. Ancaq bunu etmədi.

Nə üçün etmədi?

Ona görə yox ki, aclıq, susuzluqdan, korluqdan qorxdu. Ona görə yox ki, dağlarda gümanı gələn adamı yox idi. Ona görə yox ki, qaçaqlar arasına düşmək istəmirdi. Ona görə belə etdi ki, tutduğu işin özündən razı deyildi. Yəni tutduğu işi kifayət saymırdı. «Bir var ilanın quyruğunu ayaqlayasan, bir də var başını əzəsən. Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu! İndi ki, Nikolay məmurları ilə ləc düşmüsən, bir yasovul üstündə niyə? Qaz vur, qazan doldur! Qara Məlik ölsə, nə olası idi. Pund davasında qatar qurşayıb küçəyə çıxan, naçalniklər ilə atışanların hansı məndən əskikdir. Bu saat Səttarxanın başına yığışıb Məmmədəli şahnan vuruşanları analar doğmayıbmı? Hey gedir, qafqazlıdır, görürsən hey fədayi gedir, mən də haqq yolunda gedənin biri! Yarımcan yaşamaqdansa, igid kimi ölməyə nə gəlib?! Qoy desinlər, yetim Bəndalı da hürriyyət yolunda getdi. Gedim görüm, o kişi nə deyir. Onun məsləhəti vacibdir. Deyər, gözə görünmə, dağ durur, daş durur. Gəlib tüfəngi götürərəm, qaçaqlara qoşularam. Deyər, Təbrizə fədayi get, baş üstə! Ya deyər, düz iş görməmisən, get təslim ol, o da bir ayrı söz!

Tahirzadənin, Məşədi Hüseynin sözünü eşitmək gərək, özbaşına iş görməkdənsə! Allah heç iyidi tək eləməsin. Dost-yoldaşın nəfəsi

də adama bəsdi!..»

Bu xəyal ilə Bəndalı məhz Bakı tərəfə gedən qatara oturdu. Vaqonun qapısında əli fanarlı bir rus dayanmışdı. Bəndalı üzünü ona göstərməmək üçün pilləkəndə çöməltmə oturub başını aşağı saldı. Rus ona nəsə dedi. Bəndalı cavab vermədi. O, təkrar etdi:

- Maxorka var?

Bəndalı başı ilə rədd işarəsi verdi:

- Neznayim!

Tahirzadə dərs dediyi uşaqlara gələcək hürriyyət haqqında danışdığı yerdə Əhməd Kamal ilə müfəttiş qəflətən sinfə gəldilər.

Əhməd Kamal Tahirzadənin müəllimliyindən ona görə razı deyildi ki, «o, bir türk kimi yox, əcəmanə dərs diyor. Osmanlı dili, ədəbiyyatını bilməyor. Qafqaz şivəsində kitabət ediyor. Türk şüərasını tanımıyor, Həsən bəyin «Əkinçi»lərindən, Seyid Əzimdən, bilməm daha kimlərdən, hətta rus-erməni şüərasından çox bəhs açıyor...»

Neçə dəfə bu barədə şikayət və etirazını Soltan Məcid cənablarına işarə etmişdisə də, belə cavab eşitmişdi: «Öyrətmək lazımdır, şairimizdir, dərs üsulunu öyrətmək, pedaqoji kömək lazımdır. İstedadı,,, məlumatı, hörməti çoxdur. Tərbiyə işində bu, çox mühümdür!»

Əhməd Kamal istəyirdi elə bir fürsət salsın. Qənizadəni elə bir məqamda dərsə gətirsin ki, Tahirzadənin «Üsuli-cədidə muğayir hərəkəti...» açılmış olsun.

Bütün bugünkü hazırlıq bunun üçün qurulmuşdu. Tahirzadə Tiflisdən, oradakı Azərbaycan münəvvərlərindən, Mirzə Cəlildən söhbət açmış, «bunt» inqilabında mollanəsrəddinçilərin fəhlələrlə necə əlbir-dilbir çalışmasından danışırdı. Bunu qoca müfəttişin, Qənizadə cənablarının dinləməsi kifayət idi.

Zəng vuran xidmətçinin bir hərəkəti müdirin bütün tədbirlərini heçə çıxartdı.

Xidmətçi dəstə ilə əliportfelli adamların gəldiyini, Tahirzadənin





sinfini soruşduqlarını, yəqin ki, onun dərsinin yoxlanacağını görüb təlaşa düşdü. Bir istədi qaçıb onu dərsdən çağırsın. Bunun şübhə doğuracağını zənn edib dayandı. Bir uşaq göndərib şairi qapıya çağırmaq, xəbərdar etmək lazım idi.

- Ay oğlan!..

- Bacıoğlu bir...

Uşaqlar xidmətçinin sözünü eşitmir, məktəb həyatına gələn «böyükləri» görməyə cəhd edirdilər.

Xidmətçi dəhlizboyu bir sağa, bir sola yeridi, zəngin kəndirindən tutub elə bərk vurdu ki, eşidənlər deyərdi, yanğın olub.

Əhməd Kamal saatını açıb baxdı, təəccüb elədi. Tahirzadə də təəccüb elədi ki, dərsin qurtarmağına iyirmi dəqiqə var, bu, təcili zəngdir? Sinifdən çıxanda, müəllim otağının qabağında komalaşan qonaqları görəndə əhvalatı bildi. Jurnal əlində, cəld gələnlərlə görüşdü, xoş gəldin elədi.

Bu gün Tahirzadənin həyatında bəxtiyar bir gün idi. İllərdən bəri arzusunda olduğu bir mətləbə - müəllimlik vəzifəsinə nail olmuşdu.

İndi məhəllə məktəbində uşaqlara çərəkə oxutmaq yox, dövlət xidmətində olan əsl müəllim kimi çalışacaqdı. İndi o, ayrı-ayrı adamların xahişi ilə yox, hörmətli bir təşkilatın, nəşri-maarif cəmiyyətinin xidmətində sayılırdı. İndi o, beş-üç nəfərə yox, tam bir sinfə xitab edəcəydi. İndi o, yalnız balalara, ana qucağından yenicə ayrılmış uşaqlara yox, yaşlılara, mədən fəhlələrinə də savad öyrədə biləcəkdi. İndi o, yalnız əlifba-savad dərsi yox, qəlbinin arzu və amalını, bəlkə də birinci növbədə bu amalı deyəcək, danışacaqdı. Ürəyinin mətləblərini, hətta yazıya, şeirə sığmayan mətləblərini qarşısında əyləşən, onu «huşguşla eşidən» fəhlələrə, səhərdən axşamacan mədəndə külüng vuran, axşam isə üsuli-cədid məktəbindən, təzə müəllimdən yeni bir söz, xoş bir xəbər eşitmək üçün «kursa» gələnlərə uca səslə, gülər üz yeni bir həvəslə deyəcəkdi. «Bəli, bunlara deməyə

mənim sözüm var!» Doğrudur, məktəb müdiri onu çox ehtiyatla. Soltan Məcid cənablarının təkidi qarşısında bir qədər də məcburiyyətlə qəbul etmiş və tapşırmışdı:

- Dərslərinizi qəraətdən əqdəm müdiriyyətə təqdim etməlisiniz, əfəndim. İcmal tərtib qılarsınız, müayinə edərim...

Ancaq bütün bunlara razı olsa, boyun əysə, hətta əməl etsə də, Tahirzadənin ürəyində parlayan ümid işığı get-gedə alovlanırdı. Ona elə gəlirdi ki, bunlar, bu rəsmiyyətlərin hamısı labüd olsa da, əslində boş və mənasızdır. Onun qəlbini dolduran və gündən-günə çiçəklənən böyük arzulara mane olmaqdan çox acizdir. Bunlar doğmaqda olan günəşdən əvvəl səhər üfüqlərini örtən seyrək bulud parçalarıdır.

Günəş isə parlamalıdır. Elə parlamalıdır ki, heç bir kəsafət onun şüasını boğa bilməsin. Bütün şeiri qanun və rəsmiyyətlərinin, müdir, qazı, Quran, rəis tapşırıqlarının, təlim-məramnamə şərtlərinin - hər kəsə məlum olan bu pərdələrin arxasında öz sözünü, ürəyində həkk olub qurğuşun kimi ağırlaşan sözünü deməyi bacarmalı idi. Əsl mətləb və məqsədinin icrasına səy etməli idi.

Mirzə Cəlilin əldə qələm, stol başında, şəhadət barmağını silkələyərək dediyi sözlər qulağında daha bərkdən cingildəyirdi:

- İşləməyi də, danışmağı da rus fəhləsindən gərək öyrənək. Nikolay kimi üç yüzillik əjdahanı elə qısnaşdırdılar ki, manifest verməyə məcbur oldu. Purişkeviçi elə karıxdırdılar ki, qəzetləri, senzorları adından çıxardı. İndi fəhlənin səsi ucadı, güclüdü. Amma müsəlman fəhləsinin çoxu ibadətdən ayılmayıb, oruc-namazdan başı açılmır. Bizim borcumuz onu ayıltmaqdır. Qəzet də, jurnal da, şeir də, teatr da bu yatmış, ya gərnəşməkdə olan behiştlikləri tərpətməli, çiynindən tutub silkələməli, ayıltmalıdır. Bərkə qalanda başına soyuq su töküb ayıltmalıdır.

Çətini bunacandır. Elə ki ayıldı, gərnəşəndən, əsnəyəndən sonra çevrilib sağına-soluna baxdı, qonum-qonşusunun halından xəbər





tutdu, özündən savay baş yasdığa qoyub yatan görmədi. Nikolaya atılan bombaların, səngərləri dolduran atışmaların, meydanları dolduran nümayişlərin səsini-sədasını eşitdi, daha ayrı şey lazım deyil. Özü görəcək ki, açılan ayın neçəsidir, ya çörəyin məzəndəsi neçədir, cəld durub qoşulacaq camaata! Özü də tez inanır, qəlbi sadədir. Fəhləyə indi tüfəngdən, patrondan vacib sözdür. Həqiqət sözü, qulağa girən düz söz lazımdır. Harda fürsət düşdü, gərək bunu həmdi-surə kimi deyəsən. Gərək beyninə yeridəsən, tainki axirət dərdi, cənnət, huri xəyalatı ilə sərxoş olmuşun zehnində dünya, həqiqət işığı yana! Bu işıq yanmayınca müsəlman içində nə fəhləyə, nə kəndliyə, təsir edə biləcəksən! Bunsuz nə hürriyyət, nə maarif, nə istiqlaliyyət var! Bunsuz nə vətən var, nə azadlıq, nə də ağ gün! Rus fəhləsinin bayramında yazılan söz, böyük bir söz var: «Bütün dünyanın füqərayi-kasibəsi birləşin!»

Bu sözü müsəlman fəhləsinin beyninə yeritmək gərəkdir. Nə yol ilə olur-olsun! Əl-ələ verməsək, iş getməyəcək!..

Tahirzadəyə yəqin idi ki, buraya, dərsə gələn fəhlələr məhz belə bir həqiqətə, doğru sözə möhtacdırlar. Güman ki, bunların içində sosial-demokrat təşkilatları ilə əlaqəlisi də var. Güman ki, bu sözləri onlar başqa yerlərdə də eşidiblər. Belə bir qış axşamında ehtiyatla əlinə alıb oxuduğu fəhlə qəzeti «Təkamül»ün vaxtilə cürətli çağırışları sətir-sətir gəlib nəzərindən keçdi:

- Bizim xidmət etdiyimiz, yolunda can qoyub hüququnun qarovulunda durduğumuz fəhlələr və füqərayi-kasibədir! Biz zülmün... cəbr və zorun əleyhinə iş görəcəyik. Biz fəqirlər və məzlumlar tərəfdarıyıq... Rusiyada padşah ən böyük mülkədardır. Mülkədarlar və sərmayədarların mühafizəçisidir. Hər kəs istəyir ki, zülm, işsizlik və aclıq yer üzündən götürülsün, gərək sərmayədarlıq əsrinin məhv və labüd olmasına cəhd etsin!»

O zaman bu sözləri Tahirzadə çox ehtiyat və həm də qürur ilə





oxumuşdu. «Bizim də, demişdi, ayıq qələm Sabirlərimiz var! Bizim də dərdimizi yazmağa səhifələrimiz, dilləşməyə camaatımız var!»

Yəqin etmişdi ki, bu sözlər hamıdan qabaq fəhlələri «təkamülə» çağırır. Fəhlələr bu sözləri oxumamış, eşitməmiş olmazlar!

Ancaq harda eşitsələr də, məktəbdə, dövlət qulluğunda olan bir müəllimin dilindən eşitmələri ayrı məna verər.

Mən nə sosialistəm, nə fəhləyəm, nə də universitet görmüşəm. Amma mənim də camaata sözüm var. Bu sözü mən deməliyəm. Güman ki, Bakı fəhlələri mənim sözüm ilə maraqlanarlar.

Tahirzadə ürəyindəkilərə birdən əməl etmək niyyətində deyildi. Ancaq bugünkü dərsdə danışmağı qət etmişdi. Ona görə qət etmişdi ki, uşaqların sözləri onun ürəyini yandırmışdı...

Tahirzadə məktəbə gələn kimi fəhlə uşaqlarının ruhuna bələd olmaq istəmişdi. İlk günlərdən belə bir sual ilə yazı yazdırmışdı:

«Ürəyimin ən böyük arzusu!»

Müəllim bilmək istəyirdi ki, on iki-on üç yaşlı uşaqlar gələcəkləri haqqında nə düşünür, necə düşünürlər. Bu mövzuda on səkkiz uşaq yazı yazmışdı. Tahirzadə axşam həmin vərəqləri oxuyanda qəlbinin iztirabları daha da artdı. Uşaqların biri yazırdı: «Ən böyük arzum bir də atamı görməkdir. İki ildi sürgündədir».

Nadir adlı biri yazırdı: «Mən dünyada heç nə istəmirəm, bir dəst paltarım olaydı, gimnaziyada oxuyanlar kimi!»

Hüsnəddin yazırdı: «Arzum budur ki, oxuyub Mirzə olaydım».

Tahirzadə böyük maraqla şagirdlərinin yazılarını oxumağa girişdi:

«Kaş, mən də böyüyüb Səttarxan qoşununa fədai yazılaydım», «Atam beşinci ildə gəmidə tətil üstündə vurulub. Böyüsəm, mən də atama sadiq olacağam!» «Mən istərəm oxuyam, Mirzəmiz kimi olam. Jurnalda şeirim çıxsın, şəklim çıxsın!» «Tiflisə, «Molla Nəsrəddin»də işləməyə gedəcəyəm», «Arzum budur ki, tez böyüyüm, atama kömək lazımdır. Dəmir yolunda şikəst olub!..»

Tahirzadə şagird yazılarını dönə-dönə oxuyub seçmiş, həm kə-dərlənmiş, həm də sevinmişdi. Burada, ana qucağından təzəcə ayrılan uşaqların balaca barmaqları ilə yazdıqları əyrim-üyrüm yazılarda bir qəlb hərarəti, gələcək səsi, həyat arzusu duyulurdu. Uşaq qəlbindən qopan parçalarda Tahirzadə vətəninin həm dərdini, həm dərmanını, həm keçmişini, həm gələcəyini, həm zəifliyini, həm qüvvətini duyurdu. Tahirzadə qarşısındakı dəftər vərəqlərilə sanki danışırdı:

- Ey sabah səmasının kiçik günəşləri, oyanın! Vətən göyləri sizin nurunuzla işıqlansın! Ey dənizçi tətillərini arzulayan, ey cəbhələrə fədai getmək istəyən, ey «Molla Nəsrəddin» mühərrirliyini ideal seçən balalar, sizə uğur olsun! Müqəddəs məramınız çiçəklənib gülşənə dönsün! Oxuyun, hürriyyət, inqilab təranələri sizin ilk və son dərsiniz olsun. Biz də bunu görək və deyək:

Yaşasın şəhriyari-hürriyyət!
Mən gödərsəm, var olsun amalım.
Yaşasın şəhriyari-hürriyyət!..

Bu səhər dərsə gedəndə məktəb həyatında Tahirzadənin ilk salamlaşdığı Valeri Kostin oldu. Həmişə məktəbə sakitcə, sanki yolüstü gəlib-gedən «qaradinməz» rəsm müəllimini Tahirzadə uzaqdan tanıyırdı, onun kimsə ilə ünsiyyət etmədiyini eşitmişdi. «Zatən rəsm dərsində danışmağa ehtiyac da yoxdur. Burada xətlər və rənglər danışır».

Ancaq bu gün Kostin adətinin xilafına olaraq Tahirzadə ilə çox şirin görüşdü. Sanki o da evdə baxmaq üçün apardığı bir dəstə şagird dəftərində müəllim yoldaşı kimi fəhlə uşaqların həsrətlərini duymuşdu. Sanki o da nəsə Tahirzadə kimi iztirablar çəkirdi.

Kostinin darülfünundan qovulmuş bir tələbə olduğunu, xəlvəti də olsa, danışırdılar. Şəhərdə o, münasib iş tapa bilməmişdi. Burada



ona ancaq rəsm dərsi deməyə icazə verilmişdi. Mümkündür ki, müfəttişlərin gözü onun üstündədir. Hər səhər köhnə, bozarmış bir plaş əynində iri addımlarla dinməz-söyləməz dərsə gələn qıvrımsaç, ucaboy müəllim, zəng çalındıqca eyvanda tək dayanıb papiros çəkər, sonra bir sinifdən başqasına keçər, əlində qələm sıralar arasını gəzərək şagird dəftərlərində cəld, səliqəli, aydın cızıqlar yazardı. Adətən, yazıya məşğul olanda onun dilini çıxardığını, ya dodağını gəmirdiyini uşaqlar bilirdilər. Rəsm müəlliminin nazik, ağ və zərif barmaqlarında naxış vuran qızlar kimi, nəsə xüsusi bir :sirr var idi. Qələmə balaca hərəkət verən kimi bir pəncərə, bir quş, açıq üfüq, doğmaqda olan günəş hazır olurdu. Dəftərlərində belə gözəl şəkillər görən şagirdlər bala sığırçın kimi altdan yuxarı sevincli və minnətdar baxışları ilə müəllimlərini süzərdilər. «Uçitel» isə, sanki ciddiyyətini itirməkdən, ya əl qüdrətinin zəifləməsindən qorxaraq ciddiyyətini saxlar, ötəri və mehriban bir baxışla kifayət edərək bir parçadan başqasına ötərdi. Ancaq bu gün adətinə yaraşmayan ünsiyyətlə Tahirzadəyə yaxınlaşaraq bir şəkil verdi:

- Bunu tanımamış olmazsınız, məndə çoxdan var.

Tahirzadə şəklə baxdı, müəllimə baxdı, bir də baxdı. Şəhadət barmağını şəklin üzünə çəkdi, çöhrəsində doğan ani bir sevinclə müsahibindən soruşdu:

- Bunu haradan almısınız?

Kostin sözünü təkrar etdi:

- Bu məndə çoxdan var.

Tahirzadə onun sualını özünə qaytardı:

- Yəqin tanımamış deyilsiniz.

Sanki bu sualı gözləyirdi, Kostin köksünü ötürdü, bir qədər duruxandan sonra əlavə etdi:

- Tanıyıram, sizin kimi məşhur yazıçıdır. Tələbə yoldaşım olub!

Tahirzadə də onun dalınca dərsə getdiyi halda, şəkli əlində sax-



layırdı. Bilmirdi sahibinə qaytarsın, ya saxlasın. Kostin əli ilə işarə edərək «cibinizə qoyun!» dedi.

Düzdür, Tahirzadə sinfə getdi. Jurnalı açıb şagirdlərin bir-bir adlarını çağırdı. Amma zehnində nə Kostini, nə də Nərimanın şəklini unuda bilirdi. Bu şəkil sanki böyük və mənalı bir sual kimi onun zehninə girib qəlbində oturmuşdu. Özü də rahət oturmamışdı. İçəridən hey suallar verir, Tahirzadədən soruşurdu. «Ey dili-qafil, sən demə, Kostin də Odesdən qovulubmuş, sən demə, bu nazik, ucaboy adam həkim imiş. Sən demə Nəriman ilə yoldaşmış...» Tahirzadə Kostin ilə xüsusi və xəlvət bir məqamda söhbət etməyin zəruriyyətini bir daha düşündü. Bunun üçün münasib yer, vaxt axtardı.

Axşam kurslarına adam yığmaq çətin olurdu. Yorğun fəhlələr işdən sonra gəlmir, ya başqa yerə gedirdilər. Tahirzadənin sinfində isə adam günü-gündən artırdı. Birisi şeir həvəsinə, birisi «şirin dərs» üçün, bir başqası isə Tahirzadənin söhbətinə görə gəlirdi. Fəhlələr onun sözlərini evdə də danışırdılar.

Tahirzadənin dərs əvəzinə, şəriət əvəzinə, müdavimlərə «artıq-əskik danışdığını» Əhməd Kamal hiss etmişdi. Hətta bir gün müəllim otağında üzünə də vurmuşdu:

- Məşədi Ələkbər, mütəallimlər sizin dərsinizdən məmnun deyildirlər. Əfəndim, siz şəriət ehkamını izah ediniz, sevmi-səlat, xumsi-zəkat ümuratını təlim ediniz! Sinifdə keçmişləri araşdırmaq, beşinci il iğtişaşından, Təbriz hadisindən, lisandan, bilməm daha nələrdən qonuşmaq nəmə lazım! Əksi-təqdirdə bu zavallı müsəlmanların məktəbini qapatmaqmı istiyorsınız, yahu? Xayır, əfəndim, qarğaşalığa qətiyyən yol verməyiniz!

- Fəhlələr bir söz soruşanda bəs cavab?

- Soruşmalara niçin vaqıt veriyorsınız? Yahu burası hücrə deyil, avropayi bir məktəb, üsuli-cədid məktəbidir. Müəllim dərsini pedaqoji üsullarla icra etmək iqtidarında deyilsə, mütəallimlərin sual və

bəlkə də istehzasına hədəf olacağı bədihidir, əfəndim! Yox! Heç bir suala imkan verməmək gərək! Unutmayorsunuz ki, bunlar fəhlələrdir, ruslarla təmas edən fəhlələr!

Əvvəlcədən dərsi hazırlar, sinfə daxil olan kimi şuru edərsiniz. Müsaidə, vaqt bulamıyacaq müdavim, təbiidir ki, sual verməyəcək! Əks-təqdirdə siz öz ixtiyarınızı mütəallimlərə veriyor, sonra da sinfin qarğaşalığa çevrilməsinə müsaidə ediyorsınız, iştə!

Tahirzadə müdirin qeydlərinə cavab versə də, onun narazılığını, hətta bəlkə də müəllimləri xəlvəti izlədiyini bilir, ürəyində özünü ehtiyata çağırırdı.

Çalışırdı ki, dediklərində aşkar bir etiraz, «polis xörəyi» görünməsin, ya heç olmasa, hüquqi cəhətdən irad üçün bir bəhanə ələ keçməsin. Ona görə də sözlərinin çoxunu sual şəklində, müdavimlərin dili ilə dedirtməyə səy edirdi.

Belə mətləblərlə adamları dindirir, təkrar etdirir, gülüb-güldürür, sözü lap izah edib ağardırdı.

Müdiriyyət də bunu bildiyi üçün Tahirzadənin dərsinə müfəttişlər, xüsusi komissiya gətirməyə müvəffəq olmuşdur. Tahirzadə uşaqlara bugünkü hadisələrdən—Təbrizdə şah qoşunlarının basılmasından, fədailərdən, Rəhim xan atlılarının qovulmasından, xalqdan, vətən məhəbbətindən, əsl azadlıqdan, inqilab mahnılarından danışan yerdə komissiya içəri daxil oldu.

Uşaqlar gurultu ilə ayağa qalxdılar. Çeşməkli, şeşəbığ kişi işarə ilə onları oturtdu, dinləmək istədilər.

«Beynəlmiləl» nəğməsini oxuyan bir şagirdi dinləyəndə qonaqlar pıçıldaşdılar. Əhməd Kamal rəngi dəyişmiş halda Tahirzadəyə yanaşıb yavaş səslə dedi:

- Nə danışırsan uşaqlara? Bu xəyanətdir!

Tahirzadə onun qolundan tutub bir az kənara çəkdi, qulağına dedi:

- Siz deyəsən yuxulu ya da dəmlisiniz!





- Bu sözlər üçün maaş alırsınız, gözünüzü tutar!

- Mənə maaş siz yox, xalq verir!

Şeşəbığ müfəttiş müəllimlər arasında mübahisəni, oturanların buna diqqət yetirdiyini duyub ayağa durdu.

- Qalxın!

Sinifdəkilər durdular. Müfəttiş məktəbliləri azad etdi:

- Uşaqlar evinizə gedin. Bu gün dərs olmayacaq.

Əhməd Kamal əlavə etdi:

- Müəllimlərin şurası var!

Adətən, dərs kəsilməyinə sevinən bəzi uşaqlar da, nədənsə bu dəfə məyus, pərişan çıxdılar. Sanki hamısı nigaran gedir, əziz müəllimlərini müfəttişlər əhatəsində tək qoyub getmək istəmirdilər.

Sinif boşalandan sonra şeşəbığ skamyada oturub pozuq Azərbaycan dilində Tahirzadədən soruşdu:

- Qospadin uçitel, siz buraya şəriət müəllimi nazinaçit olmusunuz, belədirmi?

- Bəli, siz buyurandır!

- Bunun əvəzinə əxlaq-povedeniye dərsi verirsiniz, həm də çox fəna povedeniye!

- Şəriət dərsi, cənab müfəttiş, eyni ilə əxlaq dərsidir!

Əhməd Kamal istehza ilə əl-qolunu oynatdı:

- Necə yəni, əcaba, şəriət nərəsi, əxlaq dərsi nərəsi?

Tahirzadənin üzündə istehzalı bir təbəssüm oynadı. Əvvəl müdirə, sonra müfəttişə baxdı:

- Cənab müfəttiş, şəriət dərsi əsl müsəlman hüsni-əxlaqını təlim etməlidir. Yəni oruc-namazı, Allahı, peyğəmbəri, on iki imamı, yüz iyirmi dörd min peyğəmbəri ki, bunların beşi əhli-kitabdır. Mən bunlardan deyirəm, demək də borcumdur. Bu əxlaqı bizim cəmiyyəti-xeyriyyənin proqramı da buyurur, bəli!

Əhməd Kamal qalxıb irəli yeridi, hirslə onun sözünü kəsmək

istədi:

- Vətəndən, hürriyyətdən moizə oxumaq nasıl? Bunlar da tədris məramıdır, əfəndim?

- Proqramdan vacib, bunlar Qurani-məsciddə, Allahın kəlamında var. Açın Yusif surəsini, bir də nəzərdən keçirin!

Əhməd Kamal üzünü müfəttişə tutdu:

- Cənab müfəttiş, Tahirzadənin müasir ədəb-ərkana, təlim və üsuli-tədrisə müqayir rəftarı xüsusunda kəndim bir an əvvəl hüzurunuza məlumat vermişim. Şimdi isə şəxsən müşahidə buyurdunuz. Ümid ediyorum ki, müvafiq tədbiratda bulunacağınızı acizanə istida və təmənna etməkdə kəndimi təmamilə məzur ədd edəcəksiniz, əfəndim!

Tahirzadə dedi:

- Cənab müdir, aydın dillə danışın, mən də başa düşüm, güman ki, söhbət mənim barəmdə gedir.

Müdir bir qədər etinasız sükutdan sonra cavab verdi:

- Sizin haqqınızda bulunacaq tədbirlər hala qarşıda duruyor, zənnindəyim!

- Bəs yarım saatdır müfəttiş cənablarına nə buyurur, başağrısı verirsiniz!

- Yahu, müəllimsiniz, vəsiqə daşıyorsınız, mənim müfəttiş həzrətlərinin kəndisinə buyurmaq hüquqummu var? Kəndim fəqət hüzurlarında acizanə ərz və yaxud rica edə bilirim, iştə bu qadar!

Tahirzadə də müfəttişə tərəf döndü:

- Cənab müfəttiş, Soltan Məcid cənablarının əmri ilə mən bu məktəbə göndərilmişəm. Neçə aydır ki, öz vəzifəmdə işləyirəm, Məktəblilərin rəyini soruşa bilərsiniz. Öyrətdiyim dərsləri də yoxlaya bilərsiniz.

Ancaq müdirimiz Osmanlıdan gəlmədir. Nə Azərbaycanı bilir, nə də bizim camaatın ruhunu. Onun özünü Azərbaycanda ya Qafqaz darülmüəllimlərindən birində təcrübə üçün bir-iki il saxlayıb



öyrətmək faydasız olmaz. Xalqı görər, məişəti öyrənər, bələd olar. Yoxsa onun indi bu Balaxanı fəhlələri ilə rəftarı ingilisin bir hindli ilə rəftarına bənzəyir. Müdir deyir: fədəm-dəmə, müdavim deyir: damdan-dama! Müdirimizin dərdi budur. Mənim də bu məktəbə heyfim gəlir.

Əhməd Kamal özündən çıxdı:

- Cənab müfəttiş, iştə Tahirzadə kəndisi imperator-əzəmin bədxahi, fikrən bietibar bir şəxsiyyətdir. Kəndisinin «Molla Nəsrəddin»dəki üsyançı şeirləri münəvvərlərimizin həpsində qəzəb doğuruyor. Keçənlərdə məktəbə hələ bir qız uşağı da gətirmişdi. Nə məqsədlə gətirdiyi naməlumdur. Cənab Qənizadə bunu tanımır, bunun təsvirinə məruz qalmışdır. Böylə bir mübahəm və təsadüfi şəxsiyyətin əsrimizin müqəddəs maarifpərvərləri sırasında çalışmasının nə qədər mümkün və müvafiq bulunub-bulunmamasını kəndiniz layiqi-diqqət və ciddiyyətlə tədqiq və həll edəcəksiniz. Zənni acizanəsindəyim, əfəndim!

Kəndi məslək və vicdan-millimizə müqayir çox mətalib biliyorum, fəqət həqiqəti söyləmək burda cühəla içərisində kəndim üçün pək gücdür! Şair nə qadar gözəl demişdir:

Ucundadır dilimin,
Həqiqətin böyüyü,
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi!

Müfəttiş soruşdu:

- Bunu kim demişdir?

- Bu sətirlər əsrimizin böyük türk şairi Əli bəy Hüseynzadə cənablarının kəlamıdır.

- Türk şairi kimdən şikayətlənir!

Əhməd Kamal təşvişə düşdü:

- Cənab müfəttiş, Əli bəy cənabları iştə qafqazlılara, tərəqqi və təalidən bənd bulunan bədəvi tərzi-həyat keçirməkdə şimdiyə qadar davam edib gələn əcəmlərə, daha doğrusu, kəndi həmvətənlərinin tənəzzül və inhitatına işarət ediyor!

Tahirzadə müfəttişi başa salmaq istədi:

- Cənab müfəttiş, möhtərəm müdirimiz, məni bağışlasın, şeiri doğru izah etmir. Əli bəyin sözlərində də həqiqət azdır.

Əhməd Kamal təəccüblə Tahirzadəyə baxıb səsini ucaltdı:

- Siz bu şeirin həqiqətinə şübhə ediyorsınız?

- Şübhə etmirəm, yalan olduğunu qəti deyirəm.

- Bu cəsarətə sübut lazımdır! Bütün türk münəvvərləri sizi məsuliyyətə cəlb edəcək!

- Təşəkkür edərdim!

Tahirzadə üzünü müfəttişə tutdu:

- Cənablar, Əli bəy, çox oxumuş, çox gəzmiş, çox da məlumat sahibi bir adamdır. Bu əsrdə belə adama ehtiyac çoxdur. Xüsusən bizim geridə qalmış Azərbaycanda. Bakı camaatının ehtiyacı böyükdür. Belə oxumuş adamın ağzından dürr tökülməlidir. Amma Əli bəy cənabları başının tükü sanı kitab oxuyub, neçə də dil bilir, həm həkim, həm şair, həm filosof, həm də bir mühərrir. Təəssüf ki, bu ana qədər hələ həqiqəti dilinin ucuna gətirib demir, ya demək istəmir. Bəlkə, saat xoş olmadığı üçün demir. Bəlkə istixarə, eləyir. Bəlkə münasib yer tapmır, məsləhət bilmir. Amma şeirindən belə məlum olur ki, guya qoymurlar, həqiqəti deməyinə mane olurlar.

Bu iftiradır. Bu, xalqa da, zəmanəyə də, mətbuata da iftiradır. Həqiqəti deyən deyir, yazan da yazır. İmperatorluq hökumətinin sayeyi-mərhəmətindən indi bizim mətbuatda həqiqət sədaları vardır!

İmperator adını çəkəndə müfəttiş qalxıb təzədən oturdu. Tahirzadə bu sözü deyəndə məhz müfəttişiv üzünə baxır, sanki onun üçün





dediyini hiss etdirirdi:

- Qafqazda «Molla Nəsrəddin» kimi bir jurnala, Qəmküsar kimi, Sijimqulu kimi kasıb-küsuba mane ola bilmirlər, necə olur ki, Əli bəy kimi alim bir zatə mane olurlar! Cənab Hacı Zeynalabdinin xüsusi mühərririnə mane olurlar. Axı kim mane olur? Əli bəyə mane olan yoxdur, olmaz da! Əgər onun məramında həqiqət olsaydı, çoxdan deyilmişdi. Əli bəy həqiqəti özü demir. İstəsəydi çoxdan demişdi. Bəli! Əgər Səlyanda, cavan vaxtında mane olurdular, Peterburqda oxuyanda həqiqəti deyə idi. Əgər orada mane olurdular, İstanbulda deyə idi. Cavan türklər xəlifəni yıxanda, hürriyyət sədası bütün ölkəni çulğayanda deyə idi. Əgər onda mane olurdular. Tiflisdə deyə idi. Orada da mane olurdular, Bakıda deyə idi. Heç olmasa, neçə il qələm çaldığı «Füyuzat» jurnalının səhifələrində deyə idi. Demədi! Görünür, ya Əli bəy cənablarının dilində belə bir həqiqət yoxdur, ya da var, deməyə cürət eləmir. Bu da nahaqdır!

Çünki dil kəsmək məsələsinə gələndə, burada da Əlibəyin özünün həmişə «islam, islam» deyə, döşünə döydüyü, tariflədiyi yerlərdən küssün. Dili kəsən boğaza qurğuşun tökən, başa mıx çalan həmin o yerlər, həmin sultan Əbdülhəmidin Babi-alisi, İstanbulu, həmin Məhəmməd Əli Mirzənin Tehranı, Bağişahı, həmin müctəhid Ağa Seyid Kazımın Nəcəfül-Əşrəfi, həmin Bakı padşahının qoçu dəstəsidir.

Yoxsa nə Azərbaycan əmələsi, nə füqərası dil kəsmək fitnəsinə şərikdir, nə də bu fitnələrdən qorxusu var. Bilmirəm, Əli bəy cənablarına qurd əli göstərən kim olub ki, onun gözünü elə qorxudub! Müdir cənabları da, görünür, ondan dərs alıb, ancaq bu bir dərs deyil. Belə dərsi nəinki üsuli-cədid məktəbinə, indi heç məscid hücrələrinə də yaxın qoymaq olmaz! Dünya ayağa qalxıb hürriyyət-hürriyyət dediyi bir zamanda dil kəsmək həsrəti çəkənlərin indi mədəniyyət meydanına, adam içinə çıxmağa haqqı yoxdur! Fəhlələr, kəndlilər adamın üzünə tüpürər. Mən belə qanıram...

Şeşəbığ müfəttiş Tahirzadənin dediklərini yaxşı başa düşməsə də, bir bunu yaxşı başa düşürdü ki, belə şəriət müəllimi olmaz! Bunun ağzından od tökülür. Bunu fəhlə içinə gətirən var. Yoxsa elə-belə dərs məsələsi yoxdur. «İndi mənə çox şey aydın oldu. Müdirin təlaşı əbəs deyilmiş!»



## On üçüncü fəsil

## OĞUL ANASI

Ruhum! Ey şahibazi-ülviyyət
Himmətim tək fəzada pərvaz et!..
Uç! Uç! Evci-səmada pərvaz et!..

Hara getsən, səninlə mən də varam.
Bu bədəndə fəqət əsirik, zar!
Ölməyimlə sevinməsin əğyar,
Alət olduqca mən, daxi duraram!

Mələknisanın da evi Südçülər məhəlləsində, şəhərin qurtaracağında, təpəciyin çaya enən ətəyində, söyüd ağaclarının dalında, dəyirman qabağında idi. O da Məsmə kimi dul qadın idi. Ancaq oğul-uşağı yox idi. Özünün də əlindən iş gəlməzdi. Nə əkin, nə tikin, nə sağın, nə yamaq-yırtıq əlindən gələrdi. Həmişə onu bazarda, bu dükanda, həyət-bacada, zoğal çubuq çeynəyən, yava-yava danışan, ağzını əyib, qulağını şəkləyib kişilərə qulaq asan görərdin.

Bəziləri güman edirdi ki, Mələknisanın «qulluğu» elə budur. Bu «qulluğunda» arvad çox möhkəm idi. Qarda, boranda, istidə, bürküdə də o, küçələrdən yığışmazdı. Məsmə Mələknisanın «elə işlərini» biləndə mat-məəttəl qaldı. Xəyalına gətirməzdi ki, Nikolay padşah kimi böyük bir adamın bu falçı arvadla «yaxınlığı» olsun. İndi hiss etdi ki, Fitilbörkdə bir yekə hörümçək oturub qol-qanadını dünyanın hər yerinə, lap bu Şamaxı dağlarına uzadıb istədiyini tora salır.

Mələknisa onun «qara müsürman» balasıdır.

- Yenə də fitnən var, a yasovul arvadı?

- Fitnəkar anandır, xalqa ad qoyma!

Düzdür, Mələknisa çoxlarına belə sərt cavab verərdi. Ancaq onun acığına gələn əsl söz «yasovul arvadı» çağırılması idi.

Buna bir cavab tapmırdı. Çünki, doğrudan da, o, yasovul arvadı idi. Əri çopur Mikayıl ömrünü pristav qapısında keçirmişdi. Qışın çovğununda ləzgi dalınca gedəndə qayadan uçub ölmüşdü.

Mələknisanın yasovul sözündən niyə acığı gəlir, o da məlumdur. Əlbət ki, ərindən narazı olmağına görə yox! Ərini çox istəyirdi. Rəhmətliyin ölüsü gələndə Mələknisanın saç yolmağını da görmüşdülər. Ərinin xoş rəftarı, qazanc gətirməyi dilindən düşməzdi. Qulluğu da pis deyildi. Ərini yaraq-yasaqlı görəndə Mələknisanın qoltuğuna Şəmkir qarpızı yerləşmirdi.

Acığına gələn ayrı şey idi. Bu idi ki, camaatın nəsə yasovul adından xoşu gəlmirdi. Adamlar bir-birini söyəndə: «Sən də mənə yasovul-zad olmadın ki!», «Yasovul kimi nə dalımdan döşənmisən, canım, əl çəksənə!» deyərdilər.

Xülasə adamların bu sözdən zəhləsi gedirdi. Deyəsən, elə buna görə, lap qəsdən Mələknisaya «yasovul arvadı» deyirdilər.

Mələk xala, dəyirmançı qızı, ya Hacı Abdulla nəvəsi, heç olmasa, yalxıca Mələknisa da demirdilər. Neçəsini söyüb danlamışdı ki: «A filan-filan, ölüynən nə işin var? Kimin arvadı idim, nəyinə borc. Keçi öldü, qoturu da kəsildi, qurtardı getdi. Mənim öz adımı çağırsan dilin quruyar? Artıq-əskik söz nə lazım!»

Buna baxan kim idi. El ağzı çuval ağzı. Bir söz ki, dilə düşdü, qurtardı getdi. Sən ha de, ha çımxır, kimdi qulaq asan! Hamı dediyini deyir. Böyükdən kiçiyə, tanışdan, qonşudan yadacan hamı yasovul arvadı deyirdi. Keçi ölsə də, qoturu kəsilmirdi ki, kəsilmirdi. «Yasovul arvadı, yasovul arvadı. Elə bil adım yoxdur! Elə bil Mələknisa onların atasını öldürüb!..»

Mələknisa da ayrı bir vücud idi. Məhəllədə iş olmazdı qarışmasın. Buraya bir adam gəldi, gərək o tumanını sürüyə-sürüyə özünü çatdırsın. Toy oldu, yas oldu, mərsiyə, ya mərəkə oldu, Mələknisasız keçməzdi. Onu poçt qabağında, dəftərxana, «süd həyətində», dərmanxanada, «uşkol ağzında», vaxt-bivaxt dəyirman başında, çayda palaz yuyan, paltar sıxan qadınların yanında görərdin. İş o yerə çatmışdı ki, dəlləklər uşaqları sünnət eləyəndə də Mələknisa kişilərə qoşulur, utanıb çəkinmirdi:

- Öz balam kimi uşaqlardır, bunun nəyindən utanım, a qız, qabağımda böyüməyibmi? Kişilərin məndən nəyi artıqdı?..

Düzdür, qapılarda onun üzünə baxan, saya salan yox idi. Amma onun vecinə deyildi. Baş vurmamış ocaq qoymurdu. Novruzda, Qurbanda, rəqayibdə, mövlud bayramında, aşurada Mələknisa nehrə kimi çalxalanar, təbil kimi səslənərdi. Balağını ovcuna yığıb o yan-bu yana bir hövl ilə vurnuxar, deyərdin nə isə itirib, ya nəyi isə axtarır.

O da qəribə idi ki, Mələknisa üçün sünni, ya şiə məclisi yox idi. Onun hər ikisinə yolu var idi:

- A yasovul arvadı, sənin məssəbindən baş açmaq olmur, sünnisən ya Əli şiəsisən? O yanlıq da olursan, bu yanlıq da. Necə şeydir bu? Aləməzhəbsən, nəsən!

Mələknisa belə tehmətlərə «diri-diri» cavab verərdi:

- Mənim üçün hamısı birdi! Müsürman olan ilə salam-məlikim var!

Yasovul arvadının dolanmağı, güzəranı da qəribə, sirli bir məsələ idi.

- Axı bunun əri ölüb, bacarığı yox, kəsəməti gəlmir, peşə sahibi deyil, əlini ağdan-qaraya vurmur. Bəs bu neylə dolanır, a başına dönüm?..

Bu suala hərə bir cür cavab verirdi:

- Əşi, onun nə dolanmağı var. Həmişə qapılarda qarnını otarmırmı?

- Canım, elə demə, çırt çubuğu filan qədərə başa gəlir!

- Tənbəkinin biri yarım pud arpadı!

- Tənbəkisi də bir tənbəki deyil!
- Vartaşen tənbəkisi çəkir!
- Onlar keçmiş ola! Mikayıldan sonra kimdi ona Vartaşendən tənbəki gətirən. Meşədən əvəlik yarpağı qurudur, xəzəl çəkir!
- Çubuğu lap sazdı!
- Baxma, xəzəl yandırır, açıq demir.
- Vallah, onun o işıldayan kisəsində axtarsan, lap əla tənbəki var! Nə danışırsan, xəzəl nədi, zad nədi! Lap peçatlı-kağızlı Səfərov tütünü, Həsənovlar tənbəkisi çəkir!..

Doğrudan da, Mələknisanın işi bir sirr idi. Nə tənbəki, nə qədək tuman, nə qanovuz qofta, nə Şəki dəsmalı, nə çust... Kimi deyirdi, əri qoyub gedib. Kimi deyirdi, pristavlıqdan əl tuturlar. Kimi də deyirdi, «naçərnikin» evini silib-süpürür. Bəziləri də deyirdi: «Yox, onun adamı var. Sevdəyər qohum-əqrəbası var, tək deyil!»

Bilən yox idi, bu ehtimalların hansı düzdü, hansı yalandı! Ya bəlkə hamısı yalandı. Yalandı, bəs bu arvadın güzəranı hardandı?

Çox deyib-danışmışdılar, axırını bir yerə çıxardan yox idi. Arvad da öz işində idi. Deyilənlər də köhnəlib gedirdi. Camaat görürdü ki, dünyada açılmayan düyünlər, qaranlıq mətləblər çoxdur. Bu da onlardan biri!

- Hardandı özünə. Allah fitnəsindən saxlasın!,

Mələknisanın işlərindən baş çıxarmaq çətin olduğunu yəqin edənlər, ya düşündüklərini dilə gətirməkdən çəkinənlər əllərini tovlayıb üz döndərirdilər.

Bələlərindən biri də yazıq Məsmə idi. O, Mələknisanın çox işlərini bilməsə də, ondakı «yava gözü» çoxdan duyub anlamışdı. «Bacı, bu gözü çıxmış əyri baxdımı, adamın bir tərəfi gedir. Elə bil, balta ilə vurub saldılar! Allah onun əcinnə gözündən saxlasın. Yaman arvatdı!.. Evlərdən uzaq olsun. Onu görəndə, elə bilirəm, kor şeytanın özünü görürəm. Allah lənət eləsin!..



Nə edəsən ki, Mələknisa da gözdən çəkilmirdi ki, çəkilmirdi. Gün olmazdı hərlənib fırlanıb Məsmənin qapısından keçməsin. Toyuq oğrusu kimi qapı itələməsin, həyətə boylanmasın. Fürsət düşəndə uşaqları danışdırmasın:

- Necədi nənən, bala! Sizə kim gəlmişdi?

Məsmə o qədər Mələknisadan dad çəkmişdi ki, uşaqlar da onun pis adam olduğunu bilir, onunla kəlmə kəsmək istəmirdilər. Di gəl, Mələknisa əl çəkməz, sözünü deməsə, cavabını almasa, hal-əhval bilməsə ötüb getməzdi.

«Kaftar gəldi yenə... Lənət sənə kor şeytan... Qoymaz ki, işimizi görək ha!..»

Mələknisanın dağarcıq kimi uzun, kötük kimi boz gövdəsi küçədə görünən kimi bu sözlər eşidilirdi. Bunu tək-tük adam yox, az qala, hamı deyirdi. Tarlada şirincə işləyən, məhsulunu toplayan kəndli göydə qara buludu görəndə, sağına gedən çoban sürüyə canavar soxulduğunu görəndə necə əndişəyə düşərsə, Mələknisanı görəndə də elə pozulardılar. Pozular, iyrənc bir şeyə toxunmuş, sürtünmüş kimi çimçişərdilər. Amma bu ikrahı, nədənsə, büruzə verməz, qarının üzünə vurmazdılar.

Qarıya da bu, kifayət idi. Adamlar nə düşünür, qoy düşünsünlər. Təki aşkar üzə vurub Mələknisanın yolunu kəsməsinlər. Mələknisanın yolunu, hələ ki, kəsən yox idi. Yəqin ki, işlər belə getsə, axıracan da olmayacaq idi. Çünki heç kəs «it» ilə müsayib olmaq, onunla üz-üzə durmaq, ona bir növ «bulaşmaq» istəmirdi. O da kölgə kimi nə tutulur, nə danlanır, nə döyülürdü. Əl altından işini görürdü.

Xülasə, dindar evlərdə qara pişiyə necə baxırdılarsa, Südçülər məhəlləsində də Mələknisaya elə baxılırdı. Güman etməyin ki, Mələknisa başa düşmürdü. Yaxşı başa düşürdü, bundan da razı idi. Ona görə razı idi ki, qara pişiyə toxunmadıqları kimi, ona da bir söz deyən, daş atan olmurdu. O nifrət ki Mələknisaya var idi, daş

olsa çatdadardı. Amma buna bir şey olmurdu. Heç kəs soruşmurdu ki, ay arvad, səhər tezdən poçt qabağında sənin nə alıb-verəcəyin, qürbətdə adamın yox, qəzet oxuyan, qulluq sahibi deyilsən. Hamıdan tez poçt furqonunu nə əcəb qarşılayırsan?..

Soruşmurdular ki, «ay arvad, Tahirzadənin dükanında axtarış getdi, Bəndalının xozeynindən protokol bağlandı, Lalayevin taxtapuşu altından «pund» tüfəngləri çıxdı... Bunlar nə iş idi».

Bir yandan da söz Mələknisanın ürəyini az qalırdı deşə. Bildiklərinin hamısını açıb-tökmək istəyirdi. Amma qorxurdu. Qorxurdu ki, «polisdə dilinə şiş basarlar!» Kimsənin cınqırını çıxartmağa icazəsi yox idi. Buna görə də hərlənib-fırlanıb tez-tez özünü Kişmişovun yanına salır, əlini dizlərinə çırpa-çırpa danışırdı. «Kişmiş qardaş» da qabağında dəftər açır, gözünə çeşmək taxır, əlinə qələm alır, pəncərəni örtür, diqqətlə qulaq asandan sonra dik-dik Mələknisanın eybəcər üzünə baxırdı:

- Bunları sən srağagün danışdın ki!

- Necə danışmışam?

- O axşam saat onda hamısını demisən, budur, yazmışam!

- Lap elə belə danışmışam?

- Belə demisən!

- Heç artıq-əskiyi yoxdu? Dünən gecədən bəri ha götür-qoy eliyirəm axı!

Kişmişov dəftəri büküb çeşməyini götürər, gözünü ovuşdurardı:

- Di get, get gör təzə nə var, nə yox! Əliboş gəlmə..

- ...

- Oturma, dur get!

Bu il, deyəsən, it üstündə təhvil olub. Lap it üstündə, özü də çoban iti, ov iti, tazı yox, bazar itlərinin üstündə. Üstündə yox, lap başında, başında da yox, lap burnunun, murdar burnunun ucunda!..

Məsmə bunu uzun tərəddüd, şübhələr nəticəsində hasil etdiyi





qəti bir etiqad kimi bərkdən deyir və təkrar edirdi. Sanki bununla o, əvvəldən axıra bəd gələn bu uğursuz ildən acığını alır, intiqam almaq istəyirdi...

- Yoxsa belə şey olmaz, canım! Bəla, bədbəxtlik, neybət nigaranlıqdır, hey göydən tökülür. Bir yerdən bir işıq-işarantı yox! Uşaq yazıq bülbül səsinin ucundan elə bədbəxt oldu, o oğlan da şərə düşüb belə sərgərdan getdi. Qalmışam bu qara pərdələrin altında yap-yalqız. Quqqu kimi tək-tənha! Bunu da mənə çox görürlər. Gündə bir xəbər, gündə bir hədə-qorxu, sorğu-sual ki, deyəsən, Məmdəli şahı taxtından mən salmışam, deyəsən, rus padşahının paraxodunu Məsmə batırıb. Xəzinəsini Məsmə dağıdıb, Məsmənin yetimləri dağıdıb!..

Məsmə bunları, mahiyyət etibarilə ürəyinin acı şikayətlərini namaz üstündə, canamaz qabağında, yerlərdən təngə gəlib, üz döndərib göylərə əl qaldıranda deyirdi. Doğrudur, dərdini kimsədən gizlətmirdi. Gizlədə də bilməzdi. Camaat hamısı bilirdi ki, bu kiçik ailəyə necə böyük zülmlər olur. Ancaq nə edəsən ki, bilmək, demək, eşitməkdən nə çıxar. Məsmənin ah-naləsini eşidən çox, cavab verən yox idi. Cavabsız sorğu və şikayətlər isə həmişə ağzı bağlanan çaylar kimi birikər, böyüyər və əjdaha kimi qıvrılıb axırda bəndləri qırmaq istər. Bəlkə də buna görə Məsmə indi adamlar, yerlər ilə yox, göylər, «müqəddəslər» ilə dilləşmək istəyirdi. Namaza duranda o, vəzir-vəkil qapısına gedən kimi xüsusi bir tələş ilə, xüsusi bir həvəs və iştah ilə, bəzən də qəzəb və hiddət ilə yaxasını düyməleyir, başını düzəldir, şikayət dilini açırdı. Adətən, təsbih çevirdiyi, salavat çəkdiyi dəqiqələrdə dua yerinə «asi-küfr» düşür, ağzına gələni deyir, ürəyini boşaldırdı.

Onu xəyal elə aparmışdı ki, vaxtın getdiyini, axşam qaranlığının qapı-bacanı tamam basdığını, çıraq yandırmaq lüzumunu da seçməmişdi...

Gurupp!

Qaranlıqda göydən qopan, damdan uçan kimi ağır bir şeyin, bir qaraltının guruppultu ilə birdən içəri düşdüyünü görən qadın diksinib dik atıldı. Heç bilmədi təsbehi hara atdı, canamazı hayanda qaldı:

- Hinn!

- Bismillah, bismillah!

Qaranlıqdan, sanki onun hövüllü səsinə təsəlli olaraq cavab gəldi:

- Mənəm, ana!

Bu söz Məsmənin qulağında yuxu kimi səslənsə də, güclü və xoş səsləndi. Onun qorxu və vahimələrinin üstünə sanki su səpib söndürdü. Bu səs Məsməyə aşkar olan kimi yox, xəyalat kimi gəldi. Sanki bunu göylər dedi:

- Qorxma, mənəm, ana!

Bunu uzun intizar və iztirabları ilə əl açıb yalvaran tənha və kimsəsiz ananın dualarına cavab olaraq güclü göylər dedi: «Mərhəmət qapıları açıldı, dualarım müstəcab oldu! Şükür sənə, İlahi! Kəreminə şükür, ya rəbbi!»

Qadının xəyalında bir işıq kimi yanan bu ümid sönməmişdi ki, Bəndalı iri, bərk və güclü əllərilə anasının qolundan tutub namaz üstündən ayağa qalxızdı.

- Qorxma, mənəm, gəlmişəm!

Məsmə möhrü, canamazı ayaqladığını hiss etmədən qışqırdı:

- Bəndalı? Səsinə qurban, oğul!

- Kiri, ana, xəlvət gəlmişəm, haray salma!

Bəndalı bunu deyib qapını basdı, anasını yastıq kimi qoltuğuna vurub taxtın üstünə gətirdi. Yanını qoyanda taxt çoxdan bəri görmədiyi bir ağırlığa məruz qaldığından cır-cır cırıldadı. Bəndalı yerdə çömbəldi, anasını körpə uşaq kimi dizi üstündə oturtdu: qaranlıq olsa da, gözlənməz olsa da, Məsmə bu əlləri dərhal tanıdı. Bu doğma əllər quru umuzlarına toxunan kimi qanı qaynadı, qəlbi tər-





pəndi, gözünə işıq, bədəninə, deyəsən, gəlinlik qüvvəti, təravəti gəldi.

Ana bu əlləri nə gördü, nə yoxladı. Ancaq o işlək fəhlə biləklərindən, uzun və iri barmaqlardan gələn doğma, isti, bakir övlad hissləri isti bir cərəyan kimi vücuduna axdı, onun bütün yorğun müztərib əsəblərini dikdirib dilə gətirdi. Məsmə bu əlləri lap körpəlikdə uşağın ağzından ayırıb necə bələyə bükər, bağlardı. O bu əllərin hər ikisini ovcunda sıxıb necə qızdırardı. Bu əllərə neçə rəngli ip əlcəklər toxuyardı. Bu əllərə qaşıq tutmağı, çiling atmağı, çomaq oynatmağı necə öyrədərdi. Bu əllərdən o nə qədər tikan çıxarmış, yara bağlamışdı. Körpəlikdə bu əllər məhəbbət nəvazişlərindən məhrum, nakam anaya, sanki təsəlli olmaq üçün onun üzündə, başında, saçında nə qədər mehriban-mehriban gəzmişdi.

Uşaq anasını məyus görəndə qollarını açıb sarmaşıq kimi Məsmənin boynuna dolaşardı: «Ağlamayacaqsan ana. Qoymayacağam, vallah, yox!»

Bir az boy atandan, bu əllər yaba kimi bərkiyib iş aləti olandan sonra Bəndalı ancaq yuxuya gedəndə Məsmə bu əllərə doyunca tamaşa, ürəyincə qulluq edə bilərdi. Kotandan yorğun qayıtdığını görən ana oğlunun ayaqlarını yuyandan sonra yanında yavaşca çöməlib biləklərini ovub dincəltmək, «yumşaltmaq» istərdi. Bəndalı da qoymazdı: «Burax, ay ana, eləmə!»

Həyat və səadətinin silahı, simsarı, bəxti, iqbalı saydığı bu əlləri Məsmə necə tanımaya bilərdi. O, uzaq köyşənlərdə bu əllərin əkdiyi toxumu, biçdiyi taxılı, bərkitdiyi bəndləri də tanıyırdı. Bəndalının əli dəyən daşlar, ağaclar, qapılar, divarlar da Məsməyə minnətdarlıqla təzimə durardı. Bəndalının əlləri ana üçün qüdrətdən yaranma bir iqbal, abadlıq deyildimi?

Bəndalı anasını qucağında, diziüstdə tutub dururdu.

- Qoy boynunu qucaqlayım, oğul!

- Dayan bir!





- Di yaxşı! Əyləş! Əyləş görüm, ay ana, çoxdandır sənin əlin məni oxşamır, nəfəsin mənə dəymir, səsini eşitmirəm. Yaman qəribsəmişəm, ay ana, başına dönüm, bir dizim üstündə rahatlan görüm. Mən nəsə ancaq sənin yanında dincəlirəm. Qız hanı? Eşitdim, çağırıb gətirtmisən?

- Tətilə gəlib. Bibisigildədir. Ərişdə kəsirdilər, çağırdı. Özündən de, bala! Necə yəni «xəlvət»? Qurtula bilməmisən? De görüm necə gəlmisən?

Məsmə indi hiss etdi ki, oğlunun çiynində qatar var, gözü küncə söykənən beşaçılana sataşanda qəlbindən gizilti keçdi. Bəndalının da sinəsindən bir ah qopdu. Qaranlıqda əlini anasının başında, neçə yerdən yamaq vurulmuş, indi, namaz vaxtı isə boğazından düyünlənmiş köhnə çarqatın üstündə gəzdirdi. İndi Bəndalı anasının sualına cavab vermək istəmirdi. Ona yazığı gəlirdi. İstəmirdi, o belə bir şey soruşsun, çünki bunun cavabı ağır idi.

- Nə borcuna necə gəlmişəm... Gəlmişəm! Anam üçün mən dağları da yarıb gələrəm. Bilmirsənmi, gələrəm!

- Ağlına-kamalına qurban olum, bala! Anan təki ölsün, səni ev-eşikdən didərgin, çöldə-bacada görməsin. Xətalı yollarda görməsin. Burax durum, ocağı yandırım.

- Yox, ay ana, yandırma! Mənə sənin nəfəsin bəsdir. Durma. Danış görüm, necə dolanırsan, pristav yenə səni incidirmi? Yəqin məni səndən istəyirlər? Mahalda nə var, nə yox?

- Qələt eləyir istəyir, onun cavabını vermişəm! Mənə nə eləyəcək? Sən özündən danış! İşin nə yerdədi, görəydim qanına bulaşmış Hacı yenəmi pul töküb iş yeridir. Onu görüm sağ yeritməsin. Bu işlərə bir baxan olacaq, ya yox, ilahi!

- Məlum deyil, ana, baxsa da, baxmasa da, sən nigaran olma, inşallah, qurtulacağam. Mənə namaz üstdə dua elə! Əlin duada olsun. Anaların ahı yerdə qalmaz, Allah eşidər!

- Peşəm nədi, əlimi o bir pərvərdigara açmışam!

Bəndalı əlini anasının çarqat altındakı saçlarına vurdu. Ancaq onların tökülüb qısaldığını duyanda tez əlini çəkdi və sözünü dəyişdi:

- Nə olacaq, Allahın iznilə düşmənin gözünə ağ salacağam. Bu köpək oğluna bac verən deyiləm. Özü də ki, igid-igid yoldaşlar var. Tək döyiləm.

- Olsun, düşmən də tək olmasın, oğul!

- Yaxşı adamlar var, Allah ömür versin.

- Allah sizə havadar olsun, oğul, tək qalmayasan!

- Tək deyiləm, ana, tək burada, kənddə sənsən! Sənin fikrini çəkirəm.

- Mənə nə olasıdı, ay bala! Mən canımı sənin bu tozlu qədəmlərinə qurban demişəm. Qurtul, üzə çıx gəl, iki ay sərasər oruc-nəzir eləmişəm, ayaqyalın pirlərə gedəcəyəm.

- Onsuz da kiçilib yumağa dönmüsən, oruca dözən can hardadı səndə, a rəhmətliyin qızı!

- Sənin yolunda hər məşəqqətə dözərəm, təki sən qayıt. Təki bu komacığımdan səsin gəlsin.

- Sağlıq olsun... Kölgən üstümdən əskik olmasın!

Məsmə oğlunun üzündən-gözündən öpüb durmaq istədi:

- Çay qızdırım, yol gəlmisən!

- Yox, dayan!

Bəndalı onu elə bərk-bərk tutub dizi üstdə oturtmuşdu ki, Məsmənin gülməyi gəldi:

- Nə qucağında oturtmusan məni? Uşağam bəyəm?

- Uşaq mənəm, sən mənim anamsan, anam!

Bəndalı bunu dedi, anasını ən əziz, istəkli kimi bağrına basdı: «Anam, kimim var burada anamdan savay, desənə!»

Bəndalının sanki bu andakı sevincinin həddi-hesabı yox idi. İndi o, bütün körpəlik, uşaqlıq günlərində nəvazişini qədr-qiymətsiz



keçirdiyi anasına sanki məhəbbətini, minnətdarlığını bildirirdi. Yox! O, indi dünyada aradığı, axtardığı ən rahat yeri, ən sadiq, ən yaxın, ən mehriban adamı tapmışdı. Yəqin bilirdi ki, bu qadın ona xəyanət etməyəcək, onu atmayacaq, satmayacaq, qiyamətə qədər sədaqətini saxlayacaqdır! Belə bir adam isə bu zamanda, bu mühitdə nə qədər az idi. Bəndalı sanki bütün uşaqlıq illərində yaşadığı ana qucağının istiliyi, məhəbbəti, sədaqətini ancaq indi, bu tənha gecələrdə, doğma evində tapıb dərk etmişdi. Sanki ömrü boyu nəsibi olduğu çox az, lakin çox şirin sevinc dəqiqələrini də ancaq burada, bu ərsiz, qeyrətli qadında tapmışdı:

- Ay ana, nə olaydı, həmişə yanımda olaydın! Sən yanımda olsan, mənə nə güllə batar, nə məni qılınc kəsər. Sənin mehriban səsin mənə bəsdir, ay ana! Sənin kimi arxayın arxam ola, vallah, Nəbi kimi Nikolayın qoşununu sındıraram. Nə edim ki, arvad xeylağısan axı!

Məsmə güclü düşmən qabağında köməksiz oğlunun nisgil və həsrətini başa düşürdü:

- Sənin yolunda at da minərəm, beşaçılan götürüb, qatar da qurşaram, ay ürəyimin bəndi, oğul! Dünyada bir səndən savay nəyim var!

- Ay ana, azmı zəhmətimi çəkmisən, indi də özüm ilə dağa-daşamı salım səni! Yox! Qeyrətdən deyil!

Bəndalı başını aşağı saldı, əlləri boşaldı, səsi alçaldı və iyidə yaraşmayan bir həzinlik və riqqət kəsb etdi:

- Ay ana, mən səndən xəcalətəm, yaman xəcalətəm.

- Elə demə, dilinə qurban olum, anan ölsün, sənə nə bir analıq eləmişəm ki!

- Yox, ana, demə qanmıram. İndi gərək mən səni ayrı cür saxlayaydım, oğullar kimi oğul olmadım. Sənə cövr-cəfa oldum. Zamanın üzü qara olsun, ay ana! Mən belə deməmişdim. Şərə düşdüm, saldılar məni şərə, yaman saldılar. Məni köyşəndən, əkin-biçindən

eladilar. Ana-bacımdan ayırdılar.

Oğul öz arzu və həsrətlərini deyəndə ananın da sinəsi tərpəndi. Məsmənin sinəsini dolduran murad həsrətinin həddi-hüdudu yox idi. O, ərini itirəndən sonra bütün mehrini balalarına salmış, bütün arzu-kamını bir oğlundan götürmək istəmişdi.

İndi Bəndalı sanki bunları soruşur, anasının qəlbini yoxlamaq istəyirdi. Bəlkə də o bilmir, anasının oğul uğrunda nələr duyub--düşündüyünü xəyalına gətirmirdi. O bilmirdi ki, Məsmə oğlunun ilbəil yox, günbəgün necə böyüdüyünü izləyir. Bəndalının arzu-kamla murad gününü, toyunu nə böyük həsrətlə gözləyirdi. Bunları desinmi? Özünün analıq vəzifəsini oğluna saysın, sadalasınmı? Yox! «Uşağın bağrını qana döndərmək, ürəyini köyrəltmək niyə! Yox, istəməz, məqamı gələr danışaram. İndi yox!»

Məsmə oğlunun ürəyini köyrəltmək istəmədi, daha da təsəlli verdi:

- Fikir eləmə, oğul, iş iyid başına gələr. İnşallah, nicat taparsan, tanrımdan istəmişəm, fikir çəkmə.

Məsmə bunları deyə-deyə çay hazırladı. Düyünçəsində dərman kimi büküb saxladığı parça nabatı gətirib nəlbəkiyə qoydu. Bütün bir «cad əppəyi», iki parça qovurma, yumurta, soğan, sumax, duz, kuzə dolusu su gətirdi. Evdə nəyi vardısa, gətirdi.

Bəndalı Mərəzədə satqın bir qarının evində necə gecələməli olduğunu anasına danışdı. Gecə ilə polisə xəbər çatmış, Bəndalı atışma gücünə, bir qatar patron boşaldaraq qaranlıqda hasarlara sığınaraq yaxasını qurtarmışdı.

İndi, anasının yanında, öz evində də arxayın deyil, vahiməli, səksəkəli idi. Evdə işıq yanmağa qoymur, başına lülə kağız salınmış yeddilik lampanın işığını azaldır, pəncərə tərəfinə sini qoyur, ay buluda girməmiş həyətə çıxmaq istəmirdi. Belə sakit, sərin, aylı gecələri Bəndalı özü çox sevərdi. O bu gecələrdə, sanki daha çox yaşamış, çalışmışdı. Belə vaxtlarda bəzən mal itirib örüşləri gəzərdi, bostanda



dizəcən çirməkli, bel əlində arxdan-arxa hoppanar, bənd bərkidər, su açardı. Yayda, xırmanda taxıl oğurlanmasın deyə, küləş üstündə uzanıb isa-musa quşunun çağırışlarını ləzzətlə dinlərdi. Görünməz, ancaq səsindən seçilən durna karvanlarının «Bağdad ellərinə» uçduğunu həsrətlə xatırlardı. Ayaz göyə, soyuq, dibsiz fəzada sayrışan ulduzlara, «mizan-tərəziyə», kəhkəşan yoluna baxmaqdan doymazdı. Özü də hiss etmədən yuxu gözünə dolar, kirpikləri qurğuşun kimi ağırlaşıb örtülərdi. Keşik çəkmək əvəzinə, çul kimi düşər, bir də sərin səhər nəsimi burnuna dəyəndə oyanar, üşüyən qıçlarını qarnına yığıb bürüşər, sübh açılmamış cəld ayağa qalxardı.

O zamanlar ətrafındakı hər şeyə diqqət və ünsiyyətlə baxan rəncbər Bəndalı indi hər şeydən çəkinir, vahimələnir. İndi onu yalnız pristav, yasovullar yox, hər ötən qaraltı, hər eşidilən xışıltı təqib edir. O, indi qaranlıqdan da, işıqdan da, böyükdən də, kiçikdən də, «qazonnı»dan da, başıpozuqdan da qorunmalıdır! Ağac, daş kölgəsindən də düşmən gözləmək olar. «Nə biləsən, xəmir yeyənə nə etibar!»

O zaman gecələr uzun olardı. İndi isə gecə, «bir qurtum su içim saatı» çəkmir. Elə tez keçir ki, deyərsən, bütün sirləri açıb- ağartmaq üçün divan adamlarına yol və kömək göstərir.

Anası əvvəlcə çıxıb həyət-bacanı yaxşıca bir dolandı. Guya toyuğu axtarır. «Ay sənə çər dəysin, gör hara qısılıb qalıb. Tülkiyə loğma olmaq istəyirsən, kişə, kişə!» Əlində kuzə su doldurmağa gedir. Guya dəstəmaz alırdı: «Allahümməsəlli-Əla Məhəmməd və Ali Məhəmməəd!» Məsmə təkbir və salavat səsini ucadan deyir, axırını mahnı kimi uzadır, sanki bununla «bəduğur»ların şübhə və fitnəli niyyətlərini dağıdırdı.

Ay buluda girəndə, hər tərəfdən arxayınlıq duyanda Məsmə oğlunu çölə buraxdı. Bəndalı qəfəsdən çıxmış aslan kimi cəld balaca, açıq həyətdə bir cövlan vurdu. Çəpərlərə yanaşıb, küçəyə-bacaya boylandı. Sonra qayıdıb tut ağacının ortadan əyilib burulan

gövdəsinə dayandı, əllərini ağacın yoğun, çopur yerlərinə sürtür, sanki dairəsini. ölçür, ya yoxlayırdı. Bəndalı orada bir şey axtarırdımı? Bəli, axtarırdı. Uşaqlıqda bıçaq ilə çomaq başı kimi yumru bir yeri kəsmişdi. Kəsik yeri bitmiş, qabarmış, böyümüşdü. Bəndalı o yeri tapdı. Şəhadət barmağını, sonra da ovcunu orada bir neçə dəfə gəzdirdi. Ağac canındakı yara yerini çoxdan sağaldıb örtmüşdü. Yumru bir qabar gövdədən aralanmışdı. Bəndalı o günlərin həsrətiləmi, uşaqlıq əyyamının xatirəsiləmi köks ötürdü. Xeyli vaxt əlini ağacdan götürmədi. Sanki haçansa, ömrünün ən əziz çağlarında itirdiyi qiymətli bir şeyi tapmışdı. Qollarını açıb ağacı qucaqladı, üzünü onun çopur, qabıqlı, möhkəm gövdəsinə dayadı, təkrar köksünü ötürdü: «Namərd dünya! Yurd yuvamı, kasıb komamı da mənə çox gördün, çərxin çövrülsün fələk!..»

Əllərini çəkib döndü, kürəyini söykədi, ətrafı seyr etdi. Gecədən xeyli keçdiyini, sabah açılanda haradan, necə gedəcəyini yoxladı. Həyətdə bir an gəzinib təkrar içəri qayıtdı.

Həyət möhrədən hörülmüş hasar içində idi, hasarın dibi ilə, boyaboy ağaclar - nar, gilənar, gül kolları var idi. Buradan keçmək hasand idi. Ancaq küçə dar, həm də uzun idi. Küçə boyu yerimək olmazdı, görən olardı. Dönmək, hökmən kənara burulmaq, döngələrdən getmək lazım idi.

Bəndalı sabahkı yolunu xəyalında düşünürdü, ancaq anasına heç nə demirdi. Məsmə isə belə şey düşünmürdü. O, güman edirdi ki, Bəndalı qalacaqdır, çox qalacaqdır. Çünki çoxdan evdən ayrılıb, onu xəlvəti, sandığın içində, pərdənin dalında aylar ilə saxlamaq olar. Evdir, qapısı, açarı. Kimin nə borcuna. Allah eləməmiş, dili qurusun, çuğul olmasa, kim biləcək. Bu qorxulu vaxtında Bəndalının qaladan, şəhərdən bura gəldiyini kim düşünər, kim əqlinə gətirər...

Amma heç yatanın dalınca oyaq olmasın, deyiblər. Çuğul Bəndalının kəndə, evə gəldiyini pristavlığa xəbər vermişdi. Pristavlıqdan





Kəblə İsrafil yeddi nəfər atlı götürüb təcili Məsmənin evinə gəlmişdi. Kəblə İsrafil «hərifin» evdə olduğunu biləndən, yaqin edəndən sonra, qəsdən «axota»nı gecəyə, bəlkə də lap səhərə yaxın vaxta salmışdı. Əvvəla ona görə ki, camaat arasına hay düşməsin, hərif bir şey duymasın, ikinci ona görə ki, gülünc olmamaq, havayı atlanmamaq üçün hərifin yerini dürüst müəyyən etmək lazım idi. Bu işlə də hər kəsdən əvvəl Məsmənin qonşusu, yasovul arvadı Kəblə İsrafilə kömək etdi. Üçüncü, gecə vaxtı əl-ayaq çəkiləndən, küçəbacadan get-gəl kəsiləndən sonra qaçağı təqib etmək, lazım gəlsə, atıb vurmaq daha münasib olur. Dördüncüsü də bu idi ki, Bəndalının, aylardan bəri qaçaq düşmüş, anasından ayrılmış bir oğulun bu tezlikdə evdən çıxmasını gözləmək olmazdı. Əksinə, güman olunurdu ki, Bəndalı bir müddət, necə olsa, kənddə girlənəcək, bəlkə də, «ayı qış yuxusuna hazırlaşan kimi» qaçaq səfərinə hazırlıq-zad görəcəkdir.

Bəndalı gecədən xeyli keçmiş, anasının yoxlamasından sonra həyətə çıxıb gəzinəndə Mələknisa çəpərin dalında, divarların dalda bir küncünə sıxılıb nəfəsini oğurlamışdı. Doğrudur, Bəndalını, o boylu-buxunlu cavanı cəld hərəkətlərilə o üz-bu üzə gedən görəndə Mələknisanın zəhri yarıldı. Bütün bədənindən bir gizilti keçdi. Boyun-boğazını soyuq tər basdı. Bəndalı üzü bəri gələndə Mələknisa ayaq üstdə öldü. İxtiyarsız dizləri büküldü, vurulmuş kimi yerə çökdü. Bəndalı iki addım da irəli gəlsə, yəqin arvadın ürəyi qopacaqdı. Oğlan qayıdıb evə gedəndə Mələknisa əjdaha nəfəsindən qurtulmuş siçan kimi cəld sürüşüb özünü Kəblə İsrafil düşən evin taxtapuşuna saldı.

Mələknisa Bəndalını necə «aşkar» gördüyünü, «lap iki addımlıqda» gördüyünü pristava danışanda, güman etmişdi ki, xələt verəcəklər. Tövşüyə-tövşüyə, pıçıltı ilə, ən dəhşətli bir xəbər kimi danışdıqca, bəyin stuluna yaxınlaşır, daha bir çox şeylər danışmaq istəyirdi:

- Silahı var idi, ya yox?

Bu sual qadına gözlənilməz oldu:

- Onu deyə bilmənəm.

- Necə deyə bilməzsən, tüfəngi var idimi?

- Vallah, seçmədim.

- Axmağın qızı axmaq, iki addımlıqda olanın tüfəngi nədi, müştüyünü də görmək olar. Bəs sən kor idin! Nəyə qaça-qaça gəlmisən üstümə? Bəndalının evdə olduğunu mən bilmirəm? Get yerində, pusquda ol. Qaçıb-eləsə, dərinə saman təpdirəcəyəm!

Heç yatanın dalınca oyaq olmasın, deyiblər. Bəndalı taxt üstündə, tüfəng yanında, Məsmə də oğlu ilə yanaşı, yerdə, əprimiş, yamaqlı bir palaz üstündə uzanıb yatmışdılar. «Yatmışdılar» demək də düz olmaz. Çünki Məsmə yatmamışdı. Yata da bilməzdi. Onun yuxusu gəlmirdi. Sevincdən, intizardan, nigarançılıqdan, fikirdənmi, nədənsə, yuxusu ərşə çəkilmişdi.

Elə vaxtlar da olurdu ki, Bəndalı, ya Əntiqə ananın bütün gecəni narahat olduğunu, dəqiqəbaşı öskürüb ah çəkdiyini görür, soruşurdu:

- Ana, yoxsa canın-başın ağrıyır?

- Yox, bala, heç yerim ağrımır.

- Bəs niyə yatmırsan, işinin adı nədir?

- Aranı dağa daşıyıram, dağı arana daşıyıram, bala, işim budur!

- Nə fikir-xəyaldı, boşla getsin, ana!

Təkcə bir sual, təkcə bu söz anaya böyük dayaq, təsəlli idi. «Canları sağ olsun, fikrimi çəkirlər!..»

İndi isə belə bir söz soruşan yox idi.

Bəndalı həsrətini çəkdiyi evin, «tabağın çörəyini», ananın yoğurub yapdığı çörəyi yeyib, ananın açdığı yatağa girib rahat yatmış, «div yuxusuna» getmişdi. Anasının, bəlkə də, ayıqlığına arxayın olub belə şirin yatmışdı. Əvvəl anasına bəzi şeylər tapşırmaq istəmişdi. Qadını daha da təlaşa, həyəcana salmamaq üçün bundan





vaz keçmişdi. Ancaq dilucu, guya, saymazyana bunu demişdi:

- Gəlib-gedən olsa, qapını açma!

İllər, aylar müsafiri, yorğun oğlunun şirin yuxusuna keşik çəkmək Məsməyə hər cür istirahətdən şirin idi:

«Anası ölmüş, uşaqlıqdan dinclik görmüyüb. Atasız-qardaşsız qalıb, özündən böyük şələ götürüb, əlini tikan, çınqıl aparıb...»

«...İldə, ya ayda bir cüt təzə çarıq tapanda necə sevinər, əzizlər, rəngli bağ salar, patava axtarar, dolaq düzəldərdi. Xırda-paradan gözlədiyim dolağı belədən-belə bağlayar, ayaqlarına baxa-baxa sevincək yeriyərdi:

- Ana, yaraşa bilir ey!

- Yaxşıca yaraşır, sağlığınan geyinəsən, bala!..

Onda Bəndalı arıq, qara, cılız bir uşaq idi. Heç kəs deməzdi ki, bu tezlikdə böyüyəcək, bu şaqqanatın sahibi olacaq! «Əstəğfürullah!», dilim-ağzım qurusun!

Məsmə oğlu haqqındakı hisslərini xəyalında belə açıq-aşkar dediyi üçün ehtiyat elədi: «Allah, hamınınkını, içində də mənimkini bədnəzərdən saxla, bəy qəzəbindən, şeytan şərindən, arvad məkrindən uzaq elə, ilahi! Özün qadirsən, ya rəbbi!..»

Bu arzularından sonra Bəndalının başına gələnlər cəmlənib ananın qayğılı başına doldu:

«Bu nə bəla idi, balamı şərə salan hankı mərdiməzar oldu? Şuluqluq hara, Məsmənin oğlu hara! Mənim bir balam var ki, qızılı görər, gözünün ucu ilə baxmaz. Mən, doğrudur, kasıb olmuşam, doğrudur, tənqasız olmuşam. Amma uşaqlarımı halal çörək ilə böyütmüşəm. Di gəl, bunu kimə deyəsən! Yarım ildir uşağın dalınca döşəniblər! Gah polisəyə çəkirlər, gah dama salır, gah suda çağırır. İlahi, sən özün şahidsən ki, mənim oğlum şər işlərə qarışmaz. Bir sən, birliyin xatirinə hifz elə atasız, arxasız oğlumu. Nə qazı yanında, nə kənddə, nə şəhərdə, nə göydə, nə yerdə səndən savay

ümidgahım hanı! Sənə pənah gətirmişəm, ilahi! Özün mənim harayıma hay ver! Səndən savay heç kəsim yoxdur...»

Deyəsən, qaranlıqda xəyalən danışdıqlarını eşidirlərmiş, deyəsən, məhz bu dualara cavab olaraq sağdan və soldan açılan güllələr alçaq damın üstündə bir-birini kəsib üfüqləri ölçdü...

«Şaraq, şaraq! Şarrraraq!..»

«Tap, tararap, tap, tap!..»

Məsmə diksinib iki əlilə dizinə çırpanda oğlunu əlisilahlı, pəncərə qabağında üzü üstə yatan gördü.

O, cəld pıçıldadı:

- Ana, yük yerinə keç! Oranı güllə tutmaz! Sən özünü qoru, məndə işin olmasış! Qatarı yaxın qoy!

Qaranlıqda, çəpər dalından gələn səslərə Bəndalı heç cavab vermir. Havayı da güllə atmırdı.

Məsmə saçını yolub, sinəsini parçalayırdı:

- Oda düşən balam vay! Padşahlarnan vuruşan igid oğlum. İlahi! İlahi, darda qalmışam! Amanda qalmışam, ya Həzrət Abbas...

- Ay arvad, səsini kəs! Mən qanımı almamış ölən deyiləm! Arxayın ol!

Div ürəkli oğlunun səsi və vuruşu Məsməyə bir təsəlli oldu:

- Ay bala! Hünərinə qurban, oğul!

- Ana, hər yaranmışın bir ölümü haqdır. Amma nahaq ölüm yamandır. Günahsız ömrümün intiqamını alacağam, ana! Can sənin, can Əntiqə amanatı!..

Kəblə İsrafil iki atlını evin dalında qoymuşdu ki, Bəndalı damı söküb arxadan qaçmasın. Qalan adamları ilə də həyəti mühasirəyə almışdı.

Əvvəl özü təklif etdi ki:

- Bəndalı, silahı at çölə, təslim ol, günahın yarısından qayıtmaq da bir mərdlikdir!



Onun dalınca yasovullar haray-qışqırıq salıb Bəndalını qorxutmaq istədilər:

- Təslim ol, yoxsa beynin göyə sovrulacaq!

Nə hədə-qorxu, nə atılan güllələr Bəndalını təbdən çıxara bilmədi. Yasovullardan biri, kəndli üstünə gedəndə canavara dönən Çer Nayıb bağırıb Bəndalını təslim olmağa çağırdı. Cavab gəlməyəndə, söyüş söydü:

- Dul arvadın oğlu, nə girmisən çarşab altına!

Yenə cavab gəlməyəndə Nayıb əldə beşaçılan çəpərdən çıxıb ata-ata irəliyə, ev qapısına tərəf yollandı. İçəridən səs gəldi:

- Gəlmə, yazıqsan!

- Tülkünün başından yekə danışmağına bir bax!

- Vurularsan, Nayıb, rədd ol!

- Sənin gülləndən qorxan yoxdu, çıx çölə!

Nayıb bunu dedi, yanına baxa-baxa, divar dibi ilə yeriyərək özünü qapıya salmaq, hünər göstərmək istədi. Bəndalının gülləsi Nayıbı yerə sərdi. Bunu görən yasovullar qapı-pəncərəni şıdırğı gülləyə basdılar. Kəblə İsrafilin qəzəbli səsi eşidildi:

- Quldur köpək oğlunu öldürün! Padşahın düşmanına aman yoxdur!

Güllələr atılır, hədələr edilir, amma yaxın gəlməyə cürət edən bir adam görünmürdü. İçəridən də səs gəlmirdi. Bəziləri güman edirdi ki, Bəndalı vuruldu: ancaq anası içəridə idi. Onun nalə-fəryadı ucalmamış olmazdı. Bəs ana niyə dillənmir? Bəlkə qadına da güllə dəyib?

- Ay Kəblə İsrafil, tək bir igidin üstünə qoşun gətirmək mərdlik deyil. Aman verin oğlan çıxsın!

Yasovullar təkrar güllə yağdırmağa, qapı-pəncərəni dağıtmağa başladılar. Kəblə İsrafil qışqırdı:

- Atmayın, çıxmaq istəyir.

Adamların gözü qapıya, içəriyə enən birpilləli astanaya dikildi.



Güman edirdilər ki, «qaçaq» koldan çıxan yaralı aslan kimi qanı axa-axa qapıda görünəcək, tüfəngi yerə atıb əllərini göyə qaldıracaqdır.

Bu gözləmə bir an çəkdi, qapıda heç nə görünmədi. Bəndalı buradan salamat çıxmayacağını yəqin etmiş, axırıncı gülləni özünə saxlamışdı. Ancaq anasına, bu dəhşətli mənzərəyə şahid olmasın deyə, neçə dəfə təklif etdi ki, çıxıb getsin. Məsmə razı olmadı. İlk dəqiqələrdə Məsmədə olan vahimə uçub getmişdi. İndi o özü də hiss etmədən oğlunun cəsur köməkçisinə çevrilmişdi. Pəncərə qabağına sandıq itələyir, qatardan patron verir, oğlunun sel kimi axan tərini silir, su verirdi. «Sənsiz mən yaşamamışam, yaşamaram!», «Əvvəl mənə bir güllə vur, nə olar-olar!..»

Əlinin üstünü yalayıb keçən gülləden sonra qan görünməsin deyə, sol qolunu qoynunda gizlətmişdi. Bəndalı isə düşməndən aman istəyib ananı həyatə buraxmaq, xilas etmək fikrində idi. Bir də ürəyinə gəlirdi ki, bunlar - Nikolay məmurları, namərdlər, cəlladlar aldadıb əliyalın qadın xeylağını da vurarlar.

Çəpərlər dalında isə kənd camaatından adam çoxalmışdı. Burada Bəndalının igidliyinə sevinənlər də, ona mümkün kömək üçün çarə arayanlar, «qaçağı tutmaqda» pristava tərəf olub özünü gözə soxmaq istəyənlər, sadəcə, tamaşa ilə maraqlananlar da var idi. Yasovullar acıqlanıb camaatı qovmaq istəsələr də, intizar və həyəcan hamını bürümüşdü. Atışmanın şirin yerində çəpərlərdə hərəkət duyuldu, adamlar aralandı: «Zamini gəlib!»

Tahirzadənin səsi eşidildi:

- Ay bimürvətlər, qadın xeylağının günahı nədir? Hansı dində görünüb ki, bala üçün ananı da gülləyə tutasan. Bəs namus, bəs mərdlik harda qaldı?

- Dayanın!

- Əl saxla!

Kəblə İsrafil əmr verdi:

- Aman verin qadın çıxsın!

Tahirzadə əlindəki ağ dəsmalı göydə yellədərək, barışıq və sakitlik tələb edərək özünü həyətin ortasına atdı:

- Vurun, vurun məni də. Bu dəhşəti, vəhşəti gözüm görməsin!..

Hər iki tərəfdən güllə səsi kəsildi, adamlar bilmədi nə etsin. Tüfənglilər pristavın əmrinə müntəzir oldular. Kimsə bilmirdi ki, belə vəziyyətdə nə etmək, necə etmək olar.

Tahirzadə həyətdə bir an sakit dayandı. Ətrafa göz gəzdirdi. Sanki nəsə deyəcəkdi. Əvvəlcə Nayıbın meyitini ortadan götürmək üçün bir nəfər kömək çağırdı. Meyiti hasara qədər aparıb başqalarına verdi, özü qayıdıb Məsmənin evinə daxil oldu. Məsmənin qolundan tutub çıxanda təkrar qışqırdı:

- Yasovullar, atmayın. Qurandan, şəriətdən utanın barı, arvad xeylağına aman verin keçsin.

Naməhrəm görməsin deyə, qara çadra ilə möhkəm örtünmüş qadını qoruyaraq ehtiyatla, ağır addımlarla həyətdən çıxarandan sonra atışma təkrar başlandı.

Tahirzadə Məsmə ilə birlikdə Bəndalını da apardı. Çadraya bürünən Məsmə yox, Bəndalı idi. Bəndalı Məsməni uşaq kimi qucağında elə gizlətmişdi ki, görən onun nəsə bağlama götürdüyünü, yaşındığını güman edərdi. Çəpərlərdən ötən kimi Məsmə də, Bəndalı da küçədə yox oldular. Səhər tamam açılanda, Məsmənin evi tutulandan sonra məlum oldu ki, «Bəndalı qaçıb!»

Kimi deyirdi, damı dal tərəfdən söküb, kimi deyirdi, səhər dumanında quş kimi çəpərdən hoppanıb, çoxları da həqiqəti deyirdi: «Nə oldusa, Tahirzadədən sonra oldu. Özü çadranı pisləyir, amma çadra ilə də iş görür!»

Bəndalı kənddən uzaqlaşmaq üçün çəpərdən, divardan aşıb qaçanda adamların görəcəyini, çox çəkmədən yasovulların atlana-



cağını yəqin etmişdi. Dəyirman ağzından keçəndə, iz itirmək üçün aşağı endi, çayın kənarında, suyun içində dayandı, axşam düşməyini, qaranlığı gözlədi. Bu yer, dəyirman altı, doğrudan da, güman getməz, göz görməz, get-gəl olmaz bir yer idi. Bəndalı, tüfəngi qucağında, yaş torpaqlı yarrığana elə bərk sıxılmışdı ki, kənardan diqqət ilə baxanlar da bir şey görə bilməzdilər.

Nə edəsən ki, olacağa çarə yoxdur, demişlər. Burada da, dəyirman sularının içində, vəhşi otların, kifsəmiş yosunların arasında, sellərin oyub apardığı yarrığanlarda da çuğul tapıldı.

Bu dəfə Mələknisa yox, lap səkkiz yaşlı bir uşaq, çaydan su götürməyə gələn bir qız uşağı satılını suya salanda, əlvan bir ipin, təzə bir corab bağının su üzündə qıvrıldığını gördü. Tamahı düşdü. Bu həmin bayram corabı idi ki, Məsmə axşam oğluna bir hədiyyə kimi geyindirmişdi. Qız uşağı corabı axtararaq, ipin haradan sallandığına diqqət edəndə, möhkəm dolaq dolanmış bir qılçanın su içində şax durduğunu aşkar gördü və qorxusundan dərhal satılını sudan yarımçıq çəkib birbaş evlərinə tərəf götürüldü:

- Ay ana, dəyirman altında adam durub!

- Nə adam! A qız!

- Vallah, adam gizlənib!

- Kiri-kiri! Ssss!..

Uşaq anasına, anası qonşusuna, qonşusu qonşusuna. Axırda Mələknisa xəbər tutdu. «Xalam bildi, aləm bildi!» Bayaqdan «qaçağı qaçırdan Tahirzadə olub, gərək naçalnikin hüzurunda cavab versin, deyə atını sağa-sola oynadan Kəblə İsrafil bu xəbəri eşidən kimi dəstəsini çəkib dəyirman altını gülləyə basdı. Aşağı-yuxarı yollar yenə kəsildi. Nişan verilən yerə dolu kimi güllə yağdı.

Burada Bəndalının vəziyyəti daha ağır idi. Burada daha nə ağac var idi, nə daldanacaq, nə də gecə qaranlığı. Doğrudur, ağaclar arasından nişanladığı bir yasovulu vurmuşdu, birini də əlindən elə

vurmuşdu ki, tüfəngi çaya düşmüşdü. Bəndalının patronu qurtarmışdı. Dörd bir tərəfdən yağan güllələr onun vücudunu çoxdan parçalamışdı. Handan-hana güllə açılmadığını, suyun qızardığını görəndən sonra yasovullar yaxınlaşmağa cəsarət etdilər. Dəyirmanın içinə girib döşəməni sökdülər, yarrığana yol açdılar. Bəndalının meyitini arabaya qoyub ot ilə üstünü örtdülər, təntənə ilə polis həyətinə gətirdilər.

Atlılar meyit gətirən arabanın sağında-solunda elə gedirdilər ki, bilinmirdi, ölənə hörmət üçün, yaxud təqib üçün gəlmişdilər. Ancaq əslində onlar at üstündə dik oturaraq öyünmək, bir fateh kimi görünmək istəyirdilər.

Yasovul Məhər Kəblə İsrafilə yaxınlaşıb mühüm bir sirr söyləyirmiş kimi xəlvəti pıçıldadı:

- Tahirzadə Məsmənin evindən çıxanda mən lap şübhələnmişdim! Məsmə elə çadra örtən arvad deyil axı! Bəy, vallah, səndən qorxdum, cınqırımı çıxarmadım.

- Mən Bəndalını yerişindən tanıdım.

Məhər təəccüblə soruşdu:

- Bəs nə əcəb vurmadın?

Kəblə İsrafil ətrafına baxıb yavaşca, lakin ürəkdən dedi:

- Adam da elə igidə güllə atarmı, ə! Allah kəssin divan qulluğunu, müsəlman deyilikmi? Heyif oğlan idi, tələyə düşdü, heyif də oldu. Nə isə, dünyadı da!

Məhər rəisinin etiraflarına təəccüblə qulaq asır, ancaq bilmirdi ki, bunları ona ciddi deyir, nəinki onun «imperatorluğa sədaqətini daş-tərəziyə vurmaq» istəyir.

Bəndalının meyitini həmin axşam və səhərisi pristavlıq həyətində «ibrət» üçün aşkara qoydular. Gəlib-gedən baxsın, tamaşa eləsin, qaçağın kor aqibətini görüb dərs alsınlar.

Kəblə İsrafil səhər arabaya yaxınlaşanda gözünə inanmadı:





- Əəə... Məhər! Gecə qarovul sən deyildin!

Məhər cəld onun qabağına qaçdı:

- Bəli, bəy, bəndəniz idi!

- Bu kimin işidir?

Kəblə İsrafil arabaya, meyitə tərəf işarə etdi.

Məhər pristavın nə dediyini başa düşmədi. Döyükdü. Bəndalının öldürülməsini, bütün bu həngaməni bəy özü yaxşı bilirdi və öz əlilə olan iş idi. Kəblə İsrafil təkrar soruşdu və şəhadət barmağı ilə arabaya işarə elədi: «Bu kimin işidir, soruşuram. Nə fitnədir bu?»

Məhər bir də diqqət edəndə ölünün üstünə ot əvəzinə gül töküldüyünü, arabanın hər yanından gülab ətri qalxdığını hiss etdi, məəttəl qaldı:

- A bəy, xəbərim yoxdur.

- Necə?

Məhər pristava dünən yanaşıb dediyi səmimi sözə peşman oldu, həmin sözün ziyanını çəkəcəyini zənn edib daha ürəkdən and içdi:

- Adın haqqı, xəbərim yoxdur!

- Gecə donuz kimi burnunu yerə verib yatanda, əlbət ki, xəbərin olmaz!

- Bəy, getdiyin ağaya and olsun, gözümü qırpmışamsa!..

- Kəs səsini, pəzəvəng oğlu, pəzəvəng! Məsmənin oğluna göydən mələkələr gül səpdi. Nə yaxşı ki, kəndlilər sənin özünü oğurlamayıblar! Yekə göydəsinə bir bax! Donuz kimi!

- Məndən sonra olub, bəy! Vallah...

Pristav onun sol üzündən elə bərk sillə çəkdi ki, şartıltısını yeddi qonşu eşitdi.

Məhərin deməyə sözü qalmadı. Başını aşağı salıb geri çəkildi, görünməməyə çalışdı:

- Götürün, bu saat meyiti aparın torpaqlayın!

- Baş üstə, bəy!

Məhər köməkçi çağırdı:

- Ə, qoşun arabanı, tez!

Heç bilinmədi ki, haradan iki öküz (biri boz, biri sarı) gətirdilər. Məhər özü də köməkləşib boyunduruğu düzəldir, samıları keçirirdi. Araba qoşulub hazırlandı, tərpənməli olanda bəyin əmri təzələndi:

- Əl saxla!

Kəblə İsrafil nəzakət gözləməməyin camaat üçün təsirsiz olmayacağını bilirdi. Onu da bilirdi ki, Bəndalının anası gecə səhərəcən oğluna keşik çəkmişdir, indi onsuz meyiti aparmaq olmaz.

- Məsmə arvad hardadı?

Namaz qılmağa getdiyini dedilər. Bu anda darvazadan qara kəlağayılı, ağır yerişli, ucaboy bir arvad göründü. Məsmə kölgə kimi sakit, səssiz yaxınlaşanda Kəblə İsrafil istehzalı səs ilə dedi:

- Ağla, ağla! Qarnın yırtılmasın, yazıqsan, ay arvad! Sən oğul doğmamısan. İlan-əjdaha doğmusan, camaatı qırıb çatdı! Di get ağla!

Məsmə cavab vermədi. Ağır, təmkinli, səssiz yerişini, istiqamətini dəyişmədi. Elə bil o sözləri eşitmirdi, elə bil heç kəsi görmürdü. Oğlunun yanına yaxınlaşdı. Meyitin üstündən otları kənar elədi. Dəsmal çıxarıb Bəndalının üz-gözünü sildi. Bəzəkli, balaca saxsı gülabdanı qoltuğundan çıxarıb oğlunun üstünə gülab səpdi. Təzə bir kəlağayı açıb onun üstünə saldı. Bunu Məsmə üç il əvvəl, oğlunun biçindən gətirdiyi taxıl ilə çərçi Ağa Rəhimdən almış, böyük arzukam ilə sandığa qatlayıb oğlunun toyuna, «bircə gəlininə» saxlamışdı.

Belə ağır bir mərasimdə, belə ağır fəlakət müqabilində ananın dözümünə çoxları təəccüb edirdi. Sanki qadın meyit qarşısına, həm də igid oğlunun parçalanmış cəsədi qarşısına yox, ali bir əmanəti arabadan götürməyə gələn kimi soyuq və səssiz gəlmişdi. Ancaq heç deyən yox idi ki, fəryad və fəlakətlər zahirdə, aşkarda yox, ananın dərdlər çəkmiş yaralı, nisgilli qəlbində idi. O, təlatümləri isə hər kəs duya bilməz. Ana bir tərəfdən matəmdə, o biri tərəfdən düşmən





qarşısında, mənəvi döyüşdə idi. O bilirdi ki, bütün mahal Bəndalıdan danışır və danışacaq! Belə bir oğul anasına pristavlar, yasovullar qabağında baş açıb saç yolmaq əskiklik gətirər! «Dərdi dərdə qatmazlar. Dost var, düşmən var».

Oğlunun üzündən-gözündən öpüb kənara çəkildi, heykəl kimi dik dayanıb mənalı-mənalı xeyli baxdı. Təkrar oğlunun üzündən-gözündən öpdü, üçüncü dəfə də vida mərasimini icra edəndən sonra astaca dönüb Kəblə İsrafilə dedi:

- Ay bəy, ay Kəblə İsrafil bəy! Mən səni igid adam eşitmişdim. Düşmənimsən, amma igid danışırdılar səni!

Məsmənin səsi sakit, riqqətli, lakin qəti və kəsərli idi. Pristavlıqda olanların hamısı yaxın gəlib qulaq asdı:

- İgid danışırdılar, sən demə, hədər söz imiş. O söz igidə yaraşmaz ki, sən deyirsən! Mənim aslan kimi oğlum ölüb, aslan kimi də vuruşub ölüb.

Məsmə səsini ucaltdı, əlini havada silah kimi oynatdı:

- Yox, mən ağlamayacağam, mənim igid balam qanını alıb. Mənim pələng balam təkbaşına Nikolay padşahınan, sizin kimi tüfəng-qatarlı qoşun ilə üz-üzə durub, öldürüb ölüb, atışıb ölüb! Belə igidə də ağlayarlarmı? Mən igid anasıyam. Namərd sizlərsiniz ki, qara günümdə mənə sərzəniş eləyirsiniz! Yox, ağlamayacağam! Çünki mənim oğlumun şəhərdə, kənddə, hər mahalda tayları var. Əliqabarlı yoldaşları çox var! Onlar da mənim oğlumdur. Mən onları intiqama çağıracağam. Dərdimi intiqam odunda əridib kənd cavanlarına süd kimi içirdəcəyəm! Mənim oğlumun nahaq qanına gərək bir sən yox, sənin o Fitilbörkdən belə şaşqalı-şapqalı hamı tülək-tülkülərin cavab versin! Mənim sizin kimi nə ixtiyaratım, nə top-topxanam, nə sudum-qazamatım var. Amma!..

Qadın bu sözü bərk dedi və xeyli sükut edib ətrafa baxdı, deyəsən, kimi isə axtarırdı, ya unutduğu sözü xatırlamaq istəyirdi:

- Amma mənim də göydə Allahım, yerdə əliqabarlı camaatım var. O camaatı deyirəm ki, pund ilində səsi-sədası yeddi padşahın taxtını laxlatmışdı. Mən onu deyirəm, o səsi deyirəm! O səs batmayıb. Onu mən eşidirəm, darıxmayın, siz də eşidərsiniz. Mən oğlumun intiqamını onda istəyəcəyəm. Mənim igid balamın hər tükü min yasovulun qanıdır! Mən onu istəyəcəyəm, onu el istəyəcək! İndi sən güclüsən, əlində də ixtiyarat var. Nə bilirsən elə! Heç eybi yoxdur! Heç eybi yoxdur! Tüfəng-qatarını bərk bağla, balası ölmüş anaya rişxənd elə! Sənin də igidliyin budur! Heç eybi yoxdur

Məsmə təkrar əyilib oğlunun üzündən öpdü. Öpdü, kənara çəkildi:

- Uzaq səfərin var imiş sənin, anan ilə son görüşəmi gəldin, ay oğul! İgid balam, gözlərim kor olaydı, ax, ilahi!..

Məsmə iki əli ilə dizlərinə elə çırpdı ki, səsini hamı eşitdi. Dinməz-söyləməz diz üstə çöküb oğlunun boynunu qucaqladı. Sanki qadın indi, ancaq indi müsibətini dərk etmişdi.





## On dördüncü fəsil

## SORĞU-SUAL

Əsri-hazirdə deyil heyf ki, azad qələm,
Yoxsa eylər neçə yüz möcüzə icad qələm!

Ə.CƏNNƏTİ

Mirzə Cəlil jurnalı heç açıb baxmadı da. Hamişə idarəyə gələndə təzə nömrəni, yaradıcı əməyin şirin meyvəsi kimi görüb sevinən, dönə-dönə vərəqləyən, hər sözünə, ifadəsinə, şəklinə diqqət edən, əməkdaşlara göstərib soruşan, danışan ədib bu gün, deyəsən, özündə deyildi. Stolun üstündəki yenicə mətbəədən gətirilmiş nömrəni çoxdanın maraqsız materialı kimi kənara atdı, qeyd dəftərçəsini açıb nəsə yazıya məşğul oldu. Əliqulu dostunu fikirli görüb yanaşdı, münasib bir söhbət başlamaq istədi. Mirzə Cəlilin pərişanlığını hiss etmişdi. Bəlkə də yanılırdı. Bəlkə də ara-sıra dostunu narahat edən başağrısı təkrar gəlmişdi.

- Axşam birinin təvəllüd bayramında idim. Təəccüblu bir söz eşitdim.

Mirzə Cəlil başını yazıdan qaldırsa da, əl boyda qəhvəyi rəngli cib dəftərçəsini büküb əlinə alsa da müsahibinin gözlədiyi cavabı vermədi. Sanki müsahibinin xüsusi bir maraqla dediyi sözü eşitməmişdi, yaxud çoxdan eşitmişdi. Əliqulunu daha da təəccübləndirən bu oldu ki, Mirzə Cəlil onun sözü ilə maraqlanmırdı.

Əliqulu indi daha axşamkı əhvalatı necə danışmağı, qələm yoldaşı ilə necə dərdləşməyi yox, ayrı şeyi, tamam ayrı mətləbi düşünürdü. Onun yəqini idi ki, Mirzə Cəlil fikirlidir. Hətta ən iztirablı, sarsıntılı zamanlarda da həyəcanını büruzə verməyən, müdrik sakitliyini mühafizə edən ədibin simasına çökən kədər buludu

nədən, haradan ola bilər? Bir şey soruşmaq niyyətində idi ki, Mirzə Cəlilin simasındakı dalğınlığı maraq dolu bir nəzər əvəz elədi:

- Əliqulu, uşağın neçə yaşını bayram edirdiniz?

- On yaşı tamam idi.

- Tarixi necə qoyulub, hicri, ya miladi?

Əliqulu dostunun nəsə, bəlkə bir mövzu, ya mətləb düşündüyünü duyub sevindi, cəld çavab verdi:

- Miladi tarixilə 1900-cu il, fevralın iyirmi doqquzu!

Mirzə Cəlil, sanki gözlədiyi cavabı aldığı üçün razılıqla əlavə etdi:

- Mirzə Əliqulu, miladi tarix ilə qeyd olunan uşaqlara, çoxu da xaricilərin uşaqlarıdır, mənim yazığım gəlir.

Əliqulu Mirzənin sözündə mütləq bir kinayə gizləndiyini duyub dedi:

- Miladi tarix ilə qeyd olunanlar, əlbət ki, Allahın günahkar bəndələridir.

- Cəhənnəm əhli olmalarından savay, bu dünyada da çox nemətlərdən məhrum olurlar.

- Əlbət, bu tarixdə bir hikmət var.

- Hikmət olmasa da, tapmaca var.

- Necə yəni tapmaca?

- Məsələn, uşağın biri mən, doğulmuşam fevralın iyirmi doqquzunda. Gələn ilki təqvimlərdə mənim təvəllüd günüm yerli-dibli olmur. Ancaq dörd ildən bir olur. Kəbisə il məsələsi var axı, yaşıdlarım hər il doğum gününü bayram eləyəndə, mən boynumu bururam ki, nə eləyim, nə çarə qılım? Doğum günüm harda qaldı?

- Doğrudan, fevral ayının son günü dolaşıqlı gündür, birdən-birə təqvimdən yox olur.

- Amma di gəl bizim mübarək aylarımız, məhərrəm, səfər, ramazan, şəban ildə on gün də qabağa qaçır. Qışda doğulan uşağın doğum bayramı, görürsən, gəldi düşdü yayın ortasına!



- Müsəlman tarixinin fəziləti çoxdur. Dolanıb dəyişir.

- Nəyə lazımdır bir yerdə durmaq! Tarix ki, dolanmadı, düz olmaz.

- Müsəlman uşağı heç doğum gününü dürüst bilmir...

- Bilməyi heç lazım deyil. On iki imam, yüz iyirmi dörd min peyğəmbərin təvəllüd bayramından haçan macal tapacaq ki, yazıq müsəlman gözünü açıb özünü yad eləsin. Axundlarımız buyururlar ki, müsəlman uşağı yad eləmək istəyirsə, gərək ölüm gününü, məhşər ayağını, cəhənnəm əzabını, cənnət xülyasını yad eləsin. Haqqı yol budur!

- Dünya işləri mömün bəndələrə yaraşmaz!

- Yox, yaraşmaz! Bayramda eşitdiyiniz təəccüblü sözə müntəzirəm, buyurun!

—Çox təəccüblü idi ki, papaqçı Cahangir əyilib qulağıma deyirdi: «Eşitmişəm Mollanın qəzetində bu dəfə hop-hopun qiyamət sözü var: Nikolay dayı barəsində!..»

- Yalansa dayının vəzirlərinə lənət!

- Haradan xəbər tuturlar?

- Yerin qulağı var!

- Təəccüblü işdir. Şeir qapalı zərfdə gəlib.

Alan kimi də mətbəəyə verilib. Jurnal da hələ çıxmayıb. Məəttələm ki, oxucular bunu haradan bilsin, nədən xəbər tutsun?

Mirzə Cəlili gülmək tutdu:

- Senzor cənabları yayıb!

- Zarafatsız deyirəm.

- Mən də zarafatsız deyirəm, senzor yayıb! Senzor cənablarının özü!

Mirzə Cəlil ayağa durub jurnalı götürdü, müsahibinin qabağında açıb iki ağ səhifədə xaç şəkli çəkildiyini göstərdi:

- Senzorun fərmanını görməmisiniz?

Əliqulu nəşrinə əmin olduğu «sorğu-sual» şeirinin yerini belə görəndə gözünə inanmadı:

- Niyə bəs belə?

Mirzə Cəlil məşhur bir beyt ilə cavab verdi:

- Kefinə bax!

İştə belədir haləti bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi!

- Şeir çap olunmuşdu ki, kim çıxardı bəs?
- Fərmanlar, «fərmani-hümayun!»
- «Stolun ipini», ölüm xaltalarını çapa buraxanlar bu şeiri niyə buraxmasınlar?
- O vaxt hara, indi hara!
- O zaman başqa idi. Dayının başı qarışıq idi. Kələfçənin ucunu itirmişdi.

İndi əl-qolu açılıb, yaman havalanıb, hər sözə mikroskop ilə baxır. Qələm sahiblərinin kölgəsi qılınclanır.

- Heç olmasa, düzəldilmişini verməK olardı!
- Ondansa belə yaxşıdır. Yarımçıq yazıdan bir şey çıxmaz. Sabir özü də razı olmaz! Qələm vurulmalı şeir deyil! Heyifdir!
- Bəs bu necə olsun?
- Xaç işarəsi! Sən buna zarafatla baxma! Xaçın fəziləti böyükdür. Qoy oxucularımız bilsinlər ki, «Molla Nəsrəddin»i təkcə biz çıxarmırıq. Bizim qəzetpərəst senzor dostlarımızın da qələmi burada az işləmir. Qoy, xoşbəxt müsəlman camaatı görsün, agah olsun. Dayının ömrünə, mənsəbinə, vəzir-vəkillərinə çox-çox dua eləsin. Hərçənd axundlarımızın xeyir-dua da az deyil.

Əliqulu qırmızı və abı mürəkkəb ilə çal-çarpaz çəkilmiş xaç işarəsinə məyus-məyus baxıb dururdu. Qəlbinə çəkilmiş kimi bu çarpaz dağın altında daha qüdrətlə parlayan odlu sözləri zehnində oxuyurdu:





Sorğu-sual

Şair:
Nə mərəz ariz olub vədəyi-hüriyyətə bəs?
Manifestə edilən şərtə, səlahiyyətə bəs?
Məmur:
Sus, əzizim, o zaman vəd eləmək adət idi.
Şahi-zişanımıza ariz olan hacət idi.
Manifestlər də münasib görülən söhbət idi,
Alışan odları söndürməyə bir fürsət idi...

İki gün əvvəl bu şeir senzorda bərk təşvişə səbəb olmuşdur. Senzor hər sətrini sual və xitablarla işarələdiyi, qalın qırmızı xətlə haşiyələdiyi şeirin bu yerinə çatanda, hökumətin hürriyyət haqqındakı yalan vədlərinə edilən açıq kinayəni oxuyanda özünü saxlaya bilməmişdi, səhifələr boyu çal-çarpaz elə bir xaç çəkmişdi ki, vərəqlər cırılmışdı.

Senzor düşmənindən intiqam almış, imperatorluq dəftərxanası qarşısında sədaqətini bir daha izhar etmiş kimi sevindi, qələmini stola qoydu, cəld ayağa qalxdı. Çeşməyini burnundan götürüb uzun müddət əlində saxladı. Var-gəl elədi. Sanki böyük bir kəşf etməkdə ona silah işi görən əziz çeşməyi qoymağa münasib yer axtarırdı. Bir səs, ya xəbər eşitmək üçün xeyli vaxt pəncərəyə, bir nöqtəyə baxdı, sonra stoluna qayıdıb cırıq səhifələri bükdü, kənara atdı. «Beşinci il bu tatar oxumuşlarını çox qudurtdu. Nahaq yerə bunlar ilə gizlənpaç oynayırıq!..»

Senzor «nəmək bəhəram rəiyyətlərə» nifrətini ifadə edən bu sözü ürəyindən təzəcə keçirmişdi ki, Mirzə Cəlil qapıda göründü. Ədibin nagahani gəlişi və təlqinedici görkəmi senzoru təşvişə salsa da, hərif büruzə vermədi. Heç bir şey olmamış kimi üzünü ona tutub soruşdu:





- Gəlin, sözünüz?

- Elə bir sözüm yoxdur, cənab, zəhmət də olsa, jurnalın dalınca gəlmişəm, «Molla Nəsrəddin»?..

Senzor gərnəşən kimi geri qanrıldı, əllərini belində çataqlayıb dayandı, Mirzə Cəlilin sözünü xüsusi bir ahəng ilə təkrar etdi:

- «Molla Nəsrəddin!» «Molla Nəsrəddin!» Unutmamışam, cənab redaktor. Xeyr, sizin jurnalı yaddan çıxarmaram!

- Bu gün gərək abunəçilərə göndərə idik!

- Göndərməli şeylər yazılsaydı, əlbət ki, göndərərdiniz...

Mirzə Cəlil hərifin işarəsini saya salmadı. Başa düşmürmüş kimi özünü sadəliyə vurdu:

- Bəqədri-qüvvə, bacardığımız qədər...

- Cənab redaktor, bacarıq sizdə kifayətdir, bəlkə kifayətdən də artıqdır. Buna biz əminik. Amma mən sizin bu nömrənizi üçüncü şöbəyə göndərməli oldum. Siz gözəlcə bilirsiniz, qanunlara hörmət hər bir qələm sahibinin müqəddəs borcudur. Əlahəzrət imperatorun mərhəmət edib tuzemeslərə verdiyi hüriyyətdən sui-istifadə... Mən bilmirəm, tatar ziyalıları özləri sizin bu jurnaldakı buntar yazılara necə baxarlar, nə ad qoyarlar buna?..

Senzor xaç çəkdiyi səhifələri Mirzə Cəlilin qabağına qoydu:

- Yəqin siz bunları şəxsən oxumamısınız, sadəlik göstərib əməkdaşlarınıza inanmısınız?

- Xeyr, cənab senzor, özüm oxumuşam.

- Bəlkə də nəzərinizdən qaçıb, amma...

- Bu miqyasda bir əsər nəzərdən qaça bilməz, cənab! Bu şeir mənim yadımdadır, özüm çap elətdirmişəm!

Senzor müsahibinin dik dayandığını, «buntar» şeiri bilə-bilə çap etdiyini çəkinmədən deyib-durduğunu görüb qəzəbləndi:

- Cənab redaktor, bu, vədə verdiyiniz liberal jurnal olmadı. Bu oldu sosial-demokratların havalarını çalmaq, bu oldu müsəlmanlara

xəyanət, bu oldu imperatorluğun ünvanına qırmızı böhtanlar!

- Cənab senzor, böhtan bunun harasındadır, buyurun ikilikdə oxuyaq!

- Belə yazılar sizin məcmuənizin davamını təhlükə qarşısında qoyacaq!

Mirzə Cəlil səhifəni açdı:

Nə mərəz ariz olub vədəyi hürriyyətə bəs?
Manifestə, edilən şərtə, səlahiyyətə bəs?

Bu, şairin çinovnik ilə söhbətidir, cənab?

Burada gülməli şeirdən başqa nə var! İmperatorluq haqqında bir söz, tək bir kəlmə də yoxdur!

Senzor redaktorun üzünə çəpəki baxıb, simasına süni təbəssüm vermək istədi:

- Gülməli, gülməli... - belə bir təbəssümün gülünc olacağını duyub, senzor ciddiləşdi, bir az da səsini ucaltdı:

- Kimə gülmək istəyirsiniz, ay tatar intelligentləri?

- Cənab senzor, əvvəla, bura Tatarıstan deyil, Tiflisdir. Biz də Azərbaycan adamıyıq. İkincisinə qalan yerdə gülmək də ki, qadağan deyil. Gülmək hər bir ağlı başında olanın təbiətində var. Gülməli şeyə gülərlər də!

- Burada gülməli şey ancaq cızığından çıxan, qələmini belə sayıqlamalara işlədən əhli-qələmlərdir!

- Qələm əhlindən niyə qorxursunuz, cənab senzor, onu yazanın da zəmanəyə münasibəti o dərəcədədir, o cür yazır, hamı bir olmaz ki, buyurun, ikilikdə oxuyaq axıracan!

- Mən oxumuşam, siz diqqətlə oxuyaydınız gərək!

Mirzə Cəlil Tahirzadənin şeirini səs ilə və bir qədər də həvəslə oxumaq istəyəndə senzor jurnalı qabağına çəkdi, misraların altını cızıqladı:





- Bu nədir, nə «zaman», nə «vədə», nə «manifestdir!»

Senzor bu sözləri xüsusi bir ahəng, ilə, bərk-bərk dedi, dedikcə də şəhadət barmağını həmin sözlərin üstünə qoydu: «Zaman, vədə, manifest...»

- Şübhəm yoxdur ki, bu sətirləri yazanlar nəinki imperatorluğu, həm də siz müsəlmanları, şəxsən, cənab redaktor, sizi, namestnikliyin mətbuat idarəsi yanında müəyyən rəğbət sahibi olan sizi istəməyən bədxahlardırlar. Nədir bu, səhifələrinizi üzünə geniş açdığınız Hop-hop kimdir?

- Hop-hop bir adam deyil, bizim həcvgu şairlərin müştərək təxəllüsüdür.

- Bilmirəm kimlərdir, kimlərin təxəllüsüdür. Bunu bilirəm ki, bu hop-hoplar dövlət ilə rəiyyət arasına fitnə toxumu səpirlər. Bunlar dinc həyata düşməndilər!

- Düz buyurursunuz, bizdə o cür qələm sahibləri var. Əslən şairlər təbiətən dinc olmurlar. Düzdür, biz sayca balaca millətik, amma bizdə də belə təlatümlü təb sahibləri həmişə olub, indi də, şükür, var. Ancaq mən jurnal sahibi kimi onlara gələn bütün zəhmət və məzəmmətləri öhdəmə götürməliyəm. Cənab senzor, bizim xalq maarifə təzəcə qədəm qoyur, onun qələm sahibləri də öyrənirlər. Rus qardaşlarımızın Qoqol, Nekrasov kimi mümtaz yazıçılarından öyrənirlər. Öyrənənin səhvi olacaq. Aydın şeydir.

- Siz bunlara nə ad qoyursunuz, qoyun! «Öyrənir, yaxud oxuyurlar». Amma mən görürəm ki, bunların qələmindən iğtişaş yağır. Bəsdir bunlara güzəşt etdiyimiz. Bu dəfə mən səhifələri birbaş məhkəməyə göndərəcəyəm! İnanın, göndərəcəyəm! Zati-alilərindən xahiş edəcəyəm. Sizin imtiyaz şərtlərinə riayətinizin təxirsiz nəzərdən keçirilməsini lap günü sabah istəyəcəyəm! İstəyəcəyəm!

- Bizim məcmuədə ədəbdən, mədəniyyətdən kənar yazı tapılmaz, cənab senzor. Bu yazılar ki biz yazırıq, bunları siz bütün mədəni məmləkətlərin mətbuatında görərsiniz. Görünür, sizi başdan çıxar-

maq istəyənlər var!

- Biz arzu etməzdik ki, sizin jurnal səhifələrində iğtişaş təbliğ edən yazılar olsun!

- Elə yazılar yoxdur, niyə də olsun!

Mirzə Cəlil jurnalı birtəhər xilas etmək üçün senzorun sözlərini dinləyir, hərdən sakitcə işarə verirdi:

- Xub, xub!

Senzor susandı. Mirzə Cəlil jurnala işarə etdi:

- Bu dəfəliyə güzəşt olunur!

Senzor təəccüblü bir söz eşitmiş kimi ədibin üzünə dik-dik baxdı.

- Şeiri çıxarmaq lazımdır.

- Buyurursunuz bu səhifəni çıxardaq?

- Hökmən, hökmən!

- Çıxarmaq asandır, ancaq əvəzinə nə verək?

- Münasib yazı tapmırsınız?

- Yazı var, vaxt yoxdur. Bu gün abunəçilərə jurnal çatmasa, biz məsuluq.

- Ağ buraxın!

Mirzə Cəlil bir jurnala, bir də «söz cəlladı»na baxdı:

- Ağ getməkdənsə, cənabınızın çəkdiyi işarə yaxşıdır.

- Nə işarə?

- Xaç!

- Xaç?

- Bəli, xaç!

Senzoranın da fəaliyyəti görünər, hop-hoplar da, zənnimcə, bir şey başa düşərlər.

Senzor başına yeni bir fikir gəlmiş kimi səhifənin o üzünə, bu üzünə baxdı. Təsəvvüründə «Buntar» şeirləri sildi. Hirs ilə çəkdiyi xaç şəkli düşmənə endirilən güclü bir zərbə kimi nəzərində böyüdü... İndi müsəlmanlar «Molla Nəsrəddin»i açıb ilk dəfə həmin səhifəyə, qəzəbli senzorun çəkdiyi xaça baxır, qorxa-qorxa deyirlər: «Allah,





sən saxla! Allah, sən kömək ol!..»

Xeyli sükutdan sonra o, jurnalı qatlayıb redaktora verdi:

- Hazırla gətir!

- Bu səhifələrdə xaç olacaq!

- Olsun!

Senzor sözündə möhkəm və işində səliqəli adam idi. Hop-hopun şeirini dərhal üçüncü şöbəyə göndərmiş və «zat-alilərinin diqqətini cəlb etmişdi». Üçüncü şöbədə hop-hop haqqında bu, birinci raport deyildi. Keçən il Bakı maarif dairəsinin təftiş nəticələrində, müəllim Tahirzadənin «arzuolunmaz bir ünsür olması haqqında» bir məlumat var idi. Şeşəbığ müfəttiş öz mülahizəsini sərdar dəftərxanasına xüsusi bir təlaşla açıq yazmışdı: «Belə şəriət müəllimi olmaz! Bunun ağzından od tökülür. Bunu fəhlələr içinə gətirən var. Yoxsa elə-belə dərs məsələsi deyil!..»

İndi polis idarəsinə aydın idi ki, nə məktəb müdirinin, nə də mətbuat məmurlarının təlaşı əbəs deyilmiş, buna kifayət qədər əsas var imiş!

Gah müəllim, gah «Cəmiyyəti-xeyriyyə» üzvü, gah müxbir, gah mətbəə işçisi, çox zaman isə bir şair kimi görünən və hər görünəndə minlərin, yüz minlərin dililə danışan bu sadə, sakit adamın zülmətdən doğan bir işıq, xəyaldan doğan şirin bir ümid kimi zehinləri fəth etdiyinə heç şübhə yox idi.

Səhərisi günü «Molla Nəsrəddin»in nisgilli nömrəsi, «yaralı» jurnal əllərdə gəzirdi. Hamı xaç şəklinin altındakı mənalı yazını təkrar-təkrar oxuyurdu: «Bizdən asılı olmayan səbəblərə görə bu səhifələr belə qaldı!»

Həmin qış səhərində jurnal idarəsinə, «Qeyrət» mətbəəsinə gəlib-gedənin sayı-hesabı yox idi. Adamlar jurnal qoltuğunda, sanki təlaşla, vacib bir şey axtarırdılar. Ömründə mətbəəni tanımayan, ayaq basmayanlar da gəlir, mürəttibləri kənara çağırıb xəlvəti, bir şey deyən kimi xahiş edirdilər: «Hop-hopun şeirini necə eləyək bəs, heç olmasa, bir saatlığına, lap on dəqiqəliyinə buradaca baxıb qayta-

raq! Üzünü köçürək!»

- Canım, şeiri senzor qədəğən eləyib, aparıblar, bizdə nə gəzir!
- Surəti olmamış olmaz!
- Surəti müəllifdə olar!
- Heç olmasa, bir dəfə oxuyaq!
- Başarmarıq, qardaş!
- Heç ehtiyat eləməyin!
- Qardaş, qədəğən olunmuş şeir bizdə nə gəzir axı!
- Həzrət Abbas haqqı, bir kəs bilməz! Eşitmişik.
- Əzbər bilənlər var. Nə olar bir eşitsək!
- Aşıqları görün, haqq aşıqlarını!





## On beşinci fəsil

## QIZILHACILIDA

İnsanların səadətinə çalışmaqdan gözəl nə var!
MONTESKYE

Qarağacın budağına dirsəklənib dayanan, daş döşəməli küçədə sağa-sola ötən məftiltəkər faytonlara tamaşa eləyən Əliqulu çiynində bir əl duyub geri döndü. Mirzə Rza onun əlini sıxıb görüşdü:

- Gürcü qızlarına baxmaqdan doymadın, ay Əliqulu?

Əliqulu əhval soruşub zarafata cavab verdi:

- Öz arvadlarımızdan eşitdiyimiz söyüşləri unutmaq üçün, heç olmasa, xaricilərdən təsəlli alaq!
- Məmmədəli şahın söyüşlərini deyirsən də!
- Bizi şah da söyür, gədə da.
- Kədə nə üçün? O nə başa düşür?
- Şah başa düşür, söyür, gədə da başa düşmür, söyür.
- Bəs qanan yoxdumu?

Əliqulu şeir ilə cavab verdi:

- Füzuli demişkən:

Dəhr sərməsti-şərabi qəflət etmiş aləmi,
Bunca sərməstin təmaşəsinə bir huşyar yox!

Əliqulu bunu deyib müsahibini içəri çəkdi. Stol yeşiyindən bir kağız çıxarıb Mirzə Cəlilin yanına getdi, nə soruşdusa, tez qayıtdı:

- İstəyirəm bu söyüşlərdən sən də xəbərdar olasan. Heç olmasa, söz düşəndə təzə nəslə, uşaqlara danışarsan, görsünlər ki, bu jurnalı biz nə əzab ilə çıxarırıq. Kimlər ilə, necə nadanlar ilə üz-üzə gəlməli oluruq.


ТИФЛИСЪ

Qulaq as. Dağıstan şeyxi Nəcməddin əfəndinin hüzuruna biz salam vermişik. Necə lazımdı, yazmışıq. İndi gör onun müridləri Qasımkənddən bizə nə yazırlar!

Əliqulu göy bir zərf içindən çıxartdığı, savadsız, səliqəsiz, iri hərflərlə yazılmış bir kağızı oxudu. Hərif məktubunu hədə-qorxu ilə başlamışdı.

«Adə, Molla Nəsrəddin!

Mən lazgiyəm, sənə bir lazgiluq ilərəm. Alub kühnə bir mozir Qasımkənddən faytona minə, kələm. Bilici astansiya. Bilicidən adam kimi vayquna, gilərəm. Teflisə, girrəm utağa, diyərəm səlamməleykim. Sən də bixəbər əlikəssalam diyə. Buyur nə qulluq var ola. Mən də çixaradım mozir, sən kimi küpək uğlunun ağzına atıram iki patrun. Fürsət ular qaçadım. Ulmaya pristov məni aladı tutsağa.. Teflisdəki musirmanlar kürədi, dilədi, bu axmaq haralı ola. Diyədi bilmirux. Amma ki, Molla Nəsrəddinin anasını ağlar quyan igit bu olmadı! Hə bu süzlər məni üçün bir milyona dəgədi!..»

Əliqulu məktubu bitirib müsahibinin üzünə baxdı:

- Gördün ki?

- Belə şikayətlər jurnalın böyük xidmətinə sübutdur!

- Sübutdu, sübutdu. Neynirəm ki, ləzgi indi pul yığıb tapança axtarır.

- İstəyirsən, verin yoxladım, görək kimdir?

- Nəyi yoxladasan, məgər beləlləri birdi, ikidi? Bizi şah da hədələyir, mömin də. Ancaq Mirzə Cəlil deyir, əzamın hədəsi təkfiri bizim doğru yol tutduğumuza aşkar bir sübutdur! Dünyada elə bir tərəqqi olmuyub ki, avamlar ilə üz-üzə gəlməsin!

Mirzə Rza Əliqulunun sözünü kəsdi:

- O Qasımkəndli, biz də qızılhacılıyıq. Eləsi də var, beləsi də. Sağlıq olsun, buranı da görərsən. Ancaq sən gərək mənə kömək eləyəsən.





- Mənim sənə nə köməyim dəyə bilər?

- Bu işdə dəyər, dəyməlidir!

- Yoxsa gənə suda-zada düşən var?

- Yox, şəxsi işdir. Mənim öz işim!

Əliqulu təəccüb etdi ki, Mirzə Rza kimi təcrübəli bir müəllimin ona nə işi düşə bilər? Müsahibi onun təəccübünü daha da artırdı:

- Sənin bu qələm yoldaşından, molladan mən də şikayətliyəm.

- Ondan şikayətli az idi, biri də sən olmusan?

- Mənim də özümə görə şikayətim var.

- Molladan şikayəti olan məndən də şikayətli olar!

- Sən bir az ayrı cürsən.

- Nə cürəm?

- Mənə məhrəmsən, sənnən açıq danışa bilərəm.

- Molla ki, hamıdan açıq danışandır!

Mirzə Rza bir addım da yaxın dayanıb xəlvət bir söz deyən kimi ətrafa baxındı, səsini alçaltdı:

- Neçə ildi mən bu kişini... bizim kəndə apara bilmirəm. Deyirəm, kəndlilər sizi görmək istəyirlər, deyir, bizim işimizi görürlər, odur jurnal hünərimiz ordadı: şəxsin görünür rütbəyi-əqli əsərində».

İstəyirəm şikayət bəhanasına çağıram ki, tayfa davası var, gedək iş düzəldək. Ona da belə cavab verir ki, qazılar, yüzbaşılar onsuz da bizim əlimizdən təngə gəliblər.

İndi istəyirəm sən də mənə qoşulasan, onu birtəhər kəndə aparaq, camaat çox istəyir, görsünlər!

- Aparaq da!

- Bir fənd elə aparaq. Sən fəndgirsən axı.

- Mənim Mirzə Cəlilə də fəndim ola bilər?

- Sənin fəndin bu olsun ki, mən deyəni de!

- Bəli, bəli deyim?

- Deyəndə nə olar?

- Mən bəli, bəli deməyə öyrənməmişəm!

- Bəli deməsən də, xeyr demə! Mən toy adına gəlmişəm. Kənddə toy var. Sizi də dəvət eləyiblər. Oğlanın atası da mənim kimi maarifpərəst bir kişidir, deyir Molla Nəsrəddin gəlməmiş, toy eləmiyəcəyəm.

- Allah mübarək eləsin, yoxsa oğluna toy eləyibsən, Mirzə?

- Oğlum deyil, ona bənzər bir xeyir şeydir. Bəri gəl, Mirzə Cəlili yola gətirək.

- Yanında adam var.

Mirzə Rza Əliqulunu da içəri çəkib, Mirzə Cəlilin yanına apardı.

Bu dəqiqədə Mirzə Cəlil Tahirzadə ilə birlikdə məcmuənin çapxanadan yenicə gələn varaqlarına baxıb məsləhətləşir, uzun cızıqlar ilə kənara çəkdikləri hərfləri düzəldirdilər. Qapı səslənsə də, otaqdakılar baxmadılar.

- Salaməleyküm!

Mirzə Cəlil başını yazıdan qaldıranda qələmi yerə qoyub müəllim dostuna əl verdi:

- Əleykəssəlam, Mirzə Rza, xoş gəlmisiniz! Çoxdan görünmürsünüz, buyurun əyləşin!

Mirzə Rza Tahirzadəni tanımasa da, əl verdi. Tahirzadə öz adını deyəndə, Mirzə Rza onun üzünə dik baxdı. Ancaq qarşısındakı bu papaqlı kişinin Sabir olduğunu yəqin edə bilmədi.

Əliqulu müəllimi Mirzə Cəlilə belə təqdim etmək istədi:

- Müəllimin xeyir işi var. Mirzə Cəlil, dəvətə gəlib!

- Xeyir işiniz mübarək olsun, xub...

Mirzə Cəlil əvvəla Əliqulunun, sonra da Mirzə Rzanın üzünə sakit-sakit baxdı. «Xeyir işin» təfsilatını bilmək üçün baxırdı. Nəzərlərindən sual işarəsi duyulurdu.

Mirzə Rza izah etdi:

- Kənddə bir xeyir iş var. Məni göndəriblər həl-həlbət sizi aparım, qorxuram indi də bir bəhanə gətirəsiniz. Amma Əliquluya demişəm, bəhanə-zad məqamı deyil, ya bu yaz Qızılhacılıya dönməyəcəyəm, ya da ki, sizi ora aparacağam.

Mirzə Cəlilin dodağı qaçdı, təzəcə dən düşmüş bığları kənara çəkildi, gözləri kiçildi. İri, qabaq dişləri inci kimi parladı, onun çox zaman kədərli, qayğılı görünən sifətinə gülüş xüsusi bir məlahət verdi:

- Lağlağı Mirzə Rzanın bu hücumunun qabağında igid lazımdır ki, dayansın.

- Mən dayana bilmədim. Qapıda razılaşmışam.

- Sən təslim olandan sonra biz cərgədən ayrılmarıq.

Mirzə Cəlil müəllimə tərəf döndü:

- Mirzə Rza, Sabirin rəyini soruş, o bizim qonağımızdır axı!

Tahirzadə güldü:

- Qonaq qonağı istəməz, ev sahibi heç birini!

Mirzə Rza Tahirzadə ilə təkrar görüşdü:

- Bağışlayın, Mirzə Ələkbər, sizi tanımamışam, ancaq əsərləriniz ilə həmişə fəxr eləmişəm. Məktəbdə bizim ən şirin tərbiyə vəsaitimiz hop-hopun şeirləridir.

Əliqulu əlavə etdi:

- İndi quşların padşahı hop-hopdur.

- Nəğmələrin də əlası taziyanədir!

Tahirzadə başını aşağı saldı:

- Atalar yaxşı deyib ki, igidin adını eşit, üzünü görmə!

- Xeyr, sizi görmək mənim üçün böyük bir xoşbəxtlikdir. Nə qədər arzulayırdıq...

Mirzə Cəlil əlavə etdi:

- Mirzə Ələkbər, yaxşı ki özünüz burdasınız, Tiflisdə səni axtaranın hamısı bura gəlir.

Tahirzadə dedi:

- Bakıda da sizi axtaran mənim yanıma gəlir.

Mirzə Rza sözünü yerinə saldı:

- Mən xoşbəxtəm ki, hər ikinizi bir yerdə tapmışam. Bir yerdə də kəndə aparmaq, inşallah, mənə qismət olacaq.

Mirzə Cəlil Tahirzadəyə baxdı:

- Mirzə Ələkbər, müəllim nə deyir? Sən yazan intelligentlərdən deyil ha, dediyini eləyəndi ha!

- Xeyir işi var, əlbəttə ki, təbrik eləmək borcunuzdur, Mirzə Cəlil!

Mirzə Rza dedi:

- Diliuzunluq olsa da, Mirzə Ələkbər, izin verin, sizin sözünüzü bir az təshih, rəddi-bədəl eləyim. «Borcunuzdur» yox, «borcumuzdur!» Siz Mirzə Cəlildən ayrı deyilsiniz, zənnimcə.

Mirzə Cəlil müəllimin sözünə şərik oldu:

- Əlbəttə, əlbəttə!

Mirzə Rza sevincindən əlini-əlinə vurub Mirzə Cəlilin stoluna yanaşdı, onun qolundan tutub and içdi:

- Uşaqlarımın başına and olsun, sizin kəndə səfəriniz orada əsl bayram olacaq.

O, Əliquluya tərəf dönüb soruşdu:

- Birisi gün cümədi, sabah cümə axşamı, tezdən biz gedə bilərik, əgər Mirzənin vacib işi olmasa.

Bunu deyib Mirzə Cəlilin üzünə baxdı, Mirzə Cəlil də Əliquluya baxdı:

- Tezdən yox, sabaha tədarük görmək mümkündür. Əliqulu, özün Mirzəyə kömək elə. Tiflisdə o qəribdi, gör nə lazımdı, köməkləşin, bilet-flan...

Tahirzadənin xahişi ilə fayton Nəbatat bağı tərəfə yollandı. Cümə axşamı Mirzə Fətəli Axundzadənin qəbrini ziyarət etmək, sonra şəhərdən çıxmaq fikrində idilər. Dağın döşündə ot-ələfin əhatə etdiyi bir qəbir üzərində uzun və enli, yazılı qara daş yüksəlmişdi.





Qəbrin üstünə məktəblilərin, artistlərin gətirdiyi gül dəstələri qoyulmuşdu. Güllər solsa da, lentdəki yazılar bəlli idi. Tahirzadə yenicə bağlanmış gül dəstəsini qəbrin üstünə qoydu və bir xeyli sakit dayanıb baxdı. Daşın yazılarını qar-yağış döyüb qaraltmışdı. Yaxından diqqət yetirməsən, oxuya bilməzdin.

Mirzə Cəlil başdaşında və lentlərdə yazılanları diqqətlə oxudu, ətrafa göz gəzdirdi. Tanımadığı bir çox qəbirlərin üstündə daha təntənəli abidələr gördü:

- Nə olaydı, bu rəhmətliyin qədrini özgə millətlər bilən qədər bizim oxumuş camaatımız da bilə idi.

Tahirzadə əlavə etdi:

- Çoxdan vaxtı çatmışdır, Mirzəyə yeni abidə qoyulmalıdır. Tək bu rəhmətlikdə olan hümmətin yarısı bizim indiki dirilərdə olaydı!

- Onlara diri demə:

Diridirlər əkərçi surətdə,
Ölüdürlər, vəli həqiqətdə!

Əliqulu Tahirzadədən xahiş etdi:

- Mirzə Ələkbər, sən Bakıdasan. Bu rəhmətliyə abidə bina eləmək məsələsindən söhbət salsan, eşidən olmazmı?

- Abidə söhbəti orada var, çoxdan var!

Mirzə Cəlil dedi:

- Bəli, var, amma kimə?

- Bəli, kimə? Hərislər çoxdur, hər kəs özünə bir abidə düzəltmək cəhdindədir.

—Mətbuatda yazmaq necə?

—Bakı mətbuatının macalı yoxdur, «Füyuzat» rəhmətdən kənar olmuş, kimi desən şəklini vurdu, falçılaracan! Amma Axundovu yadına salmadı.

Mirzə Cəlil etiraz etdi:

- Oğlan, bu nə sözdü? Bakı padşahının pulu Axundova sərf olunsa, cənab Əhməd Kamal bəy əfəndiləri, haşa burdan, Paris bulvarlarında nə xərcləyər? Berlin restoranında qumara oturanda bəs həzrətin mayası nə olar?

Əliqulu dizinə çırpdı:

- Doğrudan, düşünəndə adamı od götürür.

Tahirzadə zarafata saldı:

- Kim nə deyir bizdə olan qeyrətə?
Qeyrətimiz bəllidir hər millətə!

- Bir ümmətin ki, peyğəmbərinin dörd yüz arvadı ola, qiyamətəcən onun qeyrəti tükənməz! İnanmırsan, «Tərcüman» qəzetindən soruş. O yazır ki, xaricilər peyğəmbərimizin övrətlərindən söz açıb bizim qeyrətimizə toxunurlar. Demir ki, hansı qeyrətə! Qeyrət var, ya yoxdur, bunu heç düşünmür.

Mirzə Cəlil üzünü qəbrə tərəf çevirib ah çəkdi və dedi:

- Ay qoca Şərqin cavan Molyeri, sənin zamanından bir əsr keçib, dünya və aləm çaxnaşıb, biri-birinə dəyib. Amma sənin bu mömin vətəndaşların şirin yuxudan doymur. Həmin Molla İbrahimxəlil kimyagərdi, həmin Molla Həmid, həmin nuxalılar!

Allah sənə rəhmət eləsin, bizə səbir versin, kəndli qardaşlarımıza da kömək eləsin ki, ayılsınlar. Amma inanmıram, qoca pərvərdigar yeddinci göydən enib gələ bu guppaguppun qabağında dura!

- O niyə gəlir. Yerdə kölgəsi var. Ancaq Zillüllahın başı bərk qarışıqdır. Sibir işlərinə.

- Hələ harasıdır. Sibir camaatı onun başını elə qatsın ki... daha dalısını demirəm! Mirzə Rza, vaxtdır, getməyək?

Mirzə aşağı tərəfdən, qəbiristanlıqdakı fəqirlər üçün gətirdiyi şeyləri paylayıb qayıdırdı:





- Bəli, Mirzə, vaxtdır, gedək! Fayton gözləyir!

Qonaqlar kəndə çatanda adamlar böyük hasarlı həyətdə, uzun bir otaqda halay vurub aşıq deyişməsinə qulaq asırdılar. Gödək, güzəm geyməli, bığı xınalı, sarıyağız bir aşıq, az qala, özü boyda bir sarı, sədəfli sazı bağrına basıb deyirdi:

Ay həzərat, gəlin sizə söyləyim,
Bu dünyanın xəyanatı çıxıbdır!

Skamya və taxtalar üstündə sıxlaşıb oturanlardan bəzisi özünü saxlaya bilmir, aşığın sözünə qarışırdı.

- Dünya namərd dünyadı!
- Süleymana qalmayan dünya!
- Camaat! Aşığa macal verin, dalısında gör nələr deyir, qulaq asın!
- Çaşdırmayın kişini, qardaş!
- Buyursun, buyursun...

İnsaflar azalıb, mürvət gödəlib,
Qazıların mazarratı çıxıbdır!

- De, başına dönüm, de!

Aşıq gözünün ucu ilə səs gələn tərəfə baxdı. Oturanlar da döndülər. Atmaca atan kişini hamı tanıyırdı. Qazı onun həyətini özgənin adına yazıb təsdiqləmək üçün şəhər notariusuna kağız göndərmişdi.

Adamlar baxışında sanki zülm oxunan kişiyə güzəşt edirdilər. «Onun haqqı var!», «Aşıq sözün haqqını deyir».

- Aşıq qardaş, əlin-dilin var olsun!

Aşıq bu təriflərdən daha da ruhlanır, gözünü yumub cəld hərəkət edir, başını sazının qundağına qoyur, irəli-geri, barmaqları ilə az

qala simləri parçalamaq istəyirdi. Şeir deyəndə isə nazik pərdələrə enirdi. Camaat gərgin diqqət ilə dinləyirdi:

Əlimizi aparıbdır sərt ayaz,
Rüzumuz olubdur gündən-günə az,
Molla şeytan olub, axund şeyidbaz,
Məşədi, kəblayı lotu çıxıbdır!

Adamlardan ümumi bir gülüşmə qopdu. «Aşıq qardaş hamını qatdı bir-birinə».

Əliqulu vəziyyəti gərgin görüb kömək elədi:

- Aşıqdı. Elə şey çox olar!

Məclisin baş tərəfində oturan vəznəli çuxa geymiş, uca bir kişi ayağa qalxdı:

- Aşıq, deyəsən, sarcaqladı. Belə sözə qulaq asmaq müsəlmançılıqdan deyil!

Mirzə Rza onu sakit eləmək istədi:

- Həsən bəy, aşıq sözüdü, bənd olma!

- Mənim belə latay-lata qulaq asmağa vaxtım yoxdur

- Bəy, məclisimizin dalısı var, hövsələ eləyin, aşıq bu saat qurtarır.

Həsən bəy qaşqabaqlı cavab verib çıxdı:

- Qurtardı-qurtarmadı, vaxtım yoxdur.

- Qoy Həsən bəy bir saat nəfəs alsın, otaqda hava yaxşı deyil.

Kəndlilər sanki onun getməyini istəyirdilər:

- Aşıq qardaş, arxayın de gəlsin!

- Sözün sərrafı gərək!

Aşıq davam etdi:

Qoçular, quldurlar qatar taxırlar,
Fağır-füqaraya yan-yan baxırlar.





Aşıq bunu oxuduqca, qapıya, hirslənən bəyin getdiyi tərəfə baxır, mizrabı simlərə daha bərk vururdu:

Kimi istəsələr vurub yıxırlar,
Beşatanın çata-çatı çıxıbdır!
Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə,
Xərəc üstə çoxlar düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdır!

- De, dilinə qurban olum!

- Ax, nə dedi! Qamçı əlindən doqqaza çıxmaq olmur canım!

- Qoy desin!

Aşıq davam edirdi:

Gəzirlər havalı ağalar, bəylər,
Çalışır qan-tərdə naxırçı, nökər.
Muxtəsərin deyir aşıq Ələsgər.
Kovxanın, katdanın zatı çıxıbdır!

- Bizim katda elə adam deyil!

- Ə, müsürman, bizimkini demir ey, başa düş!

Oturanlar aşığa əl çaldılar. Kimi pul, kimi bənövşə, gül-çiçək atırdı. Yüzbaşı ayağa qalxıb üzünü Mirzə Rzaya tutdu:

- Ay Mirzə, bu aşığı kim gətirib bura?

Mirzə Rza cavab verməmiş Əliqulu dilləndi:

- O, bizimlə gəlib Tiflisdən. O, haqq aşığıdı, biz gətirmişik.

- Hardan gəlib bilmirəm, amma dedikləri başdan-başa nahaqdı, özü şərəşur adama oxşayır.

Əliqulu onu sakit elədi:

- Məşədi, aşığa zaval yoxdu. Onun sözü sinədəngəlmə sözdü, daha onu da qəzet kimi mizan-tərəziyə vurmazlar. Bir bizdə deyil, hər yerdə belədi. Məzə üçün oxuyur, bura toy yeridi, qoy oxusun, nə eybi var!

Yüzbaşı bir söz demədi. Mirzə Rza elan elədi:

- Camaat, indi də məktəbimizin köməyi ilə hazırlanmış balaca bir teatr tamaşası var. Dayanın. Bu saat!

Mirzə Rza cəld içəri getdi. Adamlar daha da sıxlaşdılar, yuxarı başda səhnə üçün yer açıldı, kürsü qoyuldu.

Mirzə Cəlil Tahirzadədən soruşdu:

- Aşığın sözləri necədi, hop-hopun məzağına uyğun gərək?

- Maraqlıdır!

- Bəd deyil! Elə, deyəsən, Mirzə Rza bu repertuarı münasib hazırlayıb?

- Elədir!

Zəng çalındı. Sükut bərpa olandan sonra səhnənin bir tərəfindən boynuyoğun Məmmədəli şah, o biri tərəfindən də ənlik-kirşanlı, papağı tavus lələkli nazik bir madmazel qadın çıxdı.

Onların hərəsinin bir tərəfdən, üz-üzə gəlişi ümumi gülüşə səbəb oldu. Mirzə Cəlil Tahirzadəyə dedi:

- Bu səhnə, deyəsən, hop-hopdandır.

- Yox, «Molla Nəsrəddin»dən götürüblər!

- Uşaqlar özləri düzəldiblər!

Madmazel səhnənin bir tərəfində əlində ağ sumka, təkəbbürlə qıçını qıçının üstə aşırıb kənara baxırdı. Məmmədəli şah isə xanımı yenicə görmüş kimi ehtiyatla, yavaş-yavaş addımlayaraq ona yaxınlaşırdı. Xanım dönüb ona baxanda şah xırp dayandı, təzim etdi.

- Ay xanım, qadan alım, gəl mənə!

Xanım başını elə hirs ilə tərpətdi ki, az qaldı lələkli şlyapası başından düşə. Cır bir səs çıxartdı:



- Gəlmərəm!

Şah, xanımın qabağında diz çöküb yalvardı:

Rəhm et mənə, can madmazel!
Könlüm olub qan, madmazel!
Birbaş Ədəsdən gəlmişəm,
Ardınca, canan madmazel!
Dil bisukundur, gəl mənə!
Eşqim fizundur, gəl mənə!

Sıralardan pıçıltı keçdi, hamı dönüb qonaqlar əyləşən tərəfə baxdı. Ümumi alqış səsi məclisi tutdu.

- Ə, bu pristavdı, nədi?

- Padşahdır ey!

- Məmdəli şahdı da, artistkanı istəyir, eşitməmisən?

- Mirzə Rzadı, əşi!

- Hə də! Müəllim padşahın şəbihini gətirir!

- Lap da yaxşı gətirir.

- Elə bil özüdür!

- Sus!.. Sus!

Xanım daş-qaşla parıldayan barmaqlarını silkələyərək şahı yenə rədd etdi:

Rədd ol, a zalım Məmdəli!
Şahi-məzalım Məmdəli!
Artıq həyasız görməyə,
Yoxdur məcalım Məmdəli!
Get, get ki, zülmündən vətən
Dəryayi-xundur, gəlmərəm!
Boynun yoğundur, gəlmərəm!

Məclisdəkilərdən təkrar ümumi gülüş və alqış qopdu. Çoxları artistlərə səs verirdi:

«Boynun yoğundur, gəlmərəm!»

Şah qadının dalınca sürünərək dedi:

Əhli-əyalı atmışam,
Rey mülkünü mən satmışam,
Sənlə murada çatmışam,
Millət qoyundur, gəl mənə,
Eşqim fızundur, gəl mənə!

- Qoyun özünsən!
- O boyda qoyun olmaz, öküzdü!
- Taxtı tarac olub!
- Ə, necə olsa, şahdı köpəkoğlu, söymə!

Madmazel səsini ucaldaraq geri çəkilə-çəkilə nifrətini izhar etdi:

Biqeyrətü, biarsan!
Millət gözündə xarsan,
Bir bədəməl murdarsan!
Nəfsin ovundur, gəlmərəm,
Söz müxtəsər, bir dəfə qan!
Boynun yoğundur, gəlmərəm!

Şah xanımın başına qızıl-gümüş sovurdu:



Xanım amandır, gəl mənə,
Halım yamandır, gəl mənə!

Xanım pul kisəsini şahın başına vurdu:

- Malades, malades matışka!

Camaatın alqışları altında şah da, xanım da səhnəni tərk etdilər.

Müəllim səhnə dalında geyinirdi ki, Tahirzadə, Mirzə Cəlil onun əlini sıxdılar.

- Yaxşı tamaşa verdiniz, sağ olun.

Əliqulu da müəllimi təbrik edib dedi:

- Heç kəs gözləməzdi ki, Nadir şahdan sonra İran taxtında Məmdəli kimisi oturacaq.

Mirzə Rza əlavə etdi:

- Fikrimiz kəndlilərə Məmdəli şahı tanıtmaq idi. Bilmirəm necə təsir bağışladı?

Tahirzadə tamaşanı təriflədi:

- Çox gülməli tamaşa idi, yaxşı dəsgah düzəltmişdiniz.

- Sizin sayənizdə, o şeirlərin sayəsində olmuşdu. Biz o ruhu vermək istəyirdik! Şeirlər bizə də, camaata da İran padşahını tanıtdı. Məmmədəli macərasını kənddə çox adam bilmirdi. Sizin əsərinizdən öyrəndilər. Bizim də borcumuzdur. Məşədi Ələkbər özünüz yaxşı bilirsiniz, kənddə müəllim həm mirzədi, həm artistdi, həm doktordu, həm vəkil, aqronom, həm qazı! Uşaq oxutmaq olub bizə axırıncı peşə. Doktor özü burda işləyəndə də elə olub, bizlərə məsləhəti də belə idi. Kəndlinin ürəyini ələ almaq!

Mirzə Cəlil maraqlandı:

- Doktorun dərs verdiyi məktəb hansıdır?

- Budur, qabağımızdakı torpaq binada işləyirdi, orada da ya-

şayırdı. Bu otaqda neçə dəfə «Nadanlıq», «Hacı Qara» oynamışıq. Sürgünə gedəndə görüş vermişdilər. İndi sürgündə də biz yazışırıq.

- Zəmanənin müəllimi gərək elə olsun.

- Onun burada ucadan kəndlilərə «həblül-mətin», «Molla Nəsrəddin» oxumağı çox adamın gözünü açdı. İndi həftədə yeddi-səkkiz nüsxə gətiririk, əldən-ələ gəzir.

- Molladan şikayət varmı?

- Şikayət özümüzündür, az satırıq, yeddi-səkkiz nüsxə.

- Oxuyanlar necə, olurmu?

- Oxuyan-oxuyur, oxumayana da biz oxuyuruq.

- Nə deyirlər?

- Gülürlər! Çox gülürlər!

- Boş yerə gülməzlər.

- Xeyr, başa düşürlər. Tamaşanı gördünüz ki, təşəbbüskarı tamaşaçılar olub. Məmmədəlinin şəklini əldə gəzdirir, hop-hopun sözlərini əzbərdən deyirlər.

- Sabirin şeiri ilə Əzimzadənin şəkli, müəllim dostlarımızın düzəltdiyi səhnə sənəti birləşəndə ayrı təsiri olur. Bunu biz burada gördük.

Mirzə Cəlil məmnun bir nəzərlə müəllimə baxır, onun işlərindən xüsusi həzz alırdı:

- Belə xeyir işlər, Mirzə Rza, tez-tez olur, ya bizə müyəssər olub?

- Mirzə, belə nümayişlərimiz çox olur!

- Xub, xub! Olsun, olsun!





## On altıncı fəsil

## YOLDA

Kişilər hümməti dağı qoparar!

Ə. SABİR

Tiflis vağzalının təmiz, səliqəli səkilərində çox adam görmək olardı. Yaz fəslinin mülayim, ətirli, günəşli və xoş havası o qədər cazibəli idi ki, müsafirlər özləri də vaqonlara girməyə tələsmir, pəncərə qabağında söhbət edirdilər.

Vaqonda yer tutan Tahirzadə oturmaq istədi. Onun dalınca vaqona bir neçə nəfər, şairi yola salmağa gələn dostları daxil oldular.

Tahirzadə kupesində öz yerini rahatlayıb əyləşəndən sonra, dostları da oturub vaqonun zəngini gözləyirdilər:

- Siz nahaq yerə zəhmət çəkib gəldiniz.

Şairə gətirilən yol azuqəsini vaqonun taxçasında yerbəyer edən Sidqi cavab verdi:

- Nə zəhməti var, xoş havadır. Sizdən ayrılmaq bizə çox qüssəlidir.

Tahirzadə şeir ilə cavab verdi:

- Nə elə vüsal olaydı, nə belə fəraq olaydı.

Ayrılıq həsrəti bu qədər açı olmasa, görüş ləzzəti də elə şirin olmazdı.

Həyat belədir. Həmişə baharı xəzan, xəzanı bahar təqib edir.

- Cismən ayrılsaq da, qəlbimiz əziz şairlədir. Dostluqdan əskik olmayın! Qələm sahiblərinin bir təsəllisi də budur ki, yazı vasitəsilə həmişə dilləşə, görüşə bilirlər. Mən jurnalın hər nömrəsini açanda Mirzə Cəlili, Əbdürrəhimbəyi və sizlərin hamınızı yanımda həm-

söhbət görürəm. Ürəyim dağa dönür.

- Jurnal mənim üçün dava-dərmandan vacib, necə deyərlər, mənəvi bir müalicədir.

- Jurnaldan xatircəm olun. Ancaq müalicəni bir gün də unutmayın. İşdi, təzadı şayəd Şamaxıda vəziyyətiniz qənaətbəxş olmasa, Bakıya gedin. Orada, necə olsa, həkim, dərmanxana Şamaxıdan çox-çox etibarlıdır.

Şairi yola salanlar bir-birinə macal vermədən söhbətə qarışır, ayrılıq dəqiqələrini unutdurmağa, yaxud yüngül eləməyə çalışırdılar.

Hamının ürəyində deməyə sözü var idi. Ancaq hərəkət zəngi çalındı, ötürməyə gələnlər istər-istəməz ayağa qalxıb getməli oldular. Tahirzadə də bir ah çəkib ağır-ağır ayağa qalxdı. Əziz dostları ilə vidalaşmaq üçün əl verdi. Ancaq dostlar əl vermədilər. Böyük bir məhəbbətlə qollarını açıb şairi qucaqladılar...

Sidqi hamının kupedən çıxmağını gözlədi. Lap axıra qaldı. Özünün tək qaldığını görəndə Tahirzadəni elə həsrətlə və elə bərk qucaqladı ki, deyərdin, heç bir zaman buraxmayacaq. Deyəsən, dostların hər ikisi axırıncı vida olduğunu, bir də görüşməyin qismət olmayacağını duymuşdu. Aralanmaq istəmirdilər.

- Mirzə, gərək bağışlayasınız, bir köməyimiz dəymədi! Yaxşı olmadı, xəcalətik!

- Gərək siz bağışlayasınız, neçə müddətdir sizi işdən fariq eləmişəm. Nə qədər əziyyətlər vermişəm.

- Təki həmişə sağlıq olsun, sizin kimi bir dost yolunda əziyyətlər çəkmək xoşdur. Xahiş edirəm, bizi nigaran qoymayın, əl boyda da olsa, məktub əsirkəməyin. Büllurnisa xanıma, Mirzə Abasquluya, uşaqlara ərz salam!..

- Salamət qalın, salamət qalın, əzizlərim!

Dostlar təkrar-təkrar öpüşüb-görüşdülər. Tahirzadə Sidqini qapı ağzına qədər yola salmaq, Sidqi də onu yerində rahat əyləşdirib





getmək istəyirdi. Xeyli dəqiqələr bunlar bir-birinə təklif ilə gedirdilər. Axırda şair acıqlandı:

- Ay rəhmətlik oğlu, qatar tərpəndi!

- Nə edim, sizi tək buraxmaq mənə çox ağırdır. Çox!

- Sidqi ağ-lamsınaraq addımlayıb səkiyə enəndən sonra əlini yelləda-yelləda şairi müşayiət edirdi.

Sürət qatarı böyük şairi, bəlkə də axırıncı dəfə Tiflisdən uzaqlaşdırırdı.

Qatar izdihamlı şəhərin uzun, dolaşıq, səsli-küylü küçələrini kəsərək ağır-ağır gedirdi. Sanki bu yerləri tərk etməli olan nadir müsafirin həsrətlərini duyurdu. Tahirzadə qatarın pəncərəsində dayanaraq ağaran zəif əli ilə, yaşaran gözlərilə yoldaşlarına təkrar-təkrar «əlvida!» deyirdi. Qatar evləri, çölləri, çəmənləri ötdükcə, Tahirzadənin ürəyində ayrılıq hissləri daha şiddətlənir, alovlanırdı. Kəhkəşan kimi uzanıb gedən, şəhəri boyaboy kəsən, əvvəli və axırı görünməyən Kür çayı şairin nəzərini daha artıq cəlb edirdi. Bu sakit və təmkinli çayın mənalı axını cismən zəif, zehnən güclü şairi hər şeydən artıq məşğul edirdi. Meşələr, dağlar, dərələr, çöllər, çəmənləri əks edərək dərin sükut və böyük məna ilə axan bu qədim çay şairin nəzərində qoca Qafqazın canlı və əbədi təcəssümü idi. Ondan hər şeyi, tarixləri, keçmişi, indini, hətta gələcəyi də soruşmaq olardı. Onun sakit-sakit, tədriclə qoyub apardığı sahillərdə kimlər gəzməmiş, kimlər ağlamamış, kimlər gülməmişdir. Dağlar təpələrdən daşlanıb gələn sel suları ilə, bəzən də qan və göz yaşları ilə, başlardan, döşlərdən qalxan tüstü-dumanla güclənən Kür çayını kitab kimi oxumaq lazımdır.

- Ey yarpaqlar, çiçəklərlə örtülən sakit, həyalı gəlin! Sən də dil açıb danışsaydın, fəryadların mənim kimi məşriqdən-məğribə hay salardı. Nahaq dinmirsən. Sənin səsində də, yerişində də gizli bir qüdrət var!





Tahirzadə Kürə baxdıqca əhatəsindən ayrılır, vaqonun səsini unudurdu. İndi onun zehnində böyük bir aləm canlanmaqda idi. O, keçmişləri, Kürün kənarında Puşkini, Mirzə Fətəlini, Vaqifi, Çavçavadzeni, Abovyanı görürdü. Onlar da Tahirzadə ilə həmdərd idilər. Onların da ürəyi nəsə coşqun idi. Onlar da bu lal və iti axan, ətrafdakı faciələrə güzgü kimi qatı, biganə qalan çayın hərəkətindəki mənanı soruşurdular. Onlar da məğrur Qafqazın uzaq kənd və şəhərlərindən gəlmişdilər. Odlu şikayət, məhrumiyyət, sual, etiraz gətirmişdilər. Onların da dərdi tükənməz idi. Onların da qəlbi həsrət və hərarətlə çırpınırdı. Onların da nəzəri intizarlı, duruşu əzəmətli idi. Onların da ümidi gələcəyə idi. Onların da... onların da...

Şair, ürəyinə nəsə bir zərbə dəymiş kimi gözlərini mənzərələrdən ayıraraq kupesinə dönmək istəyəndə, Mirzə Rzanı qarşısında qul kimi dayanmış gördü:

- Hörmətli şairə salamlar!

- Ay əleykəssalam! Mirzə Rza, siz hara, bura hara?

Dostlar görüşdülər, əllərini bir-birindən ayırmadan əyləşdilər. Vaqondakıların çoxu üzünü bu tərəfə çevirib maraqla baxırdı. Tahirzadəyə aydın oldu ki, adamlar onu pəncərədən ayırmamaq üçün xeyli müddət səssiz dayanmış, tamaşa etmişlər. Mirzə Rzanın burada olması isə təəccüblü idi.

- Siz hara, bura hara?

- Güman etməzdim ki, belə xoşbəxt bir təsadüf olacaq. Sizin müalicənizdən xəbərim vardır. Sidqidən soruşurdum. Ancaq bu tezliklə qayıdacağınızı bilmirdim.

- Tez deyil, ümidim var ki, doktor-möktərlər qapısındansa, uşaqlar yanında daha rahət olaram!

- Əlbəttə, əlbəttə...

Müəllim şairin xeyli zəiflədiyini aşkar görürdü. Ancaq üzünə demək istəmirdi.

- Ev şəraiti, - dedi, - xüsusən sizin üçün, zehni əmək sahibi üçün daha münasib olar. Orada da həkimlər, gümanım var ki, yox deyil, lazım olanda müraciət...

- Həkimlərə müraciətdən yorulmuşam.

- Yenə də, təsəlli olsa da...

- Siz nə əcəb, səfərinizmi var?

- Bəli, mən burada, Nəftuluxda vaqona oturmuşam. Xoşbəxtlikdən siz olan yerə...

- Sizin yox, mənim xoşbəxtliyimdən olub. Çünki müsahiblərim hamısı Tiflisdə mənimlə vidalaşdılar...

Bu halda cavan bir oğlan kağıza bükülmüş azuqə ilə kupeyə yaxınlaşdı. Mirzə Rza bükülünü alıb pəncərə qabağına qoydu. Ev çörəyi, pendir, ətirli reyhan, nobar gilas...

Tahirzadə gülümsər halda müsahibinə baxdı:

- Deyəsən, bu, müəllimin işləkləridir?

Mirzə Rza dedi:.

- Vaqonda məşğuliyyət lazımdır!

Şairin bir az əvvəl verdiyi sualı cavabsız qoymamaq üçün məlumat verdi:

- Siz buyurdunuz, səfərinizmi var? Bəli, səfər kimi bir şeydir. Ağstafada bacım yaşayır. Yaxınlarda, evlərdən uzaq olsun, əri yorğan-döşəyə düşüb. Bacımdan teleqram almışam. Dərslərin pis vaxtı olsa da, gedim-görüm nə mümkündür...

- Əri nə sənətin sahibidir?

- Heç, kəndli babadır. Əkin-tikin...

- Kənd yerində xəstəyə kömək lazımdır.

- Bəli, kömək deyəndə, necə olsa, həkim yox, dərmanxana yox. Naxoşun ki, zirək bir adamı da olmalı, siz buyuran kimi, kənd yerində...

Mirzə Rza naxoşluqdan söhbət saldığına peşman olmuşdu. Cəld



kağız bükülünü açaraq çörəyi, pendiri doğramağa başladı:

- Bundan ziyan gəlməz. Yol gedəndə məşğuliyyət lazımdır! Tahirzadə, sanki müsahibinin sözünü eşitmirdi. Bir qədər sıx oturdu, ətrafda maraq və sükutla dayanıb baxan adamlara müraciətlə xahiş etdi:

- Buyurun, buyurun əyləşin, ayaq üstdə niyə durursunuz!

- Allah razı olsun.

- İltifatınız artıq olsun!

Tahirzadə görürdü ki, burada kəndlidən, tacirdən, qadından, uşaqdan tutmuş nə cür adam desən var. Çoxunun da nəzəri bu yana, şair olan tərəfə çevrilmişdir.

Mirzə Rza şairin qabağında kağız-qələm gördü:

- Siz burada, yolda da «dinc» oturmursunuz.

- Bir elə şey yoxdur.

- İcazə varsa!

Tahirzadə dəftərdən cırılmış kağızda tələsik yazılmış yazını müsahibindən gizlətmədi:

- Oxuya bilərsiniz. Elə bir şey deyil. Bir az da sənətimizə, balalara dəxli var. Axşam, zehnimə gələn kimi qaralamışam, baxam gərək. Bilmirəm necə çıxıb.

Mirzə Rza böyük bir maraqla şairin əl yazısını alıb baxdı. İlk sətirlərdən sonra üzündə xoş bir təbəssüm oyandı:

- Bunu siz mənim üçün yazmısınız. Krılovun təmsillərindən misal axtarırdım. Zəhmət məsələsi, hümmət məsələsi. Uşaqlarımız üçün burada çox şey var!

- Bir elə şey deyil!

- Necə yəni, a sağ olmuş! Əlləriniz var olsun. Mən dərs kitablarını varaq-varaq eləyib mətləb axtarıram. Ay sizi sağ olasınız. Bunlardan niyə göndərmirsiniz. Bəyəm kənd məktəbi olanda nə olar. Bəyəm orada başa düşən azdır?

- Başa düşmək məsələsi deyil, Mirzə Rza, əlimiz çatmır. Mənim əlacım olsa, «məktəb» jurnalını yazılarla dolduraram, sonra da qoltuğuma vurub kənd-kənd gəzərəm. Kəndə biz maarif çırağı, elm çırağı aparmasaq, camaatı kim ayıldacaq...

Tahirzadə, sanki mühüm bir mətləb xatırlamış kimi irəli oturdu, sözünü təkcə Mirzə Rzaya yox, oturanların hamısına müraciətlə həzin və riqqətli bir səslə ucadan dedi:

- Müəllim! Müəllim kəndin yanan çırağıdır! Onun işığından bəhrəmənd olmaq istəməyənlər kor qalarlar. Balalarımızın mənəvi atası müəllimdir. Nadan və boynuyoğunların müəllimə xor baxması heç kəsi aldatmasın gərək. Müəllimlər gələcək nəslin rəhnümalarıdırlar. Millətin boynunda onların haqqı çoxdur.

Mirzə Rza, sanki Tahirzadənin sözünün bitməsini gözləyirdi. Şairin təzə yazdığı «Qarışqa və çəyirtkə» təmsilini ucadan oxudu. Adamlar yaxşı eşitmək üçün Mirzə Rzaya tərəf əyildilər. Mirzə Rza da onlara yaxın oturdu. Sanki gizli, mühüm bir söhbət var idi. Tahirzadə burada, Tiflis yolunda, qatarda gəlib-gedən arasında yaranan bu vəziyyəti qeyri-adi sayıb ətafa baxındı. Mirzə Rza böyük və mənalı bir məktub kimi şeiri oxuyurdu. Kənardakılar da qulaq asırdılar:

Gördülər bir qarınca bir mələxi...
Mələx çəyirtkədir! Farsca!

Mirzə Rza, müəllimlik adəti üzrə, şeirdə çətin sözə rast gələn kimi tərcüməsini deyərdi. Xüsusən burada, dinləyənlərin çoxunun savadsız olduğunu görüb elə sözlərə izah verir, misraları təkrar edirdi.

Gördülər bir qarınca bir mələxi,
Daşıyır qarşısında sürət ilə.
Dedilər, murə bax ki, bunca yükü



Qaldırır bir zəif qüvvət ilə.
Dedi, iş qüvvəti-bədəndə deyil,
Çəkirəm qüvvəti-həmiyyət ilə!
Ey oğul, murdən götür ibrət,
Get ağır işdə işlə qeyrət ilə!
Xırdaca işləri hünər sanma!
Belə işlər aşar sihulət ilə.
Hünər oldur ki, bir böyük əməli,
Edəsən həll min əziyyət ilə.
Kişilər hümməti dağı qoparır,
Kişi ol, dağ qopar həmiyyət ilə.
Xassə icrayi-əmri-millətlə,
Öndə dur, get kamali-cürət ilə.
Vətən uğrunda, millət eşqində,
Bezli-can et xilus-niyyət ilə!
İş apar, baş gedərsə, qoy getsin.
Ad qalır, bəs deyilmi millət ilə!

Mirzə Rza şeiri qurtardı, ani bir sükutdan sonra şairin əlini sıxdı:

- Mirzə Ələkbər, bu, siz buyuran kimi, elə-belə qaralanmış bir şey deyil! Bu, çox düşünülmüş böyük mətləbdir!..

Tahirzadə gülümsədi, müsahibinin fikrinə şərik oldu:

- Niyyətimdə hazırlamışdım. Fikrim var idi Sidqiyə verəm. Dedim bir də baxım, Bakıda nəşr etməyə yer tapılar?

- Tapılar nədir. Bu bizim məktəblilərin əmək təranəsidir. Əsrimizin nəğməsidir. Nə desən yaraşar. İnci də balacadır... Nə buyurursunuz!..

Adamlar maraqlanıb şeirin surətini almaq istəyirdilər.

- Mümkünsə, bizim də oxuyanımız var.

- Bir saat, elə buradaca mən bunu neçə surət götürəcəyəm. Çap öz yolu ilə!

Birinci dəfə idi ki, Mirzə Rza şairin hələ çap olunmamış şeirini oxuyurdu.

Birinci dəfə idi ki, şeirin müəllifi ilə üz-üzə söhbət edirdi. Birinci dəfə idi ki, tərbiyə məsələsini belə dürüst ifadə edən müasir şeir görürdü. Birinci dəfə idi ki, tanımadığı, bələd olmadığı adamlara müraciət edir, qəraətlə şeiri oxuyurdu. O, sevindiyindənmi, həyəcanındanmı, ürəyində olan çox sözü deməyə münasib yer axtardığındanmı tez-tez durur, oturur, oturur, dururdu. Şeiri təkrar-təkrar oxuyur, zəif vücudi ilə kupesinə söykənərək mənalı-mənalı baxan şairə minnətdarlığını bildirməyə söz axtarırdı.

Müəllimi sevindirən bir də o idi ki, şair nəsihətində balalardan tələb etdiyini öz əməlində, lap burada, lap bu məqamdaca aşkar göstərirdi. Mirzə Rza hümmət sözünü çox eşitmişdi. Qəzetlərdə də çox oxumuşdu. El yolunda xidmət edən çox-çox böyük adamların da varlığına inanırdı.

Ancaq heç bir zaman bu sadə söz onun nəzərində bugünkü qədər aydın və əzəmətli görünməmişdi. Heç bir zaman bu söz Mirzə Rzaya, onun müqəddəs sənətinə, onun çalışdığı məktəbə, kəndə, oxutduğu, böyütdüyü balalara bu dərəcədə zərurəti ilə görünməmişdi.

Müəllim istədi şairin əlini bir də sıxsın...

Onu narahat etməmək üçün dayandı. Adamlar da kənar olsunlar deyə, qalxıb vaqonun o tərəfinə getdi. Sanki nəsə axtarırdı.

Düzdür, Mirzə Rza darıxır, axtarırdı. Nə axtarırdı? Uzaq kənddə qoyub gəldiyi məktəb otaqlarını, sıralanıb quzu kimi sakit əyləşərək müəllimlərinin sözünə qulaq asan məktəbliləri axtarırdı. Böyük şairdən aldığı böyük hədiyyəni onlara verməyə, Tahirzadənin balalara nəsihətini şirin-şirin danışmağa tələsirdi.





## On yeddinci fəsil

## MÜALİCƏ

Arizi qəmlər əlindən ürəyim şişmiş idi.
Zənn edərdim, edəcəkdir ona çarə ciyərim,
Bəxti-mənhusimə bax, mən bu təmənnadə ikən
Başladı şişməyə indi üzü qarə ciyərim!

Ə. SABİR

Gün bir cida boyu qalxanda, küçələrdə get-gəl azalanda, qonşu həyətdən alçaq, möhrə divarlı həyətin yuxarı tərəfində sallanan cavan gavalı, gilənar ağaclarının ətrafında cövlan edib ətir çəkən arıların səsi bu sabah eşidilməz oldu. Gözlənilmədən həyətdə səs-küy qopdu, get-gəl çoxaldı. Fayton Tiflisdən müalicədən qayıdan xəstə şairi evinə gətirmişdi.

Adətən, müalicədən qayıdanları sevinc, şənlik ilə qarşılarlar. Ancaq bu naxoşun vəziyyəti başqa idi. Bu, Tiflis kimi şəhərdə «Molla Nəsrəddin» jurnalının himayəsi və köməyilə Aramyans xəstəxanasında xeyli yatandan, dəfələrlə müayinə olunandan, şəhərin adlı hakimlərinin məsləhətinə müraciət edəndən sonra qayıtmışdı. Getdiyi vaxtdakından da zəif, ağır bir səhhət ilə qayıtmışdı.

Doğrudur, şair Tiflisə böyük ümidlə getmişdi. Mətbuatda tibb elminin tərəqqisi, yarımcan adamların da sağalması haqqında saysız-hesabsız tərifli məqalə və xəbərləri oxumuş, güman etmişdi ki, həkimlər baxar, bir əlac taparlar.

İran konsulunun xüsusi həkimi Qandəmirov döşünə döyüb şairi «iki gündə» sağaldacağını vəd etmişdi. Onun verdiyi həblər xəstəni lap dildən salırdı. O, isə dediyini deyirdi:

- Mənim dərmanlarımı içsən tez sağalar, şişmanlaşarsan,

vətəninə gedib, qəzetlərdə məni tərifləyən şeirlər yazarsan!

Şairə xoş gəlməyən bu xudpəsənd adamın dərmanları da pis nəticə verirdi. Naxoş öz vəziyyətini gizlətsə də, Mirzə Cəlil dərhal həkimlər komissiyasını çağırmağı vacib görmüşdü. Mirzə Cəlilin evində toplanan həkimlər isə müayinədən sonra soyuq bir ah çəkib kürsüyə əyləşir, təəccüblü olsa da, xəstənin özündən məsləhət soruşurdular:

- Cənab şair, təəssüf ki, daxili xəstəliklərə elə belə zahiri müayinə ilə dürüst hökm vermək çətin olur. Kimyəvi təhlillər də mərəzi təşxis üçün ancaq ehtimal verir.

- Doktor, bəs nə fikirdəsiniz?

- Gərək operasiya olunsun, onda qara ciyərinizin illəti aşkar görünər. Mənzərə aydın olar.

- Mənzərə görünəndən sonra bəs nə olacaq?

- Vaxtı keçməmiş olsa, başlayıb müalicə edərik, qurtarıb gedər.

- Bəs vaxtı keçmiş olsa necə, doktor?

- Vaxtı keçmiş olsa, təkrar yaranı örtərik, bağlayarıq.

Tahirzadə gözlərini həkimlərdən çəkib bir nöqtəyə xeyli baxmış, sonra demişdi:

- Doktor, bağışlayın, mənim qarnım portmanatdır, ya dərviş kəşkülüdür ki, istədiyiniz zaman açasınız, istədiyiniz zaman da bağlayasınız?

Həkimlər bir-birinə baxıb gülmüşdülər:

- Siz xəstəlik vaxtında da satira silahını yerə qoymursunuz, cənab şair!

- Nə edim, ayrı silahım yoxdur, doktor!

Kəsilməyə razılıq verməyən, «tərifli» həkimlərdən əli üzülən şair vətəninə qayıtmışdı, məyus qayıtmışdı! Onu qarşılamağa gedən dostları da ilk görüşdəcə xəstənin yaxşı vəziyyətdə qayıtmadığını hiss etmişdilər. Xəstənin rəngi saralmış, taqəti azalmış, göz çanaqları daha da dərinləşmişdi. Ara verməyən eyni suallara xəstə bir kəlmə, ya işarə ilə cavab verir, danışmaq istəmədiyini hiss etdirirdi.

«Məni rahət qoyun!» Xəstənin solğun nəzərlərində oxunan bu idi.

Onu dindirib-danışdırmaqdan çəkindilər. Faytondan düşürəndə qoltuğuna girib evə gətirdilər. Büllurnisa xanım cəld yataq açdı, xəstənin üzünə baxan kimi həkimlərə qarğış eləməyə, ərini danlamağa başladı:

- Allah onların bəlasını versin. Kişini sağ-salamat apardılar, yorğan-döşəyə salıb qaytardılar. Dedim, a kişi, dəftər-kitabdan əl çək, hədyan yazma, pirə, İmamzadəyə üz çevir, bir də ziyarətə get. Sözümə qulaq asmadı ki, asmadı!..

Bir anda şairin qayıtmaq xəbəri şəhərə yayıldı. Dostlar yoluxmağa gəldilər. Möminlər isə kam götürüb ucadan deyirdilər:

- Elə olar, şəriətə sataşanı Allahın qəzəbi elə tutar ha! Hələ harasıdır! Tamaşadı o dünyada, inkir-minkir gələndə, odlu kürz ilə təpəsinə döyəndə!

- Tamaşadı qıl körpüdən keçəndə! Hələ harasıdı!

Şairi yoluxmağa gələnlər axşama doğru lap çoxalmışdı. Yaxın kəndlərdən, uzaq şəhərlərdən xəbər gəlirdi. Kimi məktub, kimi teleqrafla xəbər tuturdular. Yanına gələnlər isə şairin iztirablarını unutdurmağa çalışır, xəstəlikdən yox, başqa ürək açan söhbətlər edirdilər. Adamlar xəstənin yanında çox otura bilmirdilər. Bir tərəfdən xəstəlik, bir tərəfdən yol yorğunluğu, bir tərəfdən də «ariziqəmlər» xəstəni o qədər sıxmışdı ki, vücudu çox zəifləmiş və kiçilmişdi. Top saqqalı, arıq üzündə böyüyən gözləri seçilirdi. Dərinləşən göz çuxurlarının dibindən bəbəkləri, bəzən quyudan işaran durğun su kimi yayılır, bəzən də bir şam kimi yanırdı. Taqətsizlikdən dinmir, danışmır, bir şey yemək istəmir, xörək təklif edəndə üzünü yana çevirib susur, «rahət buraxın!» demək istəyirdi. Xəstənin yastığı başında dərman şüşələri, stəkan, qaşıq ilə yanaşı,

«Molla Nəsrəddin» əskik olmurdu.

«Molla Nəsrəddin»in hər nömrəsini xəstə intizarla gözləyirdi. Sanki orada təzə yazılarını, yaxud bu yazılara səs verənləri görəcək idi. Əslində isə xəstə ürək dostlarının, tərk edib gəlməyə məcbur olduğu məsləkdaşlarının səsini jurnal səhifələrindən eşidirdi.

Firidun bəyin ürəkağrısı ilə yazdığı məktub xəstəni ağlatdı. Ancaq bunu kimsə bilmədi. O, kədərini körpə uşağından da gizlətmək istəyirdi.

Üç yaşlı oğlu isə evlərində nələr olduğundan sanki xəbərsiz idi. Bildiyi ancaq bu idi ki, «dadaş», onu hamıdan çox əzizləyən, xahişlərinə diqqətlə qulaq asan, onu qucağına alıb dindirən adam gəlmişdir. Özünü xəstənin qucağına atmaq, atasından «dəmir qələm» soruşmaq istəyirdi. Atası gedəndən sonra o, qamış qələm ilə kağızları qaralayar, məktəb uşaqlarında gördüyü təzə «dəmir qələmin» həsrətini çəkərdi. Ancaq oğlunu görəndə xəstənin solğun, zəif dodaqlarını ani bir təbəssum işıqlandırırdı:

- Mənə qələm!
- Alacağam.
- Mənə qələm.
- Bazara gedəndə alacağam!
- Haçaq gedəcəksən?..

Uşaq ilə xəstənin söhbətini Məsmə də eşidirdi. Məsmə başqaları kimi, sadəcə, yoluxmağa gəlməmişdi. O, Büllurnisa xanıma kömək edir, xəstəyə yemək-içmək hazırlayır, gələnlərə çay verir, dava-dərman tədarükü görürdü. Ancaq ata ilə oğulun, naxoş ilə körpənin bu danışığında özünü saxlaya bilmədi.

- Haçaq gedəcəksən?..

Uşaq atasının lap tez, elə bu saat durub bazara getməyini, ona rəngli, dəmir qələm alıb gətirməyini istəyirdi. Xəstə isə oğlunun sualına cavab vermədi, cavab verə bilmədi, başını yana çevirdi.





Dərinləşmiş göz çuxurlarından qopan inci kimi ağır yaş yastığa dığırlananda Məsmə uşağın qolundan tutub o biri evə apardı. Apardı. ancaq özünü saxlaya bilmədi.

Ona elə gəldi ki, iki dəqiqə də burada qalsa, bir də qayıdıb Tahirzadənin yaşaran gözlərinə baxsa, hıçqırıqlarını boğa bilməyəcək, aləmə səs salan bir fəryad qoparacaqdır. Bu da çox pis olar, xəstənin qəlbinə toxunardı...

Məsmə çarqatını yük üstündən alıb cəld başına atdı, evdən çıxdı.

Bir zaman gözünü açıb özünü şəhər kənarında, çay yuxarı yamacları dırmaşan gördü. İndi o, burada odun, tikan, çırpı və ya xəzəl axtarmırdı. İndi burada dərman axtarırdı. Şairin xəstəliyinə dərman axtarırdı.

Nə zamandansa Məsmə eşitmişdi ki, dərmanların yaxşısı ələfiyyatdır. Ərəstun, Loğman həmişə dərdləri belə sağaldarmış.

Tahirzadənin özü də həmişə kəvər, kahı və soğan yarpaqlarını çörək arasına qoyub uşaq kimi gəvələyərdi. Yazbaşı Məsmənin su kənarından yığıb gətirdiyi körpə yarpız Tahirzadə üçün yaxşı sovqat olardı. İndi Məsmə gördüyü hər bir ota, çiçəyə dərman kimi baxırdı. Bilirdi ki, «yaradan» bunların hər birinə bir hikmət verib. Amma bu «Hikməti» bilmirdi.

Baharın gözü geniş açılmış, əl-əlvan çiçəklər çılçıraq kimi ətrafa şəfəq salıb bir-birini çağırdığı zamanda Məsmənin müntəzir ürəyindən qanlaq axırdı. Bilmirdi, göyün bir qatında cövlan edən, çiçəklər üzərində hərlənən quşlar, arılar, kəpənəklərdimi, yoxsa xəyalında dolaşan «sayır-bayırdımı». Heç bir zaman onun zehni bu qədər ağır yük altında qalmamışdı, heç zaman diqqəti belə gərgin olmamışdı. Bəndalının ölümü deyilsə, heç bir zaman onu bu qədər qəm karvanı alıb aparmamışdı.

Məşədi Ələkbərin Tiflisdən belə, ağır qayıtması hamını təşvişə salmışdı. Məsmə isə ayrı cür pozulmuşdu. Məsmə aşkar görürdü ki,



edilən nəzirlər, deyilən oruc-namazlar təsir eləmir. «Dilim-ağzım qurusun, naxoşun üzü oyanadır!»

Bu ağır təsəvvür müdhiş bir fəlakət kimi, ikinci dağ kimi, oğul dağından sonra qaya kimi qardaş dağı Məsmənin yaralı qəlbini daş məngənəyə alıb çıxırdı.

- İlahi, ya rəbbi!

Məsmə bilmirdi, necə eləsin, kimə müraciət etsin, hardan kömək istəsin. Böyük şəhərlərin böyük həkimlərindən, loğmanlar qapısından naümid qayıdan xəstə, sanki gözlərini geniş açaraq Məsməyə baxır, mənalı-mənalı susurdu. Sanki o, ömründə Məsməyə deməqdiyi ağır sözlərlə müraciət edirdi:

- Nə durmusan, mat-mat baxırsan! Ölürəm axı, bir çarə dalınca yüyürsənə!

Elə bil ki, bunları Məsmə eşitmirdi.

Məsməyə təəccüb gələn bu idi ki, Tiflis, Bakı kimi şəhərlərdə, Molla Nəsrəddin kimi bir kişinin əlində bu biçarə naxoşa çarə qılan olmadı, nəinki çarə qılan, heç olmasa, onun yanınca gələn, burada onun qeydini çəkən olmadı.

Nə uçün?

Ona görə ki, Tahirzadənin düşməni çoxdur, ona görə ki, Tahirzadənin pulu yoxdur, ona görə ki, Hacı Axund bu kişinin açıq düşmənidir...

Məsmə yolboyu rast gəldiyi hər kəsi dayandırır: «Məşədi Ələkbər ağır haldadır», «Bilirsənmi, Məşədi Ələkbəri Tiflisdən gətiriblər, eşitməmisənmi?»

Adamlar isə sanki bu dul arvadın ürək sıxan, kömək uman yanıqlı xəbərinə bilmirdilər nə cavab versinlər. Kimi başını aşağı salıb susurdu, kimi təsəlli verirdi: «Allah özü kömək eləsin».

Kimi daha başqa şeylər soruşur, kimi xəstənin yanına qaçırdı.

Eləsi də var idi ki, Tahirzadəni sevmirdi, onun «babi» işlərindən

qəzəbli idi. Bu vəziyyətə sevinir, ancaq Məsməyə deyə bilmirdi:

- Darıxma, ay arvad, hamısı Allah işidir. Darıxma, Allah bilən məsləhətdi!

Məsmə, hər yerdən əli üzülmüş kimi, bir göyə, bir yerə baxır, özünü yaralı kəklik kimi ora-bura çırpırdı. İlk əvvəl dükanlara, Hacı Səlim oğlunun türkəçarə həkiminin yanına yüyürmüşdü. Balaca, yumru, donqar kişi onun şikayətini dinləyib qəfəsələri axtarmış, tərəzini gətirmiş, saralmış kağızlar arasında toz kimi saxlanan dərmanların hərəsindən çimdik-çimdik götürüb misqal-tərəziyə vurmuş, səliqə ilə bağlamışdı.

Məsmə bu dərmanları aldı, pul da verdi. Dükan qapısından çıxandan sonra bunları açıb baxdı və iylədi. Kim bilsin, haçandansa qəfəsələrdə quruyub toz altında qalan, toza qarışan bu «darı»lardan saman, kükürd iyi gəlirdi. Məsmə bunları açıb iylədi, baxdı. Baxdı, iylədi. Nə düşündüsə, aldığı kimi də göyə sovurdu. Vacib bir şey xatırlamış kimi üzünü yaz yamaclarına tərəf çevirib getdi.

- Ey torpağa, suya can-cövhər verən yaz çağı! Ay qara torpaqdan qızılgül, sərt daşlar altından pambıq göyərdən tanrı! Şairi, el şairini səndən istəyirəm. Buzları parçalayan, quru budağı göyərdib gülləndirən, torpağı oyadan bahar, onu səndən istəyirəm!

Küçələrdə özünü güc ilə toxtadan Məsmə, sanki dərdini insanlara yox, dağlara-daşlara deməyə tələsirdi. Məyus-məyus nəzərlərini ətrafa gəzdirib bir kəsi görməyəndə, dost-düşmən tənəsindən uzaq, üfüqdən-üfüqə davam edən xoş sükutu dinləyəndə illərdən bəri çəkdiyi dağların ağırlığından aşağı çökən, gündən, soyuqdan, küləkdən qaralmış sinəsini açdı, yumruğunu sanki quru taxtaya vuraraq hönkür-hönkür ağladı:

Fələk, mən tək bu dünyada qəmu möhnət çəkən yoxdur.
Ciyərxun olmuşam, yarəb, bu dərdimi bilən yoxdur!..



Əntiqənin yanıq səslə, halına münasib bir vaxtda oxuduğu bu sözləri indi o, təkrar edib ağladı, ağladı.

İndi qadının gözündə nə çiçəkli çöllər, nə ətirli yamaclar, nə şırıltılı sular, nə təbiət, nə bahar var idi. İndi onun gözündə «zalım fələyin» səssiz dönən ağır, amansız çarxı var idi. Bu çarx hərləndikcə, Məsməyə yeni bir kasa zəhər gətirirdi. Bu həmin çarxdır ki, Məsməni cavan yaşında dul, gül kimi balalarını yetim qoymuşdu. Bu həmin çarxdır ki, Məsmənin tək, igid oğlunu, gözünün ağı-qarası Bəndalını şərə salıb qızıl gülləyə gətirdi. Bu həmin çarxdır ki, Əntiqəni ev-eşikdən dərbədər saldı.

Bütün ömrü Məsmənin gözündə ağır bir matəm dəsgahı kimi hərləndi. Ona elə gəldi ki, bu dövrün axırı çatmaqdadır. Həmin bu çarx peyğəmbər kimi nurani bir kişinin, söz-söhbəti şəhərlərə, vilayətlərə sığışmayan bir şairin başında quzğun kimi hərlənir, caynaqlarını göyərçinə atmaq istəyir: «Bəd niyyətin gözündə qalsın! Mənim kimi, ağ günə həsrət olasan!»

Bütün etiqad və qətiyyəti ilə dediyi bu sözdə, sanki Məsmə düşməninə bir ox vurmuş oldu. Bir an üçün özündə doğan yüngüllük əsən külək kimi ötüb getdi. Xatırladı ki, bu çarxın əlcəyi güclü əllərdə, Nikolay padşahın əlindədir. Hara istəyir, ora çevirir, hara istəyir ora çəkir!

Məsmə ürəyinin dərdini qoca və zalım fələkdən görürdüsə, axırıncı ümidini, budur, qarşısındakı çəmənliklərdə, təlaş və aramsızlıqla yoluşdurub önlüyünün ətəyinə yığdığı çiçəklərdə, yarpaqlarda görürdü. Bu əvəlik yarpağı mədənin dərmanıdır. Bu boymadərən, bu kəklikotu, bu xətəmi gülü, bu zanbaq... Allah səbəb salsın!..

Məsmə bunların hamısını öz səliqəsilə qara sac üstündə qurudacaq, kibrit qutularına yığıb, naxoş üçün aparacaq, qaynadacaq, dəmləyəcək, xəstəyə içirdəcək!..

Xoş və durğun bir yaz günündə, zümrüd göyləri dolaşan güclü günəş taxıl zəmilərinə nur tökdüyü bir zamanda, sərin və qaranlıq

qış otağında ailəsinin, dostlarının, qohum-qonşularının, məsləkdaşlarının əhatəsində zəkavət şəmi sönürdü.

Elə bir çıraq sönürdü ki, onun nuru öz vətəni üçün heç də gün işığından az zəruri deyildi.

Ancaq bir fərq var idi. Günəşin batdığını hər kəs görüb bildiyi halda vətən üçün zəkavət çırağı olan bir vücudun söndüyünü, əbədi söndüyünü çoxları bilmirdi. Hətta bu çırağın işığı ilə qəflət yuxusundan qalxanların özü də xəbərsiz idilər. Onların mənəvi qidaya möhtac gözləri hər gün mətbuat səhifələrində Tahirzadənin ecazkar misralarını axtarırdı.

O yandan isə Qori şəhərindən qocaman müəllimin «Molla Nəsrəddin»ə «Bəradərim Cəlil» xitabı ilə yazdığı həyəcan məktubu bütün oxuculara elan olunanda, aləmə səs düşmüşdü. «Milli şairimiz Sabirin ağır xəstəliyi, ziyada maddi ehtiyacda olmaqlığı bizi xeyli pərişan edib dərin fikrə saldı. Bizi dərin fikrə salan bu qədər bihümmət, biqeyrət olmağımızdır. Qədir bilməməyimiz, əmək itirməyimizdir. Sabir kimi xoş təb şairimiz, əhli-qələmimiz ehtiyac və zillətdən xəstə düşüb yatır, amma biz onun yoxsulluğundan, ağır naxoşluğundan bixəbər, qafil oturmuşuq, halımıza xələl gətirmir, kefimizi pozmuruq. Bu qəflət və qədrnaşünaslıq bizi nə qədər geri salır!..»

Şəhərlərdə hop-hopun söhbəti gedirdi. Bu söhbət yalnız bir şairin, bir xəstənin və ya bir müəllimin haqqındakı söhbət dərəcəsindən çoxdan çıxmışdı. İndi bu söhbət ümumi vətən, maarif söhbəti, qeyrət-hümmət söhbəti idi. İndi bu söhbət bütün məhrumiyyətlərə sinə gərən, ömrünü xalq səadətinə təslim edən bir qəhrəman haqqında yanıqlı və nisgilli bir macəra idi. Məclislərdə, məktəblərdə, cəmiyyətlərdə, mətbuat səhifələrində şairin xəstəliyi haqqında davamlı müzakirələr gedirdi.

Bakı qız məktəbi şagirdlərinin əlilə ipək üstündə toxunmuş şeirlər Sabirə hədiyyə gəlirdi:





Şairəm, çünki vəzifəm budur əşar yazım
Gördüyüm nikü-bədi eyləyim izhar, yazım,
Günü parlaq, günüzü ağ, gecəni tar yazım.
Pisi pis, əyrini əyri, düzü həmvar yazım.

Balaxanı məktəbliləri müsamirə verib topladıqları müxtəsər bir məbləği öz sevimli müəllimlərinə göndərərək, sanki utancaqlıqla yazırdılar:

«Əziz müəllimimiz, böyük şairimiz!

Sizin ağır xəstəliyiniz bizi çox məyus etdi. Mayın əvvəlində burada sizin şeirləriniz və səhnəciklərinizdən müsamirə düzəltmişdik. Valideynlərimiz də gəlmişdilər. Arzu edərdik ki, şeirləriniz səhnədə oxunanda, alqış səslərini siz özünüz eşidə idiniz!

Hörmətli Ələkbər Mirzə. Sizə can sağlığı, uzun ömür istəyirik. Siz tezliklə durub gəlin, yenə dərsimizi keçək, mənalı şeirlərinizi çox eşidək!..»

Kiçik məktəblilər güman etməzdilər ki, göndərdikləri məktubu Sabir, dərdlərinə bir məlhəm kimi ürəyinin başına qoyacaq, onlara cavab yazmaq üçün titrək əllərilə kağız-qələm tutacaqdır. Mirzə Abbasqulu dostunun həyəcanını, göz yaşlarını görüb məktubu göstərməyinə peşman oldu:

- Mirzə Ələkbər, uşaqlar bilsə ki siz ağlayırsınız, məyus olarlar! Onlar sizi sevindirmək istəmişlər!

- Sevinirəm, ancaq özümü saxlaya bilmirəm. Nə edim!..

Şairə maddi kömək üçün açılan qəzet, jurnal səhifələrində yüzlərcə tərəqqi və azadlıq dostlarının, birlik, qardaşlıq dostlarının adını görmək olardı.

Bakıdan, Batumdan, Aşqabaddan, Teymurxan Şuradan, Tiflisdən, Qoridən, Naxçıvandan, Yerevandan, Gəncədən, Lənkərandan, Ləkidən, Təbrizdən, Kiyevdən, Qoçandan, Nuxadan, Culfadan, Mərvdən, Səmərqənddən, Dərbənddən, Vladiqafqazdan və qeyri

yerlərdən maarif dostlarının - Abdulla Məhəmmədzadənin, Qurbanəli Şərifovun, Yəhya Hacızadənin, Firidun bəy Köçərlinin, Yusif Vəzirovun, İshaq Möhsünzadənin, Ələkbər Məmmədquluzadənin, Sidqi Səfərovun, Salman Əsgərzadənin vasitəsilə toplanan maddi yardım təcili surətdə Şamaxıya, Hacı Əbdülrahim Səmədova, ondan da Abbas Səhhət vasitəsilə şairin ailəsinə göndərilirdi. İanə verənlərin hamısını mətbuat səhifələrində adbaad elan etmək çətin idi.

Onlardan bir qisminin adları belədir:

Müəllim Cəmil bəy, İsa Əfəndi, Rüstəm Əliyev, Qəhrəman, müəllim Abdulla, Hacı Həsənov, Mirzə Musa Mirzə Sadıq oğlu, İsmayıl İsmayılzadə, Hüseyn Nasch, Rüstəm Rüstəmbəyov, Müseyyid Hacıyev, müəllimə Zəhra xanım, Məmmədəli İsmayılzadə, Məmmədhüseyn Əsədov, Həsən Verdiyev, Molla Həsən Tahirzadə, Nəsrullah Şıxov, Hüseyn Rəhimov, Rza Mahmudov, Tumas Ohanyans, Rzaqulu Nəcəfov. Sadıq Rzayev, Nəcəfqulu Nəcəfov, Kərim Gülməliyev, Arşaq Səfəryans, Məşədi Məhəmməd Kələntərov, Əli Məmmədzadə, Əli Mərdanov, İsmayıl Haşımov, Aleksandr Ağayans, Starzin Əlabdinov, Xəlil Qazıbəyov, Lev Finkilşteyn Mejebovski. Naum-Naqi Ərzurumçu, Məhəmməd Hüseyn Əhmədov, Abram Abramov, Tağı Yusif, Məmmədhüseyn Cəfərov, Hacı Hüseynqulu Qurbanov, İbrahim Əkbərov, Məmmədhüseyn Hacıyev, Məşədi Abbas Tağıyev, bir adam, Salib İmamov, Məmmədəli Məmmədov, Əziz dayı Əliyev, Müseyib Aslanov, Mirəhməd Mir Dadaşzadə, Hacı Sadıq Abdullayev, Əli Əkbər Zeynalov, Hüseyn Mahmudov, Qulam Rza Milani, Müslüm bəy Heydərbəyov, Muxtar Hüseynov, Əli Əkbər Qədimbəyov, Ağaməmməd Əkbərov, Məmməd Camalbəyov, Heydər Məmmədov, Həsən Müstafayev, Abdulla Soltanov, Məşədi Əli Çəfərov, Sergeyev Valeri, Mir Həbib Əsədullayev, Bağır Bəktaşov, Hacı Mehdi Bağırov, Məşədi Əsəd Muradov, Rauf Səfərəlibəyov, Mirzə Əli Bəktaşov, Hacı Əlipaşa, Qara Həsən, Baba Hacıyev, Rza Rəbiyev, Aleksandr Babayan, Ağa



Mahmud və başqaları...

Şairin vətənindən hər yana, dünyanın hər yerinə axan sərvət aşıb-daşırdı. Bakının, Azərbaycanın sərvəti Parisdən, Berlindən, Peterburqdan belə qazanc hərislərini çəkib gətirmişdi. Bu torpağın sərvəti ilə çox yerlərdə kaşanələr, saraylar tikilirdi. Dəmir yollar, fabriklər salınırdı, şantanlarda, restoranlarda, ballarda, axşamdan səhərə, səhərdən axşama qədər uzanan kef məclislərinin, «milyonlar səltənətinin» səsi-sədası səhnələrdən, təntənəli musiqidən, kino ekranlarından, roman səhifələrindən gəlirdi.

Bu torpağın qəhrəman oğlu, qəlblərdə çıraq yandıran, zülmətləri söndürən bir şair isə dərman puluna möhtac qalmışdı. Ona yığılan ianələr oğlunun dəftər-qələm məsarifi olmaqdan irəli getmirdi.

Maddi və mənəvi ianələr, həyəcanlı xalq məhəbbəti, mənəvi iztirablardan, ağır məhrumiyyətlərdən, düşmən təkfir, fitvalarından sarsılmış böyük şairin dərdinə dərman ola bilmədi.

Səhərin gözü açılanda, çıraq kimi sönən şairin evindən fəryad, vaveyla səsi qopdu. Həyəti dolduran adamlar, mərhumun uşaqları, dost-qohumları, qonşuları səs-səsə verib ağlayırdılar... Dörd adam heç bir vəch ilə ovunmurdu. Şairin böyük qızı atasını qucaqlayıb hönkürtü vurur, nalə çəkirdi. Məsmə isə yanıqlı sözlərlə, sanki qardaşını haraylayır, köməyə çağırırdı...

- Dur, ay atam oğlu! Yetim balalarımın bir pənahı! Şəhərbəşəhər cövrünü çəkib oxutduğun Əntiqəni kimə tapşırıb gedirsən. Dəryalar qədər mərhəmətin nə oldu? Ay çox düşünən, az danışan kəmal dəryası qardaşım! Qələmi qılıncdan kəsərli qardaşım! Ay düşmən qabağında dağ kimi duran, dost yanında uşaq kimi kiçilən nəcib qardaşım!..

Mərhumun ürək sirdaşı, qələm yoldaşı Mirzə Abbasqulu isə kədərdən boğulur, dəsmalı gözünə basaraq sanki dostunu ölüm yatağında görmək istəmirdi. Əziz yoldaşlıq, sirdaşlıq günlərini xatırladıqca ürəyindən sanki qanlar axırdı. Büllurnisa isə gələcək günlərini, yetim, yoxsul, kimsəsiz balalarını düşünüb ağlayırdı.

Balaca, alçaq divarlı həyətdə qopan matəmin qurğuşun kimi kəsif ahəngi, az qala, bütün şəhəri götürmüşdü. «Ölümün atı yeyin olur!» Nə radio, nə qəzet, nə elan olan bu dağlıq şəhərdə Tahirzadənin vəfatı bir saat içində hamıya yayıldı.

Köç yolundan ayrılıb içərilərə doğru diklənən dar küçələrdə izdiham get-gedə artırdı. Hamı matəm yerinə can atır, mərhumla sanki vidalaşmaq istəyirdi. Tahirzadə ümumi matəm sədası altında sanki dinclik yuxusuna getmişdi. O, uca dağlar arasından şaqqaşaq çağlayaraq axan bahar seli kimi, nəhayət dənizə qovuşmuş, əbədi sükuta getmişdi. Vaxtilə ətrafında baş verən hadisələrin heç birinə etinasız olmayan şair, sanki indi qəsdən hər şeyə qarşı susurdu. Susurdu, ayrılıq məqamında vətəninin, vətəndaş-larının həyəcanını görüb dinləmək istəyirdi.

- Heç yerdə mərhumun dərdinə əlac tapılmadı!
- Bu zəmanədə elə adamların dərdi sağalmaz!
- Qələm dünyasının dan ulduzu söndü!
- Seyid Əzimin əziz yadigarı da getdi!
- Mirzə Cəlil indi, görəsən, nə haldadır?
- «Molla Nəsrəddin»in itkisi çox böyükdür.
- Bu mərhumun matəmini nəinki Qafqaz, bütün məzlum Şərq tutacaq.
- Tiflisdən, Bakıdan, Gəncədən gələn olacaq.

Çox çəkmədi ki, gözü yaşlı, əlində dəsmal olan Mirzə Abbasqulu həyətə çıxıb camaatı sakit olmağa, əyləşməyə çağırdı. Kim isə uşaqları çağırıb qonşu həyətə apardı:

- Körpələri buradan uzaqlaşdırın!

Doğrudur, matəm havası böyüyü də, kiçiyi də bürümüşdü. Ancaq uşaqların çoxu təbii aləmində idi. Hətta üç yaşlı balaca Məmmədsəlim də evlərində, adamlarla əhatə olunan atasının başında nələr olduğunu bilmirdi. Güman edirdi ki, doktorlar «dadaşa dərman verirlər». Ancaq hiss edirdi ki, bu gün, nədənsə, onu çox



əzizləyirlər. Bacısı qucağına alıb yeznəsinə, yeznəsi dayısına, bibisinə verir, yerə qoymurlar. Bu gün, nədənsə, onu öz həyətlərində yox, qonşuda saxlayırlar. Onu şirin dillə dindirir, əlinə meyvə, əyləncə verirlər. Uşaq birdən-birə başlanan bu naz--nəvazişlərin səbəbini bilmir, heyran-heyran ətrafına baxınırdı. Haradansa gətirilmiş bir şəkilli kitabı həvəslə sağa-sola vərəqləyirdi. Baxdığı şəkillərin üstünə balaca, arıq barmağını qoyub, sanki izah edirdi:

- Quzu, başı da var. Əmi oturub. Mənimdir!..

Matəmə gələnlərin içində mərhumun dostlarından başqa, düşmənləri də var idi. Doğrudur, onlar da «ümumi ahəngə uyaraq», nəzakət gözləyərək, özlərini kədərli göstərməyə, qüssəyə şərik olduqlarını bildirməyə çalışırdılar. Ancaq ürəklərində mərhumdan intiqam aldıqlarını düşünürdülər.

Üzü qibləyə qoyulmuş, tirmə ilə örtülmüş cənazənin başı üstündə, sağda-solda oturan axundlar qara meşin cildli cüzlərin birini qoyub, birini götürür, gələnləri məşğul etmək üçün dəqiqəbaşı fatihə verirdilər. Guya, əslində «günahkar bəndə» olan Tahirzadəyə axirət sorğu-sualında kömək eləmək üçün Quran ayələrini xüsusi bir vəcd və qəraətlə təkrar edirdilər. Azançı da damda gah çargah, gah segah üstündə oxuduğu ibrətli şeirlərlə ölüm təbərini təkrar-təkrar şəhərə yayırdı:

Ey dil, bu cahan cümləsi əfsanə deyilmi?
Dünyaya uyanlar dəxi divanə deyilmi?
Zəhmət çəkibən xanə bina etmə cahanda,
Bu xanələrin axırı viranə deyilmi?..

Ömrü boyu vətəndaşlarını, oxucularını «xanə bina etməyə», faydalı iş görməyə çağıran şairin başı üstündə onun məsləк düşmənlərinin bayquş səsi eşidilirdi. Bu, çox qəribə idi.

Bir neçə saat sonra, mərhumu qəbrə qoyanda şəriət-mədarların b-iri kəfəndən tutub silkələyir, şairə təlqin oxuyurdu: «İnkir-minkir so-

ruşanda deyərsən: Bir Allah, yüz iyirmi dörd min peyğəmbər, on iki imam, oruc, namaz, xüms, zəkat... hamısı bərhəqdir. Deyərsən...»

Bu təlqinləri, yəqin ki, şair eşitsəydi, elə şaqqıldayıb gülərdi ki, «Ölülər» komediyasındakı qəh-qəhə yalan olardı.

O da məlum idi ki, bütün bu kiflənmiş təlqinlərə cavab olaraq böyük bir kitab, zamanın ən kəsərli qüdrətli bir kitabı hazırlanırdı. Mirzə Abbasqulu, kədər, matəm içində olsa da, şairin həqiqət səsini tezliklə oxuculara çatdırmağa cəhd edirdi.

Şairin düşmənləri də bunu duymamış deyildi. Matəm mərasimi və tündlüyündə mərhumun əl yazılarının bir qismi, xüsusi bir bağlama aralıqda yox oldu. Bilən olmadı ki, bu yazıları kim, haçan, necə çalıb apardı. Bu da aşkar göstərirdi ki, Tahirzadənin qələmindən yayınmaq istəyənlər bu ağır dəqiqələrdə də «ibadətə» məşğul idilər.

«Molla Nəsrəddin» iyul nömrəsinin ilk səhifəsini matəm qarası ilə haşiyələdi, minlərlə oxucularına ağır bir xəbər verməyə məcbur oldu:

MATƏM

Möhtərəm oxucularımıza məlum olsun ki, bu il iyul ayının 12-ci günündə Şamaxı şairimiz Məşədi Ələkbər Tahirzadə cənabları vəfat edib əlimizdən getdi. Ləzzətli və mənalı şeirlərini məcmuəmizdə oxumağa adət edən oxucularımız yaxşı bilirlər ki, bir belə nadir vücudun yox olmağı maarif və tərəqqi dostları üçün böyük bir dərddir. İstəkli yoldaşımızın, məsləkdaşımızın başsağlığı veririk, biz də bununla təsəlli tapırıq ki, əqrəbasına ölümün qabağında şah da, gəda da eyni dərəcədə acizdirlər. Sabirin əşarı isə ölümdən çox-çox uzaq mənəvi bir xəzinədir ki, xalqın qəlbində daim yaşayacaqdır, zehinləri ziyalandıracaqdır.



## On səkkizinci fəsil

## HÜRRİYYƏT CARÇILARI

Ölməyimlə sevinməsin əğyar,
Əbədi ölməyən məramım var!
Ə. SABİR

Bir neçə gün sonra Tahirzadənin məktəblilərə, yerli nəslə hədiyyə etdiyi şeir «Həqiqət» qəzetində çap olunmuşdu. Bu, adi şeirlərdən, bu qəzet də adi qəzetlərdən çox fərqlənirdi. Kimsə güman etməzdi ki, aylardan bəri xəstəlik ilə mübarizə aparan, həkim qapılarında müalicə ilə məşğul olan zəif vücudlu, ağır mənəvi ehtiyac və iztirablar içində yaşayan bir adam oxucularına belə cürət və mətanətlə müraciət etsin, bir döyüş komandanı kimi danışsın. «Şairin gənclərə müraciəti var!» Hamı bir-birinə şad xəbər verir, bugünkü qəzeti axtarırdı. Qəzet heç bir zaman bugünkü qədər satılmamış və oxunmamışdı. Adamlar sanki çoxdan bəri həsrətində olduğu müqəddəs bir yazını görmüş kimi maraqla qəzeti alıb ciblərinə qoyur, harada isə, görünür, xüsusi bir diqqətlə oxumağa gedirdilər. Sanki aşkardan, ucadan oxumağa ehtiyat edirdilər. Sanki tək oxumağı kifayət bilmir, yoldaşları ilə birlikdə oxuyub dilləşmək istəyirdilər. Şeirin bəzi misraları şad xəbər kimi iki gündəcə aləmə yayıldı, şüar kimi dillərə düşdü:

İş apar, baş gedərsə, qoy getsin,
Ad qalır, bəs deyilmi millət ilə!

Bu yaxınlarda Təbrizdə, köməksizlik ucundan məğlub olan mücahidlərin başçıları ələ keçmişdi. Çar kazaklarının süngüsü, qanlı

Hacı Səmədxan atlılarının amansız divanı vaxtı mücahidləri dar ağasından asdılar. Dar ağacının altına, kəndir həlqə yanına gətiriləndə mücahidlər kəlmeyi-şəhadətdən başqa da bir şey demişdilər. Ancaq onların nə dediklərini, necə dediklərini bilən yox idi. Bu son və alovlu sözlər nə qədər həqiqət, nə qədər kəsərli, nə qədər təsirli olsa da, polad süngülər əhatəsindən kənara çıxa bilməmişdi...

Həmin faciədən xəbər tutan, zalimlərə lənətlər yağdıran camaat şəhid mücahidlərin ruhunu nə qədər alqışlasa da, onların son və müqəddəs sözlərini bilmək, eşitmək istəyirdilər. Mücahidlər ölümə gedəndə üzlərini camaata, azad və açıq üfüqlərə çevirmişdilər. Görəsən, onlar əsarətdə qoyub getdikləri vətəndaşlarına nə deyirdilər.

Dünənəcən bunu bilən yox idi. Kimi deyirdi, mücahidlər müctəhidlərə lənət oxumuşlar, kimi deyirdi, dostlarına əlvida demişlər. Kimi deyirdi, gələcəyə salam göndərmişlər...

Camaat qəribədir, el zehni, el sözü çox sirli, çöx güclü bir həqiqətdir. Dünənəcən heç kəsə məlum olmayan sözlər indi Bakıdan düşmüş Gəncəyə, Tiflisə, Təbrizə qədər hamının dilində söylənir, söyləndikcə, daha çox diqqətləri cəlb edirdi. İndi hamıya məlum idi ki, mücahidlər görünməyən bir mərdanəliklə dar ağacının altına gedəndə, vətən yolunda ölümü şirin bir şərbət kimi qəbul edəndə şeir oxumuşlar, özü də səs-səsə verib bu şeiri oxumuşlar:

Vətən uğrunda, millət eşqində
Cannisar et xilusi niyyət ilə!
İş apar! Baş gedərsə qoy getsin!
Ad qalır, bəs deyilmi millət ilə.

Bu xəbərin haradan, kim tərəfindən, necə yayıldığı məlum deyildi. Məlum olan bu idi ki, «Həqiqət» qəzetinin həmin nömrəsini axtarmayan yox idi. Hətta elə bir ehtimal da var idi ki, senzura bu əhvalatı



eşitsə, xəbər tutsa, qəzeti müsadirə edəcək, naşiri də, müəllifi də həbsə alacaqdır. Ancaq bunu da deyirdilər ki, həmin şeir mücahidlərin dilində çapdan çox-çox qabaq söylənmişdir. Həmin qəzet məktəbdə də yayılmışdı. Müdavimlərin, şagirdlərin çoxu şeiri kəsib saxlayırdılar. Əhməd Kamal isə bu hadisədən əsəbiləşərək şeiri pisləyirdi:

- Böylə əşar hissiyyati xəyalpərvəranə deyildir. «Fərzəndanimillətin tənvirinə müğayir və fitnə-ənkiddir!

- Əhməd Kamal müdir olaraq müəllimlərə, müdavim və ya şagirdlərə bir əmr edəndə, əlbət ki, itaət görürdü. Kimsə onun sözünü qaytarmırdı. Ancaq elə ki, ədəbiyyat və ya mədəniyyət haqqında söhbət düşdü, onda vəziyyət tamam dəyişirdi. Əhməd Kamal qəzetdəki şeirə münasibətini deyəndə, nəinki itaət görür, eşidənlərin gülüşü ilə qarşılanırdı. Dərs ilinin qurtarması münasibətilə düzələn şagird yığıncaqlarında, qəraət məclislərində, valideyn görüşlərində bir də görürdün, balaca, yaraşıqlı bir uşaq qabağa çıxıb həmin şeiri ucadan oxudu. Əhməd Kamal etirazını bildirməyə macal tapmamış alqış səsləri ucalırdı. Böyük dillənir, kiçik dillənirdi. Valideynlər dilindən belə əqilli, cürətli şeirlər eşitdiyi balalarını bağrına basıb əzizləyirdilər. Bu, ümumi, coşqun birlik şəraitində nə Əhməd Kamal, nə də onun köməkçiləri bir tədbir görməkdən aciz idilər. Senzura nümayəndələri də, sanki, bir növ, heyran qalmış, dili tutulmuş kimi heç bir cavab verə bilmirdilər. Bəlkə də, böyük şairin xəstəliyi ucundan, edilən zülm və vəhşiliklər ucundan həyəcana gələn camaatın etirazından qorxur, ehtiyat edirdilər. Hər halda hamıya məlum olan həqiqət bu idi ki, Tahirzadənin inqilaba, azadlığa çağıran şeiri oxucular arasında yayıldıqca-yayılır, şöhrətini artırırdı.

- Bunu kimlər yapıyor əcəba?

Tahirzadə Şamaxıda ölüm bəstərində yatıyorkən böylə şeiri nasıl da yazıyor, nasıl da intişar etdiriyor! Bu ki, «Molla Nəsrəddin» deyil. Başqa qəzetlərə, başqa dairələrə də sirayət etmiyormi?..

- Əhməd Kamal bu işdə məyus və məəttəl qalmışdı. Ancaq indi dostu Əli bəyin Qafqazı tərk etməyinin nə qədər «fəna» təsir bağışladığını, «Molla Nəsrəddin» şairlərinin «sərbəst meydan» aldığını hiss edirdi. Öz şefinin getdiyinə, nədənsə, hankı bir xam xəyal iləsə özünün Əli bəydən ayrılıb qalmasına təəssüf edir, az qala, başına döyürdü...

Müdir bu əndişələrə qərq ikən «Həqiqət» qəzetini, görünməyindən gözağrısı çəkdiyi qəzeti rəsm müəlliminin əlində gördü. «Abdal hərifləri seyr ediyormisən!..» Əhməd Kamal Kostinin hərəkətlərini gözdən qoymamağı qət etdi. Çünki onun «Molla Nəsrəddin» jurnalına və Tahirzadəyə münasibətini, yaxınlığını bilirdi. Bilirdi ki, Kostini nəinki Molla Nəsrəddin oxuyurdu, hətta oradakı rəssamlar ilə dilləşir, bəlkə də yazışır da. Bilirdi ki, onun Tiflis mühiti ilə, Nəriman ilə möhkəm əlaqəsi var... Müdirin ehtimalının xilafına olaraq Kostin qəzeti oxumadı. Səliqə ilə qatlayıb üstü yazılı bir zərfin içinə qoydu..

Əhməd Kamal saymazyana yerindən qalxaraq otaqda var-gəl eləyir, müəllimin arxa tərəfindən saymazyana sağa-sola tərəf keçərək zərfin üstündəki yazıya nəzər salırdı. Astraxan sözünü oxuya bildi və mətləbdən agah oldu.

Müdir indi, gümanına gəlməyən daha çox mətləblərdən agah olurdu. O indi aşkar görürdü ki, Kostinin Tahirzadənin şeirlərini nəinki burada təriflədi, hətta başqa yerdəcə, cürətə bax ki, sürgün şəhərlərinə, siyasi məhbuslara da göndərir. Təkcə «Molla Nəsrəddin» jurnalını yox, əlinə keçən, tətilə, üsyana çağıran nə varsa tapıb oralara göndərir. Polisin də gözü neçə bağlanıb ki, bu yekəlikdə işləri görmür, ya görür, səbir eləyir..»

Əhməd Kamal istədi müəllimi məzəmmət eləsin ki, rəsm dərsi hara, bu cür şübhəli işlər hara... Bir də istədi üstündən ötsün, açıb ağartmasın. Belə bir işə körə Kostinə ittiham üçün daha münasib vaxt və fürsət gözləsin. Gördü yox, özünü saxlaya bilmir. «Mənim





rəis olduğum məktəbdə, maaş verib saxladığım və həm də ikrah etdiyim bir şəxsin hərəkətlərindəmi həzm edəcəyəm. Xayır!»

Öz aləmində bunu dedi, müəllimin qarşısında dayandı:

- Uçitel əfəndi, görünür siz bu qəzeti çox seviyorsınız.
- Yaxşı oxut bilməsəm də, Tahirzadənin şeirinə görə almışam.
- Deməki şeiri oxuya bilyorsunuz?
- Bu şeiri mənə oxumuşlar, çox da xoşuma gəlmişdir.

Kostin təsdiq etdi:

- Qəribəliyinə qəribədir.
- Pək qəribədir!
- Dərəcəsini siz yaxşı bilərsiniz!
- Pək qəribədir!

Kostin müdirin əsəbi vəziyyətini görürdü, ancaq özünü onda qoymurdu. Əhməd Kamal təkrar etdi:

- Qəribədir ki, rəsm müəllimi daha çox əşar təqib ediyor.
- Şeirə mənim hörmətim var. Şeir də, musiqi də rəssamın zəruri qidasıdır. Çünki sənətlər eyni məqsədə xidmət edir, həyatı göstərməkdə - sənət sözü «qarıncalara»damı aiddir?

Kostin «hərifin» içini göynədən qəzəbi hiss etmişdi:

- Qarıncadan yazanda da sənətkar olmaq hünərdir. Gül, bülbül onsuz da gözəldir. Əsl sənət qarıncanın da gözəlliyini kəşf etməlidir!

Müdir onun sözünü kəsmək istədi:

- Rəssam olduğunuzu bilyordum, Qəvaidi-ədəbiyyədən dərs vermək iddianızı şimdi görüyorum!
- Qəvaid bilməsəm də, sənət nümunələrindən az-çox başım çıxır. Bu şeir balaları həyata, mübarizəyə çağırır. Çox da yaxşı çağırır. Güman edirəm ki, gələn il siz bu şeiri dərs kitablarında verəcəksiniz!

Əhməd Kamal, sol əlini cibinə qoydu, sağ əlini tovlayıb ikrah hissi ilə rədd işarəsi verdi:

- O, artıq istəməm görmək!

Əlinin süpürgə bığlarına çəkib, çəkməsilə döşəmədə səs saldı, özündən məmnun bir halda var-gəl elədi:

- İstəsəniz də, istəməsəniz də, bən məktəbin müdiriyəm!

- Bir sizin üçün yox, bu şeir bütün Bakı məktəbləri üçün proqramlara salınacaq!

Kostin bu sözü özünəməxsus bir qətiyyətlə dedi, müdirin üzünə baxmadan, cavab gözləmədən ayağa qalxdı, zərfi bağlayıb sahmanlamaqla məşğul oldu:

- Bu xəbər Həştərxandanmı gəliyor?

Kostin hərifin nə demək istədiyini yaxşı dərk edirdi. Bilirdi ki, Əhməd Kamal bu söz ilə kimə və nəyə işarə edir.

Müdir, Kostinin ən əziz, ən sevimli məsləkdaşınm adını çəkirdi. Özü də bir ittihatm, bir təqsir kimi çəkirdi...

Kostinin Nəriman ilə təhsil illərində nə qədər şirin və xoş xatirələri vardı. O zaman Kostin Tahirzadəni tanımırdı. «Molla Nəsrəddin» haqqında eşitsə də oxumamışdı. Nəriman, Sabirin şeirlərini oxuyanda.Kostini, orada böyük, üsyankar bir qəlbin həyəcanlı çırpıntılarını görürdü:

Bu çərxi-fələk tərsinə dövran edir indi,
Fəhlə də özünü daxili-insan edir indi!..

Nəriman ilk dəfə bu şeirin rusca tərcüməsini dostuna bildirəndə Kostin soruşmuşdu:

- Belə şey üçün şairin başı yəqin ki, çox ağrı çəkir.

- Ağrı nədir, təkğir edir, bayqot edirlər. Ancaq Sabirin taziyanələri daha da çoxalır, zərbələri qüvvətlənir.

- Məhləyə arxalanan şairin səsini boğmaq olmaz!

- Şairin qüdrəti ondadır?

- Şərq aləmində onun sözünü eşitməyən yoxdur! Ona bizlərdə füqəra şairi deyirlər.



Kostin maraqlanıb Nərimandan xahiş etmişdi:

- Onun şeirlərini mümkün olduqca, mənə çatdır, oxumaq istəyirəm...

İş elə gətirdi ki, Kostin Bakıya gəldi. Böyük şair ilə bir məktəbdə işləməli oldu. Ancaq Nərimanın da, məsləhəti üzrə Kostin zahirdə Tahirzadəyə olan əlaqəsini büruzə vermədi. Bunun işə zərərli olduğunu bilirdi. Belə bir vəziyyətdə həm şair, həm də rəssam işləməyə imkan tapmışdılar. Təəssüf ki, uzun sürmədi. Şairin ağır xəstəliyi, işdən uzaqlaşmaq məcburiyyəti onu Kostindən ayırsa da, Kostin öz məsləkdaşlıq vəzifəsini ləyaqətlə ifa edirdi...

O zaman Nəriman ilə Kostin tətilçilərə qoşulduqlarına görə universitetdən kənar edilmişdilər. Hər ikisi Bakıya qayıdıb özləri üçün münasib iş axtardılar. Bir-birilə peyman bağlayıb əbədi dost olmağa and içdilər. Nəriman sürgünə gedəndən sonra Kostinlə əlaqəni kəsməmişdi. Gah sifariş, gah məktub, gah da mətbuatda çəkdiyi sadə şəkillərə müxtəsər bir imza atmaqla məslək yoldaşı ilə dilləşirdi. Kostin başqa bir iş tapa bilmədi. Ancaq «yaxşı adamların» köməyilə burada. Bakının fəhlə rayonlarından birində rəsm müəllimi vəzifəsinə düzəldi.

Kostin uşaqlara rəsm çəkmək öyrədirdi, özü isə fəhlələri, fəhlələr haqqında yazılan ədəbiyyatı öyrənirdi. İstəyirdi ki, Tahirzadənin söz ilə dediklərini o da xətlər, rənglər ilə ifadə edə bilsin. İstəyirdi ki, fəhlələrin ağır, üzücü zəhmətini ifadə edən tablolar çəksin.... Təəssüf ki, buna nə içazə, nə də imkan var idi...

İndi budur, haqq sözün və azadlığın düşməni vəzifə sahibi Əhməd Kamal onu gör nə ilə hədələyir...

Əhməd Kamal demək istəyirdi ki, «Sənin Tahirzadə ilə dostluğundan başqa Nəriman ilə, sürgünə getmiş olan bir cani ilə əlaqə saxladığını da yaxşı bilirik...»

Kostin təmkinini pozmadan dedi:

- Əksinə, Həşxərxana gedir, Tahirzadənin şeirlərini orada bizdən az oxumurlar!

- Bu xəbər Həştərxandan gəlmir. Fəhlələrə cümə məktəblərində bu şeirləri əzbər öyrədirlər.

- Bilirik kimlər öyrədir.

Kostin qət etdi ki, hərifin içini bir az da çox göynətmək lazımdır.

- Bəli, Nərimanov kimi həqiqi maarifpərəstlər orada bizdən yaxşı müəllimdirlər. Bu şeiri oradan istəmişlər. Rus-tatar məktəblərində qəraət üçün yaxşı nümunələri verməyi bizdən xahiş etmişlər. Burada sizi maraqlandıran gizli bir mətləb yoxdur.

«Sizi maraqlandıran» sözünü rəsm müəllimi xüsusi ahənglə dedi, hərifin casusluq fəaliyyətinə işarə etdi.

- Gizli olmasa da, təəssüflüdür.

- Siz təəssüf edə bilərsiniz, ədəbiyyat belədir - kimini oynadır, kimini göynədir.

Əhməd Kamal balaca, sısqa, lakin çox iddialı vücudunda olub-qalan cəsarəti toplayaraq var gücünü göstərmək üçün bayaqdan bərk ürəyində ölçüb-biçdiyi sözü uçadan və bir az da təşəxxüslə dedi:

- Xayır! Qəti yanılırsınız! Nə o şeir təb olunacaq, nə də məktəb proqramlarında oyuncaq şeylərə imkan verməyəcək. Həştərxandakı məhbuslara lazım olan əşar bizim tərbiyəyə yabançıdır! Bizim Tahirzadədən çox-çox hünərli şairlərimiz var. Mətbuat milliyəmiz onların əşari ilə fəxr ediyor. Əmin ola bilərsiniz.

- Mən inandığıma çoxdan əminəm.

Əhməd Kamal ürəyini dolduran nifrətlə Kostinin üzünə baxdı:

- Rəsm ilə məşğul olunuz. Rəsm ilə! Bunlar ötər! Kostin zərfi əlinə alıb poçta yollanmaq istədi, dönüb şəhadət barmağını silkərək hərifə cavab verdi:

- Hansı elmlər, hansı şeirlər lazımdır? Bu uzun söhbətdir. Gələcək bunu həll edəçək. Azərbaycanlıların gözəl bir misalı var: cücəni payızda sanarlar. Hələ indi yazdır! Sünbüllər sütüldür, hələ ağaclar təzəcə meyvəyə dolur, günlər uzanır, gecələr isə gödərdikcə gödəlir!..

Bunu dedi, üzünü həyətə tərəf çevirib sürətlə getdi.





Əhməd Kamal onun dalınca baxa-baxa qaldı. Nəsə demək, hirsini soyutmaq istəyirdi ki, üç nəfər fəhlə müəllim otağına gəldi.

Məşədi Hüseyn salam verib müdirdən soruşdu:

- Müəllimlərdən kim var burada?

Əhməd Kamal cavab verməmiş ucaboylu fəhlə sualı dəyişib təkrar etdi:

- Kostin haradadır?

- Bu saat gələr.

Fəhlələr divarlara baxıb cədvəli axtaranda Əhməd Kamal təşvişə düşdü:

- İl qurtarır, tətilə hazırlaşırıq.

- Uşaqları buraxmayın. Xəbəriniz yoxdurmu?.

- Bir şey bilmiyorum! Bu gün şəhərə getməmişəm.

Məşədi Hüseyn bir söz deməyib həyətə çıxanda Mirzə Məsumu ağlayaraq gələn gördü. Onun dalınca fəhlələr, uşaqlar, qadınlar məktəb həyətinə dolmağa başladılar. Əhməd Kamal kiminsə dilindən «Tahirzadə vəfat etmişdir» sözünü eşitdi, heç nə demədən özünü kənara çəkdi.

Günortadan bir saat keçməmişdi, məktəb ətrafında böyük bir izdiham toplanmışdı. Kostinin, bilinmirdi, haçandansa çəkdiyi böyük və əzəmətli bir şəklin ətrafı matəm qarası ilə haşiyələnmişdi. Fəhlələr şəkli uca tutaraq şəhərin küçələrin gəzdirir, çar istibdadına və mənhus dindarlar mühitinə lənətlər yağdırırdılar. İzdiham böyük meydançada dayandı. Məşədi Hüseyn kürsüyə qalxıb ağır matəm xəbərini təkrar camaata elan etdi. Özü də bir neçə kəlmə deyəndən, Bakı fəhlələrinə, məktəb işçilərinə, məktəblilərə başsağlığı verəndən sonra fəhlə nümayəndəsi, şəhərdən, həmkarlar İttifaqından gələn bir nümayəndə kürsüyə qalxdı. Nümayəndə sözünü belə başladı:

- «Sabir vəfat etdi!» Bu xəbər ağır bir daş kimi yaralı qəlbimizdən asılmış bizi dərin matəmə salmışdır. Bilirsiniz bizim fəhlələrin Sabir kimi bir nadir şairə nə qədər ehtiyacı var. O bizim nəğməkarımız,

havadarımız, o bizim qəmxarımız idi. Onun şeirlərində biz özümüzü, öz taleyimizi, öz həyatımızı, öz arzularımızı görürdük...

Natiq, ani bir sükutdan sonra, sanki birdən-birə yadına düşmüş kimi aşığın sözünü ucadan dedi:

- Lənət bu dünyanın işinə gəlsin! Görürsünüzmü yoldaşlar, hal-hazırda Hacı Səmədxanlar, Kamil paşalar, Məmmədəli şahlar, Molla babalar zəhmət adamlarının qanını soraraq boyunlarını yoğunladırlar. Amma Sabir kimi nadir bir vücud millətini canından artıq istəyən şairin dərddən ürəyi şişib əhli-fəsadi şad edir. Qəribə haldır! Azadlıq yolunda qələm çalan bir şairin nə cismani, nə mənəvi dərdlərinə dərman tapılmadı. Ürəyini yandırıb xalqını güldürən şair aramızdan getdi...

Natiq üzünü məscid günbəzinə, sahibkarların idarəsinə tutaraq əlavə etdi;

- Hamınıza yəqindir ki, böyük şairin vaxtsız ölümündə müqəssirlər kimdir. Onu vərəmlədənləri bütün oxuçular, bütün fəhlələr bilir. Biz isə haqq divanını gözləyirik. Gözləyirik, görək Sabirə laməzhəb, babi, dinsiz ad qoyub vərəmlədənlər balaları öz ata-babalarının alçaq hərəkətandən xəcalət çəkəcəklərmi! Gözləyirik görək, ulayan bayquşların səsini nə zaman kəsmək mümkün olacaqdır? Sabir bizi haqqa, azadlığa, gələcəyə çağırır! Sabir aramızdan getmişdir, ançaq onun elməz əsərləri həmişə bizim yolumuza işıq salacaqdır!

Məşədi Hüseyn sözü şairin müəllim yoldaşına, Valeri Kostinə verdi.

Kostin kürsüyə qalxdı. Nərimanovun bakılılara göndərdiyi baş-sağlığı teleqramını oxudu:

Füqəra sinfinin böyük şairi Sabirin vəfatı xalqımız üçün ən böyük itkidir!

Sabir bütün şeirlərində zalimlərə zərbə vurmuş, məzlumların dadına çatmaq istəmişdir. Bu əsrdə onun qədər inqilaba, öz xalqına



zəruri olan ikinci bir qələm sahibi tapılmaz! Haqq, ədalət uğrunda uzaq sürgünlərə gedən, uzun həbslərə düşən, iztirablar çəkən fəhlə yoldaşlarımız sizin matəminizə ürəkdən şərikdirlər.

Böyük şair ürəklərimizdə həmişə yaşayacaq, atəşli əşari ilə azadlıq və tərəqqi yolunda həmişə əlimizdən tutacaqdır:

Yaşasın şəhriyari hürriyyət!

Nərimanın teleqramı sanki məyus, kədərli ürəklərdə çıraq yandırdı. Adamlar sevindilər, həm də təəccüb etdilər. Təəccüb etdilər ki, bu teleqramı senzuradan kim necə qorumuşdur. Sanki hamı, ürəyindən qopan bu sual ilə ucaboy, arıq müəllimə, rəssama baxırdı.

Kostin isə sanki bu suala aydın cavab olaraq inqilab mübarizlərinin son sözlərini ürək yaiğısı ilə uçadan təkrar edib deyirdi:

- Yaşasın şəhriyari-hürriyyət!

Həyəcan və hərəkətlə dalğalanan izdihamdan div nərəsi, qayalardan qopan güçlü bir əks-səda gəldi:

Yaşasın şəhriyari-hüriyyət!

## EPİLOQ

Yox, yox, əsla sən ölmədin, dirisən.
Ən böyük qəhrəmanların birisən...
Qəm yemə, təxfif ver alamına,
Az çəkər heykəl yaparlar namına.

A. SƏHHƏT

Tam on il sonra Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı elan olunmuş Bakının sərin yaz günlərindən birində, adamlar köhnə həyatın və qışın ağırlıqlarından silkindiyi, yüngül və əlvan bahar libası geyinib cümə günü dəstə-dəstə şəhərin səfalı bağça və bulvarlarına gəzməyə çıxdığı bir zamanda Kommunist küçəsində böyük və şən bir izdiham dalğalanırdı.

Bu, Sabiq İsmailiyyə binasının qarşısında toplanan Sovetlər qurultayının - fəhlə, kəndli, qızıl əsgər nümayəndələri qurultayının şənlik izdihamı idi. Yeniçə adı dəyişdirilmiş, həmin küçədə nəqliyyat hərəkatı dayandırılmış, pəncərə, divarlar bəzədilmiş, hər tərəfdə xalq milislərindən fəxri qarovul dəstələri dayanmışdı. Bir-birinə macal vermədən irəli çıxan, nə isə çox maraqlı bir mənzərəni görməyə boylanan adamların diqqəti, binanın qarşısında, yenicə salınan bağçanın ortasında qaldırılmaqda olan heykələ dikilmişdi. İsmailiyyə binasından çıxıb bağçaya tərəf yollanan hörmətli bir dəstəyə adamlar yol verdilər. Alqışlar altında ötənlər qurultayın rəyasət heyəti üzvləri idilər.

Onlar camaata salam verib təzim edərək gedirdilər. Onlar bağçanın ortasında, yeni dikəlməkdə olan heykəlin yanında qoyulmuş, qırmızı şüarlar, çiçəklərlə əhatə olunmuş kürsüyə qalxdılar.

Qarabəniz, enlisifət, buxara papaqlı, yaraşıqlı ağ kitel geymiş bir nəfər - Komissarlar Şurasının sədri alqış sədasına səbəb oldu. O, irəli çıxaraq bir əlini «ursünün məhəccərinə qoydu, o biri əlini bayraq kimi uca tutdu:





- Yoldaşlar... - deyə səsləndi.

Natiqin ilk sözü izdiham üzərində böyük və şad bir xəbər kimi yayıldı. Hamının diqqəti buraya, heykəl tərəfə çevrildi.

Natiq ilk sözündən sonra, sanki daha gərgin diqqət tələb edərək bir an sükut etdi, qartal nəzəri ilə dəniz kimi dalğalanan izdihama baxdı.

Bu sükut ani idi, lakin çoxmənalı idi. Bu sükutu əsrlər qədər zəngin bir aləmdən, tarixlərdə çox nadir baş verən çahanşümul bir hadisədən xəbər verirdi. Bu sükut əsrlər boyu davam edən zülm və zəncir dünyasının sonuna qoyulmuş ağır bir neqtə idi. Nöqtəni tarix yazanlar adətən qələm ilə qoyarlar. Natiq isə bu nöqtənin qələm ilə yox, qılınc ilə qoyulduğunu və həmişəlik olaraq qoyulduğunu hiss etdirirdi. Bu gündə, bu meydanda, bu izdiham qarşısında bu nitq çox əlamətdar idi.

Cəmisi bir neçə il əvvəl, həmin bu binada, həmin meydança qarşısında xalq şairini, inqilab nəğməkarını lənətləyir, əzaba mübtəla edirdilər.

İki addım qabaqda çar generalının, Bakını qılıncdan keçirməyə, xırda xalqların var-yoxunu tarmar etməyə gələn bir qatilin heykəli dayanıb bütün zəhmi ilə baxırdı. O mənhus ikibaşlı qartalın, çarlığın timsalı idi. Əsrlər boyu o mənhus qartalın vahiməsilə xalqlar azadlığa, qurtuluşa həsrət çəkir, inləyirdilər. İndi isə şahların, işğal sərkərdələrinin abidəsi fəhlələrin, kəndlilərin əli ilə uçurulmuş, əvəzində inqilabçı şairin, zəhmət, azadlıq çarçısı Sabirin heykəli yüksəlmişdi. İztirablar, sarsıntılar keçirmiş, inqilablar yurdu olmuş qocaman şəhərin, od və işıq şəhərinin gözü və tarixi belə bir dönüşü birinci dəfə görürdu.

Sanki mazutlu torpaq dinc nəfəs alır, fırtınalı dəniz ləpələri bu izdihamlı şənliyi alqışlayır, güclü günəş təzim üçün aşağıya enir, bu yerlərə indi daha çox nur və hərarət səpirdi.

Hamının tanıdığı və ürəkdən sevdiyi natiq, azadlıq yolunda, Lenin ideyaları uğrunda canından keçən, həbslər, sürgünlər, məhrumiyyətlərlə dolu mübarizələr içərisində qalib çıxan bir qəhrəman kimi öz uca, sərbəst, məğrur səsi ilə Sovet cümhuriyyətinin vətəndaşlarını təbrik edərək deyirdi:

- Yoldaşlar! Lenin proqramı sayəsində bizim xalqımız, şərqdə birinci dəfə, həm də həmişəlik olaraq azadlıq vuruşmalarından qələbə ilə çıxdı!

İnqilab bayramı günündə sizi Sovet hökuməti adından əlamətdar bir təşəbbüs ilə təbrik edirəm. Bu kün inqilabçı şairimizə əbədi heykəl bina edirik, Sabir heykəli Şərqin qapısında inqilab mücahidlərinə qoyulan ilk heykəldir! Rusların Nekrasovları, firənklərin hüqoları, türklərin namiqləri, ermənilərin nalbandyanları, gürcülərin çavçavadzeləri kimi bizim Sabirimiz də məzlumların dadına çatmaq istəmişdir. O, xalis füqəra şairi olmuşdur.

O, incə, həssas şair qəlbilə doqquz yaşlı qızdan doxsan yaşlı fəhlə, kəndliyəcən hamının dərdini duymuş, cürətlə demişdir. O, ağaların taziyanələrindən qorxmayaraq taziyanələr yazmışdır. O, həqiqəti deyə-deyə zalımları özünə düşmən eləmişdir:

Dəhr bir müddət oldu mənzilimiz!
Yaşadıqca çoxaldı düşmənimiz,
Nə edək, doğru söylədi, dilimiz!

Ağır işgəncələrə, təkfirlərə uğrasa da xalqını, ədəbiyyatını yeni yola, azadlıq, səadət yoluna çağırmışdır.

Fəhlə, kəndli siniflərinin ağalar, mülkədarlar zülmü altında çəkdiyi əziyyət və məşəqqətləri Sabir kimi açıq və canlı göstərən şairlər tarixdə təəssüf ki, azdır. Sabir bu bəxtiyar günləri, xalqının istədiyinə, ürəyinin mətləbinə çatdığı bu ağ günləri Azərbaycanda Şura hökumətinin təntənə günlərini görmədi.



Bu gündən sonra sabirlər və onların övladı həmişəlik arxayın ola bilərlər ki, xalqımız, mədəniyyətimiz, ədəbiyyatımız heç yerdən, heç kəsdən asılı deyil, tam azad, müstəqildir! Mədəniyyət, ədəbiyyat zəhmətkeşin öz malıdır. Sabir özü deyərdi ki, maddi nemətlərin əsil sahibi onu yaradanlardır. Sərin suyun qədrini onlarla sıralanmış quyuların dərinlərindən çıxaran fəhlə bilir! Bərəkətli torpağın, kəhrəba kimi buğda çərəyinin qədrini də hamıdan çox əkinçi, əliqabarlı rəncbər bilir.

Zəhmətsiz nemət yoxdur! Bu gündən belə həyatın sahibi zəhmət çəkənlərdir. Bu gündən belə hər şey bizim, inkişafımızındır! Üzümüz tərəqqiyə doğrudur. Bu yeni həyatın, mədəniyyətin keşiyində fəhlə-kəndli hökuməti bu yeni mübarizə qəhrəmanına əbədi xatirə olaraq abidə qaldırır. Qoy bizim qəhrəman şairin abidəsi şərq xalqlarının inqilab yolunda, yeni dünya yolunda qazandığı qurtuluşun ilk simvolu olsun!

Qaldırın qalib bayraqları! Yoldaşlar! Bizim bayram təntənəmiz, səadətimiz eşqinə!

İzdihamın göylərə yüksələn alqış sədaları altında gənc və ucaboy, ağ kəlağayılı, qara telli gözəl bir qız azadlıq ilahəsi kimi tribunada göründü. Bu qız da Tahirzadə kimi neçə il əvvəl həmin bu şəhərdə, həmin bu meydança qarşısında təkfirə uğramışdı. O zaman susdurulan körpə bülbülün indi gənclik səsi zümrüd göylərə yüksəldi, yeni nəğmələr oxudu:

Seyli tən eylə təməvvüclə alıb dövrü-bərim -
Bənzərəm bir qocaman dağa ki, dəryada durar!
Bisutun sinəsinə dəysə də min balta yenə,
Çövrə təmkin edərək durduğu mənada durar!
Nə qəm, uğratsa da bir gün məni ifnaya zaman,
Mən gedərəmsə, məramım yenə dünyada durar!
Mən gedərsəm var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!..

Əntiqə öz mahnısını oxudu, böyük bir təmkin, mənalı bir sükutla dayanan şairə baxdı.

Bütün camaatın hörmət, məhəbbət nəzəri inqilabçı şairə tərəf çevrildi. Tribuna üzərində dalğalanan qırmızı bayrağın ipək saçaqları qartal qanadı kimi gah heykəlin, gah natiqlərin, gah da dinləyənlərin üzünə toxunur, xəfif və xoş bir səs çıxarırdı: Əcəb, əcəb!

*1952—1957*



# HEKAYƏLƏR

# ƏRİK AĞACI

İlk nəvəm Aytəkinə

Uzun müddət ayrıldığınız və həmişəlik unutduğunuz, hətta öldüyə çıxdığınız əziz bir dost ilə üz-üzə gəlsəniz, nə cür olarsınız?

Təsəvvür edin ki, bu mənim öz başıma gəlmişdir. Xəyal, ya ehtimal yox, bir həqiqətdir ki, sizə danışmaq istəyirəm.

Deyəcəksiniz ki, bu məqamda adam özünü itirər, qəşş eləyər, bəlkə dəli-divanə olar. Amma mən nə özümü itirdim, nə ürəyim getdi, nə də ki, huşum başımdan çıxdı.

Əksinə, bu hadisədən sonra mənim başıma çox yeni fikirlər gəldi, çox mətləblər mənə aşkar oldu. İnsanın gücünə, insan əlinin qüdrətinə iman və etiqadım qat-qat artdı. Torpaqda möhkəm duranların necə xariqələr yarada bildiyini ancaq indi aydın dərk edirəm.

Hər məxluqun körpəsi zəif və möhtac olur. Körpələr kömək, himayə görməsə, yəqin ki, məhv olub gedər, yaşaya bilməzlər. Bəlkə buna görə təbiət insanların qəlbində, körpələrə mərhəmət hissi qoymuşdur. Normal insan, kim olur-olsun, nə əqidənin, peşənin sahibi, hansı millətdən, zümrədən, cinsdən olur-olsun, körpələrə kömək və mərhəmət hissi bəsləyir. Birində az, birində çox, birində aşkar, birində qapalı olur. Ancaq bu hiss hamıda olur.

Gümrah və kök bir qoyunu kəsib kabab çəkməyə tələsənlər də əmlik quzuya ot və su verməkdən ləzzət alırlar. Göydə uçan kəkliyi, qırqovulu, turacı vurub yerə salan ovçular, sələcədə civildəşən quş balalarına toxunmaz, əl vurmazlar. Ağac başındakı meyvəni dərmək üçün şax budaqları qanırıb qırmaqdan çəkinməyənlər, təzəcə göyərən pöhrə ağacı həmişə himayə edər, qoruyarlar.

Bunun özü insanın alicənablığını bildirən gözəl hissdir.

Çalışdığım məktəbin təzə tikilmiş binasında müəllim otağı lap kənarda, qurtaracaqda idi. Səhər tezdan mən burada, qapı ağzında dayanıb, dəstə-dəstə dərsə gələn uşaqlarla salamlaşır, həm mənəvi zövq alır, həm də, bir müdir olaraq, nəzarət vəzifəmi icra edirdim.

Zəng çalınandan, qapı-bacada səs kəsiləndən, hamının - müəllimin də, məktəblinin də dərsə başladığını düşünəndən sonra xüsusi bir ürək rahatlığı ilə içəriyə, müəllim otağına qayıdırdım. Pilləkənin yanında, günəş az tutan, əl-ayaqdan kənar yerdə bir tingin göyərdiyini gördüm. Əyilib diqqətlə baxanda, ərik olduğunu tanıdım. Keçən yayda tənəffüs zamanı müəllim yoldaşların həyətlərindən gətirdikləri iri, ağ, şirin, sulu, peyvənd ərikləri yediyimiz yadıma düşdü. Yəqin ki, həmin tumlardan buraya düşüb göyərmişdi. Həyat



hissi onu torpağın altından oyatmış, qaldırmışdı.

Bayaq dediyim hiss - körpələrə acımaq hissi, nəsə qəlbimi tərpətdi. Mən ərik tinginin ətrafına çubuqlar sancdım, dibinə su tökdüm. Ting iki-üç qarış qalxmış, balaca, zəif, yumru, yaşıl zərif yarpaqları ilə fəzaya, işığa doğru yönəlmişdi. Niyyətimdə tutdum ki, bir qədər böyüyəndən sonra tingi çıxarıb, yumşaq torpaqda, geniş bir yerdə basdırmaq lazımdır. Ancaq bu niyyəti tutduğum yerdə də unutdum: çünki bu barədə düşünmək, ərik tingi ilə maraqlanmaq, məşğul olmaq, nəsə, mənə qismət olmadı, bu hadisə dəhşətli bir zamanda baş vermişdi.

Min doqquz yüz qırx birinci ilin yazı vətənimizdə ən ağır, dəhşətli, fəlakətli yaz idi. Güman edirəm ki, belə bir yaz tariximizdə nə olub, nə olacaq. Başımızdan nagahani əsən «acı ruzgar» səmum kimi hər şeyi tufana tutmuşdu. Dağlarda lalələr, bağlarda meyvələr, tarlalarda ağır başlı sütül sünbüllər rəngini, ruhunu, mənasını dəyişmişdi.

Həmişə, hər yerdə, hər kəs üçün əziz və xoş olan bahar bu il kimsədən təbəssüm və nəvaziş görmür, gözləmirdi. Adamların qaya kimi sərt, bulud kimi tutqun simasından kədər, qayğı, intizar, qəzəb yağırdı. Hər kəsi imdada, köməyə çağıran vətənin yaralı səsi bütün qəlbləri tərpətmişdi. Yerindən qalxan silahını, çantasını götürüb əzizlərilə vidalaşır, səfərbərliyə gedirdi. Mənim hərbi komissarlıqdan çağırış aldığımı, sabah yola düşməli olduğumu bilən Nəbi dayı mənzilimə gəlmişdi:

- Yoldaş müdir, - deyirdi, - bəlkə tapşırığınız-zadınız oldu. Mən nə qədər ki, burdayam, canımda can var, nə qədər ki, nəfəsim gəlir, məktəbi göz bəbəyim kimi qoruyacağam. Ölərəm, qoymaram bu həyətə yad-murdar ayaq dəyə!

- Nəbi dayı, - dedim, - cavanlar gedəcək, yalnız sənə arxayınam. Gecələr qarovul qoyun, damlarda gözətçi olsun. Vəhşilərə etibar

yoxdur: məktəb, xəstəxana, kitabxanaya da od vururlar. Bunları, bu maarif ocaqlarını neçə illər boyu, nə zəhmət ilə tikib düzəltmişik, qorumaq gərəkdir. Arvad-uşağı da təlimə gətirin, köməkləşin... Biz ölsək də, məktəb yaşamalıdır, vətən balaları oxumaqdan qalmasın gərək...

Mənim dediklərimi Nəbi dayı diqqətlə dinləyirdi. Əlini əl üstə qoyub dayanmış, sanki ürəyini dolduran qəzəbi və təəssüfü izhar üçün münasib vasitə axtarırdı.

Bu qocanın on ildən bəri məktəb üçün nə zəhmətlər çəkdiyini, həyətini, bağçasını, odununu, suyunu, işığını minbir əziyyətlə sahmanda saxladığını və bununla iftixar etdiyini hamıdan yaxşı mən bilirdim.

İnsan, səadətinin, xoş gününün qədrini təhlükə yarananda bilər. Həmişə adi saydığım məktəb, həyət, uşaqlar, müəllim yoldaşlar, həmin bu Nəbi dayı indi mənim gözümdə daha da böyümüş, daha da əziz olmuşdu. Sanki bunları - dinc və xoşbəxt məktəb həyatını, uşaq oxutmaq kimi bəxtiyar bir peşəni tərk etməli olacağımı, bəlkə də həmişəlik tərk etməli olacağımı, müəllim üçün bu müdhiş zərurəti dərk etdiyim üçün hər şey əzəmət kəsb etmiş, xüsusilə əziz olmuş, gözümdə ayrı cür böyümüşdü.

Geyinib yola hazırlaşandan sonra məktəbi - otaqları, eyvanı, kabinetləri, bağçanı, hasar diblərini addım-addım gəzdim. Mənim həyəcan və tələşımı, görünür, hamıdan çox Nəbi dayı duymuşdu. Məni izləyir, arxayın, «uğurlu» getməyimi, salamat qayıtmağımı arzu edirdi. Pilləkən yanında ərik çəyirdəyindən göyərmiş tingi Nəbi dayıya göstərdim:

- Buna da bax, heyifdir, bir təpiyə bənddir, gözlə!

Nəbi dayı və məktəbdəkilər ilə əl verib görüşəndən, öpüşəndən, çantamı çiynimə alandan sonra qapıda dayanıb, çox həsrətlə məktəb binasını əziz bir məbədgah kimi seyr etdim, Qılınc ilə



bədənimdən qoparılmış bir parça kimi, bu dəsgahdan ayrıldım.

Kənd məktəbliləri - ən böyüyü dördüncü sinifdə olan on-on bir yaşlı məktəb uşaqları, nədənsə mənə, pəncərə qabağında təzəcə yarpaq açıb günəşə doğru yönəlmək istəyən ərik ağacını xatırladırdı. Müasir, dəhşətli müharibələrin bir küləyi buralardan keçsə bəsdir, məktəb nədir, bütün kəndi süpürüb aparacaq. Bombalara, yanğına, təxribata məktəbmi, bağ-bağçamı dözər!..

Görünür, bir də Köşgü məktəbinə qayıtmaq mənə qismət deyilmiş. Müharibə illərini, səfərləri, döyüşləri, ağırlıqları keçirəndən, cəbhədən bir müəllim yox, yaralı topçu kimi qayıdandan, müalicədən sonra şəhərdə məni sənaye texnikumuna hərbi müəllim təyin elədilər.

Köşgü məktəbi, orada qoyub gəldiyim uşaqlar, Nəbi dayı, demək olar ki, mənim yadımdan çıxmışdı. Bitib-tükənməyən hərəkət asfalt yolların kələ-kötürünü örtən kimi müharibə adamın hisslərini sərtləşdirir, hamarlayır, ən dəhşətli təsadüfləri hazır yetişdirir.

Cəbhədə təltif olunduğum günlərdə ştaba gələn təbriklər içərisində, Köşgü məktəbi kollektivinin də məktubunu mənə verdilər. Hər dəqiqəsi odlar, alovlardan keçən qızmar döyüş günlərində məktəb, dərs, zəng səsi, Nəbi dayının güləş siması şirin yuxu kimi nəzərimdən keçdi.

Bir dəfə də hərbi məktəbdə Nəbi dayı gəlib məni tapmışdı. Xoş-beş, əhvallaşmadan sonra qocaya müraciət etdim:

- Nəbi dayı, bizə görə qulluq? Bəlkə bir xahişin var?

Görünür, kişi bu sualı gözləyirmiş. Dik ayağa qalxdı, xurcununu qurdaladı:

- Qul sahibi olasan, oğlum. Salamat qayıtmağını eşidib hamımız sevinmişik. Köşgüdə həmişə söhbətiniz olur. Sizə çoxlu salam gətirmişəm. Ayrı bir xahişim yoxdur.

Qoca, xurcundan çıxartdığı bir səbəti yerə qoydu:

- Məktəb bağının meyvəsindən nübar gətirmişəm. Özünüz gəlmirsiniz, barı meyvədən dadın!

- Ağzın şirin olsun, nə zəhmət çəkmisən.

- Zəhmət deyil - borcumdur. O bağın binasını sən qoymusan axı!

Nəbi dayının orada olmağı, məktəb bağına həmişəki kimi bağbanlıq eləməyi məni çox sevindirdi, ürəyimdə Köşgünü bir də görmək arzusunu gücləndirdi.

Ötən yayda müəllim yoldaşlarımla dağlara, səyahətə çıxmışdım. Gəncə dağlarından, Köşgü kəndinin yanından ötəndə, məktəb yadıma düşdü: «Buraya baş çəkməmək namərdlik olar», - dedim. Yoldaşlarım da razılaşdılar. Maşını birbaş Köşgüyə sürdük.

Nədənsə indi, 20 ilə yaxın bir müddətdən ayrıldığım kəndə yaxınlaşdıqca, küçələri tanıdıqca, qürbətdən Vətənə qayıdan kimi ürəyimin döyüntüsü artırdı. Bilmirəm niyə?

Köşgü, dağlardan enən dar dərənin o tay-bu tayında salınmış xırda, yaraşıqlı bir yaylaq kəndidir. Aşağıdan, rayon kövşənlərinin qurtaracağından yuxarı diklənəndə Köşgü evləri pillə-pillə düzülmüş əlvan arı pətəklərinə bənzərdi. Məktəb dərənin sağında, güney yamacda idi. Pəncərələri həmişə günəşin ilk şüalarını salam- lardı. O zaman biz buraya at-fayton ilə çətin gələrdik. İndi kəndin içindən abad maşın yolu keçib rayon mərkəzinə gedir. Düzdür, maşın ilə gedirdik, ancaq mən sağıma-soluma baxır, 20 il əvvəl gördüyüm yerləri tanımaq istəyir, tanıya bilmirdim. Cığır kimi balaca küçələr sökülüb dağılmış, böyük yollar, sağ-solda daş evlər salınmışdı. Yalnız üfüqü örtən qocaman ağaclar, dərəyə enən meşə cığırları keçmişi xatırladırdı. Məktəbin yerində sıx ağaclıq, bir qədər uzaqda isə ağ daşdan tikilmə çox pəncərəli bina görürdüm. Şoferdən soruşdum:

- Bu nə binadır?





- Məktəbdir.

- Yəqin təzə məktəbdir.

- Bəli, 3-4 il olar tikilib. Onillikdir.

- Bəs köhnə məktəb binası hanı?

- Köhnə bina görünmür. Orada indi nəsə, uşaqlara yeməkxana düzəldiblər.

- Bu ağaclıq nədir qabaqda?

- Məktəbdir, məktəbin bağı.

«Bağ» sözünü eşidəndə, Nəbi dayının sözü yadıma düşdü. Yəqin, dedim, o kişi indi buralarda, ağacların dibində əlləşir. Biz maşından düşüb böyük dəmir darvazadan həyətə girəndə, ağaclar altında qocalar kimi sakit dayanan köhnə binanı görəndə, ancaq pəncərələrə gözüm sataşanda, məktəbi - keçmiş əziz bir müsahibimi, dostumu tanıdım. Necə tanımayım?! Əlimdə jurnal səhər-axşam girib-çıxdığım, cücəli toyuq kimi körpələr əhatəsində deyib-güldüyüm cavanlıq illərimi, həvəsli günlərimi keçirdiyim yerləri necə tanımayım! Hər addımı tanışdır, əzizdir. Deyəsən bu bina kiçilmişdi, çox kiçilmişdi. Özü də qocalmış, soluxmuş, rövnəqini itirmişdi.

Mən dayanıb ətrafıma baxdım, gəldiyim yeri diqqətlə vəravurdladım.

- Təzə məktəb?..

Mən bu sözü deməmiş ağbaş, qısaboy, əsalı bir kişinin yaşına yaraşmayan cəldliklə yaxınlaşdığını gördüm.

- Təzə məktəb qabaqdadır.

- Bəs bu nədir?

- Yeməkxanadır.

Qoca, əsasına dirənərək, dik-dik mənim üzümə baxmaqda, sanki daha yeni suallar gözləməkdə davam etdi. Güman ki, mənim üzümdə adi nabələd adamın baxışını görməyən, başqa mənə duyan və axtaran qoca, bir addım da irəli yeridi, səsinə mülayim, lakin həyəcanlı ahəng verib soruşdu:



- Bağışlayın, siz bu yerlərdə işləməmisiniz? Sizi mən ayrı bir yoldaşa oxşadıram axı!

- A kişi, sən Nəbi dayı deyilsən? Ayrı niyə?

- Ay müəllim! - Qoca bu sözü, adam çağıran bir qışqırıqla dedi, üstümə cumdu. - Ay müəllim! Sağ olmuş, niyə nişan vermirsən, məni çaşdırırsan, qardaş, o boyda da qocalmamışam axı! Çaşdırmayın məni, qardaş oğlu!..

Kişinin danışığı, hərəkəti tamam keçmiş günləri gözümün qabağına gətirdi. İri gövdəli, cəld hərəkətli, iti baxışlı Nəbi dayıdan yalnız bir eskiz, bir də xırıltısı artan səsi, dağ ləhcəsi qalmışdı. Mən təsəlli vermək istədim:

- Nəbi dayı, sən haman-hamansan, heç dəyişməmisən.

Qoca əlindəki əsanı, qar kimi ağarmış saqqalını göstərdi.

- Ömürdür, keçir... Bəs nə əcəb, illərdi bizi itirib axtarmırsan, müəllim?

- Bəyəm macal olur ki, ha çalışıram, bir bu yana yolum düşmür.

- Di xoş gəlmisiniz! İndi sən görən məktəb deyil, işlər böyüyüb, onillik olub, dörd yüzdən çox uşaq, iyirmidən çox müəllim var.

- Nəbi dayı, bu ağaclıq, yəqin, sənin əsərindir?

- Xeyr, mənim niyə, binasını sən qoymusan, uşaqlar ilə köməkləşib artırmışıq, bağ eləmişik.

Nəbi dayı məni yeməkxananın kənarında cərgələnmiş meyvə ağaclarına tərəf çəkdi:

- Yadınızdadırmı, çərdəkdən göyərən ting? Dava vaxtı körpə tingi mənə tapşırdınız: buyurun, igid ağaca tamaşa eləyin! - Kişi sinə dolusu iftixarla deyirdi: - Əmanətinizi təhvil alın!

Mən təəccüblə dayanıb gümrah, iri gövdəli, uca, qollu-budaqlı, başında lampa kimi ərik qızaran ağaca baxırdım:

- Həmin ting budur?

- Özüdür.
- Yox, canım.
- Özüdür ki, var!
- Nə tez böyüyüb, Nəbi dayı?
- İyirmi ilin söhbəti var, nəyi tezdir, ərik ildə bir metr artır! Dağ yerində bu ağacın kefi saz olur. - Nəbi dayı yaradanlara məxsus bir qürurla ağacın budağına, meyvələrinə baxırdı: - Baxırsınızmı, nə qanadlanıb!

Ayrı zaman və şərait olsaydı, uşaqlıq illərimi yad edib, dərhal ağaca dırmaşar, budaq başından öz əlimlə ərik dərməyə tələsərdim. Amma indi, qoca bağbanın sözü məni lap çaşdırmışdı. Heç inanmağım gəlmirdi ki, çöp kimi qoyub getdiyim ting bağçanı kölgəsi ilə örtən nəhəng ərik ağacına çevrilmişdir. Başında dağ fəzasının ayaz fonunda lumu kimi saralan meyvələr müəllim otağında ərik yediyimiz günləri xatırlatdı. Doğrudanmı bu həmin tingdir? Bir, ya bir yarım metr qalxandan sonra sola doğru meyillənmiş, gövdəsi aslan kimi burulmuş, daha sonra meşə ağacları kimi dümdüz göylərə yol almışdı. Beş-altı metr, bəlkə də artıq boy atandan sonra saysız-hesabsız budaqlar qol-qanadını ayırıb ətrafa yaymış, dağ günəşini sorub qidalanmış, zərif yarpaqlar açmış, həyəti sıx kölgə ilə örtmüşdü. Ağacın gövdəsi cantraq və möhkəm idi. Görən buna bəlkə də otuz-qırx yaş verərdi. Gövdənin sərt yerlərindən nazik çubuqlar da göyərməkdə idi. Mən sanki dünənki körpənin belə nəhəngə döndüyünə sevinc və təəccüb içində heyran-heyran baxırdım.

Deyəsən, Nəbi dayı da bu mənzərədən sevinirdi. İrəli yeriyib, cərgələnmiş ağacları göstərdi:

- Bu bağçanın binasını siz qoymusunuz, uşaqlar bəsləyib-böyüdüblər. Bax, bu cərgə badam, bunlar payızlıq armud, yandakılar gülöyşə nar, iydə ağaclarıdır. Sizin ərik şah ağacdır. Bunlar hamısı ondan bir-iki il sonra basdırılıb, hamısı da indi meyvə verir. İnternatda oxuyanların meyvəsi, kompotu, mürəbbəsi məktəb bağındandır. Bir kəsə minnətimiz yoxdur! Çox şükür!

Mən bağbana təşəkkür etməyə münasib söz tapmırdım. Bəlkə gözəl bir bağ-bağçanın yaradıcısı qarşımda idi. İri gövdəli kişi indi, sanki bəslədiklərinin əksinə olaraq, kiçilmiş, zəifləmiş, yüngülləşmişdi.

Nəbi dayı mənim qarşımda indi bir qoca xadim, bələdçi bağban yox, böyük məna və mətləblərdən xəbər verən hörmətli bir sima, yorulmaz əmək bahadırı kimi dayanmışdı. İndi mən onun əlini sıxmaq, önündə baş əyib təşəkkür eləmək arzusunda idim. Ancaq belə bir qəlb sahibi, torpağın, günəşin, əzəmətli dağların oğlu, quşlar kimi səs-səsə verən vətən balalarının ləyaqətli atası, müəllimi, əmək ustası, uşaqların gələcəyinə belə bağ bəsləyə bilərdi. Bütün bu sıralanmış, şaxələnmiş, göyün bir qatına qalxmış ağaclar məğrur-məğrur dayanaraq, dağlara, dərələrə, düzlərə iftixarla baxaraq, sanki bu qoca bağbanın yaradan əllərilə fəxr edir, hamını, hər şeyi halal əməyin bol bəhrəsinə tamaşaya çağırırdı...

O zamandan bəri ərik ağacı heç yadımdan çıxmır. Əməklə yoğrulan qara torpağın, təmiz havanın, bulaq sularının, dağ günəşinin böyük hikmətini, qüdrətini ağacın hər budağında, hər yarpağında, yeyilən hər şirin meyvəsində görürəm. Abad bağ-bağat görəndə həmişə zehnimin səhifəsində bir yazı səslənir:

- Ərik ağacı!

1960

## GÜLBƏSLƏYƏN QIZ

Bağ-bağat içində, güllük əhatəsində tikilmiş ağ daş binanın ikinci mərtəbəsində geniş bir eyvanda istirahətdə idim. Həkimlər əsəb sakitliyi üçün buranı münasib bilib məsləhət görmüşdülər.

Hər səhər tezdən eşitdiyim ilk və ən munis musiqi suyun şırıltısı idi. Bu səs gah leysanı andırır, gah da seyrəlib xışıltıya dönür, sonra da kəsilirdi. Təbiətin sədasını eşitmək, suyun, küləyin, yağışın səsini dinləmək nədənsə həmişə mənə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır.

Dediyim kimi, səhər tezdən eşitdiyim ilk musiqi suyun şırıltısı idi. Dərhal yatağımdan qalxıb eyvana çıxır, rəngdən-rəngə, ahəngdən-ahəngə düşən, gah enən, gah qalxan bir təbii simfoniyanı dinləmək, haradan gəldiyinə tamaşa etmək istəyirdim.

Görürdüm ki, ayağı yalın, qolu dirsəyə qədər çirməkli, başı ağ ləçəkli bir qız, əlində rezin boru, gül kərdilərini sulayır. Gah da susəpəni götürüb güllərin yarpaqlarını ehtiyatla yuyur, güllər isə sərin bahar suyunu içdikcə sanki quş kimi göyə baxır, səmaya qalxmaq istəyir. Ürəyimdə deyirdim: «Ay təbiətin gözəl məxluqu, niyə səmaya baxırsınız? Sizə su və həyat verən göydə deyil, yerdə, yanınızdadır, budaqlarınızı onun qarşısında hörmətlə əyin, ətrinizi onun gənc və sağlam vücuduna səxavətlə səpin. Onun kimi sizin yolunuzda zəhmət çəkən, şirin səhər yuxusuna haram qatan, ana kimi hər gün sizi yemləyən, qayğınıza qalan kimdir, kim ola bilər?..»

Gün əyiləndən, kölgələr sallanandan sonra, yük maşını qapıda dayanır, əli səbətli adamlar ləklərə daraşır, gülləri dərib toya, təvəllüdə, məclislərə, pişvazlar, təbriklər yerinə aparırlar. Bunlardan heç kəs gülbəsləyən qızı soruşmur, yoxlamır, bəlkə də tanımır. Qız da



bunlara məna vermir, öz vəzifəsini vaxtında, layaqətlə ifa edir.

Bir gün özümü saxlaya bilmədim. Eyvandan düşüb gül dərənlərin yanına gəldim, salam verib xahişimi bildirdim:

- Qardaşoğlu, olarmı mən də bu gözəl güllərdən dərib dəstə bağlayım?

Gül dərənlər hamısı bir ağızdan hörmət və ehtiramla:

- Bu nə sözdür, buyurun, hörmətli filankəs, bunlar sizin üçün, sizin səhhətiniz, əsəblərinizin sakitliyi üçün deyilmi? Nə qədər istəyirsiniz, hansından deyirsiniz, dəstə bağlayaq, siz buyurun!..

Mən, əlbəttə ki, onlara öz minnətdarlığımı bildirdim:

- İndi istəmirəm. Sabah bu güllərdən özüm dərib, özüm də əlvan dəstə bağlamaq istəyirəm.

- Çox əcəb, çox gözəl, haçan istəyirsiniz, necə istəyirsiniz buyurun!

- Mən səhər tezdən, üfüqdən günəşin ilk şüaları işaranda gələcəyəm...

- Buyurun gəlin, gülümüz çoxdur. Səkkiz yüz qırxdan çox gül növümüz var, indi hamısının açan vaxtıdır. Hansı sizin zövqünüzü oxşayır, buyurun! İşçilər də sizə kömək edərlər.

- Yox, əziz olasınız. Özümün gül dərməyə həvəsim var, özü də ləklər arasında,..

- Buyurun, buyurun! Biz çox sevinirik ki, bağımızın məhsulu sizin kimi hörmətli yoldaşların diqqətinə layiq olub.

- Minnətdaram.

Sabahısı günü suyun səsini eyvandan yox, həyətdə lap yaxından eşidirdim. Gülbəsləyən qız gülləri sulayanda mən də ləkləri gəzir, gül dərirdim. Əlbəttə, hər gülü yox, xoşuma gələn gülləri dərirdim. Dərirdim, özü də çalışırdım elə budaqlardan, kollardan dərim ki, ləklərin görkəmi pozulmasın. Dərdiyim güllərdən səliqə ilə, yaraşıqlı bir dəstə də bağlayır, qıyax yarpağı ilə sarımağa

çalışırdım. Düzəltdiyim iri dəstədə məxməri gül, nərgiz, mixəggülü, dağçiçəyi. gülxətmi, söyüdçiçəyi, nargülü, qızıl güldən tutmuş süsən, zanbağa, nilufərə, Çin gülünə qədər hamısından vardı. Özü də çalışırdım bu güllərin rəngi xalçada vurulan dairəvi naxışlara oxşasın, hər halda qarma-qarışıq yox, yaraşıqlı olsun...

Gülbəsləyən qız öz işində idi. Bağ boyu uzanan, xalça döşənmiş toy məclisi kimi əlvan görünən ləkləri tez sulayıb əldən çıxarmaq, iş paltarını soyunub, dərsə getmək fikrində idi.

Hər halda, bu qız məni görməmiş, seçməmiş deyildi. Doğrudur, hər gün, ya günaşırı bu bağdan səbət-səbət gül dərib maşına yükləyənlər olur. Gülbəsləyən qız onların kim olduğu, gülləri hara apardıqları ilə maraqlanmır. O bilir ki, hər kəsin öz vəzifəsi, işi var.

Qızın bağa girməyimi sezmiş olduğunu ondan bildim ki, məni görən kimi borunu yerə qoyub, üst-başını çırpdı, iş paltarının ətəyini bir qədər açıb uzatdı, qamətini düz tutub, başı ilə salam verdi. Sonra yenə borunu əlinə aldı, işinə davam etdi. Qız ləklərdən gül dərdiyimi, dəstə bağladığımı da görürdü. Güman edirdi ki, mən də hər gün buradan səbət-səbət gül dərib təntənə yerlərinə aparanlardan biriyəm. Yəqin ki, bu düzəltdiyim dəstəni xarici qonaqlara, vəzifəli yoldaşlardan kiminsə hüzuruna, ya da gözəl xanımların hansına isə təqdim etməyə hazırlaşıram.

Mən onun fikrindən keçənləri ötəri və ürkək baxışlarından oxuyurdum və öz aləmimdə də deyirdim: «Yanılırsan, qızım, tamam yanılırsan! Mən sən deyənlərdən deyiləm!»

Gül dəstəsini zanbaq yarpaqları ilə dairələyəndən, bağlayıb qurtarandan, diqqətlə bir də nəzərdən keçirəndən sonra mən də Gülbəsləyən qız kimi üstümü çırpdım, yavaş, mütərəddid addımlar- la qıza yaxınlaşdım.

Qız əvvəl fikir verməd, elə bildi ki, buradakı ləklərdən də gül dərmək istəyirəm. Balıqqulağı səpilmiş mərzlərlə ləklərə yox, düz





ona yaxınlaşdığımı görəndə, dayanıb mənə tərəf döndü:

- Deyəsən, dəstə bağlayırsınız?

- Bəli, dəstə bağlayıram, görüm bəyəniləcək, ya yox!

- Güllərə söz yoxdur, bizim güllük mahalda məşhurdur.

- Məşhurdur, mən istəyirəm ki, güllər əsl sahibinə təqdim olunsun.

Bunu deməyimlə dəstəni qıza təqdim etməyim bir oldu:

- Bu dəstəni sizin üçün hazırlamışam, qız!

Qız bunu görüb çaşbaş qaldı, ikrah elədiyi bir şeydən uzaqlaşmaq istəyənlər kimi geri çəkildi:

- Nə deyirsiniz, özünüzə lazım olar. Mən buna layiq deyiləm.

- Qızım, bu güllərin əsl sizə, sizin də bu güllərə ləyaqətiniz var. Torpağın dərin qatlarından bu əlvan çiçəklərin pərvəriş tapıb çıxması ancaq sizin o gənc və qüdrətli əlləriniz sayəsindədir. Mən neçə gündür buradayam, sizin güllərə çəkdiyiniz zəhmətin və qayğının şahidiyəm. Mən görürəm ki, siz böyük səylə güllərə qulluq eləyirsiniz. Vətənimizin hər guşəsini belə laləzara çevirmək üçün əməyini, istirahətini, gəncliyini əsirgəməyən qızlara bir ata, bir vətəndaş minnətdarlığımı bildirmək istəyirəm. Bu səmimi ifadəyə sizin öz əllərinizlə bəslədiyiniz əlvan və ətirli güllərdən əziz və layiqli hədiyyə tapmamışam. Qızım, al bu dəstəni mənim əlimdən, al!

Mən bu sözləri bir qədər həyəcanlı və həm də böyüklərin övladına etdiyi bir əmr ahəngi ilə ucadan qətiyyətlə dedim. Qız pul kimi qızardı, əlacı kəsildi. Gül dəstəsini alıb əlində əmanət kimi saxladı, həyadan, ismətdən göz qapaqları endi, yalın ayaqlarına baxa-baxa bunu deyə bildi:

- Çox sağ olun!

1961

## EHTİRAM

Ağsu yoxuşu şoferlərin gözünə durur. Ancaq aşandan, gədiyin başına çıxandan, üfüq boyu əlvan xalça kimi açılan Şirvan düzünə tamaşa edəndən sonra bütün zəhmət və çətinlikləri unudursan, quş kimi yüngül və yeyin gedirsən.

Həyat da belədir. Yüksəlmək çətin və zəhmətli, ancaq səfalı, fərəhli olur; enmək isə asan, ani və qüssəli olur.

Düzənliyə enib Ağsu kəndinin tozlu küçələrinə çatanda susuzluq duyursunuzsa, maşını dayandırıb, sıx ağaclı, hasarlı bir həyətin qapısını döyürsünüz.

- Ay ev yiyəsi, bir stəkan sərin su olarmı?

Ürkək və utancaq kənd qızları nabələd qonağı görən kimi «bu saat» deyib budaqları bir-birinə sarmaşan nar, heyva, gilənar, gilas, armud ağaclarının altında yox olur, bir dəqiqə sonra abı kasada sizə su gətirirlər.

Öz əksinizi göstərən duru, sərin suyu başınıza çəkib məktəbli qızına təşəkkür deyəndə, qızdan ədəblə «afiyət olsun» eşidəndə cürətə gəlib bir də xahiş edirsiniz.

- Qızım, bu kasanı bir də doldurmaq olarmı?

- Niyə olmur, əmi, suyumuza nə gəlib?!

Qız qayıdan kimi ucaboy bir qadın kəlağayısını yelləyərək qapıya yaxınlaşır:

- İçəri buyurun, qardaş, bizlərdə qonağı qapıda saxlamazlar, keçin içəri!

- Sağ olun, yol keçirik, gedəcəyik.

- Nə olar, gedəndə də gedərsiniz, içəri buyurun, dincəlin.

Kəlağayılı qadın qəti əmrlə sizi içəri çağırır, kiçik gözləri ilə maşını süzəndən sonra soruşur:



- Gəlişiniz, deyəsən, Bakıdandı, qardaş?

- Bəli, Bakıdandır.

- Çünki buralara Moskvadan, Tbilisidən də gələnlər olur.

- Yox, biz Bakıdan gəlirik.

- Xoş gəlibsiniz, səfa gətiribsiniz. Bakıda mənim nəvəm oxuyur. Bəlkə eşitmiş olasınız. Ehtiram!

- Ehtiram?

- Bəli, Ehtiram!

- Harada oxuyur Ehtiram?

- İnstitutda oxuyur.

- Oğul nəvənizdir, ya qız?

- Qızdan bircəsi var, sizə su verən. Oğuldandı, kiçiyidir, böyük qardaşı aqronomdur, həmişə əkin-tikin üstündə olur. Qız da, Allah sizinkiləri saxlasın, daş-torpağı oxuyur. Yanlarınca fəhlə aparırlar, yeri qazır, intiresni şeylər tapırlar, hər yay dağlara çıxır.

- Bacı, famili nədir Ehtiramın?

Qadın üzünü həyətin lap içərilərinə tərəf tutub, su verən qızdan soruşur.

- Nədi, ağız, Ehtiram nə yazdırır, Həsən qızıdı, yoxsa Qarayev?

Qızdan səs gəlmir. Səs gəlmir, ancaq siz bu sualdan Ehtiramın kim olduğunu öyrənirsiniz...

Öyrənirsiniz demək də düz olmaz, tanıyırsınız, tanıyırsınız, çünki Ehtiram sizin çalışdığınız institutun tələbəsidir. Yaxşı bilirsiniz ki, üçüncü kursdadır. Özü də hər il yay ekspedisiyalarında iştirak edir. İştirak edir, ona görə ki, siz, lap siz özünüz zəmanət vermisiniz ki, «bu, zirək qızdır. Kəndləri də pis tanımır, alimlərə köməyi dəyər, briqadaya salın».

Dekan da sizin zəmanətinizi nəzərə alıb, Ehtiramı kəşfiyyat işinə cəlb eləyib, qızın sevincinin hüdudu yoxdur. Ancaq kəlağayılı qadın bu işlərdən xəbərsizdir. O, nə sizin kim olduğunuzu, nə Ehtirama zəmanət





verildiyini, nə də işlərinin məhz siz tərəfdən yoxlanıldığını bilir.

Bunların heç birini bilməyə-bilməyə kəlağayılı qadın sizi yarıxoş, yarıcəbr çəkib evə, qonaq otağına aparır ki:

- Maşından nigaran olmayın, baxanımız var, bizim yerlərdə əyrilik olmaz. Əyləşin, bir stəkan çay için! Hələ günortadı, dincəlib sonra gedərsiniz.

Əslinə baxsan, sizin heç yolda dayanıb dincəlmək niyyətiniz yox idi. Bəlkə bu kəlağayılı qadın Ehtiramdan söhbət salmasaydı, siz heç dayanmayacaqdınız. Nəvəsinin sizdə oxuduğunu biləndən sonra siz istər-istəməz dayanmalı oldunuz, qadının dedikləri ilə maraqlandınız.

Həqiqətən maraqlıdır. İki adamın arasında üçüncü bir adam haqqında söhbət gedir. Özü də danışanların biri, kəlağayılı qadın, güman edir ki, siz onun nəvəsini tanımırsınız. Tanımadığınız bir adam haqqında bəs nə üçün söz açırsınız?

O da məlumdur: kəlağayılı qadın Ehtiramı sizə tanıtmaq, həm nəvəsi ilə fəxr etmək, həm də sizin Bakıya qayıdandan sonra Ehtiramı tapıb əhvalatı danışmağınızı xəyalında arzulayır. Siz isə öz təmkininizi pozmur, tələbəniz Ehtiram haqqında danışmazdan əvvəl onun ailədə, kənddə, valideyn yanındakı ehtiramını bir növ yoxlamaq istəyirsiniz. Bunun özü pis deyil.

- Bacı, nə dediniz, necə oxuyur, dərslərindən neçə qiymət alır, razısınızmı?

- Qardaş, qızın oxumağına söz ola bilməz. Bir od parçasıdır, deyən! Gecə-gündüz, yay-qış, tətil demə, bayram demə, kitab əlindən düşərmi? Deyirəm, ay ərkansızın qızı, saralmısan, anqutun çıxıb, yatağa düşəcəksən, bu nədi? Dəftər-kitaba da adam belə aludə olar, sən mənim üçün professor-zad olmayacaqsan ki?!.

Siz qadının mühakimələrinə gülürsünüz...

- Ay xanım, məni bağışlayın, adınızı da bilmirəm.

- Səltənət!
- Səltənət xanım, nədir bəyəm, qızlardan professor çıxmağına siz inanmırsınız?
- Niyə inanmıram? Şura hökuməti bunlardan lap yaranal da çıxardar, amma ki...
- Amma niyə?
- Amması var, çünki qız xeylağının bir ayrı yeri var, oğlanın da bir ayrı.
- Qızın oğlandan nəyi əskikdir?!
- Qız. qadan alım, qardaş, tez azır.
- Azmaq nəyə deyirsən, teatr-kinoyamı?!
- Yox, kinoya yox, televizoru özüm də hər axşam evdə qurub baxıram. Ona azmaq deməzlər. Azmaq odu ki, dindən-imandan kənar şeylər.
- Bizim qızlar indi çox ağıllı-kamallı böyüyürlər, Səltənət xanım.
- Kamalına sözüm yox, qudurmasın, azmasın.
- Azmazlar, yox!
- Bax elə Ehtiram. May bayramında gəlmişdi. Yenə dastan başladı.
- Nə dastan?!
- İndi də yeri qurtarıb, göydən başladı. Deyir ki, göydən adam gəlib.
- Necə yəni?
- Deyir, göyə fişənglə adam gedir, bir saatda küllü-dünyanı dolanıb, xəbər gətirir!
- Səltənət xanım, siz buna inanmırsınız?
- Qardaş, fişəngə barıt qoyarlar, indi də göyə fişəng atırsınız.
- Lap böyük fişənglər atılır, içində maşın, cihaz, adam da gedir. Bizim alimlər indi elə maşın çıxardırlar ki, doğrudan möcüzə.
- Qız deyir, təyyarəçi oğlan fişəngə oturub göyə gedib. Deyirəm, bəsdi-bəsdi! Ağlın olsun, asi-asi danışma. Qız durub məni başa sal-



mağa ki, nə bilim kosmos belə gəldi. Bilməzdim nəyə deyərlər kosmos. Ehtiram başa saldı ki, indi göy aləminə belə deyirlər. Mars belə getdi. Nə bilim, ay qardaş, bu qız göylərdən, ulduzlardan danışır, quruyub qalırsan. Deyirəm, qızım, sən yerdə, skamyada otura-otura, göydən nə xəbər bildin? Deyir yox, alimlər göydə nə var öyrənirlər. Fişəng atıb şəkil çəkirlər. Göyün altını da görüb-götürüblər, üstünü də. Vallahı, Ehtiram bayram günlərində burada şeylər danışdı ki, daha nə deyim?!
- Səltənət xanım, Ehtiram oxumuş qızdır, mövhumat, xəyalat danışmır, elm danışır. Bu saat bütün dünya göyə gedib-gələn təyyarəçi igiddən danışır. Eşitməmiş olmazsan. Qaqarin!
- Bəli, radiolardan eşitmişəm. Şəklini də görmüşəm. Ailəsi ilə bir yerdə. Ehtiram gətirmişdi, bütün qonum-qonşu baxıb. Bir boylu-buxunlu, igid oğlandı, sağ olsun!
- Qaqarin saat yarım ərzində yer başına fırlanıb, göyün də iqlimini, havasını öyrənib gəlib. Bütün dünya onun möcüz kimi sifətinə heyrandır!
- Hə, Ehtiram deyir, guya göydə dəmir də, daş da yarpaq kimi yüngül olub uçur. Lap mat-məəttəl qalmışam.
- Göydə təəccüblü şeylər çoxdur. Qaqarinin səfərindən sonra təzə kitablar bağlanır, mühazirələr oxunur, şəkillər çəkilir. Səltənət xanım, siz gəlin nəvənizin sözünü qürbətə salmayın, o, boş söz danışmır. Kitab-zad necə, oxuyursunuz, ya yox?
- Gecə kursunu çoxdan qurtarmışam. Başım kolxoz işinə, nəvə-nəticəyə qarışandan sonra daha kitab oxuya bilmirəm. Allah sizinkiləri də saxlasın, uşaqlar oxuyub, danışırlar. Şükür, radiomuzzadımız var.
- Ehtiram kimi nəvəsi olanın gərək heç nə yadından çıxmasın: nə kitab, nə qəzet!
- Ehtiram çox şeylər danışır, mənim ağlım bir şey kəsmir, qocalmışam.

- Kəsər, kəsər. Ehtiram ağıllı-kamallı qızdır. Sənə bir şey deyəcəyəm, bilmirəm inanarsan, ya yox.

Səltənət təəccüblə üzünüzə baxır və güman edir ki, siz də nəvəsi kimi onunla deyişməyə hazırlaşırsınız. Özünü ciddiləşdirib soruşur:

- Nə deyəcəksiniz?
- Onu deyəcəyəm ki, Ehtiram bizim öz institutumuzda oxuyur.
- Yox, canım! Yalan olar, qardaş!
- Yalanı-zadı yoxdur. Ehtiram mənim öz tələbəmdir.
- Düzünü deyin, qardaş, ona siz dərs verirsiniz?
- Ehtiramı dağlara, briqadalarda elmi təcrübəyə göndərən mən özüm olmuşam. Əgər günah bilirsənsə, onu danlama, məni danla, Səltənət xala!

Səltənət xala əvvəl dediklərinizə inanmaq istəməsə də, Ehtiramın işini, dərsini, təcrübəsini, vaxtını yeri ilə, yurdu ilə deyəndən sonra inanmağa məcbur olur və yarıfərəh, yarısual deyir:

- Qardaş, deyəsən, sizi bura göndərən var, axı?
- Var, bəli!
- Deyirəm axı!

Səltənət lap özünü yığışdırır, ev-eşiyə göz gəzdirir, balaca qızı səsləyir, elçi qarşılayan analar kimi təşvişə düşür, ciddiləşir:

- Qız, xörək hazırlayın, qonaqlar acdır. Bəs, a qadan alım, kim göndərib sizi?!
- Bizi də Ehtiramı təcrübəyə göndərən institut göndərib. Göndərib ki, tələbələrin işləri ilə tanış olaq, onlara kömək edək. Səfərimiz Şuşayadır!
- Ehtiramın yanına gedirsiniz?
- Bəli, onun briqadasına baş çəkəcəyik. Sözündən-sovundan?

Səltənət mətbəxə qaçır.

- Qıza bir balaca ev xörəyindən-zaddan, yazbaşı ağartıdan, həyətdən dərilən göyərtidən, tərəvəzdən...
- Şuşada nə çoxdur belə şeylər...
- Yox, evin əvəzini verməz, qardaş, zəhmətini çəkin, bir balaca





əmanət aparın.

- Gözümüz üstə!
- Yəqin Ehtiramı görəcəksiniz?
- Axşam onun yanındayıq.
- Çox-çox salam-dua. Sizin yanınızda da bilmədim, artıq-əskik danışdım. Qardaş, qıza deməyin, utanar.
- Əksinə, qıza təşəkkür edəcəyəm ki, nə yaxşı, dilavər, qonaqpərəst, iş bilən nənən var!
- Yox, canım, cavan vaxtımda qonaqpərəstliyim, bişirib-düşürməyim vardı, indi daha canım zəifdir, qardaş, yetirə bilmirəm.
- İgid-igid nəvələr böyüdənin ürəyi dağ kimi olar, necə ki, görürəm. Bir zəiflik yoxdur.

Səltənət xanım həm iftixar, həm də xəcalət hissi ilə başını tərpədib sanki təsdiq edirdi.

Dağda, kəşfiyyat işində çalışan qıza, Ağsu təsadüfünü danışanda inanmaq istəmədi.

- Nənəm elə şeyləri qonağa danışmaz.
- Necə danışmaz, nənən Nəbinin Həcəri kimi qadındır, qonaqlara macal vermirdi.
- Görünür, sizi tanımayıb.
- Tanımadığı üçün də sərbəst danışdı. Açıq danışmağı bizə ləzzət verdi. Ancaq sən gərək onunla məşğul olasan, köhnə, mövhumi təsəvvürlərini dağıdasan, elmdən, məktəbdən, yeni həyatdan elə danışasan ki, həm maraqlana, həm də inana!..
- Günün tutulmasına hisli şüşə ilə baxdıranda gözləri bərəlir, hey suallar verir.
- Elə olacaq. Bir dəfə maraq oyandı, daha əl çəkməyək. Şifahi təbliğat bəs nədi, buna deyirlər də!

1961.

# GÜNAH KİMDƏDİR

- Mən ədəbiyyatın, şəxsən sizin oxucularınızdanam. Yaxşı bilirəm ki, siz tanınmış, hörmət sahibi, müasir mədəniyyət xadimisiniz. Gözünüzün önündə köhnə, cəhalət timsalı bir şəxsiyyətin cinayəti tüğyan edirsə, buna etinasız, biganə münasibət bəsləyə bilərsinizmi? Belə bir vəziyyətə necə qiymət verər, nə ad qoya bilərsiniz? Xahiş edirəm deyəsiniz!..

Mən hərifin bu gözlənilməz sualına birdən-birə cavab vermədim:

- Əzizim, - dedim, - belə mürəkkəb məsələləri ayaqüstü həll etməyə çalışmaq, adamı yanlış yola salar. Buyurun bizim sakit sinif otaqlarından birində oturaq, arxayın danışaq. Sizin sualınızı da ətraflı təhlil edək. Görək nə məsələdir, nə cəhalət, nə tüğyan, nə etinasızlıqdır?!

Oxucu mənim cavabımdan məyus olsa da, etiraz etmədi.

- Nə eybi var, razıyam!

Bunu dedi, ərklə qolumdan tutub məni məktəbə, sinif otağına çəkdi. Paltomu soyundurub papağımı asdı, mənə yer göstərdi:

- Buyurun əyləşin, indi danışmaq olar.

Mən də müsahibimin qarşısında hazırcavab, vacib bir mətləbə müntəzir kimi oturdum. Oturdum, ancaq bir söz danışmaq qəsdi ilə yox, oxucunu dinləmək, söhbətin təfsilatını bilmək üçün oturdum.

Oxucu da bunu hiss etdi. Ciddiyyətini toplayaraq, daha aram la, səbirlə söhbətini sanki təzədən başladı:

- Bağışlayın, hörmətli filankəs, mənim sizə şikayət təriqilə açdığım bu söhbət bəlkə də başqa yerdə, şəraitdə deyilsə, inanmazlar. Siz özünüz də inanmazsınız. Bu, inkişaf, mədəniyyət əsrimizin son yarısında, bütün ictimai düyünlərin sürətlə, dalbadal açıldığı illərdə azad bir məhəbbət yoluna belə bir daş, ağır sədd qoymağın,



elə əngəl düzəltməyin kimə, nəyə lazım, necə qiymət vermək lazım olduğunu mən məhz sizdən, sizin kimi mötəbər bir qələm sahibindən, ictimai mətləbləri araşdıran, həll edən yoldaşdan soruşmağa cəsarət etdim. Gümandayam ki, siz mənə mümkün köməyinizi əsirgəməzsiniz! Bu kömək mənim xahişimdirsə, sizin də borcunuzdur; mədəniyyət borcu, vətəndaşlıq borcu!

Oxucu şikayətini bir az da təkidlə, inadla deyirdi, sözünü qurtarandan sonra həyəcanlı bir intizarla üzümə, üzümə yox, lap gözlərimin içinə baxırdı:

- Zənnimcə, köməyinizi əsirgəməyəcəksiniz!

Oxucu yoldaş sözünü təkidlə deyib inadla baxırdı. Ancaq məsləhət istəyən adam kimi yox, qəflətən yaxaladığı, ağır böhtanlarla divara qısnadığı bir müqəssirin üzünə baxan kimi baxırdı. Onun baxışları davamlı, kəsərli, intizarlı idi. O məni istintaqa çağıran bir hakim kimi divara qısnamışdı, cavabımı isə gözləmirdi, aramsız danışırdı.

Mən də onun həyəcandan qızarmış çöhrəsinə, geniş açılmış gözlərinə, qığılcımlar oynayan bəbəklərinə diqqət yetirirdim.

Bizim vəziyyətimizi kənardan görən olsaydı, iki düşmənin qabaqlaşdığını, bu saat bir çarpışma baş verəcəyini güman edərdi. Nə məndə, nə müsahibimdə silah vardı. Ancaq bizim tək bir otaqda qabaq-qabağa, ciddi dayanıb baxışdığımızı görənlər, kəskin bir ixtilafın zirvəsini dərk edərdi.

Doğrudur, mən qoyulan məsələnin bir təhlükə ilə bağlı olduğunu, lakin şəxsən mənimlə əlaqəli olmadığını yəqin bilirdim. Lakin hərifin baxışı, danışığı sanki məni ovsunlamışdı. Ürəyimdə cavab axtarırdım:

- Adınızı da bilmirəm, yoldaş...

- Adım Rəşiddir.

- Adın nədir, Rəşid, birini de, birini eşit! Yoldaş Rəşid, nədənsə

siz çox təsirlənmisiniz. Bəlkə qəlbinizə dəyiblər. İndiki mütərəqqi cəmiyyət, əlbət ki, mürəkkəbdir, əlvandır. Arzuladığına nail olmaq üçün. Qorki demişkən, mübarizə lazımdır. Bunsuz heç bir şey əldə eləmək olmur. Sizə mane olan qüvvələrin kimdən, nədən ibarət olduğunu, təəssüf ki, bilmirəm...

Müsahibim görüşlərimdəki namüəyyənliyi, münasibətimdəki yumşaqlığı, şikayətimdəki mücərrədliyi dərk etmiş kimi, bir az da yaxın oturub, dediklərinə əlavə etdi:

- Müəllim, - dedi, - açığı budur ki, məni bağışlayın, üzlülük edirəm, səmimi məhəbbət bağladığım sevgilimi - əmim qızını indi mənə vermək istəmirlər. Əsl məsələ budur. Doğma əmim qızı ilə aramızdakı atəşin məhəbbətə, səmimi sevgiyə bir kömək əvəzinə aşkar sədd çəkirlər!

- Bu maneənin səbəbi nədir?

- Heç nə! Bir səbəbi yoxdur. İndi, əlac ona qalıb ki, Səadətlə köçüb başqa bir şəhərə gedək. Uzaq yerdə yaşayaq. Gözdən uzaq, könüldən iraq! Bədxahlardan yaxamız qurtarsın.

- Buna valideynləriniz necə baxar?

- Onlardan soruşmaq lazım deyil, sonra bilərlər.

Rəşidin izahından məlum idi ki, qızın valideyni bu işə razı deyil. Cavanlar görünür qət etmişlər, heç bir maneəyə fikir vermədən evlənəcəklər!

Başqa bir deyəcəyim qalmadı:

- Mübarək olsun!

Belə bir xeyir işə başqa aqibət arzulamaq nalayiq olardı. Ancaq bu xoş arzu ilə müsahibimin yarası sağalmazdı. O məndən kömək istəyirdi və bəlkə məhz bu məqsəd üçün gəlmişdi.

- Yoldaş Rəşid, bu xeyir işə mane olanları gərək mənə tanıdasınız. Onlarla arxayın oturub danışmaq, başlarına ağıl qoymaq lazım olacaq!



Mənim qənaətim Rəşidin xoşuna gəldi. Bayaqdan bəri çöhrəsində qaralan müəmma ipək düyün kimi açıldı, rənginə aydınlıq gəldi. Bu vəziyyət mənə də ruh verdi. Tanımadığım gəncin qəlbinə təsəlli ola bilən daha bir neçə xoş söz deməyi lazım bildim:

- Mütləq lazımdır, dumanlı başlara işıq vermək! Axı bu nə zamandır! Bəşəriyyət milyon-milyon axışıb kommunizmə getdiyi, mərd igidlərə fəza sirlərini açdığı, həkimlər ürəkləri təzələdiyi bir əsrdə məhəbbətə zəncir vurmaq olarmı? Bu nə boş iddia, nə xam xəyaldır!

Rəşidin rəngi lap duruldu, gözləri güldü. Qolumdan yapışıb dedi:

- Yoldaş filankəs, bu vacib sözləri mənim atama, Səadətin atasına desəniz nə yaxşı olardı. Onlar sizin məsləhətinizi eşitməmiş olmazlar! Onlar sizə inanarlar!

- Verin onların ünvanını, günü sabah qapılarına gedərəm! Gedərəm, ya da onları lazımi yerinə çağıraram.

Mən qələm-dəftər çıxarıb ünvanı yazdım.

- Yoldaş filankəs, xahiş edirəm, nə mənim, nə Səadətin adı tutulsun. Bizim adımız olmasın. Guya siz bu əhvalatı kənardan eşidib təsirlənmisiniz. Bir ədib, bir vətəndaş borcu kimi məhz xeyir işə rəvac verirsiniz! Vermək istəyirsiniz. Bax, bu cür!

Mən Səadətin atasını təmir emalatxanasında, radio cihazlarını yoxlayan yerdə tutdum:

- Usta, - dedim, - sizinlə xüsusi söhbətim var, bəlkə macal tapasınız?

Usta əlindəki burğacı yerə qoyub, qapıya çıxdı:

- Buyurun, nə məsələdir?

- Buyurmağım yox, məsləhətə gəlmişəm. Sizin balaların taleyi ilə bağlı məsələdir.

Usta bunu eşitcək özünü yığışdırdı, iş paltarından utanan kimi ətəklərini silkələdi, yaxalığını düzəltdi:

- Sizi dinləyirəm, - dedi.

- Səadətlə Rəşidin xeyir işinə mane olan nədir?

- Nə eşidibsiniz, necə eşidibsiniz, bilmirəm, ancaq qabaqcadan deyim ki, baş tutan iş deyil!

Mən təəccüblə soruşdum:

- Nə üçün? İki ləyaqətli müasir gəncin məhəbbətinə kim mane ola bilər? Nə haqq ilə?

- Bunun səbəbini danışa bilməyəcəyəm. Nə Rəşid üçün dünyada qız əskikdir, nə Səadətə oğlan! Hər ikisi bizim əzizimiz, övladımızdır. Günü sabah, kimi desələr, qabağa düşüb elçilik eləmək bizim borcumuzdur. Ancaq onların izdivacı baş tutan iş deyil. Bu barədə üz vurmayın, xahiş edirəm.

Usta sözünün axırını xüsusi ahənglə dedi və şəhadət barmağı ilə qarşısındakı stola nöqtə qoydu:

- Burada nöqtə!

Usta sözünü qət edib masaya sarı döndü, burğacı götürüb ci hazla məşğul olmağa başladı:

- Məni intizarda qoydunuz.

- İntizar yox, axır sözümü sizə dedim!

- Mən ümidlə gəlmişdim. Hər qapıya da getmərəm, bilirsiniz!

- Ayrı nə qulluq olsa, baş üstə, hazıram. Bu barədə üzürlü sayın!

- Məni çox intizarda qoydunuz.

Ustanın qəti cavabı məni məəttəl qoymuşdu, Rəşidə nə deyəcəyimi bilmirdim.

Bir qədər gözləməyi, münasib vaxt axtarmağı, sonra müraciət etməyi məsləhət gördüm. Bu xeyir işdə hələ ki, məni tələsdirən də yox idi.

On beş-iyirmi gün sonra, payızın yağışlı günlərindən birində Rəşidə Qutqaşen rayonunda rast gəldim:

- Salam, ay Rəşid, xeyir ola, sən hara, bura hara!

- Əleykəssalam, xeyirdir, inşallah, müəllim! Məhəbbət məni sevdaya salıb, Sənan kimi dağa çıxmışam:



Füzuli dərd əlindən dağa çıxdı.
Dedilər bəxtəvər yaylağa çıxdı!

Səmimi məhəbbətdən xeyir nə ola bilər! Ancaq nə edəsən ki, düyünə düşüb!

Rəşidin sözü mənə, mənim yalan vədimə işarə idi:

- Rəşid, bağışla, sənin yanında yalançı çıxmışam. Səadətin atası ilə əməlli-başlı görüşə, məsləhətləşə bilməmişəm!

Rəşid gülümsündü, mənə muştuluq verən kimi əlavə etdi:

- Görünür, bu işlərdə məsləhət, məşvərət yox, qəti hərəkət lazımdır. Biz Səadətlə o yolu tutmalı olduq. Köçəri quşlar kimi uçub buralara gəlmişik!

- Mübarək olsun, yəqin burada vəzifəyə gəlmisiniz?

- Bir vəzifə yoxdur, raykomdan xahiş eləmək istəyirik.

Rəşidin inşaat institutunu bitirdiyini, yol mühəndisi olduğunu eşitmişdim. Soruşdum:

- Harda mənzil eləmisiniz? Yoxsa ev tutmusunuz?

- Ev-zad yoxdur, hələlik mehmanxanada, sizinlə qonşuyuq.

Bu halda mehmanxana işçisi gəlib məni kənara çağırdı, acizanə xahiş elədi:

- Müəllim, şəhərdən iki cavan bir-birinə qoşulub gəlib, sizin nömrə ilə qonşudurlar. Mehmanxana müdiri başqa nömrəyə köçməyinizi xahiş edir, daha yaxşı nömrələr var. Aşağı qatda sizə rahat yer verə bilərik. Qoy cavanlar sıxılmasınlar, sərbəst olsunlar. Xüsusən sizin burada olduğunuzu biləndə çox utanıb xəcalət çəkirlər.

Mən cavanlara mane olmaq istəmədim, razılıq verdim.

Rəşidin yanına qayıtdım. Soruşmaq istəyirdim ki, burada nə işdə işləmək niyyətindədir, özü izah etdi:

- Bu rayonlarda avtomobil nəqliyyatı çoxalıb, ümumi dövlət təsərrüfatı əhəmiyyəti kəsb edib. Yollar isə çox yerdə bərbaddır.

Nuh əyyamından qalmadır, münasib deyil, güman edirəm ki, doğma ixtisasımdır. Bu işdə rayona, yoldaşlara köməyim dəyər.

- Rayonda belə ixtisasa böyük ehtiyac var, ispalkom özü sevinər.

Səadət haqqında, onun işə düzəldəcəyini soruşmaq haqqında da düşündüm. Ancaq Rəşid dayanmadı, mehmanxanaya tərəf yönəldi.

Axşam öz nömrəmə qayıdanda qapıda Səadətin atasına, mexanikə rast gəldim, təəccüb elədim: «Bu kişi burada nə gəzir?»

Sən demə, kişi tələm-tələsik işini buraxıb, cavanların dalınca gəlmişdi. Məni görəndə halı dəyişdi. Bu işdə mənim iştirakımı yəqin etdi, buna görə yarıhirs, yarı nəzakətlə müraciət etdi:

- Müəllim, ayıb olmasın, bizim cavanların ailədən uzaq düşməyinə dil verən siz olmamısınız?

Ustanın sualı mənim üçün gözlənilməz idi:

- Siz nahaq belə fikrə düşürsünüz! Mən bu əhvalatı sizdən eşidirəm və ancaq indi eşidirəm.

- El məsəlidir, ayıb da olsa, kəndçinin sözü olmasın, güman bir yana, iman yüz yana gedər, deyiblər!

- Yaxşı olar bu əhvalatı danışasınız görüm, cavanların işi nə yerdədir, sizə niyə belə zəhmət veriblər?

Bu sual gözlənilməz oldu. Kişinin sifətini qəm-qüssə bürüdü.

- Danışmaqdan keçib, uşaqlar çox səfeh iş tutublar, axırı xeyir olsun!

- Xeyir olar, xeyir olmamış nə olacaq. Bir qız bir oğlanındır. Barışın, qurtarsın getsin!

- Elə deməyin, anası başını yolur!

- Rəşid ağıllı, ləyaqətli oğlandır, əlində gül kimi sənəti, diplomu!

- Heç nə gözümə görünmür, rüsvay olmuşuq! Uşaqlar bizi başıaşağı elədilər!

Mən Rəşidin xeyir işinə kömək eləmək istədim:

- Ay sağ olmuş, indi ayrı zəmanədir. Cavanlar valideyn məsləhətilə yox, qəlbin səmimi çağırışı, şəxsi iradələrinin hökmü ilə hərəkət edirlər. Burada bir qanunsuzluq da görmürəm...





Kişi sözümün dalısına qulaq asmadı:

- Elə deməyin, el yaxşı deyib: «Birini bilirsən, birini bilmirsən». İnsan, övlad sahibi min arzu-kam ilə yaşayır. El adətini ayaq- lamaq olmaz!..

Kişi bunu dedi, məndən üz döndərdi.

Mən Rəşidin xeyir işini gözləyə bilmədim. Sabahısı günü Bakıya qayıtdım.

Güman edirdim ki, valideynin cəhdi, təlaşı olsa da, cavanlar arzularına çatacaqlar.

Ancaq elə olmadı. Bu müəmmalı məhəbbətin təfsilatını mənə sonradan ətraflı danışdılar. «Birini bilirsən, birini bilmirsən!» Texnik kişinin bu sözündə xüsusi məna varmış. Nə yolla olduğunu deyə bilmərəm. Xahiş yolu iləmi, təhdid, danlaq ya vəd yolu iləmi, o, cavanları razı salıb təcili Bakıya qaytara bilmişdi.

Şəhərdə bu maraqlı əhvalatı çox danışır, götür-qoy edirdilər. Əhvalat özü də adi deyil, nadir və sirli idi.

İllərdən bəri böyük bir zəhmət və səylə qorunan, gizli saxlanan bir macəra birdən-birə açılıb aşkara çıxmışdı. Həm camaatı, həm cavanları, həm də bu işlə əlaqədar olan rəsmi adamları heyran qoymuşdu.

Rəşidlə Səadət, öz düşündükləri kimi, əmioğlu-əmiqızı deyil, sən demə, doğma bacı-qardaşdırlar! Oğlan da, qız da radiotexnikin uşaqları, doğma qardaş-bacı imişlər!

Eşidənlər heyran qalır, inanmaq istəmirdilər. İşin əslini, həqiqəti ata-ana bilirdi, ancaq gizlədirdilər. Xeyirxah bir niyyət üçün gizlədirdilər.

Texnikin Mübarək adlı bir kiçik qardaşı vardı. Böyük qardaşının dalbadal ildə bir oğlu doğulur, kiçik qardaşının isə övladı olmurdu. Dörd ildi ki, ər-arvad həkimlərin müalicəsində, dava-dərmanda idilər. Əlac axtarır, adam, yer qalmırdı məsləhətə getməsinlər.

Nəhayət, texniklə Həqiqət xanım öz aralarında danışıb məsləhətləşdilər ki, oğlanlarının birini Mübarəkə versinlər, lap körpə vaxtından Rəşidin adını ev dəftərindən çıxarsınlar! Kimsəyə də bildirməsinlər.

Bu təklifə Mübarək də, arvadı da şadlıqla razı oldular. Böyük təşəkkürlə uşağı oğulluğa qəbul edib, adını ev dəftərinə saldılar. Rəşidi bacardıqları kimi firavan, naz-nemətlə böyütməyə başladılar. Hər iki tərəfin razılığı ilə uşaq böyüyür, Mübarəkin evində qol-qanadlanır, ayaq tutub gəzirdi.

Bu hadisədən bir xeyli keçmiş dörd oğul atası radio ustasının bir qız uşağı oldu. Həqiqət xanım yeganə qızına, dörd qardaş bacısına Səadət adı qoyub, onu oğlanlarından artıq əzizləməyə, naz-nemətlə böyütməyə başladı.

Qardaşlar ərköyün bacını - Səadəti birbacı deyə çağırır, minbir şirin dillə dindirir, əzizləyirdilər. Qızın guya «əmisi oğlu» Rəşidin də Səadətə meyli qardaşlarından geri qalmırdı. Uşaqlar hər ikisi eyni məktəbdə oxuyur, eyni mühitdə böyüyür, eyni nəvazişlə bəslənir, gün-gündən artan ünsiyyət, məhəbbətlə bir-birinə bağlanırdılar.

Həyat, güzəran qayğısı ustanın da, Mübarəkin də başını qatmışdı. Uşaqlar ilbəil sinifdən sinfə keçir, məktəbdə böyüyür, bir-birinin halına, xasiyyətinə, rəftarına bələd olur, ülfət bağlayırlar...

Qız on beş, oğlan on səkkiz yaşına çatanda, qız səkkizinci, oğlan onuncu sinfə keçəndə aralarındakı ünsiyyət, əmioğlu-əmiqızı ehtiramı daha da səmimiləşməyə, məhrəmliyə, ürək sirdaşlığına çevrilməyə başladı. Rəşid Səadəti, Səadət Rəşidi bir gün görməyəndə balasını itirmiş ceyran kimi, az qala mələşirdilər.

Hər iki gəncin qəlbində doğub böyüyən, müəyyənləşməkdə olan bakir hiss və ehtiraslar səda-sədaya verməyə, çağırışmağa başladı: Səadət! Rəşid! Rəşid! Səadət!

Məhəbbətin gözü kor, başı isti, üzü bərk olar demişlər. Rəşiddən



soruşan olsaydı ki, tanıdığın qızlardan xoşuna gələn kimdir, hansını çox sevirsən? O bu suala çox asanlıqla, bir az da hirslə cavab verib deyərdi:

- Mənim qızlar karvanında gözüm yoxdur, əmim qızı Səadətin məhəbbəti mənim bəsimdir. Qalanlar, qoy istəyənlərə qismət olsun. Mənim heç kəsdə gözüm yoxdur. Hər adamın bir taleyi, bir ulduzu var!

Doğrudur, Rəşid bu tezliklə, ali məktəbi qurtarmamış, bir ləyaqətli ixtisas qazanmamış evlənmək qəsdində deyildi və tez evlənən cavanlardan da xoşu gəlməzdi. Amma Səadət haqqındakı, gələcək xoş niyyətləri də müəyyən idi. Nə qızın özünə, nə valideyninə, nə yoldaşlarına bu barədə bir söz deməsə, sirr açmasa da, qəlbinin ən dərin guşəsində Səadət sözünü iri, qızıl hərflərlə səliqəli yazıb vacib dərs proqramı kimi təkrarlayırdı.

Ona elə gəlirdi ki, atası da, Həqiqət xanım da Səadəti məhz onun üçün böyüdür, bu gözəl qızın tərbiyə-təhsilinə ayrı cür səy göstərirlər!

Rəşid onu da görməmiş deyildi ki, əmisi Səadəti oğlanlarının hər birindən çox istəyir, onu daha şux, daha zəngin libaslarla məktəbə yola salır, onun adını hamıdan qabaq çəkib, kefini tez-tez soruşurdu:

- Qızım Səadətin kefi necədir?

Həqiqət xanım da, texnik kişi də qızlarından kef-əhval soruşanda bəlkə də qəsdən ucadan səslənir, Rəşidin qulağına çatdırmaq üçün xüsusi ahənglə təkrar edirdilər:

- Səadət, kefin necədir, yaxşısanmı, qızım?

Bu xoş sözləri ana deyib ata təkrar edir, ata deyib ana təkrar edirdi. Bunları Rəşid həyəcansız eşidə bilmirdi. Xüsusən qız dillənəndə, ata-anasının sualına baş qaldırıb ala gözləri ilə dik baxanda, kəklik kimi nazla yeriyib cüt hörüklərini enli kürəyində tərpədəndə razılığını ifadə edib: - «Çox sağ olun!» - deyəndə sanki Rəşidi çağırırdı. Bəlkə də ürəyindən keçirdi, sükutla Rəşidə xitab edib gileylərini izhar edirdi: «Haçan görəcəyəm, haçan eşidəcəyəm

ki, o igid əmioğlumun şirin dilindən bu xoş suallar çıxsın: «Səadət, əzizim, kefin necədir?»

Səadətin bunu ummağa haqqı vardı. Çünki o, bakir qəlbinin anbaan duyulan, get-gedə güclənən, sinəsini qabardan həyəcanlarını, gənc ürəyinin kaman simi kimi zərif tellərində səslənən titrəyişləri dərk edirdi. Məhəbbət onu tutmuşdu, yaman tutmuşdu.

Eyni əhvali-ruhiyyəni, demək olar ki, Rəşid də keçirirdi. Doğrudur, röyalarda, xəyal aləmində keçirir, dilinə gətirmir, dəftərinə yazmır, yoldaşlarından, sirdaşlarından gizlədirdi. Ancaq özündən, qəlb aləmindən gizlədə bilmirdi.

Bir də görərdin saat ikidə, yuxarı siniflər məşğələdən çıxanda, qızlar dəstə ilə evlərinə yollananda ucaboy, enlikürək, qıvrımsaç bir oğlan funikulyor yolunun başında əfsanəvi pəhləvan Bəhramın qarşısında dayanıb sanki həsbi-hal edir. Qızlar karvanının başı açılanda, cavanların şaqraq gülüşləri eşidiləndə də məhəl qoymur, gözünün ucu ilə də baxmır, baxmaq istəmir.

Ancaq qızların biri ya qəsdən, ya sadəliklə işarə edəndə:

- Səadət! Qız, əmioğlun dayanıb, Bəhram şahla söhbət edir, deyəsən, bir bax!

Səadət adını eşidəndə Rəşid, ceyran vurmuş kimi cəld dönər, sevgilisinin həyəcanlı baxışlarını salamlardı. Belə anları nə Rəşid, nə Səadət unuda bilirdi. Hər ikisi vurğun kimi dayanıb bir-birinə baxır, nitqdən lal olur, dilə gətirməyə nadir kəlmə axtarırdılar.

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Kölgə tək bir yerdə durmağa qərarım qalmadı!

Böyük şairin bu məhəbbət kəlamı ürəklərdə səslənərdi, bilinməzdi ki, bunu kim dilinə gətirdi: oğlanmı, qızmı?

- Qızlara salam!





- Tamaşaya durmusunuz!

Rəşidin göl başında dayanmağına nə tamaşa, nə həsbi-hal demək olardı. Bu ancaq həyəcanlı intizar, Səadətin intizarı idi. Dayandığı dəqiqələrdə də görərdin pəsdən mahnı oxuyur:

Bu dünyada daş daşıdım, qəmim dolmadı.
Gənc yaşımda bir qız sevdim, mənim olmadı!..

O illərdə, sevənlər arasında dəb düşən bu səmimi mahnını çox yerdə, çox cavanlar çox ürəkdən oxuyurdu. Bəziləri öz tərcümeyi-halı ilə, bəziləri məhəbbət macərası ilə bağlayıb oxuyurdu, ancaq Rəşidin belə kədərli nəğməni təkrar etməyə nə əsası, nə haqqı vardı!

Ona görə oxuyurdu ki, Səadəti görəndə, əmiqızının adı çəkiləndə Həqiqət xanım ibadətə dayanmış kimi susur, hətta fürsət tapıb hərdən qəsdən eşitdirirdi:

- Rəşidin toyunda, özüm qabağa düşəcəyəm, Bakının handa bir professor qızlarına elçi düşəcəyəm...

Əvvəl Rəşid istədi Həqiqət xanımın sözünü qulaqardına versin:

- Əmidostu, professor qızlarını mənə peş çəkmə! Əvvəla, mənim evlənmək niyyətim yoxdur, ikinciyə qalan yerdə, məgər mən professor-zad axtarıram? Atalar deməyib ki, könül sevən göyçəkdir? Sən mənim qəlbimi qaynarından niyə kənara, dağa-daşa çəkirsən?

Həqiqət xanım hiss etmişdi ki, Rəşidin qəlbinə toxunur. Bunu bilsə də, işarəsində bir qəbahət duymur, oğlanın qulağını doldurmaq istəyirdi. Hər vasitə ilə, hər fürsətdə Rəşidin diqqətini Səadətdən yayındırmağa, qızı unutdurmağa çalışırdı. Ona görə də bəzən kədərli mahnılar oğlanın yadına düşür, nakam və köməksiz bir gəncin fəryadlarını eşidən, acıyan kimi pəsdən təkrar edirdi:

Gənc yaşımda bir yar sevdim, mənim olmadı!..



Mahnının son sözləri ağır bir hökm kimi səslənir, arzularına zidd, ağır təəssüflərindən gələn kədərli səda kimi çıxırdı:

Olmadı mənim, olmadı!..

Bu son sözləri Rəşid həmişə xüsusi həsrət, ataşla deyirdi, ətrafına baxır, dinləyən görməyəndə, vay xəbəri almış kimi, şappıltı ilə dizinə döyüb təkrar edirdi:

Olmadı, hay, olmadı, vay, olmadı!..

Doğrudur, bu kədərli mahnını oxuyurdu, amma bir an belə Səadəti unutmurdu. Gələcək taleyini düşünəndə sanki bədxahlarına xitabla bərkdən deyirdi:

- Namərd dünya!

Bir ayağını irəli qoyub dayanır, sağ əlini qaldırıb şəhadət barmağını sanki düşmənin gözünə güllə sıxacaqmış kimi havada silkələyirdi:

- Ya Səadətdir, ya heç kəs!

Vəssalam!

Rəşidə hey eşitdirirdilər:

- Əmiqızını almaq olmaz. Nəsil korlanar, günahdır, eyibdir.

Bunları Səadətə də eşitdirirdilər. Ancaq Rəşidin dedikləri Səadəti hər şeydən çox məşğul edir, müttəsil düşündürürdü:

- Ya Səadət, ya heç kəs!

Vəssalam!

İndi, cavanların həyat və arzularında romantik xəyallar alovlandıqca, müəyyən rəng aldıqca texnikin ailəsində, Həqiqət xanımın niyyətlərində qayğı və gərginlik artır, kəskinləşirdi.

İnsan həyatında qayğı da, qəm-qüssə də olan şeydir. Heç kəs deyə

bilməz ki, mənim günüm həmişə deyib-gülmək, toy-bayramla kecib. Doğrudur, dünyada elə nikbin, qayğısız, hərcayi, dözümlü adamlar var. Ancaq texnikin, Həqiqət xanımın ailəsinə üz verən gözlənilməz, qəribə əhvalat heç bir təsəlli, heç bir səbir, dözümlə ötüşən deyildir.

Rəşidin Səadətə olan qeyri-qanuni, qeyri-təbii sevgisini rədd etmək üçün nə çarə, nə tədbir mümkünsə görmək lazım idi. Nə valideynin məsləhəti, nə həkimlərin dediyi, nə yoldaşların arzusu, heç biri Rəşidi əzmindən döndərə bilmirdi. Əksinə, oğlan onunla bu qədər məşğul olanları, valideynin bu xeyir işə bədgüman münasibətini gördükcə daha da əsəbiləşir, atasından-anasından, əmisindən daha bərk inciyirdi. Kişilər də oğlanı əzmindən döndərmək üçün hər vasitəyə, bəhanəyə əl atır, ancaq əsl həqiqəti açıb aşkar deyə bilmirdilər.

«Bu nə iş idi başımıza gəldi!», «Qız doğulunca bir daş doğulaydı», «Belə yerdə adamlar silaha əl atarlar da», «Allahu əkbər, əstəğ- fürullah, demişdim ha!»

Hər iki ailədə səssiz, «pıçhapıçla» da olsa, kədərli məsləhət, məşvərət söhbəti gedir, axın da bir yerə çıxmırdı. Həqiqət xanım günün birində bu söhbəti cavanların tanış müəlliminə açdı, məsləhət istədi.

Müəmmanı valideynlər özləri yaratmışdılar. İndi də içindən çıxa bilmirdilər.

Həqiqət xanım tamam təbii, səmimi bir dillə oğlu Rəşidə müraciət edib deyirdi:

- A bala, bu boyda ölkədə, qız-gəlin dünyanı götürdüyü yerdə, bir-birindən gözəl, oxumuş, mühəndis, həkim, adlı-sanlı qızlar sənə göz dikdiyi yerdə, nə oldu sənin bu əmin qızı mataha döndü; heç kəs onu məsləhət görmür, sən iki ayağını bir başmağa dirəmisən, deyirsən «budu ki, bu!» Gəl inadından əl götür, bala! Axırı yaxşı olmaz. Böyük məsləhətinə qulaq as! Ulu sözünə baxmayan uluya-uluya qalar, bala!





- Əmidostu, siz oxumuş, təcrübəli anasınız, gərək belə təklifi mənə etməyəsiniz! Axı qəlbə zor olmaz! Məni iradəmdən dönməyə məcbur edən, ancaq bircə hökm ola bilər! Sevgilim «yox» desə, mən təslim ola bilərəm, ayrı heç kəs, heç nə! Məhəbbətə zor olmaz, bilirsən!

Həqiqət xanım, axırda oğlanı hədələyirdi:

- Mən sənin böyüklərinlə danışam gərək!
- Kimdir mənim böyüyüm?
- Mən bilirəm kimdir!

...Rəşid Həqiqət xanımın sözünə məna verə bilmədi. Bilmədi ki, «böyüklər» deyəndə Həqiqət məktəbi, komsomol təşkilatını, ya valideyni, ağsaqqalları nəzərdə tutur. Ancaq xəyalında cavab verdi ki, nə valideynin, nə komsomol böyüklərinin məni arzumdan döndərməyə gücü çatmaz. Sevgiyə nə zor!

- Əmidostu, bəlkə siz məni qızınıza, Səadətə layiq bilmirsiniz! O sizin öz işinizdir. Ancaq belə bir iddiaya Səadəti çətin inandıra bilərsiniz! Yəqin bilin ki, boş söhbətdir.

Həqiqət xanımın «böyüklər» deyib müraciət etmək istədiyi nə valideyn, nə komsomol katibi idi, onun nəzərdə tutduğu böyük, müraciət etdiyi adam Rəşidin də, Səadətin də müəllimi, cavanların hər ikisinin təhsil-tərbiyəsinə əmək sərf edən Azad müəllim idi.

Doğrudur, Azad müəllim cavanların sevgi macərasından xəbərsiz idi, ancaq hər iki gəncin müəmmalı sevgisi haqqında arada bəzən eşitmişdi, maraqlanmışdı.

Bir gün, bayram məclislərindən birində Həqiqət xanıma müraciət etdi:

- Səadəti musiqi təhsilinə göndərirsinizmi, xanım?
- Özü maraqlıdır, amma görək necə olur?
- Necə olacaq, onun istedadına kim şübhə edə bilər?
- Orası elədir. İndiki cavanlar da bəzən sözə baxmırlar!

- Onu Səadətə, ümumən sizin uşaqlara demək olmaz!
- Müəllim, sizin çox nikbin niyyətiniz var!
- Məncə elə lazımdır.
Həqiqət xanım müəllimin sözündən cürətləndi:
- Sizə deməli sözüm var, müəllim!
- Mən hazır, buyurun!
- Məktəbdə haçan macalınız olar, bir yarım saat vaxtınızı alım!
- İstirahət axşamı boşam!
- Saat ikidə, üçdə gələ bilərəmmi?
- Buyurun, müəllimlər otağında olacağam!
- Məsləhətə gələcəyəm, vaxtınız olsa!
- Buyurun, buyurun!

İstirahət axşamı müəllimlər otağında, Azad müəllimin yanında hörmətli bir məsləhət məclisi quruldu. Azad müəllim üzünü valideynlərə tutub deyirdi:

- Mən sizin hamınızdan, atadan da, anadan da küsürəm. Buna mənim haqqım var! Bizdən tələb olunur ki, cavanları həqiqət, doğruluq, düzgünlük əsası ilə bu yolla böyüdək, tərbiyə edək. Çünki yalan bizim cəmiyyətə yaddır! Yalan yeriməz. Siz uşaqları körpəlikdən yalana inandırmısınız, özünüzün inanmadığınız bir yalanı həqiqət adına yeritmisiniz. Ay canım, belə bir yalan kimə, nəyə lazımdır? Bilirsiniz ki, bizə yalan yaramaz!

Cavanlar böyüyəndə, yalan əsasında sevgi yoluna düşəndə, qeyri-qanuni izdivac yolu tutanda ayılıb başınıza döyürsünüz! Halbuki bu yalana heç zaman ehtiyac yox idi. Rəşid öz doğma atasının oğlu kimi sonsuz əmisinin övladlığına keçə bilərdi, Səadətlə də belə qeyri-qanuni, qəribə məhəbbət yoluna düşməzdi. Bacı-qardaş məhəbbəti belə faciəli bir mənzərə ilə nəticələnməzdi. Kimə xoşdur ki, indi, biriniz qızı, biriniz oğlanı danlayır, hamınız cavanlardan həqiqəti gizlətmək istəyirsiniz! Vaxtı ilə qol qoyduğunuz yalanla həm



balaları, həm özünüzü, həm camaatı aldatmısınız! Çox təəssüf!

Gec də olsa, həqiqəti açıb demək, cavanları başa salmaq lazımdır! Yalan bizim tərbiyəmizə, əxlaqımıza yaddır. Cəmiyyətimiz, inkişafımız ancaq həqiqət üstündə bərqərar olur. Rəşidlə Səadət bacı-qardaşdır. Burada gizli bir şey yoxdur, qoy hamı bilsin! Balalara həqiqəti uca səslə deyin! Rədd olsun yalan! Bəzək-düzək yalanı yaşatmaz!

Yaşasın həyat həqiqəti!

Gün kimi parlaq həqiqət!

Azad müəllimin sözlərini Rəşid də, Səadət də eşidirdi.

1969.

## SEVİNC HAQQINDA

Həkimlərdən, psixologiya alimlərindən, ictimaiyyətçilərdən soruşursan:

- Sevinc?

Bu suala hərə bir cavab verir, cavablar da bir-birinə az oxşayır.

Hamıya məlumdur ki, bütün başqa haləti-ruhiyyələr kimi, sevinc də cürbəcür olur, müəyyən hadisələrdən doğur, yeni şəraitdə sönür. Çoxdan ayrıldığın əzizini birdən görəndə sevinirsən. İllərlə həsrətini çəkdiyin istəklinin qəlbini ələ gətirəndə, böyük intizardan qurtaranda, xəstəlikdən sağalanda, ana məhəbbətinə, övlad səadətinə, dost sədaqətinə nail olanda... Xülasə, dünyada kədər oyadan təsadüflər kimi, sevinc doğuran hadisələr də çoxdur, mürəkkəbdir, əlvandır, saymaqla qurtarmaz. Bu haqda harada, nə vaxt, kimlə söhbət salsan, maraq, ixtilaf, tərəddüd görəcəksən...

Göygöldə yəqin ki, olmusunuz. O bahar, dağlar qızının füsunkar hüsnünə, tükənməz məlahətinə vurulmusunuz, içərinizdə görməyənlər varsa, hamısına qismət olsun, bu müqəddəs ziyarətdən doymaq olmaz.

Bahar fəslinin ilk günlərindən birində belə xoş günləri insan, hətta təbiət özü də unutmur. O günlərin qışı, sərt soyuqları ötüb, baharın mülayim nəfəsi kainata yayılıb, ancaq güclü günəş qızğın pərdəsini hələ yer üzünə sərməyib, üfüqdən boylanan günəş şüaları təbiəti yenicə tərpədib oyadır, bənövşələr, lalələr, yarpızlar, yemliklər, zanbaqlar, nərgizlər zümrüd gözlərini açıb bahar fəslini salamlayırlar, quşlar səs-səsə verirlər.

Belə günlərin bir günortasında istirahət saatlarını təbiət döşündə keçirmək istəyən cavan müəllimlərin bir dəstəsi maşınla Göy göl sahillərinə səyahətə gəlmişdi. Var olsun memar, mühəndis, inşaatçılarımız, Göygölü tam abad etməsələr də, unutmamışlar da!

Orada sanatoriya, mehmanxana, düşərgə, istirahət evi tədbiri görüblər. Həmin saatlarda müəllimlər, yamacda xəzəllər, yaşıllıqlar





üzərində, kabab süfrəsi ətrafında əyləşib, mavi gölün göz yaşı kimi duru suyunu, zərif ləpələrini, laciverd səmanın, haraya isə süzən ala bulud karvanının suda əksinə baxırdılar. Dərin bir maraqla təbiəti seyr edir, odlu bir ehtirasla təbiətdən danışırdılar.

İnsanın təbiətində iki ümdə xasiyyət qoyulubdur: sevinc və kədər; sevinc əlaməti fərəh, kədər əlaməti qəm... Böyük ədibin bu sözlərini təkrar edən Şahid müəllimə yoldaşları sual yağdırdılar:

- Sevinc nədən doğur?
- Adam nəyə, nə zaman sevinir?
- İnsan haçan daha çox sevinir?
- Mənim qarnım tox, əynim qalın, cibim dolu olanda sevinirəm.
- Qabağımda erkək ətinin kababı, yanında da beşulduz!
- Bu şərtlə ki, şair demişkən, «cinsi-lətif həmdəmin ola»!

Şahid müəllim sözə qarışdı:

- Mən ali məktəbi qurtaran ildəki sevincimi heç vaxt unutmaram!
- Mən təzə mənzilə köçəndə uçmağa qanad axtarırdım!
- Qardaş, mən ilk övladım olanda!..
- Mən Moskvanı görəndə...
- Mən Parisə gedəndə...

Əyləşənlərin hamısı söhbətə qarışır, səmimi sözünü deyir, ürəyini boşaldırdı.

Altun Dağlı qara, qıvrım saçını ovcuna alıb, dirsəklənmişdi. Deyilənləri sükut və diqqətlə dinləyirdi. Kənardakılar güman edərdilər ki, o bu söhbətlərlə az maraqlanır, nə isə düşünür, məşğuldur, ya təbiətin seyrəngahı ona indiki söhbəti unutdurmuşdur.

Müəllim yoldaşların biri kəsir, o biri başlayırdı. Biri ehtirasla, biri mülayim, biri zarafatla, biri ciddi, biri təfsilatla, biri müxtəsər sözünü deyir, əl çəkirdi.

Altun Dağlı, vurğun vurmuş kimi, birdən ayağa qalxıb, ucadan müraciət etdi:

- Ay yoldaşlar! Ay uşaqlar!

Hamı susdu. Güman etdilər ki, Altun Dağlı özünə xas bir ciddiyyət, bir qədər də hirslə hamıya aid, hamını cəlb edən bir iş haqqında nəsə demək, bəlkə də əmr eləmək istəyir. O, üzünü sahil seyrindən məclisə, əyləşən yoldaşlara tərəf döndərdi, addımının birini irəliyə qoydu. Yenə dirsəyinə söykəndi. Bu dəfə dirsəyini torpağa yox, sol dizinə söykədi, sağ əlini ələm kimi havaya qaldırıb, ilk sözünü təkrar etdi:

- Ay yoldaşlar, ay uşaqlar! Sevinc doğuran hadisələr məni də düşündürüb, məşğul edib, bu dəfə yox, həmişə! Hər anın bir niyyəti, görüşü! Mənim də sevincli dəqiqələrim, saatlarım olur. Ən xoşbəxt saatlar! Bunlar nə qarnım, nə cibim, nə kefim, nə vəzifəm, nə rütbəmlə bağlıdır, qətiyyən! Mən o zaman ki bir şey yaradıram, məsələn, bir az yazıram, uzun fikirlər, hisslər, ehtiraslar, iztirablar, ağrılar, sızıltılar keçəndən sonra, nəhayət, başladığım bir əsərin son fəslini başa vururam, tarixini qoyuram, onda sinəmdə bir pələng gücü duyuram. Dünyanın bütün sevinci qəlbimi qaynadır, güman edirəm ki, kainatda məndən güclüsü yoxdur. Böyük bir qala fəth etmişəm. Bütün xalq bir dağdan qalxan ordu kimi, alqış deyib əlimi sıxır, kainat mənə qızılgül bağı kimi görünür. Məncə, bu, yaratmaq sevincidir. Quşların, suların, göylərin həyat ahəngini yaratmaq sevinci!

Yaratmaq, xalqa layiq bir iş görmək sevincidir, qəlbimlə duyuram!

Məncə, bundan böyük sevinc yoxdur.

Gəlin həmişə bu sevincin həsrətini çəkək, ürək döyündükcə bu sevincdən ayrılmayaq!

Yoldaşları ayağa qalxdılar. Altun Dağlının əlini sıxdılar, yaradıcı intizar və ehtirasın şirin təfəkkür təxəyyülünə daldılar.

Göy göl füsunkar duruşu, məbhut, mənalı baxışı ilə gölə gələn ziyalı qonaqlarının sükutla yamacları tərk etmələrinə heyrət və sevinclə baxırdı. Bir müntəzir gəlin kimi baxırdı, qonaq sevən ana kimi fəxr edirdi.

1969.



## DÜZƏLMƏDİ

Utancaqlıq!

Kimdən soruşsan, deyər ki, utancaqlıq yaxşı xasiyyətdir. İnsanın qanacağını, mərifətini, abır-həyasını göstərir. Beləsinin hər yerdə hörməti, izzəti var. Adı yaxşılığa çəkilir, ünvanına bir irad tutan olmur.

Zahirən belədir. İlk baxışda mənzərəni bu cür görürsən. Amma əslinə baxsan, utancaqlıq o qədər də yaxşı xasiyyət deyil. Adamın özünə də, başqalarına da görürsən, ziyan gətirir.

Eşidənlər deyəcək, boş danışırsan. Halbuki mən bunu həyatda təcrübəmdə görmüşəm, inanmışam. Dostun, ya tanışın səndən bir xahiş eləyir, sənin də buna imkanın olmur. Açıqca deyə bilmirsən, imtina edə bilmirsən; hərifin sözünü nə tutursan, nə atırsan. Ürəyində nisgil olur, qalırsan kəsilə-kəsilə.

Mənim, sizdən yaxın olmasın, yaxın bir tanışım var, görüşəndə salaməleyk, xoş-beş eləyirik. Özü aşpazdır, pis də aşpaz deyil. Əvvəl iş yerini göstərmişdi, indi bilmirəm harada çalışır. Amma arabir görürəm. Bir gün üzünü mənə tutdu, ərkyana gileyləndi, xahiş eləyib dedi:

- Filankəs, Allah daha da artıq eləsin. Görürəm, əli qələm tutanların hamısı bərk ayaqda sənə müraciət eləyirlər. Yazılarını sənə oxuyub məsləhət soruşur, rəy alırlar. Nə olar, çıraq olub işığı öz dibinə də salsana, bizim kimi kimsəsizlərə də bir nəzər yetirsənə!

- Dostum, - dedim, - mən bir adi qəzet yazan, sən də, şükür, mahir aşpaz! Peşəniz səliqəli, hörmətli peşədir. Ancaq mənim sizin sənətdən nə başım çıxır ki, bir məsləhət də verim?

- A kişi, aşpazlığı demirəm. O barədən korluğum yoxdur. İndi xörək bişirməyi bir yana qoymuşam. Yazı-pozu ilə məşğulam, çoxdan qələm işlədirəm.

Mən quruyub qaldım:

- Belə de! Sağ olmuş, mən nə bilim?
- Bəli, indi mən də yazıram. Hələ ki bir povest yazmışam, evdə uşaqlara oxumuşam, sağlığına bəyəniblər.
- Mübarək olsun, niyə çapa vermirsən?
- Hələ tezdir.
- Dəmiri isti-isti döyərlər!
- Yox, canım, uşaqların rəyi ilə yazı yetirmək çətindir.
- Bəs nə fikirdəsən?
- O fikirdəyəm ki, sizin kimi bir qələm sahibinə oxuyum, lazım bilsəniz, balaca rəydən-zaddan alam, sonrası da görək nə olar?
- Təqaüdə, dincəlməyə çıxan adamın təzədən qalmaqala düşməyi nə əcəb?
- Xeyr, qalmaqal olmaz. Mənim povestimdə qalmaqal nə gəzir? Tamam dinclik, salamatlıqdır.
- Təki olmasın.
- O barədə arxayın ol, ancaq qalmaqalı odur ki, gərək hörmətli adamlardan birinə oxuyam, məsləhət alam.
- Təzə yazanlara məsləhət verən xüsusi dərnəklər, idarələr var. Müraciət eləsəniz!
- Eləmişəm. Bəziləri, görürsən, baxmırlar, açığını deyim, gözləri götürmür.
- Baxarlar, vəzifələridir.
- Elə demə, vermişdim birinə, iki ay stolunun yeşiyində saxlayandan sonra qaytardı.
- Nə dedi?
- Bir şey demədi.
- Oxumamışdı?
- Oxumuşdu.
- Oxusa bir söz deyər.
- Demədi. Görünür, xoşuna gəlməyib.
- Onda ikinci bir yoldaşa ver oxusun!





Dostum, deyəsən, belə bir fürsət axtarırdı. Diqqətlə gözlərimin içinə baxıb dedi:

- İkinci yoldaş lap sən! Özümüzün də, şükür, uzaqdan salaməleykimiz var. Budur, neçə dəfədir deyirəm, xahiş eləyim oxuyasan, üzümdən gəlmir, utanıram, doğrusu!

- Povestin neçə səhifədir?

- Çox deyil, cəmi dörd-beş yüz səhifə ola, ya olmaya!

- Onu arxayın adama oxutmaq lazımdır.

- Arxayın adam lap sənin özün!

- A kişi, mən külfət sahibiyəm, səhərdən axşama qədər idarədə çalışıram, başımı qaşımağa macalım olmur. Əcəb arxayın tapmısan!

Dostum tez sözümü kəsdi:

- Canım, mən o cür sırtıqlardan deyiləm ki, iki ayağımı bir başmağa dirəyib deyəm: lap elə bu gün, ya sabah oxu! Haçan münasib oldu, götür oxu, sonra fikrini deyərsən, ya lap yazarsan, mənim də əlimdə bir dəstavüz olar.

Mən gördüm ki, söhbətimiz uzandıqca tanışımın iştahası artır, povestini mənim boynuma yükləməyə fürsət axtarır.

- A filankəs, - dedim, - elə uzun yazıları indi, yayın bu istisində oxumaq nə sənə xeyirdir, nə mənə! Elə yazını sərində, dinclikdə gərək oxuyasan ki, səni tər basmasın!

- Orada istidən də, sərinlikdən də söhbət gedir.

- Nə münasibətlə?

- O babətdən ki, adam darıxmasın. İstidə sərinləsin, soyuqda qızınsın! Povesti elə yazmışam şirin oxuyacaqsan, inşallah!

Tanışımın, görünür, yazı-pozu haqqındakı mülahizələri aşpazxana çərçivəsində müəyyənləşmişdi.

- Eybi yoxdur, - dedim, - qoy havalar sərinləsin, gətirərsən birlikdə oxuyarıq.

- Çox sağ ol, - dedi, - mənim sizə o qədər zəhmətim dəyməz. Özüm ucadan oxuyaram, siz də cücə çığırtmasından sonra məxməri çay qabağınızda, aramla qulaq asarsınız.

- Əlbət ki, mümkündür.

«Mümkündür» deyən kimi tanışımın gözlərində elə bil ümid çırağı yandı. Tez qabağa keçdi, yaxamdan yapışıb povestinin əhvalatını danışmağa başladı:

- Əsərdə, - dedi, - qabaq-qabağa bir arvad, iki kişi götürmüşəm, bu kişilər başlayırlar bir-birini burunlamağa, biri də...

Gördüm ki, hərif fürsətdən faydalanıb məni əhvalatla tanış eləmək, sonra da ayaqüstü fikir soruşmaq niyyətindədir. Cümləbaşı nağılını kəsib sual verirdi:

- Necədir, mən ölüm? Belə demək olar, ya yox? Niyə operalarda yazırlar, biz bəyəm səhnədəkilərdən ibrət götürə bilmərik? Necə sözdür? Tənqidçilər özləri yazır ki...

- Əlbət ki, sağlıq olsun, havalar sərinləyəndən sonra oturub oxuyarıq.

Tanışımın gözlərində qığılcım parladı:

- Bilirəm,- dedi,- oxusan xoşun gələcək, mən elə şey yazmaram ki, müştərinin iştahını küsdürsün.

- Elədir!

- Əsəri də səliqə ilə süfrə kimi ağ kağızda çap elətmişəm, görəcəksən, inşallah! Dadı-duzu yerində, ürəyinə yatacaq!

- İnşallah.

- Sərinlərə də bir şey qalmayıb, bu gün avqustun iyirmisidir, bir aydan sonra payız küləyi bizi kabab kimi yelləyəcək!

- İnşallah!

Bu halda məni telefona çağırdılar, tanışımdan üzr istəyib aralandım. Aralandım, o ayrılmaq oldu, bir də hərifi görə bilmədim. Hərdən zəng eləyib hal-əhval soruşur, yadıma salırdı ki, havaların soyumasına az qalıb, inşallah!..

Havalar soyudu, lap soyuqlar düşdü də, ancaq tanışım məni münasib yerdə tuta, məqsədinə nail ola bilmədi. Qarlı yanvar

günlərində müalicəxanaların birində hərif qabağımı kəsdi:

- Sağ olmuş, hardasan, sərin düşəndə, eyvanda süfrə açıb neçə dəfə səni arzulamışam.

- Nə olub bəyəm?

- Əsər böyrü üstdə yatıb qalıb, dəmlənib.

- Eybi yoxdur, qoy dəm alsın.

- Bəs sonra necə olsun?

- Bu soyuqda, əlbət ki, uzun şeylər oxumaq... Sağlıq olsun havalar yumşalanda, yazbaşı!

- Nə qalıb, sabah-biri gün novruz bayramıdır.

Novruz da gəldi, aprel, may da düşdü. Tanışım hər macala məndən xəbər tutub deyirdi: «Əsərin ora-burasını təzədən yağlamışam, nə deyirsən? Qiraət məclisi düzəltməklə halın necədir?»

- Tələsik iş tərsə düşər. Qoy istilər düşsün, arxayınlıqla oturub oxuyarıq.

Təkrar istilər gəldi. Povest bizdən əl çəkmədi:

- Ay filankəs, havalar yenə qızışıb, ha!

- Havalar öz yolu ilə, bizim özümüzün də qızışmağımız lazımdır.

- Araqla aran necədir? Döymə kabab yanında? Təzə ətdən deyirəm, ey!

- Araq məsələsi yox də, iki-üç aydır müalicədəyəm, qəzetə baxmağa da icazə vermirlər.

- Bizim əsər qəzetdən maraqlıdır.

- Təki olsun, həkimlər oxumağa izin vermir.

- Allah şəfa versin, bəs haçan?

- Havalar sərinlənsin.

- Havalar qızışsın...

- Havalar sərinlənsin...

Neçə ildir, neçə fəsildir tanışım məni harada görürsə, havaların vəziyyətindən mənə dəqiq məlumat danışıb vədə verməyimi gözləyir. Mən də utancaqlıqdan ona müəyyən bir cavab deyə bilmirəm:



- Hələ bir oxuyan olmayıb?

- Olub. Dərnəklərdə götür-qoy eləyiblər, tələsik məsləhət də deyiblər. Amma əqlim bir şey kəsmir.

- Tələsmək, deyirəm, işə ziyandır. Gözləyək, görək bir macal taparıq. Sizin əsər də gərək münasib vaxtına, yerinə düşsün ki, peşmançılıq olmasın.

- Bəli, mən tələsən deyiləm, yetmiş ildən bəri sinəmə yığdıqlarımı yazmışam.

- Yaxşı eləmisən.

- Mən elə sizi gözləyirəm.

- Gözləmək yaxşıdır, inşallah, havalar düzələr!

- Düzələndə sizə zəng vurmaq olarmı?

- Olar, olar, niyə olmur!

Bir belə, iki belə, nə isə təzə yazıçı tanışımın əsərini oxumaq mənə qismət olmadı.

Hərdən rast gələndə, kinayə ilə mənə işarə vururdu:

- A filankəs, deyəsən, havalar düzəlmədi?

- Darıxma, düzələr, ümidsiz şeytandır!

- Yox, deyəsən, düzəlmədi.

Görürdüm ki, tanışım yazıçılıq hissi ilə olmasa da, aşpazlıq təcrübəsi ilə işinin aqibətini hiss etmişdir:

- Yəni deyirsən düzəlməyəcək?

- Yox, düzələnə oxşamır, səndən naxoş, iştahım qaçıb!

- Qaçmaz, inşallah, aşpazlığa baxma, yazıçılıq hövsələ istəyir. Səbr elə!

- Haçanacan? Yazıq povest dəmdə qaldı, dəmdən də düşdü, soyudu da!

- Yaxşı əsər soyumaz, dözümün olsun!

- Deyirsən də!..

1969.

# MÖHÜR

Möhür ya əyar yaxşı şeydir. Bir sənədin həqiqətini bilmək üçün möhürünə baxırlar. Bir matahın əslini bilmək üçün əyarını yoxlayırlar. Üstündə əyarı olmayan qızılı heç kəs qızıl saymaz. Onu ustasına, zərgərinə baxdırmamış heç kəs qızıl olmasına inanmaz.

Adam adamdır, hər kəs bilir ki, adamla necə rəftar etmək lazımdır.

Doğrudur, adamın aldatmaq dərəcəsini, ləyaqətini yoxlamaq üçün nə möhür var, nə əyar, nə də qeyri-zahiri bir əlamət var. Adamın adamlığı möhürdə yox, özündə, yaşda yox, başda, zahirdə yox, batində!

Çox zaman belə bir əlamət axtarmağa da ehtiyac yoxdur. Amma bəzi yerlərdə, bəzi vaxtlarda və bəzi adamlara rast gələndə görürsən ki, adamın da möhürünə, əyarına baxılır.

Doğrudur, heç kəsin əl-ayağına ya alnına möhür vurmur, dərisinə əyar yapışdırmırlar, amma möhürü əvəz eləyən əlamət də olmamış deyil. İnsanı yoxlamaq üçün nə rənginə, nə sifətinə, nə boy-buxununa baxırlar. Bircə sənədinə, cibindəki dəftər-kağızına baxırlar: pasportu, vəsiqəsi, şəhadətnaməsi, diplomu!

Xüsusilə diplom indiki zəmanədə yaman dəb düşüb. Nə pul, nə libas, nə yaraşıq o qədər lazım olmur, nəinki diplom!

Diplom var daşdan keçir, bəzi idarə müdirləri nə savada, nə hünərə, nə mərifətə baxırlar. Onlarınkı diplomdur. Möhürlü, imzalı diplom! Əgər varsa, işin düzələcək, yoxsa, qalan şeylər əfvayıdır!

Adamların məzmun və mahiyyətini yoxlamaq üçün bundan asan, bundan aşkar, bundan yüngül yol yoxdur! Qapı ağzında dayanan bir qulluqçuya tapşırırlar. O da gələnlərin hamısının sənədinə, vəsiqəsinə, diplomuna baxır, sanbalını yoxlayıb buraxır.

- Keç!





Bu üsul çox dəb düşmüşdü, çoxlarının da işi lap yüngülləşmişdi.

Hər şeyin bir çürüyü çıxdığı kimi, bu üsulun da çürüyü çıxdı. Bir də görürsən cibində möhürlü, imzalı diplomu, amma söz soruşursan, görürsən lap savadsız!

- Haranı qurtarmısınız?
- Budur diplomum, al bax!
- Özünüz deyin!
- Filanı, filanı!
- İki dəfə iki neçə eləyər?
- Altı?
- Göydə ulduz neçədir?
- Göydə ulduz aladı, arvad başa bəladı!..
- Ay sağ ol! Verin o diplomun üzünü çıxardaq, sizin şəxsi işinizə tikək.
- Burada dur, bu saat gəlirəm.

Hərif götürüldü nə götürüldü! Daha izi-tozu da görünmədi. Bir neçə belə əhvalatdan sonra çox diplomlara da etibar azaldı.

Başladılar adamı nə möhür, nə əyar, nə sənəd, nə diplomla, ancaq adamlıqla, işlə, məzmunla, keyfiyyətlə tanımağa. Cəmiyyət, təşkilat, kollektiv arasında hörmətin, izzətin oldu, adamsan, olmadı, sənin eybini nə diplom, nə vəsiqə, nə sənəd örtər! Həqiqət budur. Çalış adamlıq, zəhmətkeşlik, yaratmaq məharətin, hörmətin olsun. Yoxsa səni heç yerdə, heç zaman, hec kəs layiqli mütəxəssis, adam yerinə qoymaz!

Möhürlə metalı tanıyarlar. Adamı işlə, əməllə, etibarla tanıyar, sayarlar!

El içində etibarın olmadı, heç! Heç bəndənin etibarı itməsin.

Bu elə bir itkidir ki, ömür boyu axtarsan, tapa bilməzsən!

- Filankəs...
- Adə, o fırıldaqçını deyirsən? Qoysana rədd olsun! Onu tövləyə

qoymurlar ki, qulan-quşqun oğurlayar.

- Diplomu, vəsiqəsi!

- Uşaq olma! Görəsən, harada nə kələklə ələ keçirib. Elə diplomlara bir quruş verən olmaz. Fırıldaqçının eybini diplom yox, torpaq örtər!

Adamın gərək özündə sanbal olsun. Payız yarpağını külək vurar belədən-belə, elədən-elə! Xəzələ xəzəl deyiblər, qızıla qızıl! Xəzəl yüngül olur, hər dəqiqə suyun üzünə çıxır. Qızıl ağır olur, dibə yatır. Atalar deyib «Ağır otur, batman gəl!..»

1970.



## KƏND «UŞAQLARI»

Mərhum kommunist Ağamirzə Əhmədovun əziz xatirəsinə

Kəndin geniş, sərbəst mühiti, azad, əngin-zəngin təbiəti, şimşək çaxması, çayların şaqqıltı ilə axması, quşların cəh-cəhi bir aləm, şəhərin izdihamlı həyatı, asfaltlı küçələri, bir-birini çağıran maşın səsi başqa bir aləm!

Kənddən ilk dəfə gətirilən «uşaqlar» bir müddət burada qəriblik, biganəlik duyub heyrətlə ətrafa baxır, ora-bura boylanır, uca daş hasarları aşmağa qol-qanad atırlar...

Mərhum Ağamirzə Əhmədovun nə səy və zəhmətlə gətirdiyi bu «uşaqlar» ilk illərdə çətinlik, sıxıntı, alışmadıqları sudan, torpaqdan korluq çəkdilər, amma sonra təzə yerə alışdılar.

Sərin şollar suyunu dadandan, qızmar Bakı günəşinin kəsərli şüalarını əməndən, daş-divara qol-qanad atıb yüksəklərə dırmaşandan sonra özlərinə yer elədilər.

Şəhərin elə sıx küçəsi, abad məhləsi yoxdur ki, orada bu «kənd uşaqlarını» gümrah görməyəsən.

Bilmirəm, sizin yolunuz Neftçilər prospektinə, gəmi vağzalına düşüb, ya yox. Vağzalın balkonu, qapı-pəncərələri yamyaşıl meynə yarpağı ilə örtülmüşdür. May, iyun ayları belədir. Avqust, sentyabr aylarında isə başınızı qaldırıb çardağa baxsanız, səmanı görə bilməzsiniz. Pəncəsini geniş açmış meynə yarpaqları arasında parlaq kəhrəba boyunbağı kimi döş-döşə yatan kişmiş salxımları sizi valeh edəcəkdir. Gurultulu şəhərdə, sənaye tikintisində, addımbaşı izdiham, cərəyan, məftil keçən bu yerlərdə pudlarla üzüm salxımları olarmış!

Qaralı-ağlı bu əlvan salxımlara tamahı düşməyən adam olmur. Ancaq bu yaraşıqlı, səliqəli tamaşa çardağa bir dənə də haram əl uzanmır. Mavi Xəzərin sahilində qonaqların zövqünü, marağını oxşayan, ləyaqətlə oxşayan bu mənzərəyə toxunmaq günahdır, qəbahətdir.

Belə yerlərdə əlvan sərgilər düzəldir, vətənin nemətlərini yorulmadan nümayiş etdirirlər. Şərqdən, qərbdən Bakıya gələn xarici qonaqların çoxu neftə baxmağa, balıq ovu, kürü bərniləri, təyyarə benzini, maşın yağları ilə maraqlanırlar. Təbiət, səbziyyat, meyvə, üzüm, əncirdən söz düşəndə arxaya dönür, Təbrizi, Səmərqəndi, Şirazı arzulayırlar. Bakı sahillərində, həm də böyük bir vağzalın bina boyu çardağında məskən salan kişmiş salxımlarının qoyun-quzu kimi baş-başa yatdıqlarını, elektrik işığında kəhrəba kimi bərq vurduqlarını görəndə tamaşadan doymur, bəhriyyələrin üzünə sual nəzərləri ilə baxıb gülümsəyir, gülümsəyib baxırlar:

- Cənablar, nə gözəl mənzərə!

Bəhriyyəlilər üçün bu suallar gözlənilməz deyil, təbii və xoşdur. Onlar əl atıb kişmiş salxımlarından bir neçəsini üzür, boşqabda qonağa təqdim edib danışırlar:

- Cənab səyyah, bu meyvələri özümüz becərib bəsləyirik. Bakı şanısı dünyada adnandır. Qızmar günəş altında, dəniz havasında bəslənən bu üzümün giləsinə diş vurdunmu, şaqqıldayıb şirəsini qana buraxır. Bu üzümün müalicə qüdrətinə bütün həkimlər bələddir. Bir xasiyyəti də var ki, onu kənara aparmaq, əmtəəyə çevirmək olmur. Vətən məhsuludur, vətəndaşların özünündür, öz neməti, öz qisməti.

- Bunu haçan yığırlar?

- Payızın ilk ayında.

- Sifariş vermək olarmı?

- Bu üzüm satılmır, əziz qonaqlarımız isə buradaca yeyə bilərlər.

Bizim qocaman dənizçi üzünü pəncərəyə tutub səslədi:

- Zeynal əmi, Zeynal əmi?

İçəridən səs gəldi. Bəhriyyəli xahiş elədi:

- Zeynal əmi, qonaqlar sizin üzümlərə baxırlar. Zəhmət çəkin, sorğularına cavab verin.

Zeynal əmi dənizçi libasında, səliqə ilə geyinmiş, yaxası düyməli,



paqonlu pencəkdə görünür, irəli çıxıb qonaqlarla görüşür, boyaboy platformanı örtən meynənin hər budağındakı salxımlara iftixar hissilə baxır, əməyinin bəhrəsini görüb sevinən səxavətli bağbanlar kimi turistlərin qabağına düşüb izah edirdi. Yalnız dəniz vağzalının, tikintinin, gəmilərin yox, həm də, diqqət, qayğı, zövq, səliqə ilə beçərilmiş gümrah meynələrin, bərəkətli üzüm bəhərinin keçmişindən, indisindən, gələcəyindən danışır, danışdıqca fərəhlənib vəcdə gəlirdi:

- Biz, - deyirdi, - dənizçi olsaq da, Bakı mühitində, bağlarında böyümüşük. Bu torpağın şanı üzümünə, sabahi əncirinə, bidanə tutuna səyyahlar, həkimlər, loğmanlar əhsən deyib.

Bakı meyvəsinin şirəsi dərmandır, müalicədir. Bakı günəşi, iyul, avqustun otuz beş-qırx dərəcədə torpağa şaquli tökülən şüaları bu meyvələri təbii ilahi laboratoriyalarda qüdrət əlləri ilə hazırlayıb budaqlara verir.

Buranın tutunda, üzümündə, əncirində böyük hikmət var! Ayrı bir hikmət var, bəli!

İndi bizim sovet biologiya alımləri bu hikməti öyrənməyə başlamışlar. Sovet hökuməti havanın, suyun, günəşin bütün potensial qüvvələrinin insana xidmətə cəlb edilməsinə hər şərait yaratmışdır. Yer üzündə yeni aləm, kommunizm həyatı quran insanın qüdrətli əlində bu mümkündür, özü də lap tez. İçərisində olduğumuz beşillikdə mümkündür

Bizim əlimizdəki maddi-texniki əsas, bəşəriyyətin xidmətinə səfərbər olan elm, müsəlləh məhsuldar əmək buna qadirdir.

Abşeron sahillərində bağların, yaylaqların, istirahət evlərinin, sanatoriyaların, uşaq düşərgələrinin, müalicəxanaların sayını qat-qat artırmaq, hər kənddə meyvə bolluğu yaratmaq üçün bütün tədbirləri görməyə, hər qarış torpağın insanlara xidmətini təminə diqqət yetirməyə başlamışlar.

1971.

## ŞAFTALI SÖHBƏTİ

Bəzi mütəxəssislərimizi qəribə bir azar tutub. Soruşursan: «Filan kitab necədir?» Deyir: «Əladır». Soruşursan: «Nəyə görə əladır?»— «Polşada çap olunub».

Soruşursan: «Filan nəğmə necədir?» Deyir: «Əla!»- «Nəyə görə?» «Avstraliyada, Bolqarıstanda oxunur», - «Filan rəsm necədir?»-- «Əla, çünki Marseldə göstərilir».

Əvvəl bu azar tək-tək adamlarda görünürdü. İndi yavaş-yavaş çoxlarına sirayət eləyib.

Dünən bir aqronomun redaksiyamıza gətirdiyi məqaləsini oxumuşam. Yazır ki, hulu, şaftalının bir «sortudur» ki, 19-cu əsrin axırında Amerikada «tapılıb». 1897-ci ildə oradan Rusiyaya gətirilib, dəmiryolla Qafqaza, Azərbaycana gəlib çıxıb.

Sonra da aqronom yoldaşımız bu şaftalıların cinsindən, rəngindən, dadından yazır və sübuta yetirməyə cəhd edir ki, bu şaftalını «tapan» Amerika alimi bütün alimlərin, xüsusən Azərbaycan alimlərinin boynuna böyük haqq qoyub, onu heç vaxt unutmaq olmaz. Aqronom, yazısının axırında belə bir qüssəli nəticə çıxarır: «Təəssüf ki, bizim qədirşünas camaat həmin böyük nəbatat, meyvəcat aliminin haqq-sayını lazımınca yad edib, onu kitablarda, qəzetlərdə, radiolarda və mitinqlərdə, səhər, günorta, axşam tərifləmir. Hulunu yeyirik, onu ərsəyə gətirəni, onun dahi ixtiraçısını yadımıza da salmırıq. Gör biz nə qədər zamanadan geridə qalmışıq. Tərəqqidən uzaq olmuşuq».

«Hörmətli aqronomun» məqaləsini oxuyandan sonra məni fikir götürdü. Yazı sahibinin «elm dəryası», «əsl əhli-qələm» olmasına zərrə qədər şəkkim olmasa da, ona bir neçə sual verməyi özümə borc bildim:





- Hörmətli aqronomdan soruşmaq istəyirəm ki, şaftalı növləri Amerikada çoxdur, ya məsələn, Ordubadda, Gəncədə, Qubada, Batumda, Qoridə, sair Qafqaz şəhərlərinin bağlarında? Soruşmaq istəyirəm ki, şaftalı, ya hulunun sortu, rəngi, dadı onun məqaləsində yazılan, daha doğrusu, tərcümə olunan kimidir, ya ayrı cür olur?

Bir də onu demək istəyirəm ki, müəllif dostumuz şaftalını şaftalı ağacından, əsl mənbəyindən yox, Avropa dillərində hecaləyib oxuduğu kitablardan tanıyır.

İkinci, demək istəyirəm ki, müəllif şaftalını vətəndaşlara sevdirmək, bu meyvəyə iştaha oyatmaq, bağbanlar, bağlar içində yaymaq üçün yox, onu calaq eləyən adamı tanıtmaq üçün yazır.

Üçüncü, nəbatat mütəxəssislərinə, şagird, tələbə, aspirant ya oxuculara xidmət üçün yox, mərkəzi institutda çalışan arqonomlardan gələcək yazı işlərinə yaxşı rəy almaq üçün yazıb.

Dördüncü, beşinci və habelə...

Bu müəllif bilmir ki, Amerikadan buraya hər şey gəlsə də, şaftalı ya hulu gəlməz. Ordan yumurta tozu, kokteyl-mokteyl gələr, saqqız-maqqız, rezin corab, müşəmbə gələr, amma nə şaftalı, nə əncir, nə şanı, nə Şamxor qarpızı, nə Corat qovunu, nə Bedana tut, nə Quba alması, nə Şirvanın şirin narı, nə Lənkəran pomidoru, nə də Hövsan soğanı gələr.

Bizim bu aqronom, bitkilər, meyvələr, təbii nemətlər barəsində kənd camaatının yanında beş-altı il təcrübə keçsəydi, heç belə-belə məqalələri yazmazdı, ya da ayrı cür yazardı. Biz görmüşük ki, əsəri fəhlə, kəndli, zəhmət adamları üçün yazarlar. Qədim Yunanıstanda şəkli çəkib divardan asırdılar, xəlvətdə dayanıb qulaq asırdılar ki, görək camaat nə fikir deyəcək.

İndi bəzi müəlliflər əsəri yazıb tərcüməyə verirlər, heç oxuyanı gözləmirlər.

Bir də, mənə məlum deyil ki, bəzi institutlarımız niyə həmişə, hər



məsləhəti ancaq o yan-bu yandan alırlar. Çox təəccüblüdür ki, ənciri öyrənmək üçün Bilgəh bağlarını qoyub qaçırlar Kaliforniyaya. Arıçılığı öyrənmək üçün Meksikaya gedən bir tələbədən Qabaqtəpə balını, Dəstəfurdakı arıların xasiyyətnaməsini soruşublar. Tələbə kəndə qayıdıb, buradan neçə şan bal, neçə qutu arı aparmalı olub, çünki burada həmin işin təcrübəsini öyrənməmişdi, qədrini bilməmişdi, kənara gözübağlı getmişdi. Hörmətli aqronom dostumuz bəlkə macal tapıb qələm sahiblərinin yazılarını, bəlkə də bu yazını oxudu. Oxusa, elə güman eləməsin ki, biz kənara, üfüqlərə, gələcəyə baxmağın, qonşulardan, hətta yadlardan öyrənməyin ziddinəyik. Biz bircə şeyin, öz yurduna, öz varına, öz varlığına firəng eyvanından baxmağın, özü də kəc baxmağın ziddinəyik. Biz istəyirik ki, aqronom olsun, həkim olsun, müəllim, artist, mühəndis olsun. Hər kəs qabaqca yaşadığı yeri, o yerin, o yurdun nemətlərini, məziyyətlərini diqqətlə, məhəbbətlə öyrənsin. Öyrənəndən sonra cəsarətlə təbliğ etsin, tanıtsın, başqalarına sevdirsin...





## MƏSUL İŞÇİNİN DƏFTƏRİNDƏN

Məsul vəzifədə çalışmaq hər zaman, hər adama müyəssər olmur. Uzun təhsil, təcrübə, yoxlama keçəndən, isti-soyuq görəndən, bərkəboşa düşüb-çıxandan, tanınandan, hörmət, etibar qazanandan sonra bu mərtəbəyə çatırsan...

Neçə il əvvəl böyük bir vilayətin icraiyyə komitəsində çalışırdım. Özü də ağır vaxt idi. Vətən müharibəsi illəri. Günümüz, gecəmiz yox idi, səhər-axşam gözlənilməz mühüm tədbirlər keçirməli, yüzlərlə, minlərlə fəhlə, kəndli, xidmətçi qabağında, onların irəli gedənləri kimi işləməli olurduq, hər saat, hər gün yuxarılardan göstəriş, aşağılardan tələb alırdıq. Çalışırdıq ki, yuxarının, aşağının vəhdəti, məqsədəuyğunluğu əsasında ümumi iş, dövlət, xalq işi düzgün getsin.

Günümüzü səhərdən axşamacan camaat içində, fabrikdə, kolxozda, məktəbdə, iclasda, müşavirələrdə keçirirdik. Bəzən lap gecə, camaat yatandan sonra kabinetdə yığılmış qalaq-qalaq kağızları oxuyub dərkənar qoymalı olurdum.

Belə bir axşam, başıaşağı, stolüstü çırağın işığında oturub kağızları oxuyurdum. Bir də gördüm hay düşdü, qışqırıq qopdu. Qapıçıya tapşırılmışdı ki, bu zaman idarəyə, xüsusən kabinetə adam buraxmasın. Gördüm qapıçı bir kəndli qadınla dalaşır, qadın dartınaraq çığırır, özünü içəri salmaq istəyir:

- Yoldaş filankəs, yoldaş filankəs, şikayətim var!

Qapıçı mane olur:

- Ay arvad, qəbul yoxdur, buraxa bilmərəm səni, gündüz gələrsən.

Mən qapıçıya işarə elədim:

- Burax gəlsin.

Qadın ağır bir yük altından çıxmış kimi, təngnəfəs özünü içəri

saldı, bir az da uca səslə, cürətlə danışmağa başladı:

- Şikayətim var, yoldaş, mənim dadıma yetişin.

Qadın qoltuğunda iri bir boğça da gətirmişdi.

- Xala, - dedim, - şikayətinizi eşidərik. Ancaq o boğçanı qapıda qoyub gəlsəniz daha yaxşı olar, bura icraiyyə komitəsidir, mərifətlə gəlmək...

Bunu dediyimi gördüm, deyəsən, qadın elə fürsət axtarırmış:

- Ay qadan alım, mənə qanacaqsız demə. Boğçanı qoyub gələ bilmərəm, çünki bütün mətləb elə həmin boğçadadır.

Qadın bu sözləri elə ürəkdən, riqqət və hiddətlə deyirdi ki, məni maraq götürmüşdü. Yəqin, deyirdim, oğurluq şey tutulub, ya evi qarət olunub, ya nədir?

O zaman bizim kənar rayonlarımızda sərhədçilər qonşu ölkələrdən keçən cürbəcür arzuolunmaz, çağırılmamış «qonaqlar» tutub gətirirdilər. Mən özlüyümdə belə gümanda ikən qadın sözünü təkrar etdi:

- Bütün mətləb həmin boğçadadır...

O sanki məni inandırmaq üçün qoltuğundakını stolun üstünə atdı:

- Buyurun baxın, mən balamın qanını sizdən istəyirəm.

Şura hökumətinin böyüyündən istəyirəm...

O, boğçanı açar-açmaz dəhşətli bir mənzərə yarandı. Qanlı köynək-tumanı, pambıqları, sarıqları, dəsmalları görəndə mən dayana bilmədim:

- Əyləş, xala, özünə toxtaq ver, danış görüm nə məsələdir?

Bəzən bahar buludu kimi bir anda dolub-boşalan, bağlanıb-açılan insan xarakterlərini çox görmüşəm. Dinclik, müharibə, gərginlik, arxayınlıq, əsəbilik, intizar, təklik, izdiham şəraitində də görüb müşahidə eləmişəm. Qətiyyətlə deyə bilərəm ki, bu şikayətçi qadın qədər xatirimdə möhkəm iz buraxan ikinci bir hadisə güman etmirəm. Bayaqdan gözlərindən qığılcım yağan, simasında hər şeyi





parçalamağa hazır pələng qəzəbi duyulan şikayətçi qadın, sanki mənim işarəmə bənd idi, tamam dəyişdi, yumşaldı. Deyəsən, köz üstünə su çilədilər. Qadın sakitcə oturub üzümə baxırdı, elə bil ürəyinin lap gizli guşəsində sirr kimi qalan, çıxmağa yol axtaran bir mətləbi demək istəyir, amma çətinlik çəkirdi.

- Danış görüm, xala, nə olub, nə baş verib, oğlun haradadır? Danış!..

Qadın iki əli ilə üzünü örtüb fəryad etdi, ağladı.

Sizi bilmirəm, mənim fikrimcə, dünyada ağlar sədalar qədər insanı sarsıdan heç nə yoxdur. Pərişan, gözüyaşlı, köməksiz bir qadının, oğul anasının fəryadı mənim bütün vücudumu sarsıtdı, ürəyim kövrəldi. Qəhərləndim. Qadına yanaşıb qolundan tutdum, qaldırdım, yaxına gətirib əyləşdirdim. Qapıçıya işarə elədim ki, su versin.

Handan-hana ana gözlərinin yaşını silib, sakit, rahat bir ahənglə dərdini danışdı.

Mən katibi çağırdım, deyilənləri nöqtəsinə qədər yazdırdım. Qadın gah mənə, gah katibə, gah stol üstünə sərilmiş qanlı paltarlara baxıb, iztirabdan üzülmüş, gücünü itirmiş, yorğun səsi ilə başına gələnlərin hamısını danışırdı. Danışdıqca, ürəyini boşaltdıqca yüngüllük duyurdu. Mən də bunu görüb təsəlli verirdim:

- Xalacan, darıxma, sənin şikayətinə diqqətlə baxılacaq, müqəssirlər cəzasına çatacaqlar. Heç şeydən çəkinmə, ehtiyat eləmə, sən indi hökumət idarəsindəsən, kimdən nə sözün, nə gileyin varsa, de qoy yazsınlar. Sovet qanunları vətəndaş hüququnun keşiyindədir.

Qadının şikayətindən məlum oldu ki, oğlu limonad zavodunda fəhlədir. Təzə kostyum alıb, köhnə kostyumunu satmaq istəyəndə, bazarda bir milis tutub ki, sən yəqin alverçisən. Düş qabağıma, inzibati məntəqəyə gedək. Oğlan getmək istəməyib, milis təkid eləyib. O deyib, bu deyib, sözləri çəp gəlib, dalaşıblar. Milis nəfəri

oğlanı döyüb yaralayıb, üstəlik ittihamla dama saldırıb. Anasını da hədələyib ki, oğlun alverçidir, məhkəmədə cavab verəcək.

Əhvalat Təzəkənd rayonunda baş vermişdi. Səhərisi rayon milis rəisini və rayon icraiyyə komitəsinin sədrini çağırtdırdıq. Hər ikisi hadisədən xəbərdar idi. Şikayətçi qadının dediyinə görə, xəbər tu tublar, ancaq milis xidmətçisinin xətrinə dəyməyib, tərəfini saxlayıblar.

Vilayət icraiyyə komitəsinin rəyasət heyətində təsərrüfat məsələlərinin müzakirəsindən sonra qadının şikayətini müzakirə etdik. Oğlanı həbsdən azad etdirdik. Rayon icraiyyə komitəsinin sədrinə və milis rəisinə şiddətli töhmət verdik. Fəhləni döyən milis nəfərini məhkəməyə cəlb etdik.

Qadın sakit, razı halda idarədən gedəndən sonra mən əsəbi, yorğun halda mənzilimdə dincəlirdim. Bakıdan zəng çaldılar.

Zəng vuran ictimai asayiş naziri Məhişov idi. O, sözünü salam-kalamla başlayandan sonra mətləbə keçdi:

- Camaata şiddətli töhmət verirsiniz, yoldaş filankəs.

- Camaata yox, müqəssirlərə veririk.

- Bir iş üçün bir neçə məsul işçini cəzalandırmaq necə olur?

- İşlə əlaqədar olanlar barəsində söhbət gedib.

Məhişov mənim danışıq ahəngimi görüb, dəstəyi yerinə qoydu. Bir neçə saat sonra Ali Sovetdən katibə zəng gəldi:

- Yoldaş filankəs, - dedi, - ayın doqquzunda, istirahət gününün səhəri Bakıda olarsınız, saat onda rəyasət heyəti iclasına siz də çağırılırsınız.

O saat bildim ki, milis rəisi şikayət eləyib, döyülənin işi müzakirə olunacaq.

Bəhanə gətirməyin mənası yox idi. Vacib işlərim olsa da, qadının şikayətini müdafiə etməyi üstün tutdum. Ayın doqquzunda saat səkkizdə Moskva-Tiflis qatarı ilə Bakıya gəldim.

Payızın küləkli və soyuq bir günü idi. Evdəkilərə də xəbər eləmişdim. Gözlənilməz səfərimdən heyrətləndilər, bir saat ərzində hazırlaşıb, özümü iclasa yetirməli idim.



Mənə məlum idi ki, icrakomun götürdüyü ölçüdən narazılıq var. Xüsusən, töhmət alan vəzifəli şəxslərin şikayətini haqlı sayan yoldaşlar da var. Elə olmasa, bu tezliklə məsələni bu mərtəbədə qoymaz, işin bu vaxtında məni çağırmazdılar. Müzakirəyə elə bir hazırlıq da görməmişdim. Ancaq şikayətçi qadının ərizəsini və istintaqın surətini götürmüşdüm.

Həmin illərdə Ali Sovetdə rəyasət heyətinin iclasları həm geniş, həm də gurultulu olurdu. Camaat çox, məsələlər də mürəkkəb idi. Bizim məsələyə çatanda sədrin səsi ucadan eşidildi:

- Mürşüd buradadırmı?

Mən ayağa qalxdım. Sədr oturmağıma işarə elədi, sözü nazirə verdi.

Nazir bizim mahalda olan əhvalatı, daha doğrusu, həmin əhvalat barəsindəki iclas və qərarı ətraflı danışdı, sonra şərh eləməyə başladı.

- Nə təhər olubsa, - dedi, - Mürşüd yoldaş bir qadının şikayəti ilə iki məsul işçiyə töhmət verib, istintaq altında olan dustağı buraxdırıb, bir yoldaş haqqında da məhkəmədə iş qaldırıb. Görünür, mahalda çalışan yoldaşların bekar vaxtına düşüb, inzibati idarənin vəzifəsini öz öhdələrinə götürməyə həvəsləniblər.

Nazirdən sonra rayon icraiyyə komitəsinin sədri odlu-odlu danışdı. Ətrafdakıları şahid çəkdi, töhmət alan yoldaşların ünvanına mədhlər yağdırdı. Daha bir yoldaş da çıxış etdi, ümumi danışdı. Lap axırda mənə söz verdilər.

Mən əhvalatı başdan, bir az da şikayətçi qadının ifadələri ilə danışdım, sovet qanunlarının vətəndaş hüququ haqqındakı tapşırığını, xəbərdarlığını söylədim. Qəbul elədiyimiz qərarı tamamilə müdafiə etdim. Doğru, düzgün, ədalətli olduğunu sübuta çalışdım. Əyləşdim. Vəziyyət daha da gərginləşdi. Mənim ünvanıma atmacalar deyir, sədrin sözünü gözləyirdilər.

Sədr, həmişəki kimi, yekun vurub, fikir demədi. Üzünü nazirə tutub familini çağırdı və axırına da bir «cənab» sözünü əlavə elədi:

- Cənab nazir, - dedi, - sizin məlumatınız tamam ayrı cür idi. Yoldaş Mürşüdün məlumatı yaxşı ki, məsələni aydın göstərdi.

Nazir də, rayon icraiyyə komitəsinin sədri də yerlərindən qımıldanıb nəsə demək istəyirdilər. Sədr səsinə kəsər verdi, daha da ucadan dedi:

- Mahalda bircə nəfər yoldaş zərərçəkən vətəndaşın harayına vaxtında çatıb, qanunu qoruyub. Siz ondan nə istəyirsiniz, balam? Mürşüd də, sizin kimi, şikayətçini qapıdan qovsa, bəlkə xoşunuza gələrdi?!.

Sədrin sözü hərifləri susdurdu. Sədr müzakirədə danışmaq istəyənləri dinləyəndən sonra hökmü özü verdi:

- Mən təklif edirəm: Mürşüd yoldaşın qərarı alqışlansın və təsdiq edilsin. Nazirin və icraiyyə komitəsi sədrinin bu məsələdə səhv hərəkəti qeyd olunsun və nəzərlərinə çatdırılsın. Həm də bütün rayon icrakomlarının nəzərinə çatdırılsın.

Hamı təklifi bəyəndi, etiraz eləyən olmadı.

Mən o müzakirədən çox məmnun çıxdım. Fürsət axtarırdım ki, şikayətçi qadını, oğul anasını bir də görüm, əhvalını soruşum, şikayətini çətin mərhələlərdən cəsarətlə keçirən, ədalət və həqiqət yolunda heç nədən, heç kimdən qorxmayan mərdanə anaya təşəkkürümü bildirim.



## ATAN GƏLSİN...

Müharibə qurtarandan sonrakı illərdə, zabitlik kurslarında təkmilləşdirməyə gedəndə yoldaşlarla çox görüşür, çox dilləşirdim. Moskvada, Qorki küçəsində bir ucaboy kapitan qabağımı kəsdi:

- Müəllim, xoş gördük! Necəsiniz, kefiniz necədir? Şükür, yaxşısınız, elə həmən-həmənsiniz, on beş il əvvəlki!

Mən cavan oğlanın üzünə baxa-baxa qaldım. Əhvallaşmasına mülayim cavab verirdim, həm də fikirləşirdim: «Harda görmüşəm bu igidi, ilahi!»

- Deyəsən, məni tanımadınız, müəllim?

- Hardansa mənə tanış gəlirsiniz, amma yadıma sala bilmirəm, keçən gündür, tələbəm olmamısınız?

- Necə tələbə, sizi çox incitmişəm, bağışlayın!

- Yadıma gəlir, orta məktəbdə.

- Mənə neçə il dərs demisiniz, dəcəl Rüstəmi tanımırsınız?

Dəcəl Rüstəm deyəndə məktəb gözümün qabağına gəldi, müəllim otağının qabağında Rüstəmi danladığım elə bil dünən idi.

- Ay Rüstəm, maşallah, marşala oxşayırsan, necə tanıyım? Daha səndə uşaqlıqdan, dəcəllikdən əsər-əlamət qalıb ki, tanıyam?! Xalis komandir, döyüşçü!

Rüstəm başladı döyüş günlərindən, cəbhə epizodlarından danışmağa. Mən də onun əziz, qayğısız məktəb günlərini yadıma saldım. Özümün də gəncliyim, komsomol vaxtlarım dilə gəldi...

Bu həmin Rüstəmdi ki, nadinclik üstündə tez-tez məsələsini qoyur, atasını çağırtdırırdım. Çox zaman da atam xəstədir deyib, ayrı qohumlarını gətirirdi. Bir dəfə küçədən hambalı tutub bir manat vermiş, «dayımdır» deyib məktəbə gətirmişdi.

Mən də inanmışam, ağzıma gələni kişiyə deyirəm:



- Canım, bu bacıoğlunuza bir nəsihət versəniz! Yoldaşlarına tənəffüsdə bir-bir badalaq vurub üzü üstə yıxır, dalınca baxıb gülür. Uşaqlar ağlayır, bu da arsız-arsız gülür...

«Dayı» sağ olmuş da, deyəsən, Rüstəmdən yanıqlı imiş, uşağın sirrini açdı:

- Müəllim, - dedi, - mən bunun dayısı, qohumu-zadı da deyiləm. Məni küçədən tutub yalvardı, bir manat pul vəd elədi, məktəbə xahişə çağırdı. Manat da lazım deyil. Yazığım gəldi, mən xahiş eləyirəm, bu uşağın günahından keçəsiniz. Bir də belə qələt eləməz!

Kişi qəzəblə üzünü Rüstəmə tutdu:

- Bir manat sənin olsun. Mən məktəbi də, müəllimi də tanıyıram. Səndən bir də dəcəllik eşitsəm, özüm gedib sənin atanı buraya gətirəcəyəm, sənin qulaqlarını dibindən çəkib çıxaracağam. Bəsdir müəllimləri incitdiyin, şələ-küləni dalına verib elə qovarlar, bir də məktəb üzü görməzsən, bəsdir!

Müəllimlər də güldülər, uşağı danladılar:

- Rüstəm, müəllimi aldatmaq da təzə bir günah! Necəsən, səni direktorun yanına aparım, məktəbdən təmiz qovlatdırım? Bizim də, sənin də yaxan qurtarsın!

Hamballa köməkləşib Rüstəmə o ki var abır verdik. Gözünün yaşını tökdü, tövbə dedi.

O oldu, daha Rüstəm şuluqluqdan əl çəkdi. Sağ olsun, dediyinə əməl elədi.

Günün birində eşitdim ki, Rüstəmi hərbi məktəbə aparıblar. On beş ilin söhbətidir.

Bir də indi, vətənimizin mərkəzində qəşəng bir igid libasında döşü ordenlərlə dolu görürəm!

Görürəm, sevinirəm ki, dəcəl Rüstəm indi vətən qəhrəmanı, düşmənlərin qənimi kimi el içində tanınıb, oxuduğu məktəbin də, müəllimin də başını uca eləyib!

Rüstəm əl çəkmədi, məni mehmanxanaya, öz otağına apardı, cəbhə xatirələrini danışdı, albomlardakı şəkillərini göstərdi, başına gələnlərin çoxunu şirin bir əhvalat kimi danışdı, yazıya salmağımı xahiş elədi.

- Yazıya salaram, ancaq hambalı da unutmayacağam, o sənin üçün bir ibrət oldu, eləmi?

- Haqqın var, müəllim, - dedi, - sizin o günkü məzəmmətiniz mənə böyük dərs oldu. Sizdən də, o kişidən də utandım, tutduğum işin peşmançılığı indi də xatirimdən çıxmır, uşaqlıqda insan bəzən çaşır, elə səfeh işlərə də rast gəlir.

- Rüstəm, sağ olsun o hambal kişini. Sənin də, məktəbin, ailənin də hörmətini saxladı. Sənin yalanını açmasaydı, qızartmasaydı, doğru yol tutmazdın!

- Doğrudur, müəllim, o, yaxşı kişiydi!





## DƏRSİMİ YAZ!..

Mən bir uşaq tanıyıram, hörmətli bir ailədəndir. Atası, anası onu çox sevir, əzizləyir, bir sözünü iki eləmir. İstədiyini alır, istədiyi yerə göndərir, handa bir qəşəng, bahalı libas geyindirir, addımbaşı sağına-soluna keçir, kefini soruşurlar:

- Necəsən, bala, indi ürəyin nə istəyir?

Əslinə baxsan, haqqı demək lazımdır, işlərin çoxunu ata-anadan qabaq bacılar eləyir.

Bacı insan üçün böyük nemətdir, illah da ki, bir qardaş olasan!

Bir dəstə bacı, tək bir qardaş. Tofiqin işi lap belə idi. Əvvəldən ailədə oğlan uşağı olmamışdı. Dalbadal bacılar doğulub böyümüşdü: Lalə, Bənövşə, Yasəmən, Zanbaq, Xətmi!

Axırda dəstə bacılar içində Tofiq boy atanda hər kəs onun başına sadağa deyir, hər gün bir bacının qucağından yerə düşürdü. Atakişinin ailəsində Tofiqə doğrudan da bir əlamət, bir xoşbəxtlik kimi baxırdılar.

Qızların hərəsi bir məktəbə, sənətə, bir peşəyə getmiş, iş sahibi olmaq qəsdi ilə çalışmışdılar. Tofiqi isə anası yanından kənara buraxmırdı: «Bayıra çıxma, soyuq dəyər», «tərpəşmə, quyuya düşərsən», «orada oturma, buraya keç...»

Məktəb vaxtı gələndə də hamı Tofiqi qayğı ilə əhatə edirdi. Qızlar yer-yerdən səs-səsə verib qardaşları haqqında düşünürdülər. Biri yaraşıqlı portfel alır, biri məktəb forması, üçüncüsü saat, dördüncüsü qələm, beşincisi boğazlı çəkmə.

Birinci gün məktəbə yola salanda da bacılar bir-birinə macal vermirdilər. Müəllimlə xüsusi danışırdılar:

- Müəllimə, bu bizdə tək uşaqdır, ana uşağıdır. Bunu pəncərə qabağında, dal cərgədə, ayaq altında oturtmayın! Yoxsa, xətrinə dəyər, anası bizi evə qoymaz!

Qızların qayğısından, hay-küyündən Tofiq özü də şübhəyə düşürdü. Aşkar görürdü ki, beş bacının bir qardaşı zarafat deyil, hər kəsə belə səadət qismət olmaz. Bacılar Tofiqin qulluğunda dayanmaqda bir-birinə macal vermirdilər: biri paltarını ütüləyir, biri kotlet qızardır, biri ayaqqabılarını gətirirdi...

Dərs hazırlamağa gələndə də Tofiq özünü xoşbəxt gördü: hesabını bir bacı, yazısını başqası, coğrafiyasını o birisi hazırlayıb dərsə yola salırdı. Uşaq elə öyrənmişdi ki, müəllimin dediyi tapşırıqları bacılarına təhvil verib, səhər də hamısını hazır istəyirdi. Bəzən də hökmünü dürüst yerinə yetirməyəndə hirslənir, qışqırırdı:

- Ay qız, Lalə, götür mənim dərslərimi yaz!

- Bənövşə, sən də məsələləri hazırla!

- Yasəmən də el misalı toplasın, niyə durmusunuz, tez olun!

Tofiqin anası hər kəsdən əvvəl qızları danlayırdı:

- Ay həyasızlar, aman-zaman bir qardaşdır, onun ürəyini niyə qırırsınız, götürüb dərsləri hazırlasanız! Di tez olun, gedin qardaşınızın dərslərini hazırlayın!

Qızlar, doğrudur, bilirdilər ki, bu dərslər Tofiqə verilib, ondan soruşulacaq, onun özü hazırlamalıdır. Ancaq qardaşlarının xətrinə, analarının xahişinə bu işlərə boyun əyirdilər. Aşağı siniflərdə Tofiqin dərslərdən kütlüyünü, tənbəlliyini biləndən sonra anasına xəbər verdilər, məsuliyyəti boyunlarından atdılar.

Bir il də üçüncü sinifdə qalandan sonra Tofiq bacılarını məzəmmət edib, məktəbi atdı.

Anası, bacıları təkrar Tofiqi məktəbə cəlb etməyə çalışsalar da, fayda vermədi. Uşaq oyundan əl çəkmədi. Axırda Tofiq birtəhər montyorluq öyrəndi, evlərdə pozulan işıq xətlərini düzəldir, xırda qazancı ilə restoranlarda yeyib-içir, gününü keçirirdi. Bacıları bundan pərişan olsalar da, analarına bildirmək istəmir, qardaşlarının cibinə pul qoyurdular. Tofiq lap sonradan anlamışdı ki, bacılarının istəyi, qayğısı onu əməkdən, peşədən, sənətdən məhrum eləmişdir.





Atalar yaxşı deyib: məhəbbətdən mərəz hasil olur. Oha var dağa qaldırar, oha var dağdan endirər! Axırda bacılar bir yerə yığışıb, iyirmi səkkiz yaşlı qardaşlarına bir sənət seçmək istədilər:

- A canım, bu gədə avara qalacaq, məktəbdən, peşədən kənarda adam olarmı? Nə zəmanədir, indi dünənki hambal isbatlı peşə. sənət sahibi olur, bu bığıburma oğlana nə olub ki, avara gəzə, görən bizə nə deyər, eyib deyilmi?

Tofiq indi montyorluq kursuna daxil olub, biliyini artırmağa cəhd edir.

- Gec olsa da, yaxşıdır. Uğur olsun!

# MÖHÜR VƏ MƏHƏBBƏT

Bəri başdan deyim ki, hörmətli oxucular bu söhbəti Şərq ədəbiyyatında görüb oxuduqları mehr və məhəbbətlə qarışıq salmasınlar. Çünki o yazılarda lirika, burada isə yumor, orada səmimiyyət, burada isə məharət, orada birlik, burada isə ayrılıq... təsvir olunur. Xülasə, təfavüt çoxdur və qabarıqdır.

Möhür və məhəbbət deyəndə, biz iki kənar mətləbin gözlənilmədən yanaşdığını, birləşdiyini demək istəyirik. Məlumdur ki, evlənmək, ailə qurmaq, şirin sevgi aləmində ömür keçirmək hamı və hər kəs üçün arzu-kamdır. Çoxlarının həyat mənasıdır. Bu xoşbəxtlik, doğrudur, ümumi arzudur, ancaq, təəssüf ki, hər adama qismət, müyəssər olmur. Bəxtin, taleyin gətirməyindən asılıdır, birininki gətirir, birininki gətirmir. Şair yaxşı deyib:

Birisi kök, deyərsən, pərvəridir,
Birisi bir sümükdür, bir dəridir.
Birisinin yağar dövlət başından,
Birisi görməyib bir pul yaşından.

Uzağa getmək lazım deyil, budur, bizim yaxın qonşu, tanışımız Firavan xanımın oğlu İsmayıl neçə ildir əlləşir, ailə qurmaq istəyir. Pulu var, güzəranı da, imkanı da var. Amma qızı yola gətirə bilmir.

Məsələ o deyil ki, qız oğlanı, ya oğlan qızı sevməsin. Yox, cavanlar hər ikisi sevişib, görüşüb, dilləşib. Bütün qonşular gözləyirdilər ki, bunların toyu, xeyir işi bu gün-sabahdır. Hazırlıq, tədarük görürlər.

Günün birində, lap bu yaxın zamanlarda görəcəksən ki, poçtdan bəzəkli, zərli-zibalı dəvətnamə gəldi:





«Həyat yoldaşınla birlikdə Sizi Səadət sarayında toya dəvət edirik».

Mübarək olsun!

Amma yox, İsmayılın toyu ləngiyir, aydan-aya keçir, nəsə baş tutmur, nə isə maneçilik eliyən var. Uzun intizar oğlanın da, qızın da əl-qolunu bağlayıb. Görürsən, qonşular sevinclə biri-birindən soruşur, xeyir işi aramsız gözləyirlər. Amma nə İsmayıldan, nə qızdan, nə də Firavan xanımdan xəbər çıxır...

Firavan xanımdan soruşanda söz demir, başını bulayır.

- Ay Firavan xanım, haçandır toy? Çalıb-oynamaq istəyirik, cavanları niyə intizarda qoyursunuz, günahdır axı?

Firavan xanım əl-qolunu tovlayıb, başını bulayır, cavanların özündən şikayətlənir:

- Ay oğul, - deyir, - zəmanə dəyişib, indiki cavanların çoxu ipə-sapa gəlmir, həftədə bir hava çalır, bilmirsən, bunların dərdi nədir!

- Ay xanım, qoyun cavanların özündən soruşaq, bəlkə bir ehtiyacları var.

- Soruşun, bəyəm onlar adama açıq söz deyirlər.

- Necə demirlər?

- Demirlər, mızıldanıb ötürlər. Sən də yana-yana qalırsan!

Mənim İsmayılla həm zarafatım var, həm də aramız açıqdır, rast gələndə sözümü deyirəm:

- Ay İsmayıl, toy haçandır, intizar bizi yordu ki?

- Toya hələ çox var!

- Niyə çox var?

- Canım, bizim hələ evlənməkdən vacib işlərimiz var.

- Evlənmək də vacibdir!

- Qoy bir təhsilimizi başa vuraq, hələ görək nə olur.

- Təhsilə nə var, şükür məktəbi qurtarırsınız, qiymətləriniz də hamısı yaxşı!



- Qurtarmağına qurtarırıq. Ancaq iş qurtarmır, hələ görək nə olur! Örtülü süfrənin bir, açığın yüz eybi var!

Nə Firavan xanım, nə də İsmayıl mənə açıq söz demədi. Toy tədarükünü ləngitməyini mən birtəhər qızın özündən, Liradan öyrənə bildim.

Öyrəndim deyəndə, böyük düşməsin. Qızın, Liranın özündən yox, sinif yoldaşlarından öyrəndim. Güman gəlməyən qəribə bir səbəb iki cavanın xeyir işinə mane olur. Bu elə bir səbəbdir ki, əvvəl inanmağın gəlmir, cavanların nə maddi ehtiyacı, nə də mənzil tədarükü, nə pal-paltar kəsiri var. Nə də fiziki cəhətdən naqisliyi, müalicə ehtiyacı var.

Bunların arasında mübahisəli bir məsələ var. Təkcə bir məsələ:

- Nə məsələ?

- Diplom!

Diplom əhvalatı, əlbət ki, keçmişdə yox idi. Heç güman eləməzdin sevdiyin qız, ya oğlanın hansı təhsili, hansı diplomu var. Bunu heç soruşan olmazdı. Diplom nədi, adamın özünün iş bacarığı, mərifəti, məharəti, qanacağı yoxlanılırdı. İndi görürsən bəzən, bəzən yox, çox vaxt diplom soruşurlar:

- De görüm təhsilin nədir?

- Haranı qurtarmısan, nə diplomun var?

Bu söhbət təzə çıxıb. Əvvəl o dərzinin yanına gedərdin ki, əla kostyum tikir. O aşpazın dükanında nahar yeyərdin ki, dadlı xörək bişirir, o dəlləyə baş vurdurardın ki, əla ustadır.

Amma indi yox! İndi yoldaşlar mütəxəssisin yaxşı-pisini axtarmır, məhz adamı diplomlu ustanın yanına aparırlar. Kostyum necə yaraşıqsız olur-olsun, dərzi haqqında ağızdolusu, müsbət danışırlar:

- Bilirsən necə ustadır, əla diplomu var. Bu usta ali məktəb qurtarıb. Elmi şura qabağında diplom işi müdafiə eləyib!

İndi sevdiyi oğlan, İsmayıl qızdan tələb eləyir ki, get aspirant ol,

dissertasiya müdafiə elə, sonra gəl yanıma. Onsuz kəbin kəsdirmərəm, bil!

İş ağırlaşıb. Aspirant olmaq da asan deyil, indi qız bilmir neyləsin.

- Əşi, evlənəndən, toydan sonra aspirant olaram, nə vacib şeydir?

- Yox!

İsmayıl şərt qoyub:

- Mənə gəlmək istəyən qız gərək aspirant, ya da elmlər namizədi olsun!

Qəribədir, dünya nə yaman dəyişib! Əvvəl evlənən oğlan göyçək, həyalı, tərbiyəli qız axtarardı. İndi diplomlu qız axtarır. Əvvəl ailə oğlanın qazancı ilə dolanardı, indi qazancı, sənəti olmasa, kəbin kəsdirmirlər. Əvvəl qız ərə gedərdi, indi bəzi oğlanlar özünü yıxmağa qazanclı yer axtarırlar: «Belə düşünürlər: qızın maaşı ilə ev dolanar, özüm də kefdə gəzərəm».

Lira toy tədarükü haqqında bir də söhbət salanda, İsmayıldan həmin cavabı eşitdi:

- Qız, aspirant işinin dalınca niyə düşmürsən?!

- Nə bilirsən düşmürəm?

- Düşsən, indi sən ikinci kursda olardın.

- Kursun nə dəxli var?

- Çox dəxli var xeyir işimizə!

- Məncə, xeyir işin aspirantlığa dəxli yoxdur!

- Yox, var. Mən demişəm, aspirant olmasan, səninlə kəbin kəsdirmiyəcəyəm. Söz bir olar!

- Sən məhəbbət axtarırsan, ya diplom?

İsmayıl nişanlısından gözləmədiyi sözü eşidirdi. Bir az duruxandan, udqunandan sonra dedi:

- Hərəsinin öz yeri var!

- Görürəm ki, diplomun yeri çox möhkəmdir.



- Harda möhkəmdir?

- Sənin qəlbində.

- Elə isə, onu bilirsənsə, niyə tələsmirsən?!

- Bildiyim üçün tələsmirəm. Çünki məndə diploma bağlı məhəbbət yoxdur.

- Yoxdur, olsun! Kəbin üçün bunu eləmək gərək!

- Sənin aləmində belədir, mənim aləmimdə diploma bağlı məhəbbətin etibarı yoxdur! Bir qəpiyə dəyməz!

- Niyə yoxdur?

- Çünki ip qırıla bilər.

- Qırılar, yamayarıq.

- Yamaqlı məhəbbət mənə lazım deyil!

- Deyəsən, sən ağzına gələni danışırsan!

- Danışanda nə olar?

- Bəsdir, söz güləşdirmə, ay qız!

Lira İsmayıldan ayrılandan sonra cavanlar qəzetinin redaksiyasına getdi:

- Mən sizdə ədəbi işçi kimi çalışa bilərəmmi?

Onu hörmətlə qarşıladılar:

- Bizə savadlı ədəbi işçilər çox lazımdır, - İlqar bunu deyib, ağ kağızı Liranın qarşısına qoydu və dedi:

- Bir balaca ərizə yazın, redaktora verim...

O gündən Liranın əmri verildi. Mətbuat işində həm həvəsi, həm də təcrübəsi artmağa, ilk yazıları qəzet səhifələrində çap olunmağa başladı.

İsmayıl bir müddət Liranı axtardı, aspirantura əhvalatını yoxlamaq istədi, Lira isə nə aspiranturanı, nə də İsmayılı axtardı.

İsmayıl bir gün eşitdi ki, Səadət sarayında qızın toyudur. Lira redaksiyada bir oğlanla sevişib, vədələşib.

İsmayıl təşvişlə qızı axtardı, konsert axşamı bağçada tutdu:

- Lira, bəs mənə söz verməmişdin?
- Nə söz?
- Demirdin səni sevirəm?
- O vaxt mən sevirdim, sən diplom istədin. Bizimki tutmadı.
- Bir mənə deyərdin ki, baş tutmur!
- Deməyə nə ehtiyac, gördün ki, baş tutmadı!
- Bəs belə dönüklük olar?
- Oğlan dönəndən sonra qıza nə gəlib? Dönüklüyün iki başı var.
- Bəs belə oldu?
- Deyəsən, belə oldu. Diplomlu sevginin axırı diplomsuz üzülür.

1972

# MIR JALAL

AN ANTOLOGY

# MİR CƏLAL

SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇÜNCÜ KİTAB

TƏRTİB EDƏN VƏ REDAKTOR

Nargiz PAŞAYEVA
Təhsin MÜTƏLLİMOV

rəssam

Elçin CABAROV

nəşriyyat redaktoru

Həqiqət ELDAROVA
Taleh HƏMİD

texniki redaktor

Fərid KƏRİMOV

korrektor

Həlimə MEHDİYEVA
Cavid CABBAROĞLU

kompyuter yığımı

Eldəniz XOCAYEV
Süsən ZƏRBALIYEVA
Elgın ASLANOV
Aysel BAXŞİYEVA

kompyuter tərtibatı və dizayn

İdris ƏHMƏDOV
Vüqar NAĞIYEV

tərcümə

Anna TOMSON

çapçı

Vüqar ƏLİYEV
Əjdər FEYZULLAYEV

ÇAŞIOĞLU
MƏTBƏƏSİNDƏ ÇAP OLUNMUŞDUR

ISBN 978-9952-27-134-8

REGIONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ